AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əhmədova Naibə, Kərimov Zakir

Azərbaycan tarixi (1747 – 1917-ci illər)

ADPU-nun Elmi-Metodiki Şurasının 16 iyul 2025-ci il tarixli iclasının qərarına əsasən çap edilir (pr.№4)

Bakı – 2026

Elmi redaktor: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru, professor Cəfərov Cəfər Məmməd oğlu**

Müəlliflər: **Əhmədova Naibə Əhmədağa qızı**
ADPU, Azərbaycan tarixi kafedrasının müdiri t.ü.f.d., dosent
Kərimov Zakir Hafis oğlu
ADPU, Azərbaycan tarixi kafedrası, t.ü.f.d., dosent

Rəyçilər **Məmmədov Xəqani Məmməd oğlu**
ADPU, Azərbaycan tarixi kafedrası, t.e.d., professor
Seyidova Sevinc Məmməd qızı
ADPU, Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrası, t.e.d., dosent
Ağalarlı Mübariz Zahid oğlu
ADPU, Azərbaycan tarixi kafedrası, t.ü.f.d., dosent
Əziz Boran Orduxan oğlu
BDU, Azərbaycan tarixi kafedrası, (humanitar fakültələr üzrə), t.ü.f.d., dosent

Naibə Əhmədova, Zakir Kərimov. Azərbaycan tarixi (1747-1917-ci illər). Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, - 2026. 503 s.

Azərbaycan tarixi (1747-1917-ci illər) dərs vəsaiti xanlıqların yaranmasından başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına qədər olan dövrü əhatə edir. Dərs vəsaiti Azərbaycan tarixi üzrə elmi tədqiqat aparan elmi işçilər, doktorantlar, magistrantlar, ali məktəblərin tarix və coğrafiya fakültəsində təhsil alan tələbələr və Vətən tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

MÜNDƏRİCAT

GİRİŞ.....8
I FƏSİL.Azərbaycan xanlıqlarının yaranmasını şərtləndirən amillər. Cənub xanlıqları.....8
1.1.Xanlıqların yaranmasının sosial-iqtisadi və siyasi şərtləri.....8
1.2. Azərbaycanda siyasi pərakəndəlik.İlk xanlıqlar.....11
1.3.Quba xanlığı.....12
1.4. Lənkəran xanlığı.....19
1.5. Cənubi Azərbaycan xanlıqları. Urmiya xanlığı.....21
1.6. Xoy xanlığı.....24
1.7. Qaradağ xanlığı.....26
1.8. Maku xanlığı.....26
1.9. Sərab xanlığı.....26
1.10.Təbriz xanlığı.....26
1.11.Ərdəbil xanlığı.....27
1.12.Marağa xanlığı.....27
1.13.Mərənd xanlığı.....28
1.14. Zəncan xanlığı.....28
II FƏSİL. Azərbaycanın şimal xanlıqları.....29
2.1. Bakı xanlığı.....29
2.2. Şamaxı xanlığı.....31
2.3. Şəki xanlığı.....32
2.4. Qarabağ xanlığı.....41
2.5. İrəvan xanlığı.....53
2.6. Naxçıvan xanlığı.....55
2.7. Gəncə xanlığı.....56
III FƏSİL. Xanlıqların xarici siyasəti.....59
3.1. XVIII yüzilliyin sonlarında beynəlxalq vəziyyət.....59
3.2. Xanlıqların Qacarlar və Rusiya ilə münasibətləri.....62
3.3. Osmanlı-Rusiya münasibətləri və xanlıqlar.....65
3.4.Xanlıqların Kartli-Kaxetiya çarlığı (1762-1801) və Dağıstanla münasibətləri.....71
3.5. Çar Rusiyasının xarici siyasətində erməni faktoru.....80

IV FƏSİL. Xanlıqların sosial-iqtisadi həyatı və idarəetmə sistemi.....82
4.1. Xanlıqların sosial-iqtisadi həyatı.....82
4.2. İdarəetmə sistemi.....89
4.3. Car-Balakən camaatlığı.....90
4.4. Sultanlıqlar.....93
4.5. Məlikliklər.....99
V FƏSİL. XVIII əsr Azərbaycan mədəniyyəti.....104
5.1. Maarif.Elm.....104
5.2. Ədəbiyyat.....110
5.3. İncəsənət.....114
VI FƏSİL. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı. I Rusiya-Qacar müharibəsi 122
6.1.Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi və Azərbaycanın işğalına başlanması.....122
6.2. Birinci Rusiya-Qacar müharibəsi.....128
6.3. Hərbi əməliyyatlar. Gülüstan sülhü.....137
VII FƏSİL. II Rusiya – Qacar müharibəsi. Çarizmin köçürmə siyasəti.....144
7.1.Gülüstan müqaviləsinin uğursuzluğu və Rusiya-Qacar münasibətlərində gərginlik 144
7.2. İkinci Rusiya-Qacar müharibəsi.....146
7.3. Türkmənçay müqaviləsi.....149
7.4. Çar Rusiyasının köçürmə siyasəti.....153
VIII FƏSİL. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanın sosial-iqtisadi həyatı.....155
8.1. Çarizmin iqtisadi siyasəti.....155
8.2. Kənd təsərrüfatı.Aqrar münasibətlər.....161
8.3. Sənətkarlıq.Ticarət.Şəhərlər.....164
8.4. Əhalinin sosial strukturu.....174
IX FƏSİL. Komendant idarə sistemi. XIX yüzilliyin 40-ci illərinin islahatları.....178
9.1. Komendant idarə sistemi (1804-1840).....178

9.2. Müstəmləkə əleyhinə üsyanlar.....181
9.3. Komendant idarə üsulunun ləğvi.....198
9.4. 40-cı illərin islahatları.....193
9.5. Malcəhət.....196
X FƏSİL. XIX yüzilliyin birinci yarısında Azərbaycan mədəniyyəti.....198
10.1. Maarif. Elm.....198
10.2. Mətbuat. Ədəbiyyat.....201
10.3. Elm.....211
10.4. İncəsənət.....219
XI FƏSİL. Sənaye sahəsində kapitalist münasibətlərinin meydana çıxması və inkişafı.....225
11.1. Kapitalist münasibətlərinin yaranması.....226
11.2. Neft sənayesi, neft inhisarları.....229
11.3. Sənayenin başqa sahələri.....241
11.4. Nəqliyyat və rabitə.....251
11.5. Ticarət. Şəhərlər.....255
11.6. Kredit-bank sistemi.....260
XII FƏSİL. Kənd təsərrüfatında kapitalist münasibətlərinin yaranması və inkişafı.....263
12.1. Kənd təsərrüfatında kapitalist münasibətlərinin təşəkkülü....263
12.2. Torpaq sahibliyi və torpaqdan istifadə.....270
12.3. Su sahibliyi və sudan istifadə.....277
12.4. Köçürmə siyasəti.Kənddə təbəqələşmə.....280
12.5. Sinfi mübarizə.....285
XIII FƏSİL. XIX yüzilliyin 60-70-ci illərində burjua islahatları.....291
13.1. İslahat ərəfəsində ictimai-siyasi vəziyyət.....291
13.2. Burjua islahatları.....295
13.3. Məhkəmə, şəhər, inzibati islahatlar 299
XIV FƏSİL. Azərbaycan millətinin təşəkkülü.Maarifçilik hərəkatı. Milli oyanış.....306

14.1. Millətin təşəkkülünə təkan verən şərtlər və burjuaziyanın təşəkkülü.....306
14.2. Fəhlə sinfinin yaranması.....311
14.3. Azərbaycan millətinin təşəkkülü.....317
XV FƏSİL. Cənubi Azərbaycan XIX yüzilliyin birinci yarısı XX yüzilliyin əvvəllərində.....322
15.1. Siyasi,sosial-iqtisadi vəziyyət.....322
15.2. Xalq çıxışları.....328
15.3. 1905-1911-ci illər Məşrutə inqilabı və Cənubi Azərbaycan..331
XVI FƏSİL.XIX yüzilliyin ikinci yarısında Azərbaycan mədəniyyəti.....337
16.1. Maarif.....337
16.2. Elm.....344
16.3. Mətbuat.....347
16.4. Ədəbiyyat.....349
16.5. İncəsənət.....351
XVII FƏSİL. Şimali Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı.....354
17.1.Maarifçilik və milli oyanış sosial-iqtisadi yüksəlişin qanunauyğun nəticəsi kimi.....354
17.2. Maarifçilik hərəkatı.....362
XVIII FƏSİL. Şimali Azərbaycan iqtisadiyyatı (1900-1914).....370
18.1. Xalq təsərrüfatının strukturu.....371
18.2.Neft sənayesi və digər sənaye sahələri. İstehsalın təmərküzləşməsi.....376
18.3. Kənd təsərrüfatı.1912-1913-cü illərin aqrar qanunları.....385
18.4. Şəhərlər. Sənətkarlıq.Ticarət.Nəqliyyat.....394
18.5. Rabitə. Bank idarələri.....406
XIX FƏSİL. XX yüzilliyin əvvəllərində Azərbaycanda çar Rusiyasının sosial-siyasi əsarətinə qarşı mübarizə.....410
19.1. İnzibati idarədə dəyişikliklər.....410
19.2. Siyasi təşkilatlar və partiyaların yaranması.....415

19.3. Şimali Azərbaycan Birinci rus inqilabı dövründə.....421
19.4. Birinci rus inqilabından sonrakı dövrdə sinfi mübarizə (1907-1914).....428
XX FƏSİL. Şimali Azərbaycanda milli istiqlal hərəkatı (1905-1917-ci illər).....430
20.1. Milli-istiqlal hərəkatını doğuran amillər.....430
XXI FƏSİL. Azərbaycan Birinci Dünya müharibəsi dövründə.....441
21.1.Azərbaycan imperialist dövlətlərin işğalçılıq planlarında.....443
21.2.Azərbaycan hərbçiləri müharibə cəbhələrində.....448
21.3. Fəhlə hərəkatı. Kəndli çıxışları.....452
XXII FƏSİL. Müstəqillik ərəfəsində siyasi vəziyyət (1917 fevral-1918 may).....457
22.1.Rusiyada 1917-ci il Fevral inqilabı və Azərbaycan.....457
22.2.1917-ci il Oktyabr çevrilişindən sonra Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət.....461
22.3.Azərbaycanlıların 1918-ci il Mart soyqırımı.....466
XXIII FƏSİL. XX yüzilliyin əvvəllərində Azərbaycan mədəniyyəti (1901-1917-ci illər).....477
23.1.Maarif.....477
23.2.Elm.....482
23.3.Mətbuat.....484
23.4.Ədəbiyyat.....487
23.5.İncəsənət.....490
23.6.Mədəni əlaqələr.....493
ƏDƏBİYYAT 496
ƏLAVƏLƏR.....505

I FƏSİL
AZƏRBAYCAN XANLIQLARİNİN YARANMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR. CƏNUB XANLIQLARI.

Xanlıqların yaranmasının sosial-iqtisadi və siyasi şərtləri. XVIII yüzilliyin ortalarında Azərbaycan ərazisində tarixən xanlıqlar adı altında yerli feodal dövlətlərinin əmələ gəlməsi bir sıra ictimai-iqtisadi və siyasi amillərlə əlaqədardır.

Səfəvi dövlətinin inzibati bölgüsü və onun iqtisadi siyasəti xanlıqların əmələ gəlməsi üçün əsas amillərdən biri olmuşdur. Səfəvi dövləti inzibati-ərazı baxımından 4 valilik, 13 bəylərbəylik və bir neçə ölkədən ibarət idi. Səfəvi imperiyasına daxil olan geniş ərazi kiçik və böyük inzibati bölgülərə ayrılırdı. Onlar valilər, bəylərbəyilər, xanlar, əmirlər, sultanlar və məliklər tərəfindən idarə edilirdilər. Qeyd edilən titullar və həmin inzibati bölgülərin hökmranlığı nüfuzlu feodallara, əsas etibarilə yarımköçəri həyat keçirən el-tayfa başçılarına mənsub idi.

Eyni zamanda müxtəlif tayfaların sakin olduqları vilayətlərin idarə olunması işi onlara rəhbərlik edən nüfuzlu feodallara tapşırıldı. Belə vəzifələrə təyin edilən feodallara həm də soyurqal və tiyul torpaqları verilirdi. Soyurqal və tiyul torpaqlarına çox vaxt bir neçə kənd, mahal, hətta vilayət belə daxil olurdu. Belə torpaqlar alan el-tayfa başçıları müəyyən vergilər verməklə bərabər, lazım gəldikdə qeyri-müntəzəm silahlı dəstələrlə (çəriklərlə) Səfəvi hökmdarlarının köməyinə gəlməli idilər.

Uzun müddət böyük bir ərazini idarə edən tiyuldarlar mərkəzi dövlət hakimiyyətinin zəifləməsindən istifadə edərək, öhdələrində olan tiyul torpaqlarını mənimsəyir və onları heç bir şərtə tabe olmayan mülk torpaqları ilə birləşdirirdilər. Beləliklə, geniş ərazini əhatə edən ayrı-ayrı vilayətlərin iqtisadi və siyasi hökmranlığı irsi olaraq

müəyyən bir nəslin əlində qalırdı, bu da onların Səfəvilərin və Əfşarların tabeliyindən imtina etmələri və müstəqil dövlət haqqında formalaşmaları üçün şərait yaradırdı.

Mövcud vəziyyətlə əlaqədar olaraq, müxtəlif tayfalar içərisində mərkəzi hakimiyyətin nüfuzu demək olar ki, heç dərəcəsində idi. Yerli əhali irsi və ənənəvi olaraq hərtərəfli hüquq qazanan xanlarına daha çox tabe idilər. El ənənələrinə görə, bu tabelik vacib hesab olunurdu. Müasir İran müəlliflərindən Haser Nəcmi tayfaların öz başçılarına bağlılığını belə təsvir etmişdir: «Tayfaların özlərinə məxsus əqidələri və spesifik psixoloji xüsusiyyətləri vardır. Onlar ancaq öz başçılarına itaət etməyə adət etmişlər. Mərkəzi dövlət tərəfindən təyin edilən hakimlərin göstəriş və fərmanlarına qəti surətdə qulaq asmırlar».

Səfəvi hökmranlığı dövründə təkcə tayfa başçılarına deyil, eyni zamanda hərbi aristokratiyanın nümayəndələrindən olan əmirlərə, yüzbaşılara da göstərilən xidmət müqabilində müəyyən torpaq sahələri verilirdi. Vergilərdən azad olmaq haqqında nüfuzlu əmirlər ölkələri istədikləri kimi idarə edirdilər. Buna görə də onlara eyni zamanda hakimlər də deyilirdi.

Tarixçi alim H.B.Abdullayevin qeyd etdiyi kimi, belə torpaq sahibliyi xanlıqların yaranmasına səbəb olan ilk rüşeymlərdən biri idi. Ayrı-ayrı vilayətlərin siyasi və iqtisadi hökmranlığının irsi olaraq müəyyən ailələrin (nüfuzlu feodalların) əlində qalması feodal pərakəndliyini daha da dərinləşdirdi. Belə vəziyyət yerli hakimlərin müstəqil olmalarına şərait yaradırdı.

Xanlıqların əmələ gəlməsinin başlıca amillərindən biri də Səfəvi,daha sonra Əfşarlar imperiyalarının iqtisadiyyatının tənəzzülü və onun ucqarlarla əlaqəsinin zəifləməsi idi.Feodal pərakəndəliyi iqtisadi yüksəlişin genişlənməsi üçün böyük maneə idi. Buna görə də XVII yüzilliyin sonlarından etibarən Səfəvi iqtisadiyyatı daha ciddi tənəzzülə uğrayaraq ucqar vilayətlərlə əlaqəsini itirdi. Feodal ara

vuruşmaları, şəhərlərin tənəzzülü, ticarət yolları istiqamətinin dəyişməsi bu imperiyaların dünya ticarətində oynadığı rolu zəiflətdi və onun xüsusi çəkisinin aşağı düşməsinə səbəb oldu.

Vilayətlərdə yerli şəraitə uyğun olaraq qapalı feodal iqtisadiyyatı – natural təsərrüfat hökm sürürdü ki, bu da feodal əlahiddəçiliyinin, separatizminin güclənməsi və xanlıqların əmələ gəlməsi üçün iqtisadi zəmin yaradırdı.

Xanlıqların əmələ gəlməsində iqtisadi amillərin rolunu qeyd edərkən, XVIII əsrdə Azərbaycan xanlıqları ilə Rusiya arasında ticarət əlaqələrinin artması faktını da qeyd etmək lazımdır. Həmin əlaqələrin inkişafı Təbriz, Ərdəbil, Gəncə, Şamaxı, Bakı, Quba və digər şəhərlərin qismən iqtisadi istiqlaliyyət əldə etməsinə yardım göstərirdi. Saray əyanları arasında ikitirəlik də vilayətləri idarə edən hakimlərin mərkəzlə hesablaşmaması və müstəqil qalması üçün şərait yaradırdı.

Səfəvi dövləti tərəfindən vergilərin artırılması öz təsirini ucqarlarda daha qabarıq göstərirdi. Şah xəzinəsi yoxsullaşdıqca, xalq üzərindəki təzyiq və soyğunçuluq siyasəti də artırdı. Saray tərəfindən müxtəlif vergilərdən əlavə, dövlət məmurları və vergi toplayanlar uzun müddət məvacib almadıqları üçün bu yolla özlərini idarə etməyə çalışırdılar.

Ucqarlarda hökm sürən sərt soyğunçuluq siyasəti Səfəvilər və Əfşarlar dövlətlərinə qarşı üsyanların baş verməsinə səbəb olurdu. Müxtəlif vilayətlərdə baş verən bu üsyanlar və onun inkişaf edib xalq hərəkatı xarakteri alması Səfəvi dövlətinin süqutu və xanlıqların əmələ gəlməsi üçün başlıca amillərdən biri idi. Üsyanların başında bəzən mərkəzi hakimiyyət tərəfindən sıxışdırılıb zərər çəkmiş yerli feodallar dururdular. Geniş xalq kütləsi istismardan yaxa qurtarmaq ümidi ilə həmin feodalların çıxışına rəğbət göstərir və onun ətrafında birləşirdilər.Ayrı-ayrı bölgələrdə şəhərlərin böyüməsi, inkişafı da

xanlıqların yaranmasına şərait yaradırdı.Çünki həmin şəhərlər əmələ gələn xanlıqların mərkəzi rolunu oynadı.

Xanlıqların əmələ gəlməsi prosesinə beynəlxalq vəziyyət də öz təsirini göstərmişdir.Bir tərəfdən Rusiya, Türkiyə birbaşa hərbi müdaxilələr edir, digər tərəfdən həmin dövlətlər nüfuzlu yerli iri feodalları, o cümlədən xanları müdafiə edərək öz tərəflərinə çəkir və onların əli ilə öz siyasətlərini gerçəkləşdirməyə çalışırdılar.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Azərbaycanda xanlıqların əmələ gəlməsi şəraiti hələ Səfəvilər dövləti dövründə yaranmağa başlamışdır. Nadir şahın hakimiyyət başına gəlməsi bu prosesi müəyyən müddət ləngidə bildi. Lakin nə o, nə də onu müdafiə edən qüvvələr tarixi inkişafın qarşısını ala bilmədilər.

Azərbaycanda siyasi pərakəndəlik.İlk xanlıqlar. XVIII yüzilliyin ikinci yarısında Azərbaycanda özünəməxsus xüsusiyyətləri olan bir dövrdə feodal pərakəndəliyi hökm sürürdü. Vahid iqtisadi və siyasi mərkəz yox idi. İqtisadi əlaqələri zəif olan ölkənin iqtisadiyyatında əsas yeri natural təsərüffat tuturdu. Ayrı-ayrı xan, sultan, malik və bəylər öz müstəqilliyini qorumağa çalışır və məhdud feodal mənafeyini güdərək ölkəni pərakəndə vəziyyətdə saxlamaq istəyirdilər. Belə feodallar eyni zamanda xanlıqları birləşdirərək vahid bir dövlət yaratmaq siyasətini yürüdən ayrı-ayrı nüfuzlu xanlara qarşı çıxış edirdilər.

XVIII yüzilliyin ortalarında Azərbaycanda müstəqil və yarınımüstəqil feodal dövlətləri – xanlıqlar meydana gəldi. Ölkənin ərazisi öz müstəqil iqtisadi və siyasi həyatı ilə yaşayan ayrı-ayrı hökmdarlardan ibarət idi. XVIII yüzilliyin II yarısı-XIX yüzilliyin əvvəllərində Araz və Kür çayları arasında Qarabağ xanlığı, Zəngəzur sıra dağlarından Araz vadisinə qədər uzanmış ərazidə Naxçıvan xanlığı, Murovdağ silsiləsindən Kür çayınadək Gəncə xanlığı, Şirvan düzənliyində isə Şamaxı xanlığı yaranmışdı. Azərbaycanın şimal–

qərbində Şəki xanlığı öz varlığını saxlayırdı. Abşeron yarımadasında Bakı, Dərbənd xanlıqları, Bakı xanlığından cənubda Salyan xanlığı, Kür ilə Arazın qovuşuğunda Cavad xanlığı, Xəzərin cənub-qərb sahilində Lənkəran, Azərbaycanın cənubunda Təbriz, Urmiya, Xoy, Qaradağ, Sərab, Marağa, Maku xanlıqları yarandı. İlisu, Qəbələ, Ərəş, Qazax, Şəmsəddil, Borçalı sultanlıqları və şimal-qərbdə Car-Balakən camaatı yerləşirdi.Qarabağda xristian alban məlikliklərı mövcud idi.Sultanlıq və məlikliklər xanlıqlardan asılı olan yarımmüstəqil irsi feodal mülkləri idi.

İlk Azərbaycan xanlıqlarının meydana çıxması XVII yüzilliyin sonlarına təsadüf edir. O zaman Quba və Lənkəran xanlıqları mövcud idi: irsi hakimlər tərəfindən idarə olunan bu xanlıqlar ölkə adlanırdı.

Quba xanlığı. Xanlığın banisi Hüseynəli xan (1726-1758) Rusiya çarı I Yekaterina tərəfindən Qubanın hakimi təyin edilmişdi. Onun iqamətgahı əvvəlcə Xudat, sonra isə Quba şəhəri olmuşdur. Burada zərbxana və silah emalatxanaları var idi. Hüseynəli xanın dövründə Salyan, Axtıpara, Altıpara, Doqquzpara Quba xanlığına birləşdirildi.Onun xarici siyasətində Rusiya ilə əlaqə əsas yer tuturdu. Quba xanlığı əlverişli coğrafi mövqedə yerləşirdi. Münbit torpağı, səfalı iqlimi burada əkinçiliyi, bağçılığı və maldarlığı inkişaf etdirməyə imkan verirdi.

Hüseynəli xan Nadir şahın hakimiyyəti dövründə də öz hakimiyyətini saxlamış və 1747-ci ildə onun ölümündən sonra müstəqil Quba xanlığının əsasını qoymuşdur. Hüseynəli xanın oğlu Fətəli xanın dövründə (1758-1789) Quba xanlığının mövqeyi daha da möhkəmləndi. Quba xanlığının yüksəlişi Fətəli xanın hakimiyyətə gəlməsi ilə bağlıdır. Fətəli xan öz dövrünün görkəmli dövlət xadimi idi.A.Bakıxanov yazırdı: «... Fətəli xan tədbirli, mərhəmətli, əzmində sabitqədəm, məmləkəti idarə etmək işlərində mahir bir adam idi».

XVIII yüzilliyin rus burjua tarixçisi P.Q. Butkov onu geniş ağıla malik, igid, bacarıqlı, düşüncəli və yorulmaq bilməyən bir şəxs kimi səciyyələndirir.

Fətəli xan Quba xanlığını möhkəmləndirməyə çalışırdı. Mahal naiblərinin hakimiyyətini məhdudlaşdırdı. Muzdlu qoşunun sayını artırdı. Rus alimi,səyyah və kəşfiyyatçısı S.Q.Qmelinin məlumatına görə, Quba xanlığının xeyli qoşunu və topu vardı. Kiçik topların bir hissəsi arabalarda yerləşdirilmişdi. Xanlığın paytaxtı Quba qüllələri olan qala divarları ilə əhatə olunmuşdu. Hüseynəli xanın vaxtında da burada möhtəşəm bir saray tikilmişdi. Fətəli xan öz sərhədlərini möhkəmləndirmək üçün Muğandan cəngavər şahsevənlərin bir hissəsini xanlığın ərazisinə köçürdü.O,vergi islahatı keçirdi. Əvvəllər vergilər mahalları idarə edən naiblər tərəfindən toplanırdı. Fətəli xan bu qaydanı ləğv etdi.Vergilərin toplanmasını, bəzi mükəlləfiyyətlərin icrasını xan yasovullarına tapşırdı. Bununla da vergi toplanmasını nizama salaraq xəzinənin gəlirinin artmasını təmin etdi

Fətəli xan qonşu xanlıqların torpaqlarını ilhaq etmək yolu ilə öz ərazisini genişləndirməyə çalışırdı. Başqa xanlardan fərqli olaraq, onun cəhdləri daha geniş miqyaslı olub və şimali-şərq Azərbaycan torpaqlarının birləşdirilməsi ilə nəticələndi. Bu da böyük əhəmiyyətə malik idi.

XVIII yüzilliyin əvvəlində Salyan Quba xanlığından asılı vəziyyətdə idi. Nadir şah xanlığı zəiflətmək məqsədilə onu Qubadan ayırmışdı. Şahın nailbəri Salyana hakim təyin edilmişdilər. Nadirin ölmündən sonra Salyanın idarəsi müvəqqəti olaraq İbrahim xan Rübdəriyə verildi. 1757-ci ildə Fətəli xan Salyan xanlığı üzərinə hücum etdi, xanlığın ərazisini Qubaya birləşdirdi. Salyan Quba xanlığının ayrılmaz bir hissəsinə, mühüm siyasi dayağına, həmçinin gəlir mənbəyinə çevrildi. Salyan gələcəkdə Quba xanlığının birləşdirmə siyasətində etibarlı dayaq oldu. Fətəli xan cənub

xanlıqlarından əhali köçürməklə xanlığın əhalisini artırdı. İrandan köçürülmüş əsasən tat dilli əhalini Şabranda və başqa ərazilərdə yerləşdirdi. Fətəli xan burada öz hakimiyyətini möhkəmləndirdikdən sonra Dərbəndi ilhaq etməyə başladı.

Dərbənd mühüm qala və ticarət mərkəzi idi. Şəhərin 10 minə yaxın əhalisi vardır. Burada yüzlərlə dükan, sənətkar emalatxanası, karvansara yerləşirdi. Həştərxandan, Qafqazdan və Dağıstandan buraya çoxlu sənətkarlıq məmulatları gətirildi.

Məhəmməd Hüseyn xanın qəddarlığından narazı olan dərbəndlilər Fətəli xanın hakimiyyətini qəbul etməyə meyl göstərirdilər. Təkcə xalq deyil, Dərbənd feodalları da Quba xanlığına birləşməyə can atır, öz nümayəndələrini bu məqsədlə Fətəli xanın yanına göndərirdilər. XVIII yüzilliyin 50-ci illərində Dərbənd xanlığında iki siyasi qrup mövcud idi. Birincisi, Məhəmməd Hüseyn xanı müdafiə edən və Dərbəndin Qubaya birləşdirilməsinə müqavimət göstərən iri feodal əyalətlər, ikincisi isə birləşdirmə tərəfdarları olan şəhər sənətkarları, tacirlər, xidmətdə olan xırda feodallar idilər. Çoxluq təşkil edən bu qrup xalq içərisində olan nüfuzundan istifadə edərək, Quba xanlığının Dərbəndə yiyələnməsi üçün şəhər əhalisinə güclü təsir göstərir və xanlığa kömək edirdi. Fətəli xan yaranmış vəziyyətdən məharətlə istifadə edirdi. O, Dərbənd xanlığında olan müxtəlif ictimai qruplar arasında süni düşmən münasibəti yaradır, birini digərinə qarşı qoyur və beləliklə, Dərbənd bəylərini də ələ alamağa çalışırdı. Lakin Dərbəndə yiyələnmək üçün şəhər daxilində münasib şərait yox idi. Bunun üçün xarici münasibətləri sahmana salmaq lazım idi. Əks halda, bu münasibətlər Cənubi Dağıstanın mənafeyinə toxunar, beləliklə də Qubaya qarşı güclü bir blok yarana bilərdi.

Cənubi Dağıstan feodalları Dərbəndin mühüm strateji əhəmiyyətini yaxşı başa düşürdülər. Dərbənd xanı öz növbəsində

hakimiyyətinin zəif olmasını və əhalinin Quba xanlığına meylini görürdü. Lakin aralarında sıx birlik olmayan Cənubi dağıstanlılar öz şəxsi mənafeləri naminə Dərbəndin parçalanmasına razılıq verməyə hazır idilər. Odur ki, xan onları tovlayıb ittifaqa gətirdi. Fətəli xan Cənubi Dağıstan feodallarından Tarku şamxalı Murtuzəli, Qaraqaytaq üsmisi Əmir Həmzə və Tabasaran hakimi ilə sazişə girdi. Qazıqumuğu isə zərərsizləşdirdi.

1759-cu ildə Fətəli xanın birləşmiş qoşunu Dərbəndə yürüş etdi. Birinci kiçik dəstə ilə Əmir Həmzə, ardınca qubalılar şəhərə daxil oldular. Dərbəndlilər öz qüvvələri ilə Narınqalaya çəkildi. Fətəli xan əvvəlcə Samur çayının sağ sahilindəki torpaqları (Müşkür, Niyazabad, Şabran, Rustov, Beşbarmaq) tabe etdi, iki aydan sonra, 1759-cu ilin noyabrında isə şəhəri ələ keçirdi. O, danışıq bəhanəsi ilə Məhəmməd Hüseyn xanı öz düşərgəsinə dəvət etdi, onu həbsə alaraq gözlərini çıxartdırdı, 1768-ci ildə Bakıda dünyasını dəyişdi. Dərbənd xanlığın siyasi və inzibati mərkəzinə çevrildi. Fətəli xan Əmir Həmzə ilə ittifaqı möhkəmləndirmək üçün onun bacısı Tuti Bikə ilə evlənir. Lakin sonralar Qaraqaytaq üsmisi ilə Fətəli xan arasında münasibətlər xeyli gərginləşdi.

Dərbənd xanlığının birləşdirilməsi nəticəsində Quba xanlığı xeyli qüvvətləndi. Dərbəndin idarəsi Fətəli xanın arvadı Tuti Bikə xanıma tapşırıldı.

Dərbənddən sonra Quba hakimləri Azərbaycanı xarici ölkələrlə, birinci növbədə Rusiya ilə birləşdirən Bakı xanlığını tabe etməyə başladılar. Bakı xanlığı iqtisadi cəhətdən zəngin idi və nisbətən möhkəmləndirilmiş liman idi. Şəhər qurudan ikiqat divarlarla əhatə olunmuşdur, dənizdən yaxşı müdafiə olunurdu. Şəhər yaxınlığında mühafizə bürcləri və qülləsi olan iki darvaza var idi. Onlardan ən böyüyü «Qız qalası» və şəhər kənarındakı Mərdəkan qülləsi idi. Hər ikisi düşmənin şəhərə daxil olmasını xəbər vermək üçün mühüm

nəzarət məntəqəsi rolunu oynayırdı. Bakı öz quruluşuna görə Dərbənddən az fərqlənirdi. Burada da, şərq şəhərlərinə xas olan dar, əyri küçələr və bir-birinə yaxın tikilmiş evlər var idi. Onların içərisində qədim Şirvanşahlar sarayı seçilirdi. İ.Berezinin sözləri ilə deysək, «Şirvanşahlar sarayını müsəlman memarlıq abidələrinin ən yaxşısına aid etmək olar. Bağçasaray onun yanında daxmacıqdır, Nuxa sarayını isə xatırlamağa dəyməz».

Bakı xanlığını qonşu feodalların talançı basqınlarından qoruyan güclü himayəçiyə ehtiyacı var idi. Bundan istifadə edən Qubanın hakim dairələri Bakını özünə birləşdirdilər (1766). Dərbənd, Niyazabad və Salyan limanlarında Rusiya ilə ticarəti ələ almağa müvəffəq oldular.

Quba xanlığı Bakıya iqtisadi müdaxilə etməklə onu xarici düşmənlərdən qorumağı da öz öhdəsinə götürdü. Bununla əlaqədar Bakı yaxınlığında Saray kəndində Quba xanlığının qarnizonu yerləşirdi.

Bakı xanlığının Qubanın himayəsinə keçməsinin bir səbəbi də Dərbənddə olduğu kimi, Fətəli xanın sənətkar və tacirləri yüksək tutması, eyni zamanda Bakıda Qubanın tərəfdarlarının təsiredici qüvvəyə malik olmaları idi. Feodalizm dövründə dövlət siyasətində hakim siniflərin qohumluq əlaqələri, «nigah diplomatiyası» mühüm məsələ idi. Fətəli xan Bakı xanlığı üzərində öz təsirini gücləndirmək üçün «nigah diplomatiyası»ndan da istifadə edirdi. Qaraqaytaq usmisi Əmir Həmzəyə vəd etdiyi bacısı Xədicə Bikəni Bakı xanı Məlik Məhəmmədə (1768-1784) ərə verdi. Fətəli xana və onun xələflərinə tabe olmaq barədə onunla yazılı şərt qəbul etdi. Xədicə Bikə qardaşının məsləhəti ilə Bakı hakiminin daxili işlərinə fəal müdaxilə etməyə və onları Quba xanlığının xeyrinə istiqamətləndirməyə başladı. Məlik Məhəmməd xan olmayanda Xədicə Bikə xanlığı özü idarə edirdi. Məlik Məhəmməd iki il Qarabağda əsirlikdə olanda, iki

dəfə Məkkə və Kərbəlanın müqəddəs yerlərinə ziyarətə gedəndə, həmçinin hərbi fəaliyyəti dövründə xanlığı o, idarə etmişdi. Bakı xanı vergini pul və ərzaqla ödəyir, Quba xanı üçün döyüşçü dəstələri göndərirdi. Quba xanlığı lazım gəldikdə ordunu təmin etmək üçün əlavə ərzaq da tələb edə bilərdi. Rəsmi müraciətlərdə feodal birləşmənin başçısı Fətəli xanı «Dərbəndin, Bakının, Salyanın hakimi» adlandırırdılar.

Məlik Məhəmməd xanın ölümündən sonra Quba xanı kiçik yaşlı Mirzə Məhəmmədi Bakının hakimi və xanlığın naibi təyin etdi. Səltənət naibi isə Mirzə Məhəmmədin anası Xədicə Bikə oldu. Bakı naibi Quba xanlığının tabeliyində idi. Onun razılığı olmadan heç nə edə bilməzdi. Bakı xanlığı Quba xanlığının iqtisadi inkişafında mühüm rol oynadı. Çünki, Bakı dəniz ticarətində neft və duz hasilində külli miqdarda gəlir götürürdü. Bu da Qubanın Rusiya ilə ticarət əlaqələrinə, xarici siyasətinə müstəsna təsir göstərirdi.

1765-1767-ci illərdə Fətəli xan Şamaxı xanlığına qarşı çevik siyasət yeritməyə, köhnə və yeni Şamaxı əhalisinin müxtəlif təbəqəsindən Quba ilə birləşmək istəyənləri öz tərəfinə çəkdi. 1767-ci ildə mübarizə gərgin şəkil aldı. Şamaxının Qubaya birləşdirilməsi üçün real zəmin yarandı.

1768-ci ilin mayında Fətəli xanın qoşunu Şamaxıya doğru irəlilədi. Eyni vaxtda Qubanın müttəfiqi Şəki xanı da Şamaxıya hücuma keçdi. Birləşmiş qoşun Şamaxı xanlığının bütün ərazisini tutdu və Köhnə Şamaxını mühasirəyə aldı. Xanlığın iqamətgahının ətrafla əlaqəsi kəsildi və ərzaq daşınmasından məhrum edildi. Şamaxının hakim dairələri, əyanları düşmənin üstün qüvvələrinin uzunmüddətli mühasirəsinə dözə bilmədilər və 1768-ci ildə təslim oldular. Xanlıq hərbi xərcləri ödəmək üçün xərac verməyə razılaşdı.

Qələbədən sonra Şamaxı xanlığının az hissəsi Şəki xanlığına, qalan hissəsi Quba xanlığına tabe edildi. Quba və Şəki xanları yeni

torpaqların idarə olunması üçün öz naiblərini təyin etdilər. Bu vaxt Şirvanda Fətəli xana qarşı sui-qəsd hazırlandı. Sui-qəsdçilər Şəki xanlığının köməyinə arxalandılar. 1768-ci ilin avqustunda qəsdin üstü açıldı. Fətəli xan qoşunla Yeni Şamaxıya yaxınlaşdı. O, həm yeni, həm də köhnə Şamaxı şəhərlərini tutdu. 1768-ci ildə Hüseyn xanla döyüşdə Fətəli xan qalib gəldi. Şəki xanlığının ixtiyarında olan torpaqları Qubaya birləşdirdi. Öz iddialarından əl çəkməyən Şəki xanı ikinci döyüşdə də məğlub oldu və 1769-cu ildə Hüseyn xanla Fətəli xan arasında yeni müqavilə bağlandı.

Öz hakimiyyətlərini itirən feodallar Fətəli xanın bu siyasətindən narazı idilər. Onlar Fətəli xana qarşı ittifaqa girdilər, Şamaxıda Fətəli xana qarşı qəsd təşkil edildi, bu qəsddə Şəki xanı Hüseynəli də iştirak etmək üçün 10 minlik qüvvə ilə Şamaxıya yaxınlaşdı. Fətəli xan qəsdçiləri həbs etdi. Hüseynəli döyüşə girmədən Fətəli xana təslim oldu. Xanlığın möhkəmləndirilməsi üçün böyük əhəmiyyətə malik bu birləşmə Azərbaycan xanlıqlarının birləşdirilməsi siyasətində əldə edilmiş əvəsiz nailiyyət idi. Lakin qələbə eyni zamanda yeni çətinliklər də törətdi. Çünki Quba xanlığı hələ Şamaxıda möhkəmlənməmişdi. Fətəli xan Şamaxının Şəkiyə çatan torpaq payını geri aldığına görə Şəki xanlığı Quba xanlığından ayrılıb Qarabağ hakimləri ilə birləşdi. İndi Qubanın qarşısında yeni məsələ Şamaxını təkcə Cənubi Dağıstan və Qarabağ feodallarından deyil, həm də Şəkinin hücumlarından qorumaq məsələsi dayanırdı.

1768-ci ildə Cavad xanlığı da qəti olaraq şimal-şərqi Azərbaycanın birləşdirilmiş ərazisinə daxil edildi. Cavad xanlığı siyasi vahid kimi, XVI əsrdən əvvəl məlumdur. O, Şamaxının cənubunda, Kürlə Arazın arasında yerləşirdi. Əhalisi əkinçilik və maldarlıqla məşğul olurdu. XVI əsrdə Cavadın məşhur bəylərbəyi Abdulla xan Ustaclının «müxtəlif meyvə ağacları ilə dolu bağ və gözəl

evi vardı». Cavad Şamaxı bəylərbəyliyinə tabe idi. 1726-cı ildə Xəzərsahili vilayətlər kimi o da Rusiya tərəfindən işğal edilmişdi.

XVIII yüzilliyin ortalarında Cavad feodalları Nadir şah dövlətinin zəifləməsindən istifadə edərək öz hakimiyyətlərini möhkəmləndirirlər. Lakin Azərbaycan xanlıqlarının yaranması ilə Cavad yarımasılı xanlığa çevrildi. İndiki Sabirabad, Şirvan və qonşu rayonların ərazisini əhatə edən Cavad xanlığı Şamaxı və Salyanla həmsərhəd olmaqla, bir tərəfdən Şamaxı və Qarabağ xanlığı, o biri tərəfdən isə Gilan xanlığının məngənəsində idi. 1775-ci il konsul məlumatında deyilirdi ki, Kür çayı üzərində yerləşən Cavad xanlığı Qubadan asılıdır.

1784-cü ildə Fətəli xan böyük qoşunla Cənubi Azərbaycana hücum etdi. Ərdəbil və Meşkini müqavimətsiz tutdu. Lakin burada möhkəmlənə bilmədi. Bir tərəfdən Azərbaycan xanları və Dağıstan feodalları Quba xanlığını hədələdilər, digər tərəfdən bu Rusiyanın narazılığına səbəb oldu. 1785-ci ildə Lənkəran xanlığı Quba xanlığının tərkibinə qatıldı. 1787-ci ildə Fətəli xan Rusiyanın vasitəçiliyi ilə gürcü çarı II İrakli ilə ittifaq bağladı. Bir il sonra onların qoşunu Gəncəyə daxil oldu. Bu dövrdə Quba xanlığı qüvvətlənsə də, Azərbaycanın sabit birliyini yarada bilmədi. Buna səbəb iqtisadi bazanın olmaması, natural təsərrüfatın mövcudluğu, feodal pərakəndəliyi idi. 1789-cu ildə Fətəli xan Bakıya gəldi və Cənubi Azərbaycana səfərə hazırlaşarkən vəfat etdi. Fətəli xanın Azərbaycan torpaqlarını birləşdirmək cəhdi baş tutmadı. Onun ölümündən sonra hakimiyyətə gələn oğlanları Əhməd xan (1789-1791) və Şeyxəli xanın (1791-1810) dövründə xanlıq zəiflədi. 1806-cı ildə Quba xanlığı Rusiyaya birləşdirildi və 1810-cu ildə Quba əyalətinə çevrildi.

Lənkəran xanlığı.Lənkəran xanlığının sərhədləri Azərbaycanın cənub-şərq ərazisi, Talış dağları, Xəzər dənizi və Muğan düzü arasındakı torpaqlar, Gilan, Ərdəbil və Salyan ilə hüdüdlanırdı.

Mərkəzi əvvəllər Astara, sonra Lənkəran şəhəri olmuşdur. Əhali əkinçilik (xüsusilə çəltikçilik) və maldarlıqla məşğul idi. Bağçılıq və arıçılıq da təsərrüfat həyatında mühüm yer tuturdu. Xanlıqda yüksək keyfiyyətli düyü növləri (sədri, akulə, ənbərbu və s.) yetişdirilirdi. Lənkəran, Astara və Qızılağac xanlığın əsas ticarət mərkəzləri idi. Kənd təsərrüfatı zəif inkişaf etmişdi.

Başqa xanlıqlarda olduğu kimi, Lənkəran xanlığında da əhalinin vəziyyəti ağır idi. Xanlıqda 19 adda vergi və mükəlləfiyyət mövcud idi. Bu da kəndlilərin feodal torpaqlarından qaçmasına səbəb olurdu.

Səfəvilər dövlətinin dağıldığı bir şəraitdə nüfuzlu Lənkəran əyanlarından qızılağaclı Musa burada hakimiyyəti ələ keçirmişdi. Lakin Nadir şahın dövründə mərkəzi hakimiyyətin güclənməsi ilə vəziyyət dəyişmişdi. Ona görə də Musa hakmiyyətdən əl çəkməli oldu. Lənkəranda Səfəvilər nəslindən olan ərdəbilli Seyid Abbas bəy hakimiyyəti ələ almışdı. Onun dövründə xanlığın mərkəzi qala divarları ilə əhatələnmiş Lənkərana köçürülmüşdür. 1736-cı ildə Nadir şahın hakimiyyətini tanıyan Seyid Abbas bəy oğlu Cəmaləddin Mirzə bəyi (ona Qara xan da deyirdilər) onun xidmətinə göndərdi. Nadir şah rəsmi fərmanla Seyid Abbas bəyi Lənkəranın nəsli hakimi elan etmişdi.

Nadir şahın ölümündən sonra Qara xan (1747-1786) xanlığı müstəqil idarə etməyə başladı. O, xanlığın iqtisadi və siyasi qüdrətini möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü: daimi qoşun təşkil etdi, xan nəslindən olmayanların torpaq sahələrini müsadirə etdi. İran təhlükəsindən qorunmaq məqsədilə xanlığın mərkəzi Lənkəranın sosial-iqtisadi və mədəni həyatında bir sıra dəyişikliklər baş verdi. Qara xan xarici siyasətdə Rusiyaya meyil edirdi. Bu da gilanlı Hidayət xanın ciddi narahatlığına səbəb olmuşdur. Kərim xan Zənd də Hidayət xana kömək edirdi. 1768-ci ildə Hidayət xan güclü qoşunla xanlığa soxuldu. Şindan qalasına çəkilən Qara xan müqavimət

göstərməsinə baxmayaraq, nəticədə təslim oldu və böyük xərac verib azad edildi. Qubalı Fətəli xan Gilan xanına qarşı mübarizədə Qara xana kömək edirdi. Kərim xan Zəndin ölümündən sonra Gilan xanın hücumları da səngimişdi.

1785-ci ilin yayında Lənkəran xanlığı Qubalı Fətəli xandan aslı vəziyyətə düşdü. Qara xanın vəfatından sonra oğlu Mir Mustafa xan (1786-1814) hakimiyyətə gəldi.

1795-ci ildə Ağa Məhəmməd xan Qacar Lənkəran xanlığına hücum etdi, Mir Mustafa xan Lənkəran əhalisini Sarı adasına köçürüb müdafiə mövqeyi tutdu. Xan Rusiya ilə yaxınlaşmaq üçün öz nümayəndələrini Şimali Qafqaza və Peterburqa göndərmişdi. 1800-ci ildə xanlıq Rusiyanın himayəsinə kecdı. 1826-cı il çar hökümətinin fərmanı ilə Lənkəran xanlığı ləğv edildi.

Cənubi Azərbaycan xanlıqları.Urmiya xanlığı. Urmiya xanlığı Cənubi Azərbaycanda, Urmiya gölünün cənub - qərbində yerləşirdi. Şimalda Xoy, şərqdə Marağa, qərbdə Osmanlı imperiyası, cənubda isə İranla qonşu idi. Xanlığın mərkəzi Urmiya şəhəri, banisi Nadir şahın əmisi oğlu Fətəli xan Əfşar (1747-1763) idi. Fətəli xan Əfşar fəaliyyətə başladığı ilk gündən İran və Azərbaycandakı xanlıqları birləşdirib mərkəzləşdirilmiş dövlət yaratmaq istəyirdi.

Əcəm İraq hakimi İbrahim xan özünü Təbrizdə şah elan etmişdi. Onun öldürülməsindən sonra (1749) Təbrizdə üsyan oldu. Şəhər hakimi qətlə yetirildi. Fətəli xan Əfşar bundan istifadə edib Təbrizi tutdu, paytaxtı buraya köçürdü. Çünki buradan digər xanlıqlarla əlaqə saxlamaq, onlara nəzarət etmək və gələcəkdə onları Təbriz ətrafında birləşdirmək əlverişli idi. Fətəli xan Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizəyə başladı. Onun bu işdə müttəfiqlərə ehitiyacı olduğu üçün Nadir şahın sərkərdəsi əfqanlı Azad xanı öz tərəfinə çəkdi. Onu xanlığın birləşmiş qoşunlarının komandanı təyin etdi. Azad xan Nadir şahın öldürülməsindən sonra Cənubi

Azərbaycan hakimi Əmiraslan xanın xidmətində idi. Azad xanın ixtiyarında böyük bir hərbi qüvvə var idi. Xoy xanı Şahbaz xan Dünbüli də Fətəli xan Əfşarla ittifaqa girdi. Müttəfiqlər Qaradağ, Marağa, Sərab xanlıqlarını tutdular. Ümumiyyətlə, Ərdəbil və Maku xanlıqları istisna olmaqla Cənubi Azərbaycan torpaqları Urmiyaya birləşdirildi.

Fətəli xan Əfşar birləşdirdiyi torpaqlarda möhkəmlənmək, güclü idarəetmə sistemi yaratmaq əvəzinə Cənubi Qafqazın ələ keçirilməsi və İranda ali hakimiyyət uğrunda mübarizəyə başladı. O, bir çox yerlərə müraciətlər göndərdi. Müraciətdə deyilirdi:"İran əhalisinə Nadir şahın etdiyi zülm və zorakılıq həddini aşdı. Onun işləri Allah təalanın buyruğuna uyğun deyildi. Onu öldürdülər. Onun öldürülməsindən sonra İran qoşun başçıları bir neçə nəfəri padşahlıq taxtına oturdub və aradan götürüblər. Məlum deyil iş neçə qurtaracaqdır. Mənim təklifim budur ki, yüksək vəzifəlilər mənimlə müttəfiq olsunlar. Azərbaycan və İranı özümüzə tabe edək".

Onun bu müraciətləri hər yerdə rəğbətlə qarşılanmadı. Onda Fətəli xan Əfşar xanları ordu gücünə özünə tabe etmək qərarına gəldi. 1751-ci ildə Azad xan İrəvan xanlığına hücum etdi. İrəvan xanı Mir Mehdi xan Kartli çarı II İraklidən hərbi kömək istədi. II İrakli Qazax və Borçalı azərbaycanlılarından qoşun toplayıb İrəvan xanı Mir Mehdi xana köməyə göndərdi. Azad xan məğlub oldu. Fətəli xan Əfşar qoşunlarını gücləndirib Gürcüstan üzərinə göndərdi. II İrakli tabe oldu, öz bacısını, iki gürcü knyazını və 200 atıcını girov olaraq Fətəli xan Əfşarın sarayına göndərdi.

XVIII yüzilliyin 50-ci illərində İranda ali hakimiyyət uğrunda mübarizə Xorasandan İranın mərkəzinə keçmişdi. Çünki Xorasanda ikinci dəfə taxta çıxan Şahruxun (Nadir şahın nəvəsi) real hakimiyyəti yox idi. İranın mərkəzində hakimiyyət uğrunda mübarizədə fars mənşəli Zəndlər sülaləsi seçilirdi. Şimali İranda – Astrabadda

möhkəmlənən türk mənşəli Qacar tayfasından olan Məhəmməd Həsən xan da İranda ali hakimiyyət uğrunda mübarizəyə qoşuldu. O, İran şahı Adil şahın (Əliqulu xan) baş eşikağası idi. Adil şahla onun arasında ixtilaf yarandığı üçün Astrabada çəkildi və burada xanlıq yaratdı. Adil şah Astrabada hücum edir, Məhəmməd xan Qacar qaçmalı olur, onun bütün ailəsi, o cümlədən beş yaşlı oğlu Məhəmməd (gələcəyin Ağa Məhəmməd şah Qacarı) da əsir düşür. Adil şahın öz qardaşı İbrahim xan tərəfindən öldürülməsi vəziyyəti dəyişir.Astrabadı özünə qaytaran Məhəmməd Həsən xan Qacar Mazandaranı və Gilanı da ələ keçirir.

1752-ci ilin sonunda Urmiya üzərinə yürüş edən Kərim xan Zəndi Miyanə ətrafında Fətəli xan Əfşar məğlub etdi. O, Fars vilayətinə qaçdı. Onu təqib edən Fətəli xan Əfşar Qəmşə döyüşündə yenə Kərim xan Zəndi məğlub etdi, Kərim xanın qardaşı İsgəndəri əsir götürüb edam etdirdi. Məhəmməd Həsən xan Qacar Fətəli xanla Kərim xan Zənd arasındakı toqquşmadan istifadə edərək 1756-cı ildə İsfahanı tutur. Kərim xan bu dəfə Şiraza qaçır. Məhəmməd Həsən xan Qacar Urmiya və Təbrizi də tutur. Fətəli xan Əfşar ondan asılı düşür (1757). Kərim xan Zəndin qohumu Şeyxəli Zənd bir çox fars feodallarının və müttəfiqlərinin köməyilə 1759-cu ildə Məhəmməd Həsən xan Qacarı Mazandaranda məğlub edir və o, qacarkən qəsd nəticəsində öldürülür.İranda hakimiyyət uğrunda mübarizənin estafeti onun böyük oğlu Ağa Məhəmməd xan Qacara keçir.1761-ci ildə Kərim xan Zəndin 4 minlik qoşunu Ağa Məhəmmədin kiçik dəstəsini mühasirəyə alır.O,mühasirədən çıxsa da əsir götürülür və Tehrana Kərim Zəndin hüzuruna aparılır. O da Ağa Məhəmmədi öz yanında "fəxri qonaq" və ya girov kimi saxlayır və Şiraza gedərkən onu da özü ilə aparır.Kərim xan Zəndin ölümündən sonra(1779) Mazandarana öz yaxınlarının yanına qaçır.

1761-ci ildə Kərim xan Zənd güclü qoşunla Fətəli xan Əfşar üzərinə yürüş edir, onu Qaraçəmən (1761) döyüşündə məğlub edir. Kərim xan 9 aylıq mühasirədən sonra müttəfiqləri ilə birlikdə Urmiya şəhərini tutur, 1763-cü ildə Fətəli xan Əfşarı edam etdirir.

Deməli,1753-1754-ci illərdə Fətəli xan Əfşar hakimiyyətini Mərkəzi və Qərbi İrana yaysa da, uğursuzluğa düçar oldu.

Kərim xan Zənd Fətəli xan Əfşara qarşı mübarizədə ona kömək edən xanları "qonaqlıq" adı ilə Şiraza apardı. Onların arasında Qarabağ xanı Pənahəli xan, Xoy xanı Şahbaz xan, qaradağlı Kazım xan,naxçıvanlı Heydərqulu Kəngərli var idi. Kərim xan bu yolla xanları vətənlərindən uzaqlaşdırdı,lakin o məqsədinə tam çatmadı. Bu xanlıqları asılı edə bilmədi. Kərim xan Zəndin ölümündən sonra Urmiya xanlığı yenidən müstəqil oldu.

Astrabad və Mazandaran xanı Ağa Məhəmməd xan Qacar Urmiya xanlığına hücum etdi. Astrabad və Mazandaranda üsyan baş verdiyindən Ağa Məhəmməd xan Qacar Urmiyanı tərk etsə də 1790-cı ildə o, bu xanlığı tabe etdi. 1797-ci ildə Qacarın ölümündən sonra Urmiya yenidən müstəqil oldu, lakin İran şahı Fətəli şah Urmiya xanlığını özündən asılı saldı.

XVIII əsrin 50-60-cı illərində İranda mərkəzi hakimiyyətə sahib olmaq uğrunda Məhəmməd Həsən xan Qacar Qovanlı (Astrabad xanı), Fətəli xan Əfşar (Urmiya) və Kərim xan Zənd (İsfahan) arasında gedən mübarizə həmin əsrin 90-cı illərində Qacarların qələbəsilə nəticələndi. Bu regionda türk mənşəli Qacarlar döğləti yarandı.

Xoy xanlığı. Xoy xanlığının ilk hakimi Dünbülü tayfasından Şahbaz xan (1747-1763) olmuşdur. O, Nadir şahın dövründə Xoy vilayətinin hakimi olmuş Murtuzqulu xanın oğlu idi. Şah Murtuzqulu xandan şübhələndiyi üçün onu edam etdirmiş, vilayətin idarəsini oğlu Şahbaz xana tapşırmışdı. Nadir şahın ölümündən sonra Şahbaz xan

özünü Xoy xanlığının müstəqil hakimi elan etmişdi. O, Fətəli xan Əfşarla dostluq edirdi. Lakin Şahbaz xan Kərim xan Zəndin tərəfinə keçərək Fətəli xanın məğlub edilməsi və Urmiyanın tutulmasında iştirak etmişdi. Sonra Kərim xan Zənd onu qonaq adı ilə Şiraz şəhərinə aparıb girov götürmüşdü. Xanlığın idarəsi qardaşı Əhməd xan Dünbülüyə (1763-1786) tapşırılmışdı. Onun dövründə Xoy xanlığı qüvvətləndi. Hətta bir müddət İrəvan, Naxçıvan və Qaradağ xanlıqlarını da özündən asılı etmişdi. Bir sıra Azərbaycan xanlıqları, həmçinin Gürcüstan çarlığı ilə diplomatik əlaqə yaratdı. Təbriz xanı Nəcəfqulu xan ona maddi və hərbi kömək göstərirdi. Qarabağ xanlığı ilə mehriban münasibətlər onun hakimiyyətinin qüvvətlənməsinə təsir etmişdi. 1782-ci ildə Qarabağ xanlığı ilə birlikdə Qaradağ xanlığını işğal edib, torpaqlarını bölüşdürmüşlər. Əhməd xan yenidən dirçəlməkdə olan Urmiya xanlığını da tabe etmək istəyirdi. O, 1783-cü ildə Təbriz yaxınlığındakı döyüşdə müttəfiqi Təbriz xanı ilə birlikdə Urmiya və Sərab xanını məğlub etdi. Xoy xanlığının nüfuzu bu qələbədən sonra daha da artdı. Xoy xanlığı qüvvətləndi.Bundan ehtiyat edən Kərim xan Zənd Əhməd xanı aradan götürmək qərarına gəldi. Bu məqsədlə əsir alınmış və Şirazda vəfat etmiş Şahbaz xanın oğulları ilə Əhməd xan arasında düşmənçilik yaratdı. 1779-cu ildə Kərim xan Zənd vəfat etdi.Şahbaz xanın oğulları Şirazdan Xoya qayıtdılar, hakimiyyəti ələ keçirə bilmədilər.Hakimiyyətə Hüseynqulu xan (1786-1798) gəldi. Onun dövründə daxili çəkişmələr xanlığı zəiflətdi və Xoy xanlığı Qacarlar sülaləsindən tam asılı vəziyyətə düşdü.

Xanlığı bir müddət Cəfərqulu xan (1798-1806) idarə etdi. Lakin Birinci Rusiya-Qacar müharibəsi dövründə Fətəli şah Qacarla münasibətləri pisləşdi. O məcbur olub İrəvana gələrək Rusiyanın tərəfinə keçdi. Rus çarı I Aleksandr ona general-leytenant rütbəsi verir, bahalı brilliyantlarla bəzədilmiş qızıl medal və qızıl lələklə

mükafatlandırır, Şəkinin xanı (1806-1814) təyin edir.Qeyd etmək lazımdır ki, Cəfərqulu xan Azərbaycan Cümhuriyyətinin ilk Baş naziri olmuş Fətəli xan Xoyskinin ata babaısdır.

Qaradağ xanlığı. Xanlığın banisi Müqəddəm tayfasından olan Kazım xan (1748-1752) idi. Şimaldan Qarabağ, cənubdan Təbriz, qərbdən Xoy və Naxçıvan, şərqdən Ərdəbil xanlığı ilə həmsərhəd idi. Müqəddəm tayfası Səfəvilərin hakimiyyətə gəlməsinə kömək etdikləri üçün Qaradağ ərazisi onların irsi idarəsinə verilmişdi. Müstəqilliyə can atırdı. Xanlığın mərkəzi Əhər şəhəri idi. Qaradağ xanlığı 1782-ci ildə Xoy və Qarabağ xanlıqlarının birləşmiş qüvvələri tərəfindən işğal edildi. Bundan sonra Qaradağ xanlığı demək olar ki, öz müstəqilliyini itirdi. 1791-ci ildə isə Ağa Məhəmməd xan Qacara tabe oldu.

Maku xanlığı. Xanlığın banisi Bayat tayfasının başçısı, Nadir şahın sərkərdələrindən biri Əhməd Sultan (1747-1778) idi. Şahın ölümündən sonra vətənə qayıdan Əhməd Sultan Makunu müstəqil xanlıq, özünü isə xanlığın hakimi elan etmişdi. Xanlığın paytaxtı iki tərəfdən dağlarla əhatə olunmuş Maku şəhəri idi. Xanlıq cənubda Xoy, şimalda İrəvan, qərbdə Osmanlı, şərqdə Naxçıvan xanlığı ilə həmsərhəd idi. Maku xanlığı öz ətrafında 30 kəndi birləşdirirdi.

Sərab xanlığı. Xanlığın əsasını Şəqaqi tayfasının başçısı Əli xan (1747-1786) qoymuşdu. Xanlığın paytaxtı Sərab şəhəri idi. Xanlıq şimalda Qaradağ, qərbdə Təbriz və Marağa, şərqdə Ərdəbil xanlıqları, cənubda İranla həmsərhəd idi.Əli xanın ölümündən sonra hakimiyyətə Sadıq xan gəldi.Sadıq xan Təbrizə hücum edərək oranı tutdu.Təbriz xanı Nəcəfqulu xan qonşu xanlıqlardan kömək alıb Sadıq xanı geri çəkilməyə məcbur etdi.Bir müddətdən sonra Qacarlar sülaləsinə tabe oldu.

Təbriz xanlığı.Təbriz xanlığı XVIII yüzilliyin ortalarında yaranmışdır. Urmiya gölünün şimal-şərqində yerləşirdi. Xoy,

Qaradağ, Sərab, Marağa xanlıqları ilə həmsərhəd idi. Xanlığın mərkəzi Təbriz şəhəri, banisi Dünbülü tayfasından olan Nəcəfqulu xan (1745-1780) idi. O, Təbrizdə Urmiyalı Fətəli xan Əfşarın yardımı ilə möhkəmlənmişdir. Buna görə də Təbriz xanlığı bir müddət Urmiya xanlığından asılı olmuşdur. Əslində Nəcəfqulu xan Təbriz xanlığını Urmiya xanının naibi kimi idarə edirdi. 1763-cü ildə Fətəli xan Əfşar Kərim xan Zənd tərəfindən məğlub edildikdən sonra Təbriz xanlığı tam müstəqillik qazandı. Nəcəfqulu xan öz hakimiyyətini möhkəmləndirmək üçün bir sıra tədbirlər gördü. Təbriz ətrafına qala divarları çəkdirdi.Xanlığın əhalisi əkinçilik, maldarlıq, bağçılıq ilə məşğul idi. Sənətkarlıq və ticarət xüsusilə inkişaf etmişdi. Xanlığın 10 min nəfərlik daimi qoşunu var idi.

Ərdəbil xanlığı. Xanlığın banisi Şahsevən tayfasından olan Bədir xan (1747-1763) idi. Ərdəbil xanlığı şimaldan Qarabağ, cənub-şərqdən Gilan, qərbdən Qaradağ və Sərab, şərqdən Lənkəran xanlıqları ilə həmsərhəd idi. Bədir xanın oğlu Nəzərəli xanın (1763-1793) dövründə zəndlər və qacarlarla münasibətlər kəskinləşdi. Nəzərəli xanın Qarabağlı İbrahim xanla dostluq, Lənkəran xanlığı ilə mehriban qonşuluq münasibətləri var idi. 1784-cü ildə Qubalı Fətəli xan Ərdəbil və Meşkini ələ keçirdi, bu hadisə Rusiya çariçası II Yekaterinanın (1762-1796) narazılığına səbəb olur. Çünki Fətəli xanın vahid Azərbaycan dövləti yaratmaq cəhdi Rusiyanın bu bölgəni ələ keçirmək siyasətinə mane ola bilərdi. Fətəli xan Ərdəbili tərk etdi. Nəsir xanın hakimiyyəti (1793-1808) dövründə xanlıq Qacarlardan asılı düşdü. Nəsir xanın ölümündən sonra Ərdəbil xanlığı Qacarlar dövlətinin tərkibinə daxil edildi və ləğv olundu. Xanlığı əyanlardan ibarət divanxana idarə edirdi. Xanlığın 3 minlik daimi qoşunu var idi.

Marağa xanlığı. Xanlığın əsasını Əliqulu xan Müqəddəm (1747-1750) qoymuşdu. Bu xanlıq siyasi səhnədə elə bir əhəmiyyətli rol oynamamışdır. Marağa xanlığı Urmiya gölünün cənub-şərqində

yerləşirdi. Xanlıq qərbdə Urmiya, şimalda Təbriz, şərqdə Sərab xanlıqları ilə həmsərhəd idi.

Mərənd xanlığı 1747-ci ildə yaransa da, çox yaşaya bilmədi və Təbriz xanlığı ilə birləşdi.Sonra Qacarların tabeliyinə keçdi.Xanlığın mərkəzi Təbrizin 60 kilometrliyində Savalan dağları ətəklərində Urmiya gölünün 50-60 kilometrliyində yerləşirdi. Hazırda bu şəhər mövcuddur.

Zəncan xanlığı 1747-ci ildə Zülfüqar xan Əfşar tərəfindən yaradılmışdı.Nadir şah Əfşarın ölümündən sonra Zəncan xanlığı əvvəlcə Kərim xan Zənddən, sonra isə Qacarlardan asılı vəziyyətə düşmüşdü. Qeyd etmək lazımdır ki, Qacarın hakimiyyətini tanıyan ilk Azərbaycan xanlığı Zəncan xanlığı olmuşdur**.** Zəncan şəhəri İranın şimal-qərbində,Tehrandan Təbrizə gedən yolun üstündə hazırda mövcud olan bir şəhərdir. Zülfüqar xandan sonra Zəncan hakimi olmuş Əli xan Əfşar Qarabağ xanı İbrahimxəlil xanın təhriki ilə Ağa Məhəmməd şah Qacarın şimala doğru hərəkətinə mane olmaq istəyirdi.Əli xanın planlarında xəbər tutan Ağa Məhəmməd xan 1787-ci ildə onu ələ keçirib gözlərini çıxartdırmışdı. Zəncanın idarəsini isə Abdullah xan Uşanlı adlı birisinə tapşırmışdır.O da Qacarların hakimiyyətini tanımış, ömrünün sonlarına qədər onlara xidmət etmişdir. Abdulla xandan sonra Zəncana Əməmulla xan Əfşar (1797-1810) başçılıq etmişdi.Onun ölümündən (1797-1810) Zəncan xanlğı tarixə qovuşmuşdu.

II FƏSİL
AZƏRBAYCANIN ŞİMAL XANLIQLARI

Bakı xanlığı. XVIII yüzilliyin 40-cı illərində yaranmış Bakı xanlığı Abşeron yarımadasında yerləşirdi. Quba, Şamaxı və Cavad xanlıqları ilə həmsərhəd idi. Xanlığın təsərrüfatında neft, duz və zəfəran istehsalı, balıqçılıq, maldarlıq əsas yer tuturdu. Burada toxuculuq, zərgərlik, boyaqçılıq, misgərlik kimi sənət sahələri inkişaf etmişdi. Xanlıqda olan neft quyularının sayı 50-dən çox idi. Bu quyulardan ildə 240 min puddan çox neft çıxarılırdı. Xanlıqda neft quyuları, bazarlar, dükanlar müqatiəyə (iltizama) verilirdi. Xanlığın mərkəzi Bakı şəhəri Avropa ölkələri, Rusiya, İran, Hindistan ilə tranzit ticarətdə mühüm rol oynayırdı. Bakı xanlığında həmin ölkələrin tacirlərinə tez-tez rast gəlmək olurdu. Bakıda pul da kəsilirdi. Bakı xanlığında bütün hakimiyyət, torpaq, yeraltı və yerüstü sərvətlər xana və onun ailə üzvlərinə mənsub idi. Xanlıqda mövcud olan malcəhət, töycü, darğalıq, vəzirlik və digər onlarca vergi əhali üçün ağır yükə çevrilmişdi.

Bakı xanlığı Abşeron yarımadasını əhatə edən iki naiblikdən – Maştağa və Binəqədi naibliyindən və şəhər idarəsindən ibarət idi. Sahəsinə və əhalisinin sayına görə Azərbaycanın digər xanlıqlarına nisbətən o qədər də böyük deyildi. 1796-ci ilin məlumatına görə, xanlığın 39 kəndi və cəmi 8350 nəfər əhalisi var idi. Xanlıq hərbi-siyasi baxımdan zəif idi. Bundan istifadə edən qonşu feodallar tez-tez onun ərazisinə basqın edirdilər. Şamaxı və Cənubi Dağıstan feodallarının basqınları daha ciddi təhlükə törədir və çox vaxt Bakı xanlığının məğlubiyyəti ilə nəticələnirdi. Bu basqınlar təsərrüfatın əsas sahələri olan neft və duz istehsalına, son dərəcə qiymətli bitki olan zəfəranın yetişdirilməsinə, maldarlığın inkişafına ciddi zərər yetirirdi. Nəticə etibarı ilə yolların tez-tez bağlanması ticarəti

çətinləşdirir, bu da öz növbəsində sənətkarlığın ağır vəziyyətə düşməsinə səbəb olurdu. Bütün bunlar Bakı xanlığının xəzinəsinə güclü təsir edir, tacir və feodalların mənfəətini azaldırdı.

Bakı xanlığının ilk xanı I Mirzə Məhəmmədin dövründə (1748-1767) iqtisadiyyat nisbətən dirçəlmişdi. O, Xəzər dənizində gəmiçiliyin inkişafına xüsusi diqqət yetirirdi. Onun oğlu Məlik Məhəmməd xanın dövründə (1767-1784) Bakı xanlığı demək olar ki, müstəqilliyini itirmişdi. Şimal-şərqi Azərbaycan torpaqlarını Quba xanlığına birləşdirməyə çalışan Fətəli xan Bakı xanı ilə qohumluq əlaqəsi yaratdı və beləliklə, onu öz vassalına çevirmişdi. Fətəli xanın ölümündən sonra Bakı xanlığı II Mirzə Məhəmməd xanın (1784-1792) dövründə müstəqil oldu. Lakin xanlıqda II Mirzə Məhəmməd xanla əmisi oğlu Hüseynqulu xan arasında hakimiyyət uğrunda mübarizə başlamışdı. Bu mübarizədə Hüseynqulu xan qalib gələrək hakimiyyəti ələ aldı.

Hüseynqulu xanın dövründə (1792-1806) Azərbaycanın beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Rusiya və Qacarlar dövləti Bakı xanlığını tutmağa çalışırdı. II Yekaterinanın 1793-cü il 19 aprel tarixli fərmanı ilə Bakı xanlığı Rusiyanın himayəsinə keçdi.Rus çarı Pavel (1796-1801) tərəfindən rus qoşunu Azərbaycandan geri çağırılandan sonra Hüseynqulu xan Ağa Məhəmməd xan Qacara meyl etdi. Qacarın Şuşada öldürülməsi ilə vəziyyət yenidən dəyişdi. Bakı xanlığı müstəqilliyini bərpa etdi. Lakin bu uzun çəkmədi. Qacarlar və Rusiya Azərbaycan, o cümlədən Bakı xanlığı uğrunda mübarizəyə başladılar. 1796-cı ildə Bakı xanlığı ruslar tərəfindən işğal olundu. 1803-cü ildə Hüseynqulu xan yenə də Rusiyanın himayəsini qəbul etməyə məcbur oldu. 1804-cü ildə isə bu asılılıqdan imtina etdi. 1806-cı ilin fevralında rus generalı Sisianov Bakını təslim etmək haqqında Hüseynqulu xanla danışıq apararkən öldürüldü. 1806-cı il oktyabrın 3-də Bakı xanlığı ləğv edildi və Rusiyaya birləşdirildi.

Şamaxı xanlığı. Nadir şahın ölümündən sonra Azərbaycanda yaranan xanlıqlardan biri Şamaxı xanlığı idi. Mühüm iqtisadi rayon olan Şamaxı xanlığı böyük ehtiyat mənbələrinə malik idi. O şimal-şərqdə Quba, şərqdə Bakı, şimal-qərbdə Şəki, cənub-qərbdə Qarabağ xanlığı və Kür çayı ilə həmsərhəd idi. Bəzən Şirvan xanlığı da adlanırdı. Şamaxı xanlığı bu dövrdə güclü xanlıqlardan biri olmuşdu. Şamaxı xanlığı xeyli hərbi qüvvəyə malik idi və Azərbaycan xanlıqları arasında mühüm yer tuturdu.

Xanlığın əsasını Hacı Məhəmmədəli və Xançobanı tayfasının sərkarlar nəslindən olan Məhəmməd Səid və Ağası qardaşları qoymuşdular. Şamaxı xanlığını digər xanlıqlardan fərqləndirən əsas cəhət burada ikihakimiyyətliyin olması idi. Xanlığın mərkəzi Yeni Şamaxı (Ağsu) olan hissəsini Məhəmmədəli xan, mərkəzi Şamaxı olan hissəni isə Məhəmməd Səid və Ağası qardaşları idarə edirdilər. 1763-cü ildə Məhəmməd Səid hücum edib Yeni Şamaxını tutdu, Məhəmmədəli xanı əsir aldı. Yeni Şamaxı Köhnə Şamaxıya birləşdirildi. Nəticədə Şamaxının hərbi-siyasi qüvvəsi artdı. Xanıq xeyli hərbi qüvvəyə malik idi (təqribən 8-10minlik qoşun çıxara bilirdi).

Lakin Şamaxı şəhəri qonşu feodalların hücumları üçün çox əlverişli yerdə yerləşirdi.1765-ci ildən başlayaraq Quba və Şamaxı xanlıqları arasında dörd il müddətində gərgin mübarizə getdi.

Fətəli xan və Şəki xanı Hüseyn xan birləşib 1767-ci ildə Şamaxını tutdular, xanlığın bir hissəsi Qubaya, bir hissəsi Şəkiyə birləşdirildi. Ağasi xan əsir alındı, gözləri çıxarılıb Kür çayı sahilindəki Kotevana, Məhəmməd Səid isə Dərbəndə göndərildi. Fətəli xanla Hüseyn xan arasında vəziyyət pisləşdi.1768-ci ilin avqustunda Şirvanda Fətəli xana qarşı Manaf bəyin başçılığı ilə sui-qəsd hazırlandı.Şəkili Hüseyn xan da qəsdçilərə kömək edirdi. Hüseyn xan Ağası xanla yaxınlaşdı və Fətəli xana qarşı mübarizəyə

başladı. Hüseyn Xan məğlub oldu və Şamaxı xanlığının Şəkiyə məxsus olan torpaqları da Quba xanlığına birləşdirildi. Şamaxı xanlığı Fətəli xanın ölümündən sonra 1790-cı ildə bərpa edildi. 1805-ci ildə Şamaxı xanlığı Rusiyanın təbəəliyinə keçdi.

Şəki xanlığı.1743-cü ilin sonu -1744-cu ilin əvvəlində Nadir şah siyasətinin əleyhinə başlamış xalq azadlıq hərəkatı dövründə Şəki Əfşarlar imperiyasından qopub ayrıldı və müstəqil xanlığın mərkəzinə çevrildi. Şəki xanlığının ilk başçısı Qara keşiş oğlu nəslindən Hacı Çələbi Qurban oğlu(1743-1755) olmuşdur. Azərbaycan və İran şahlığına tabe olmayan xanlığın yaranması əslində Azərbaycanın siyasi suverenliyinin və dövlət ənənələrinin bərpası demək idi.

Hacı Çələbi siyasi müstəqillik əldə etdikdən sonra xanlığın ərazisini xeyli genişləndirir. A.Bakıxanov yazırdı: «Nuxalı Hacı Çələbi Qurban oğlu istiqlaliyyət bayrağı qaldıraraq Şəki, Ərəş və Qəbələ mahallarını özünə tabe etdi». Nadirin ölümü Hacı Çələbi xana öz tədbirlərini həyata keçirmək üçün imkanlar yaratdı. O, əlverişli vəziyətdən istifadə edərək Təbrizə qədər hərəkət etdi. Lakin İranda şahlıq iddiasında olan Əmir Aslan Hacı Çələbini geri oturtdu. Hətta Şəki üzərinə yürüş etdi.

Hacı Çələbi Qarabağ ərazisini də Şəki xanlığına qatmaq istəyirdi. O, Qarabağın bir hissəsini ələ keçirsə də, böyük Qarabağ ərazisini tuta bilmədi. Qarabağdan gəlmiş Pənahəli xan Hacı Çələbiyə müqavimət göstərdi. Hacı Çələbi xan Şirvan xanı ilə birlikdə Qarabağa hücum etdi. Bayat qalasını 2 aydan artıq mühasirədə saxladı. Müttəfiqlər bu müharibədə qələbə qazana bilmədilər. Lakin Hacı Çələbi öz yolundan dönmədi və Qarabağın xristian alban məlikləri ilə danışıq apardı. Qarabağ hakimi Pənahəli xan da Təbrizli Əmiraslan xanla ittifaq bağladı. Hacı Çələbi xan isə özünə yeni arxa - dayaq yaratmaq məqsədilə oğlu Ağakişi bəyi Qazıqumuxlu Məhəmməd Həsən xanın

qızı ilə evləndirdi. Daha sonra Hacı Çələbi xan müstəqilliyə meyl edən Qəbələ və Ərəş sultanlıqlarını tabe vəziyyətinə saldı.

Beləliklə, Şəki xanlığı bu dövrdə Azərbaycan xanlıqları içərisində güclü feodal dövləti oldu. Çələbi xan Şəkidə məscid, mədrəsə, hamam, ictimai binalar tikdirdi, vergi sistemini nizama saldı. Şəki xanlığının qüdrətinin artması, onun Gəncə və Azərbaycanın qərb torpaqları uğrunda mübarizəsi digər xanlıqları, xüsusən Qarabağ xanlığını, həmçinin Kartli-Kaxetiya çarlığını ciddi narahat edirdi. Şah hakimiyyəti uğrunda mübarizə şəraitində İranın zəifləməsindən istifadə edən Kartli çarı Teymuraz Gəncəni, hətta Qarabağı tutmağa çalışırdı. Teymurazın oğlu II İrakli orada «qayda-qanun» yaratmaq və hətta özünü şah elan etmək fikrində idi. O, məqsədinə çatmaq üçün Azərbaycan və Dağıstan hakimlərinə müraciət etmişdisə də, rədd cavabı almışdı. II İraklinin bu niyyəti Azərbaycan xanlarını təşvişə salmaya bilməzdi. Onlar Kartli və Kaxetiya çarlığı ilə yanaşı Hacı Çələbi xanın simasında da özlərinin gələcək rəqiblərini görürdülər. Məhz bunu yaxşı dərk edən Teymuraz və II İrakli əmin idi ki, onların qoşunları Şəki xanlığının ərazisinə daxil olduqda, Azərbaycan xanları da öz növbəsində cənubdan, qərbdən və şərqdən Şəki xanlığına zərbə endirə bilərlər.

Azərbaycanın şimalında qüvvətlənməkdə olan Hacı Çələbi Teymuraz və II İraklinin niyyətlərindən xəbər tutduqda təcili olaraq müharibəyə hazır vəziyyət aldı və yeni qoşun hissələrini topladı. Bunu eşidən Teymuraz və II İrakli vaxt itirmədən böyük qoşun hissəsilə Alazan çayını keçərək xanlığın ərazisinə daxil oldular. Onlar əvvəlcə Car vilayətini ələ keçirmək istədilər. 1751- ci ilin fevralında onlar Car torpağında Cələbi xanla qarşılaşdılar. XVIII əsr gürcü xronikasında bu yürüş barədə deyilir: «1751- ci ildə çar Teymuraz və İrakli Hacı Çələbi ilə vuruşmaq üçün Cara getdilər. Onların çoxlu qoşunu olmasına baxmayaraq, fevral ayında məğlub oldular. Bu hadisədən

sonra gürcü çarları dövləti möhkəmləndirmək və itirdikləri vəsaiti bərpa etmək üçün 1752-ci ildə Şəki xanlığına nisbətən zəif, lakin zəngin olan Gəncə xanlığını ələ keçirməyi qərara aldılar. Hacı Çələbi Iraklinin qəsbkarlıq niyyətini duyaraq onun qarşısını almağı qərarlaşdırdı. Feodal münasibətləri və feodal siyasi əhatəsində olan Hacı Çələbi və İrakli bir-birinə etibar etmirdilər. Hər birisi ayrılıqda qonşusunun qüvvətlənməsindən ehtiyat etdiyindən onu zəiflətməyə çalışırdı. Ona görə də atasının göstərişinə əsasən II Irakli hiylə ilə Pənah xanla danışığa girdi və ittifaq bağlamağı təklif etdi. Pənah xan bu təkliflə razılaşdı. Bu ittifaqa Gəncə xanı Şahverdi xan, Qaradağ xanı Kazım xan, İrəvan xanı Hüseynəli xan, Naxçivan xanı Mehdiqulu xan da daxil oldular. Çələbi xana qarşı güclü ittifaq yarandı.

1752-ci ilin martin 21-də mütəffiqlər müşahidə üçün Gəncə xanlığındakı düşərgəyə toplandılar. Gürcü xanları Azərbaycan torpağında xanlar tərəfindən çoxlu hədiyyələrlə qarşılandılar. Lakin bu görüş heç də xanların gözlədiyi kimi nəticələnmədi. Gürcü çarları hədiyyələri aldıqdan sonra danışıqlar aparmaq üçün xanları çadıra dəvət etdilər. Çadır qəflətən gürcü qoşunları ilə mühasirəyə alındı. Teymuraz və II İrakli onları əsir elan edərək, özləri ilə birlikdə Gürcüstana apardılar.

Şəki xanlığına qarşı II Irakli və Pənah xanın başçılığı altında ittifaq yaranmasından xəbər tutan Hacı Çələbi xan öz qoşunu ilə Kürün sol sahilində mövqe tutdu. İraklinin xəyanəti barədə məlumat alandan sonra Gəncəyə tərəf hərəkət etdi. O İraklinin qoşunlarını Ağstafa çayına qədər təqib edərək güclü zərbə endirdi, çoxlu dəvə, sursat, çadır və ərzaq ələ keçirdi. Onların bəziləri həlak olmuş, bəziləri əsir alınmış, bəziləri isə geri qaçarkən Alazan çayında boğulmuşdular. Həmin məğlubiyyətdən sonra Kartli və Kaxetiya çarları Hacı Çələbidən intiqam almaq üçün ikinci dəfə qüvvə topladılar. Lakin bu

qüvvəni Hacı Çələbiyə deyil, 1752-ci ildə Urmiya hakimi Fətəli xan Əfşarın qoşunlarının Gürcüstana hücumunu dəf etmək üçün sərf etdilər. Bu qələbədən sonra Hacı Çələbi Qazax və Borçalı mahalını ələ keçirdi və oğlu Ağakişi bəyi buraya hakim təyin etdi.

1752-ci ilin yazında Hacı Çələbi xan qonşuluq münasibətlərini bərpa etmək üçün gürcü çarı Teymurazın yanına nümayəndə göndərdi. Bu vaxt Ağakişi bəy qoşunla Tiflisin 60 verstliyində dayanmışdı. Ağakişi bəyə qarşı döyüşə girmək üçün İraklinin kifayət qədər qüvvəsi yox idi. Lakin çar Kabardandan göndərilən 2000 nəfərlik qoşunun köməyi ilə Ağakişi bəyi Borçalı və Qazaxdan çıxarmağa müvəffəq oldu. Əsirlikdə olan xanlar İraklinin niyyətini tamamilə başa düşdülər. Hacı Çələbi isə xanları öz tərəfinə çəkmək üçün onları əsirlikdən xilas etməyi qərara aldı. Rəvayətə görə xanlar əsir alınan zaman Pənah xanın oğlu İbrahimxəlil də orada olmuşdu. Lakin imkan tapıb qaçmış və bu barədə Hacı Çələbiyə xəbər aparmışdı. Hacı Çələbi dərhal böyük bir ordu ilə düşməni təqib etmiş və arxadan gözlənilməz zərbə endirmişdi.

Beləliklə, Hacı Çələbinin əleyhinə gürcülərlə ittifaqa girən Azərbaycan xanları onun köməyi ilə əsirlikdən azad oldular. O Gəncəyə gələrək oradan Borçalı, Qazax, Şəmşəddil və Gürcüstanla ərazi qonşusu olan Azərbaycan xanlıqlarına nümayəndələr göndərərək Kartli və Kaxetiya çarlarına qarşı çıxmağı tələb etdi. Əks halda onları müharibə ilə hədələdi. Onlar Hacı Çələbinin təklifini qəbul edib silahlı çıxışa hazırlaşdılar. Qazax, Şəmşəddil, Borçalı sultanları, habelə İrəvan və Gəncə xanları Hacı Çələbinin qoşunu ilə birləşərək Kartli və Kaxetiya əleyhinə çıxdılar. II İrakli vəziyyətdən çıxmaq üçün vaxtilə Tiflisdə yaşayan Gəncə xanının əmisi Qoca xandan Hacı Çələbi ilə danışıq aparmağı xahiş etdi. Qoca xan öz adından Hacı Çələbiyə aşağıdakı məzmunda məktub yazdı: «Əgər istəsən sənin lə Kartli və Kaxetiya çarlığı arasında sülh yarada

bilərəm». Hacı Çələbi sülh danışıqları aparmaq üçün nümayəndələr göndərilməsinə razılıq verdi. Gürcü nümayəndələri Hacı Çələbi xanın qoyduğu şərtlərin yerinə yetirilməsi barədə səlahiyyətlərinin olmadığını bildirdikdə onları zindana saldılar. Nümayəndələrin həbs olunması xəbəri Gürcüstana çatdıqda II İrakli vaxt itirmədən böyük qoşun toplayıb Gəncə tərəfə yollandı. Lakin bu dəfə rəqiblərin vuruşması baş tutmadı. Hacı Çələbi sayca çox qoşunu olan II Irakli ilə toqquşmaqdansa, qoşun toplamaq məqsədilə Şəkiyə yola düşdü. Hacı Çələbi Şəki xanlığından qoşun topladıqdan sonra Gəncə xanı Şahverdi xan və Naxçıvan xanı Bəhmən xanı da öz tərəfinə çəkib birləşmiş qoşunla Gürcüstan üzərinə hücuma keçdi. Lakin bu döyüş uğursuz oldu. Daha sonra İrakli Car üzərinə hücum etdi. Hacı Çələbi Car camaatının köməyinə gələrək Qanıq çayının sağ sahilində çox şiddətli bir döyüşə girişdi. Gürcü valisi əvvəlkindən də ağır məğlubiyyətə uğrayaraq geri qayıtdı. 1755-ci ildə Hacı Çələbi böyük silahlı qüvvə ilə Şirvana yürüş etdi və Ağsunu mühasirəyə aldı. Qubalı Hüseynəli xan Şamaxı xanının köməyinə gəldi. Şamaxı və Qubanın birləşmiş qüvvələri ilə toqquşmada məğlub olan Hacı Çələbi çoxlu itki verərək geri çəkildi.

Hacı Çələbinin hakimiyyətinin sonlarına doğru Şəki xanlığı Azərbaycanın qüvvətli feodal dövlətlərindən biri idi. Xanlığın mərkəzi olan Şəki bütün ölkənin iqtisadiyyatında mühüm rol oynayırdı. Hacı Çələbinin xanlığı 1755-ci ilədək davam etdi. Ölkədə siyasi birləşmə üçün iqtisadi əsas olmadığına görə Hacı Çələbi Azərbaycan torpaqlarını birləşdirə bilmədi.

A.Bakıxanovun məlumatına görə Hacı Çələbinin varisi Ağakişi bəy qayınatası Qazıqumuxlu Məhəmməd xan tərəfindən naməlum səbəbdən Ərəşdə öldürüldü. Şəki tutuldu və qarət edildi. Lakin Məhəmməd xan Şəkidə 40 gün hakim ola bildi. Şəki bəyləri tərəfindən Şirvana qaçırılmış Hacı Çələbinin nəvəsi Hüseyn xan Quba

hökmdarı Fətəli xanın köməkliyi sayəsində Şəkiyə qayıtdı və əhali ilə birlikdə Məhəmməd xanı Şəkidən qovaraq özünü Şəki xanı elan etdi. Bu dövrdə İran hakimiyyəti uğrunda mübarizədə qalib gəlmiş Fətəli xan Əfşar 1762-ci ildə Azərbaycana yürüş etdi. Bundan istifadə edən Ərəş sultanı Məlik Əli Fətəli xanın köməyi ilə Hüseyn xanı hakimyyətdən salıb Şəkidə hakimiyyətini ələ keçirmək istədi. Lakin cəhd baş tutmadı. Hüseyn xan Fətəli xanı tanıdığını bildirdi və Məlik Əlini öldürərək Ərəşi xanlığın tərkibinə daxil etdi.

Azərbaycan torpaqlarını birləşdirmək uğrunda mübarizə aparan Qubalı Fətəli xan, Şamaxı xanı Məhəmməd Seyid xanla (bəzən də Məhəmməd Səid xan kmi yazılır) Hüseyn xanın mübahisələrindən istifadə edərək 1766-cı ildə Şirvan xanlığına qarşı sazişə girməyi təklif etdi. 1766-ci ildə müttəfiqlər Şirvan torpağına daxil oldular. Məhəmmədseyid xan qardaşları və Ağası xan döyüşdə məğlubiyyətə uğradılar. Şirvan xanlığının qərb hissəsi Şəki xanlığının tərkibinə qatıldı. Hüseyn xan Fətəli xanın məsləhəti ilə Ağası xanın gözlərini çıxararaq, Şəki mahalına gətirdi və Kür çayı sahilində Kotevan adlı ərazidə yerləşdirildi. Bütün Azərbaycanı Quba xanlığı ətrafında birləşdirməyi qarşısına məqsəd qoymuş Fətəli xan Şirvanın bir hissəsinin Şəki xanlığına qatılmasına razı deyildi. Çünki o, gələcəkdə Şirvan xanlığını da öz hakimiyyəti altına almaq istəyirdi. Vəziyyəti belə görən Hüseyn xan Ağası xanla barışdı. Ağası xan Şirvan bəylərini öz tərəfinə çəkdi, Hüseyn xan isə Fətəli xanın Dağıstanda nüfuzunun artmasından qorxan Avar xanı ilə ittifaqa girdi. Mütəffiqlərin qoşunu Şirvana,Fətəli xanın üzərinə hücum etdilər. 1768-ci ilin avqustunda Fətəli xanın qoşunu Yeni Şamaxıya yaxınlaşdı. O, həm köhnə, həm də yeni Şamaxı şəhərlərini tutdu. 1768-ci ilin sentyabrında Fətəli xanla Hüseyn xan arasında baş vermiş döyüş birincinin qələbəsi ilə qurtardı. Fətəli xan Hüseyn xanın

Ağsuya təyin etdiyi hakimi və vergi yığanlarını qovdu. Şəki xanlığının ixtiyarında olan torpaqlarını Quba xanlğı ilə birləşdirdi.

Şəki xanı Hüseyn xan öz iddialarından əl çəkmirdi. Lakin o, ikinci döyüşdə məğlub oldu və 1769-cu ilin iyulunda Hüseyn xanla Fətəli xan arasında yeni müqavilə bağlandı. Bu müqavilə Fətəli xana üstünlük verirdi. Hüseyn xan Fətəli xana lazım olduqda qoşun verməyi və Şamaxının işlərinə qarışmamağı öhdəsinə götürdü.

1774-cü ildə avar hakimi Nutsal xan Hüseyn xanla yeni ittifaq bağlayaraq yenidən Şamaxıya hücuma keçdi. Lakin Hüseyn xan Ağası xandan üz döndərərək geri qayıtdı. Fətəli xan 20 minlik qoşunla Ağası xanı məğlub etdi. Nutsal xan döyüşdə öldürüldü. Ağası xan isə yenidən Kotevana qayıtdı.

20 ildən artıq Şəki hökmdarı olmuş Hüseyn xan hakimiyyət uğrunda, xüsusilə də öz əmirləri ilə gərgin çəkişmələr aparırdı. 1779-cu ildə Hüseyn xan öldürüldü. Əbdülqədir hökumət bayrağını qaldırdı. Hüseyn xandan fərqli olaraq Əbdülqədir xan Fətəli xanla dostluq siyasəti yürütdü. Bu isə Fətəli xanla mübarizə aparan Qarabağ xanı İbrahimxəlilin niyyətlərinə uyğun gəlmirdi. İbrahimxəlil xan Məmmədhəsən ağanı həbsdən azad edib Cara göndərdi. O da öz ətrafına qüvvə toplayaraq ləzgilərdən ibarət qoşunla Şəkiyə hücum edib şəhəri tutdu. Əbdülqədir xan Ağası xanın yanına qaçdı. Lakin o, Əbdülqədir xanı Məmmədhəsən ağaya verdi. Əbdülqədir xan və oğlanlarını öldürdülər. Məmmədhəsən ağa özünü Şəki xanı elan etdi.

Rus generalı A.P. Yermolov Məmmədhəsən xan haqqında demişdir ki, o həm ağıllı, həm də xanlığının quruluşuna görə başqalarından fərqlənir. O, eyni zamanda şöhrətpərəst, hakimiyyət düşgünü və qəddar adam idi və qohumlarının çoxunu eyni zamanda şübhələndiyi adamları məhv etmişdi. Məmmədhəsən xan Şəki qalasını tikdirmiş, xanlıq üçün «Dəstdur ül-əməl» adlanan xüsusi qanunnamə yazmışdı. Bu qanunla vergi sistemi, qiymətlər, feodal

asılılıq münasibətləri, silki məsələlər, istismar edən və istismar olunan siniflərin hüquq və vəzifələri nizama salınmışdı.

Məmmədhəsən xan Fətəli xanın Azərbaycanın Quba xanlığı ətrafında birləşdirilməsi siyasətinin əleyhinə idi. O Fətəli xana qarşı mübarizədə hakimiyyətdən kənar edilmiş Şirvan xanları ilə yaxınlaşmağa çalışırdı. Lakin 1785-ci ildə baş vermiş döyüşdə Məmmədhəsən xan məğlub edildi. Fətəli xan Ağası xana qarşı qoşun göndərdi. Ağası xan məcbur olub Fətəli xanın hüzuruna gəldi. Oğlanları ilə bərabər həbs edildi və Qubaya göndərildi. Bundan sonra Fətəli xan Şəki üzərinə yürüş edib, Məmmədhəsən xanı məğlub etdi. Məmmədhəsən xan öz bacısını Fətəli xana verib barışdı. Fətəli xan da ittifaqı möhkəmləndirmək məqsədilə öz bacısı Huri Peykər xanımı ona verdi.

Fətəli xanın ölümündən sonra onun yaratdığı siyasi birləşmə dağılmağa başladı. Fətəli xanın oğlu Əhməd xan idarəetmə işlərində naşı idi. Bundan istifadə edən Məmmədhəsən xan Şəkinin müstəqilliyini qaytarmaqla bərabər, ətraf yerləri də öz nüfuz dairəsinə cəlb edə bildi. O, 1790-cı ildə Şirvanla ittifaqa girdi. Əhməd xanı Şirvandan sıxışdırdı. Şirvan xanlarının hakimiyyətini bərpa etdi və böyük qənimətlə Şəkiyə qayıtdı.

1795-ci ildə Qacarlar dövlətinin hökmdarı Ağa Məhəmməd xan Qacar Azərbaycana basqın etdi. Məmmədhəsən xan düşmənçilik etdiyi bəzi xanlardan intiqam almaq məqsədilə Qacarın tərəfinə keçdi. O Ağa Məhəmməd xanın Şirvanı ələ kermək üçün göndərdiyi dəstəsinə qoşuldu. Vətən torpağının taleyi ilə oynaması ona baha başa gəldi və hakimiyyətdən məhrum oldu. Xanın Qacarın yürüşünə qoşulmasından istifadə edən Səlim xan 1795-ci ilin dekabrında hakimiyyəti ələ keçirdi. Bu hadisədən xeyli əvvəl Məmmədhəsən xan doğma qardaşı Fətəlidən ehtiyat edərək onu kor etmişdi. O biri qardaşı Səlim xan Məmmədhəsən xanın yamanlıq qəsdindən qorxub Şəkidən

qaçaraq Car vilayətinə getmişdi. 1795-ci ildə Səlim xan Cardan və Avarıstandan aldığı qoşunla Şəki üzərinə yürüş etdi. Şəki camaatı Səlim xana köməyə gəldi. Məmmədhəsən xan məğlub edildi və Xaçmaz mahalına qaçdı. Məmmədhəsən xandan şübhələnmiş Ağa Məhəmməd şah orada olan sərkərdəsi Dəvəçi Mustafa xana Şəki xanını tutub gözlərini çıxarmağı tapşırdı. O buna əməl etdi və Məmmədhəsəni Təbrizə göndərdi.

Şəkidə hakimiyyəti ələ almış Səlim xan öz qardaşı Məmmədhəsən xanın uşaqlarını məhv etdi. Qarabağda heç bir müvəffəqiyyət qazana bilməyən Qacar Şuşanın mühasirəsindən əl çəkməyə məcbur oldu. O Tiflisə hərəkət etdi. Oranı qarət edərək geriyə İrana qayıtdı. 1797-ci ildə Ağa Məhəmməd şah Qacar ikinci dəfə Azərbaycana basqın etdi. O kor etdirdiyi Şəkili Məmmədhəsən xanı da özü ilə gətirmişdi. Bu zaman Şuşadan qayıdan Şirvan xanı Mustafa xan Muğandan Məmmədhəsən xanı götürərək Şəki üzərinə getdi. Səlim xan Qarabağa qaçdı. Məmmədhəsən xan yenə də hakimiyyət başına keçdi. Bu dövrdə Mustafa xan Azərbaycanın ən güclü xanlarından biri idi. O, Şəki torpaqlarını Şirvan xanlığının tərkibinə qatmaq niyyətini çoxdan həyata keçirmək istəyirdi. Mustafa xan Şəki xanlığının üzərinə yeridi və Məmmədhəsən xanı tutdurub, Şirvana göndərdi. Mustafa xan öz bəylərindən birini Şəkiyə təyin etmək istəyirdi. Lakin Şəki camaatı buna imkan vermədi. Səlim xan fürsətdən istifadə edərək Şəki bəylərinin köməyi ilə 1804-cü ildə hakimiyyəti ələ aldı.

Həm İranın, həm də qonşusu Şirvan xanlığının öhdəsindən gələ bilmədiyini görən Səlim xan Sisyanova məktub yazaraq Rusiyaya sadiq qalacağını bildirdi. Sisyanov cavab məktubunda onu qələbə münasibətilə təbrik etmiş və kömək edəcəyini bildirmişdi. Bununla yanaşı o, Səlim xanı Rusiyanın ali hakimiyyətini qəbul etməyə çağıraraq öz şərtlərini bildirir. Nəhayət, Səlim xan Rusiyanın ali

hakimiyyətlərini qəbul etdi. Gəncə yaxınlığında, Kürəkçay sahilində düşərgə salmış Sisyanovun iqamətgahına gəldi, 1805-ci il maym 21-də Şəki xanlığının zorla Rusiyaya qatılması haqqında müqaviləni imzaladı.

Bu müqaviləyə görə Səlim xan hər il dövlət xəzinəsinə 7 min çervon xərac verməli, öz xanlığında 500 nəfərlik rus qoşununu yerləşdirməli, onları və atlarını ərzaqla təmin etmək üçün hər il 529 xərvər un, 80 xərvər buğda, qışda odun verməli idi. Bundan başqa xan 4 yaşlı oğlunun əvəzinə, 5 bəyin uşağını girov verməli, iki ildən sonra isə öz oğlunu Tiflisdə daimi yaşamaq üçün girov göndərməli idi. Səlim xandan sonra Şəki xanlığını Cəfərquli xan Xoylu (1806-1814) və oğlu İsmayıl xan (1814-1819) idarə etmişlər.

Qarabağ xanlığı. Qarabağın adı ilk dəfə yazılı mənbədə 1284-ci ildə çəkilmişdir (F.Rəşidəddin"Came-ət təvarix"əsəri). XVIII yüzillikdə Qarabağın ərazisində mürəkkəb tarixi hadisələr baş verdi. Səfəvi dövlətinin inzibati bölgülərindən birini təşkil edən Qarabağ bəylərbəyliyi 1724-cü ildən etibarən Osmanlı Türkiyəsi tərəfindən zəbt edildi. Bəylərbəyliyin mərkəzi Gəncə şəhəri türk qoşunlarının əlinə keçdi.

Ön Qafqaz ərazisini türklər büsbütün təmizlədikdən sonra Nadirqulu xan Əfşar ona kömək edənlərə və döyüşlərdə fərqlənənlərə müxtəlif mükafat və hədiyyələr verdi. Türk qoşunları ilə müharibədə fərqlənənlər arasında Qarabağın Cavanşir elinin nümayəndələri Pənahəli bəy və onun qardaşı Fəzləli bəy də var idi. Nadirqulu xan belə cəsarətli və xalq arasında böyük nüfuza malik olan qardaşların Qarabağda qalmalarından ehtiyatlanaraq onların hər ikisini sarayda xidmət üçün İrana dəvət etdi. Şah sarayında Fəzləli bəy eşikağası, Pənahəli bəy isə ordu əmiri təyin olundu.

1736-cı ildə Muğanda keçirilən tacqoyma mərasimi zamanı Qarabağın ziyadoğlular, iyirmidördlər, otuzikilər, Cavanşir və başqa

elləri Nadirqulu xanın şahlığa namizədliyinin əleyhinə çıxdılar və İran taxtında yalnız Səfəvi sülaləsinin nümayəndələrinin oturmasını təkid etdilər. Məhz bu səbəbdən Nadir, şah olduqdan sonra qarabağlıları cəzalandırmağı qərara aldı. O, Qazax, Borçalı və Şəmşəddil ellərini Qarabağ bəylərbəyliyinin tabeliyindən çıxarıb Kartli çarı Teymurazın ixtiyarına verdi. Cavanşir, otuz iki, kəbirli ellərini Xorasan vilayətinə və Əfqanıstanın sərhədlərinə sürgün etdi. Eyni zamanda Qarabağ bəylərbəyliyinə tabe olan xristian alban məlikliklərə azadlıq bəxş etdi və onların bilavasitə şaha tabe olmaları barədə əmr verdi.

Qarabağlıların böyük bir hissəsinin Xorasan və Əfqanıstana köçürülmələri Məşhəddə şahın sarayında xidmət edən Pənahəli bəyi və Fəzləli bəyi xeyli narahat etdi. Fəzləli bəyin qarabağlıların zorla sürgün edilmələri əleyhinə açıqdan-açığa çıxması onun şah tərəfindən edam olunması ilə nəticələndi. Nadir şah eşikağası vəzifəsinə Pənahəli xanı təyin etmək fikrində idi. Şahın xain niyyətli olduğunu bilən Pənahəli bəy 1738-ci ildə öz yaxın adamları ilə birlikdə sarayı tərk edib doğma yurdu Qarabağa çəkildi.

Nadir şah tərəfindən təqib olunan Pənahəli bəy ilk zamanlar Zəngəzur feodalı Qara Murtuz bəyin yaylasında məskən saldı. Ətrafına topladığı dəstələrlə Gəncəyə, Naxçıvana, Şəkiyə basqınlar etdi. Pənahəli bəy qarət nəticəsində əldə etdiyi mal-qaranı, atları və s. məzlum kütlə arasında paylayır və bununla böyük nüfuz qazanırdı. Nadir şahın ölümü bir çox yerli feodallar kimi Pənahəli bəy üçün də geniş fəaliyyət imkanları yaratdı.O, keçmiş Qarabağ bəylərbəyliyinin qərb hissəsində Qarabağ xanlığının əsasını qoydu.

Qarabağ xanlığı XVIII yüzilliyin ortalarında Azərbaycan torpağında yaranmış xanlıqlardan biri oldu. O cənubdan Araz çayı, şimaldan Gürcüstan sərhədində Sınıq körpü, şərqdən Kür çayı, qərbdən isə indiki Ermənistana həmsərhəd olan torpaqları əhatə

edirdi. Xanlıq yaranana qədər də Qarabağ bəylərbəyliyi həqiqətən geniş əraziyə malik idi.

Qarabağ xanlığının əsasını birləşmiş Azərbaycan etnosları təşkil edirdi. Qarabağın aran hissəsində yaşayan otuzikililər, Cavanşir, kəbirli tayfaları Qarabağ vilayətinin köklü elatları idilər.

Qarabağ xanlığının yaranmasının öz xüsusiyyətləri vardır. Bu əsas etibarilə üç istiqamətdə gedirdi: 1.Qarabağda ayrı-ayrı feodal hakimlərinin siyasi müstəqilliyini ləğv etməklə xanlıq hakimiyyətini bərqərar etmək, 2.Xanlığın hərbi-siyasi mərkəzini yaradıb möhkəmləndirmək, 3.Xanın hakimiyyətini qonşu feodal dairələrə yaymaq. Gələcək xanlığın banisi Pənahəli xan başda olmaqla, Cavanşir feodal əyanları bu məsələlərin həllində aparıcı qüvvə idilər.

Pənahəli Sarıcalı oymağından, cavanşir tayfasının feodal əyanlarına mənsub idi. Otuzikilər tayfasının başçısı Pənahəli xan son dərəcə varlı və böyük təsir gücünə malik idi. Onun mövqeyi demək olar ki, gündən-günə möhkəmlənirdi. A.Bakıxanovun fıkrincə. Pənahəli xanın təhsili olmasa da, o, «cəsarətli, sadə, xoşrəftar və tədbirli idi».

Pənahəli xanın Qarabağ ərazisində xanlıq yaratmaq fıkri əyanların və xristian məliklərin müqavimətinə rast gəldi. Qarabağ məlikləri hələ Nadir şahın sağlığında, onun Türkiyəyə qarşı apardığı müharibədə vuruşur, onun qoşununu ərzaqla təmin edir, dövlətin bütün imtiyazlarından istifadə edirdilər. Onların öz xüsusi silahlı qüvvələri var idi. Çiləbörd məliyi Allahqulu Türkiyəyə qarşı müharibədə şücaət və mərdlik göstərdiyinə görə şah tərəfindən sultan titulu ilə təltif olunmuşdu. Bundan əlavə, Nadir şah məlikləri Gəncə bəylərbəyi II Uğurlu xanın tabeliyindən azad etmişdi. O tələb edirdi ki, məliklər özlərini sərbəst bilsinlər və öz xahiş və tələblərini şahın adına göndərsinlər və ona xərac versinlər. Ümumən Nadir şahın

dövründə məliklik öz çiçəklənmə dövrünü keçirirdi. Yeni şəraitdə vəziyyət dəyişildi.

Pənahəli xan özünü xan elan etdi (1748-1763). Qarabağ xanlığını İran xanlarının və ona düşmən olan yerdi feodalların basqınlarından müdafiə etmək üçün Kəbirli mahalında (indiki Ağcabədi rayonunda) Bayat qalasını tikdirdi (1748). Qısa vaxtda qalaya hasar çəkildi, xəndəklər qazıldı, bazar, hamam və məscid tikildi. Xan bütün ailəsini, Qarabağ əyanlarını qalaya köçürdü. Ətraf kəndlərin əhalisi, habelə Təbriz və Ərdəbildən xeyli sənətkar da burada yerləşdi. Qarabağ xanlığının artmaqda olan qüdrətini və Bayat qalasının tikilməsini görən Şirvan və Şəki hakimləri, habelə Qarabağın bir sıra məlikləri Pənahəli xana qarşı ittifaq yaratdılar. Tarixçi Mirzə Adıgözəl bəyin dediyinə görə, məliklər Şəki xanı Hacı Çələbiyə məktub göndərib ona bildirdilər ki, «Pənah xan burada taxta çıxmış, qala və səngər tikdirmişdir. Əgər dəfində bir qədər təxir edilərsə, sonra onun qarşısında durmaq mümkün olmayacaqdır».

Pənahəli xanın artan şöhrəti Azərbaycan xanlarını da narahat edirdi. Onların içərisində Hacı Çələbi Pənahəli xana qarşı daha inadlı mübarizə aparmağı qərara aldı. O, xeyli qüvvə toplayıb müttəfiqləri ilə birlikdə Bayat qalasını mühasirəyə aldı və bir neçə dəfə həmlə etdi(1748). Lakin yürüş haqqında əvvəlcədən xəbər tutan Pənahəli xan öz qohumlarını və Qarabağ elatlarını silahlandıraraq vaxtında müdafiəyə hazırlanmışdı, hamı onun köməyinə gəlmişdi. Mühasirənin bir aydan artıq davam etməsinə baxmayaraq, Pənahəli xanın düşmənləri Bayatı ala bilmədilər. Əhməd bəy Cavanşir yazırdı ki, Hacı Çələbi böyük itki verərək geri qayıdarkən məyusluqla demişdi: «Pənahəli özünü xan elan etmişdi, mən isə öz məğlubiyyətimlə onun xanlığını təsdiq etdim». Hacı Çələbi məğlub olsa da, öz niyyətindən əl çəkmədi, Qarabağ məlikləri ilə Pənahəli xana qarşı danışıq apardı. Öz növbəsində Qarabağ hakimi Pənahəli

xan da təbrizli Əmiraslan xanla ona qarşı ittifaq bağladı. Pənahəli xan müxtəlif yollarla məlikləri özünə tabe etməyə çalışırdı. O, Gülüstan və Çiləbörd məlikləri arasında nifaq saldı. Göycədən Qarabağa köçmüş və hakimiyyətə can atan Vərəndə məliyi Şahnəzər hakimiyyəti və ərazini parçalamaq niyyətində olan Çiləbörd, Gülüstan və Dizaq məlikləri ilə düşmənçiliyə başladı. Məlik Şahnəzərin dayısı Hüsünü öldürməsi məliklərin ona qarşı mübarizədə birləşmələrinə səbəb oldu. Məlik Şahnəzər qızı Hürzəti Pənahəli xanın oğlu İbrahimxəlilə verərək onun hakimiyyətini qəbul etdi, «Xəmsə»dən ayrılıb tamamilə xanın himayəsinə keçdi və onun vassalına çevrildi. Beləliklə, Xaçın da xanlıqdan asılılığı qəbul etdi. Onun məliyi Mirzə xan Pənahəli xanın adına pul kəsdirdi.

«Xəmsə»nin ərazisindən təcrid olunmuş Araz və Qaradağ arasında yerləşən Dizaq da xanın hakimiyyətini qəbul etdi. Bu isə uzun müddət davam edən mübarizəyə səbəb oldu. Loridən Qarabağa qaçıb gəlmiş Məlik-Yeqanovlar nəslinin nümayəndələri edam edildilər. Gəncə xanlığından Tərtər çayına qədər Gülüstan məlikliyinə, Tərtər və Xaçın çayları arasındakı ərazi isə Çiləbörd məlikliyinə qatıldı. Çiləbörd və Gülüstanın vassal asılılığa keçməsi ölüm, qarət, əkin və bağların məhv edilməsi ilə müşayiət edildi. Onların məlikləri- Hətəm və Usub xeyli kəndlərə malik idilər. Məlik Hətəm və Usub əvvəlcə Pənahəli xana tabe olmamaq üçün Cırmıx qalasında özlərinə sığınacaq tapdılar, sonra isə torpaqlarını, bağlarını, əkinlərini tərk edərək Şəmkirə keçdilər.Gəncə xanı onlara sığınacaq verdi. Məliklər öz ailələri, nökərləri yaxın adamları və rəiyyətləri ilə birlikdə köçüb bu yerlərdə məskunlaşdılar. 7 ildən sonra onlar Qarabağa qayıdaraq xanın ali hakimiyyətini tanıdılar. Göründüyü kimi naməlum səbəblərə görə onlar Azərbaycanın şəhər və kəndlərində özlərinə sığınacaq tapmış,nisbətən əmin-amanlıq yaranan kimi Qarabağa gəlmişdilər. Məsələn, Dizaq məliyi Qarabağa Loridən

gəlmişdir. Vərəndə məliyi Şahnəzər Göyçədən, Çiləbörd məliyi Allahqulu Macavizdən, Gülüstan məliyi Usub Şirvandan qaçaraq özünə Qarabağda sığınacaq tapmışdır. Nadir şaha itaətə görə məliklik rütbəsi əldə etmişdilər. Xaçın isə (Mirzəxan) o dövrdə Həsən Cəlalyanın (1702-1728) övladına verilmişdir. Buradan aydın olur ki, Allahqulu, Şahnəzər, Usub və qaynaqlarda adı çəkilən digər Qarabağ məliklərinin əsli-nəsəbi Qriqoryan (xristian) albanlar olmuşdur.

Beləliklə, XVIII yüzilliyin 50-ci illərində iri feodal hakimləri, məliklərin müqaviməti sındırıldı və onlar xanlığa tabe edildilər. Lakin alban xristian məliklərinin Qarabağ kilsə təşkilatının (Qandzasar katolikosu) rus sarayına yazdıqları məktublarda, erməni xristianlarının yazılarında məliklərin ayrılma cəhdlərinə onların mərkəzi hakimiyyətə tabe olmamalarına dini don geydirilmişdi. Əslində isə Qarabağ məlikləri ilə mərkəzi xanlıq hakimiyyəti arasında gedən mübarizə siyasi mahiyyət daşıyırdı. Hər hansı hakim feodal sinfi arasında aparılan din davası deyil, hakimiyyət, torpaq və ərazi uğrunda aparılan mübarizə idi. Bu da öz növbəsində mükəlləfiyyətli kəndli üzərində öz ağır təsirini göstərirdi. Həmin hadisədən sonra Pənahəli xan Bayat qalasına o qədər də etibar etmədi. Ağdam yaxınlığındakı –Şahbulaqda daha möhkəm qala tikdirdi. Pənahəli xan bir sıra xanların oğlanlarını Şahbulaq qalasında girov saxlayır və bununla onları özündən asılı vəziyyətdə saxlamaq istəyirdi. Az sonra o, xanlığın mərkəzini əlçatmaz bir yerə köçürdü və orada qala saldırdı. Bu Şuşa qalası idi. Qarabağ tarixçilərinin verdikləri məlumata görə, 1750-ci ildə Şuşakənddən bir qədər aralı hündür sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Əvvəllər qala onun banisinin adı ilə Pənahabad, sonralar isə Şuşa qalası adlandırıldı. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 5 yanvar tarixli Sərəncamına əsasən Şuşanın əsası 1752-ci ildə qoyulmuşdur.2022-ci ildə şəhərin

270 illiyi qeyd olunmuşdur.Pənahəli xan dövründə Şuşa qalası Azərbaycanın inzibati ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Şuşadan aran vasitəsilə Ön Qafqazı İran və digər ölkələrlə birləşdirən karvan yolu keçirdi.

Pənahəli xan İranda Nadir şahın xələfləri arasında ara müharibələrinin genişlənməsindən istifadə edərək, Gəncə İrəvan, Naxçıvan xanlıqlarını xüsusən Ərdəbil xanlığını ələ keçirməyə çalışdı. Qısa müddətdə o, həmin xanlıqları zorla və nigah diplomatiyası yolu ilə öz təsiri altına salmağa müvəffəq oldu. Sarıcalı Dərgahqulu bəyi Ərdəbilə, Gəncənin Ziyadoğlu nəslinin xələflərini isə Gəncəyə hakim təyin etdi. Pənahəli xan öz ərazisini cənub-şərqə doğru genişləndirdi. Cənub-qərbdə isə Bərgüşada qədər uzanan torpaqları-Tatev,Sisyan, Qafan, Meğri, Güney mahallarını Qarabağ və Naxçıvan hakimlərindən aldı. İrəvan hakiminə tabe olan Göyçə mahalını, Tərtər ərazisini ələ keçirdi. Xudafərin körpüsündən Kürəkçaya qədər uzanan və Gəncə xanlığına tabe olan torpaqları öz nüfuz dairəsinə daxil etdi. Naxçıvanın kəngərli tayfasını Gürcüstandakı Dəmirçi – Həsənalı elini, Qaraqoyunlu, Cinnli tayfalarını itaətə gətirdi. Zəngəzurun bir sıra mahalları da Qarabağ xanlığına tabe oldu. XVIII yüzilliyin II yarısında xanlıq artıq böyük ərazini əhatə edirdi. Bura Qarabağın dağlıq və aran hissəsi daxil idi.

Pənahəli xan Məmmədhəsən xan Qacarın, Fətəli xan Əfşarın işğalçılıq siyasətinə qarşı uğurlu mübarizə apardı. Xanlığın mövcud olduğu müddətdə «heç kimə qulluq etmədi, heç kimin boynuna itaət boyunduruğu qoymağa çalışmadı». Yalnız öz istiqlaliyyətini qorumağa çalışdı.

XVIII yüzilliyin 50-ci illərində Pənahəli xan şəhərin möhkəmləndirilməsi ilə məşğul olarkən Qarabağ dəfələrlə qonşu feodal hakimlərinin basqınlarına məruz qalırdı. 1757-ci ildə Məmmədhəsən xan Qacarın qoşunu Qarabağa basqın etdi. Şuşadan

bir qədər aralı düşərgə saldı və bir aya qədər orada qaldı. Mirzə Camalın məlumatına görə, Məmmədhəsən xan «Pənahəli xanı tabe etmək və Şuşa qalasını ələ keçirmək üçün çox düşündü, tədbirlər tökdü... lakin bu qədər çoxlu qoşunla qalaya heç yaxınlaşa bilmədi. Əksinə Qarabağın cəsur əhalisi Məmmədhəsən xanın ordusunu, at-qatırını və başqa mal-qarasını qarət edərək onun qoşununa xeyli ziyan vurdu». Məmmədhəsən xanın qüvvələrinin dəf edilməsində Şəki hakimi Səfərəli xan da az rol oynamadı. Məmmədhəsən xanın Azərbaycanda olmasından istifadə edən Kərim xan Zənd həmin ildə onu idarə etdiyi Astarabad, Mazandaran və Gilan üzərinə hücum etdi. Bundan xəbər tutan Məmmədhəsən xan Şuşanın mühasirəsindən əl çakib tez geri döndü.

1760-cı ilin payızında Kərim xan Zənd Güney Azərbaycana hücuma başladı.Təbriz mühasirəyə alındı.4 ay davam edən mühasirə uğursuz oldu.1761-ci ilin yayında Ucan düzündə,Qaraçəmən kəndi yaxınlığındakı döyüşdə Zəndlər məğlub oldu.Fətəli xanın qoşunları bu qələbədən arxayınlaşdı.Bundan istifadə edən Kərim xan Zəndin qardaşı Şixəli xan Zənd hücuma keçdi,Xoylu Şahbaz xan Dünbuli yenidən Fətəli xan Əfşara xəyanət etdi.Fətəli xan Əfşar məcbur olub Urmiya qalasına çəkildi.Kərim xan Fətəli xan Əfşara qarşı bir sıra hərbi-diplomatik tədbirlər gördü.Vaxtilə Fətəli xanın sıxışdırdığı yerli feodallara və xanlara məktub göndərərək,onları öz tərəfinə çəkməyə çalışdı.Kərim xan Pənah xana belə bir məktub göndərdi: "Fətəli xan bizim təkcə düşmənimiz deyil,həm də qanlımızdır.Sizə qarşı da yaramaz işlər görmüşdür.Sənin oğlunu hiylə ilə aparıb məhbus etmişdir. İndi bizə kömək etməli və bu işdə heç nəyi əsirgəməməlisiniz.Çünki intiqam alsaq və oğlunu xilas etsək,siz sevindiyiniz kimi biz də arzumuza çatmış olarıq.

Pənahəli xan bu çağırışa cavab olaraq kiçik oğlu Mehralı xanı öz yerinə hakim təyin etdi və qoşunu ilə zəndlərlə birləşdi. Bir neçə aylıq

qəhrəmancasına müqavimətdən sonra 1763-cü ilin fevralında Urmiya şəhəri təslim oldu.Fətəli xan Əfşar edam olundu.Lakin bu qələbədən sonra Kərim xan Zənd öz müttəfiqlərinə, o cümlədən Pənahəli xana xəyanət etdi.Onun oğlu İbrahimxəlil xanı həbsdən azad edib, Qarabağın xanı təyin etdi. Pənahəli xanı və digər müttəfiqlərini qonaqlıq bəhanəsi ilə Şiraza apardı və ömrünün sonunadək(1763)burada saxladı. Əslində "Şiraz qonaqlığın"da məqsəd Azərbaycan xanlarını girov götürməklə, Kərim xan bu xanlıqları özünə tabe etmək istəyirdi. Lakin o,öz məqsədinə çatmadı.

İbrahimxəlil xanın hakimiyyəti (1763-1806) dövründə xanlıq daha da gücləndi. Burada diqqətəlayiq binalar, qalalar tikildi. Onun nüfuzu Azərbaycanın cənub xanlıqlarına, müəyyən vaxtlarda isə Gəncə xanlığına da yayıldı. Mirzə Adıgözəl bəy və Qarabağın sonrakı tarixçiləri qeyd edirdilər ki, İbrahimxəlil xanın «hökm və fərmanı Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qarabağ, Təbriz, Ərdəbil vilayətləri,hətta Marağa, İraq və Azərbaycanın sərhədi olan Qaplankühda belə işlərdi». Əlbəttə, müəlliflər bir qədər yanılırlar. İbrahimxəlil xanın ancaq Qarabağ, Ərdəbil, Naxçıvan və Gəncə üzərinə təsiri olmuşdur. Onun etibarlı müttəfiqi Car-Balakən camaatının başçısı Nüstal xanın oğlu Ümmə xan idi. İbrahimxəlil xan onun bacısı Bikə xanımla evlənmişdi. Bu qohumluq hər iki feodal arasında hərbi-siyasi birliyin yaranmasına səbəb oldu. İbrahimxəlil xan qızı Tuti Bikə xanımı şəkili Səlim xana ərə vermişdi. Məhz onların gücündən istifadə edən İbrahimxəlil xan məliklərin xəyanətinə qonşu xanlıqların Qarabağ basqınlarına son qoydu. Qarabağ xanlığının daxilində və xaricində sabitlik yarandı. Əhali dinc əməklə məşbul olmağa başladı. İbrahimxəlil xan gürcü çarı II İrakli ilə dostluq edirdi. Onun vəzirinin qızı ilə evlənmişdi. II İrakli ilə dostluğu möhkəmləndirmək üçün xanlığın baş vəziri məşhur Azərbaycan şairi M.P.Vaqif Tiflisə getmişdir. Onun iştirakı ilə

Qarabağ xanlığı ilə gürcü çarlığı arasında bağlanan sazişin siyasi əhəmiyyəti var idi.

60-80-ci illərdə qardaşı Mehralı xanla hakimiyyət uğrunda başlanmış mübarizə də İbrahimxəlil xanın xeyrinə qurtardı. Beləliklə o, öz daxili işlərini nizama saldıqdan sonra hərbi səfərlərə başladı. Mirzə Yusif Nersesov bu səfərin ikisi barəsində məlumat verirdi: Birincisi Naxçıvan səfəridir. Bu zaman İrəvan xanı Naxçıvana kömək göndərir. İbrahimxəlil xan bu səfərdə Naxçıvanın Qarabağlar məntəqəsində ciddi müqavimətə rast gəlib, geri çəkildi. Bundan sonra o,Naxçıvan xanı Kəlbəli xanla dostluq əlaqəsi saxladı.

İkinci - Xoy səfəri idi. İbrahimxəlil xan 1789-cu ildə müttəfiqlərin qoşunu ilə Xoya tərəf hərəkət edərək Mərəndə daxil oldu. Xoy hakimi Cəfərqulu xan öz adamları ilə ona qarşı çıxdı. Mərənd yaxınlığında rəqib tərəflər üz-üzə gəldilər. Şiddətli döyüş oldu. Qarabağ qoşunu məğlubiyyətə uğradı. Xeyli əsir alındı. Onların içərisində M.P.Vaqif və İbrahimxəlil xanın əmisi oğlu Fərzi bəy də var idi. Əsirləri Xoy şəhərinə apardılar. İbrahimxəlil xan Cəfərqulu xanla danışığa girdi və öz adamlarını əsirlikdən azad etdi. Hər iki xanlıq arasında dostluq müqaviləsi imzalandı. Bu hadisə ilə əlaqdar M.P.Vaqif yazırdı:

Fərd Vaqifəm! mən də bu səfərdən salamat qayıtdım
Tövbə gər bir də qiyamət günü çıxsam qaladan.

Kərim xan Zəndin ölümündən (1779) sonra İranda baş vermiş feodal ara müharibələrində mənşə etibarilə türk qızılbaş Qacar sülaləsi qələbə qazandı. Sülalənin banisi Ağa Məhəmməd xan Qacar XVIII yüzilliyin 80-cı illərinin ortalarında Xorasan istisna olmaqla İranın başlıca əyalətlərini istila edərək, Tehranı özünə paytaxt etdi. 1794-cü ildə Qarabağa 8 minlik qoşun göndərdi. Lakin qoşun Əsgəran qalasının yaxınlığında məğlub olub geri çəkildi.

Ağa Məhəmməd xan Səfəvi şahları kimi bütün Ön Qafqazı özünə tabe etmək istəyirdi. O yürüşə başlamazdan əvvəl, Azərbaycanın bütün xanlarına Kartli və Kaxetiya çarlığına, habelə Cənubi Dağıstan hakimlərinə fərmanlar göndərib girov «əmanət» tələb etdi. İbrahimxəlil xandan itaət əlaməti olaraq oğlunu girov istədi. Lakin Ön Qafqazın feodal hakimlərinin əksəriyyəti yenidən İran zülmünə boyun əyməkdən imtina etdilər. Bu da Ağa Məhəmməd xanın böyük bir ordu ilə Ön Qafqaza hücumu üçün bəhanə oldu. O, qoşunlarına 3 istiqamətdə – Lənkəran, İrəvan, Şuşa istiqamətində yürüş etməyi əmr etdi. Ağa Məhəmməd xan özü sonuncu səmtə hərəkət edən qoşunun başçısı idi. Lənkəran və İrəvan istiqamətində hərəkət edən İran qoşunları bu yerləri darmadağm edərək Ağa Məhəmməd xanın qoşunları ilə birləşdilər. Lənkəran xanı Mir Mustafa xan Xəzəri dolaşan rus gəmilərinin köməyinə sığınmaq üçün Sarı adasına qaçdı. Rus hərbi gəmiləri Qacar qoşununu sahilə çıxmağa qoymadı. Nəhayət, 1795-ci ilin iyunun sonunda Ağa Məhəmməd xan 85 minlik ordu ilə Qarabağ xanlığına soxulub, Şuşa qalasını mühasirəyə aldı. Bu hücum bütün Qafqaz üçün təhlükəli idi. Odur ki, azərbaycanlılar işğalçılara qarşı inadla mübarizəyə qalxdılar. Xanlığın 15000 seçmə əhalisi düşmənlə vuruşurdu. Qalanın mühasirəsi nəticə vermədiyindən Ağa Məhəmməd xan ətraf kəndləri yandırır, mal-qaranı sürüb aparır, əhalini əsir alırdı. O, Şuşanı 33 gün mühasirədə saxladı. Heç bir müvəffəqiyyət qazanmadı. Belə olduqda Tiflisə qədər hərəkət etdi. Kartli-Kaxetiya sarayındakı hərc-mərclik Qacara Tiflis şəhərinə soxulmağa imkan verdi. İran qoşunları bir döyüşdə şəhəri ələ keçirərək, əhalini qırdılar və 20 min nəfər əsir apardılar. Bir müddət sonra düşmən ordusu qışlamaq üçün Muğana çəkildi.

Ağa Məhəmməd xan buradan Azərbaycan xanlarına və Dağıstan hakimlərinə yenidən hədə-qorxu ilə dolu məktublar yazaraq onlardan tabe olmağı tələb etdi. Lakin xanların çoxu ona rədd cavabı verdi.Belə

olduqda Ağa Məhəmməd şah Qacar ikincə yürüşə(1797)başladı.Əhməd bəy Cavanşir yazır ki,1797-ci ilin yazında Ağa Məhəmməd şahın Şuşaya saysız hesabsız qoşunu yaxınlaşdı. İbrahimxəlil xan Şuşanı tərk edib, Dağıstana getdikdən sonra Ağa Məhəmməd şah şuşalılara məktub göndərərək tabe olmalarını təklif etdi. Uzun sürən mübahisədən sonra Qarabağ ruhanilərinin başçısı baş müctəhid Hacı Babək şahın düşərgəsinə getdi. Şah bildirdi ki, onun gəlişi münasibətilə şuşalılar 500.000 əşrəfı təzminat toplamalıdırlar. Hacı Babək isə onu 200.000 əşrəfiyə endirə bildi. Ağa Məhəmməd şah Şuşanı tutduqdan sonra, şəhərdə İbrahimxəlil xanın böyük oğlu Məhəmməd xanın evində yerləşdi. O, İbrahimxəlil xanın əsiri və düşməni olan Məhəmməd bəyi Şuşanın xanı təyin etdi. Ağa Məhəmməd şah Qacarın Qarabağı tutması Şimali Azərbacanda siyasi vəziyyəti dəyişdi. Şahın tərəfdarları baş qaldıraraq hakim qüvvəyə çevrildilər. Rus qoşunu ilə sıx əlaqə saxlayan, onlara xidmət edən xanlar təqib olundular.

Gəncəli Cavad xan xanlıqda baş vermiş daxili hadisələrə başı qarışdığından şaha müqavimət göstərə bilmədi. Öz keçmiş xidmətlərinə ümid bəsləyən Cavad xan və Bakı xanı Hüseynqulu xan şahın tələbi ilə Şuşaya çağrılıb nəzarət altına alındılar. Şamaxı xanı Mustafa xan, Şəki xanı Səlim xan qasid vasitəsilə öz itaətlərini bildirdilər. Qubalı Şeyxəli xan isə Ağa Məhəmməd şahın hüzurunda idi. Çünki şah Bakı xanlığını da onun idarəsinə verməyi vəd etmişdi. Qacarların qoşunu isə öz növbəsində şəhərə daxil olduqdan sonra, əhaliyə divan tutur, qarət edirdi. Yüzlərlə adam zindana salındı.İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir(Batmanqılınc) və Vaqif də onların içərisində idi. Onları edam gözləyirdi.

Tezliklə, 1797-ci il iyulunda Ağa Məhəmməd şaha Məhəmməd bəy Cavanşirin təşəbbüsü ilə qəsd edildi. Şahın qətlindən sonra Bakı,

Gəncə, İrəvan xanları öz şəhərlərinə qayıtdılar. Qacarların qoşunu tələsik cənuba çəkildi. Bundan istifadə edən Məhəmməd bəy Cavanşir xanlıqda hakimiyyətini möhkəmləndirdi. Onun əmrilə 1797-ci ilin yazında Vaqif öldürüldü. Lakin İbrahim xan Şuşaya qayıtdıqdan sonra Məhəmməd bəy Cavanşiri xəyanətdə təqsirləndirdi. Məhəmməd bəy Şəki xanı Məhəmmədhəsən xanın yanına qaçdı.O,Məhəmməd bəyi Şirvanlı Mustafa xana təslim etdi.Məhəmməd bəy 1797-ci ilin sonunda atası Mehrəli xanın qan düşməni olna Mustafa xan tərəfindən öldürüldü.Bu hadisə İbrahim xanla Şamaxı və Şəki xanları arasında münasibətləri kəskinləşdirdi.

1805-ci il mayın 14-də Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı Rusiya təbəəiyinə keçdi, 1822-ci ildə xanlıq Rusiya tərəfindən ləğv edildi.

İrəvan xanlığı. Qərbi Azərbaycanda,sabiq Çuxursəd bəylərbəyliyinin ərazisində yaranmış İrəvan xanlığı Azərbaycan xanlıqları sırasında mühüm yeri tutur.Xanlığın mərkəzi İrəvan şəhəri idi.Məlum olduğu kimi,Səfəvi dövləti 1514-cü ildən başlayaraq müəyyən fasilələrlə XVIII yüzilliyin 30-cu illərinədək Osmanlı Türkiyəsi ilə qanlı müharibələr aparmışdır. Həmin müharibələr zamanı ucsuz-bucaqsız Səfəvi dövlətini idarə etmək çətinləşdiyinə görə XVII yüzilliyin 30-cu illərində ölkə inzibati cəhətdən Qızılbaş tayfaları arasında bəylərbəyiliklər adlanan 13 əyalətə bölünmüşdür. Belə əyalətlərdən biri mərkəzi İrəvan (Rəvan) şəhəri olan Çuxursəd bəylərbəyliyi idi. Bəylərbəyiliklər də öz növbəsində iqtisadi cəhətdən mahallara bölünürdü. Bu mahalları idarə edən şəxs xan yaxud sultan rütbəsini daşıyırdı. Çuxursəd bəylərbəyiliyinə Maku, Sədərək, Naxçıvan vilayətləri, Bəyazid qalası, Şadilu tayfasının vilayəti, Maqazberd daxil idi. Çuxursəd bəylərbəyliyini ustaclı və qacar tayfasının nümayəndələri idarə etmişlər.

1747-ci ildə Nadir şah ona tabe ölkələrdən aldığı xəracın miqdarını o qədər artırmışdı ki, yerli feodallar ondan üz döndərib silaha əl atmalı olmuşlar. Nəticədə bir çox şəhər, o cümlədən İrəvan Əfşarlar imperiyasının tabeliyindən çıxmışdır. 1747-ci ilin mayın 9-da Nadir şah Xorasanda öldürüldükdən sonra İrəvanda üsyana rəhbərlik edən yerli feodal Mir Mehdi xan Qasımlı(Əfşar) baş verən hərc-mərclikdən istifadə edərək Çuxursəd bəylərbəyliyinin böyük bir hissəsində müstəqil xanlıq yaratdı. O,1748-ci ilin əvvəllərində Urmiya xanlığına basqın etdi. Urmiya xanlığının hakimi Fətəli xan Əfşar Mir Mehdi xana ərazisinin bir hissəsini güzəştə getməyə məcbur oldu.

1751-ci ildə Mir Mehdi xanın zəifliyindən istifadə edən ata və oğul – Teymuraz və II İrakli İrəvan xanlığına basqın edərək qələbə çalmışdı. Gürcüstana qayıtdıqdan sonra Teymuraz bütün Cənubi Qafqazda yerli feodalları özünə tabe etmək fikrinə düşdü. Lakin o Şimali Azərbaycanda günü- gündən güclənən Hacı Çələbi xandan ehtiyat edirdi. Vaxtilə İrəvan xanı Mir Mehdi xana məğlub olmuş Fətəli xan Əfşar intiqam almaq məqsədilə özündən nisbətən güclü olan Azad xanın hərbi gücündən istifadə etməyi qərara aldı. Birləşmiş qoşunlar İrəvan xanlığı istiqamətində hərəkət etdilər. Cənubdan yaxınlaşan təhlükənin qarşısını almaq üçün Mir Mehdi xan İrəvan qalasının müdafiə qabiliyyətini möhkəmləndirdi. İrəvanda yaşayan ermənilərin əllərinə girəvə düşdü. Onlar Kartli və Kaxetiya çarları Teymuraz və II İrakliyə müraciət edərək onları İrəvana dəvət etdilər ki, yaxınlaşan təhlükəni sovuşdurub, "xristianların" vasitəsilə hakimiyyəti ələ alsınlar. İrəvan ermənilərinin müraciəti gürcü çarlarının ürəyindən oldu. Gürcü qoşunları II İraklinin başçılığı altında İrəvan xanlığı istiqamətində hərəkət etdilər. Gürcüstandan gələn qoşunlar İrəvan qalasının mühasirəsini tərk edib geri dönməyə başladılar. Məğlubiyyətdən xəbər tutan Azad xan böyük qoşunla

İrəvana tərəf hərəkət etdi. Çox güman ki, II İrakli Azad xanla döyüş meydanında toqquşmaqdan ehtiyat edib İrəvan qalasından uzaqlaşmışdır. Azad xan asanlıqla İrəvan qalasına daxil olmuş, Mir Mehdi xanı Həsən xanla əvəz etmişdi. 1755-ci ildən Həsən xanın varisi qardaşı Hüseynəli xan olmuşdur.

1783-cü ildə Georgiyevsk müqaviləsinə əsasən Kartli – Kaxetiya çarlığının Rusiyanın himayəsinə keçməsi Cənubi Qafqazın və Cənubi Azərbaycan xanlıqlarının xarici siyasətinə təsir göstərdi. Xanlıqların başçılarının əksəriyyəti Rusiyanın vədlərinə inanır və ona ümid bəsləyirdilər. Osmanlı Türkiyəsinin Azərbaycan xanlıqlarına münasibətlərindən Cənubi Qafqaz xristianları, xüsusilə ermənilər narahat olmuşdur. 1780-ci ilin sonlarında İranda demək olar ki, Zənd sülaləsinin hökmranlığına son qoyuldu. Həmin vaxt Qacar sülaləsinin banisi Ağa Məhəmməd xan İran torpaqlarını özünə tabe edərək Səfəvi dövlətini bərpa etmək fikrinə düşdü. O, ilk növbədə Cənubi Qafqaz ölkələrinə sahib olmağı arzulayırdı və elə güman edirdi ki, Azərbaycan xanları ilə asanlıqla ümumi dil tapa biləcəkdir. 1796-cı ildə general V.Zubovun başçılığı ilə Rusiya qoşununun Cənubi Qafqaza yürüşü zamanı İrəvan hakimi Məhəmməd xan Rusiyanın himayəsinə keçmək istəyini bildirdi. II Yekaterinanın ölümündən sonra (1796) rus qoşunu Cənubi Qafqazı tərk etdi. Ağa Məhəmməd xan Qacar İrəvan xanını həbs etdi və xanlığın idarəsini Əliqulu xana tapşırdı. 1797-ci ilin sonunda İranın yeni hökmdarı Fətəli şah Məhəmməd xanı həbsdən azad edərək, yenidən İrəvan xanı təyin etdi.

Naxçıvan xanlığı. XVIII yüzilliyin ortalarında yaranmış xanlıqlardan biri də Naxçıvan xanlığı olmuşdur. Xanlıq Zəngəzur dağlarından Araz çayının vadisinə qədər olan torpaqları əhatə edirdi. İrəvan, Qarabağ və Maku xanlıqları ilə həmsərhəd idi. Nadir şahın ölümündən sonra Kəngərli tayfasının başçısı Heydərqulu xan yerli feodalların köməyilə şahın naibi Ağahəsəni Naxçıvandan qovdu və

özünü xan elan etdi (1747-1763). Heydərqulu xan xanlığı möhkəmləndirmək, ticarət və sənətkarlığı inkişaf etdirmək məqsədilə bir sıra tədbirlər həyata keçirdi. Lakin hərbi cəhətdən zəif olan Heydərqulu xan Pənahəli xanın Bayatdakı qələbəsindən sonra ondan asılılığı qəbul etdi və Şəki xanı Çələbi xana qarşı yaranmış ittifaqa qoşuldu. Bu ittifaq isə istənilən nəticəni vermədi.

Heydərqulu xanın ölümündən sonra hakimiyyətə Hacı xan Kəngərli keçdi. Onun dövründə xanlıq xeyli zəiflədi, oğlu Rəhim xanın hakimiyyəti illərində isə xanlıqda daxili çəkişmələr başlandı. 1783-cü ildə Xoy hakimi Əhməd xan öz adamı Cəfərqulu xanı Naxçıvanda hakimiyyətə gətirdi. 1787-ci ildə qarabağlı İbrahimxəlil xan yenidən Naxçıvana hücum etdi. Yenicə hakimiyyətə gələn Kəlbəli xan İbrahimxəlil xanın hücumunun qarşısını ala bildi. Xoy və İrəvan xanlıqları ilə münasibətləri yaxşılaşdıran Kəlbəli xan, 1792-ci ildə İbrahimxəlil xanın ikinci yürüşünü də dəf edə bildi. Lakin Qacarlar təhlükəsinə qarşı birgə mübarizə onlar arasındakı zidiyyətləri azaltdı. 1795-ci ilin yayında Ağa Məhəmməd xan Qacarın qoşunu Naxçıvan xanlığına soxuldu. Bu hadisədən sonra Kəlbəli xan ruslara meyl etdi. Ona görə də Ağa Məhəmməd şah Qacar 1797-ci ildə Azərbaycana ikinci yürüşü zamanı Kəlbəli xanı həbs etdirdi, əhalinin bir qismini isə İrana köçürdü. Abbasqulu xan Kəngərli taxta çıxarıldı. 1813-cü il Gülüstan müqaviləsinə görə Naxcıvan xanlığı İranın tərkibinə, 1828-ci il Türkmənçay müqaviləsinə əsasən isə xanlıq Rusiyanın tərkibinə qatıldı.

Gəncə xanlığı. Xanlıq XVIII yüzilliyin ortalarında yaranmışdır. Murovdağ silsiləsindən Kür çayınadək olan torpaqlar, Qarabağ, İrəvan xanlıqları, Qazax və Şəmsəddil sultanlıqları və Gürcüstanla həmsərhəd idi. Gəncə xanlığının təsərrüfatında maldarlıq, əkinçilik, bağçılıq, üzümçülük, bostançılıq, ipəkçilik əsas yer tuturdu. Toxuculuq, xalçaçılıq, zərgərlik, boyaqçılıq, dulusçuluq kimi sənət

sahələri inkişaf etmişdi. Xanlığın mərkəzi Gəncə şəhərinə müxtəlif ölkələrdən tacirlər gəlirdilər. Burada pul kəsilirdi. Bütün hakimiyyət xana məxsus idi. Əhalidən malcəhət, bəhrə, darğalıq və s. vergilər toplanırdı.

Gəncədən didərgin salınmış Ziyadoğlular Nadirin ölümündən sonra qayıdıb dövlət yaratmağa imkan tapdılar. Gəncə xanlığının banisi Qacar tayfasının yerli nəslinin nümayəndəsi II Şahverdi xan Ziyadoğlu (1747-1760) olmuşdur. O, Nadir şahın Gəncədəki qarnizonunu darmadağın etməkdə ona yardımçı olan II İrakliyə 10 min tümən qızıl pul verməyi öhdəsinə götürmüşdü. Şahverdi xanın oğlu Məhəmədhəsən xan (1760-1780) bu pulu verməkdən imtina edərək Kartli-Kaxetiyadan asılılığa son qoymuşdu. Hakimiyyətə yeni gələn Məhəmməd xan da bu siyasəti davam etdirirdi. 1780-ci ildə II İrakli və İbrahimxəlil xanın birləşmiş qoşunu Gəncəni tutdu. Məhəmməd xan kor edilərək Şuşa qalasına salındı. Bundan sonra Gəncə xanlığını qaliblərin eyni vaxtda təyin etdikləri iki nümayəndə idarə edirdi. Beləliklə xanlıqda ikihakimiyyətlilik yaranmışdı. Bunun da ağırlığı xalqın üzərinə düşürdü. Ona görə də 1783-cü ildə belə bir vəziyyətə son qoymaq üçün Hacı bəyin başçılığı ilə üsyan başladı və hakimlər Gəncədən qovuldular. 1784-cü ilin payızında II İrakli polkovnik S. Burnaşovun başçılıq etdiyi rus qoşunu ilə birlikdə Gəncəyə hücum etdi. Lakin Dağıstan hakimlərinin köməyi ilə Gəncə xanlığı yenə təcavüzdən xilas oldu. Yerli əynların bir hissəsinin Şuşa qalasında həbsdə olan Məhəmməd xanı yenidən Gəncə taxtında görmək istəyinin həyata keçməsinə mane olmaq üçün İbrahimxəlil xan onu edam etdirdi. Lakin onun qardaşı Rəhim bəy (1785-1786) Şuşa qalasından Gəncəyə qaçaraq hakimiyyəti ələ almağa nail oldu. Bu işdən narazı olan İbrahimxəlil xanla II İrakli Gəncəyə yeni hücum təşkil etdilər və müəyyən məbləğdə xərac ödəməyə razı olan Cavad xan (1786-1804) hakimiyyətə gəldi. Lakin o, bu xərci verməkdən

imtina etdi. Həm də bu aslılığa son qoymaq məqsədilə Cavad xan 1795-ci ildə Ağa Məhəmməd xan Tiflisə hücum edəndə ona qoşun və ərzaqla yardım etmişdi. 1796-cı ildə Gəncə rus qoşunları tərəfindən işğal olundu. II Yekaterinanın ölümündən sonra rus qoşunu geri çağırıldı. Cavad xan bundan istifadə edərək, Nadir şahın vaxtında Kartli çarlığına verilmiş Şəmşəddil, Qazax və Borçalı mahallarını geri aldı. Bu məqsədlə o gürcü şahzadəsi Aleksandrı himayə etdi. Bu hadisə Gəncə xanlığı ilə Gürcüstan və Rusiya münasibətlərini kəskinləşdirdi, rusların Gəncəni tutmaq planı reallaşdı. 1804-cü il yanvarın 3-də Cavad xan ruslarla mübarizədə şəhid oldu və Gəncə xanlığı ləğv edildi.

III FƏSİL
XANLIQLARIN XARİCİ SİYASƏTİ

XVIII yüzilliyin sonlarında beynəlxalq vəziyyət. XVIII yüzilliyin sonlarında dünyanın siyasi mənzərəsi mürəkkəb idi. Bu mənzərəyə nəzər saldıqda aydın olur ki,beynəlxalq aləmdə əsas diktə edən güclər,söz sahibləri çar Rusiyası, Böyük Britaniya və Fransa idi. ABŞ hələ yenicə təşəkkül tapmışdı, hələ dünya gücünə çevrilməmişdi. Almaniya və İtaliyada siyasi pərakəndəlik mövcud idi,mərkəzləşmiş dövlət yaranmamışdır.

1789-cu il inqilabından sonra Fransada hakimiyyət başına gəlmiş burjuaziya nəinki təkcə Avropada, hətta bütün dünyada iqtisadi və siyasi hökmranlığa can atırdı.Gənc Fransa burjuaziyasının başlıca rəqibi İngiltərə burjuaziyası idi. İngiltərə burjuaziyası XIX yüzilliyin əvvəllərinədək ən mühüm hakim mövqeləri ələ keçirmişdi və bu Avropada, Afrikada və Asiyada hökmranlıq etmək üçün onun yolunu asanlaşdırdı.

I Napoleon dünya hökmranlığı uğrunda müharibə aparırdı.Böyük Fransa burjua inqilabı (1789-1794) müharibələri milli müharibələr kimi başlamışdı.Bu müharibələr inqilabi idi, çünki bu böyük Fransa inqilabını əksinqilabçı monarxiyaların koalisiyasından (Avstriya,Prussiya) müdafiə etmək üçün aparılırdı.Napoleon Fransa imperiyasını yaradaraq, Avropanın bir sıra dövlətlərini əsarət altına aldıqda isə, Fransanın apardığı milli müharibələr imperialist müharibəsinə çevrildi.

Çar Rusiyasına aydın idi ki,İngiltərə üzərində qələbədən sonra Fransa burjuaziyasının qüvvələri Rusiyaya qarşı çevriləçəkdir.Buna görə də rus imperatoru Pavel(1796-1801)hökümətinin xarici siyasət xəttində məqsəd I Napoleonla müvafiq sazişlər bağlamaq yolu ilə Avropada Fransanın təcavüzünü məhdudlaşdırmaq idi. Pavel İngiltərə

ilə əlaqələri kəsmişdi. İngiltərə ilə siyasi və ticarət əlaqələrinin kəsilməsi Rusiya üçün son dərəcə əlverişsiz idi.Pavelin bağladığı sazişlə əlaqədar olaraq Napoleonun işğalçılıq siyasətinin Rusiya tərəfindən müdafiə edilməsi onu kontinental Avropanın başqa dövlətləri ilə düşmənçilik vəziyyətinə salırdı.Pavelin xarici siyasət xətti sabit deyildi,bu da Avropa dövlətlərini narazı salırdı.

Rus feodal-zadəganlarının və tacirlərinin mənafeyi üçün və öz mənfəəti naminə çar hökuməti yeni torpaqlar zəbt etməyə,tutduğu ölkələri Rusiya sənayesi üçün xammal mənbələrinə,satış bazarlarına çevirməyə çalışırdı.

Çar Rusiyası Xəzər sahillərini ələ keçirmək və Qafqazı zəbt etməklə cənuba doğru yol açmaq və Mərkəzi Asiyanı da ələ keçirmək üçün yeni istinadgah qazanacağına əmin idi. Deməli,Qafqaz təkcə iqtisadi mənada deyil, hərbi cəhətdən də Rusiya üçün böyük strateji əhəmiyyətə malik idi.

Qərbi Avropa dövlətləri, xüsusən Böyük Britaniya və Fransa da Qafqazı öz təsir dairəsinə almaq istəyirdilər.Nisbətən zəif olan türk-müsəlman dövlətlərinin - Osmanlı imperiyası və Qacarların Avropa dövlətləri qarşısında durmaq imkanları zəif idi.Siyasi pərakəndəlik dövrünü keçirən Azərbaycan isə özünü xarici müdaxilələrdən qorumaq imkanından məhrum idi.

Xanlıqların timsalında Azərbaycan öz dövlətçiliyini bərpa etmiş və müstəqil xarici siyasət yeritməyə başlamışdı. Urmiya, Şəki, Quba və Qarabağ xanları xarici siyasətlərində Azərbaycan torpaqlarının birləşdirilməsinə nail olmağa xüsusi diqqət yetirirdilər. Azərbaycan xanları bu məqsədləri həyata keçirmək üçün əsasən İran, Osmanlı dövləti və Rusiya ilə müvafiq münasibətlər yaratmağa çalışırdılar.

Nadirin ölümündən sonra 60-cı illərə qədər Urmiya xanlığı İranda mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda mübarizə aparırdı. Kərim xan Zənd çevik hərəkət edərək Azərbaycanın cənub

xanlıqlarını əsasən özündən asılı vəziyyətə çalmışdı. Azərbaycanın şimal xanlıqlarına da belə münasibət göstərməyə cəhd edilirdi. Kərim xan Zənd müttəfiqi Pənahəli xanı Urmiya xanı Fətəli xan Əfşarın üzərində qələbədən sonra geri buraxmadı və Qarabağın daxili işlərinə qarışmağa cəhd etdi.

XVIII yüzilliyin 60-cı illərinin sonundan etibarən Qarabağda İbrahimxəlil xanın mövqeyinin möhkəmlənməsi onun müstəqil siyasət yeritməsinə imkan vermişdi. Bu, İbrahimxəlil xanın İranın təcavüzünü dəf edə biləcək hərbi-siyasi qüvvəyə malik olmasından irəli gəlirdi.

Qubalı Fətəli xan da Kərim xanın onun daxili işlərinə qarışmasının əleyhinə çıxış edirdi. Kərim xan, bir tərəfdən Fətəli xanın xanlığın ərazisini genişləndirmə siyasətinə mane olmaq istəyir, digər tərəfdən isə Rusiyanın Şimali Qafqazda möhkəmlənməsi və Quba xanlığının Rusiya ilə yaxınlıq etməsindən narahat olurdu. O, Fətəli xanın dinc yolla tabe edilməsinə cəhd göstərirdi. Bu məqsədlə qohum olmaq istədiyini ona bildirdi. Fətəli xan bundan imtina etdiyinə görə Kərim xan Zənd xanlığa qarşı yürüş təşkil etmiş və məğlub olaraq geri qayıtmışdı.Fətəli xan belə bir şəraitdə diplomatik məharət göstərərək İran, Osmanlı dövləti və Rusiya arasında manevr etməli olurdu. Gavduşan döyüşündəki məğlubiyyət İranla ehtiyatlı olmağı tələb edirdi. 1775-1776-cı illərdə Fətəli xanla Kərim xan arasında elçilər mübadiləsi oldu. Lakin Fətəli xan heç bir vəchlə müstəqilliyini itirmək istəmirdi. Kərim xanın müxtəlif yollarla Quba xanlığını özündən asılı etmək siyasəti baş tutmadıqda o, başqa vasitələrə əl atmalı oldu. Kərim xanın göstərişi ilə Gilan xanı Hidayət xan Quba xanlığına açıq müdaxiləyə başladı. O, 1778-ci il ərzində Lənkəran da daxil olmaqla Salyan, Muğan, Cavadı işğal etdi. Kərim xanın ölümündən sonra (1779) ölkədə ara müharibələrinin yenidən qızışması İran xanlarının xarici siyasət xəttinə mənfi təsir göstərdi.

Xanlıqların Qacarlar və Rusiya ilə münasibətləri. Kərim xan Zəndin ölümündən sonra İranda baş vermiş feodal ara müharibələrində türk-qızılbaş tayfasından olan Qacar sülaləsi qələbə qazandı. Qacarlar dövlətinin yaranması**,** Ağa Məhəmməd xan Qacarın hakimiyyətə gəlməsi ilə Cənubi Qafqazın(Ön Qafqazın) siyasi həyatında bu dövlətin rolu artmağa başladı. Astrabad xanı Ağa Məhəmməd xan Qacar XVIII yüzilliyin 80-ci illərinin ortalarında Xorasan istisna olmaqla İranın əsas əyalətlərini istila edərək 1795-ci ildə Tehranı özünə paytaxt etdi. Ağa Məhəmməd xan Qacar Səfəvi şahları kimi bütün Ön Qafqazı özünə tabe etmək istəyirdi. O, yürüşə başlamazdan əvvəl Azərbaycanın bütün xanlarına, Kartli və Kaxetiya çarlığına, həmçinin Cənubi Dağıstan hakimlərinə fərmanlar göndərib girov tələb etdi. İbrahimxəlil xandan itaət əlaməti olaraq oğlunu girov istədi.O da qoca əmisi oğlunu girov göndərdi, ancaq onu öldürdü və dedi ki, girov gənc omalıdır. Lakin Ön Qafqaz və Dağıstan feodal hakimlərinin əksəriyyəti yenidən Qacarlara boyun əyməkdən imtina etdilər. Bu da Ağa Məhəmməd xan Qacarın böyük ordu ilə Ön Qafqaza hücumu üçün bəhanə oldu.

O,qoşunlarına Muğan, Şirvan, Dağıstan, Naxçıvan, Tiflis Lənkəran, İrəvan, Şuşa istiqamətində yürüş etməyi əmr etdi. Özü isə sonuncu səmtə hərəkət edən qoşunun başçısı idi. Lənkəran və İrəvan istiqamətində hərəkət edən Qacarların qoşun dəstələri bu yerləri darmadağın edərək Ağa Məhəmməd xanın başçılıq etdiyi qoşunları ilə birləşdi. Lənkəran xanı Mir Mustafa xan rus gəmilərinin köməyinə sığınmaq üçün Sarı adasına qaçdı. Rus hərbi gəmiləri Qacar qoşununu sahilə çıxmağa qoymadı. Qacarın qoşunu İrəvan qalasını tutdu. 1795-ci ilin iyununda Ağa Məhəmməd xan 85 minlik ordu ilə Qarabağ xanlığına soxulub Şuşanı mühasirəyə aldı. O, 33 gün Şuşanı mühasirədə saxladı, lakin heç bir müvəffəqiyyət qazanmadı. Belə olduqda gəncəli Cavad xan və Çiləbörd məliyi Məlik Məcnunun

məsləhəti ilə mühasirədən əl çəkib Tiflisə tərəf hərəkət etdi. 1795-ci ilin avqustunda Qacarlar şəhəri ələ keçirərək əhalini qırdılar. Bir müddət sonra düşmən ordusu qışlamaq üçün Muğana çəkildi. Ağa Məhəmməd xan buradan Azərbaycan xanlarına və Dağıstan hakimlərinə yenidən hədə-qorxu ilə dolu məktublar yazaraq onlardan tabe olmağı tələb etdi. Bu zaman Azərbaycanın bir sıra xanlıqları kömək üçün Rusiyaya müraciət etdilər. Yerli hakimlərin II Yekaterinaya müraciəti və Rusiyanın hərbi-siyasi, iqtisadi mənafeləri həmin ildə rus qoşunlarının Ön Qafqaza hərbi yürüşünə səbəb oldu. Rus qoşunlarının komandanı V.Zubovun ixtiyarına Xəzər dənizindəki rus donanması da verildi. Ağa Məhəmməd xan rus qoşununun Azərbaycana hərəkət etməsini gördükdə, tələsik 1796-cı ilin yazında Arazın o tayına çəkildi. Həmin ildə o, özünü İranın şahı elan etdi.

Qubalı Şeyxəli xan qısa müqavimətdən sonra Dərbənd qalasının qapısını V.Zubovun üzünə açdı. Bakı xanı Hüseynqulu xan şəhəri təslim etmək istəmirdi. V.Zubov öz qoşununun bir hissəsini Şamaxı istiqamətinə yönəltdi, sonra Salyan tərəfə gedərək orada düşərgə saldı. Qarabağ xanı İbrahimxəlil xan öz nümayəndələrini onun yanına göndərdi. Rus generalı nümayəndələri səmimi qarşıladı. O, Qarabağ xanlığının Rusiya ilə yaxınlaşmasında M.P.Vaqifin xidmətlərini qiymətləndirərək II Yekaterinanın adından ona qiymətli hədiyyə - əsa bağışladı. Beləliklə, Azərbaycanın şimal xanlıqlarının bir neçəsi (Dərbənd, Bakı, Quba, Şirvan, Gəncə və s.) Rusiyaya tabe edildi. Lakin bu dəfə də Rusiya Azərbaycanda möhkəmlənə bilmədi. 1796-cı ildə II Yekaterinanın vəfat etməsi Qafqazda siyasi vəziyyəti dəyişdi. Taxta çıxan Pavel 1797-ci ildə Azərbaycandan və Dağıstandan rus qoşununu geri çağırdı. Rus qoşununun Azərbaycandan getməsindən istifadə edən Ağa Məhəmməd şah Qacar 1797-ci ilin yazında böyük bir ordu ilə Arazı keçdi və Şuşaya yaxınlaşdı. İbrahimxəlil xan müqavimət göstərmək əzmində idi. O, öz

dəstəsi ilə düşmən topxanasına hücum etdi. Lakin düşmən toplarını sıradan çıxara bilmədi. Onun Şuşaya geri dönməsi mümkün deyildi, çünki qalanın yolları və qapısı artıq düşmən əsgərləri tərəfindən tutulmuşdu. Odur ki, İbrahim xan Car Balakənə - avar hakimi Ümmə xanın yanına qaçmalı oldu. İbrahimxəlil xanın və nüfuzlu şəxslərin ailə üzvləri və qohumları da buraya sığındı. İbrahimxəlil xan Şuşanı tərk edib Dağıstana getdikdən sonra Ağa Məhəmməd şah şuşalılara məktub göndərib tabe olmalarını təklif etdi. Ağa Məhəmməd şah Şuşanı tutduqdan sonra, şəhərin şərqində İbrahimxəlil xanın böyük oğlu Məhəmməd xanın evində yerləşdi. Qacarın Qarabağı tutması Şimali Azərbaycanda siyasi vəziyyəti dəyişdi. Şahın tərəfdarları hakim qüvvəyə çevrildilər. Rus qoşunu ilə əlaqə saxlayan, onlara xidmət edən xanlar təqib olundular. Öz keçmiş xidmətlərinə ümid bəsləyən Cavad xan və Bakı xanı Hüseynqulu xan şahın tələbi ilə Şuşaya çağrılıb nəzarət altına alındılar. Şamaxı xanı Mustafa xan və Şəki xanı Səlim xan qasid vasitəsilə öz itaətlərini bildirdilər. Qacar ordusu şəhərə daxıl olduqdan sonra əhaliyə divan tutur, qarət edirdi. Yuzlərlə adam zindana salındı, onların arasında Vaqif də var idi. Onu edam gözləyirdi. Tezliklə, 1797-ci ilin iyulunda Ağa Məhəmməd şaha İbrahimxəlil xanın qardaşı oğlu Məhəmməd bəyin təşəbbüsü ilə qəsd edildi. Qəsdin həyata keçrilməsində şahın xidmətçiləri Səfərəli və Abbas bəy əsas rol oynadılar. Şahın qətlindən sonra Qacarların qoşunu cənuba çəkildi.

XVIII yüzilliyin son illərində mürəkkəb daxili və beynəlxalq şəraitdə Qarabağ və Quba xanlıqları Rusiyaya elçilər göndərərək kömək istədilər. Çar hökuməti Azərbaycan xanlıqlarını Rusiya təbəəliyinə qəbul etməyə cəhd göstərirdi. İranla danışıqlar zamanı Rusiya hökuməti şahdan Azərbaycanın Xəzərsahili vilayətlərindən və Gürcüstana olan iddialarından əl çəkməyi tələb etdi.

Osmanlı-Rusiya münasibətlərində xanlıqlar. XVIII yüzilliyin 40-cı illərindən etibarən (Sultan I Mahmud 1730-1754) Azərbaycan xanlıqları ilə Osmanlı imperiyası arasındakı münasibətlər də xüsusi əhəmiyyət kəsb etmişdi. Ümumiyyətlə, XVIII əsr Osmanlı tarixinin mürəkkəb dövrüdür. Osmanlı sultanları III Mustafanın (1757-1774), I Əbdülhəmidin (1774-1789) və III Səlimin (1789-1807) dövrləri "geriləmə dövrləri" kimi xarakterizə oluunur. Bu dövrdə Osmanlı-Rusiya münasibətlərində Azərbaycan xanlıqları mühüm yer tuturdu.

1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsi zamanı hər iki imperiyanın Azərbaycan xanlıqlarına diqqəti artdı.Osmanlı imperiyası Qafqazda Rusiya-Gürcüstan blokuna qarşı müsəlman dövlətlərinin ittifaqını yaratmağa çalışırdı. Bu məqsədlə Azərbaycan xanlarına elçilər göndərir, onlara çatdırılan fərmanlarda Rusiya ilə mübarizəyə qoşulmağın vacibliyini əsaslandırırdı. Rusiya Osmanlı imperiyasının bu istiqamətdəki fəaliyyətini diqqətlə izləyir və müvafiq tədbirlər görməyə səy göstərirdi.Rus casuslarının topladıqları məlumatlar Azərbaycan xanlarının Osmanlı imperiyası ilə yaxınlaşdığını göstərirdi. Xanlıqların Osmanlı imperiyası ilə münasibətlərində iqtisadi və siyasi mənafelər üstünlük təşkil edirdi. Ona görə də çar diplomatiyası hər vəchlə bu münasibətləri pisləşdirmək istəyirdi. Bu məqsədlə, hətta hərbi vasitələrə də əl atılırdı.

Kiçik Qaynarça müqaviləsindən (1774) sonra Osmanlı imperiyası ilə Azərbaycan xanlıqları arasında yaxınlaşma daha da artmışdı. Osmanlı dövləti Rusiya ilə münasibətlərin yenidən kəskinləşəcəyi halda Azərbaycan xanlıqlarından istifadə etmək niyyətində idi. Azərbaycan xanlıqları da Rusiya təcavüzünün genişlənəcəyi halda, Osmanlı imperiyasının hamiliyinə ümid bəsləyirdilər. Qarabağ, Şəki və Quba xanları öz istəklərini həyata keçirmək üçün 1785-ci ildə İstanbula elçilər göndərmişdilər.Lakin

Osmanlı imperiyası Rusiya ilə münasibətləri mürəkkəbləşdirmək istəmədiyinə görə rəsmi münasibət bildirməkdən çəkinmişdi. Bununla da özünü 1787-1791-ci illər Rusiya-Osmanlı müharibəsində Azərbaycan xanlarının köməyindən məhrum etmişdi və bu regionda Rusiyanın təcavüzünün güclənməsinə imkan yaratmışdı.

XVIII yüzilliyin ikinci yarısında II Yekaterinanın çarlığı zamanı (1762-1796) möhkəmlənmiş Rusiya dövləti Qafqaza böyük maraq göstərirdi. Rusiya imperiyasının cənub sərhədləri Qafqaz sıra dağlarına qədər yayılmışdı. 1783-cü ildə Dağıstanın cənubunda yerləşən Tarku Rusiyaya birləşdirildi. Ön Qafqazın istila edilməsi məsələsi çarizmin xarici siyasətində ön plana çəkildi. Bu eyni zamanda Rusiyanın iqtisadi-ticarət mənafeyindən də irəli gəliridi. Rusiya dövləti xarici siyasətində, həmçinin Xəzər dənizi, Azərbaycan və İran vasitəsilə Hindistan və Çinə əlverişli yollar axtarmaq məqsədini güdürdü. Beləliklə, Rusiyanın mənafeyi Qafqazda Türkiyə və İranın mənafeləri ilə toqquşurdu. Həm Türkiyə, həm də İran Qafqazı ələ keçirməklə Rusiyanın Şərq siyasətinə, xüsusilə Xəzər dənizi hövzəsində müvəffəqiyyətlə apardığı ticarətə zərbə endirmək niyyətində idi. Rusiya da öz növbəsində zəngin təbii sərvətlərə, bazarlara, əlverişli coğrafi və strateji mövqeyə malik Ön Qafqazda, xüsusilə Azərbaycanda hakim mövqe tutmağa çalışırdı.

Məhz buna görə də bəzi Azərbaycan xanlıqlarının Rusiyaya müraciəti Rusiya dövlətinin mənafeyinə uyğun gəlirdi. Adətən Peterburqda rus dövlətinin xarici siyasəti ilə ayaqlaşan belə tədbirlərə müsbət münasibət bəslənilirdi. Eyni zamanda bir növ dövlətin cənub sərhədlərini qoruyan Ön Qafqaz və Cənubi Dağıstanın hərbi strateji əhəmiyyətinə də rus diplomatiyası böyük fikir verirdi.

Türkiyə və İran tərəfindən gözlənilməkdə olan təhlükə şəraitində Ön Qafqazın siyasi xadimləri Rusiya ilə sıx ittifaq yaradılmasına çalışırdılar. 1768-1774-cü illərdə Rusiya-Türkiyə müharibəsi zamanı

Türkiyə Qafqazı tutmağa yeni cəhdlər göstərərkən bu meyl daha da qüvvətlənmişdi. Həmin illərdə Türkiyənin hakim dairələri Qafqazın feodal hakimlərini öz tərəflərinə çəkməyə çalışırdılar. Osmanlı sultanı Azərbaycan xanlıqlarına, xüsusilə böyük nüfuza malik olan Qubalı Fətəli xana və Dağıstan hakimlərinə məktublar göndərib onları Rusiyaya qarşı mübarizəyə çağırırdı. Lakin Fətəli xan bu təhriklərə qulaq asmadı. Həmin dövrün rus diplomatlarından biri yazırdı: "Fətəli xan buna heç bir meyl göstərmədi və heç bir şey etmədi. Doğrudan da o, Rusiayaya qarşı ... xeyirxahlıqdan başqa heç bir şey başlamaq fikrində deyil". Zənnimizcə, Fətəli xan xanlığın daxili və xarici vəziyyətinin, həm də qüvvələr nisbətinin onun üçün əlverişli olmadığını nəzərə alıb Rusiya ilə ehtiyatla davranırdı.

Fətəli xanı nigah diplomatiyası ilə öz müttəfiqi etmək istəyən Kərim xan Zəndin də niyyətləri boşa çıxdı. Quba xanlığı Rusiya ilə ardıcıl əlaqə saxlayırdı. Quba xanlığının qüdrətinin artmasını görən bir sıra Azərbaycan xanları və Dağıstan hakimləri təşvişə düşmüşdülər. Məhz buna görə də 1774-cü ildə Qaytaq usmisi Əmir Həmzə və devrilmiş Şamaxı xanı Ağası xan başda olmaqla bir sıra Azərbaycan və Dağıstan feodallarının birləşmiş qüvvələri Quba xanlığına hücum etdilər. Gavduşan çölündə (Xudat yaxınlığında) Fətəli xan məğlubiyyətə uğradı və Salyana tərəf çəkildi. Onun düşmənləri Qubanı və Şamaxını tutdular, Dərbəndi mühasirəyə aldılar.

Dərbəndin müdafiəsinə Fətəli xanın arvadı Tuti Bikə rəhbərlik edirdi. Onun qardaşı Əmir Həmzə şəhəri hiylə ilə ələ keçirməyə çalışdı. Tuti Bikəyə ərinin ölüm xəbərini çatdırıb Dərbənd divarlarına tərəf uzanan bir matəm mərasimi düzəltdi. Tuti Bikə qardaşının fitnəkar niyyətini başa düşdü və qalanı təslim etməkdən boyun qaçırdı. Bunu görən Əmir Həmzə Bakı üzərinə müvəffəqiyyətsiz yürüş etdi, burada da qəti müqavimətə rast gəldi. Sonra yenidən

Dərbəndi mühasirəyə aldı. Lakin, artıq Salyandan qayıtmış Fətəli xan şəhərdə idi. Dərbəndin mühasirəsi 10 aya qədər davam etdi, şəhəri aclıq bürüdü. Bu zaman Fətəli xan Rusiyaya müraciət edərək kömək istədi. 1775-cı ilin martında rus qoşunu Dərbəndə tərəf yeridi. Onların köməyilə Fətəli xan öz düşmənlərini darmadağın etdi. O, Dərbəndin açarlarını II Yekaterinaya göndərib ondan Quba xanlığını Rusiya tabeliyinə qəbul etməyi xahiş etdi.

II Yekaterina İran və yenicə müqavilə bağladığı (1774-cü il, Kiçik Qaynarca) Türkiyə ilə münasibətlərin pozulmaması üçün Dərbəndin açarlarını geri qaytardı və Quba xanlığının Rusiyaya birləşdirilməsinin mümkün olmadığını bildirdi. Buna baxmayaraq, rus qoşununun Qubaya etdiyi kömək xanlıq üçün böyük əhəmiyyətə malik idi, onun sonralar qazandığı nailiyyətlərinin əsas səbəbi də məhz bu oldu. Dərbənd, Quba düşməndən azad edildikdən sonra, Fətəli xan Şirvanda da möhkəmləndi. 1775-ci ilin yayında rus qoşunu Azərbaycandan geri çağırıldı, yalnız Dərbənddə kiçik bir dəstə saxlandı. 1780-1781-ci illərdə Fətəli xan dəfələrlə Qarabağa yürüş etdi, lakin bu yürüşləri uğursuz oldu. O, 1784-cü ildə Azərbaycanın cənub xanlıqlarına hücuma keçdi. Həmin ildə Ərdəbilə, sonra Meşkinə daxil oldu. Lakin burada möhkəmlənib qala bilmədi. Çünki Fətəli xanın rəqibləri - Azərbaycan və Dağıstan feodalları arxadan onu hədələyirdilər, həm də onun Ərdəbilə yürüşü II Yekaterina hökumətini narahat etmişdi. Quba xanlığının qüvvətlənməsi gələcəkdə çarizmin Qafqazdakı siyasətinə mane ola bilərdi. Ona görə də Fətəli xan çar hökumətinin təkidi ilə geri qayıtmağa məcbur oldu.

1785-ci ildə Fətəli xan Şəki xanlığını özünə tabe etdi. Lənkəran xanlığı və Dağıstanın bir sıra feodal torpaqları da ondan asılı vəziyyətə düşmüşdü. XVIII yüzilliyin 80-ci illərində Quba xanlığının nüfuzu daha da artdı. Bu dövrdə Rusiyanın Qafqazdakı mövqeyi möhkəmlənirdi. 1783-cü ildə Krımın ilhaq edilməsi və Kubanda

Rusiya sərhədlərinin möhkəmləndirilməsi, Qara dəniz sahillərində Qafqazda Rusiya üçün çox əlverişli şərait yaratmışdı.

1783-cü il iyunun 24-də Şimali Qafqazda Georgiyevskdə (Şimali Qafqaz) Gürcüstanın Rusiya himayəsinə keçməsi haqqında traktat imzalandı. II İrakli öz adından və varisləri adından Rusiya çarının ali hakimiyyətini və himayəsini qəbul etdi. Rusiya II İrakli çarlığının bütövlüyünə və Kartli Kaxet tacının qorunmasına təminat verirdi. Taxt-tacın vəliəhdi rus çarı tərəfindən təsdiq edilməli idi. II İrakliyə daxili məsələlərdə sərbsətlik verilir, xarici siyasətdə isə o, Tiflisdə əyləşən Rusiyanın ali məmuru ilə məsləhətləşməli idi. Düşmən hücumu vaxtı Kartli-Kaxetiyanı rus qoşunu müdafiə etməli idi. Gürcüstanın knyaz və zadəganlarının hüquqları rus zadəganlarının hüquqları ilə bərabərləşdirilirdi. Rusiya Gürcüstanla əlaqələri gücləndirmək üçün bir sıra tədbirlər gördü. Gürcüstana hərbi hissə yeritmək üçün Hərbi Gürcüstan yolu çəkildi. 1783-cü ilin noyabrında rus qoşunları Tiflisə gəldi.

Qafqazdakı rus qoşunlarının baş komandanı P.S.Potyomkin 1783-cü il avqustun 20-də traktat bağlanması haqqında universallarla (fərmanlar) Azərbaycan xanlarına müraciət etdi. Universallarla birlikdə göndərilən "buyruqlu məktublar"da Azərbaycan xanlarına Gürcüstanın Rusiya himayəsi altında olması faktını nəzərə almaq təklif edilirdi.

Georgiyevski müqaviləsinin imzalanması Qafqaz xalqlarının Türkiyə və İrandan qorunması üçün yeni ümidlər verirdi. Fətəli xan həmin hadisəni rəğbətlə qarşıladı. Bu hadisə həm də Azərbaycan xanlıqlarının, xüsusən Lənkəran xanlığının Rusiya ilə münasibətlərinin inkişafına müsbət təsir etdi. Lakin Qafqaz xalqları üçün ən böyük təhlükə çar Rusiyası idi. Bəzi Avropa dövlətləri də bu təhlükəni görürdülər.

1787-1791-ci illər Rusiya-Türkiyə müharibəsi zamanı İngiltərə, Fransa, Prussiya və İsveç osmanlılara pul, silah və hərbi mütəxəssislərlə yardım edirdilər. Osmanlı dövləti xarici dövlətlərdən aldığı pulları Qafqazdakı emissarlarına xərcləyirdi. Lakin bu, heç də Ön Qafqazda Rusiyaya meylin qüvvətlənməsinin qarşısını ala bilmədi. 1787-ci ildə Quba xanlığının 12 nəfərdən ibarət elçisi Peterburqa gəldi. Fətəli xanın çara ünvanladığı məktubunda deyilirdi:"Əmin edə bilərəm ki, bütün ömrüm boyu Rusiyaya münasibətimdə zərrə qədər də olsun dəyişiklik olmayacaqdır. Mən daim Rusiyanın düşmənlərinə düşmən, dostlarına dost olacağam". Əlbəttə, Fətəli xan Azərbaycanda mərkəzləşdirilmiş dövlət yaratmaq məqsədilə belə siyasət yürüdürdü.

Ümumiyyətlə, XVIII yüzilliyin ikinci yarısında rus-türk müharibələri zamanı rus diplomatiyası Azərbaycan xanlıqlarının birtərəf mövqe tutmasına çalışırdı, yəni Rusiya kimi onlar Türkiyə ilə də yaxınlaşmasınlar.

1785-ci ildə Quba xanlığı İrana və Osmanlı Türkiyəsinə qarşı birgə mübarizə aparmaq üçün Gürcüstan çarlığı ilə ittifaqa girdi. Fətəli xan bu ittifaqdan yalnız yadelli işğalçılara qarşı mübarizə üçün deyil, həm də öz hakimiyyətini Azərbaycanın cənub xanlıqlarına yaymaq üçün istifadə etmək istəyirdi. 1788-ci ildə Fətəli xan və II İraklinin qoşunları Gəncəyə daxil oldular. Sonra isə Quba xanı ikinci dəfə Azərbaycanın cənubuna yürüşə hazırlaşmağa başladı. Lakin, 1789-cu ilin martında Fətəli xan Bakıda ikən qəflətən vəfat etdi. Fətəli xan nə qədər cəhd etdisə də, Azərbaycan torpaqlarının sabit birliyini yarada bilmədi. Ölkənin feodal pərakəndəliyi, Türkiyə və İranın Azərbaycan torpaqlarına yenidən yiyələnmək təhlükəsi, yerli feodalların müxtəlif meylləri və müqaviməti nəticəsində Azərbaycanın vahid dövlət halında birləşdirilməsi baş tutmadı. Fətəli xanın az-çox yaratdığı birləşmə isə onun vəfatından sonra dağıldı.

Fətəli xanın oğlu Əhməd xan (1789-1791) atasının nailiyyətlərini möhkəmləndirə bilmədi. Əhməd xanın ölümündən az sonra hakimiyyətə onun qardaşı Şeyxəli keçdi (1791-1810). O, da xanlığın qüdrətini saxlaya bilmədi. Şəki, Bakı, Şamaxı xanlıqları Quba xanlığının aslılığından çıxdılar.

1782-ci ildə Qarabağ xanı İbrahimxəlil xan Peterburqa elçilər göndərərək Rusiyaya münasibətini bildirdi. Azərbaycanda Rusiyaya meyl edənlərdən biri də şair və dövlət xadimi Molla Pənah Vaqif idi. Lakin Qarabağ xanı Rusiya ilə münasibətlərində sabit deyildi. O, yalnız XVIII yüzilliyin 90-cı illərində Qacar hökmdarı Ağa Məhəmməd xanın Qarabağ xanlığı və bütün Azərbaycan üçün ciddi təhlükə törətdiyi zaman Rusiya ilə yaxınlaşmağa səy göstərdi. XVIII yüzilliyin ikinci yarısında Azərbaycanda Rusiyaya meyl təzahür edirdi. Rusiyaya birləşdikdən sonra yeni dövlətdən torpaq sahələri almaq arzusunda olan xırda feodallar Rusiyanın himayəsinə keçməyi xan üsul-idarəsindən üstün tuturdular. Lakin belə hal heç də Azərbaycan əhalisinin bütün silklərinə aid ola bilməzdi. Bəzi xanlıqlarda açıqdan-açığa ikitirəlik əmələ gəlmişdi. Təəssüf ki, Rusiyaya meyl etməklə nə əyanlar, nə də xalq kütlələri öz arzularına çata bilmədilər.Çar Rusiyası Azərbaycanın siyasi pərakəndəliyindən istifadə edib buranı işğal etmək istəyirdi.

Ümumiyyətlə, bu dövrdə Azərbaycan xanlıqlarının siyasi mövqeləri sabit deyildi. Onlar öz maraq və mənafeləri üçün gah Rusiyaya, gah Osmanlıya, bəzən də Qacarlara meyl edirdilər.

Xanlıqların Kartli-Kaxetiya çarlığı (1762-1801) və Dağıstanla münasibətləri. Teymurilər imperiyasının (1370-1405) süquqtu nəticəsində müasir Gürcüstan ərazisində Kartli (Tiflis), Kaxeti (Qremi,Telavi) və İmereti (Kutais) kimi kiçik dövlətlər yarandı. 1762-ci ildə Kartli çarı Teymurazın ölümündən sonra onun oğlu Kaxeti çarı II İrakli hər iki çarlığı birləşdirdi. II İrakli

Azərbaycan torpaqlarına qarşı işğal siyasəti yürüdür, Qarabağ xanlığı istisna olmaqla digər Azərbaycan xanları ilə münasibətləri gərgin idi. Xüsusən Georgevski müqaviləsindən sonra Rusiyaya arxalanan II İraklinin aqressiviyi güclənmişdi.

Kartli-Kaxetiya çarlığının bu siyasəti xüsusən Quba xanlığının mənafeyinə toxunurdu. Qubalı Fətəli xan Şəki xanlığını birləşdirmək üçün Qarabağlı İbrahim xanla ittifaqa girmək istəyirdi. Lakin onun bu cəhdi əks nəticə verdi. Şəki, Qarabağ və Kartli-Kaxetiya çarlığının Quba xanlığına qarşı ittifaqı yarandı. Bu ittifaqın Fətəli xana qarşı dura bilməyəcəyini görən II İrakli çar Rusiyasının da qüvvələrindən istiafdə etməyə çalışırdı. Rusiya isə bu zaman II İraklinin onun Azərbaycan xanlıqlarına qarşı açıq mübarizəyə qoşmaq planını qəbul edə bilməzdi. Əksinə, Rusiyanın mənafeyi Cənubi Qafqazda heç bir hakimin güclənməsinə imkan verməməyi tələb edirdi. Ona görə də imperatriça II Yekaterina 1770-ci ildə Quba xanlığı ilə Kartli-Kaxetiya arasındakı münasibətləti nizama salmaq haqqında Xarici işlər Kollegiyasına göstəriş vermişdi. Buna baxmayaraq, Quba xanlığı ilə Kartli-Kaxetiya çarlığının münasibətləri hərbi-siyasi qarşıdurma səviyyəsində qalmaqda davam edirdi.

Qubalı Fətəli xan II İraklinin Azərbaycan xanlıqlarının daxili işlərinə qarışmasına yol vermək istəmirdi. Karli-Kaxetiya çarlığının Rusiya ilə yaxınlığı Fətəli xanın gürcü çarlığı ilə problemləri hərbi yolla nizama salmasını çətinəşdirirdi. Ona görə də siyasi vasitə ilə, yəni Rusiya vasitəsilə II İraklinin təcavüzkarlıq niyyətinin qarşısının alınmasına cəhd göstərirdi. Irakli Qarabağlı İbrahimxəlil xanı öz tərəfinə çəkərək Gəncəni ələ keçirməyə çalışırdı. Bununla bağlı olaraq 1782-ci ildə Qubalı Fətəli xan çariça II Yekaterinaya etiraz məktubu yazaraq bildirdi:“Azərbaycan xanlarının şərəf və haqqını qorumağı özüm üçün borc sayıram”. II İraklinin bütün siyasəti belə bir etiraz üçün əsas verirdi. Hələ bir qədər əvvəl o, Hacı Çələbi ilə döyüşdə

yenildikdən sonra, Qazax-Qaraman əhalisinə çox zülmlər etmişdi. 1759-cu ildə Salahlı, Qızıl-Hacılı, Qaraqoyunlu, Alpout, Kəngərli, Xəlfəli və başqa türk oymaqları Kartli-Kaxetiya çarlığının zülmündən təngə gəlib, Qarabağ xanlığına, Cavanşir mahalına - Tərtərbasara köçmüşdü. Tarixdə "El döndü" adlanan böyük köç nəticəsində mahalın Qaraman bölgəsi tamamilə boşalmışdı.II İrakli Cənubi Qafqazda bir növ Rusiyanın əlaltısına çevrilmişdi. O, Azərbaycan xanlarının Rusiyaya tabe edilməsinə yardım edirdi. Məsələn,II İrakli Şamaxı xanı Məhəmməd Səid xana təklif etmişdi ki, Rusiyanın himayəsini qəbul etsin. Lakin xan bu təklifi qəti rədd etmişdi. II İrakli xanların Osmanlı ilə əlaqələrinə maneçilik törədirdi.

Rus elçisi A.Artyomov bildirir ki, Sultan III Mustafa qubalı Fətəli xana çoxlu pul göndərmişdi ki, xan digərlərini də sultanın tərəfinə çəksin. Ancaq elçilər Gürcüstan ərazisindən keçərkən II İraklinin adamları elçiləri ölənə kimi döymüş və xəzinəni ələ keçirmişdilər. Fətəli xan bundan çox məyus olmuş və yanında olan Osmanlı təbəəsi Qasım ağanı pul almaq üçün Sultanın yanına göndərmək istəyir.

A.Artyomovun dediyinə görə, Fətəli xan Sultanın məktubunu alan kimi qasid göndərib Həştərxanda olan elçisi Aqazelalı bəydən 40 günə kimi geri qayıtmasını tələb etmişdi. Bakıda rus konsulluğunun tərcüməçisi Mustafa Mutazaliyev də A.Artyomovun sözlərini təsdiqləyərək bildirmişdi ki, o, Şamaxıya gələrkən 1771-ci il yanvarın 11-də Sultanın elçisi də Fətəli xana məktubla bu şəhərə gəlmişdi. Fətəli xandan xahiş olunurdu ki,din birliyinə görə xan Rusiyaya qarşı mübarizədə Sultana yardım etməlidir. Xan camaatın içində deyib ki, o, Rusiya-Osmanlı müharibəsinə qarışmır, ancaq osmanlı elçisini zəngin hədiyyələrlə yola salıb. Mustafa Şamaxıda yaşayan xristianlardan və bir çox şiə şamaxılılardan öyrənib ki, xan bu sözləri osmanlılarla həmrəy olmayan şiələrə görə deyib. Əslində isə yaxın

günlərdə Sultan ona xeyli məbləğdə pul göndərmişdi ki, o digərlərini Türkiyə tərəfə çəksin, ancaq xəzinə II İraklinin adamları tərəfindən qarət olunub.O,yenidən pul almaq üçün Qasım ağanı Türkiyəyə göndərmək fikrindədir.

Mutazaliyev də Fətəli xanın yanında yanlız Şamaxı dəstəsi olduğunu yazaraq, Sultanın məktubunu alan kimi xan qasid göndərib Həştərxanda olan elçisi Hacı Ağa Zelalinin 40 günə geri qayıtmasını tələb etməsini təsdiq etmişdir.

Cavad xan hakimiyyətə gələndən sonra Qazax mahalını Gəncəyə tabe etmək istəyirdi. Qərbi Azərbaycanın siyasi taleyi Fətəli xanı birbaşa Rusiya ilə yazışmalar aparmağa sövq etmişdi. Çünki Kartli-Kaxetiyanın aqressiv fəaliyyətinin arxasında Rusiya dururdu. Fətəli xan da Rusiya vasitəsilə II İraklinin təcavüzkarlıq məqsədlərinin qarşısını almağa cəhd göstərirdi. Bu üsulla bir nəticə əldə etməyən Fətəli xan II İraklinin müttəfiqi Qarabağ xanlığına zərbə endirməyi qərara aldı. O,1783-cü ildə Qarabağ xanlığına yürüş etsə də, güclü müqavimətə rast gələrək geri qayıtdı. II İrakli müttəfiqi Qarabağlı İbrahimxəlil xana kömək göstərməklə bərabər, Rusiya vasitəsilə Fətəli xanı müharibəni dayandırmağa məcbur etdi. Lakin 1786-cı ildı İbrahim xanla II İrakli arasında Gəncə xanlığı üstündə ziddiyyətlər yarandı. Ona görə də II İrakli Fətəli xanla yenidən yaxınlaşdı.

Ağa Məhəmməd Qacarın Cənubi Qafqaz hakimlərinin ona sözsüz tabe olmaq tələbi İrakli və Fətəli xanın yaxınlaşmasına şərait yaratdı. Tərəflərin elçiləri (Georgi Sisianov Qubada, Hacı Mirzə Rəhim bəy Tiflisdə) danışıq apardıqdan sonra 1787-ci ilin martında Şimali Azərbaycan və Şərqi Gürcüstan hökümətləri arasında siyasi ittifaq haqqında müqavilə bağlandı. Müttəfiqlər 1787-ci ilin dekabrında İbrahim xan üzərinə hücuma keçdilər. Lakin hücum uğursuz oldu. 1789-cu ilin yanvarında onlar görüşmüş, mart ayında

isə Fətəli xan vəfat etmişdir. Şeyxəli xanın hakimiyyəti illərində Quba-Gürcüstan münasibətləri kəskinləşmişdir.

Mənbələr sübut edir ki, Qarabağ xanlığı ilə Gürcüstan arasındakı münasibətlər kifayət qədər mürəkkəb xarakter daşımışdır. Onlar hərbi-siyasi mütəfiq kimi çıxış etmiş, bəzən də yuxarıda deyildiyi kimi, aralarında qarşıdurma yaranmışdır.

Ş.P.Həmidova yazır ki, Qarabağ xanlığı ilə Gürcüstan arasında münasibətlər müəyyən fasilələrlə, XVIII əsrin ikinci yarısı boyu davam etmişdir. Qarabağ xanı İbrahimxəlil xan düşmənlərinə qarşı təklikdə mübarizə apara bilməyəcəyini yəqin edərək Gürcüstan çarı II Irakli ilə ittifaq bağladı. Bu, xüsusən onun əsas rəqibi Qubalı Fətəli xanın öz nüfuz dairəsini genişləndirmək niyyətindən irəli gəlmişdir. O dövr üçün bu təbii idi. 1783-cü ildə Qarabaq xanı İbrahimxəlil xan Gürcüstan hökümətindən Qarabağa ərzaq göndərilməsini xahiş etmişdir. Çünki həmin vaxt burada quraqlıq ucbatından qıtlıq və aclıq baş vermişdir. II İrakli güzəştə gedərək azərbaycanlılara çörəyin girvənkəsini 15 qəpiyə, unun girvənkəsini 10 qəpiyə, vələmirin girvənkəsinin isə 6 qəpiyə satılması barədə əmr vermişdir (1 girvənkə 400 qram).Bu barədə Mirzə Camal Cavanşir yazır ki, Qarabağ vilayətində üç il davam edən quraqlıq nəticəsində taxıl və başqa bitkilər məhsul vermədiyindən, şiddətli qəhətlik baş vermişdi.

II İraklinin İbrahimxəlil xanla normal münasibətləri yaxud onun məsləhətindən çıxmamasını Mirzə Camal onun böyük nüfuza malik olması ilə əlaqələndirir. O yazır:"Gürcüstan valisi (II İrakli) ilə İbrahimxəlil xanın arası pozulduğu zaman Ümmə xan və başqa Dağıstan xanları İbrahimxəlil xanın göstərişi üzrə böyük qoşunla Gürcüstana gedib, çoxlu ziyanlar verirdilər". Belə ki, çar Rusiyasının Qafqazdakı işğalçılıq siyasətini dəstəkləyən Kartli-Kaxetiya çarlığı ilə Qarabağ xanlığı arasındakı münasibətlər 1783-1784-cü illərdə yenidən pozulduqda Avar hakimi Ümmə xan Gürcüstana daxil olaraq

Sığnaq qalasını, Gümüşxananı tutub qışlamaq üçün Ahısqa vilayətinə Süleyman paşanın yanına getmişdi.

Osmanlı imperiyası ilə əlaqələrin möhkəmləndirilməsində böyük rol oynayan Çıldır valisi Süleyman paşadan dəstək alan Ümmə xan yazda geri dönərkən Knyaz Abaşidzenin yaşadığı Vaxan qalasını da qarət etmişdi. Artıq bu dövrdə Gürcüstanın çar Rusiyasının öz işğalçılıq planlarının həyata keçirilməsində istinad məntəqəsi olmasını İbrahimxəlil xan bilirdi. Onların Osmanlı dövləti ilə diplomatik əlaqələri genişləndirmələri, Kartli-Kaxetiyaya vaxtaşırı hərbi yürüşləri çar Rusiyasının Cənubi Qafqazda işğalçılıq planlarına ciddi maneə idi.

Qarabağ xanlığı öz siyasi mövcudiyyəti dövründə başqa Azərbaycan xanlıqları ilə dostluq və qardaşlıq ittifaqına çalışırdı. Gəncəli Cavad xanla, Car-Balakən ətrafındakı torpaqların hakimi Ümmə xanla, Şəkili Səlim xanla, Gürcüstan çarı ilə və bir çox başqa feodal hakimləri ilə İbrahimxəlil xanın qohumluq əlaqəsi yaratması müəyyən dərəcədə "Qarabağnamə"lərdə öz əksini tapmışdır. M.P.Vaqifin bədii yaradıcılığı Qarabağ xanlığının tarixi, onun diplomatik əlaqələri ilə sıx surətdə əlaqədardır. Qarabağ xanlığının Gürcüstanla əlaqələri Vaqifin əsərlərində parlaq ifadəsini tapmışdır. Şair Tiflisə həsr olunmuş səmimi, böyük nikbinliklə aşılanmış (Tiflis) müxəmməsi ilə özündən sonra gələn Q.Zakir, A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundov və başqa sənətkarların həmin mövzuda bədii əsərlərinə yol açmış, istiqamət vermişdir. M.F.Vaqif İbrahimxəlil xanın səyi ilə Qarabağ xanlığı ilə Gürcüstan arasındakı səmimi əlaqələri onu Tiflisdə aclıq ürəklə qəbul etmiş vəliəhd Levon haqqında şeir yazmağa sövq etmişdir. M.P.Vaqif Qacarlara qarşı Qarabağ və Gürcüstan ittifaqının bir növ bədii salnaməsini yazmış, xalqlar dostluğu mövzusunu tarixi həqiqətə uyğun şəkildə bədii əsərlərlə əbədiləşdirmişdir.

M.P.Vaqifin II İraklinin oğlu Levona şeir həsr etməsini gürcü yazıçı və alimləri də təsdiq edirlər. Lakin belə bir faktı da nəzərə almaq lazımdır ki, həmin şeir M.P.Vaqifin İbrahimxəlil xanla birlikdə Tiflisə səfərinin 1784-cü ildə olmasını şübhə altına alır. Çünki şahzadə Levon 1781-ci ildə vəfat etmişdir. Bu səbəbdən də Salman Mümtaz və başqa müəlliflərin M.P.Vaqifin II İraklinin oğlu Levona deyil, Eulona şeir həsr etməsi fikri daha inandırıcı və həqiqətə uyğundur. Zənnimizcə, bu səhv M.P.Vaqif əsərlərinin ilk çapından irəli gəlir. Burada işlənən Levon adı sonrakı əsərlərdə tədqiq olunmadan təkrar edilmişdir.

M.P.Vaqifin Gürcüstan mövzusunda yazdığı üç şeiri tarixi həqiqətlə əlaqədardır. Bu əsərlər Qarabağ xanlığının, eləcə də Azərbaycan xalqının gürcü xalqı ilə əlaqələri tarixindən alınmış bədii lövhələrdir.

"Qarabağnamə"lərdən məlumdur ki, İbrahimxəlil xan II İrakli ilə hərbi-siyasi ittifaqı möhkəmləndirmək məqsədilə II İraklinin tavatı (mülkədarı) knyaz Yevgeni Abaşidzenin qızı Cəvahir xanımla evlənmiş və ondan məşhur ictimai xadim, xanlığın vəqf mülkiyyətlərinin sahibi Gövhər ağa doğulmuşdur.

Qarabağ xanı İbrahimxəlil xan öz vəziri Molla Həsəni Türkiyə Sultanının yanına göndərərək kömək istəmiş, "əgər sizdən gözlədiyimiz köməyi alsaq biz düşməni məhv edərik",- deyə ona bildirmişdi. Şamaxı xanı Ağası Türkiyə Sultanına məktubunda Rus hökümətinə qarşı çıxmaqda ona qoşun göndərməyi xahiş etmişdi. Rus imperiyasının Şərq siyasəti Kiçik Qaynarcadan sonra daha da fəallaşdı. Rus işğalından ehtiyat edən xanlar Türkiyəyə daha tez-tez müraciət edirdilər. 1775-ci ildə Xoy xanı Əhməd Çıldır valisi Süleyman paşaya məktubunda Rusiya və onun müttəfiqi II İraklinin təcavüzünə imkan verməmək üçün Azərbaycan və Qafqaz xanlarının Osmanlı imperiyası ilə birgə mübarizə aparmağı vacib hesab edirdi.

23 iyun 1775-ci ildə İrəvan xanlığından Qars mühafizi İzzət Mehmet paşaya göndərilən məktubda Qubalı Fətəli xanın Dağıstanda ruslar ilə yaxınlaşması və rusların Dağıstandakı fəaliyyətindən bəhs olunur.

Bu zaman ölkəmizin şimal qonşusu olan Şimali Qafqaz regionu müstəqil və yarımmüstəqil siyasi qurumlara parçalanmışdı. Dağıstan ərazisində Tarku şamxallığı, Qaytaq usmiliyi, Tabasaran maysumluğu, Avar və Qazıqumuq xanlıqları var idi. Çeçen və inquşların vahid siyasi qurumu mövcud deyildi. Onlar tayfa qaydaları ilə ağsaqqallar şurası tərəfindən idarə edilirdilər. Kabardada böyük knyaz hakimiyyətinin seçkili olması çəkişmələrə və mərkəzi hakimiyyətin zəifləməsinə səbəb oldu. Deməli, Şimali Qafqazda əslində siyasi pərakəndəlik hökm sürürdü.

Azərbaycanın da siyasi mənzərəsi belə idi. Müəyyən zərurət Azərbaycan xanlarını, xüsusən Dağıstandakı siyasi qurumlarla hərbi-siyasi əlaqələr saxlamağa vadar edirdi. Azərbaycan xanları öz rəqibləri olan xanları məğlub etmək, onların torpaqlarını ilhaq etmək və xarici təhlükədən qorunmaq naminə Dağıstan hakimləri ilə ittifaqa girirdilər. Bəzi hallarda bu ittifaqı nikah diplomatiyası ilə möhkəmləndirirdilər.

1775-ci ildə Dağıstanda baş vermiş hadisələr (rus ordusunun gəlişi) İrəvan xanını narahat etdiyi üçün o, Mehmet paşaya müraciət etdi. Məlum olduğu kimi, 1774-cü ildə Qaytaq usmisi Əmir Həmzə və hakimiyyətdən salınmış şamaxılı Ağası xan, bir sıra Azərbaycan və Dağıstan feodallarının birləşmiş qüvvələri Gavduşan çölündə Qubalı Fətəli xanı məğlub etdilər. Fətəli xan da məcbur olub imperatriça II Yekaterinadan kömək istədi. O, da 1775-ci ilin martında general de Medeminin komandanlığı ilə Fətəli xana hakimiyyətini bərpa etmək üçün kömək göndərdi. Buradan belə nəticə çıxır ki, rusların Azərbaycana gəlişi Fətəli xanın dəvəti ilə olmuşdu.

Əslində isə çar Rusiyası Dağıstanın işğalını Fətəli xana kömək bəhanəsi ilə pərdələyirdi.

Gavduşan məğlubiyyətindən sonra əvvəlki mövqelərini bərpa etmək istəyən Fətəli xan Rusiya ilə münasibətləri canlandırmağa xüsusilə fikir verirdi. Bu məqsədlə o, 1775-ci ilin yazında Dərbənd hakimi Mirzəbəy Fərhadbəyov başda olmaqla Rusiya sarayına elçilər heyəti göndərdi.

Bəzi Dağıstan hakimləri Cənubi Qafqaz ölkələrini də özlərinə tabe etmək istəyirdilər. Onlardan biri də Ümmə (Ömər) xan idi. Tarixçi Mirzə Adıgözəl bəy "Qarabağnamə"də yazır: "Ümmə xan Dağıstandan iyirmi min qoşun götürüb gəldi. O, düşünürdü ki, madam vali (Gürcüstan çarı XII Georgi 12 yanvar 1798-28 dekabr 1800) Rusiyanın himayəsinə sığınmışdır. Mən də gedib rus qoşunlarını oradan çıxarıb Darüssürü (Tiflis) xaraba qoyaram". Rus ordusunun polku genaral-mayor Lazarevin komandanlığı ilə 1799-cu ilin noyabrın 26-da Tiflisə daxil olmuşdu. Mülki müşavir Kovalenski isə rus çarı tərəfindən Gürcüstan valisinin yanında nazir təyin edilmişdi. Rus general-mayoru Lazarevin və şahzadə İoanın komandası altında rus və gürcü qoşunları ilə avarlı Ümmə xanın və gürcü şahzadəsi Aleksandr arasındakı döyüş Kakabeti kəndinin yaxınlığında 1800-ci il noyabrın 7-də baş verdi. Ruslar top atəşi ilə dağıstanlıları darmadağın etdi. Salamat qalanların bir hissəsi qənimət ələ keçirmək üçün gəncəli Cavad xanın mülklərinə basqın etdilər. Cavad xan onlara qarşı qoşun göndərdi. Avarlı Ümmə xan yolları qar basdığı üçün Dağıstana gedə bilmədi, Balakəndə qaldı və 1801-ci ilin martın 10-da burada vəfat etdi. Fətəli şah Qacar Ümmə xanın üzərində çalınmış qələbədən xəbərdar olan kimi, Gürcüstana qoşun göndərmək fikrindən vaz keçdi.

Qeyd etmək lazımdır ki, bu dövrdə Kartli-Kaxetiya çarlığı Rusiyanın əli ilə Azərbaycan torpaqlarını ilhaq etmək istəyirdi.

Çar Rusiyasının xarici siyasətində erməni faktoru. Çar Rusiyası Cənubi Qafqazı işğal etmək üçün erməni və gürcülərə istinad edirdi. Rusya bölgədə yürütdüyü siyasəti "xristian təəssübkeşliyi" və "xristian həmrəyliyi" kimi saxta ibarələrlə pərdələyirdi. Çar hökuməti Cənubi Qafqazın işğal edilməsini beynəlxalq müstəvidə mənfi reaksiya doğuracağından ehtiyat edərək işğalın ilk mərhələsində burada Rusiyadan asılı xristian dövləti yaratmağı planlayırdı. Bu, erməni dövləti olmalı idi. Lakin bu dövləti yaratmaq üçün Cənubi Qafqazda o zaman kifayət sayda erməni yox idi. Ona görə də gələcəkdə ermənilərin buraya köçürülməsi zərurətə çevrildi. Rusiya imperiyasının Qafqaz siyasəti ermənilərin Şimali Azərbaycan torpaqları hesabına erməni dövləti yaratmaq planları ilə üst-üstə düşürdü.

II Yekaterina (1762-1796) bütün Gürcüstanı II İraklinin hakimiyyəti altında birləşdirmək və Şimali Azərbaycan torpaqları hesabına erməni çarlığı yaratmaqla Cənubi Qafqaza sahib olmaq istəyirdi. Ümumən, II Yekaterina dövründə Cənubi Qafqazda xristian dövləti yaratmaq üçün bir neçə layihə hazırlanmışdı.

Çar Rusiyasının siyasi xadimləri Q.A.Potyomkin və A.A.Bezborodko bildirirdilər ki, "Biz ancaq Bakıya qədərki torpaqları tutacayıq. Qarabağdan ibarət olan İran Ermənistanı və İraklinin çarlığı Türkiyə Ermənistanı ilə həmsərhəd olacaq". Q.A.Potyomkin məktublarından birində yazırdı ki, Qarabağda yaradılacaq müstəqil erməni vilayəti Rusiyadan başqa heç kəsdən asılı olmayacaq. Şimali Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq ideyasının formalaşmasında "erməni xadimləri" fəallıq edirdilər. XVIII yüzilliyin ikinci yarısında erməni siyasətçilərinin erməni çarlığı yaratmaq ideyasında 2 mərhələ müəyyənləşmişdi:XIX yüzilliyin 50-60-cı illərini əhatə edən birinci mərhələdə erməni ideoloqu İosif Emin ermənilərin hələ müstəqil dövlət yaratmağa və onu idarə etməyə qadir

olmadıqlarını başa düşdüyündən, Cənubi Qafqazda vahid erməni-gürcü dövləti yaratmaq planını irəli sürmüşdü.

Ermənilərin Cənubi Qafqaz və Osmanlı torpaqlarında erməni dövləti yaratmaq planının ikinci mərhələsi 1768-1774-cü illər rus-türk müharibəsinin başa çatmasından sonra başladı. Bu dəfə İ.Safarov, İ.Arqutinski, İ.Lazarev kimi erməni siyasətçiləri meydana çıxdılar. Onlar İ.Eminin "vahid gürcü-erməni dövləti" yaratmaq planından imtina edərək Rusiyanın himayəsi altında ayrıca erməni dövləti yaratmağa cəhd etdilər. Buna görə də Rusiyanın Q.A.Potyomkin, A.A.Bezborodko və A.V.Suvorov kimi yüksək rütbəli dövlət məmurları və hərbçiləri ilə sıx əlaqə yaratdılar.

Kərim ağa Zəndin ölümündən sonra (1779-cu il) İranda hakimiyyəti ələ keçirmək istəyən Əlimurad xan Bəxtiyari ona kömək əvəzində çar Rusiyasına Azərbaycan torpaqlarının bir hissəsini güzəştə gedəcəyinə razı idi. Çar Rusiyası əldə edəcəyi Azərbaycan torpaqlarında iki xristian "erməni dövləti"-"Ermənistan "(İrəvanda) və "Albaniya" (Qarabağda) yaratmaq istəyirdi.

IV FƏSİL
XANLIQLARIN SOSİAL-İQTİSADİ HƏYATI VƏ İDARƏETMƏ SİSTEMİ.

Xanlıqların sosial-iqtisadi həyatı. XVIII yüzilliyin ikinci yarısında Azərbaycan iqtisadiyyatında hökm sürən ümumi durğunluq, pərakəndəlik, ara müharibələri məhsuldar qüvvələrin inkişafına mane olurdu. Xanlığın iqtisadi həyatında əsas yeri kənd təsərrüfatı tuturdu. Əhalinin çoxu kəndlərdə yaşayır, əkinçilik, maldarlıq, bağçılıq, bostançılıq, arıçılıqla məşğul olurdu. XVIII yüzilliyin II yarısında ayrı-ayrı regionlarda bəzi təsərrüfat sahələri üzrə ixtisaslaşma gedirdi. Quba, Qarabağ, Şamaxı, Gəncə, Şəki xanlıqlarında dənli bitkilər, Lənkəran xanlığı, Şirvan mahalında çəltik, Dərbənd, Quba və Bakı xanlıqlarında qızılboya, zəfəran vetişdirilirdi. Şəki, Şirvan, Gəncə, Şəmkir, Xəzəryanı bölgələrdə əkinçilik tədricən ticarət səciyyəsi alırdı.

Kənd təsərrüfatı alətləri hələ lazımi səviyyədə deyildi. Kənd təsərrüfatı alətləri xış və kotandan ibarət idi. Suvarma şəbəkəsində arxlar və kəhrizlər əsas yer tuturdu. Suvarma şəbəkəsinin genişliyi kənd təsərrüfatında məhsuldarlığın artırılmasında xüsusi rol oynayırdı.

Kənd təsərrüfatının digər mühüm sahəsi maldarlıq idi. Mil, Muğan, Şirvan, Qarabağ düzənliklərində bol yem ehtiyatı və əlverişli təbii şərait maldarlığın inkişafına şərait yaradırdı.Balıqçılıq da inkişaf edirdi. Xəzər dənizi və Kür çayı sahillərinə yaxın ərazilərdə yaşayan əhali balıqçılıqla məşğul olurdu. Balıq ovu rus və yerli tacirlərə iltizama verilirdi.

Xanlıqlar dövründə Azərbaycan kəndində aqrar münasibətlərdə ciddi dəyişiklik olmamışdı. Əvvəlki torpaq mülkiyyəti formaları demək olar ki, qalırdı. Dövlət (divan) və saray (xalisə) torpaqları xan

torpaqları adlanmağa başlamışdı. Xanlıqlarda dövlət torpaqları ilə xan ailəsinə məxsus torpaqların birləşdirilməsi müşahidə olunurdu. Xanların əlində böyük maddi sərvət cəmləşmişdi.

Torpaq mülkiyyətinin digər forması mülk üzərində mülkədarın, mülk sahibinin tam mülkiyyət hüququ var idi. O, mülk torpağını xan qarşısında xidmətlə bağlı almamışdı, mülk xüsusi və irsi idi. Mülk sahibi torpağını sata və ya bağışlaya bilərdi.

Tiyul şərti torpaq mülkiyyəti olub, müəyyən xidmətlərə görə verilirdi. Xan tiyul verərkən onu müəyyən şəxslərə vəzifəyə və xidmətinə görə verirdi və xüsusi sənədlə təsdiq edirdi. Tiyul tədricən nəsli səciyyə alırdı. Tiyulun mülkə çevrilməsi prosesi getdikcə genişlənirdi. Bu, bir tərəfdən iqtisadi inkişafın nəticəsi idi, digər tərəfdən tiyuldarın ictimai-siyasi həyatda mühüm rol oynaması ilə izah olunurdu.

Müsəlman məscidlərinə və digər dini idarələrə məxsus vəqf torpaqları ilə yanaşı, evlər, dükanlar, karvansaralar da vəqf ola bilərdi. Vəqf xan xəzinəsinə vergi və mükəlləfiyyətlərdən azad idi. Kənd icma torpağı da mövcud idi. İcma kəndləri ərazi əlamətinə görə birləşdirirdi. Lakin icma torpaqlarının zorla tutulması nəticəsində onun sahəsi getdikcə azalırdı.

Xanlıqlar dövründə şəhərlər sənətkarlıq və ticarət mərkəzləri kimi inkişaf edirdi. XVIII yüzilliyin birinci yarısında dağıdılmış şəhərlər bərpa edilirdi. Pənahabad (Şuşa) şəhəri yüksəlməyə başlamışdı. Şəhərlərin dirçəlməsinin mühüm göstəricisi əhalinin artması idi. XVIII yüzilliyin sonu - XIX yüzilliyin əvvəllərində Şamaxı, Bakı, Şəki, Şuşa və Dərbənd şəhərlərinin hər birində 4 mindən 10 min nəfərə qədər əhali yaşayırdı. Təbriz yenə də Azərbaycanın ən böyük şəhəri olaraq qalırdı.

Quba şəhəri və onun ətrafındakı toxuculuq karxanalarında əl dəzgahlarından istifadə olunurdu. Qubada "Cici", Urmiyada "Əfşar" xalçaları toxunurdu. Şamaxıda ipək istehsalı üstünlük təşkil edirdi.

Şəki ipək istehsalı mərkəzi kimi şöhrət qazanmışdı Burada ipək parça toxunur, mis məmulatları hazırlanır, ağacdan şəbəkələr düzəldilirdi. Şəki tikmələri də geniş yayılmışdı.Təbriz, Ərdəbil, Marağa və Urmiya şəhərlərində də ipək parçalar istehsal olunurdu.

Azərbaycan şəhərlərində sənətkarlar başlıca olaraq əsnaf adlanan sənətkar sexlərində və ev şəraitində fəaliyyət göstərirdilər.

Metalişləmə sahəsində Lahıc kəndi şöhrət qazanmışdı. Lahıcda xəncər, qılınc, çaxmaqlı silahlar hazırlanırdı.Qədimdə olduğu kimi Bakıda neft çıxarılır və kustar üsulla emal edilirdi. XVIII yüzilliyin ikinci yarısında Bakıda xam neftin tuluqlarla daşınıb satılması, neftin emal edilməsi haqqında mənbələrdə məlumat verilir.

Xanlıqlarda ticarətin inkişafında müəyyən dəyişiklik nəzərə çarpırdı. Xanlıqlar Osmanlı dövləti, Hindistan, İran,Rusiya və başqa ölkələrlə ticarət əlaqələri saxlayırdı. Azərbaycandan neft, duz, zəfəran, xam ipək, sənətkarlıq məmulatları, çeşidli xalçalar və s. aparılırdı. Kənardan isə mahud, boyaq malları, qənd, dəmir, düyü və s. gətirilirdi. Şamaxı ipəyini Osmanlı tacirləri həvəslə alırdılar. Ərdəbil şəhəri də ipək məmulatı istehsalında məşhur idi. Buradan çox zaman Hələb, İzmir və İstanbula xam ipək, həmçinin ipək məmulatı karvanlarla aparılırdı. Təbriz bazarı "Qeysəriyyə" – yəni "şah bazarı" adlanırdı. Xanlıqlararası əlaqələr də genişlənirdi. Lakin ümummilli daxili bazar üçün hələ tam şərait yaranmamışdı.

Hər bir xanlığın özünəməxsus uzunluq ölçüsü, pul və çəki vahidləri var idi. Xanlıqların mərkəzi şəhərlərində zərbxanalar da yaranmışdı. Burada yalnız mis və gümüş pullar kəsilirdi. Pul vahidləri abbasi, tümən, şahı və s. idi. Ticarətdə əcnəbi pullardan da istifadə edilirdi.

Şəki, Şirvan, Gəncə, Şuşa, Naxçivan kimi əsas ipək mərkəzləri içərisində Şamaxı xüsusi fərqlənirdi. P.Semyonov yazırdı ki, «Məhəmməd Səid xanın dövründə XVIII yüzilliyin 60-cı illərində Şamaxıda ipəkçiliyn inkişafı yüksək səviyyədə idi». C.Foster bu fıkri tamamlayaraq əlavə edir ki, «Şirvanda ildə 400 tona qədər ipək ixrac olunur». Şəki ipəyi öz keyfıyyətinə görə heç də Şamaxı ipəyindən geri qalmırdı. Talış xanlığında da ipəkçilik inkişaf etmişdi. Lakin xan əsas gəliri düyüdən və balıqçılıqdan götürürdü. Balıqçılıq Azərbaycanın gəlirli sahələrindən biri idi. Təkcə Xəzər dənizi deyil, Azərbaycanın çayları da nadir növ balıqlarla dolu idi. Rus tacirlərinin Azərbaycanda balıq ovuna ciddi maraq göstərmələrini bununla izah etmək olar. Quba xanı balıq ovundan ildə gümüş pulla 50 min manat gəlir əldə edirdi. Sənətkarlıqda da müəyyən yüksəliş hiss olunurdu. Toxuculuq işi də geniş yayılmışdı. Xalq içindən çıxmış ustalar bir sıra məişət avadanlığı hazırlayırdılar. Basqal, Müci və Lahıc kəndləri Şamaxı xanlığının istehsal mərkəzlərindən birinə çevrilmişdi. Basqal və Mücidə ipək parçalar, kəlağayılar, Lahıcda isə mis qablar, tüfəng , xəncər və s. hazırlanırdı. Burada istehsal olunan məhsullar öz kəmiyyət və keyfıyyətinə görə o dövrün mərkəzi şəhərlərində hazırlanan məhsullardan geri qalmırdı.

Şəki xanlığında müəyyən iqtisadi canlanma nəzərə çarpırdı. Burada milli üslubda gözəl şəbəkələr hazırlanırdı. Onun nümunəsi hazırda XVIII əsrdən bizə yadigar qalmış «Şəki xan sarayı»nda saxlanılır. Şəki və Gəncədə misgərlik, dərzilik, zərgərlik, toxuculuq, boyaqçılıq və s. inkişaf etmişdi. Qarabağ xanlığında gözəl xalça, palaz və şallar toxunurdu. Şərq xalçaları içərisində Azərbaycan xalçaları öz rəngi, davamlılığı, toxunma texnikası ilə fərqlənirdi. Daxili və xarici bazarlarda Quba xalçaları xüsusi şöhrət qazanmışdı. Quba xalçaları böyük ustalıqla hazırlanır və naxışlarının müxtəlifliyi ilə İran xalçalarından fərqlənirdi. Ona görə də rus tacirləri Azərbaycanda

istehsal olunan sənətkarlıq məmulatlarına ciddi maraq göstərirdilər. Azərbaycandan Rusiyaya xam ipək, ipək məmulatı, neft, xalça, quru meyvə və s. aparılırdı. Rusiyadan Azərbaycana bir sıra hazır mallar gətirilirdi.

Torpaqlar əsasən xanların, sultanların, məliklərin, bəylərin, ağaların, ali müsəlman ruhanilərini əhatə edən hakim feodal sinfin əlində idi. Xan həm dövlət başçısı, həm də iri feodal idi. Onun əkin sahələri, saysız-hesabsız mal-qarası, dəyirmanları, karvansaraları, kənd təsərrüfatı alətləri, qoşqu heyvanları var idi.

XVIII yüzilliyin ikinci yarısında da əvvəlki dövrlərdə olduğu kimi Azərbaycanda feodalizm quruluşu hökm sürürdü.Əvvəlki tək əsas siniflər feodallar və kəndlilər idi.Feodalizm cəmiyyəti hakim və aşağı zümrəyə bölünürdü. Azərbaycan xanlıqlarında feodallar və kəndlilər əsas sinifləri təşkil edirdilər. Xan, bəy, sultan və məliklərdən əlavə feodal sinifinə ruhanilər, yarımköçəri tayfaların başçıları olan elbəyilər də daxil idi. Ali zümrənin əsas hissəsini geniş torpaq sahələrinə sahib olan bəylər təşkil edirdilər. Onlar da iri və şəxsi bəylərə bölünürdülər. Vaxtilə Səfəvi şahlarından böyük titul alanlar daha varlı və nüfuzlu idilər. Bəylərin mülkü hüququ irsi idi. Onlar kəndlilər üzərində inzibati hakimiyyətə malik olub, xanın qarşısında istənilən xidmətə hazır idilər.

Qazax, Şəmşəddil və Borçalıda bəy hüququna malik olan və kəndləri idarə edənlər ağa adlanırdılar.

Bəylər xanlıqda böyük siyasi qüvvə idilər. Xanın hakimiyyətinin möhkəmliyi xeyli dərəcədə bu zümrədən asılı idi. Bununla bərabər, xanlar bəylərin iqtisadi və siyasi cəhətdən güclənməsinə ehtiyatla yanaşır, buna imkan verməməyə çalışırdılar. Köçmə təsərrüfatla məşğul olan tayfaların, elatların başçıları elbəyilər də feodal zümrəsinə daxil idilər. Elbəyilər xan qarşısında hərbi mükəlləfiyyət daşıyırdılar.

Ali sinif içərisində ruhanilər də mühüm yer tuturdular. Ruhanilər ali və aşağı dərəcələrə bölünürdü. Ruhanilər vergi və mükəlləfiyyətlərdən azad idilər. Ruhanilər vəqflərin və dini rüsumların (xüms, zəkat və s.) hesabına dolanırdılar. Azərbaycanın sosial sistemində maaflar imtiyazlı təbəqə idilər. Xanların hərbi xidmətində olan və bunun müqabilində bəzi mükəlləfiyyətlərdən azad edilən bir qisim elatlar maaf adlanırdılar. Maaf rütbəsi xanlar tərəfindən verilirdi. Onlar xanlıqda asayiş qoruyucusu idilər, xanlığı qoruyurdular, müharibədə iştirak edirdilər, həm də qoşunun əsasını təşkil edirdilər.

Maafların üzərinə qoyulan vəzifələri layiqincə yerinə yetirmək üçün xan onları vergilərdən azad edirdi.

Kəndlilər cəmiyyətin aşağı sinfini təşkil edirdilər. Onlar hüquqi və mülki vəziyyətlərinə görə rəiyyət, rəncbər, elat və s. bölünürdülər. Rəiyyətlər divan, mülk və vəqf torpaqlarında yaşayırdılar. Onların bir qismi isə kənd icmasının ayırdığı torpaqları əkib-becərirdi. Dövlət rəiyyətlərinə nisbətən sahibkar rəiyyətlərinin vəziyyəti daha ağır idi. Çünki onlar həm xəzinə, həm də sahibkar tərəfindən istismar olunurdular.

Vergilərin miqdarının dəqiq müəyyən edilməməsi onların toplanmasında özbaşınalıq yaradır, rəiyyətin vəziyyətini daha da ağırlaşdırırdı.

Təsərrüfatı,torpağı və əmək alətləri olmayan kəndlilər rəncbər adlanırdılar. Ən ağır vəziyyətdə yaşayan rəncbər idi. Onlar ali zümrə nümayəndələrinə məxsus mülklərdə çalışır və əldə edilən məhsulun çox az bir hissəsini alırdılar. Lənkəran xanlığında belə kəndlilər əkər adlanırdılar.

Qarabağ, Şamaxı və başqa xanlıqlarda köçmə maldarlıqla məşğul olub köçəri həyat sürən əhali elat adlanırdı. Elat bəyin sürüsünü otarır, qoyununu qırxır, başqa mükəlləfiyyətlər yerinə yetirir, peşkəş

şəklində vergilər verirdi. Elatın vəziyyəti rəiyyətə nisbətən yüngül idi. Bu, bir tərəfdən hakim təbəqənin əsas gəlirinin əkinçi əhalidən toplanması, digər tərəfdən xan qoşununun əsas hissəsini elatın təşkil etməsi ilə əlaqədar idi. Elatlar yarımköcəri həyat tərzi keçirməklə birbaşa tayfa başçılarından asılı vəziyyətdə olurdular.

Kəndlilər hüquqi baxımdan sahibkarlardan şəxsən asılı olmadıqlarına görə Azərbaycanda, demək olar ki, təhkimçilik münasibətləri olmamışdır. Ölkədə feodal –asılı münasibətlər mövcud idi. Sahibkarla kəndli arasındakı münasibət kəndlinin onun torpaqlarından istifadə etməsi ilə müəyyən olunurdu.

Azərbaycan xanlıqlarında əsas vergi malcəhət (Naxçıvan və Şirvan xanlıqlarında bu vergi bəhrə adlanırdı) idi. Müxtəlif xanlıqlarda onun həcmi 1/10-lə 1/3 arasında tərəddüd edirdi. Feodallar otlaqlardan istifadə müqabilində rəiyyətdən çöpbaşı adlı əlavə vergi alırdılar. Kəndli bağlarından toplanan bağbaşı adlı vergi məhsulun 1/10-ni təşkil edirdi. Kəndli xanın atları üçün arpa verməli idi. Bu vergi atarpası adlanırdı. Feodalın xeyrinə bir sıra mükəlləfiyyətlər – biyar və əvrəz (qala divarı hörməli, körpü çəkməli və s.) yerinə yetirməli idi.

Kəndlilərin və şəhər yoxsullarının ağır güzəranı bəzən onların hakim zümrəyə qarşı mübarizəyə qalxmasına səbəb olurdu. Kəndlilər etiraz əlaməti olaraq ərizə ilə divana şikayət edir, öz el- obalarından qaçır, son həddə isə çıxışlar edirdilər. XVIII yüzilliyin ikinci yarısında Şəki, Şamaxı, Naxçıvan və Dərbənd xanlıqlarında feodal zülmünə qarşı böyük üsyanlar oldu.

Azərbaycanın demək olar ki, bütün xanlıqlarında əhali bağçılıq, bostançılıq, arıçılıqla məşğul olurdu. Şirvanda üzümçülük geniş inkişaf etmişdi. «Burada hazırlanan şərablar Fransanın qırmızı şərabından heç də geri qalmırdı» (M.Biberşteyn). Bağçılıq Gəncə, Şəki, Quba, Bakı xanlıqlarında nisbətən yaxşı inkişaf etdirilmişdi.

P.Butkov yazırdı ki, «təqribən hər bir evin qarşısında meyvə ağacları olan bag var idi». Xanlıqların hamısmda demək olar ki. taxıl əkilirdi. Pambıqçılıq daha çox Şirvan, Gəncə, Qarabağ və Naxçivan xanlıqlarında yayılmışdı. Azərbaycanda xırda qozaları olan pambıq becərilirdi. Lakin feodal çəkişmələri bu məhsuldar sahə ilə məşğul olmağa imkan vermirdi. Pambıqçılıqda becərmə texnikası aşağı səviyyədə idi. Onun təmizlənməsi və çiyiddən çıxarılması ibtidai üsulla aparılırdı. Qarabağ xanlığında atçılığın inkişafına xüsusi diqqət verilirdi. Dərbənd, Quba və Bakı xanlıqlarında qızıl boya və zəfəran becərilirdi. Bakıda istehsal olunan zəfərana xarici bazarda böyük ehtiyac var idi. Neft və zəfəran bu vilayətin əsas mallarındandır.

Yerli əhalinin əsrlərdən bəri məşğul olduğu neft istehsalı aşağı səviyyədə idi. Quyular əl ilə qazılır, neft isə adi vedrələrdə çıxarılırdı. «Ağ neft daha təmiz olduğu üçün çox baha satılır, işıqlandırma və müalicə vasitəsi kimi istifadə edilirdi. Həm qara, həm də ağ nefti satmaq üçün meşin kisələrə doldurub başqa vilayətlərə göndərirdilər» (S. Bronevski). Ümumiyyətlə, bu dövrdə neftin istehsalı və ondan istifadə kustar üsulla həyata keçirilirdi. Hasil edilmiş neft gəmilər vasitəsilə Həştərxana, oradan da Volqa ilə Rusiyaya, Tiflisə, İstanbula, Xorasana, hətta Hindistana aparılırdı. Bakı xanlığı neftdən böyük mənfəət əldə edirdi.

Azərbaycan təkcə nefti ilə məşhur deyildi. Odlar yurdunun əvəzsiz torpağı qızıl, gümüş, qurğuşun, mis, kükürd, dəmir filizi, zəy, duz yataqları ilə zəngin idi. Qarabağ və Naxçıvanda az miqdarda gümüş, mis, duz, kükürd, Daşkəsəndə dəmir və mis, Gəncədə mis və zəy mədənləri şöhrət tapmışdı, Bakı və Naxçıvandan bir çox yerlərə duz daşınırdı.

İdarəetmə sistemi. Xanlıq hakimiyyətin siyasi qurumu kimi təkhakimiyyətliliyə əsaslanırdı. Onu qeyri-məhdud qanunverici, məhkəmə və icra hakimiyyətinə malik olan xan idarə edirdi. Xanların

hakimiyyəti irsi xarakter daşıyırdı. Bir sıra xanlıqlarda, o cümlədən Şamaxı, Quba və Qarabağda xanın yanında məşvərətçi səslə divan və ya Xan Şurası fəaliyyət göstərirdi. Divanın, yaxud şuranın mövqeyi bəzən xanın çıxardığı qərara təsir göstərə bilirdi.

İdarəetmə sistemində saray məmurları geniş yer tuturdu. Onların içərisində vəzirin rolu daha böyük idi. Xan sarayında vəzirdən başqa, sərkərəli (maliyyə işlərinə baxan), eşikağası (xanın şəxsi təsərrüfatını idarə edən), sandıx ağası (xəzinədar), anbar ağası və digər vəzifələr də vardı.

Maliyyə sahəsində naib, yasavul, kəndxudalar və xanın təyin etdiyi sərkərlər əsas rol oynayırdılar. Natural vergilərin yığılması ilə darğalar məşğul olurdular. Asayiş xidməti xanın buyruqlarının vaxtında yerinə yetirilməsinə kömək edir, cəza tədbirlərini icra edirdi.Xan qoşununun əsas hissəsini elatlardan toplanan maaflar təşkil edirdi. Müharibələr zamanı qoşunun daimi hissəsi yeni silahlı qüvvələr hesabına artırılırdı. Döyüşçülərin silahlandırılması və digər xərclər əhali hesabına ödənilirdi.

Xanlıqlar inzibati cəhətdən mahallara, mahallar kəndlərə bölünürdü. Mahalların idarəsi ilə iri torpaq sahiblərindən təyin olunan mahal bəyləri və naibləri məşğul olurdular. Bu vəzifə irsi olsa da, hər dəfə xan tərəfindən təsdiq edilməli idi. Kəndlər yüzbaşı və kəndxudalar, şəhərlər kələntər və qalabəyi tərəfindən idarə olunurdu. Xanlığın idarəetmə sistemində çalışanlar maaş almırdılar. Onların xidməti xəzinə üçün toplanan vergi hesabına ödənilirdi.

Car-Balakən camaatlığı. Car-Balakən camaatlığı Azərbaycanın şimal-qərb hissəsində yerləşir, qədim dövlətçilik tarixini özündə yaşadan bölgələrimizdəndir. Qədim Albaniyanın bir parçası idi. Albaniyanın şimal-qərb sərhədləri ilə bağlı mənbələrdə göstərilir: Strabonun yazdığına görə "İberiyadan Albaniyaya yol susuz və daşlıq Kambisena vilayətinin içindən Alazan çayına doğru gedir". Strabonun

adını çəkdiyi Kambisena vilayəti ölkənin şimal – qərbində, İberiya sərhəddində yerləşirdi. Bu da indiki Car-Balakən ərazisinə müvafiq gəlir.

Məlum olduğu kimi, Böyük Qafqaz dağlarında Şimali Qafqazla Cənubi Qafqaz arasında əlaqə yaradan çoxlu aşırımlar var. Bu aşırımlardan beşi Balakən, Zaqatala, Qax rayonlarının ərazisindədir. Cənubi Qafqaza və Azərbaycanın şimalına ən qədim türk axınları da bu dağ aşırımları vasitəsilə baş verib. Məsələn, keçmiş İlisu sultanlığının ərazisini Qafqazın şimalı ilə birləşdirən aşırımlardan biri "Hun beli" və ya "Hun aşırımı" adlanırdı. Çox güman ki,VIII əsrdə xəzərlər də bu aşırımlardan istifadə edərək, İlisu sultanlığı və Car-Balakən camaatlığının ərazisinə daxil olmuş və buradan Kartliyə doğru hərəkət etmişlər.

Car-Balakən camaatlığının ərazisinin də daxil olduğu Albaniya IX əsrdə Sacilərdən, sonra isə Salarilərdən asılı vəziyyətə düşdü. Monqol hökmranlığı dövründə Ali Monqol Xaqanlığına, sonralar isə Hülakülər dövlətinə bac verərək tamamilə zəiflədi.

XV əsrdə Azərbaycanın şimal-qərb torpaqlarının Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin təsir dairəsinə daxil edilməsi ilə regionda dini-siyasi mübarizə gücləndi. Bu zaman bu torpaqlara iddia edə biləcək gürcü dövləti tənəzzül içərisində idi.

XVI yüzilliyin əvvəllərində mərkəzi Təbriz şəhəri olan Azərbaycan Səfəvilər dövlətinin yaranması Qafqazın tarixi müqəddəratını tamamilə dəyişdirdi. Səfəvilərdən vassal asılılığı ilk dəfə Kaxeti çarlığı qəbul etmişdir.1500-cü ildə Səfəvilərin Şirvanşah Fərrux Yasar üzərində qələbəsindən qorxuya düşən Kaxeti çarı Aleksandr oğlu Dmitrini hədiyyələrlə birlikdə Şah I İsmayılın yanına Şirvana göndərərək ondan asılılığı qəbul etmişdi.

Şah Sultan Hüseynin hakimiyyəti (1694-1722) dövründə 1695-ci ildə müsəlman car-balakənlilərin gürcü qoşunları üzərində qələbəsi

Car-Balakən camaatlığının tarixində yeni dövrün başlanğıcını qoydu. Yeni yaranmış hərbi-siyasi birləşmə Səfəvi dövlətindən vassal asılılığını qəbul etdi.

XVIII yüzilliyin əvvəllərindən Qanıq çayının sol sahilində məskunlaşan car-balakənlilər gürcü hakimlərinin nəzarət etdiyi Qanığın sağ sahili uğrunda mübarizəyə başladılar.Car-Balakən camaatı Azərbaycanın şimal-qərbində qan qohumluğu əlaqələri əsasında yaradılmış Car, Balakən, Katex, Tala, Muxax və Cənik adlı azad cəmiyyətləri özündə birləşdirən sosial-siyasi qurum idi. Bu cəmiyyətlərin əhalisinin xeyli hissəsini türksoylu avarlar, muğallar, ingiloylar (yeni və gel etnoniminin birləşməsi, yeni gellər - müsəlman gellər), saxurlar (ciqbilərin əcdadları) təşkil edirdilər.

Car-Balakən camaatında birləşən cəmiyyətlər öz sosial-siyasi quruluşuna görə ölkəmizin başqa vilayətlərindən fərqlənirdilər. Hər bir cəmiyyət camaat adlandırılan bir neçə kənd icmasından ibarət idi. Hər bir icma da ayrıca avar, muğal, saxur və ingiloy kəndlərindən ibarət idi. Camaatın torpaqları onların üzvləri arasında vaxtaşırı bölüşdürülürdü. Camaatın əhalisi maldarlıq, əkinçilik və sənətkarlıqla məşğul olurdu. Maldarlıq yarımköçəri xarakter daşıyırdı. Otlaqlar camaatlığın ümumi istifadəsində idi.

Kənd icmasını ağsaqqallar idarə edirdilər. Cəmiyyətdə ruhanilərin də nüfuzu böyük idi. Onlar məhkəmə işlərində şəriət qanunlarına əsaslanırdılar. Camaatlığın ən yüksək Ali orqanı Xalq Yığıncağı idi. Bu yığıncaqda bütün camaatlıq üçün əhəmiyyətli olan məsələlər müzakirə edilirdi: qonşu feodal dövlətləri ilə olan münasibətlər, müharibə və sülh məsələləri, icmalararası münasibətlərlə bağlı məsələlər müzakirə edilir, qərarlar qəbul edilir, qəbul edilən qərarlar qanun qüvvəsini alırdı. Burada yaşlılarla bərabər, yalnız yetkinlik yaşına çatmış kişilər iştirak edə bilirdilər. Bu orqana kovxalar, ağsaqqallar və qazilər daxil idilər.Onların

vəzifəsi şəriət qaydalarıının və adətlərin yerinə yetirilməsinə nəzarət etmək, ictimai qayda-qanunu qorumaqdan ibarət idi.

XVIII yüzilliyin ikinci yarısından Ali orqan icmanı şəriət qaydalarının və adətlərin əsasında hazırlanmış xüsusi "Qanunnamə" ilə idarə edirdi. Bu qaydalar həm də icma daxilində qayda-qanunun, sakitliyin təminatçısı idi.Car-Balakən camaatının əhalisi daim öz istiqlaliyyəti uğrunda mübarizə aparırdı. Bir çox hallarda onlar öz istiqlaliyyətlərini saxlamağa nail olsalar da, bəzən də bu, mümkün olmurdu. XVIII yüzilliyin 50-ci illərində Car-Balakən camaatı Şəki xanlığından asılı vəziyyətə düşmüş, yalnız XVIII yüzilliyin sonlarında müəyyən müstəqillik əldə edə bilmişdir.

Sultanlıqlar. Azərbaycanın şimal ərazisində Qazax, Şəmşəddil, Ərəş, Qəbələ və İlisu sultanlıqları da yaranmışdı. Qeyd edildiyi kimi, tacqoyma mərasimindən sonra Nadir Ziyadoğulları cəzalandırmaq üçün Qazax, Şəmşəddil və Borçalını Kartli carı Teymuraza vermişdi. Nadir şahın ölümündən xeyli sonra ayrı-ayrı qurumlar olan Qazax və Şəmşəddil sultanlıqları yarandı. Qazax və Şəmşəddil sultanlıqları Azərbaycanın şimal-qərbində xırda torpaq sahibliyi idi. Səfəvilər dövründə bu sultanlıqların ərazisi Qarabağ bəylərbəyliyindən asılı olmuşdu. Burada Qazax tayfası yaşayırdı, hakimləri sultan titulu daşıyırdı. Onlar irsi hakimiyyətə malik idilər.

Xanlığın idarə olunmasında məhkəmə orqanlarının böyük rolu vardı. Burada başlıca yeri şəriət məhkəməsi tuturdu. Bununla yanaşı, bu sahədə xanın müstəsna hüququ vardı. Bəzən mahal naibləri də hakim vəzifəsini yerinə yetirirdi.

Ərəş sultanlığı Səfəvilər dövründə təşkil edilmişdi. Ərazisi Şirvan bəylərbəyliyinin tabeliyində idi. Sultanlığı sultan titulu daşıyan nəsli hakimlər idarə edirdilər. Əhali ipəkçilik, maldarlıq və bağçılıqla məşğul olurdu. Buradan bir çox ölkələrə xam ipək ixrac edilirdi. XVIII yüzilliyin 50-ci illərində sultanlıq Şəki xanlığından asılı

vəziyyətə düşmüşdü. Ərəşin sonuncu sultanı Şəhabəddin Sultan idi. 1795-cü ildə sultanlıq ləğv edildi və mahal kimi Şəki xanlığına qatıldı.

Ərəş sultanlığı indiki Yevlax və Ağdaş rayonlarının bir hissəsini, Mingəçevir şəhərinin ərazisini əhatə edirdi. Ərəş sözünün mənası "dirsəkdən barmağın ucunadək uzunluq ölçüsü" deməkdir.

Ərəş Azərbaycanın qədim şəhərlərindəndir. Ərəş şəhəri Şirvan ərazisində, indiki Yevlax rayonunun Xaldan qəsəbəsi sahəsində mövcud olmuşdur. XV əsr mənbələrində Ərəş məntəqəsinin adına təsadüf edilir. Ərəşin mərkəzi ehtimala görə Xaldandan 3 km şərqdə, Nemətabad deyilən kənddədir. Ərəşin əsasının qoyulması haqqında müxtəlif mülahizələr mövcuddur. Məsələn, onun təməlinin Sasani şahı I Xosrov Ənuşirəvan (VI əsr) tərəfindən qoyulduğu söylənilir.

İlisu sultanlığı (1562-1844). Bu sultanlığın mərkəzi indiki İlisu kəndi olmuşdur. Sultanlıq şimaldan və şərqdən Böyük Qafqaz sıra dağları, qərbdən Qanıq (Alazan) çayı, cənub-şərqdən Şəki xanlığı ilə həmsərhəd idi. Ona Zaxur (Saxur) sultanlığı da deyilirdi. Sultanlıqda türklər, saxurlar, avarlar, muğallar, ingiloylar yaşayırdılar və indi də yaşamaqdadır. Bu kiçik inzibati ərazi vahidinin sultanlıq kimi əsası 1562-ci ildə Zaxur hakimi rütbəsinə Səfəvi şahı I Təhmasibin (1524-1576) fərmanı əsasında təyin olunmuş əslən İlisulu Adıy Kürqulu bəy tərəfindən qoyulmuşdur.

İlisu sultanlığı Kürqulu bəyin, onun oğlu Sarı Əli bəy, nəvə-nəticələri Məhəmmədxan bəy, Xəlil bəy, Əli Sultan bəy, Əhmədxan bəy və nəhayət general-mayor Daniyal Sultan tərəfindən idarə olunmuşdur. Bütün xarici təzyiqlərə və daxili çəkişmələrə baxmayaraq xanlıqlar dövründə İlisu Şəki xanlığından asılı idi. Sultaanlıq 1844-cü ilədək mövcud olmuşdur.1803-cü ildə İlisu sultanlığı Rusiya tərəfindən işğal edilmişdir.

Sonuncu İlisu sultanı, rus ordusunun general-mayoru Daniyal Sultan 1844-cü ildə ailəsi ilə Şimali Qafqaza qaçaraq dayısı çar

Rusiyasına qarşı xalq azadlıq hərəkatına başçılıq edən Şeyx Şamilə qoşulmuşdu. Daniyal Sultan ruslara qarşı vuruşmalarda iştirak etmişdi. Müridizm hərəkatı yatırıldıqdan sonra Türkiyəyə getmiş və 1870-ci ildə orada da vəfat etmişdi.

İlisunun tarixi coğrafiyası haqqında Kərim ağa Fatehin, Hacı Seyid Əbdülhəmidin və digər müəlliflərin əsərlərində müəyyən məlumatlar vardır.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində yazır: "Şirvan vilayəti şərq tərəfdən Xəzər dənizi ilə, şimal-qərbdən Qanıq (Alazan) çayı ilə İlisu nahiyyəsindən keçən qeyri-müəyyən xətlə məhdudlaşır".İlisu toponimi müxtəlif mənalarda izah edilir.Toponim qıpçaq sözü olan ili(isti) və su sözlərindən düzəlib, "isti su" deməkdir.Türk dillərində "İlisu" həm də "yel suyu" mənasındadır.İlisu iki dağ çayı-Kürmükçay və Hamamçayın birləşdiyi yerdə yerləşir.Kəndin əhalisi əsasən türk-müsəlmanlar olmuş, sonra burada avarlar, saxurlar, ingiloylar da məskunlaşmışlar.

Qazax sultanlığı Şimali Azərbaycanın qərbində mövcud olmuşdur (XV əsr-1819). Mərkəzi Qazax idi. Qazax sultanlığının hakimləri sultan titulu daşıyırdılar və irsi hakimiyyətə malik idilər. Qazax sultanlığına 3 nəsil rəhbərlik etmişdi. Birinci nəslə "Qazaxlı" və ya "Alqazaxlı" deyilən Şıxlılar aid idi.

Qazax və Şəmşəddil sultanqlıqları Azərbaycanın qərbində xırda torpaq sahibliyi idi. Səfəvilər dövründə bu sultanlıqların ərazisi Qarabağ bəylərbəyliyindən asılı olmuşdu. Burada türk mənşəli Qazax tayfası yaşayırdı, hakimləri sultan titulu daşıyırdı. Onlar irsi hakimiuyətə malik idi. XVI yüzilliyin 80-ci illərində osmanlı və gürcü ordusunun təzyiqi ilə Səfəvilər Azərbaycanı tərk etdikdə Bayat, Qaramanlı və başqa tayfalardan fərqli olaraq qazaxlılar öz ərazilərini tərk edib İrana getmədilər. Sultanlığın başçısı Nəzər xan Osmanlı hakimiyyətini qəbul etmiş və bununla da mahalın müstəqilliyini əldə saxlamışdır. İkinci dəfə xanlıq o cümlədən Qazax mahalı yenidən

Səfəvilərin hakimiyyəti altına keçəndən sonra da Nəzər xan öz hakimiyyətində qalmışdır. Hətta onun xələfi Şəmsəddin xan 1605-ci ildə Şah I Abbasdan xan rütbəsi almışdır.

Osmanlılar yenidən hücum edib Qazaxı aldıqdan sonra (XVIII yüzilliyin əvvəlləri) Qazaxda yeni inzibati ərazi bölgüsü aparmışlar. Belə ki, Qazax sancaq elan edilərək 4 nahiyyəyə bölünmüşdür. Bunlar: İncə, Türk, Cuvar və s. nahiyyələr idi. Qazaxlıların osmanlılar tərəfinə keçməsi ilə əlaqədar Sultan III Əhmədin (1703-1730) fərmanı ilə sancaqbəyi elə Qazaxın hakimi olan Mirəlibəy bəy təyin edilmişdir. 1728-ci ildə Osmanlı hökümətinin tərtib etdiyi "Dəftəri müfəssəl əyaləti Tiflis"də dəftərin 63 səhifəsi Qazax sancaqlığına aiddir. Dəftərə görə Qazax sancaqlığında 205 kənd, 10 qışlaq və 5 köçəri tayfa qeydə alınmışdır.

Səfəvilər Qazaxı osmanlıdan geri alanda qazaxlı tayfasını rəhbərlikdən azad edib, İranlı sərkərdə Sübhanverdi xanı Qazax sultanı təyin etmişdi. Bununla da 2-ci sülalənin hakimiyyəti başlandı. Məlumdur ki, Nadir xan Əfşar özünü şah elan edəndə (1747) Qarabağ bəylərbəyi Uğurlu xan Ziyadoğlu onun şah seçilməsinə etiraz edənlərdən biri oldu. Nadir şah onun nüfuzunu zəiflətmək üçün Şəmsəddil və Borçalı ilə yanaşı Qazaxı da Kaxetiya çarı II Teymuraza verdi. II İrakli 1774-cü ildə Salahlıdan Kosa Mirzalı Ağanın nəslindən olan Pənah xanı Qazaxın başçısı təyin etdi. Nəticədə hakimiyyətə 3-cü sülalə gəldi. Qazax sultanlığı imperator I Aleksandrın fərmanı (1801-1825) ilə Rusiyaya ilhaq edildikdən (1801) sonra ləğv edilərək (1819) distansiyaya çevrildi. Sonra isə çar Rusiyası Yelizavetpol quberniyası tərkibində Qazax qəzası (1867) yaratdı. Bu qəza Tovuz, Ağstafanın bir hissəsi, Qazax və sovet hökümətinin Ermənistana bağışladığı Dilican dərəsi və Göyçə gölünə qədərki əraziləri əhatə edirdi.

Qutqaşen (Qəbələ) sultanlığı. Qəbələ ərazisi Böyük Qafqazın cənub yamacı, şərqdən Göyçay, qərbdən Əlican çayı ilə əhatə olunmuşdu. XVIII yüzilliyin 50-ci illərində Qəbələ sultanlığı müəyyən imtiyaza malik olmaqla, bilavasitə Şəki xanlığına tabe idi. Əhalisi əkinçiliklə məşğul idi. Buğda, arpa, çəltik becərilirdi, ipəkçiliklə də məşğul olurdular.

Qutqaşen (Qəbələ) sultanlığı 1747-ci ildə yaranmışdır. Bu sultanlıq Qutqaşen sultanları tərəfindən idarə olunurdu ki, onların nəsli Hacı Səfi sultandan başlayırdı. Hacı Səfi sultan 1734-cü ilin oktyabrın 3-də Qəbələ ilə Şamaxı arasındakı Dəvəbatan deyilən ərazidə Surxay xan Qazıqumuxlu ilə birlikdə Nadir şahın 12 minlik ordusuna qarşı vuruşmada məğlub olaraq Suriyaya köçmüşdü. Sultanlıq 1747-ci ildən Şəki xanlığının tabeliyində oldu. Sultanlığı Kəlbəli sultan (?-1779) idarə edirdi. Kəlbəli sultan general-mayor İsmayıl bəy Qutqaşınlının (1806-1869) babasıdır. Kəlbəli sultan bir müddət, yəni 32 il Şəki və Ərəş feodallarının çəkişmələrindən istifadə edərək hakimiyyət başında qala bildi. 1779-cu ildə Kəlbəli sultan Qışlaqlı Hacıağa ilə birlikdə şəkili Hüseynxan tərəfindən həbs edilərək öldürüldü. Kəlbəli sultanın özündən sonra 5 oğlu qalmışdı. Kəlbəli sultanın ölümündən sonra Qutqaşın sultanlığı mahal kimi Şəki xanlığının tərkibinə daxil edildi. Mahalı Şəki xanları tərəfindən təyin olunan və Kəlbəli xanın nəslindən olan naiblər idarə edirdi.

XVIII yüzilliyin 90-cı illərində Kəlbəli sultanın oğlu Hacı Məhəmməd Şəfi sultan malikanənin bir hissəsini şəkili Məhəmmədhəsən xana (1784-1796) satdı. Şəkiyə rus çarı I Aleksandr tərəfindən təyin olunan xoylu Cəfərqulu xan (1806-1814) isə Hacı Məhəmməd Şəfi sultanın qalan torpaqlarını da satın aldı. Qutqaşen sultanlığının sonuncu sultanı İsmayıl bəy Qutqaşınlının atası naib Nəsrullah sultan idi. Nəsrullah sultan Kəlbəli sultanın oğlu idi.

Şəmşəddil sultanlığı Zəyəm mahalı və onun qərbdəki ərazisini əhatə edirdi. Bu ərazi Zülqədar tayfasının bir qolu olan Şəmşəddil tayfasının irsi vilayəti hesab olunurdu. Sonralar burada eyni adda sultanlıq yaranmışdı. XVIII yüzilliyin əvvəllərində Şəmşəddil tayfasının başçısı Səlim xan Səfəvi qoşununun köməyi ilə Ahalsıxı Osmanlılardan alıb öz ərazisinə qatmışdı.

Tarixi ədəbiyyatlardan məlumdur ki, Kiçik Asiyadakı türk mənşəli Dulqədir bəyliyini II Mehmet Fateh məhv etdikdən (XV əsr) sonra bu bəylikdə yaşayan zülqədar tayfası Səfəvilərə sığındı. Səfəvilər onların bir qolu olan Şəmşəddil tayfasını indiki Tovuz rayonu ərazisində yerləşdirdi. Şəmşəddil XVIII yüzilliyin ortalarında (1747) yaranmış sultanlıq idi. Əhalisi qızılbaş türk tayfalarından olan zülqədərlərdən ibarət idi. Mərkəzi Öksüzlü (Tovuz ərazisində) obası idi. Şəmşəddil sultanlığına Zülqədar sülaləsi başçılıq edirdi. Zülqədərlər əsasən Xılxına kəndində yaşayırdılar. Şəmşəddil sultanlığı bəzən Gəncə xanlığına, bəzən də Kartli çarlığına tabe olsa da, daim müstəqillik uğrunda çarpışmışdır. Şəmşəddil sultanlığı 1801-ci ildə Rusiyanın tərkibinə qatılmış, sonra (1819-cu ildə) isə distansiyaya çevrilmişdi. Şəmşəddilin ilk sultanı Sultan Allahverdi Zülqədar (1747-1761), sonra Əli Sultan Şəmsəddilli (1761-1797), sonuncu və ən qüdrətli sultanı isə Nəsib sultan (1797-1819) olmuşdur. Şəmşəddilin ərazisi 4481 km^2 idi. Sovet dövründə Şəmsəddilin bir hissəsi Ermənistana verilmişdir. Ermənistanda Şəmşəddin rayonu yaradılmışdır(09.09.1930-11.04.1995).Çar Rusiyası dövründə rayon ərazisi Yelizavetpol quberniyasının Qazax qəzasına daxil olmuşdur. Ermənistan tərəfi buradakı Azərbaycan adlarını dəyişdirmişdir. Məsələn, Tovuzqala (Berd), Vəligah (Tsaxkavan), Qulalı (Hayqedzror), Qırğı (Arazvaberd), Haqqın (Varaqavan).

Bir tarixi Azərbaycan sultanlıqları məhv olmuş, onların əraziləri qonşu Gürcüstana və Ermənistana "hədiyyə" olunmuşdur.

Məlikliklər. Xaçın, Vərəndə, Dizaq, Gülüstan (Talış), Çiləbörd məlikləri Qarabağ xanlığı ərazisində yerləşərək, xandan asılı idilər. Onları çox vaxt "Xəmsə məlikləri" də adlandırırdılar. Lakin Pənahəli xan gücləndikcə məlikliklərin bölüşdürücü fəaliyyəti də artırdı. Bunun qarşısının alınması vacib idi.

Mənbələrin və "Qarabağnamə" müəlliflərinin verdikləri məlumatlara görə, məlikliklərin əhalisi bu əraziyə başqa yerlərdən gəlmişdi və Qarabağın beş mahalının adı ilə adlandırılmışdı. Onlardan yalnız Xaçın mahalının əhalisi yerli xristian albanlar idilər və müxtəlif vaxtlarda burada məskunlaşmışdılar. Məsələn, Dizaq məliyi Qarabağa Loridən qaçıb gəlmişdi. Nadir şah Dizaqda ona məliklik vermişdi. Vərəndə məliyi Şahnəzər Göyçədən, Çiləbörd məliyi Allahqulu Mağavızdan, Talış məliyi Usub Şirvandan qaçaraq Qarabağda özlərinə sığınacaq tapmış və Nadir şaha itaətinə görə müvafiq ərazilərə mələk təyin edilmişdilər. Məliklər heç bir dövlət birləşməsi yarada bilməmişdilər. XVIII əsrdən sonra onların tarixi yoxdur. Məliklər bir-birindən ayrı olan, çox zaman bir-biri ilə çəkişən mahal başçıları idilər. Onlar Qarabağda pərakəndəliyin güclənməsini istəyən qüvvələri təmsil edirdilər. Məliklərin bölüşdürücü siyasəti ölkədə mərkəzləşdirmə siyasətinə mane olur, onun müstəqilliyni pozurdu. Buna görə də məliklərin müqavimətini qırmaq üçün görülən tədbirlər Qarabağ xanlığının müstəqilliyi uğrunda mübarizə demək idi. Məliklikləröz adlarını Qarabağda təşəkkül tapqıqları yerli mahal adlarından almışlar. Məlikliklərin əhalisi (Xaçın istisna olmaqla) Qarabağa Azərbaycanın Şirvan, İrəvan bölgələrindən köçüb gəlmiş, xristianlaşmış və ermənilәmiş türk, əsasən alban tayfalarından ibarət olmuşlar. Onlardan biri Pəmbək sultanlığı (və ya mahalı) XVIII-XIX əsrlərdə əsasən indiki Ermənistan ərazisində Pəmbək və Bazum dağ silsiləsi arasında, indiki Vanadzor (Böyük Qarakilsə) və Hamamlı (Spitak, həmçinin Lori) bölgəsinin bir hissəsini əhatə edirdi. Pəmbək

silsiləsi Gümrü şəhərindən Göyçə gölünün şimal-qərbinədək uzanır. Hal-hazırda bu ərazilər Ermənistanın Lori vilayətinə aiddir. Bu ərazi müəyyən dövrlərdə Borçalı sultanlığına, XVIII yüzillikdə Gəncə (Qarabağ) bəylərbəyiliyinə, daha sonra İrəvan xanlığına daxil olmuşdur.1802-ci ildən Rusiya imperiyası tərəfindən ilhaq edilmiş, Şörəyel-Pəmbək distansiyası adlandırılmışdır. Pəmbək toponimi müxtəlif cür yozulur. Məsələn, türk toponimi kimi dəyərləndirilir,"dar çay vadisində hündür, dik qayalıq, bənd" kimi izah edilir.

Borçalı sultanlığı Səfəvi,Əfşar imperiyaları tərkibində mövcud olmuş,Nadir şah tərəfindən Gürcüstana bağışlanmış,1801-ci ildə çar Rusiyasına birləşdirilmişdir. Sultanlıq ləvğ edilmiş, əvvəlcə Lori, sonra isə Tiflis qəzasında 1840-cı ilədək distansiya kimi mövcud olmuşdur.Tarixi Borçalı torpaqlarını hazırda Gürcüstana məxsus olan Dmanisi (Başkeçid), Bolnisi (Bolus), Marneuli (Sarvan, Candar,Qızılhacılı), Qardabani (Qaratəpə), Zalqanın bir hissəsi (Barmaqsız), Rustavi (Bostanşəhər), indiki Ermənistanın Noyamberyan (Ağbaba), Stepanavan (Calaloğlu), Kalinino (Daşır) əhatə edirdi. Göründüyü kimi, gürcülər və ermənilər Azərbaycanın tarixi yer adlarını gürcü və erməni adları illə əvəz etmişlər.Borçalı bir müddət qəza (1880-1929) kimi mövcud olmuşdur. Borçalı sözü müxtəlif cür izah edilir. O, türk mənşəli etnonim olub, bozçalu tayfasının (Q.Qeybullayev) və ya bulqar türk tayfası olan boraçoğullarının adından yarandığı ehtimal olunur. Mirzə Adıgözəl bəy "Qarabağnamə" əsərində (1845) yazır: Xəmsə adı ilə məşhur olan 5 mahalın hər birinin ayrı adı vardır. Bu mahalların sayı 5 olduğundan, onlara Xəmsə adı verildi; çünkü ərəb dilində beş ədədinə xəmsə deyirlər. Bu mahalların biri- Dizaqdır. Məlikləri Məlik Yekan adlanır. O, Loridən (müasir Ermənistandır) qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmiri ilə məliklik taxtında oturub hörmət qazanmışdır. İkincisi; Vərəndədir. Məlikləri Məlik Şahnəzərlilər

olmuşdur... Əsilləri də Göyçə əsilzadələrindəndir. Sonra oradan qaçaraq gəlib Qarabağda Vərəndə mahalının məliklik rütbəsinə sahib olmuşlar.

Üçüncü; Xaçındır.Məlikləri Həsən Cəlalyan övladıdır... Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliyi olmamışdır... Axırda mərhum Pənah şah Cavanşir buraya Xınzırıstanlı Məlik Mirzə xanı məlik təyin etmişdi. Ondan sonra oğlu Məlik Allahverdi və nəvəsi Məlik Qəhrəman məliklik rütbəsinə layiq oldular.

Dördüncü; Çiləbörd mahalıdır. Məlikləri Məlik Allahquludur. Əsilləri Mağavizdən (Qərbi Azərbaycan) gəlmədir. Bunlar Çiləbördə gəlib məlik olmuş, Tərtər çayının ortasında... ən möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yol olan Çermux (Çiləbördün qısa adı) qalasını özlərinə məskən, sığnaq və mənzil etmişlər. Çiləbördə müstəqil olaraq yiyələnmiş və böyük şöhrət qazanmışlar. Nadir şahla osmanlı sərəskəri Köprülü oğlu Abdullah paşa arasında olan müharibədə, Məlik Allahqulu çox şücaət və igidlik göstərdi. Nadir şah da ona məliklik deyil, daha yüksək olan sultanlıq rütbəsini layiq gördü. Beşinci; Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Nəsilləri Şirvandan gəlmədir. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu dəfələrlə məliklik etmişdi. Sonralar Məlik Usub Gülüstan qalasını zəbt edir orada sakin olmuşdur.

Mərhum Pənah xanın ilk hakimiyyət dövrlərində, Məlik Yegan övladından olan Dizaq məliki ona düşmən oldu və o dövlətə qarşı üsyan etdi. Pənah xanın üç Qarabağ məlikinə (Vərəndə,Talış,Xaçın) qarşı mübarizəsi, onun hakimiyyət uğrunda apardığı daxili feodal müharibəsi idi. O,silah gücü ilə öz hakimiyyətini Qarabağ ərazisində olan kiçik hakimlərə tanıtmaq istəyirdi. Pənah xanla Dizaq məliki arasında uzun zaman müharibə oldu. Axırda mərhum Pənah xan qalib gəlib o nəslin bir neçə nəfərini öldürdü...

Vərəndə məliklərindən Məlik Şahnəzər nəcib və böyük bir ailəyə mənsub olub çox varlı idi. Mərhum Pənah xan və İbrahim xanın mehribanlıq nəzəri, hörmət və mərhəmət gözü həmişə Məlik Şahnəzər və oğlu Məlik Cəmşidin üstündə olmuşdur. Məlik Şahnəzərin bir qızı İbrahim xanın arvadı olduğundan, aralarında qohumluq da əmələ gəlmişdi. Lakin nəvəsi Məlik Ulubab Xaçında müxtəlif kəndlərdən və ayrı-ayrı qəsəbələrdən qoşun adı ilə dələduzları cəm etdi. Ballıqayanı səngər edərək mərhum Pənah xana qarşı üsyan qaldırdı. Pənah xan bu əhvalatı eşidincə, böyük bir sürət və əzəmətlə hərəkət etdi. O, möhkəm səngəri və sığnağı alıb dağıtdı. Bundan sonra, Xaçın əhli itaət etməyə məcbur oldu. Pənah xanın ilk hakimiyyəti dövrlərində, Ağoğlanda yaşayan Çiləbörd məliyi Allahqulu sultan, onunla görüşmək üçün hüzuruna gəldi. Bu zaman Naxçıvan hakimi Heydərqulu xan da mərhum Pənah xana qonaq idi. O, Allahqulu xanın calal, şövkət və dəbdəbəsini gördükdə, Pənah xana xatırlatdı ki, belə bir sultan sənə itaət etməz... Pənah xan Heydərqulu xanın məsləhətini tamamilə düzgün və etirazsız bir məsələ hesab edib Allahqulu sultanı öldürtdü. Qardaşı Məlik Hətəm Çiləbördün məliklik mülkünə sahib oldu. Talış (Gülüstan) məliyi Usub Məlik Hətəmin köməkliyi ilə öz əmisini öldürərək məliklik taxtına oturdu. Bunların hər ikisi ittifaq edib ziddiyyət və nifaq bayrağını qaldırdılar. Çermux qalasına (Çiləbörd qalasına) çəkilərək uzun müddət dava-döyüşdə kahıllıq etməyib qırğın və talandan əl çəkmədilər. Pənah xan da dəfələrlə hücum etdi və onlara bir çox tələfat verdi. Qalaları möhkəm olduğuna görə Pənah xan məqsədinə çatmadan geri qayıtdı. Lakin dağdan aşağı rast gəldiyi əkin məhsullarını ordu atlarının ayaqları altında məhv etdi. Onları ağır bir vəziyyətdə qoydu. Onlar bu kimi ağır hallar qarşısında dörd il daha möhkəm və ruh yüksəkliyi ilə durdular. Bu müddət içərisində fitnə və fəsad yolu ilə gedərək inad və ədavət mülkünə hökmran oldular. Hər bir tərəfdən mərhum Pənah xan

əleyhinə döyüşə gələn xanların əsgərlərinə başçılıq etməkdə, qoşunlarının pişdarı (başçısı) olmaqda bir an süstlük və səhlənkarlıq etmirdilər. Axırda Pənah xan bunları mübarizə meydanında qəti məğlub etdi, onlar qaçmağı qərara aldılar. Vətəndən ayrı düşməyi xoşbəxtlik sanıb öz elat və təbəələri ilə hərəkət yükünü məğlubiyyət dəvəsinə yükləyərək Gəncə tərəfə getdilər, Şəmkir mahalında yeddi il çox zillət və son dərəcə çətinliklə dolandılar. Sonra isə Qarabağa qayıdaraq xanın ali hakimiyyətini tanıdılar. İbrahim xan da atası kimi yenidən baş qaldıran xristian məliklərin seperatizminə qarşı mübarizəni davam etdirdi. İbrahim xana tabe olmaq istəməyən məlikləri 1783-cü ildən Rusiya dəstəkləməyə başladı. Rusiya Qarabağda məliklərə köməklik edərək "xristian dövləti" yaratmağa çalışırdı. İbrahim xan diplomatik yolla onunla düşmənçilik edən məlikləri Şuşaya topladı. Faktlarla onların Qarabağ xanına xəyanət etdiyini sübut edib onları həbsə saldırdı. Məlik Məclum və Abov Şuşa həbsxanasına salındı. Məlik Bahtam isə siyasi məhbus kimi Ərdəbil xanına göndərildi. Məliklərin müttəfiqi Qanzasar (Gəncəsər) monastrının katolikosu İohannes qardaşı ilə tutulub cəzalandırıldı. Ancaq Şuşa həbsxanasında saxlanılan məliklər oradan qaçaraq Tiflisə gəldilər.Burada II İrakli və rus polkovniki Burnaşovla birlikdə Qarabağa yürüşə başladılar. Onlar Gəncəyə yaxınlaşdılar. Lakin 1787-1791-ci illər Rusiya-Türkiyə müharibəsinin başlanması Qarabağ xanlığı üzərinə bu Xaç yürüşünün dayandırılmasına səbəb oldu.

Məlikliklərin ərazisinə I və II Rusiya-Qacar müharibələri və ondan sonrakı dövrdə xeyli erməni əhalisi köçrüldü.Nəticədə buradakı albanların ermənileşməsi prosesi sürətləndi.Sovet dönəmində yaradılmış DQMV (1923-cü il) əsasən məlikliklərin ərazisini əhatə etmişdi.

V FƏSİL
XVIII ƏSR AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Maarif.Elm. XVIII yüzilliyin birinci yarısında yadellilərin basqınları, Azərbaycan ərazisində gedən Osmanlı ilə Səfəvilər və Əfşarlar arasında dağıdıcı müharibələr nəticəsində ölkənin təsərrüfat-ticarət və mədəni həyatı pozulmuşdu. Bu, şübhəsiz ki, maarifin inkişafına da mənfi təsir göstərirdi.Müharibələrin nəticəsi olaraq bəzi yerlərdə təhsil ocaqları tamamilə dağıdılmışdır. Məsələn, XVIII yüzilliyin əvvəllərində onlarla məktəb və mədrəsəsi olan Şabran şəhəri bütünlüklə dağıdılmış, təhsil ocaqları məhv edilmişdir. Azərbaycan tarixində bu kimi nümunələr çoxdur. Bu zaman maarif müəssisələrinə bağışlanmış vəqf torpaqları acgöz məmurlar və yerli feodallar tərəfindən zəbt olunurdu.

1736-cı ildə Nadir şah Muğanda taxta çıxdıqdan sonra maarif müəssisələrinin və vəqf torpaqlarının idarəsi işləri ilə məşğul olan *sədr üs-suduru* (sədrlər sədrini) vəzifəsindən çıxarıb edam etdi, vəqf torpaqlarını ələ keçirərək maarif müəssisələrini əsas gəlir mənbələrindən məhrum etdi. Beləliklə, sistemli tədris müəssisələri aradan çıxdı və yalnız bəzi molla müdərrislərin öz təşəbbüsləri ilə yaratdıqları az əhəmiyyətli məktəblər və mədrəsələr fəaliyyət göstərirdi. Xanlıqlar dovründə bu sahədə elə bir nəzərəçarpan dəyişiklik baş vermədi. Maarif müəssisələrini dolandıran vəqf torpaqları ya xanların əlinə keçmiş, yaxud da ruhanilər tərəfindən mənimsənilmişdi. Məktəblər məscidlərin bir guşəsində, xüsusi dükanlarda, yaxud şəxsi evlərdə yerləşir və adətən onların yaradıcılarının, müəllimlərin adı ilə adlandırılırdı. Məsələn, Qıraq Salahlıda Molla Cəbrayıl məktəbi, Şıxlıda Molla Vəli Vidadi məktəbi, Şuşada Molla PənahVaqif məktəbi və s.

Məktəbdə adətən ancaq bir müəllim olurdu və o, məktəbin həm də rəisi - *məktəbdar* idi. Məktəbdarlar məktəb binasına çəkdikləri xərc müqabilində, habelə tədris haqqı kimi şagirdlərin valideynlərindən hər həftə (həftəlik) pul, peşkəş, bayram vaxtı bayramlıq və s. alırdılar. Valideynlərin maddi yardımı, adətən məktəbləri dolandırmaq üçün kifayət etmədiyindən müəllimlər məktublar, dualar yazmaq, kəbin kəsmək və s. ilə də məşğul olurdular. Bir qayda olaraq, uşaqlar 6 yaşından məktəbə gedirdilər. Dərs otaqları həsir və ya kilimlə döşənir, şagirdlər əyləşmək üçün özləri ilə evdən döşəkçə gətirirdilər. Uşaqlar məktəbdə başıaçıq və ayaqqabısız otururdular. Dərs müddəti, adətən gündə 6-8 saat davam edirdi. Dərs vəsaiti çox məhdud idi. Şagirdlər əlifbanı öyrəndikdən sonra Quranın "Cüzəmmə" adlı kiçik bir hissəsini, sonra isə Quranı oxuyub başa çatdırır, habelə Sədinin " Gülüstan"nı və s. kitabları oxuyurdular. Müəllimlərin əksəriyyəti azsavadlı olduğundan həmin kitabların məzmununu izah edə bilmir və şagirdlər onları mexaniki əzbərləyirdilər. Məktəblərdə şagirdlərin istirahəti, əyləncəsi üçün xüsusi vaxt ayrılmadığı üçün onlar tez yorulur və qavrama qabiliyyətləri zəifləyirdi. Yoxsulların öz uşaqlarına təhsil vermək imkanı yox idi. Övladlarını kiçik yaşlarından özləri ilə işə aparır, onlara sənətlərini öyrədirdilər. Bir növ ali tədris müəssisələri olan mədrəsələrdə ixtisaslı ruhani kadrları yetişdirilirdi. Mədrəsələr, adətən böyük məscidlərin, xüsusilə cümə məscidlərinin nəzdində yerləşirdi. Mədrəsə binasında qismən geniş bir dərs otağı və tələbələrin yaşadıqları kiçik otaqlar - *hücrələr* olurdu. Mədrəsədə təlim edən şəxs *müdərris,* təhsil alan şəxs isə *tələbə* adlanırdı. Tələbə mədrəsədə əlifbanı, Quranı öyrənməklə yanaşı, islam fəlsəfəsi, fıqh (islam qanunları), ərəb-fars dillərini də öyrənirdi. Mədrəsələrdə müəyyən dərəcədə ədəbiyyat, riyaziyyat, nücum (astronomiya) elmləri də tədris olunurdu. Fənlərin müxtəlifliyinə baxmayaraq,

onların hamısı bir müdərris tərəfindən tədris olunurdu. Mədrəsələrdə yaş fərqi nəzərə alınmır, ayrı-ayrı yaşlılar bir yerdə məşğul olurdular. Tədris vəsaiti çox az olduğundan tələbələr vaxtın çoxunu xətlərini gözəlləşdirməyə sərf edirdilər. İstər məktəblərdə, istərsə də mədrəsələrdə hüsnxəttə xüsusi diqqət yetirilir, hətta bu və ya digər şəxsin savadının səviyyəsi onun xəttinin gözəlliyi ilə müəyyən edilirdi. Buna görə də təsadüfi deyildi ki, mədrəsə bitirənlərin əksəriyyəti gözəl xəttə, lakin zəif biliyə malik olurdu. Ən istedadlı tələbəni müəyyən müddət şəxsən baş ruhani - *müctəhidin* özü çalışdırırdı. Müctəhidlər əksər hallarda tələbə ilə öz evində məşğul olurdular.

Mədrəsələrin saxlanılmasına çəkilən xərc və ərzaq məscidə, mədrəsələrə vəqf edilmiş torpaqlardan alınırdı. İstər məktəblərdə, istərsə də mədrəsələrdə təhsil müddəti müəyyən və məhdud deyildi. Bu, şagirdin və tələbənin təhsili başa vurması haqqında müəllim və müdərrisin nə vaxt vəsiqə verməsindən asılı idi.

Məktəb və mədrəsələrdə şagirdlərə və tələbələrə qarşı çox ağır cəza növü - ayağın falaqqaya salınıb döyülməsi tətbiq olunurdu. Məktəb və mədrəsələrdən başqa fərdi tədris növü də mövcud idi. Xan, bir sıra varlı bəy və tacir uşaqları ilə onların evində (sare-xanedə) ayrılıqda bir müəllim məşğul olurdu. Sarxana müəllimi adlanan bu şəxslərin maddi təminatı şagirdin valideyni hesabına olurdu. Deməli, XVIII yüzilliyin ikinci yarısında Azərbaycanda maarif işləri nisbətən canlanmışdı. Xanlıqlarda xeyli məktəb və mədrəsələr fəaliyyət göstərirdi. Həmin vaxt ölkəmizdə məktəb və mədrəsə təhsili almış bir sıra görkəmli şəxsiyyətlərə tez-tez rast gəlmək olardı. Onlardan bir çoxu şairliklə yanaşı, müəllimliklə də məşğul olurdular. Məhəmməd Həsən xan Müştaq, Məhəmməd Zari, Arif Təbrizi, Arif Şirvani, Ağa Məsih Şirvani, Baba Şirvani, Xəstə Qasım, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və başqaları həm də dövrün tanınmış alim-müəllimləri

və məktəbdarları idilər. M.V.Vidadinin Cəbrayılda (Çələbilər kəndində) açdığı məktəb, eləcə də M.P.Vaqifin Şuşada Saatlı məhəlləsində açdığı məktəb əhalinin təhsilə cəlb olunmasında əhəmiyyətli rol oynamışdır. Vaqif Şuşadan öncə Tərtərdə müəllimlik etmişdir.

XVIII əsrdə Azərbaycanda elm sahəsində elə bir ciddi irəliləyiş baş verməmişdir. Coğrafiyaşünas alimlər Hacı Zeynalabdin Şirvani və onun kiçik qardaşı Hacı Məhəmmədəli Şirvani, habelə tarixçi Əbdürrəzzaq bəy Dünbuli o dövrün tanınmış şəxsiyyətləri idi.

XVIII yüzilliyin axırları və XIX yüzilliyin əvəllərində yaşamış Hacı Zeynalabdin Şirvani demək olar ki, ömrünün 40 ilini səyahətdə keçirmiş, Avropa, Asiya və Afrika ölkələrində 60 min kilometrdən çox yol qət etmişdir. O, Hind və Atlantik okeanlarından,habelə bir çox dənizlərdən keçmiş,Kiçik Asiya, İran yaylalarını, Orta və Mərkəzi Ərəbistan səhralarını, Sudan cəngəlliklərini, Seylon, Hindistan və Hind-Çin meşələrini gəzmiş, Nil çayını müşahidə etmiş, Hindiquş, Tyan Şan, Himalay, Pamir və digər çətin dağ silsilələrini aşmışdır. H.Z.Şirvani səyahətlər zamanı müşahidə etdiklərini qələmə alaraq "Səyahət bağçaları", "Səyahət bostanı", "Mərifətlərin kəşfi" və bir çox başqa əsərlərini yazmışdır.

H.Z.Şirvaninin kiçik qardaşı Hacı Məhəmmədəli Şirvani Hindistan, Ərəbistan, Əfqanıstan, İran, İraq, Misir, Türkiyə və digər ölkələri gəzmiş,öz təəssüratını "Həqiqətlər həqiqəti" adlı əsərində əks etdirmişdir.Hacı Məhəmmədəli Şirvani eyni zamanda tarixçi, filosof, maarifpərvər və şair olmuşdur.

XVIII yüzilliyin ikinci yarısı - XIX yüzilliyin əvvəllərində yaşamış Əbdürrəzaq bəy Dünbuli (1762-1827) tanınmış tarixçi filosof və şair idi. Təbriz xanı Nəcəfqulu xanın 10 yaşlı oğlu Əbdürrəzaq 16 il müddətində Kərim xan Zəndin yanında Şirazda girov saxlanılmış və yalnız Kərim xanın ölümündən sonra vətənə qayıda bilmişdir.

Əbdürrəzaq bəy uzun müddət Təbriz-Xoy xanlığının vəziri olmuşdur. O, "Sultan abidələri", "Dünbulilərin tarixi", "Azadələrin təcrübəsi və müqəddəslərin təsəllisi" və s. əsərləri yazmışdır. Azərbaycan tarixini öyrənmək üçün onun "Sultan abidələri", "Dünbulilərin tarixi" əsərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Birinci əsərdə XVIII yüzilliyin sonu - XIX yüzilliyin əvvəllərində Azərbaycan və İranda cərəyan edən hadisələr öz əksini tapmışdır.Yeganə nüsxəsi Ermənistanın "Matenadaran" adlanan Əlyazmalar İnstitutunda hifz olunan ikinci əsərdə isə Dünbuli tayfasının tarixi və mənşəyi haqqında məlumat verilmişdir.

Azərbaycan mədəniyyəti tarixi üçün ənənəvi olan klassik mədəniyyətin tədqiqi və təbliği XVIII yüzilliyin fəlsəfi fikir tarixində xüsusi yer tutmaqda davam edirdi.

Məftun təxəllüsü ilə yazıb-yaradan Əbdürrəzaq bəy Dünbuli antik və Şərq fəlsəfəsinin dərin bilicisi kimi fəlsəfə, etnoqrafiya və ədəbiyyata dair əsərlərin də müəllifidir. Mənəvi kamillik, sufi panteizmi və demokratik meyillərin vəhdətini biz Məsihinin (XVII-XVIII əsrlər) yaradıcılığında, xüsusən, onun "Vərqa və Gülşa" poemasında və "Qövsi Təbrizi" fəlsəfi poeziyasında görə bilirik.

XVIII əsr panteist fəlsəfəsi Azərbaycanda sufizmin ideoloqu Mirzə Həsən Zünuzinin(1758-ci ildə Xoy şəhərində doğulub)irsi ilə təmsil olunur.Zünuzi"Bəhr əl-ülum" və "Riyaz ül-cənnət" əsərlərinin müəllifidir. Görkəmli şair və mütəfəkkir M.V.Vidadinin yüksək humanizmi əks etdirən yaradıcılığı XVIII yüzilliyin ideoloji həyatında mühüm bir mərhələ olmuşdur. Yer üzünün hökmdarlarına inamını itirən şair Allaha ümid edir. Vidadinin fıkrincə, yalnız Allah bu dəhşətli dünyanı dəyişdirməyə,yaxşılaşdırmağa qadirdir.

Azərbaycan mədəniyyətinin parlaq nümayəndələrindən biri, dövrünün mütərəqqi siyasi xadimi şair M.P.Vaqif idi. Vaqif poeziyasında məhəbbət və həyatda insanlar arasındakı təzadlı

münasibətlər haqqında dərin fəlsəfi mövzular çarpazlaşır. Özündən əvvəlki Şərq və Azərbaycan klassik fəlsəfı poeziyasından fərqli olaraq, Vaqif yaradıcılığındakı məhəbbət panteist məzmunda deyil, yalnız dünyəvi xarakter daşıyır.Şair deyir ki, hər şey yalandır, dünyada düzgün bir şey yoxdur. O öz şikayətlərini "Görmədim" rədifli məsnəvisində vermişdir. Şair öz əsərlərində yaşadığı mühitin nöqsanlarının, eybəcərliklərinin ittihamçısı kimi çıxış edir, feodal cəmiyyətində ədalətin olmadığını bildirir.

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.

XVIII əsr Azərbaycan ədəbiyyatında realist xalq və saray ədəbiyyatından ibarət bir-birinə zidd iki cərəyan mövcud idi. Birinci istiqamətin nümayəndələri xalq kütlələrinin arzu və istəklərini ifadə edir, ölkə həyatının doğru təsvirini verirdilərsə, saray şairləri hakim sinfin həyatını mədh edir və öz əsərlərində feodal məfkurəsini əks etdirirdilər. Bu dövrdə şifahi xalq ədəbiyyatı və aşıq şeiri çiçəklənməkdə idi. Bəzi xanlıqlarda mövcud köçəri həyat tərzi aşıq şeirinin xan saraylarına da yol tapmasına şərait yaratmışdı. Qarabağ və Qaradağ xanlıqlarının iqamətgahlarında və hətta II İraklinin sarayında peşəkar aşıqlar var idi. Görkəmli Azərbaycan şairləri yaxşı saz çalır, insanlar ondan ilham alırdılar. Bu amillər aşıq yaradıcılığının rəğbət qazanmasına, geniş yayılmasına və onun klassik ədəbiyyata təsirinin artmasına səbəb olmuşdu.

XVIII yüzillik aşıq poeziyasının yüksəliş dövrüdür. Azərbaycan dili və ədəbiyyatı tədricən xarici sözlərdən təmizlənməkdə idi. Şeirdə getdikcə daha çox xalq ədəbiyyatı ilə bağlı motivlər üstün yer tuturdu. Ədəbiyyatda realist istiqamət qüvvətlənirdi. Şeirdə hakim mövqe tutan məhəbbət mövzusu ilə bərabər, ədəbi əsərlərdə dövrün tarixi hadisələri ilə səsləşən mühüm ictimai-siyasi hadisələrin işıqlandırılması Azərbaycan ədəbiyyatında yenilik idi.

Folklor ədəbiyyatında - "Koroğlu", "Aşıq Qərib", "Əsli və Kərəm", "Şəhriyar" kimi dastanlarda dünyanın zorakılığı, zülm, riyakarlıq bədbinlik deyil, zülmə qarşı fəal mübarizə hissi doğurur.

XVIII əsr poeziyasının əsas xüsusiyyəti əsasən müxəmməs (beşlik) formasında yazılmış irihəcmli şeirlərin meydana gəlməsidir. Tarixi həqiqiliyi ilə seçilən bu əsərlər yüzilliyin bir çox hadisələrini və ictimai-siyasi həyatın faktlarını aydınlaşdırmağa, dərk etməyə kömək edir. Xanlıqlar dövründə yazılı ədəbiyyata realist meyllər getdikcə güclənirdi. Arif Təbrizi, Arif Şirvani realizm üslub yaradıcılarındandır. Bir sıra əsərlərdə müəlliflər (məsələn,*Zari)* Nadir şahın siyasətinə, təyin olunmuş ağır vergilərə, zülmə qarşı öz qəzəbini bildirmişlər. Bu cür motivlər şair *Şakir Şirvaninin* "Əhvali-Şirvan" əsərində daha aydın nəzərə çarpır. Əsərdə müəllif Sam Mirzənin Nadir şaha qarşı çıxmasından,üsyanı yatırmaq üçün onun göndərdiyi qoşunun şəhəri dağıtmasından bəhs edir.

Həcminə görə böyük olan ikinci əsər *Ağa Məsih Şirvaninin* yenə də Şamaxıda baş vermiş hadisələrə həsr etdiyi müxəmməsidir. O, əsərdə 1749-cu ildə baş vermiş hadisələrin real təsvirini verir. Avantürist Əhməd xan Şahsevən Şamaxını zəbt etməyə və sonra da öz təsirini Azərbaycanın digər ərazilərinə yaymağa cəhd göstərir. Qarabağlı Pənahəli xan, Şəkili Hacı Çələbi xan və başqaları onun köməyinə gəlirlər. Lakin onlar məğlub olurlar. Əhməd xan məhv edilir. Müəllif ədalətin keşiyində duran qüvvələrin qələbəsinə rəğbət bəsləyir. Şəki xanlarına xidmət edən şair Nəbi şeirlərində Hacı Çələbi xanı, onun Nadir şaha qarşı hərbi şücaətlətini təsvir etmişdir. Müxəmməslərin birində Çələbinin oğlu Ağakişinin ölümündən bəhs etmişdir.

Ədəbiyyat. XVIII yüzilliyin realist poeziya zirvəsində iki görkəmli şair - *Molla Pənah Vaqif (1717-1797) və Molla Vəli Vidadi(1709-1809)* durur. Bu iki dost şairi çox amillər

yaxınlaşdırırdı. Onlar birlikdə poeziya dilini, şeir formasını dəyişmiş və xalq üçün daha anlamlı etmişlər. Məhz Vaqif və Vidadi yaradıcılıında klassik və xalq ənənələri birləşdirilmişdir.Lakin onların hər biri özünəməxsus tərzdə, bir-birindən fərqli halda həyatı qavramış, dərk etmişdir və bu da onların yaradıcılığında təkrarolunmaz iz buraxmışdır.

Vidadi humanistdir, qəmküsardır, xalqın kədərini dərindən duyandır. Onun lirikasında qüssə-kədər əhvali-ruhiyyəsi üstünlük təşkil edir.

Vaqif Azərbaycan poeziyasının ən görkəmli lirik şairlərindən biridir. Onun lirikasının əsas mövzusu məhəbbət və insan gözəlliyinin tərənnümüdür. Vaqif faciəli bir həyat yaşamışdır. O, sadə bir müəllim olsa da, öz qeyri-adi qabiliyyəti və bacarığı sayəsində Qarabağ xanlığının baş vəziri kimi fəaliyyət göstərmiş, ömrünün sonunadək bu vəzifədə çalışmışdır.Dövrünün ən bilikli şəxsiyyəti sayılan Vaqifin astronomiya və memarlıq haqqında da məlumatı var idi.

Qonşu xalqlarla sülh münasibətlərinin tərəfdarı olan Vaqif 1795-ci ildə Qacar qoşunlarının Şuşaya hücumunun qarşısının alınmasında yaxından iştirak etmişdir. İki ildən sonra Ağa Məhəmməd şahın qoşunları Şuşanı aldıqda Vaqif həbsxanaya salınaraq hər an ölümünü gözləmişdir. Şahın öldürülməsi şairin həyatını çox qısa müddətə xilas etsə də, bir neçə aydan sonra o, saray çəkişmələrinin qurbanı olmuşdur.

Vaqif nikbin şairdir. Yanlız bu xüsusiyyəti Azərbaycan poeziyası tarixində ona xüsusi mövqe qazandırmışdır. Vaqifə qədər poeziyamızda nikbinliyin bu cür parlaq ifadəsini verən şair olmamışdır. Vidadi ilə nəzm yazışmalarında Vaqifin həyata baxışı materialist dünyagörüşü səviyyəsində ifadəsini tapmışdır.

Ta cəsədin cüda olmayıb candan,
Bil özünü artıq sultandan, xandan

Qəriblik, ayrılıq nədir ki, ondan
Bu qədər çəkibsən azar, ağlarsan?

Vaqif "Pəri" qoşmasında Azərbaycan qadınlarının gözəlliyini təsvir etmişdir. Ömrünün sonlarında "Görmədim" müxəmməsində şair öz dövrünün, feodal mühitinin nöqsanlarının tənqidçisi kimi çıxış edir.

Mən cahan mülkündə mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə babət görmədim.

Vaqif ədalətsiz feodal qayda qanunlarına etiraz edərək yazmışdır.

Müxtəsər kim, böylə dünyadan gərək etməz həzər,
Ondan ötrü kim, deyildir öz yerində xeyri-şər,

Vaqif yaşadığı mühitin qurbanı oldu. 1797-ci ildə oğlu Əbülfət ağa ilə birlikdə Şuşada Xəznə qayasında Məhəmməd bəy Cavanşir tərəfindən edam etdirildi..

Aşıq Şikəstə Şirin Ağa Məhəmməd şah Qacarın Tiflisə soxulması ilə bağlı (1795) əhalinin başına gətirilən fəlakətləri, amansız zülmü, qarətləri təsvir etmişdir.

XVIII əsr ədibləri xanlıqların arasında və daxildə gedən çəkişmələri tənqid edir, mütərəqqi, uzaqgörən dövlət xadimlərini tərifləyirdilər. Tarixi səpkidə yazılmış şeirlərdə zamanın gerçək hadisələri və real şəxslər təsvir edilmişdir.

XVIII yüzillikdən dövrümüzə bir sıra nəsr nümunələri də yadigar qalmışdır. Onlardan biri də naməlum müəllifin yazdığı "Şəhriyar və Sənubər" dastanıdır. Dastanda sevgililərin qovuşmasına mane olan sosial bərabərsizlik təsvir olunur. Sənubərin atası zadəgandır, tacirlə qohum olmağı özünə əskiklik sayır. Yanlız Şəhriyar Tiflisin hakimi təyin olunduqdan sonra vəziyyət müsbətə doğru dəyişir. Çünki sevgililər sosial təbəqə cəhətdən bərabərləşirlər. Dastanda ictimai vəziyyətindən asılı olmayaraq bir sıra saf, ağıllı və cəsarətli insan sürətləri (Şamama bəyim, Pərizad) yaradılmışdır.

Məhcur Şirvaninin "Qüsseyi-Şiraz" məsnəvisi xalq nağılları motivləri əsasında yazılmışdır. Əsərdə göstərilir ki, İran şahı Ərdəşir sonsuzdur, münəccimlərin məsləhəti ilə şahın arvadı meşəyə aparılaraq edam edilir. Lakin onun yeni doğulmuş oğlu Şirzadı vəzirlərindən biri qoruyur. Şirzad böyüyür, şah taxtına əyləşir, O, Qabil şahın qızı Xurşidbanu ilə evlənir. Poemada xeyirin qalib gələcəyinə nikbin inam var.

XVIII əsr aşıq şeirinin yüksəliş dövrüdür. Xəstə Qasım, Saimi, Saleh, Ürfani, Məlali və digər şairlər yazıb yaratmışlar. Onlar əsərlərində xalqın ümid və arzularını, məhəbbət motivlərini, qadın gözəlliyini tərənnüm etmişlər. Bu şairlərin yaradıcılığında ictimai bərabərsizlik, sadə insanların ağır güzəranı, didaktik-əxlaqi məsələlər də işıqlandırılmışdır. Aşıq poeziyasının ən böyük ustadı Xəstə Qasım idi.

XVIII yüzilliyin ikinci yarısından başlayaraq Şuşa şəhəri Azərbaycan mədəniyyətinin mühüm mərkəzlərindən biri olmuşdur.O dövrdə Şuşada yaşamış Musa Kəlimullah tərəfindən Qarabağda həmin dövrün ağır müharibələri, xalqın çətin vəziyyəti qələmə alınmışdır.

Şirvanlı Çələbi döyülüb qaçdı
Qacar Məhəmmədhəsən bir oyun açdı,
Ovşar Fətəli də yolunu çaşdı,
İndi başqa fikir, başqa haldadır.
Qızmış şirə döndü Ağaməmməd Qacar,
Qarabağa gətdi qanlı bir azar.
O, saymadı, bax gör fələk nə sayır?
Leşi gorda, başı bizim yaldadır.

İbrahimxəlil xanın oğlu Əbülfət xan Tuti və qızı Ağabəyim də şair idilər. Onların hər ikisi Şuşada və Qarabağda əmin-amanlıq və sülh yaratmaq məqsədilə Fətəli şah Qacarın sarayına göndərilmişdilər.Lakin onlar Tehranda daim Vətən həsrəti ilə yaşamışlar. Bunu Ağabəyim ağanın şeirindən də görürük.

Mən aşiqəm, Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

İncəsənət. Bu dövrün təsviri incəsənəti bəzi nüansları nəzərə alınmazsa durğunluq dövrü kimi səciyyələnə bilər. Əvvəlki əsrlərdə öz inkişafının zirvəsinə çatmış və xaricdə belə şöhrət qazanmış miniatür boyakarlıq və tətbiqi incəsənət belə tənəzzül edirdi.

Bu dövrün təsviri incəsənətinin nisbətən inkişaf etmiş sahəsi dövrümüzə qədər gəılib çatmış divarüstü boyakarlıqdır. İncəsənətin bu önəmli sahəsinin Azərbaycanda geniş rəvac tapması bir sıra yazılı qaynaqlarla da təsdiq edilir. 1796-cı ildə rus qoşunlarının Azərbaycana yürüşünün iştirakçısı P.Butkov Dərbənddə yaşayış evi interyerinin bəzəyini təsvir edərək yazır ki,bu dövrdə xeyli epiqrafik abidələr yaradılmışdır. Epiqrafika nümunələrinə memarlıq abidələri, məzar daşları, saxsı metal, taxta və s. üzərinə bərkidilmiş lövhələr üzərində rast gəlinir. XVIII əsr kitabələrinə:inşaat materialları üzərinə həkk olunmuş sənədlərin nüsxələri, dini mətnlər,mənzum parçalar daxildir. Orada olan süjetli kompozisiyaların bəzisi "fillərə minmiş qədim asiyalıların döyüşünü, bəzisi sevgililərin görüşünü, bəzisi isə atlı ovçuların maralları qovaraq onları qılıncla öldürməsini təsvir edir".

P.Butkovun Bakı xan sarayının divar rəsmləri haqqında verdiyi məlumatlardan aydın olur ki, göstərilən rəsmlər İrəvan sərdarı sarayındakı rəsmlər kimi kətan üzərində yağlı boya ilə işlənmiş, sonra isə divarlara quraşdırılmışdır. Onlardan bir hissəsi Mirzə Qədim İrəvaninin rəsmləri kimi general Bulqakovun əmri ilə divardan qoparılmış, qalanları isə ya çıxarılmış, ya da XIX yüzilliyin 50-ci illərində sarayı "Avropa zövqü ilə" qurarkən məhv edilmişdir. Sarayda şəhərin komendantı yaşayırdı.

Bu dövrdə xeyli epiqrafik abidələr yaradılmışdır.Epiqrafika nümunələrinə memarlıq abidələri,məzar daşları,saxsı qabları,taxta və s.üzərinə bərkidilmiş lövhələr üzərində rast gəlinir.

XVIII əsrdə Azərbaycanda divar naxışlarının ən gözəl və tipik nümunələri Şəki Xan sarayında və Şəkixanovların evində, Lahıc, Şuşa, Ordubadın və digər şəhərlərdəki yaşayış evlərinin, ictimai tikililərin interyerində qorunub saxlanılmışdır. XVIII əsrdən bu günədək külli miqdarda dekorativ-tətbiqi incəsənət nümunələri, o cümlədən daş və ağac üzərində bədii oyma, döymə metal məmulatı,xalçalar,saxsı qablar,parçalar və naxışlı tikmələr qorunub saxlanılmışdır. Müxtəlif dekorativ incəsənət növləri arasında aparıcı yer xalçaçılığa məxsusdur. Əvvəllər olduğu kimi, XVIII əsrdə də Quba, Bakı, Şamaxı, Qarabağ, Gəncə, Qazax, Təbriz, Ərdəbil xalça məmulatı ilə məşhur idi. Bunlar həm əhalinin ehtiyaclarını ödəmək, həm də xarici ticarət məqsədilə istehsal olunurdu. Xalçalar xovlu (xalça,xalı, gəbə və s.) və xovsuz (palaz, kilim, sumağı, zili və s.) toxunurdu. Xovlu xalçalar naxışlarının incəliyi və rənglərin zənginliyi ilə fərqlənirdi. Bu dövr Azərbaycan xalçalarının ən gözəl nümunələri sırasında öz dekoruna görə seçilən iki xovlu xalçanı (1800-cü ildə biri Bakının Suraxanı, digəri isə Xilə kəndində toxunmuşdur), habelə XVIII əsrdə Qazaxda (Almaniya, şəxsi kolleksiya) və Qarabağda toxunmuş süjetli kompozisiyalı xovsuz xalçaları (Kiyev, Qərb və Şərq İncəsənəti Muzeyi) misal göstərmək olar.

XVIII əsrdə xalçaçılıqla yanaşı, Azərbaycanda ipək, pambıq və yun parça istehsalı da mühüm əhəmiyyət kəsb etmişdir. Xalq yaradıcılığının geniş yayılmış növlərindən biri də bədii tikmədir.Təkəlduz və güləbətin kimi ənənəvi üslubla yanaşı, XVIII əsrdə məişət əşyalarına, paltara bəzək vurulduqda müxtəlif metallardan - gümüş, tunc və s. hazırlanmış dairə, borucuq, romblardan geniş istifadə olunurdu. Azərbaycanda dəmir, mis, qızıl

və digər metalların mövcud olması nəticəsində bədii metalişləmə sənəti geniş yayılmışdır. Yazılı mənbələrin məlumatına görə, XVIII əsrdə bədii metalişləmə sənətinin mərkəzi Təbriz, Şamaxı, Şəki, Gəncə, Naxçıvan olmuşdur. Bakı, Moskva, Sankt-Peterburqun və bir sıra xarici ölkələrin muzeylərində XVIII əsrə aid külli miqdarda bədii metalişləmə nümunəsi saxlanılır. Azərbaycanda XVIII yüzilliyin ikinci yarısında baş verən tarixi və sosial-iqtisadi dəyişikliklər memarlığın inkişafı istiqamətinə də əsaslı təsir göstərmişdi. Xanlıqların memarlığının ümdə cəhətlərindən biri iqamətgah və onun müvafiq istehkamı kimi saray komplekslərinin yaradılması zərurəti olmuşdur. Şəhər ətrafında və xanlıq ərazisində müdafiə sistemlərinin inşası da mühüm məsələ idi. Şəhərsalmada - xanlıqların paytaxtının salınmasında iki əsas meyil qeyd olunmalıdır.

Birinci meyil xanlar tərəfindən paytaxt kimi Azərbaycanın qədim tarixi şəhərlərinin seçilməsidir. Bunlardan Bakı, Naxçıvan, Gəncəni göstərmək olar. Lakin bu dövrdə bir sıra xanlıqların yeni mərkəzləri də yaradılır və bununla əlaqədar şəhərsalma işində mühüm tədbirlərin aparılması müşahidə edilir. Şəhərlərin bu qrupuna ilk növbədə, Qarabağ xanlığının paytaxtı Şuşanı aid etmək olar. Bu qrup şəhərlərə Quba da daxildir. Qədim Şəki 1772-ci ildə baş vermiş seldən sonra yeni ərazidə, müasir şəhərin ərazisində salınmışdır.

Bu dövrdə ayrı-ayrı qəsrlər də tikilirdi. Bunlardan ən əhəmiyyətlisi Pənah xanın ilk iqamətgahı olan "Şahbulağı" qəsri idi. Qəsrlər eləcə də şəhər daxilində tikilirdi. Şuşa şəhərindəki "Qara Böyük xanın" qəsri onlardan biridir.

Bizə qədər gəlib çatmış ən qiymətli saray şəhərin yuxarı hissəsində, Şəki qalasının daxilində tikilmiş Şəki Xan sarayıdır.

Şəki şəhərinin Sankt-Peterburq Hərbi-Dəniz Arxivindən aşkar edilmiş 1853-cü ilə aid planı göstərir ki, günümüzədək gəlib çatan

Mirzə Hüseyn xan Mustaqın əmri ilə 1763-cü ildə inşa olunmuş Şəki sarayı geniş kompleksin bir hissəsidir.

Hazırda tədqiqatçılar Ustad Abbasqulunu Şəki Xan sarayının müəllifi, yaradıcısı hesab edirlər. Sarayda ağac üzərində oymalar, xüsusilə oyma taxta qapılar qalmaqdadır. Saray kompleksinin şəbəkəsi dekorativ tətbiqi incəsənətin parlaq nümunəsidir. Məlumdur ki, şəbəkənin mürəkkəb həndəsi ornamentlərdən ibarət ağacdan olan əsası kiçik taxta detallardan, yapışqan və mıxdan istifadə olunmayaraq quraşdırılmışdır, aradakı boşluqlar isə rəngarəng şüşələrlə örtülmüşdür. Digər şəhərlərdəki xan sarayları(o cümlədən İrəvandakı Sərdar sarayı 1791) dövrümüzədək gəlib çatmasa da (erməni ekstremistləri dağıtmışlar),Şəki Xan sarayı və Bakı Xan sarayı timsalında o zamanın xan saraylarının xüsusiyyətləri haqqında təsəvvür yaratmaq olar. Bu dövrün əsas dini tikililəri məhəllə məscidləri idi. Bu baxımdan iki tərəfi qoşa minarələrlə əhatə olunmuş Şuşadakı "Gövhərağa" məscidi və İrəvandakı "Göyməscid" (1764) diqqətəlayiqdir.

Şuşanın 17 məhəlləsində məscid var idi.Qarabağ xanlığında çoxlu memarlıq abidələri inşa olunmuşdur. Mirzə Camal "Qarabağ xanlığında Pənah xanın və varisi İbrahimxəlil xanın dövründə tikilən bina və imarətlər haqqında" məlumat vermişdir. Lakin onun oğlu Rzaqulu bəyin "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" əsərində bu barədə məlumatlar nisbətən genişdir. O, Pənah xanın Qarabağda inşa etdirdiyi qalalar haqqında yazır:

"Əvvəl Bayat qalasıdır. Bu qala bişmiş kərpicdən tikilmiş, içində bazarı, hamamı, barısı və Pənah xanın özünə məxsus imarəti var idi. Mərhum Pənah xan Bayat qalasını hicri 1161-ci ildə, miladi 1745-ci ildə tikdirmişdir.

İkincisi, Şahbulağıdır. Burada bulaq başında daşla və əhənglə məscid, hamam, şəhər və bazar tikilmişdir. Bunun adına Tərnəküt qalası deyirlər. Pənah xan o qalanı 1165-ci ildə (miladı 1751-1752-ci illər) tikdirmişdir.

Üçüncüsü-Şuşa qalası adlanan Pənahabaddır. Şuşa qalasının binasını Pənah xan qoymuş, qalanın üçdə bir hissəsini o bina etmiş və ətrafına, əvvəldən möhkəm hasar çəkdirmişdir. Onun bir tərəfində, qalanın kənarında özü üçün kiçik qalaya bənzər bürclü, barılı imarət düzəltmişdi. Bir təpənin üzərində öz evinə bənzər bürclü və barılı gözəl bir ev də böyük oğlu İbrahim xan üçün tikdirmişdir. Burada məqsəd düşmən gələndə qalanı ondan qorumaq idi. İkinci oğlu Mehralı bəy, üçüncü oğlu Talıbxan üçün də qalada gözəl evlər tikdirmişdi.Prezidentin "Şuşa ili" elan edilməsi ilə bağlı Sərəncamında Şuşa qalasınınn tikilməsi 1752-ci ilə aid edilir.

Kərim xan Zənd İraq, Fars və Azərbaycan vilayətlərini ələ keçirdikdə mərhum Pənah xan ehtiyat üçün Şuşa qalasının binasını qoydu. Qala Vərəndə mahalının məliki Məlik Şahnəzərin tədbiri və bələdçiliyi ilə tikilmişdir. Sonra isə Rzaqulu bəy İbrahim xanın Qarabağda apardığı abadlıq işləri barədə məlumat verir: Birinci; indi də şəhərin ortasında, qalanın içərisində olan böyük məsciddir ki, hicri 1182-ci- miladi 1766-cı ildə tikilmişdir. Köhnəldiyinə görə onu mərhum İbrahim xanın qızı Gövhər ağa ... 1279-cu ildə (1862-1863-cü il) əsaslı sürətdə təmir etdirdi.İkincisi;Şuşa qalasının hasar və divarıdır ki, indi də durur. Bunu mərhum İbrahim xan 1198-ci ildə (1783-1784-cü illər) tikdirmişdir.

Mərhum İbrahim xanın yadigarlarından üçüncüsü; hər iki Əsgəran qalasıdır. Bu qalaları hicri 1203, miladi 1786-cı ildə tikdirmişdir. Bu qalalar Şuşa qalasının üç ağaclığında, Qarqar çayının keçidi olan iki dağın arasında yerləşmişdir. Şirvan, Şəki və Dağıstan vilayətləri əhalisi mərhum Pənah xanla düşmən olduqlarından ehtiyat

üçün böyük oğlu İbrahim xana vəsiyyət etmişdi ki, əgər fürsət tapmasa, sən bu iki Əsgəran dağının arasında iki qala tikdir ki, düşmən gələn zaman piyada qoşunlarımız bu qalalarda olsunlar. Oradan Şuşa qalasına 8 verstə (əslində Əsgərandan Şuşaya 24 kilometr məsafə var) qədər məsafə vardır. Düşmən oradan keçib qalaya gələ bilməz. Belə ki, bu qalaların ətrafı möhkəm dağlar, meşələr, daşlar, qayalar və böyük səhralardır. Qalalarda tüfəngçilər qoyarlarsa düşmən oradan keçib, xalqın mal-qarasını qarət və talan edə bilməz. Mərhum İbrahim xan həmən vəsiyyətə görə hər iki qalanın birini Şərq, o birini isə Qərb tərəfdə daş və əhənglə tikdirib, möhkəm bürc və barı çəkdirdi. Ağa Məhəmməd şah gələndə əvvəl Şuşa qalasının üzərinə qoşun çəkdi. Şuşa qalasını tutmağı bacarmadığı üçün Şuşa kəndindən köçüb Tiflis tərəfə getdiyi zaman qızılbaş qoşunu bu qalalardan keçib gedə bilmədi. Bu qalalara bir neçə böyük top atdılarsa da, onların möhkəm binasına bir zərər yetirə bilmədilər. Nəhayət, Əsgəranla Şuşa qalası arasında iyimi gün məhəttəl qaldılar. Onların qatır, at və sair malları oğurlanıb, tələf oldu. Axırda, mərhum İbrahim xanın əmri ilə tüfəngçilər və başqa qoşun əhli Əsgəran qalasını boşaldıb Şuşa qalasına gəldilər. Bundan sonra Ağa Məhəmməd şahın qoşunları oradan keçib, Qarqar çayının kənarında ordu quraraq, bir müddət dincəldilər və sonra Tiflisə getdilər.

Dördüncü;İbrahim xanın özünə məxsus imarətlərdir. Şuşa şəhərində olan bu imarətlərin birində Gəncə xanzadələrindən olan Mehdiqulu xanın anası yaşayırdı. Bir imarətdə də polkovnik Xanlar ağa və Əhməd xanın anası Bikə ağa olurdu. Bikə ağa Avar vilayətinin valisi dağıstanlı Ümmə xanın bacısı idi.

Beşincisi;Xəzinə dərəsinin imarət və otaqlarıdır. Şuşa qalasında dağların, daşların arasında olan imarətdir ki, mağaranın içində əhəng və daşla tikilmişdir. Buraya təkcə bir yol vardır, çıxış yolları isə yoxdur. Bu yoldan yanlız piyada keçmək olar. Şuşa qalası tərəfində

böyük bir mağara vardır ki, dərinliyi kimsəyə məlum deyildir. Məlik Şahnəzər bu mağaranın ağzına yaxın bir yerdə özü üçün bir neçə otaq tikdirmişdir ki, xanın otaqlarına baxır,düşmən gələn zaman o mənzillərdə oturanlar bir-birlərinə kömək edərək düşməni Şuşa qalasına və çay tərəfə gəlməyə qoymazlar. 1826-cı ildə Şuşa kəndi əhalisi orada mənzil edib, o evlərə və marağaya pənah apardılar. Qalaya və şəhərin içinə gedib-gəlirdilər, qoşun və şəhər əhalisinin taxılını orada, çayda üyüdüb gətirirdilər. Qızılbaş qoşunu orada olan şeyləri ala bilmədilər. O zaman, o yerin şəhərə və qalaya çox köməyi dəydi.

Altıncısı;qalanın bir ağaclığında olan Xan bağı imarətləridir. Burada tövlələr, bağlar, buzxana, dəyirmanlar və arxlar vardır. Habelə burada böyük bir zorxana tikilmişdir. Mərhum İbrahim xan, vaxtının çoxunu burada keçirərdi.

Yeddincisi;Ağdam bağının hasarı və oranın böyük kümbəzləridir. Bu gümbəzlər mərhum Pənah xanın və onun vəfat etmiş başqa övladlarının qəbirlərinin üzərində tikilmişdir. Orada qəşəng otaqlar, imarətlər və böyük üstü örtülü bazar tikilmişdir. Bura mərhum Pənah xanın və atası İbrahimxəlil ağanın qədim ocağı idi. Ağa Məhəmməd şah burada ordu qurduğu və Tiflis şəhərinə getdiyi zaman evləri və gümbəzləri xarab etmişdi. Rəhmətlik İbrahim xanın oğlu və varisi mərhum general-mayor Mehdiqulu xan o yerləri yenidən təmir edib, əvvəlkindən daha ziynətli bir şəklə saldı. Həmən qəbirlərə vəqf olaraq, ayrıca ehsan bağı saldırdı. Həmən bağın 4 tərəfinə daş və əhənglə divar-barı çəkdilər. Bu qəbirlərə ehsan olmaq üçün böyük bir buzxana düzəltdi. Ellər, səhrada yaşayanlar və kəndlilər hər il yayda biçin vaxtı öz xəstələri üçün buradan buz aparırdılar, ən azı min yük, bəlkə daha çox buz sərf olunurdu. Allah ona rəhmət eləsin. General Cəfərqulu xanın atası mərhum general-mayor Məhəmmədhəsən ağa, rəhmətlik Pənah xanın imarətinin

yanında gözəl imarət tikdirmişdir. Cəfərqulu ağa onu daha da ziynətləndirib, içində yaşayır. Ağa Məhəmməd şah qalanı alıb, haman imarətdə sakin oldu. Oranın özünə mənzil etmişdi. Onun içində də öldürüldü.

Bu dövrdə bir sıra memorial tikililər inşa edilmişdir ki, bunun da nisbətən geniş yayılmış növü səkkizbucaqlı türbələr idi. Bu qrupdan olan çoxsaylı tikililərdən ən əhəmiyyətlisi Şamaxıdakı "Yeddi günbəz" türbəsi kompleksidir. Bu tikililər üzərində göstərilən tarix XIX yüzilliyin başlanğıcına aid olsa da, onların əsası XVIII yüzilliyin sonu - XIX yüzilliyin əvvəllərində qoyulduğundan memarlıq baxımından XVIII əsrə xas olan bütün xüsusiyyətləri özündə əks etdirmişdir."Yeddi Günbəz" kompleksi yeddi türbədən ibarət olmuş, onlardan yalnız dördü bizə gəlib çatmışdır. Salamat qalan yazılar bu türbələrin xan sülaləsinə mənsub olan şəxslərin dəfni üçün nəzərdə tutulduğunu güman etməyə əsas verir. Bir türbənin yazısında onun inşa tarixi 1810-cu il göstərilmiş və şamaxılı Mustafa xanın anasının türbəsi olduğu qeyd edilmişdir. Türbə üzərindəki ayrıca yazıda onu inşa edənin "Ustad Tağı memar" olduğu göstərilmişdir.

Xanlıqların yaranması müəyyən dərəcədə bəzi bölgələrdə mədəniyyətin canlanmasına təkan versə də, bəhs olunan dövrdə ümumən bu sahədə gerilik hökm sürürdü.

VI FƏSİL
ŞİMALİ AZƏRBAYCANIN RUSİYA TƏRƏFİNDƏN İŞĞALI. I RUSİYA-QACAR MÜHARİBƏSİ.

Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi və Azərbaycanın işğalına başlanması. XVIII yüzilliyin sonu XIX yüzilliyin əvvəllərində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi feodal dövlətlərdən xanlıqlara parçalanmışdı. Qonşu xanlığın ərazilərini ələ keçirmək uğrunda xanlar arasında ardı-arası kəsilməyən ara müharibələri, feodallarla kəndlilər arasında sinfi ziddiyyətlərin güclənməsi, iqtisadi tənəzzül, Azərbaycanın daxili vəziyyəti üçün səciyyəvi hal idi. Rusiyanın Cənubi Qafqaz barəsindəki işğalçı niyyətləri, Qacarların ordularının viranedici yürüşləri vəziyyəti daha da gərginləşdirirdi.

Bəhs olunan dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazın istilasından ibarət idi. Çarizm Cənubi Qafqazı əlavə gəlir mənbəyinə çevirməyə, Xəzər dənizi hövzəsi üzərində Rusiya ağalığına nail olmağa, Xəzəri Rusiyanın daxili dənizinə çevirməyə can atırdı. Azərbaycanın təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq rus elminə məlum idi və təsadüfi deyildi ki, II Yekaterina hökuməti bu ölkənin sərvətlərinin mənimsənilməsini onun istilası ilə bağlayırdı. Qızılboya, yun, ipək, pambıq, tütün, yanacaq və s. Rusiya sənayesini xammal və yanacaqla təmin edə bilərdi.

Cənubi Qafqazın siyasi və hərbi strateji əhəmiyyəti böyük idi. Bu diyarın işğalı ənənəvi rus-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə həll edə bilərdi. Rusiya mərkəzi Qafqazı hələ fəth edə bilməmişdi. Cənubi Qafqazın istilası dağlıların ərazilərini şimaldan və cənubdan mühasirə almaqdan ötrü əlverişli şərait yarada bilərdi. Nəhayət, rus-ingilis rəqabəti Cənubi Qafqazın, o cümlədən

Azərbaycanın əhəmiyyətini artırırdı. Rusiyanın bu yerləri işğal etməsi Böyük Britaniyanın şərqdə təsirinə, Ost-Hind kompaniyasının inhisarına ağır zərbə endirə bilərdi.

Cənubi Qafqazdakı mürəkkəb vəziyyət Rusiyanın işğalçılıq planlarının həyata keçirilməsini asanlaşdırırdı. Feodal ara müharibələri və xarici işğalçıların basqınları Cənubi Qafqazı var-yoxdan çıxarırdı. Zəruri ilkin sosial-iqtisadi şərtlərin olmaması üzündən ayrı-ayrı xanların Azərbaycanı öz başçılıqları altında birləşdirmək cəhdləri müvəffəqiyyətsizliyə uğrayırdı.

Qərbi Avropa dövlətlərinin, xüsusən İngiltərə və Fransanın Cənubi Qafqaz barədə işğalçı planları vardır. Onlar Rusiyanın bu ərazilərdə hərəkətlərini diqqətlə izləyir və çarizmin planlarına mane olmağa çalışırdılar.

1800-cü ilin sonlarında İngiltərə nümayəndəsi Con Malkolm Qacarlar dövlətinə gəldi və 1801-ci il 4 yanvarda bu dövlətlə siyasi və ticarət əlaqələrinə həsr edilmiş iki müqavilə imzalandı. Bununla İngiltərə bu dövlətin daxili işlərinə qarışmaq imkanı əldə etdi. Siyasi müqaviləyə görə İngiltərə hər hansı bir dövlətin Qacarlar üzərinə hücum edəcəyi təqdirdə şaha lazımi qədər xidmət heyəti ilə tələb olunan miqdarda hərbi xərc verməyi öz üzərinə götürdü.

Ticarət müqaviləsi razılığa gələn tərəflərin tacirlərinə öz mallarını hər iki dövlətin ərazisinə azad daşımaq hüququ verirdi. İngiltərə tacirlərinə İranın istənilən şəhər və limanında məskən salmağa icazə verilir, onların malları isə hər cür vergilərdən azad olunurdu.Müqavilələr ölkənin bazarını ingilis tacirlərinə geniş açır, İranı öz müstəmləkə mülklərini genişləndirmək uğrunda mübarizədə İngiltərənin anti-rus siyasətinin alətinə, öz müstəmləkəsini-Hindistanı kənar təcavüzlərdən qorumaq, Cənubi Qafqaz barəsində özünün planlarını həyata keçirmək üçün meydana çevriridi.

Çar hökuməti belə hesab etdi ki, bu müqavilə ilk növbədə Rusiyaya qarşı yönəldilmişdi, ona görə də öz planlarının həyata keçirilməsinə hazırlaşdı. Lakin çar Pavelin öldürülməsi və I Aleksandrin hakimiyyətə gəlməsindən sonra rəqiblərin qüvvələr nisbəti dəyişdi. I Aleksandr Fransa ilə əlaqələri kəsdi və İngiltərə ilə yaxınlaşdı. Bu dövrdə təcavüzkar napoleonçu Fransanın mövcudluğu şəraitində Rusiya ilə yaxınlaşmanı yüksək qiymətləndirən İngiltərə artıq Qacarlar dövlətini açıqca müdafiə edə bilmirdi.

Fransa bu vəziyyətdən dərhal istifadə etmək imkanını əldən verməyərək Rusiya əleyhinə müqavilə bağlamağı Fətəli şaha təklif etdi.

İngiltərə ilə yaxınlaşmasına baxmayaraq I Aleksandr Cənubi Qafqaz barədə öz planını həyata keçirməyi qərara aldı.

1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşməsi haqqında çar I Aleksandrın (1801-1825) manifesti elan olundu. Rus qoşunlarının Baş komandanı və mülki hakim tərəfindən idarə olunan Tiflis quberniyası yaradıldı. Kartli-Kaxetiya çarlığının vassal asılılığında olan və onunla birlikdə Rusiyaya birləşdirilmiş Azərbaycan ərazisinin bir hissəsi Qazax, Borçalı, Şəmşəddil sultanlıqları bu quberniyanın tərkibinə daxil edildi. Deməli, Gürcüstanın Rusiyaya birləşdirilməsi ilə Azərbaycan torpaqlarının Rusiya tərəfindən istilasının başlanğıcı qoyuldu.

I Aleksandr bəzi xanlıqları Rusiya himayəsinə qəbul etməyə, ilk növbədə Azərbaycanın Xəzəryanı vilayətlərini ələ keçirməyə çalışırdı. I Aleksandr 1801-ci ilin dekabrında Qafqaz qoşunlarının baş komandanı general K.F.Knorrinqə (Baş komandanlıq dövrü 1801-1802-ci illər) yazırdı: "Qonşu hakimlər və xalqlarla münasibət saxlayaraq Rusiya tərəfdarlarının sayını artırmağa çalışmalı, xüsusən də üzərində hələlik Baba xanın - Fətəli şahın hakimiyyəti yaranmamış Irəvan, Gəncə, Şəki, Şirvan, Bakı və başqa xanlıqları cəlb etməli".

Bu fərmana müvafıq olaraq general K.F.Knorrinq 1802-ci ilin sentyabr-dekabr aylarında Şimali Qafqazda, Georgiyevski şəhərində siyasi və ticarət məsələləri üzrə danışıqlar üçün çar komandanlığının Şimali Azərbaycan xanlıqlarının və Qafqazın digər hakimlərinin nümayəndələrinin görüşünü keçirdi. Danışıqlarda Tərki şamxalı, Qaraqaytaq usmisi, Tabasaran hakimi və digər dağlı hakimlərin nümayəndələri ilə yanaşı, iki Azərbaycan xanlığının - Quba və Lənkəran xanlıqlarının nümayəndələri də iştirak edirdilər. Digər xanlıqların nümayəndələri görüşdə iştirak etmirdi. Çünki buna qədər Qacarlar dövlətinin nümayəndəsi İbrahimxəlil xanın yanına gələrək Qarabağın tabe olmasmı tələb etmişdi. Bakı xanına da belə tələb vermişdi.

Qacarlar dövlətinin maneəçiliyinə baxmayaraq, 1802-ci il dekabrın 26-da müqavilə imzalandı. Müqaviləyə görə onu imzalayanlar İran hücum edəcəyi təqdirdə ona qarşı çıxmağı öz öhdələrinə götürdülər. Müqavilə Cənubi Qafqazda ticarətin genişləndirilməsi, Xəzər dənizində gəmiçiliyn inkişaf etdirilməsi və digər məsələləri nəzərdə tuturdu. Müqavilədə deyilirdi ki, onu imzalayanlar «onların öz xahişlərinə görə ....Rusiya,... himayəsinə» qəbul olunurlar. Georgievski müqaviləsi bağlandıqdan sonra çar hökuməti həmin müqaviləyə etinasız yanaşmış, Azərbaycan xanlıqlarının ərazilərini zəbt etmək üçün hazırlaşmağa başladı.

Şimali Azərbaycanın çar Rusiyası tərəfindən istilası kimi mürəkkəb və ziddiyyətli prosesin öz xüsusiyyətləri vardır. Xanlar yaxşı başa düşürdülər ki, öz qüvvələri ilə Qacarlar və Rusiya kimi dövlətlərə müqavimət göstərməklə öz xanlıqlarını qoruyub saxlaya bilməyəcəklər. Onların bəziləri Rusiyanın xanlıqların istiqlaliyyətini qoruyacağı barədə verdiyi yalan vədlərinə inanaraq, rus himayəsini qəbul etməyə meyl edir, bu yolla Qacarlar və ya Türkiyə qoşunlarının basqın edəcəyi təqdirdə öz torpaqldarını müdafiə edə biləcəklərinə

ümid bəsləyirdilər. Eyni zamanda bu xanlar Qacarlar və Türkiyəyə meyl göstərdiklərini tərəddüd edir, öz mövqe və qərarlarını müəyyənləşdirməyə tələsmirdilər. Rusiya ayrı-ayrı Azərbaycan xanlarını Qacarlar dövləti və Türkiyə təhlükəsindən müdafiə edəcəyini vəd etsə də, bu heç də onun xanlıqlara müstəqillik vermək niyyətində olması ilə bağlı deyildi. Bununla belə Azərbaycanın ayrı-ayrı feodal hakimlərinin öz hüquq və imtiyazlarının bərpası uğrunda mübarizəni davam etdirəcəklərindən ehtiyat edən Rusiya əlavə tədbirlər həyata keçirmək barədə fikirləşirdi. Bu illərdə qədim gürcü zadəgan nəslindən çıxmış, 1802-ci ilin sentyabrında Qafqazın Baş komandanı təyin edilən (1802-1806) general P.D.Sisianov Cənubi Qafqazda Rusiyanın müstəmləkə siyasətinin icraçısı oldu. Çar hökuməti Cənubi Qafqazdakı bütün mülki və hərbi hakimiyyəti qafqazlı Sisianova etibar edərək onun vasitəsilə Qafqazı sakitləşdirməyə ümid bəsləyirdi. Sisianov isə Azərbaycan xalqına özünün nifrətedici və amansız münasibəti ilə fərqlənirdi. Onun bir çox Azərbaycan xanlarına göndərdiyi alçaldıcı məktubları buna dəlalət edir.

Çar hökuməti Şərqi Gürcüstan ərazisindən hücum meydanı kimi istifadə edərək, özünün Azərbaycan barəsindəki planlarını həyata keçirməyə başladı. Bu siyasətin həyata keçiricisi general Sisianov Car-Balakən camaatının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Çünki bu ərazi rus qoşunlarının Gürcüstandan Azərbaycanın içərilərinə doğru uzanan yolun üstündə idi. General Qulyakov heç bir hər ehtiyac olmadan kəndi yandırdı. Martın 29-da Car fəth olundu. 1803- cü il aprelin 12-də Car-Balakənin 9 nəfərdən ibarət səlahiyyətli nümayəndə heyəti Tiflisə general Sisianovun yanına getdi. Burada onlarla Car-Balakən camaatının Rusiyanın hakimiyyəti altına alınması barədə saziş imzalandı.

Sazişin şərtlərinə görə, carlılar çar xəzinəsinə ipəklə xərac ödəməli, sədaqət əlaməti olaraq əmanətlər verməli, öz ərazilərində rus qoşunlarını yerləşdirməli idilər. Lakin camaatın daxili idarəsinin dəyişməz olaraq qaldığını və əhalinin itaət şərtlərini yerinə yetirmədiyini görən general Qulyakov 1804-cü ilin yanvarında yenidən Cara soxuldu. Car yenidən fəth olundu və yandırıldı. Sonra rus qoşunları Zaqatalaya doğru yeridilər və Zaqatala yaxınlığındakı dərədə carlılar tərəfindən hücuma məruz qaldılar. Qanlı döyüşdə carlılar qələbə çaldılar. Qulyakov öldürüldü.

1803-cü ilin martında müqavimət göstərmiş adamların əfv olunması barədə carlıların xahişini rədd etmiş Sisyanovun şəxsi hərəkəti Carda baş vermiş hadisələrdə az rol oynamadı. O, nəinki əfv etmədi, əksinə öz məktubunda açaldıcı şəkildə yazırdı: «kafir əclaflar... İstəyirsiniz ki, mən sizə inanım və əfv edim. Mən sizin bütün evlərinizi yandıracağam, sizi yandıracağam, uşaqlarınızın və arvadlarınızın içalatını dartıb çıxaracağam».

Carlılar yenidən hücuma keçmiş rus qoşunlarına müqavimət göstərməyi davam etməyin faydasızlığını görərək təslim oldular.Car-Balakən camaatının fəthindən sonra 1803-cü ildə İlisu sultanlığı da Rusiya təbəəliyini qəbul etməli oldu.

General Sisianov Gəncə xanlığının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. Çünki Gəncə qalası rus qoşunlarının Azərbaycanın sərhədlərinə doğru sonrakı irəliləyişinin açarı idi. Buna görə də bu istila Rusiya üçün mühüm əhəmiyyətə malik idi.

XVIII yüzilliyin 90-cı illərindən Gəncə xanlığı Rusiya ilə səmimi diplomatik münasibətlər saxlayırdı. Gəncə xanı Cavad xan Sisianovun Rusiya himayəsinə qəbul olmaq təklifinə rədd cavabı vermədi. O yazırdı ki, 1796-cı ildə «Sənin padşahın fərman göndərdi və mən də onun təklifini qəbul edib qalanı təhvil verdim. Əgər indi də sənin padşahın belə fərman göndəribsə, onu mənə göstər. Onda mən

onun iradəsini görərək buna uyğun hərəkət edərəm». General müharibəni siyasi danışıqlardan üstün tutdu. O öz məktublarındakı özünəməxsus yekəxanalıqla Cavad xanı özündən uzaqlaşdırdı, bu da qanlı döyüşlərə gətirib çıxardı.

Sisianov Rusiya hakimiyyətini qəbul etmiş digər xanlıqlardan fərqli olaraq, Gəncə xanlığına qarşı daha amansız tələblər irəli sürürdü. O, Cavad xandan ildə 20 min çervon məbləğində, yəni sonralar Şəki, Qarabağ və Şirvan xanlıqları üçün müəyyənləşdirdiyi məbləğdən 3 dəfə çox məbləğ ödənc tələb edir və yazır: «Əgər mənim təklifimi qəbul etməsən, Gəncəyə atəş və qılıncla gələcəyəm».

1803-cü ilin noyabrında Gəncənin 2 verstliyindəki Qulu (Quru) Qobu adlı yerdə rus qoşunları ilə gəncəlilər arasında ilk vuruşma baş verdi. Rus qoşunları Gəncəni mühasirəyə aldılar. Mühasirə bir ay davam etdi. 1804-cü il yanvarın 2-dən 3-ə keçən gecə rus qoşunları qalaya hücuma başladılar. Qalanın müdafiəçiləri inadlı müqavimət göstərdilər.Cavad xan və oğlu Hüseynqulu ağa döyüşlərdə qəhrəmancasına həlak oldular. Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi, şəhər isə öz qədim adını itirdi və I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. «Gəncə» adını çəkmək qadağan olundu. Bu qaydanı pozanlar cərimə edilirdilər.Gəncənin tutulmasında ruslara şəhərdə yaşayan və xanın sarayındakı ermənilər kömək etdilər.

Gəncənin alınması rus qoşunlarının Azərbaycanın içərilərinə doğru irəliləməsi üçün böyük əhəmiyyət kəsb etdi. Gəncə xanının vassal asılılığında olan Samux hakimi Şirin bəy Gəncənin süqutundan sonra Rusiya təbəəliyini qəbul etməyə məcbur oldu. O, hər il Rusiyaya 1000 çervon, yəni 3 min manat bac verməyi öhdəsinə götürdü.

I Rusiya-Qacar müharibəsi. Gürcüstanın, Şimali Azərbaycanın bir hissəsinin Rusiya tərəfindən işğalı Qacarlar və Türkiyənin habelə

onların arxasında duran İngiltərə və Fransanın narahatçılığına səbəb oldu.

Şah sarayı Rusiya ilə müharibəyə hələ İngiltərə ilə müqavilə bağladıqdan sonra hazırlaşırdı.

Fətəli şah Cənubi Qafqazı tutmağa hazırlaşaraq, əvvəlcə Gürcüstan və Gəncə ilə həmsərhəd olan bütün xanlıqların ərazilərini ələ keçirmək niyyətində idi. Lakin İranın daxilində baş vermiş çaxnaşmalar və Ingiltərə tərəfindən real köməyin olmaması şah sarayına soyuducu təsir göstərirdi. İngiltərə isə imperator Pavelin öldürülməsindən və xüsusən də Fransa qoşunlarının Suriya və Misirdən getməsindən belə qənaətə gəldi ki, Hindistana yürüş planı Napoleonun Şərq siyasətinin gündəliyindən çıxarılmışdır və şaha köməyə ehtiyac qalmamışdır. Ona görə də İngiltərə vəd verməkdən uzağa getmirdi. Bununla belə o, Qacarları Rusiya ilə müharibəyə qızışdırırdı.

1804-cü ilin mayında Qacarların hökmdarı Fətəli şah (1797-1834) rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını çar hökumətindən tələb etdi. Tələb rədd olundu və 1804-cü il iyunın 10-da Rusiya ilə Qacarlar arasında diplomatik əlaqələr kəsildi. Rusiya-Qacarlar müharibəsi başladı.

Azərbaycanın yerli əhalisinin müharibəyə münasibəti eyni cür deyildir. Bəzi feodal hakimləri öz hakimiyyətlərini itirməkdən qorxaraq, müharibəyə öz xilaskarı kimi baxır və şah hakimiyyətinin qalib gələcəyi təqdirdə öz hakimiyyətlərini saxlayacaqlarını düşünərək, ona kömək göstərirdilər. Müharibələrdən xilas yolu axtaran və bunu Rusiyanın sayəsində əldə edəcəyini zənn edən əhalinin bir hissəsi isə rus qoşunlarına kömək göstərmək istəyirdi. Ümumiyyətlə ,isə əhalinin çox hissəsi istilaya məruz qalmaq istəmir, öz xanlarına müraciət edərək istilaçılara qarşı mübarizədə onlara hər cür kömək göstərəcəyini vəd edirdilər.

Rus və Qacarlar ordusu arasında ilk döyüş 1804-cü il iyulun 2-də İrəvan xanlığının ərazisində, Üçmiədzin(Üçkilsə) divarları yanında baş verdi. Rus qoşunlarının sayı cüzi olsa da, gürcü süvari dəstələrinin köməyi ilə üstünlük qazandılar.

İkinci döyüş İrəvan yaxınlığında Qəmərli kəndinin yanında baş verdi. 1804-cü il iyulun 29-dan 30-na keçən gecə azsaylı rus qoşun dəstəsi ilə Qacar qoşunlarının böyük bir birləşməsi arasında qanlı döyüş oldu. Rus qoşunları tutduqları mövqeləri qoruyub saxlaya bildilər. Lakin azuqənin çatışmazlığı, qoşunların azlığı, habelə Qacarların qoşunlarının kiçik rus dəstəsi yerləşmiş Gəncəyə tərəf irəliləməsi üzündən rus qoşunu sentyabrın 4-də Irəvandan geri çəkildi.

Gəncənin alınması Azərbaycan xanlıqlarının istilasının sürətlənməsində mühüm rol oynadı. General Sisianov hələ 1804-cü ilin əvvəllərində mayor Lisaneviçi Qarabağa, İbrahimxəlil xanın yanına göndərərək ondan «Rusiya təbəəliyinə» keçməyi tələb etdi. İbrahimxəlil xan Qacarların qoşunlarının hücumunun qarşısını almaq üçün Sisianovdan hərbi kömək xahiş edib, «Rusiyaya kömək göstərmək və ona sadiq qalmaq» vədi verdi. Qarabağ xanının Rusiya ilə yaxınlaşmasından həyəcana düşmüş şah sarayı İbrahimxəlil xanın oğlu Əbülfət xanı 500 nəfərlik dəstə ilə Qarabağa göndərdi. Lakin İbrahimxəlil xan onu düşməncəsinə qarşıladı və onun dəstəsini Dizax yaxınlığında əzdi.

Qarabağ xanının bu qələbəsindən sonra Sisianov onun xahişinə görə Qarabağa mayor Lisaneviç başda olmaqla dəstə göndərdi. Eyni zamanda o, Rusiya təbəəliyni qəbul etmək barədə cavabı sürətləndirməyi tələb etdi. Ibrahimxəlil xan xanlığı qoruyub saxlamaq məqsədilə Sisianovla görüşməyə razılıq verdi. General Sisianov və İbrahimxəlil xan Gəncə yaxınlığındakı Kürək çayının sahilinə gəldi və 1805-ci il mayın 14- də Sisianovla İbrahimxəlil xan arasında Qarabağ xanlığının Rusiya imperiyasının himayəsinə keçməsi barədə

11 maddəlik müqavilə imzalandı. Müqaviləyə əsasən xan, onun varisləri və xanlığm bütün əhalisi Rusiya təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq təhəddüdü qoyuldu. Çar isə, öz növbəsində, bu xan sülaləsinin hüquqlarını «bütün zamanlar üçün» təsdiq edirdi, lakin hər dəfə xan varisləri çar tərəfindən təsdiq olunmalı idi. Xan öz nəvəsini əmanət verməyi boynuna götürdü. O, Tiflisdə qalmalı idi. Xanlığın daxili idarəsi xanın ixtiyarında saxlanıldı. Lakin o, rus qarnizonunu Şuşaya buraxmağı və onu zəruri şeylərlə təmin etməyi öz üzərinə götürdü. Xan hər il öz gəlirlərindən Rusiya xəzinəsinə 8.000 çervon ayırmağı öhdəsinə götürdü.Kürəkçay müqaviləsini hər hansı bir ermənininin deyil, Azərbaycan türkü olan İbrahimxəlil xanın imzalaması Qarabağın əsil sahibinin azərbaycanlılar olmasına dəlalət edir.

Sisianovun düşərgəsinə İbrahimxəlil xanla birlikdə onun kürəkəni Şəki xanı Səlim xan da gəlmişdi. Öz qardaşına və onun tərəfdarlarına qarşı mübarizədə köməyə ehtiyacı olan Səlim xan qaynatasının məsləhəti ilə ruslarla müqavilə bağlamağa tələsdi. Bu müqavilə Qarabağ xanı ilə bağlanmış müqavilənin şərtlərini təkrar edirdi, lakin Şəki xanı rus xəzinəsinə 7.000 çervon ayırmalı, rus qoşunları isə Şəkinin özündə yox, tikiləcəyi nəzərdə tutulan qalada yerləşməli idi.

Müharibənin elə ilk ilində şah sarayının İngiltərəyə bəslədiyi ümidlər özünü doğrultmadı. İngiltərə bu illərdə Rusiyanın iştirakı ilə yeni antinapoleon koalisiyasını yaratmağa başlayırdı. İngiltərənin belə siyasəti onunla nəticələndi ki, 1804-cü ilin payızında Fətəli şah Rusiya əleyhinə Fransa ilə ittifaq bağlamağa hazır olması barədə Napoleona məktub göndərdi. Napoleon bundan istifadə etməyi qərara aldı və İstanbuldakı fransız səfirinə Qacarlarla danışıqlara başlamaq barədə göstəriş verdi.

1805-ci il yay əməliyyatlarının gedişində Qacarların qoşunları Qarabağa soxuldular və onu talan etdilər.1805-ci il iyunun 26-da şah

qoşunları polkovnik Koryagin başda olmaqla azsaylı rus qarnizonunun yerləşdiyi Şahbulağı mühasirəyə aldılar. Abbas Mirzə qalanın təslim olmasını tələb etdi. Koryagin vəziyyətin çıxılmazlığını görərək, qalanı təslim etməyə razılaşdı, iyulun 7-nə keçən gecə dəstəsi ilə düşmənin xəbəri olmadan qalanı tərk etdi. Koryaginin dəstəsi Gəncəyə gəldi və burada Kotlyarevskinin dəstəsi ilə birləşdi.1805-ci il iyulun 27-də Zəyəm yaxınlığındakı döyüşdə Abbas Mirzə yaralandı.Şah ordusu Xudafərindən keçib Güney Azərbaycana çəkildi.Qacarın ordusu 1805-ci ilin yayı hərbi əməliyyatları uğursuzluqla nəticələndi və rusların Azərbaycanda mövqeyi möhkəmləndi.

1805-ci ilin iyulunda Qacarların qoşunları Qazaxa soxuldular. Onlar yerli əhalinin köməyinə ümid bəsləyirdi. İran qoşunlarının 1805-ci ilin yay hərbi əməliyyatlarındakı məğlubiyyəti Rusiya hökümətinə Azərbaycanda öz mövqeyini daha da möhkəmləndirmək, Şirvan, Bakı və Quba xanlarını tabe etmək imkanı verdi.

Hələ Qarabağ və Şəki xanlıqları ilə müqavilələr bağlanan dövrdə Sisianov Rusiya hakimiyyətini qəbul etməyi şirvanlı Mustafa xandan da tələb etmişdi. Şirvan xanı qonşu Azərbaycan xanlıqları üzərində onun hakimiyyətinin tanınması şərti ilə bu tələblə razılaşdı. Mustafa xan illik bac verməkdən boyun qaçırır, daxili idarədə özünün müstəqilliyi barədə təminat və özünə daimi məvacib təyin olunmasını tələb edirdi. Sisyanov isə özünün irəli sürdüyü şərtlərlə Rusiya hakimiyyətini qəbul etməyi tələb edirdi və danışıqların heç bir nəticə verməyəcəyinə əmin olduqdan sonra 1805-ci ilin noyabrında Şamaxıya doğru yeridi.

Sisianov Şirvana doğru hərəkət edərkən İbrahimxəlil xandan kömək tələb etdi və o da 1500 süvari ilə birlikdə öz böyük oğlu Mehdiqulu ağanı göndərməyə məcbur oldu. Rus qoşunlarının yaxınlaşdığını eşidən Mustafa xan Sisianovun tələbini qəbul etmək

qərararına gəldi, xanlığın xarici əlaqələr hüququnun Rusiyaya verilməsinə, ildə 10 min çervon bac ödəməyə, xanlığın hüdudları daxilində ticarətin təhlükəsizliyini təmin etməyə razılaşdı. Bununla belə xan danışıqlardan boyun qaçırdı, təbii qala və möhkəm sığınacaq olan Fitdağda mövqeyini möhkəmləndirdi. Sisianov qoşunlarını Şamaxının lap yaxınlığına çəkməyə başladı. Rus qoşunları Fitdağa yaxınlaşdı. Öz vəziyyətinin çıxılmazlığını görən xan Rusiya təbəəliyinə keçməyə razı oldu. Mustafa xan və Sisianovun 1805-ci il dekabrın 27-də imzaladıqları müqavilə əvvəlcə bağlanmış iki müqavilə ilə eyni idi.

Bu müqavilədə rus qoşunlarının Şamaxıda mütləq yerləşdirilməsindən danışılmırdı.Şamaxı xanlığının illik bacı 7 min çervon məbləğində müəyyənləşdirildi. Şamaxı xanlığı öz ərazisindən keçən karvanlarm təhlükəsizliyini təmin etməyə borclu idi. Xan, həmçinin Kür sahilində - Cavadda möhkəmləndirilmiş rus məntəqəsinin tikilməsinə icazə verməsi ilə də razılaşdı.

Şamaxı xanlığının tabe edilməsi çar Rusiyası üçün bütün Şimali Azəraycanın ələ keçrilməsində mühüm əhəmiyyətə malik idi. Bundan sonra Bakıya yol açıq idi.Çar hökuməti Xəzər donanmasının möhkəmləndirilməsinə və onun köməyi ilə Xəzərin qərb sahillərinin ələ keçirilməsinə böyük əhəmiyyət verirdi.

1805-ci ilin aprelində desant qoşunları general Zavalişinin rəhbərliyi altında Rəşt istiqamətində yola düşdülər. Bu qoşunların qarşısına Ənzəli və Bakını tutmaqdan başqa, ötən hərbi əməliyyatlarda əsir düşmüş adamların və gürcü knyazlarının geri alınmasını şahdan tələb etmək vəzifəsi qoyulurdu. Iyunun 23-də donanma Ənzəli limanına çatdı. Desant çıxarmaq və Rəşti tutmaq üçün göstərilən uğursuz cəhddən sonra rus eskadrası avqustun 12-də Bakıya yaxınlaşdı. Qalanın təslim edilməsi barədə danışıqlar başlandı. Zavalişin rədd cavabı alaraq, avqustda qalanı atəşə tutmağa

və şəhəri mühasirəyə almağa başladı. Avqustun 29-dək xanlığın mühüm strateji məntəqələri tutuldu.

Qacarlarla əlaqə saxlayan Bakı hakimi Hüseynqulu xan kömək üçün şah sarayına müraciət etdi. Abbas Mirzə urmiyalı Əsgər xana Bakı xanına kömək üçün qoşunlarla birlikdə dərhal yola düşməyi əmr etdi. Qubalı Şeyxəli xan da Hüseynqulu xana kömək etməyə hazırlaşırdı.

General Zavalişin Bakıya Hüseynqulu xana Urmiya və Qubadan köməyin yaxınlaşmasından qorxaraq, Lənkəran yaxınlığındakı Sara adasına çəkildi. 1806-cı il fevralın əvvəllərində Sisianov artilleriyası olan böyük qoşun dəstəsi ilə Bakının 2 km-də general Zavalişinin desant dəstəsi birləşdi və Naxır bulaqda düşərgə saldı. Sisianov qalanın təslim edilməsini tələb etdi.

Sisianovun təklif etdiyi şərtlərə görə Bakı xanlığı Rusiya təbəəliyini qəbul etməli, xanlığın ərazisi Rusiyaya birləşdirilməli, xanlığın bütün gəlirləri çar xəzinəsinə göndərilməli, xan isə ildə 10 min manat məbləğində məvacib almalı, şəhər xüsusi qaydalar üzrə idarə olunmalı idi. Bakı qalasında toplarla birlikdə rus əsgərindən ibarət qarnizonun yerləşdirilməsi nəzərdə tutulurdu. Xarici siyasət və hərbi məsələlərdə xan Qafqazdakı rus qoşunları Baş komandanlığının sərəncamına tabe olmalı idi.

Bakılı Hüseynqulu xan bu şərtlərlə razılaşdı. Fevralın 8-də Sisianov demək olar ki, mühafizəsiz şəkildə onu lap qalanın yanında gözləyən xanla görüşmək üçün yola düşdü. Görüşdə o, Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürüldü. General Zavalişin rus qoşunlarını Bakıdakı Sara adasına aparmağa məcbur oldu.

Sisianovun öldürülməsindən sonra Cənubi Qafqazdakı rus qoşunlarının vəziyyəti ağırlaşdı. Cənubi Qafqazda da şərait mürəkkəbləşdi. Xanların çoxu tərəddüd etməyə başladı. Dağıstanın

bəzi feodal hakimləri bu məqamdan istifadə edərək Cənubi Qafqaza soxulmaq üçün hazırlıq görməyə başladılar.

1806-cı ilin yazında Qacarların qoşunları yenidən fəallaşdı və Arazı keçərək Qarabağa yeridi. İyunun 8-də Rusiya və Qacar qoşunları arasında silahlı toqquşma baş verdi. Ağdamda rus dəstəsi Qacarların qoşununu sıxışdırdı və Əsgəranı tutaraq, Şuşaya doğru irəlilədi.

Abbas Mirzə İbrahimxəlil xanı öz tərəfinə çəkmək üçün elçilərini onun yanına göndərdi. Bu dövrdə Şuşada yerləşən mayor Lisaneviçin başçılıq etdiyi rus qarnizonunun azlığı üzündən İbrahimxəlil xan xanlığın var-yoxdan çıxarılmasına yol verməmək üçün əvvəlcədən Lisaneviçlə razılaşaraq, rus qoşunları gəlib çıxanadək Qacarlarla mülayim rəftar etməyi qərara alır. Rus qoşunlarının gəlib çıxmasının xeyli gecikməsi Qacar qoşunlarının qalaya lap yaxınlaşmasına səbəb oldu. İbrahimxəlil xan öz ailəsinin təhlükəsizliyini təmin etmək üçün onu Şuşa qalası yaxınlığındakı Xankəndinə köçürdü. Bəzi bədniyyətli adamlar xanı mayora elə şərləmişdilər ki, guya o Qacarların tərəfinə keçmək barədə onlarla gizli danışıqlar aparır.Mayor gecə ikən bir dəstə döyüşçü ilə onun iqamətgahına yollandı, İbrahimxəlil xan bəzi ailə üzvləri və yaxın adamları ilə birlikdə öldürüldü. Bundan sonra həm tərəddüd edən feodallar, həm də əhali ruslardan uzaqlaşdı. Şəkili Səlim xan Rusiya ilə əlaqələri kəsdi, «əhalini üsyana qaldırdı və rus qoşunlarını xanlıqdan getməyə məcbur etdi».

Lisaneviçin amansızlığına və atasının xaincəsinə öldürülməsinə baxmayaraq, Mehdiqulu xan rus qoşunları yaxınlaşarkən öz süvari dəstəsi ilə qaladan çıxmağa, onun qoşunları ilə birləşməyə məcbur oldu və Əsgəran qalasının yaxınlığında düşərgə saldı. Tezliklə ruslar Xanaşır aşırımında şah qoşunlarını əzdilər və onlar tələsik Arazın o tayına çəkildi.

1806-cı ilin qışında yeni Baş Komandan təyin olunmuş general Qudoviç (1806-1809) Qarabağın idarə olunması haqqındakı fərmanı Mehdiqulu xana təqdim etdi. Qəsbkarlar geri çəkilərkən dinc sakinlərdən ibarət kütlələri zorla qovub əsirliyə aparırdılar. Təkcə Şirvandan Qacarlar dövlətinə 6 min nəfər aparılmışdı.

Qarşıda Bakı və Quba xanlıqlarının işğalı məsələsi dururdu. 1806-cı ilin iyununda rus qoşunları Quba xanına tabe olan Dərbəndə yaxınlaşdılar və iyunun 22-də onu tutdular. Sonra onlar Bakıya doğru yönəldilər. Hüseynqulu xan qisasdan qorxaraq, ailəsi ilə birlikdə Qubaya, oradan da Qacarların dövlətinə qaçdı. Beləliklə, 1806-cı il oktybarın 3- də Bakı xanlığı Rusiyaya tabe edildi. Tezliklə Quba xanı Şeyxəli xan da Qacarlar dövlətinə qaçdı,xanlıq Rusiyaya tabe oldu. Dərbənd və Quba xanlıqları Tərki şamxalının (XII əsrdən 1867-ci ilədək mövcud olub, mərkəzi Tərki kəndi, Dağıstanda Qumıq dövləti) ixtiyarına verildi, sonralar isə əyalətlərə çevrildi.

Beləliklə, 1806-cı ilin sonunda Lənkəran, İrəvan, Naxçivan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan ərazisi Rusiyanın hakimiyyəti altına keçdi.

Xanlıqların işğalından sonra rus qoşunları Şəki xanlığındakı üsyanı yatırmaq üçün göndərildi. 1806-cı il oktyabrın 22-də Nuxa yaxınlığında həlledici döyüş baş verdi və şəkili Səlim xanın dəstələri məğlubiyyətə uğradı.Səlim xan Qacarlar dövlətinə qaçdı. Xanlığın idarə olunması üçün Şəkidə yerli Rusiyaya meylli olan bəylərdən ibarət müvəqqəti idarə təşkil olundu.Sonra rus qoşunları üsyan bürümüş Car-Balakənə yola düşdü. Tezliklə bu üsyan da yatırıldı.

Çar hökuməti Quba və Bakı xanlıqlarını ələ keçirdikdən sonra Qacarlarla sülh bağlamağa can atırdı. Belə ki, rus komandanlığı Osmanlı ilə müharibənin yaxınlaşdığını qabaqcadan görürdü. Qacarlar hökuməti də güzəştlərə ümid bəsləyərək, sülh bağlamaq istəyirdi. 1806-cı il sentyabrın ortalarında şah sarayı öz

nümayəndəsini sülh bağlamaq təklifı ilə rus qoşunlarının Baş komandanı İvan Qudoviçin (1806-1809) yanına göndərdi.

Çar hökuməti heç nəyi Qacarlara güzəşt etmək fıkrində deyildi, əksinə o, İrandan Naxçıvan və İrəvan xanlıqlarını tələb etdi. Danışıqlar uzandı. İngiltərə və Fransa Cənubi Qafqazı bir anlığa da gözdən qoymur, İngiltərə açıq-aşkar, Fransa isə gizlicə Qacarlar dövlətini müdafiə edir və Türkiyəni Rusiya ilə müharibəyə təhrik edirdilər.Fransa səfirləri Romye, Jober, İngiltərə elçisi Harford Cons Qacarlarla fəal danışıqlar aparırdılar.

Hərbi əməliyyatlar. Gülüstan sülhü. 1806-cı ilin sonunda Türkiyə Rusiyaya qarşı müharibəyə başladı.Türkiyənin müharibəyə başlaması rus qoşunlarının Qafqazdakı vəziyyətini ağırlaşdırdı. Rus ordusunun əsas qüvvələri Napoleon qoşunlarına qarşı mübarizəyə yönəlmişdi və Qafqaza göndərilə bilməzdi.

1807-ci ilin iyununda Gümrü yaxınlığında rus və türk qoşunları arasında qanlı döyüş baş verdi. Osmanlılar məğlub oldular. Hələ 1807-ci ilin yayında beynəlxalq vəziyyətdə dəyişikliklər baş verdi. Rusiya ilə Fransa arasında Tilzit sazişi, habelə hücum və müdafiə ittifaqı haqqında gizli rus-fransız müqaviləsi imzalandı. Lakin sonrakı hadisələr göstərdi ki, Tilzitdə bağlanılmış bu ittifaq məcburi ittifaq idi.

İngiltərə hökuməti şəraitdən dərhal istifadə etdi və Qacarlar dövlətində öz yerini hər vasitə ilə möhkəmləndirmək qərarına gəldi. 1809-cu ildə İngiltərə Qacarlarla müqavilə imzaladı. Bu müqaviləyə görə, İran İngiltərə ilə düşmənçilik edən bütün dövlətlərlə münasibətlərini kəsməyi öhdəsinə götürdü. İngiltərə şaha Rusiya ilə müharibə müddətində hər il 120 min funt-sterlinq məbləğində malıyyə yardımı göstərməyi, silah, hərbi sursat və təlimatçılar verməyi vəd edirdi.

Danışıqlarla yanaşı, gələcək hərbi əməliyyatlara hazırlıq gedirdi. Artıq 1808-ci ilin mayında 10 minlik Qacarlar qoşunu İrəvana doğru

çəkilirdi. Rus qoşunlarının baş komandanı general Qudoviç də öz qoşunlarını Qacarlar sərhədinə doğru yönəltdi. Qudoviç eyni zamanda Naxçıvanı ələ keçirməyi general Nebolsinə əmr etdi. Sentyabrın 26-da Qudoviç irəvanlı Hüseyn xan başda olmaqla 4 min nəfərdən ibarət İran qoşununu məğlub etdi. Rus qoşunları Eçmiədzini ələ keçirtdi. Bu zaman general Nebolsin Naxçıvana doğru irəliləyərək, oktyabrın sonunda Qarababa kəndi yanında Qacarlar qoşunlarını dağıtdı və Naxçıvanı tutdu. Rus qoşunlarının birləşmiş qüvvələri İrəvanın mühasirəsinə başladı və mayın ortalarında qalaya hücuma keçdi. Lakin müvəffəqiyyətsizliyə uğrayıb geri çəkildi. Rus qoşunları Naxçıvanı da tərk etməyə məcbur oldular. Abbas Mirzə Naxçıvanı tutaraq, rus qoşunlarını təqib etməyə başladı. 1809-cu ilin mayında Qarababa kəndində (indiki Şahbuz rayonu) döyüş baş verdi, Qudoviç yenidən məğlubiyyətə uğradı. Bununla da, 1808-ci ilin hərbi əməliyyatları uğursuz başa çatdı və Qudoviç istefa verməyə məcbur oldu.

1809-cu ilin əvvəllərindən Rusiyanın Cənubi Qafqazdakı vəziyyəti daha da mürəkkəbləşdi. Qacarlar İngiltərənin rəhbərliyi altında hərbi əməliyyatları davam etdirməyə, Qarabağa soxulmağa hazırlaşırdı. . Qarababa kəndində (1809-cu il may,indiki Şahbuz rayonunda), döyüş baş verdi, Qudoviç yenidən məğlubiyyətə uğradı. Bununla da, 1808-ci il hərbi əməliyyatları uğursuz başa çatdı və Qudoviç istefa verməyə məcbur oldu.

Yeni Baş komandan general Aleksandr Tormosov Qacarlarla münasibətləri danışıqlarla nizama salmağa ümid bəsləyirdi. Lakin 1809-cu ilin iyununda şahın özü Qarabağ və İrəvanla kifayətlənməmək və qüvvələrini Türkiyə ilə birləşdirmək üçün Qərbdə hərbi əməliyyatlar cəbhəsini genişləndirmək niyyəti ilə Cənubi Azərbaycana gəldi. Lakin İran qoşunlarına öz planlarını həyata keçirmək müyəssər olmadı.

1809-cu ilin sentyabrında Qacarların 11 minlik süvari qoşunu Lənkəran xanlığına soxuldu və Lənkəran şəhərini talan etdi. Mir Mustafa xan öz qoşunlarının qalıqları və ailəsi ilə birlikdə yarımadada gizlənməyə məcbur oldu. Həmin günlərdə Əsgəranda İran və Rusiya arasında danışıqlar yenidən başlandı.

Qacarlar ingilis dövlətindəki səfiri sülh müqaviləsinin bağlanmasına hər vasitə ilə mane olurdu. O, şahı inandırırdı ki, İranın qarşısında qoyulan şərtlər çar sarayı tərəfindən deyil, Tormosov tərəfindən irəli sürülür. Eyni zamanda İngiltərə Qacarların qoşunlarını silahla təchiz edirdi.

İngiltərə və Türkiyənin maneçiliyi üzündən danışıqlar kəsildi. Türkiyə barışıq bağlanacağı təqdirdə Qacarlarla müharibədən azad olacaq qoşunların hesabına Rusiyanın güclənməsindən ehtiyat edirdi.

1810-cu ilin iyununda Qacarların qoşunları Qarabağa, Gəncəyə və Pəmbəkə doğru irəlilədi. Qacarların qoşun dəstələri Tuğ kəndinin yaxınlığında, Qarğabazar adlanan yerdə dayandı. Iranlılar Mehridə də möhkəmləndilər. Kotlyarevski Mehriyə doğru hərəkət etdi. İyulun 8-də Kotlyarevski Qacarların qoşunlarının Mehri yaxınlığında yerləşən düşərgəsinə qəflətən hücum etdi. Qacarlar dəstəsi darmadağın edildi. Rus qoşunlarının bu qələbəsi Cənubi Qafqazdakı bütün vəziyyəti dəyişdi. Abbas Mirzə rus dəstələri ilə yeni toqquşmalardan çəkinərək, barışıq haqqında danışıqlara yenidən başlamaq qərarına gəldi.

Rus qoşunları Rusiya-Türkiyə müharibəsinin Qafqaz və Balkan cəbhələrində bir sıra qələbələr qazandılar. M.İ.Kutuzovun komandanlığı altında Balkanlardakı qələbə xüsusilə böyük idi və bu da Türkiyəni sülh istəməyə məcbur etdi. 1812-ci il mayın 16-da Buxarestdə Rusiya və Türkiyə arasında sülh müqaviləsi bağlandı. Bu müqaviləyə görə, Türkiyə Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən işğal olunmasını təsdiq etdi.

Belə bir vəziyyətdə Qacarlar Rusiyanı müəyyən güzəştlərlə belə bir müqavilə bağlamağa sövq etməyə can atırdı. Rusiya da Qacarlarla sülh bağlanılmasında maraqlı idi, çünki Qərbdə Fransa ilə münasibətlər kəskinləşirdi.

Bu zaman beynəlxalq münasibətlərdə yeni dəyişikliklər baş verdi. 1812-ci ilin yayında Rusiyanın başının Napoleonla müharibəyə qarışmasından istifadə edən İngiltərə Qacarlar dövlətinə fəallaşdı. Abbas Mirzə rus ordusunun əsas qüvvələrinin Napoleona qarşı müharibəyə yönəlməsindən istifadə edərək, öz ordusunu Cənubi Qafqaz üzərinə yeni hücuma hazırlamağa başladı.

Qacarlar ilk növbədə Rusiyanı Qarabağdan sıxışdırıb çıxarmaq istəyirdi. Bunun üçün də hər şeydən əvvəl general Kotlyarevskinin dəstəsinin yerləşdiyi möhkəmləndirilmiş Mehrini tutmaq lazım idi. İyulun 12-də Qacarların qoşunları Qarabağa soxuldular, lakin darmadağın edilib Arazın o tayına atıldılar. Avqustda 20 minlik Qacarların qoşunu Lənkəran da daxil olmaqla Lənkəran xanlığı ərazisini ələ keçirdi. İran qoşunlarının digər dəstələri Ərçivanı tutub, bununla da Azərbaycanın içərilərinə doğru yol açdılar.Abbas Mirzənin komandanlığı altında 30 minlik ordu 1812-ci ilin oktyabrında Aslandüz şəhəri yaxınlığında (Ərdəbil ostanı), Araz çayı sahilində cəmləşdi.

Rus dəstələrinin rəisi Kotlyarevski Abbas Mirzənin niyyətini başa düşdü və onun hərəkətlərinin qarşısını almaq qərarına gəldi. Lakin Kotlyarevskinin qüvvələri az idi, ona görə də qətiyyət və qəfil zərbə tələb olunurdu. Hücum o qədər gözlənilməz oldu ki, Abbas Mirzənin darmadağın edilmiş qoşununun qalıqları düşərgəni qoyaraq qaçmaqla canlarını qurtardı.

Tezliklə Kotlyarevski Qacarların qoşunlarını sıxışdırıb çıxarmaq üçün Lənkəran xanlığına göndərildi. O, 1812-ci il dekabrın 21-də Lənkəran xanlığına daxil oldu.

İngilislər tərəfindən təlimat almış iranlılar Lənkəran qarnizonunu möhkəmləndirdilər.

Kotlyarevski Lənkərana tərəf irəlilədi. O, xanlığın ərazisinə daxil oldu. Dekabrın 31-də Kotlyarevski qoşunu üç hissəyə bölərək axşam qala divarlarına yaxınlaşdı və 1813-cü il yanvarın 1-də səhərə yaxın hücuma başladı. Amansız və qanlı çarpışma üç saatdan çox çəkmədi və qala alındı.

Aslandüz döyüşü və Lənkəranın alınması müharibənin taleyini Rusiyanın xeyrinə həll etdi. 1813-cü il sentyabrın 27-də Qarabağın Gülüstan kəndində (indiki Goranboy rayonu) sülh danışıqlarına başlandı və bu danışıqlar 1813-cü il oktyabrın 12-də sülh müqaviləsinin imzalanması ilə başa çatdı. Müqavilənin Rusiya tərəfindən Rusiya ordusnun Qafqazdakı baş komandanı N.Rtişşev və Qacarlar tərəfindən Mirzə Əbdülhəsən xan Şirazi imzaladı. İngiltərənin Qacar dövlətindəki səfiri Ouzli ruspərəstliyi ilə seçildiyi üçün rus çarı I Aleksandr onu qiymətli hədiyyələrlə təltif etdi.

"Gülüstan müqaviləsi 1813-cü il oktyabrın 12-də, İran təqvimi ilə səvvalan ayının 29-da Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində rus ordugahında hər iki tərəfin səlahiyyətli müvəkkilləri vasitəsilə bütün Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və 1814-cü ilin sentyabrın 10-da Tiflisdə hər iki dövlətin səlahiyyətli müvəkkillərinin bir-biri ilə dəyişiklikləri ratifikasiyalarla təsdiq edilmiş əbədi sülh və dostluq müqaviləsi", - müqavilənin preambula (giriş) hissəsində belə yazılmışdır.

Gülüstan müqaviləsinin birinci maddəsində deyilirdi ki, hər iki dövlət arasında əbədi sülh,dostluq və xeyirxah andlaşma elan olunur.

İkinci maddədə hazırki vaxtda iki dövlət arasında sərhəd xətti müəyyən edilirdi. Üçüncü maddədə deyilirdi ki, Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilən Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya

imperiyası hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla yanaşı Dağıstan, Gürcüstan (Şuragel) əyaləti ilə birlikdə İmeretiya, Quriya, Minqreliya və Abxaziya, eynən də indi bərqərar edilən Qafqaz sərhəd xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya imperatorluğu mülkiyyətinə mənsub olduğunu qəbul edir. Bu maddədən aydın olur ki,İrəvan və Naxçıvan xanlıqları Qacarların himayəsində qalır.Həm də maddə Azərbaycanın Rusiya və Qacarlar arasında bölünməsinin əasını qoydu.

Dördüncü maddədə Rusiya imperatoru İranda Qacarlar sülaləsinin hakimiyyətində qalmasına təminat veriridi.Heç bir xarici dövlətin İranın işlərinə qarışmasına imkan verməyəcəyinə vəd edirdi.İran şahının oğulları arasında münaqişələr baş verərsə,Rusiya imperatorluğu hakimiyyətdə olan şah xahiş etməyincə bunlara qarışmayacağını bildirdi.

Beşinci maddədə də Xəzər dənizində rus və İran ticarət gəmilərinə Xəzərdə üzmək,sahillərə yan almaq,gəmilərin qəzası zamanı hər iki tərəf bir-birinə kömək edəcək.Xəzər dənizində rus bayrağı altında yalnız bu ölkənin hərbi gəmiləri üzə bilərdi.Bununla da Xəzər dənizi Rusiynın daxili dənizinə çevrildi.

Müqavilənin birinci maddəsinə görə müqavilə bağlandığı andan iki dövlət arasında düşmənçiliyə son qoyulur. İkinci maddəsində iki dövlət arasında sərhəd xətti – coğrafi hüdudlar müəyyən olunur, Naxçıvan və İrəvan xanlıqları İrana aid edilir. Müqavilənin üçüncü maddəsinə görə Qarabağ xanlığı, Yelizavetpol (keçmiş Gəncə) əyalətinin (əslində hərbi dairə) Şəki, Şirvan, Dərbənd,Quba, Bakı, Talış xanlıqlarının, Dağıstan, Gürcüstan (Şuragel) əyaləti ilə birlikdə İmeretiya, Quriya, Minqreliya, Abxaziya, Qafqaz sərhəd xətti və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə Rusiya imperatorluğuna keçir. Dördüncü maddədə Rusiya imperatoru və

vəliəhdi adından İran şahının varisi təyin ediləcək vəliəhdin hakimiyyətini tanıyır. Beşinci maddədə Xəzərdə hər iki dövlətin ticarət gəmilərinə sərbəst üzmək, bir-birinin sahillərinə yan almaq, qəza zamanı bir-birinə kömək etmək nəzərdə tutulur, lakin dənizdə ancaq rus bayrağı altındakı hərbi gəmilər üzə bilərdi.

Müqavilənin altıncı maddəsində əsirlərin və ələ keçirilmiş sakinlərin üç ay müddətində qaytarılması, yeddinci maddəsində hər iki dövlət arasında diplomatik münasibətləri tənzimləyən diplomatlara və digər məmurlara qarşılıqlı hörmət, səkkizinci maddəsində hər iki dövlət arasında qarşılıqlı ticarətin tənzimlənməsi, doqquzuncu maddəsində gömrük məsələsinin tənzimlənməsi, onuncu maddəsində hər iki dövlətin tacirlərinin ticarət əməliyyatlarına təminat verilməsi, on birinci maddəsində isə müqavilə imzalanan andan hərbi əməliyyatların dayandırılması nəzərdə tutulurdu.

VII FƏSİL
II RUSİYA – QACAR MÜHARİBƏSİ. ÇARİZMİN KÖÇÜRMƏ SİYASƏTİ.

Gülüstan müqaviləsinin uğursuzluğu və Rusiya-Qacar münasibətlərində gərginlik. Rusiyanın 1804-1813-cü illər müharibəsində qələbəsi, Cənubi Qafqazın böyük bir hissəsinin Rusiya tərəfindən istilası ingilis müstəmləkəçilərinin qəzəbinə səbəb oldu. Gülüstan müqaviləsini özü üçün rüsvayçılıq hesab edən Qacarlar sarayı Rusiyanın Cənubi Qafqazı zəbt etməsi ilə barışmaq istəmirdi. Qacarların bu planları İngiltərənin Cənubi Qafqazdakı planlarına tam uyğun gəlirdi və buna görə ingilis diplomatiyası hər vasitə ilə yeni münaqişələr törədir, Qacarları Rusiya ilə yeni müharibəyə təhrik edirdi. Bu məqsədlə Tehrana yeni Britaniya səfiri göndərildi. O,şahı inandırmağa çalışırdı ki, Qacarlar Cənubi Qafqazı ələ keçirə bilər, ancaq bunun üçün güclü ordu yaratmaq lazımdır. Səfir öz hökumətinin yaxşı təlim görmüş və silahlanmış 50 minlik korpus yaratmaqda Qacarlara kömək göstərməyə hazır olduğunu bildirdi.

Müharibənin qurtarmasından cəmi bir il sonra, 1814-cü il noyabrın 25-də Tehranda İngiltərə ilə Qacarlar arasında müqavilə bağlandı. Bu müqavilə Rusiyaya qarşı yönəlmişdi. Fətəli şah Qacar Hindistanın təhlükəsizliyini təmin etməyi öz öhdəsinə götürürdü. Böyük Britaniya isə Qacarlara hər il 1809-cu il müqaviləsi üzrə müəyyən olunmuş məbləğdə maliyyə yardımı göstərmək, ordu və hərbi gəmilər ayırmaq haqqında öz öhdəliyini bir daha təsdiq etdi.

Qafqazdakı rus qoşunlarının Baş komandanı A.Yermolov 1817-ci ildə nümayəndə heyətinin başçısı kimi Qacarlar dövlətində olarkən çoxlu ingilis zabitinin qızğın fəaliyyətinin şahidi olmuşdu.

Cənubi Azərbaycan hakimi,vəliəhd Abbas Mirzə Rusiyaya qarşı yeni müharibənin hazırlanmasında yenə də mühüm rol oynayırdı.

İngilis diplomatiyası hər vasitə ilə onu İngiltərənin daimi nəzarəti altında saxlamağa çalışırdı. Abbas Mirzə isə, öz növbəsində özünü ingilis zabitləri ilə əhatə etmişdi və onların köməyi ilə öz ordusunu yenidən qururdu.

Qacar sarayı hesab edirdi ki, Rusiyadan müəyyən güzəştlərə nail olmaq üçün əlverişli şərait yaranmışdır. 1815-ci ildə Gülüstan müqaviləsinə yenidən baxmağa Rusiyanın razılığını almaq və Cənubi Qafqazın, əsasən Azərbaycan ərazisinin heç olmazsa bir hissəsinin Qacarlar dövlətinə verilməsinə nail olmaq üçün İngiltərə ilə sıx bağlı olan Mirzə Əbdülhəsən xanın başçılığı ilə Peterburqa nümayəndə heyəti göndərildi.

İngiltərə və Qacarla münasibətləri kəskinləşdirmək istəməyən çar hökuməti sərhədlərin müəyyənləşdirilməsində bəzi xırda güzəştlərə getməyi qərara aldı və bu məqsədlə 1817-ci ildə A.Yermolovun başçılığı ilə Qacarlar dövlətinə nümayəndə heyəti göndərdi. Nümayəndə heyətinə Rusiya ilə Qacarlar arasında möhkəm dostluq və qardaşlıq əlaqələri üçün əsas ola biləcək xüsusi müqavilə bağlamağa səlahiyyət verilmişdi.

A.Yermolovun elçilər heyəti Qacarlar dövlətində soyuq qarşılandı. İngilislər tərəfindən qızışdırılan vəliəhd Abbas Mirzə, hətta A.Yermolovun elçilər heyətindən ölkədə hərbi əhval-ruhiyyəni qızışdırmaq üçün istifadə etməyə çalışdı. Bu zaman o belə bir şayiə yaydı ki, Qacarlar dövlətini işğal etmək üçün rus səfiri 12 minlik korpus gətirmişdir.

Rus elçilər heyətini qorxutmaq məqsədilə Abbas Mirzə Təbrizə onların qarşısına on minlərlə əsgərdən ibarət olan hərbi birləşmə göndərdi. Yermolovun keçdiyi bütün yol boyu onu ingilis zabitləri müşayiət edirdi. Şah sarayının İngiltərənin köməyi ilə müharibəyə hazırlaşdığına əmin olan general Yermolov Qacarlar dövlətini tərk etdi.

XIX yüzilliyin 20-ci illərində Qacarların Rusiyaya qarşı hərbi hazırlığı çox fəallaşdı. İngilis diplomatiyası ehtiyat edirdi ki, Rusiya Şərq məsələsini öz xeyrinə həll edə bilər və ona görə də hər vasitə ilə Qacarlar dövlətini müharibəyə təhrik edirdi. İngilislər şaha pul, silah və sursatla göstərdikləri yardımı daha da gücləndirirdilər.

Şah sarayı ingilislərin köməyi ilə öz ordusunun gücünü artırır, gələcək müharibədə Türkiyədən kömək almağa səy göstərirdi. 1823-cü ildə İran və Türkiyə arasında müqavilə bağlandı.

Rusiya hökuməti Qacarlarla toqquşmaqdan qaçmağa çalışırdı. Rusiya hökuməti danışıqlar aparmaq və ərazi məsələlərini dinc yolla həll etmək üçün yenidən Tehrana öz nümayəndəsini göndərməyi qərara aldı. 1826-cı ildə general Menşikovun başçılıq etdiyi rus nümayəndə heyəti Qacarlar dövlətinə gəldi. Təlimata əsasən, Menşikov şah sarayının nəzərinə çatdırmalı idi ki, Rusiyanın məqsədi Qacarlarla mehriban dostluq münasibətlərini qorumaqdan, beləliklə, Qacarların Rusiyanın işğal məqsədi daşıması və öz ərazisini genişləndirmək istəməsi gümanını aradan qaldırmaqdan ibarət olmalı idi. Çarın sərəncamı ilə Menşikov Qarabağın və Lənkəran xanlığının bir hissəsini güzəştə getməyə hazır idi. Menşikovu Qacarlar dövlətində çox soyuq və davakarcasına qarşıladılar və o başa düşdü ki, müharibə labüddür. Qacarlar sarayı özünün Rusiyaya qarşı hazırladığı müharibə planlarında Azərbaycan və Dağıstanın hamılıqla silahlanmasına böyük ümid bəsləyirdi. Qaçqın Azərbaycan xanları Abbas Mirzəni inandırırdılar ki, onun ordusu görünən kimi müsəlman əhalisi üsyan qaldıracaq və rusları qovacaqdır.

İkinci Rusiya-Qacar müharibəsi.1826-cı il iyulun 19-da Abbas Mirzənin 60 minlik ordusu Şimali Azərbaycana soxuldu. Abbas Mirzənin planı qəflətən Qarabağa soxulmaq, Şuşanı ələ keçirmək və sonra isə Gəncəni tutmaqla Tiflisə hücum etmək idi.

Cənubi Qafqazdakı rus qoşunlarının sayının azlığı və pərakəndəliyi Qacar qoşununun Quba, Bakı və başqa yerlərə hərəkəti üçün əlverişli şərait yaratdı. Qacarlar dövlətinə ordusu ilə İrana qaçmış, hakimiyyət iddiasında olan xanlar – gəncəli Cavad xanın oğlu Uğurlu xan, bakılı Hüseynqulu xan, şirvanlı Mustafa xan və başqaları da gəlirdilər. Əhali öz keçmiş xanlarına kömək məqsədilə Rusiya əleyhinə üsyanlar qaldırdı. Belə bir üsyan Gəncədə baş verdi. Şəhər Abbas Mirzənin qoşunu tərəfindən tutuldu. Qacar ordusu bütün Qarabağ mahallarını ələ keçirərək, Şuşa qalasını mühasirəyə aldı.Şuşa qalasının mühasirəsi 48 gün davam etdi. Qacar ordusu qala divarlarını dağıtmağa çalışır, qala bürclərinin altını minalayırdılar və s. Lakin onların cəhdi baş tutmadı. Qacar ordusu rus qoşunları tərəfindən geri oturduldu.

Rus hərbi komandanlığı Bakıya böyük əhəmiyyət verirdi. Bakı limanı Həştərxanla daimi əlaqə saxlanılmasında, rus ordusunun döyüş sursatı və ərzaqla təmin edilməsində mühüm rol oynayırdı. Buna görə Abbas Mirzə Bakını ələ keçirmək, rus ordusunun təchizatını pozmaq üçün tələsik Hüseynqulu xanın köməyinə yeni qüvvələr göndərdi. Qüvvələrin belə nisbəti şəraitində rus ordusunun komandanı düşmənlə üzbəüz gəlməyə cəsarət etməyib, Gəncənin dar küçələrində müdafiə olunmağı daha məqsədəuyğun hesab edirdi.

1826-cı il sentyabrın 13-də Qacarların qoşunları hücuma başladılar.Amansız döyüş baş verdi. Şah qoşunu darmadağın edildi.Sentyabrın 18-də Abbas Mirzə Şuşa altında saxlanılan dəstəni də özü ilə götürərək, Arazın sol sahilinə keçdi. Hərbi əməliyyatlar içərisində ən böyük döyüşlərdən biri olan Gəncə döyüşünün Rusiya-Qacar müharibəsinin sonrakı gedişində çar Rusiyası üçün mühüm əhəmiyyəti oldu və faktiki olaraq onun müqəddəratını həll etdi.

Müqavimət göstərməyə və müdafiə olunmağa imkanı olmayan Hüseyn xan Araz çayını keçərək Qacarlar dövlətinə getdi. Şirvanlı

Mustafa xan və başqa xanlar da Qacarların yanına qaçdılar. 1827-ci ilin əvvəllərində İran sərbazları bütün Şimali Azərbaycan ərazisini tərk etdilər. Yalnız Lənkəran xanlığında hələlik Mirhəsən xan qalırdı. İran feodalları Arazı keçərək Şimali Azərbaycana tez-tez soyğunçu basqınlar təşkil edirdilər.

Hərbi əməliyyatlar 1827-ci ilin yazında yenidən başlandı. 1827-ci ilin aprelində rus qoşunu iki istiqamətdə irəliləməyə başladı. Dəstələrdən biri Xudafərin körpüsünü ələ keçirdi, Cənubi Azərbaycana yol açıldı. Rus komandanlığı ilk növbədə İrəvan xanlığını ələ keçirməyi qərara aldı. Lakin rus qoşununun sayının azlığı ucbatından İrəvanda müvəffəqiyyət qazana bilmədiyindən, qoşununu Naxçıvan üzərinə yeritdi. 1827-ci il mayın 26-da rus qoşunu Naxçıvanı döyüşsüz ələ keçirdi və Abbasabad qalasına yaxınlaşdı. Bu qalanın böyük strateji əhəmiyyəti var idi. Belə ki, o, şah hakimiyyətinin Naxçıvan xanlığında Araz çayı üzərində keçidi təmin edirdi. 1827-ci il iyunun 5-də Cavanbulaq deyilən yerdə döyüş baş verdi. Rus qoşunu üstün gəldi və Qacarlar qoşununun bu məğlubiyyəti Abbasabad qalasının taleyini həll etmiş oldu.

Rus qoşunu ilk növbədə xeyli taxıl və digər ərzaq ehtiyatlarının toplandığı Sərdarabad qalasını mühasirəyə aldı. Sentyabrın 20-də Sərdarabad qalası süqut etdi. Sentyabrın 26-da İrəvan qalasının mühasirəsi başlandı. İrəvan xanlığı əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Paskeviçin yazdığı kimi, İrəvan vilayətində 10 min müsəlman (azərbaycanlı) və ancaq 3 min erməni ailəsi var idi. Əhalinin müəyyən hissəsi, başlıca olaraq ermənilər rus qoşununa hər cür yardım göstəriridilər. Oktyabrın 1-də rus qoşunu İrəvan qalasını ələ keçirdi.İrəvanın tutulmasında ermənilərin xəyanəti mühüm rol oynadı. Onlar Paskeviçə xəbər verdilər ki, şəhərin cənub qapısında (Təbriz) müdafiəçilər azdır, rus qoşunu da buradan şəhərə daxil oldu.

Bu qələbəyə görə Paskeviçə “İrəvanski” fəxri adı verildi. Sonralar şəhərin adı dəyişdirilib Erivan, daha sonralar isə Yerevan qoyuldu.

İrəvan qalasındakı qələbə rus komandanlığı üçün mühüm əhəmiyyətə malik idi. Rus qoşunu ölkənin içərilərinə doğru irəliləməyə başladı. Oktyabrın 2-də Mərənd döyüşsüz ələ keçirildi.

1827-ci il oktyabrın 13-də rus qoşunu Təbrizə daxil oldu. Şəhəri idarə etmək üçün Təbrizdə müvəqqəti idarə yaradıldı. Təbrizin və bütün Azərbaycanın idarə olunmasına dair təlimat A.Qriboyedov tərəfindən tərtib edilmişdi. Rus qoşununun Təbrizi ələ keçirməsi ilə Tehrana yol açıldı. Qorxuya düşən şah hökuməti sülh xahiş etdi.

Türkmənçay müqaviləsi. Daxili və beynəlxalq vəziyyət Rusiyanı İranla müharibəni başa çatdırmağa sövq edirdi, çünki dağlıların azadlıq hərəkatı geniş vüsət almışdı və Rusiya Türkiyə ilə müharibənin yaxınlaşdığını hiss edirdi. 1827-ci il noyabrın 7-də danışıqlar başlandı. Rusiya İrəvan və Naxçıvan xanlıqlarının ona güzəştə gedilməsini, İran qoşununun Lənkəran xanlığını tərk etməsini və gümüş pulla 30 milyon manat təzminat verilməsini təklif edirdi. Şah sarayı isə rus qoşunlarının Azərbaycan ərazisindən çıxarılmasını tələb edirdi. Lakin ingilis diplomatiyasının təhriki və Türkiyənin təzyiqi altında danışıqlar kəsildi. 1828-ci il yanvarın 28-də rus qoşunları Urmiyanı, fevralın 8-də isə Ərdəbili tutdular. İranın tamamilə darmadağın ediləcəyindən ehtiyat edən Britaniya səfiri Makdonald döyüşən tərəflər arasında vasitə kimi çıxış etdi. 1828-ci il fevralın 6-da (18-də) Təbriz yaxınlığındakı Türkmənçay kəndində Abbas Mirzə ilə Paskeviç arasında sülh danışıqları yenidən başlandı. Rusiya hökuməti Paskeviçin qarşısında şahdan Cənubi Azərbaycan ərazisinin də Rusiyaya birləşdirilməsini tələb etmək vəzifəsini qoymuşdu.Danışıqların iştirakçısı A.Qriboyedov da Cənubi Azərbaycan ərazisinin Rusiyaya birləşdirilməsi fikrinə tərəfdar çıxdı.

Türkiyə ilə yaxınlaşmaqda olan müharibə təhlükəsi şəraitində çar hökuməti İranla sülh müqaviləsi bağlamağa tələsdi. Müqavilə 1828-ci il fevralın 10-da imzalandı.

Türkmənçay sülh müqaviləsinə görə, Qacarlar Şimali Azərbaycana olan iddialarından əl çəkir, onun üzərində Rusiya hakimiyyətini tanıyırdı. Cənubi Azərbaycan isə Qacarlar dövlətinin himayəsində qaldı. Azərbaycan iki yerə bölündü.

Cənubi Azərbaycan şah istibdadının, Qacarlar dövlətinin feodallarının zülmü altına düşdü. Şimali Azərbaycan isə çar Rusiyasının müstəmləkəsinə çevrildi. Həmin vaxtdan Azərbaycanın şimal və cənub hissəsinin tarixi inkişafı müxtəlif yollarla getdi. Türkmənçay traktatında deyilirdi:

Maddə 1.Rusiya imperatoru və İran şahı, onların vərəsələri və taxt-tacın varisləri arasında əbədi sülh, dostluq və razılıq haqqında;

Maddə 2. Gülüstan müqaviləsinin qüvvədən düşməsi;

Maddə 3. İran şahının Arazın o tayı və bu tayı üzrə Erivan (İrəvan) və Naxçıvan xanlıqlarının Rusiyaya keçməsi;

Maddə 4. İranla Rusiya arasında sərhəd xəttinin müəyyənləşdirilməsi;

Maddə 5. Qafqaz dağları ilə Xəzər dənizi arasındakı bütün torpaqlar və adaların, köçəri və başqa xalqların əbədi olaraq Rusiyaya keçməsi;

Maddə 6. İran rus təbəələrinə ödəmək üçün on kurur və ya iyirmi milyon gümüş manat ödəməli;

Maddə 7. Rusiyanın şahzadə Abbas Mirzənin İran taxt-tacının vərəsəsi və varisi, taxta çıxanda isə onu qanuni hökmdar kimi tanımaq öhdəliyini götürməsi;

Maddə 8.Gəmiçilik barədə - Xəzər dənizində və sahil boyunca rus və İran ticarət gəmiləri sərbəst üzə bilər və sahillərinə yan ala bilər, qəza zamanı hər iki dövlətin bir-birinin gəmilərinə kömək etməsi,

Xəzər dənizində yalnız Rusiyanın bayrağı altında hərbi gəmilərin üzməsi;

Maddə 9. Hər iki dövlətin bir-birinin səfirləri, nazirləri, müvəkkillərini qarşılıqlı olaraq ehtiramla qəbul etmələri;

Maddə 10. Ticarət əlaqələrinin bərpası və inkişafı;

Maddə 11. Hər iki dövlət qarşılıqlı surətdə onların təbəələri barədə təəhhüdləri yerinə yetirməli;

Maddə 12. Hər iki dövlətin öz təbəələrinə qarşılıqlı surətdə əmlakın satılmasına 3 il vaxt verilməsi, lakin Rusiya imperatorunun bu iltifatı İrəvan sərdarı Hüseyn xana, onun qardaşı Həsən xana, Naxçıvan hakimi Kərim xana aid etməməsi;

Maddə 13. Birinci və ikinci Rus-Qacar müharibəsi zamanı əsir düşmüş hərbi əsirlər, təbəələr 4 ay ərzində qarşılıqlı surətdə qaytarılmalı, bu tədbiri həyata keçirmək üçün hər iki tərəfin komissarları Abbasabada göndərilməli;

Maddə 14. Axırıncı müharibənin (1826-1828-ci illər) başlanmasınadək və müharibə dövründə bir dövlətin təbəəliyindən başqa dövlətin təbəəliyinə keçmiş satqın və fərariləri bir-birindən tələb etməmək, İran Rusiyaya məxsus ərazilərdən bu ölkəyə qaçıb gəlmiş şəxslərin Rusiyanın göstərdiyi məntəqələrdə məskunlaşmasına imkan verməməli, Rusiya da İran qaçqınlarının (əsasən ermənilərin) Qarabağ və Naxçıvan xanlıqlarında, İrəvan xanlığının Araz çayının sağ sahlilndə yaşamasına icazə verməyəcəyini vəd etməli, İran tərəfi Quzey Azərbaycanından bu ölkəyə qaçmış xan, bəy, dini rəislər və ya mollaların öz həmvətənlərinə zərərli təsirinin qarşısını almalı;

Maddə 15. Şah Azərbaycan vilayətinin bütün əhalisinə və məmurlarına müharibə ərzində və ya rus ordusu adı çəkilən vilayəti tutduğu zaman davranışına görə (əsasən ermənilərə, ruslara köməyinə görə) təqibə, dini əqidəsinə görə təhqirə məruz qoymayacaq, onları

bağışlayır, hər hansı gömrük və vergi vermədən bir il ərzində daşınan əmlakını satıb Rusiyaya sərbəst köçə bilər, daşınmaz əmlakı satmaq üçün beş il vaxt verilir;

Maddə 16. Müvəkkillər sülhü imzalayan kimi hərbi əməliyyatlar dərhal dayandırılır, eyni məzmunda iki nüsxədə tərtib olunmuş müqavilə hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri təsdiq edilmiş, Rusiya imperatoru və İran şahı tərəfindən təsdiq və ratifikasiya edilməlidir. Ratifikasiya mətnləri dörd ay ərzində dəyişdirilməlidir. Müqavilə 1828-ci il fevralın 10-da İsanın anadan olduğu gün Təbriz yaxınlığında Türkmənçay kəndində bağlandı. Əslinə qol çəkmişlər:İvan Paskeviç və şahzadə Abbas Mirzə.

Rusiya ilə İran arasında ticarətə və hər iki dövlət təbəələrinin təhlükəsizliyinə dair Akt Türkmənçay barışığı ilə bir gündə bağlanmışdır.Türkmənçay müqaviləsi 1828-ci ilin martında çar hökuməti, iyul ayında isə Qacarlar tərəfindən ratifikasiya edilmişdir. Paskeviç qeyd etmişdir ki, 4-cü və 13-cü maddələr Qriboyedov tərəfindən "yaxşılaşdırılmış", 14-cü maddə isə genişləndirilmişdir. Ermənilərə və təzminatın həcminə aid maddələr dəyişikliyin əsas hissəsini təşkil edirdi. Tarixi ədəbiyyatda 14-cü və 15-ci maddələrin müəllifi A.S.Qriboyedov sayılır. Türkmənçay müqaviləsinin mətni Rusiyada dəfələrlə çap edilmişdir.

14-cü maddə ilə bağlı olaraq Qafqazın Baş Hakiminin adına 12 noyabr 1842-ci il tarixdə göndərilən şah fərmanında göstərilirdi ki, sərhəd sakinlərinə bəxş edilmiş keçmə sərbəstliyindən sui-istifadə edilir. Bu narazılığı aradan qaldırmaq üçün Rusiya ilə Qacarlar arasında danışıqlar aparılmış, 1844-cü il iyulun 3-də bu iki dövlət arasında konvensiya imzalanmışdır. Konvensiyaya görə hər iki dövlətin təbəələri bundan sonra bir dövlətdən o birinə pasportsuz və rəislərin formal icazəsi olmadan keçə bilməzdi.

Çar Rusiyasının köçürmə siyasəti. Həm 1804-1813 və 1826-1828-ci illər Rusiya-Qacar müharibələrinin gedişində, həm də sonralar ermənilərin böyük kütlələrinin İran, Türkiyə və Cənubi Azərbaycandan köçürülməsi nəticəsində burada onların sayı ilbəil artdı. Təkcə 1826-1828-ci illər Rusiya-Qacar müharibəsinin gedişində İrandan və Azərbaycanın cənub ərazilərindən Cənubi Qafqaza, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Türkmənçay müqaviləsinə görə, ermənilərin maneəsiz olaraq İran ərazisindən Rusiya ərazisinə köçməsinə icazə verilmişdi. Bu akt ermənilərin kütləvi halda köçməsinə imkan verirdi. İki il ərzində, 1828-ci ildən 1830-cu ilədək, Cənubi Qafqaza 40 mindən çox İran və 84.000 Türkiyə ermənisi köçürüldü və onlar erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı torpaqlarında yerləşdirildi, onlara 200.000 desyatindən çox xəzinə torpağı ayrıldı. Yararlı torpaqların köçkünlərə verilməsi yerli azərbaycanlı kəndliləri narahat etməyə bilməzdi. 1832-ci ildə Qarabağ əhalisinin 91%-ni azərbaycanlılar, 8,4%-ni isə ermənilər təşkil edirdilər. Çarizmin XIX yüzilliyin 30-cu illərinin əvvəllərindəki köçürmə siyasəti nəticəsində azərbaycanlıların faizi 64,8-ə endi, ermənilərin faizi isə 34,8-ə qalxdı.Türkmənçayda rus tacirlərinə bir sıra üstünlük verən və xüsusi akt adlandırılan ticarət sazişi bağlandı.

İkinci Rusiya-Qacar müharibəsinin başa çatdığı dövrdə Rusiya ilə Türkiyə arasında münasibətlər kəskin şəkildə pisləşdi. İran üzərində qələbədən sonra Xəzər dənizi demək olar ki, Rusiyanın daxili dənizi idi. İndi çar Rusiyası qarşısına Qara dənizi, ilk növbədə isə Qara dənizdə hökmranlığın açarı hesab edilən Bosfor və Dardanel boğazlarını ələ keçirmək vəzifəsini qoymuşdu. Qara dəniz Rusiya üçün nəzərlərini boğazlara və Qafqaza yönəltmiş İngiltərə və Fransadan özünün cənub sərhədlərini qorumaq baxımından da mühüm əhəmiyyət kəsb edirdi.1828-ci ilin aprelində Rusiya

Türkiyəyə müharibə elan etdi. Qafqaz hərbi əməliyyatları rus qoşunlarının Qars istiqamətində hücumu ilə başlandı.Qarsı tutduqdan sonra ruslar Ahalsıx üzərinə hərəkət etdilər. Avqustun 9-da rus qoşunları Ahalsıxı ələ keçirdilər. Hələ bundan əvvəl rus qoşunları Ahalkələki və Xertsi tutmuşdu. Avqustun sonlarına qədər rus qoşunu bütün Bəyazid paşalığını ələ keçirdi. 1829-cu il hərbi əməliyyatlarında Paskeviçin ordusunun başlıca vəzifəsi Anadolunun içərilərinə doğru hərəkət etmək və Ərzurumu tutmaq idi. Rus qoşunu Ərzurumu ələ keçirdi və Trapezund üzərinə hücuma hazırlaşmağa başladı. Rus qoşunu Balkan dağlarından keçərək Ədirnəni ələ keçirdi və İstanbula yaxınlaşdı. Sultan sülh xahiş etməyə məcbur oldu.

1829-cu il sentyabrın 2-də Ədirnədə bağlanan sülh müqaviləsinə görə, Türkiyə Qara dənizin bütün Şərq sahillərini və Ahalsıx paşalığının ərazisinin bir hissəsini Rusiyaya güzəştə getdi. Bosfor və Dardanel boğazları rus və Qərbi Avropa ticarət gəmiləri üçün açıq saxlanılırdı. Moldova və Valaxiya rus qoşunu tərəfindən müvəqqəti olaraq işğal edildi.Ədirnə sülhü Şimali Azərbaycanın, bütün Cənubi Qafqazın Rusiya tərəfindən zəbt olunmasını təsbit etdi, Rusiyanın Orta Şərqdə və Balkanlarda mövqelərini möhkəmləndirdi, Qara dənizdə ticarətin genişlənməsi üçün şərait yarandı.

Azərbaycanın şimal torpaqlarının Rusiya tərəfindən zəbt edilməsi ilə vahid xalq bölündü və onlar bir-birindən fərqli inkişaf yoluna düşməyə məcbur oldu. Azərbaycan iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri aldı. Bu isə o demək idi ki, yalnız Rusiya sənayesi üçün xammal istehsal etməli, sənayesi də buna xidmət etməli idi. Şimali Azərbaycan Rusiyanın ucqar müstəmləkəsinə çevrildi.

VIII FƏSİL
XIX YÜZİLLİYİN BİRİNCİ YARISINDA ŞİMALİ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ HƏYATI.

Çarizmin iqtisadi siyasəti. Cənubi Qafqazın işğalının başa çatması yaxınlaşdıqca, Rusiyanın siyasi və ictimai dairələrində imperiyanın yeni torpaqlarındakı sərvətlərin mənimsənilməsi, istifadəsi və istismarı ideyası özünü büruzə verirdi.

Çarizm Cənubi Qafqaza Yaxın və Orta Şərqdə iqtisadi mövqelərini möhkəmləndirməkdə fəal vasitəçi və ötürmə məntəqəsi kimi əhəmiyyət verirdi. Çarizmin məqsədinin bu cəhətləri öz əksini Cənubi Qafqaza dair 1821-ci ilin güzəştli tarifi deyilən tarifdə tapmışdı. Bu tarifə görə, Qərbi Avropa mallarına da, Gülüstan sülhündə olduğu kimi, Rusiya və Qacar dövlətinin ticarət üçün nəzərdə tutulmuş rüsum (5%) qoyulurdu. Lakin bu tarif Mərkəzi Rusiyanın ticarət və yetişməkdə olan sənaye burjuaziyasının ciddi narazılığına səbəb oldu. Belə ki, 1828-ci ilədək Cənubi Qafqaz tacirlərinin Avropadakı (Leyptsiq yarmarkasında) əməliyyatları, demək olar ki, 4 dəfə artdığı bir zamanda, Nijni-Novqorod yarmarkasının dövriyyəsi müvafiq surətdə azalmışdı. Halbuki Rusiyanın işgüzar dairələrində hökumət xəttindən radikal surətdə fərqlənən baxışlar irəli sürülürdü. Görkəmli publisist və ictimai xadim N.S.Mordvinov 1816-cı ildə siyasətdə ağırlıq mərkəzini Cənubi Qafqazın iqtisadi istilasına keçirmək təklifi ilə çıxış etdi.

Səlahiyyətli səfir kimi Qacarlar dövlətinə göndərilməsini gözləyən A.S.Qriboyedov və Tiflis mülki qubernatoru P.D. Zavileyski 1828-ci ilin sentyabrında 100 mln. manatlıq kapitalı olacaq "Rusiya Cənubi Qafqaz ticarət kompaniyası"nın layihəsini İ.F.Paskeviçə təqdim etdilər. İnzibati və diplomatik statusa malik olan möhtəşəm bir müəssisənin yaradılması düşünülmüşdü. Onun

fəaliyyətində ticarət böyük olsa da, heç də başlıca yer tutmurdu. Müəlliflərin fikrincə, 1821-ci ilin güzəştli tarifi diyarda ticarətin canlanması üçün şərait yaradır, bunun da hesabına yerli tacirlər varlanırdılar. Lakin onlar tarifin təsirini ümumiyyətlə, mənfi qiymətləndirirdilər. Çünki o, "daxili (Cənubi Qafqaz) sənayenin həvəsləndirilməsi amili deyildi: nə bir fabrik meydana çıxır, nə əkinçilik, nə də bağçılıq çiçəklənirdi....".Cənubi Qafqaz ticarət kompaniyasının layihəsinə görə, emal tipli fabrik və zavodlar (şəkər, mahud, gön-dəri, şüşə) şəbəkəsi yaradılmalı və paralel olaraq üzümçülük, şərabçılıq, ipəkçilik, tütünçülük və s. inkişaf etdirilməli idi. Bununla yanaşı qeyd olunurdu ki, Rusiyanın dövlət xəzinəsi təkcə pambıq və xam ipəyin idxalına hər il 80 mln. manat xərcləyir. Müəssisələrin tikilməsinin sosial cəhəti daha vacib idi. Müəssisələrin tikilməsi əhalinin işlə təminatını da yaxşılaşdırardı.

Hökumətə təklif olunurdu ki, kompaniyaya rəmzi icarə haqqı müqabilində 120 min desyatin torpaq da verilsin. İşçi qüvvəsi kimi kompaniyanın təsərrüfatlarında əvvəlcədən təhkimçilikdən azad edilmiş rus kəndlilərindən də haqqı ödənilməklə 50 il kompaniya üçün işləməli olmaları şərtilə istifadə etmək nəzərdə tutulurdu. Beləliklə, Qriboyedov və Zavileyskinin layihəsi "obyektiv kapitalist xarakterinə" malik idi və həm Nikolay rejiminin təhkimçilik platformasına, həm də rus burjuaziyasının mənafelərinə uyğun gəlmirdi.

XIX yüzilliyin 20-ci illərinin sonu-30-cu illərinin əvvəlləri rus toxuculuq sənayesinin inkişafı dövrünə təsadüf edur. Rusiya-Qacar və Rusiya-Türkiyə müharibələrinin çarizm üçün uğurla başa çatması rus tacirləri və sahibkarları arasında Cənubi Qafqaza güclü maraq oyadırdı. Knyaz A.B.Qolitsin 1829-cu ildə ipəkçilik sahəsində səhmdar cəmiyyəti təsis etmək layihəsi ilə çıxış etdi. Layihədə göstərilirdi ki, "bu qədər parlaq" şəkildə qurtarmış müharibələrdən

sonra “sakitliyin yaradılması” burada (Cənubi Qafqazda) kommersiya tədbirlərinin etibarlılığını və böyük sərmayələrin faydalı şəkildə sərf edilməsini təmin edir.

XIX yüzilliyin 30-cu illərinin başlanğıcı ərəfəsində çarizm Cənubi Qafqaz ölkələrini müstəmləkəyə - öz sənayesinin xammal təchizatçısına və satış bazarına çevirmək siyasətini elan etdi.Bu yeni iqtisadi xəttin başlanması demək idi. Rusiya Maliyyə idarəsinin platforması bir növ ikili məqsəd daşıyırdı: Cənubi Qafqazı Rusiya sənayesinin daxili bazarına çevirmək və Ön Asiyada rus ticarətini inkişaf etdirmək. Bu isə Rusiya ilə Avropa arasındakı “bütün Asiya bazarlarında” rus manufaktura məmulatlarına verilmiş üstünlük kimi qiymətləndirilirdi. Buna görə də 1831-ci ilin iyununda Cənubi Qafqaz Avropa malları üçün bağlanıldı. 1831-ci ilin qadağan tarifi Rusiya sənayesini (başlıca olaraq toxuculuq sənayesini) beynəlxalq rəqabətdən qoruyaraq, onu başqa bölgələrdən idxal üçün əslində bağlı olan xüsusi satış bazarı ilə təmin edirdi.

Çar hökuməti ölkəmizin təbii sərvətlərini istismar etmək istəyirdi. Ona görə də faydalı qazıntılarla zəngin olan rayonları öyrənmək üçün buraya mütəxəssislər göndərirdi. Bir çox mütəxəssislər Azərbaycanın qərbində çay yataqlarında qızılın olub-olmadığını öyrənməklə məşğul olurdular.Bu dövrdə Rusiya Elmlər Akademiyasının dağ-mədən mütəxəssisləri Ağstafa çayı yaxınlığında yerləşən Qazax yatağını, Gürcüstan sərhədlərindən Kiçik Qafqazın şimal ətəkləri boyunca axan bütün çayları tədqiq edirdilər.XIX yüzilliyin 40-cı illərindən etibarən onlar artıq öz tədqiqatlarını Qarabağadək genişləndirdilər. Lakin qızıl yataqlarının baha başa gələn axtarışları o dövrdə gözlənilən nəticəni vermədi və onların axtarışı dayandırıldı.

Çar hökuməti Azərbaycanda ipəkçiliyin inkişafının mənfəətli olmasını nəzərə alaraq bu sahənin yüksəlişi üçün bir sıra tədbirlər

gördü. General Yermolov hələ 1825-ci ildə Şamaxıdakı tut bağlarının genişləndirilməsi barədə sərəncam vermişdi. 1829-cu ildə isə o öz məktubunda Maliyyə Nazirinə yazırdı ki, "mən öz tərəfimdən ən yaxşı ipəyin istehsal olunduğu Şirvan əyalətini himayə edirəm".

Bu məktub hökumətin Azərbaycanda ipəkçiliyin inkişafında, Rusiyanın ipək sənayesi üçün xammal bazasının yaradılmasında nə qədər maraqlı olduğunu sübut edir. Peterburqda çıxan "Kommerçeskaya qazeta" yazırdı: "Şəki əyaləti başqa əyalətlərə nisbətən daha çox miqdarda və daha yaxşı keyfiyyətli ipək istehsal edir. 1827-ci ildə bu əyalətdən satış üçün 8200 pud ipək aparılmışdır".

XIX yüzilliyin 30-50-ci illərində Rusiya ipək sənayesinin tələbatı daha da artdı, bu da toxuculuq sənayesini xammalla təmin etmək üçün hökumət tərəfindən bir sıra tədbirlərin həyata keçirilməsinə gətirib çıxardı. 1836-cı il üçün Peterburqda "Cənubi Qafqaz diyarında ipəkçiliyin inkişafı və ticarəti həvəsləndirmək və yaxşılaşdırmaq üçün" kompaniya təşkil edildi. Kompaniyaya qraf A.Benkendorf, knyaz Dolqorukov və bu kimi ali dövlət məmurları başçılıq edirdilər. Bu faktın özü Azərbaycanın ipək sərvətlərinin "mənimsənilməsinə" hökumətin necə böyük diqqət yetirdiyini aydın göstərir. Xəzinənin Şəki əyalətindəki bütün tut bağları pulsuz olaraq beşillik müddətinə kompaniyaya verildi. Bu bağlara təhkim edilmiş rəncbərlər də onun sərəncamına keçdi. Kompaniya yerli sakinlərdən barama və xam ipəyi Maliyyə Nazirliyi tərəfindən qoyulmuş qiymətlər üzrə almaq hüququna malik idi. Azərbaycan Rusiya ipək sənayesinin ən mühüm xammal bazasına çevrildi.

Ticarət sahəsində xüsusən çoxlu cəmiyyətlər yaradıldı. 1838-ci ildə rus malları ticarəti ilə məşğul olan "Cənubi Qafqaz ticarət işi" adlı cəmiyyət fəaliyyətə başladı.

XIX yüzilliyin birinci yarısı ərzində Azərbaycanın iqtisadi cəhətdən mənimsənilməsi yolunda ancaq ilk addımlar atılırdı. Çar

hökumətinin məqsədi Azərbaycanı müstəmləkəyə, xammal bazasına çevirməyə yönəlsə də, bu şəraitdə Azərbaycan iqtisadiyyatının ipəkçilik və balıqçılıq təsərrüfatı kimi mühüm sahələrinə rus kapitalının soxulması, Azərbaycanın yeraltı sərvətlərinin aşkara çıxarılması sahəsində görülən tədbirlər "praktiki ipəkçilik məktəbi"nin yaradılması obyektiv olaraq Azərbaycanın iqtisadi inkişafına kömək edirdi.

Neft və bəzi başqa hasilat sahələri xanlıqlar dövründə olduğu kimi iltizama verilirdi. 1808-1825-ci illərdə Abşeronun neft quyuları iltizamda idi. Sonrakı dövrlərdə neft hasilatı yalnız bəzi illərdə xəzinənin idarəsində olmuşdur. İltizam sisteminin yararsızlığı üzündən inkişaf olduqca ləng gedirdi. Kimyəvi və texniki xassələrinə görə ən qiymətli neft Suraxanıda hasil edilirdi. Burada olan 25 quyunun 15-dən qiymətli ağ neft çıxarılırdı. Dünyada ilk buruq qoymaq cəhdi 1848-ci ildə Bibiheybətdə baş vermişdir.

Neft hasilatı gah artır, gah da azalırdı. Neftverən torpaqların sahibi kimi, xəzinə 30 il ərzində yalnız öz mənfəətini güdərək neft hasilatını artırmaq, əsil sənaye yaratmaq üçün heç bir əsaslı iş görməmişdi.

Azərbaycanın qərbində zəy istehsal olunurdu. Zəylik kəndi yaxınlığında çıxarılan xam zəyi yandırmaq üçün bir neçə soba vardı. Zəydən suyu durultmaq, kosmetika və müalicəvi məqsədlərlə istifadə olunurdu.

Abşeronda 27 göldən narın duz yığılırdı. Belə göllər Cavad və Ağcabədi yaxınlığında da vardı. Bu göllər 1808-1821-ci illərdə iltizama verilmiş, 1821-1825-ci illərdə xəzinənin idarəsində olmuş, 1826-1834-cü illərdə yenidən iltizama keçmiş və nəhayət, 1834-cü ildən 1850-ci ilədək təzədən xəzinənin idarəsinə qaytarılmışdı. Burada muzdlu əməkdən də istifadə olunurdu.

Yeyinti sənayesi sahəsində narın və daş duz istehsalı xüsusi yer tuturdu. Abşeron duz gölləri daha zəngin idi. Masazır və Zığdan 160 min puddan çox duz alınmışdı, 40-cı illərdə orta hesabla hər il 400 min pud duz istehsal edilirdi.

Naxçıvanda daş duz Şıxmahmud, Cəhri və Sust kəndləri arasındakı dağlıq ərazidən çıxarılırdı. 1828-ci ilədək duz mədənləri Kəlbalı xanın ixtiyarında olmuş və göstərilən kəndlərin əhalisinin bir hissəsi bu mədənlərdə duz çıxarılmasına təhkim olunmuşdu. Duz mədənləri çar xəzinəsinin əlinə keçəndən sonra da duz eyni üsulla çıxarılırdı. 1830-1840-cı illərdə bu mədənlər iltizama verilmişdi. Daş duz çıxarılması 40-cı illərdə xeyli artmışdı. 1828-1829-cu ildə daş duz istehsalından xəzinəyə gələn gəlir 1000 manat idisə, bu, 40-cı illərdə orta hesabla ildə 9000 manata qalxmışdı.

Azərbaycanda keçmişdə olduğu kimi, yenə müəyyən qədər şərab istehsal olunur və araq çəkilirdi. Şirvan, Şəki, Qarabağda istehsalın həcmi daha böyük idi. İstehsal olunan spirtli içkilər yerli əhalinin istehlakına gedir və əsasən yerli bazarlarda satılırdı.

Azərbaycanda yeyinti məhsulları istehsalı sahəsində balıq və balıqdan hazırlanan məhsullar xüsusi yer tuturdu. Mustafa xanın hakimiyyəti dövründə balıq vətəgələri iltizama verilirdi. 1814-cü ildə Şəki xanlığının sərhədlərindən başlayaraq, Xəzərə qədər Kür çayında balıq tutmaq 20 il müddətinə iltizama verilmişdi. 1829-cu ildə bu sahə də xəzinənin ixtiyarına keçdi. Salyan balıq vətəgələri əsasında "Salyan xəzinə qəyyumluğu" adlı kommersiya şirkəti yaradıldı. Sonrakı dövrlərdə ölkənin bütün balıq vətəgələri tədricən —"qəyyumluğun" ixtiyarına keçmişdi. 1845-ci ildə "Salyan qəyyumluğu" ləğv ediləndən sonra, artıq vətəgələrin hamısından yenidən iltizam əsasında istifadəyə başladılar. Ölkənin balıq vətəgələrində, xüsusilə Salyanda muzdla işlədilənlərin sayı getdikcə artmaqda idi.

Kənd təsərrüfatı. Aqrar münasibətlər. XIX yüzilliyin birinci otuz illiyində Azərbaycanın düşdüyü mürəkkəb hərbi-siyasi şərait, ölkənin feodal pərakəndəliyi kənd təsərrüfatının vəziyyətinə mənfi təsir göstərirdi. Rusiya-Qacar müharibələrinin hərbi əməliyyatları dövründə Azərbaycan ərazisi yadelli işğalçıların viranedici hücumlarına məruz qalmışdı.

Lakin Azərbaycan kəndlilərinin nisbətən dinclik və ya xarici basqınlardan müxtəlif fasilələr dövründə kənd təsərrüfatı məhsulları nəinki yerli əhalinin tələbatını ödəyir, hətta müəyyən qədəri bazara çıxarılırdı. Məsələn, I Rusiya-Qacar müharibəsinin sonuna yaxın bir sıra əyalətlərdə taxıl istehsalı hələ də yerli tələbatı üstələyirdi. 1812-ci ildə təkcə Şəki və Şamaxı xanlıqları rus ordusuna 10 min çetvert (1.160 min pud) taxıl satmağı öhdəliyə götürmüşdülər. Buğda, düyü, zəfəran, qurudulmuş meyvə, mal-qara, ipək və qızıl boya, az miqdarda olsa da, ölkə daxilində satışa gedir, habelə Gürcüstana, Qacarlar dövlətinə və Rusiyaya ixrac olunurdu.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başa çatmasından sonra Azərbaycan müstəmləkəyə çevrilsə də, kənd təsərrüfatının bərpası və inkişafı üçün şərait yarandı, daxili müharibələrə son qoyuldu. Xanlıqlar dövründən mövcud olan gömrükxana maneələrinin – rəhdar deyilən vergilərin saxlanılması daxili ticarətin inkişafını ləngidirdi. Xanlıqların yerini əyalətlərin tutduğu komendant üsuli-idarəsi dövründə əyalətlər arasında "rəhdar rüsumları" qalmaqda idi. XIX yüzilliyin 20-ci illərinin sonuna yaxın Cənubi Qafqazda 17 rəhdar vergisi və sənətkarlıq məmulatları üzərinə qoyulan 120 müxtəlif rüsum alınırdı, 1851-ci ildə yeni ticarət tarifinə görə, Cənubi Qafqazda istehsal olunan mallar rüsum alınmadan Rusiyaya aparıla bilərdi. Buna baxmayaraq uzun müddət ərzində Mərkəzi Rusiya quberniyalarına aparılan mallardan bu rüsum alınırdı.

Kənd təsərrüfatında başlıca yeri, əvvəllərdə də olduğu kimi, əkinçilik tuturdu. Dənli bitkilər – buğda, arpa, çəltik daha geniş yayılmışdı. Bu əyalətlərdə buğdanın ümumi istehsalı 1830-1832-ci illərdə 4.861 min pud, 1845-ci ildə isə 8.347 min puda bərabər olmuşdu. Ümumiyyətlə,1845-ci ildə Azərbaycanın 8 qəza və dairəsində - Quba, Şamaxı, Talış, Qarabağ, Şəki, Naxçıvan qəzaları, habelə Car-Balakən və Yelizavetpol dairlərində, Qazax-Şəmşəddil torpaqlarında – ümumi taxıl yığımı 17.617 min puda bərabər olmuşdu. Bu da buğdaya olan daxili tələbatı ödəyir və ixrac üçün məhsul qalırdı.

Düyünün (çəltiyin) ümumi istehsalı nəzərə çarpacaq dərəcədə artdı. Onun becərilməsində aparıcı yeri Talış əyaləti tuturdu, onun ardınca Şirvan və Qarabağ, habelə Quba əyalətləri gəlirdi. 1845-ci ildə bütün Azərbaycan ərazisində düyünün ümumi istehsalı 2.315,7 min puda bərabər idi.

Azərbaycan iqtisadiyyatında əhəmiyyətinə görə ikinci yeri tutan kənd təsərrüfatı sahəsi heyvandarlıq idi. Muğan, Mil, Şirvan və digər düzlərin geniş əraziləri təkcə Azərbaycanın deyil, həm də qonşu ölkələrin Dağıstan və Gürcüstanın da malları üçün gözəl qış otlaqları idi. Yay alp çəmənlikləri – yaylaqlar da geniş əraziləri tuturdu.

40-50-ci illərdə iribuynuzlu mal-qaranın sayı xeyli artmışdı. 1845-ci ilə aid olan məlumatlara görə, Azərbaycanın altı qəzasında – Quba, Bakı, Şamaxı, Lənkəran, Nuxa və Şuşa qəzalarında onun sayı 272,1 min başa çatırdı.

Həmin dövrdə həm mal-qaranın sayına, həm də bu sayın artımına görə Azərbaycanın aparıcı maldarlıq rayonları Şamaxı, Şuşa, Yelizavetpol və Quba qəzaları idi.

40-50-ci illərdə heyvandarlıqda natural təsərrüfat hökmran olaraq qalmaqda davam edir və bu sahənin əmtəəliyi çox zəif təzahür edirdi.Bununla belə kənd təsərrüfatının əvvəlki qapalılığı öz yerini şəhərlə kənd arasında əlaqələrin müəyyən qədər artmasına verirdi.

XIX yüzilliyin 30-50-ci illərində Azərbaycan ipəkçiliyi inkişaf etməkdə davam edirdi. 1836-cı ildə Peterburqda təsis olunmuş kampaniya "Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət" Nuxanı öz fəaliyyətinin mərkəzi seçdi. Şəki əyalətinin bütün xəzinəyə məxsus tut bağları 5 illik müddətə pulsuz olaraq, sonrakı 25 il ərzində isə götürülən gəlirə müvafiq olaraq ucuz qiymətə cəmiyyətə verildi. Bağlara təhkim olunmuş 700-ə yaxın dövlət kəndlisi – rəncbər də cəmiyyətin sərəncamına verildi. Qısa müddət ərzində kampaniya öz təsərrüfatını xeyli genişləndirdi. Kampaniya rəncbərləri istismar etmək hesabına ipək istehsalını təxminən 3 dəfə artırmağa nail oldu.

Xam ipəyin bir hissəsi, başlıca olaraq, Şamaxı şəhərində və onun ətrafındakı kəndlərdə yerləşən yerli ipəktoxuma müəssisələrində emal olunurdu; ipəyin az bir hissəsi xaricə, əsasən Fransaya ixrac edilirdi. Azərbaycan xam ipəyinin əsas hissəsi isə Rusiyaya daşınırdı. Onu Nijni-Novqorod yarmarkasına və Moskvaya göndərirdilər.İpəkçilik əmtəə əhəmiyyəti kəsb etdi.

Bu dövrdə tütünçülük də əmtəə istehsalı sahəsinə çevrilirdi. Rusiya bazarında yüksək keyfiyyətli tütün növlərinə tələbat xaricdən gətirilmiş ən yaxşı tütün növlərinin – Havana, Alban və Perqam növlərinin Azərbaycanın iqlim şəraitində əldə edilməsi üçün bir sıra bölgələrdə onların becərilməsinə marağı artırdı.

Texniki bitkilərdən qızılboya istehsalı daha böyük əhəmiyyətə malik idi. Onun köklərindən yüksək keyfiyyətli təbii boyalar hazırlanırdı. Qızılboya Azərbaycanda qədimdən istehsal olunurdu. 1851-ci ilə qədər Azərbaycan və Dağıstanda qızıl boya becərilməsi əsaslı surətdə mənimsənilərək, iqtisadi həyatın sərfəli və gəlirli sahələrindən birini təşkil edirdi. Azərbaycanda qızılboya başlıca olaraq Quba, Şamaxı və Lənkəran qəzalarında becərilir, Bakıdan, Niyazabad limanından və Dərbənddən ixrac olunurdu. Azərbaycan

qızılboya istehsalı üzrə Rusiya toxuculuq sənayesinin ehtiyaclarını təmin edən sırf ticarət xarakterli kənd təsərrüfatı sahəsi idi. 50-ci illərdə Moskva yaxınlığında xüsusu olaraq Xəzər sahillərindən gətirilən qızılboyanın emalı üçün fabrik tikildi.

Digər texniki bitkinin – pambığın istehsalında vəziyyət başqa cür idi. Azərbaycanın Rusiya tərəfindən işğalı illərində pambığın istehsalı azaldı.

Qədimdən bəri ancaq Abşeron yarımadasında yetişdirilən zəfəran təsərrüfatı da kəskin tənəzzül dövrü keçirirdi. Bu vəziyyət onunla izah olunurdu ki, zəfəran təsərrüfatının mənafeyi çarizmin iqtisadi siyasətinin ümumi xəttinə uyğun gəlmirdi. Yerli əhali və tacirlərin gəlir mənbəyi olan bu sahə çar xəzinəsinə heç bir xeyir vermirdi.

30-40-cı illərdə üzümçülük və bağçılıqda nəzərəçarpacaq artım müşahidə olunurdu. Lakin nə üzümçülük, nə də bağçılıq bu dövrdə hələ də yüksək əmtəə istehsalı xarakteri almamışdı. Bostançılıq isə yerli əhalinin ehtiyaclarını ödəyir və zəif inkişaf etmiş əmtəə sahələrindən biri olaraq qalırdı.

Sənətkarlıq. Ticarət. Şəhərlər. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda sənət və peşə sahələrinin bir çoxu (dərzilik, papaqçılıq, keçəçilik, palançılıq və s.) kəndli əhalisinin ehtiyaclarını ödəyirdi.

Sənətkarlığın xırda əmtəə istehsalı pilləsinə yüksələ bilən və bazar üçün məmulat istehsal edən sahələrindən toxuculuq (ipək mallar), xalçaçılıq, gəbəçilik, metal emalı – misgərlik, silah istehsalı, boyaqçılıq, dabbaqlıq, tikinti materialları (kərpic-kirəmit) istehsalı, şərabçılığı və s. göstərmək olar. Lakin bu sənətkarlıq sahələrindən bəziləri hələ bütünlükdə bazarın tələblərini ödəyə bilmirdi.

XIX yüzilliyin birinci yarısında Azərbaycanda ailə istehsalında yundan məmulat hazırlanması əsas rol oynayırdı. Buna gırə də gəbə-xalça toxunması işi ölkənin hər yerində inkişaf etmişdi. Xalçaçılığın

inkişafı üçün əsas amillərdən biri də Azərbaycanda təbii rəng verə bilən bitki və bitki köklərinin çoxluğu idi.

Azərbaycanın bəzi yerlərində - Qarabağ və Qubada xalçalar xüsusi iri emalatxanalarda toxunurdu. Lakin bu sahədə ev istehsalı xüsusilə geniş yayılmışdı. Azərbaycanda xalçaçılığın ən çox inkişaf etdiyi region Qarabağ idi. Burada elə bir qəza tapmaq olmazdı ki, orada müxtəlif növ gəbə-xalça toxunmasın. Xalça istehsalı ilə əslində ölkənin əksər əyalətlərində - Nuxa və Zaqatala, Gəncə və Qazax, Lənkəran və Abşeronda da məşğul olurdular. XIX yüzilliyin 40-cı illərindən başlayaraq, ölkədə yaranmış nisbətən əlverişli şəraitlə əlaqədar olaraq, xalça istehsalı artıq məişət tələblərini ödəməklə yanaşı, daxili və Ümumrusiya bazarına çıxarılır, hətta əcnəbi ölkələrə ixrac edilirdi.

Azərbaycan şəhərləri içərisində sənətkarlığın inkişafı və sənətkarların sayı baxımından Şamaxı və Nuxa xüsusi yer tuturdu. Azərbaycanda inkişaf etmiş sənət sahələrindən biri də metalın kustar üsulla emalı idi. Burada misgərlik xüsusi yer tuturdu. XIX yüzilliyin 30-cu illərində Gəncədə 6 misgər emalatxanası var idi. Misgərliyin əsas mərkəzi Lahıc kəndi idi. Lahıcın təbii-coğrafi şəraiti burada sənətklarlıq və peşələrin inkişafını labüd etmişdi.

1830-cu ildə Lahıcda 50-dən çox misgər emalatxanası vardı. İldə orta hesabla 20 min manatlıq mis qablar və digər əşyalar hazırlanırdı. Misdən hazırlanan məmulat təkcə Cənubi Qafqazda deyil, İran və Türkiyədə də həvəslə alınırdı.

Sənətkarlığın geniş yayıldığı sahələrdən dulusçuluğu qeyd etmək lazımdır. 30-cu illərdə Azərbaycan şəhərlərində 50-yə qədər dulusxana vardı. Onlarda müxtəlif növ saxsı qablar hazırlanırdı.

Ağac emalı həm şəhərlərdə, həm də dağ və dağətəyi rayonlarda əhalinin əsas məşğuliyyətindən birini təşkil edirdi. Ağacdan müxtəlif

sandıqlar, mücrülər, qəlyanlar, kənd təsərrüfatı alətləri, eləcə də nadir şəbəkələr hazırlanırdı.

XIX yüzilliyin 40-cı illərində Azərbaycanda sənətkarların və peşəkarların sayı 12 min nəfərdən çox idi. Onların əksəriyyəti şəhərlərdə cəmlənmişdi. Artıq XIX yüzilliyin birinci rübündə ipəktoxuma Şamaxıda manufaktura mərhələsinə daxil olmuşdu. Bu müəssisələrin hər birində orta hesabla 9 nəfərə qədər toxucu işləyirdi. Həmin dövrdə sırf kapitalist manufakturası da yaranmağa başladı.

1827-ci ildə Nuxa yaxınlığındakı Xanabad kəndində iri ipək emalı fabriki işə salındı. Bu, nəinki Azərbaycanda, həm də Cənubi Qafqazda ilk kapitalist manufakturası idi.

1836-cı ildə Xanabad müəssisəsi xəzinənin ixtiyarından "Cənubi Qafqazda ipəkçiliyi və ticarət sənayesini yayan cəmiyyət"in əlinə keçdi. 571,4 min manat kapitalı olan bu səhmdar kampaniyası dövlətin təşəbbüsü ilə təsis edilmişdi."Cəmiyyət"in Nuxada ipək emal edən başqa bir müəssisəsi də var idi. Bu müəssisəni də xəzinə səhmdar cəmiyyətinə vermişdi.

Azərbaycanda inkişaf etmiş manufaktura istehsalı bir növ mərkəzi Rusiya fabriklərinin əlavəsi rolunu oynayırdı. Başqa sözlə desək, rus fabrikləri ucqarlardan yarımfabrikat almaqla istehsal dövriyyəsini başa çatdırırdı. Ucqarlarda isə istehsal dövrü natamam qalır, istehsalın hansı fazasındasa yarımçıq saxlanılırdı. Müstəmləkə iqtisadiyyatına xas olan xüsusiyyətlərdən biri də məhz bu idi.

Kənd təsərrüfatının elə məhsulları vardı ki, onları uzaq məsafəyə aparmaq sərfəli deyildi. Həmin məhsulların (barama, üzüm, süd və s.) uzun zaman yolda olması onların keyfiyyətinin və əmtəə dəyərinin aşağı düşməsinə səbəb olurdu. Çar hökuməti bu növ məhsulların ilkin emalının yerlərdə keçirilməsində maraqlı idi.

Azərbaycan sənayesində manufaktura mərhələsi uzunömürlü olmamışdır. Kapitalist inkişafının bu forması yalnız ipək emalı

sənayesində bir əsrə qədər davam etmişdir. Deməli, ipək emalı sənayesi sənaye kapitalizmi inkişafının bütün mərhələlərini keçə bilmişdi.

Azərbaycan iqtisadiyyatına ciddi zərbə endirən iki Rusiya-Qacar müharibəsi, çarizmin Cənubi Qafqazda ticarət və gömrük siyasətinin qeyri-sabitliyi, Azərbaycanda müxtəlif çəki, ölçü və pul sistemlərinin tətbiq edilməsi ticarətə mənfi təsir göstərən amillər idi. Lakin buna baxmayaraq, bu dövrdə Azərbaycan ticarəti, xüsusən onun xarici ticarət əlaqələri müəyyən inkişaf və genişlənmə yolunda idi. 1810-cu ildə Bakının ticarət dövriyyəsi 500 min manat idisə, 1827-ci ildə bu, 5.205 min manata qədər artmışdı. Bu dövrdə Azərbaycanın mərkəzi Rusiya ilə ticarət əlaqəsi inkişaf etməkdə davam edirdi. Azərbaycandan mərkəzi Rusiyaya aparılan malların arasında öz dəyərinə görə mühüm yer tutan ipək və ipək məmulatının miqdarı xeyli artmışdı. Azərbaycanda ipək istehsalının mərkəzi olan Şəki əyalətindən 1822-1828-ci illərdə mərkəzi Rusiyaya 2.066 min manatlıq 31 min pud ipək aparılmışdı. Həmin illərdə Rusiya fabriklərində istehlak edilən ipəyin 37 %-ə qədəri Şəki ipəyinin payına düşürdü. Azərbaycanın digər rayonlarından da mərkəzi Rusiyaya xeyli ipək aparılırdı. Belə ki, 1823-1829-cu illərdə Şirvan əyalətindən oraya 8,3 min pud, Qarabağ əyalətindən isə hər il gümüş pulla 1 mln. manatlıq ipək aparılmışdı.

Mərkəzi Rusiyadan Azərbaycana gətirilən bir sıra mühüm malların, xüsusilə pambıq-parça məmulatı, xırdavat malları, qab-qacaq, dəmir, dəmir məmulatı və s. digər sənaye mallarının miqdarı da çoxalır və yerli əhalinin tələbatının ödənilməsində onların əhəmiyyəti artırdı.

Bakının nefti, duzu və zəfəranı, Talış əyalətinin düyüsü, Qubanın, Ordubadın, Yelizavetpol və Zaqatalanın meyvəsi, Şəkinin

və Şamaxının ipəyi və ipək parçaları, Lahıcın mis qabları, Qubanın xalçaları və s. yerlərin spesifik malları özünə yeni bazarlar tapırdı.

Əlverişli coğrafi mövqedə yerləşməklə, həm də neft kimi sərvətə malik olmaqla Bakı şəhəri Mərkəzi Rusiya və İran mallarının Azərbaycan rayonlarında yayılmasında və yerli məhsulların isə oraya aparılmasında həlledici əhəmiyyət kəsb edirdi.

Şəhərlərdə ticarət müəssisələrinin sayı və dövriyyəsi sürətlə çoxalırdı. 40-cı illərin əvvəlində Şamaxı və Nuxa şəhərlərinin hər birində 700-dən çox, Şuşada və Yelizavetpolda müvafiq surətdə 453 və 430, Bakıda 360, Naxçıvanda 310 ticarət müəssisəsi var idi.

Şəhərlərdə ticarətlə məşğul olanların da sayı ilbəil artırdı. 1832-ci ildə Bakıda ticarətlə 233 nəfər, 1849-cu ildə isə 322 nəfər məşğul olurdu. Bunların bir qismi fabrik-zavod məmulatı satışı ilə məşğul olurdu.

Bakı limanının 100 min manatlara bərabər dövriyyəsi yerli tacirlərin sürətlə varlanmasına və kapital yığımının artmasına səbəb olurdu. Nuxa ipək ticarətinin mərkəzi kimi tacirlərin diqqətini xüsusilə cəlb edirdi. 1830-cu ildə burada ipək ticarəti ilə 40 tacir məşğul olurdu. İpək almaq üçün Nuxaya Tiflisdən, Şuşadan, Ordubadın Əylis kəndindən və digər yerlərdən 1150 min manata qədər nəğd pul gətirlirdi. 40-cı illərdə Nuxanın ipək ticarəti ilə məşğul olan 6 taciri daimi olaraq Moskvada yaşayırdı.

40-cı illərin əvvəllərində Şamaxı şəhərində tacirlərin dövriyyədə olan kapitalı 848 min manat, Bakıda 527 min manat, Nuxada 503 min manat, Şuşada 374 min manat və Lənkəranda 94 min manat idi.

1831-ci il iyunun 3-də müəyyən edilmiş yeni ticarət tarifi (yasaqlı tarif) Avropa mallarının Cənubi Qafqaza axınını yüksək gömrük haqqı vasitəsilə kəsmiş oldu. Bu tarifə görə Avropadan gətirilən mallar Cənubi Qafqazda topdan satılmalı idi və həmin mallar üçüncü ölkəyə aparıla bilməzdi. Bu da avropalılar üçün sərfəli olmadığı bu

regiona mal gətirilməsini kəskin azaltdı.Nəticədə Mərkəzi Rusiyadan gətirilən pambıq-parça məmulatının miqdarı ilbəil artmağa başladı. 1831-ci ildə Rusiyadan buraya 167 min manatlıq pambıq-parça məmulatı gətirilmişdisə, 1850-ci ildə bu rəqəm 712 min manata çatmışdı. Rusiya dəmirinə və rəngarəng qablarına burada ehtiyac var idi. 1838-ci ildə Rusiyadan Azərbaycana 146 min manatlıq, 1847-ci ildə 189 min manatlıq dəmir və dəmir məmulatı gətirilmişdi. Mərkəzi Rusiyadan Azərbaycana dəmir və dəmir məmulatı, əsasən Bakı limanı vasitətilə gətirilirdi.

Azərbaycanın İranla ticarət əlaqələri ilbəil genişlənirdi. Azərbaycanın neftinə, duzuna, zəfəranına və s. məhsullarına İranda son dərəcə böyük tələbat var idi. İranın da kustar məmulatı və bir sıra kənd təsərrüfatı məhsulları burada yaxşı alınırdı.

Çar hökuməti Rusiyanın İranla ticarətinin inkişafına xüsusi əhəmiyyət verirdi. Azərbaycanın İranla ticarəti Bakı, Cavad, Salyan, Lənkəran, Cəbrayıl, Naxçıvan və Ordubad gömrükxanalarında qeydiyyatdan keçirilirdi. 1833-cü ildə həmin gömrükxanalar vasitəsilə İrandan Azərbaycana 1058 min manatlıq mal gətirilmişdi. Azərbaycanın İranla ticarətində yenə də Bakı xüsusilə böyük rol oynayırdı.

Daxili gömrük qaydasının - rəhdarın ləğvi 1831-ci il tarifində nəzərdə tutulsa da, o qəti olaraq çarizmin 1836-cı il 6 iyun fərmanı ilə ləğv olundu .Bu da daxili ticarəti canlandırdı.

XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda 9 şəhər var idi: Şamaxı, Bakı, Yelizavetpol, Nuxa, Şuşa, Quba, Lənkəran, Naxçıvan və Ordubad. Ən böyük şəhər Şamaxı şəhəri idi. Bununla belə Şamaxı xanlığı ləğv olunanadək şəhər ikinci dərəcəli rol oynayırdı, xanın iqamətgahı Fitdağ qalası idi. 1821-ci ildə rus hakimiyyət orqanları tərəfindən Şamaxının bərpa edilməsi planı işlənib hazırlandı, 1824-cü ildə isə o, köhnə şəhərin yerində yenidən tikildi. Fitdağ qalasının

iqamətgah rolunun ləğv edilməsi ilə həmin ildə Şamaxı rəsmi olaraq Şirvan əyalətinin, 1840-cı ildən 1846-cı ilədək Xəzər vilayətinin, 1846-cı ildən 1859-cu ilədək Şamaxı quberniyasının mərkəzi oldu. Şəhərin bərpa edilməsi ilə onun əhalisi də artmağa başladı.

Komendant sisteminin tətbiqi ilə hərbi, mülki, məhkəmə və maliyyə müəssisələri: hərbi komendantın dəftərxanası, şəhər polisi, əyalət və yaxud şəhər məhkəməsi, xəzinə şəhərlərdə - əyalət mərkəzlərində cəmləşdirildi. Bundan əlavə, 1824-cü ildə Şuşada və Dərbənddə komendantların həm hərbi, həm də mülki işlər üzrə tabe olduqları Cənubi Qafqaz müsəlman əyalətlərinin hərbi-dairə rəisinin dəftərxanaları təsis edildi. Gəncə şəhəri həmçinin ali rütbəli ruhanilərin yaşadığı mərkəz oldu.

Azərbaycan şəhərlərində çar hökuməti şəhərin idarə olunmasını da şəhər polisinə həvalə etdi. Şəhər polisinin tərkibinə xüsusi pristavlar, məhəllə nəzarətçiləri, kovxa və mühafizə dəstəsi daxil idi. Polisin fəaliyyətində mülki əhalinin nümayəndəsi kimi "ictimaiyyətin nümayəndələri" deyilən iki deputat iştirak edirdi.

Deputatlar xüsusi pristavlarla birlikdə şəhər evlərinin, ticarət dükanlarının, karvansaraların, sənətkar emalatxanalarının hesabını aparır, pul vergilərinin bölüşdürülməsində iştirak edirdi.

Gəncə və Şamaxının böyük şəhərlər olması ilə əlaqədar bu şəhərlərdə qalabəyindən, iki xüsusi pristavdan, dörd məhəllə nəzarətçisindən və 16 polisdən ibarət xüsusi şəhər polisi təsis edilirdi. Orta şəhərlərdə polisin tərkibinə qalabəyi, xüsusi pristavlar və deputatlar, əhalisi az olan şəhərlərdə - qalabəyi, məhəllə nəzarətçiləri və deputatlar, ştata daxil olmayan şəhərlərdə və Salyan kimi kiçik yaşayış məntəqəsində sahə iclasçıları və məhkəmə nəzarətçiləri, Zaqatalada qəza rəisi daxil idi.

Azərbaycan şəhərlərinin iqtisadi həyatının əsasını sənətkarlıq istehsalı, ticarət və əkinçilik təşkil edirdi. Şəhərlərin müəyyən sahə

üzrə ixtisaslaşması getdikcə güclənirdi. Məsələn, Gəncə şəhəri ipək və pambıq parçaların boyanması ilə, Şamaxı şəhəri ipək parça və baş örtükləri istehsalı ilə, Şəki şəhəri gözəl xalçaların hazırlanması ilə, Nuxa şəhəri ipək, mahud məxmər parçalar üzərindəki tikmələrlə məşhur idi.

Şəhərlərin müəyyən hissəsi kənd təsərrüfatı ilə məşğul olurdu. Şəhər sakinləri yalnız əkin sahələri, bağ və bostanlara malik olmayıb həm də heyvan saxlayırdılar. Məsələn, Quba şəhərinin sakinləri hər il 2 min puda qədər taxıl, min puda qədər arpa yığırdılar. Onların 300 baş iribuynuzlu mal-qarası və 3 min başa qədər qoyunu var idi.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra feodal torpaq mülkiyyətinin iki əsas forması – xəzinə (divan torpaqları) və xüsusi sahibkar torpağı formaları mövcud idi.Hələ işğalın gedişində əvvəllər xanlara, bəylərə məxsus olan böyük torpaq sahələri çar xəzinəsinin sərəncamına keçirdi. Bundan başqa, Azərbaycan kəndində kəndlilərin icmalıqla istifadə etdikləri və xəzinənin sərəncamında olan torpaqlar da vardı ki, bunlar da divan torpaqları adlanırdı.Bu torpaqlar da işğaldan sonra çar xəzinəsinin sərəncamına verildi.

Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsindəki dövrdə hakim feodallar sinfinin iyerarxiya pilləsinin başında xanlar dururdular. Onların ardınca vassallar – yerli sultanlar, məliklər, bəylər, ağalar gəlirdi. Ali ruhani nümayəndələri yerli feodallar içərisində böyük nüfuza malik idilər. Lakin Azərbaycandakı feodal torpaq mülkiyyəti iyerarxiyası bəzi Qərbi Avropa ölkələrində olduğu kimi, çoxpilləli deyildi.

Xan üsuli-idarəsinin ləğvi və onu komendant üsuli-idarəsi ilə əvəz olunması ilə birlikdə iyerarxiya təşkilatı da öz əhəmiyyətini itirdi, bəylərin iri hakim xanlardan vassal-asılı münasibətləri aradan

qalxdı. Feodal torpaq mülkiyyətinin köhnə formaları, məsələn, tiyul, mülk, mülki-xalisə və vəqf qalmaqda davam edirdi.

Çar hökuməti tiyul torpaqların bağışlanılmasının əvvəllər burada mövcud olan qaydasını əsasən qoruyub saxladı. XIX yüzilliyin birinci yarısında tiyulların bəxşiş edilməsi üçün əsas səbəb rolunu feodalların hərbi və digər xidmətləri, onların çarizmə sədaqəti oynayırdı. Bu, əyalət komendantlarının çoxsaylı "bəxşetmə fərmanlarında" və onların hərbi dairə rəislərinə sərəncamlarında əks olunmuşdur. Məsələn, Qafqaz ordusunun baş komandanı Tormosov 1811-ci ildə Quba əyalətinin 218 kəndli həyəti olan Kebxanlı, Mirzəkənd, Xudat, Padar və digər dövlət kəndlərinin kollegiya assessoru Ağa bəy Sadıqova bağışlanması barədə göstəriş vermişdi.

Şirvan komendantı 1822-ci ildə 4 kəndin Mustafa bəyin istifadəsinə verilməsi barədə onun adına fərman imzalamışdı. Belə bəxşişetmələr nəticəsində feodal əksər hallarda torpaq yox, ondan vergilər götürmək hüququ alırdı. Bəxşetmə fərmanlarında torpağın bağışlanmasına çox nadir hallarda rast gəlinirdi.

Tiyul torpaqları bir qayda olraq, feodalın ömürlük sahibliyində olurdu. Bu torpaqlar satmaq və bağışlamaq obyekti ola bilməzdi; ancaq hüquqi varisin özünün çarizm qarşısında xidmətlərə malik olduğu halda irsən keçə bilərdi. Tiyul barəsində sərəncam vermək hüququ müstəsna olaraq çar hökuməti idarələrinə məxsus idi. Tiyul feodalın tam xüsusi mülkiyyəti deyildi, feodal torpaq sahibliyi forması olub, şərti xarakter daşıyırdı.

Mülk formasında geniş yayılmış şəxsi feodal torpaq mülkiyyəti də mövcud idi. Mülk irsi feodal torpaq mülkiyyəti forması olub, satıla, başqasına güzəştə gedilə, bağışlana bilərdi. Mülk sahibi onun tam sahibi kimi "mülkədar" adlanırdı. Təkcə torpaq deyil, su da (əgər suvarma arxı xüsusi şəxsin – feodalların vəsaiti hesabına qazılırdısa) mülk ola bilərdi. Bu halda su mülkədarın mülkünə çevrilir və

mülkədar su və bu su ilə suvarılan torpaqlar üçün bütün kəndlilərdən öz xeyrinə vergi toplaya bilərdi.

Mülki-xalisə mülkün növlərindən biri idi. Bəylərə məxsus olan mülki-xalisə torpaqları onların tam xüsusi mülkiyətində idi. Mülki-xalisə torpaqlarında yaşayan kəndlilərdən yığılan bütün vergilər sahibkarın ixtiyarına keçirdi. Mülki-xalisə torpaqları keçmiş xanlıqların – Lənkəran, Şəki, Şirvan, Qarabağ və Quba əyalətlərinin ərazilərində mövcud idi. Mülki-xalisə ən çox Lənkəran əyalətində yayılmışdı.

Vəqf torpaqlarının xüsusi çəkisi cüzi idi. Lakin Şuşa məscidləri böyük miqdarda torpağa malik idilər. Bibiheybət şeyxlərinin Bakı yaxınlığındakı iri torpaq sahələri də vəqfə aid idi.

XIX yüzilliyin I yarısında çarizmin Azərbaycandakı aqrar siyasəti iki mərhələdən ibarət olmuşdur: Birinci mərhələ Şimali Azərbaycanın Rusiya tərəfindən istilasının başa çatmasına qədər – 1828-ci ilədək istila dövrü, ikinci mərhələ bundan sonrakı illəri əhatə edir.

Çarizmin bu dövrdəki torpaq siyasəti öz əksini 1818-ci ildə verilmiş ağalar "Əsasnamə"sində tapmışdır. Qazax, Şəmşəddil və Borçalı distansiyalarının ağalarına şamil edilmiş Əsasnamə buna əsaslanırdı ki, bütün ağalar kəndlərin sahibkarları deyildir və Rusiyaya göstərdikləri xidmətlərin müqabilində bu kəndləri ancaq "idarə" edirdilər.

1830-cu il reskripti və yerli feodallara tiyul hüququnda torpaq paylanması feodallarla çarizmin ittifaqını yaratdı. Doğrudur, bir qədər sonra çar hökuməti bu ittifaqa zidd müəyyən addımlar da atdı, 1841-ci il qanununu verdi. Bu qanunla Qazax və Şəmşəddil distansiyaları ağalarının torpaqları xəzinənin xeyrinə müsadirə edildi. Lakin rus zadəganlarının bu yerlərə keçmək istəməsi, habelə Azərbaycan xan və bəylərinin güclü müxalifəti və narazılığı üzündən bu siyasət

müvəffəqiyyətsizliyə uğradı və hökumət yerli feodallarla pozulmuş ittifaqı bərpa etməyə tələsdi. 1846-cı il 6 dekabr tarixli reskripti yerli feodallara münasibətdə çarizmin bu yeni siyasətinin təzahürü oldu. Bu qanun tiyuldarlara təntənəli surətdə bildirirdi ki, çarın mərhəməti sayəsində onlar ixtiyarlarında olmuş bütün torpaqların tamhüquqlu irsi mülkiyyətçilərinə çevrilirdi.

Əhalinin sosial strukturu. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycan əvvəlki əsrlərdə olduğu kimi, aqrar ölkə olaraq qalırdı. Feodalizm quruluşunun hökmran olduğu ölkədə cəmiyyət feodallar və kəndlilər sinfinə bölünmüşdü.Bu siniflər özləri də təbəqələrə bölünürdü.Bundan başqa ayrıca sənətkar, tacir, ruhani təbəqələri də var idi.Cəmiyyətin əsas məhsuldar qüvvəsi feodaldan asılı olan kəndli sinfi idi.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra feodal asılı kəndlilər iki qrupa: xəzinə (dövlət) və xüsusi sahibkar kəndlilərinə bölünürdülər. Çar hökuməti torpaqların əksər hissəsini öz əlində cəmləşdirmişdi.

Azərbaycanın bütün əyalətlərində dövlət kəndliləri sahibkar kəndlilərindən sayca xeyli çox idi. Bu baxımdan ancaq Qarabağ əyaləti istisnalıq təşkil edirdi. Burada xüsusi sahibkar torpaqları, müvafiq olaraq həm də xüsusi sahibkar kəndliləri çoxluq təşkil edirdi.

Dövlət kəndliləri rəiyyət və rəncbərlərdən ibarət idi. Rəiyyətlər xəzinə kəndlilərinin əksər kütləsini təşkil edirdilər. Dövlət rəiyyətləri icmalar (camaatlar) halında yaşayır, bir qayda olaraq, dövlətə məxsus pay torpağı sahələrindən istifadə edir və özlərinin istehsal vasitələrinə (iş heyvanları, kənd təsərrüfatı alətləri) malik idilər. Onlar torpaqla kifayət qədər təmin edilməmişdilər. Dövlət rəiyyətləri çox vaxt aztorpaqlılıqdan əziyyət çəkir, bu da xüsusən əkin torpaqlarına münasibətdə hiss olunurdu. Dövlər kəndlilərinin əkin torpaqlarının çatışmazlığı, demək olar ki, bütün əyalətlərdə müşahidə edilirdi.

Dövlət Əmlak Palatasının rəsmi məlumatlarına görə, hər bir dövlət rəiyyətinə düşən orta pay torpağının sahəsi təxminən 3-3,5 desyatinə bərabər idi. Halbuki hökumət orqanlarının öz hesablarına görə, təsərrüfatla məşğul olmaq üçün hər kəndliyə ən azı 5 desyatin torpaq sahəsi lazım idi. Dövlət kəndliləri inzibati cəhətdən Dövlət Əmlak Nazirliyinə tabe idilər.

Dövlət rəiyyətləri xəzinəyə çoxlu vergi ödəyir və mükəlləfiyyətlər daşıyırdılar. Bu vergilər içərisində natura ilə ödənilən vergi daha geniş yayılmışdı. Vergi sistemindəki bəzi dəyişikliklər hələ 1819-cu ildə Şəki əyalətində həyata keçirilmişdi. Natural vergilərin yerinə pul vergiləri qoyulmuşdu. "Malcəhət" və "darğalıq" da pul vergilərinə çevrilmişdi. Əgər XIX yüzilliyin 20-ci illərində Şəki əyalətində ərzaqla toplanılan vergi çoxluq təşkil edirdisə, 40-cı illər ərəfəsində natural və pul formalarının nisbəti demək olar ki, eyni idi.

Vergilərin bölünməsi sistemi və onların yığılması üsulu da bir-birindən xeyli fərqlənirdi. Məsələn, Şirvan əyalətində vergilər hər kənd, Qarabağ əyalətində hər bir kəndli həyəti, Lənkəran əyalətində isə mahallar üzrə təyin olunurdu. Bütün bunlar yerli hakimiyyət orqanlarının özbaşınalıqları üçün geniş imkanlar açırdı.

30-cu illərdə keçirilmiş dəyişikliklər nəticəsində Qarabağ və Talış əyalətlərində pul rentasının xüsusi çəkisi xeyli artdı.

Dövlət kəndlilərinin az hissəsini rəncbərlər təşkil edirdi. Dövlət rəncbərləri başlıca olaraq üç qəzada – Talış, Şəki, Şirvanda cəmləşmişdilər. Talış qəzasında çəltik plantasiyalarında çalışan rəncbərlər əkər adlanırdılar. Dövlət əkərləri Talış əyalətindəki dövlət kəndlilərinin 6%-ni təşkil edirdi.

1844-cü ildə Şirvan əyalətindəki rəncbərlər qəzanın bütün kəndlilərinin təxminən 6%-ni təşkil edirdilər.

Rəncbərlərin əksəriyyəti torpaqsız olsalar da, kiçik pay torpaqları olan rəncbərlər də var idi. Rəncbərlərin istismarı başlıca olaraq biyar formasında həyata keçirilirdi. Onlar rəiyyətlərə nisbətən daha amansız istismara məruz qalırdılar.

Dövlət rəncbərləri xəzinə tərəfindən qeyri-insani istismara məruz qalırdılar. Talış qəzasında bütün əkərlər ildə hər ailədən gümüş pulla 2 manat zemstvo vergisi ödəməli idilər; bu mükəlləfiyyət onların üzərinə 1840-cı ildə Cənubi Qafqazda mülki idarəçiliyin yenidən qurulması ilə əlaqədar olaraq qoyulmuşdu.

XIX yüzilliyin 40-cı illərində xüsusi sahibkar kəndliləri Xəzər vilayətində bütün kənd əhalisinin 20,6%-ni təşkil edirdi. Dövlət kəndliləri kimi, sahibkar kəndliləri də rəiyyət və rəncbərlərə bölünürdü. Sahibkar kəndlilərin pay torpağı orta hesabla 3-3,6 desyatinə bərabər idi .

Çarizmin müstəmləkəçi köçürmə siyasəti sahibkar kəndlilərin vəziyətinə ağır təsir göstərirdi. Sahibkar rəiyyətləri aztorpaqlılıqdan, suvarma suyunun çatışmazlığından əziyyət çəkir, çox vaxt ağır şərtlərlə çar xəzinəsi və ya yerli feodallardan torpaq icarəyə götürmək məcburiyyətində qalırdılar.

Feodal vergisi rəiyyətlərdən hər üç formada – işləyib ödəmə, natural və pul formalarında alınır, özü də natural forma üstün mövqe tuturdu.

XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanda bəy rəiyyətlərinin vergi və mükəlləfiyyətlərinin sayı 35-ə çatırdı. Bu çoxsaylı mükəlləfiyyətlərin içərisində rəiyyətlər üçün ən ağır və zəhmətlisi işləyib ödəmə mükəlləfiyyəti idi. Bundan əlavə, rəiyyətlər elliklə ildə 3 gün feodal üçün işləməli idilər. Azərbaycan qəzalarının əksəriyyətində bu mükəlləriyyət əvrəz, Şəki qəzasında isə məci adlanırdı. Rəiyyətlər biyar və əvrəzdən başqa, fərdi surətdə digər biyar işlərini də yerinə yetirirdilər. Sahibkar rəiyyətlərinin geniş yayılmış

vergiləri malcəhət, salyana, darğalıq, at arpası və s. idi. Bütün bunlar natural xarakter daşıyırdı. Malcəhət dənli bitkilər məhsulunun $^{1}/_{10}$, pambıq və ipək məhsulunun isə $^{1}/5$ hissəsi həcmində toplanırdı.

Darğalıq mükəlləffiyyəti də əsasən natural xarakter daşıyırdı. Darğalığın ancaq cüzi hissəsi pulla yığılırdı. Darğalığın həcmi dəyişkən olur, çox vaxt məhsulun 20%-dək artırdı.

Sahibkar kəndliləri bəy atlarının yemlənməsi üçün feodallara "at arpası" adlanan daha bir natural mükəlləfiyyət icra etməyə borclu idi. Rəiyyətlərin məhsulunun 20%-ə qədəri at arpasının ödənilməsinə gedirdi. Vergilərin toplanmasında vahid qayda yox idi, hər bir əyalət üçün hər feodalın özünün kəndliləri istismar etmək sistemi mövcud idi. Rəiyyətlərin pul mükəlləfiyyətləri də (cütbaşı, bağbaşı, toy pulu və bayramlıq) rəngarəng idi. Cütbaşı – cütə qoşulan öküzlər üçün alınırdı; bağbaşı – meyvə, üzüm və tut bağları üçün yığılan vergi idi; toy pulu hər toya görə müxtəlif məbləğlərdə alınırdı.

Feodalların özlərinə də ixtiyarlarında olan kəndlərdən rəncbər tələb etmək hüququ verilmişdi. Bunlar rəncbərlərin sıralarının doldurulmasının "qanuni yolları" idi. Lakin bəzən feodallar rəiyyəti zorla torpaq sahələrindən məhrum edir, onların özlərini isə rəncbərlərə çevirirdilər. Rəncbər sıralarının genişləndirilməsinin daha bir yolu mövcud idi: feodallar paydar kəndliləri də zorla rəncbərlərə çevirirdilər. Rəncbərlik geridə qalmış feodal institutu idi. Rəncbər əməyi az məhsuldar olduğundan, məhsuldar qüvvələrin inkişafına maneə törədirdi. XIX yüzilliyin ortalarına yaxın şəhər əhalisi Şimali Azərbaycanın ümumi əhalisinin təxminən 10%-ni təşkil edirdi.Şəhər əhalisinin sosial tərkibi rəngarəng idi. Şəhərlərdə bütövlüklə 4 minə yaxın bəy, 300 xan ailəsi üzvləri, 5 min nəfər ruhani yaşayırdı. Onlar hamısı birlikdə şəhər əhalisinin ümumi sayının 9%-ni təşkil edirdilər. Şəhərlərdə sənətkarların ümumi sayı 12 min, tacirlər isə 7 min nəfərə yaxın idi.

IX FƏSİL
KOMENDANT İDARƏ SİSTEMİ.
XIX YÜZİLLİYİN 40-CI İLLƏRİNİN İSLAHATLARI.

Komendant idarə sistemi (1804-1840). Şimali Azərbaycanın Rusiya tərəfindən istila edilməsinin gedişində hərbi-feodal inzibati idarə sistemi yaradılmağa başladı. Rus qoşunlarına müqavimət göstərən xanlar hakimiyyətdən məhrum edilir, xanlıqlar isə başda komendant olmaqla dairə və əyalətlərə çevrilirdilər. Komendantlar Qafqazdakı rus ordusunun Baş komandanı tərəfindən mayor və daha yüksək rütbəli rus zabitlərindən təyin olunurdu. Məsələn, Gəncə xanlığı hərbi cəhətdən tabe edilən kimi ləğv edildi; onun yerində başında rus zabiti dayanan hərbi dairə yaradıldı. Bakıda da əvvəlcə belə oldu, sonra isə əyalətə çevrildi.

Bəzi hallarda komendant idarə sistemi tətbiq edilməzdən əvvəl qısa müddətə keçid sistemi yaradılırdı. Quba xanlığı 1806-cı ildə işğal edildikdən sonra rus hərbi dairələrinin nəzarəti altında yerli bəylərdən təşkil olunmuş müvəqqəti orqan tərəfindən idarə olunan əyalətə çevrildi. Yalnız 1810-cu ildə hakimiyyət komendanta verildi.

Ölkənin yerdə qalan hissəsində - Qarabağ, Şəki, Şirvan və Lənkəran xanlıqlarında işğalın birinci mərhələsində əvvəlki sistem və idarə aparatı saxlanılmışdı. Adları çəkilən xanlıqlar Rusiya imperiyası sistemində asılı dövlət qurumları vəziyyətində idilər. Xanların daxili idarəçilikdə hüquqları əvvəlki həcmdə saxlanılsa da, onların səlahiyyət və hakimiyyətləri xeyli dəyişikliyə məruz qalmaqla məhdudlaşdırıldı. Belə ki, xanlıqların ərazisində rus hərbi qüvvələri yerləşdirilir, hakim vassalların özləri isə çar generalları siyahısına daxil edilir və Qafqazdakı Baş komandanın tapşırıqlarını yerinə yetirirdilər. Bununla belə, 20-ci illərə yaxın çarizm öz vassallarının xidmətindən imtina etməyi lazım bildi və bütün xanlıqlar ləğv edildi.

Şəki xanlığında 1819-cu ildə, Şirvan xanlığında 1820-ci ildə, Qarabağ xanlığında 1822-ci ildə, Lənkəran xanlığında 1826-cı ildə köhnə idarəçilik ləğv edilərək komendantlıqlarla əvəz edildi.

Şimali Azərbaycan ərazisində 6 əyalət – Talış, Şirvan, Şəki, Qarabağ, Bakı və Quba əyalətləri, Yelizavetpol hərbi dairəsi, Car-Balakən vilayəti (1830-cu ildə yaradılmışdı) və iki distansiya: Qazax və Şəmşəddil distansiyaları yaradıldı. Naxçıvan və İrəvan - əzəli Azərbaycan torpaqları çar I Nikolayın 1828-ci il 21 mart tarixli fərmanı ilə yaradılmış "Erməni vilayəti"nin tərkibinə daxil edildi.

Əyalətlər iki dairədə birləşdirildi. Şəki, Şirvan, Qarabağ və Talış əyalətləri Şuşada yerləşən "Müsəlman dairəsi"nə, Bakı və Quba əyalətləri mərkəzi Dərbənddə yerləşən Dağıstan hərbi idarəsinə daxil idilər.

Xan hakimiyyəti ləğv edildikcə, xanların və düşmən əhvali-ruhiyyəli bəylərin bütün əmlakı dövlətin ixtiyarına keçirdi. Bu əmlakın bir hissəsini dövlətin özü istismar edir, digər hissəsini isə iltizama verirdi. Hər iki halda komendant təsərrüfat hissəsinin başçısı kimi çıxış edirdi. Komendant xəzinə torpaqlarından vergilərin vaxtında toplanmasına, həmçinin sahibkar kəndlilərinin dövlət mükəlləfiyyətlərini yerinə yetirməsinə göz qoyurdu. Gömrük pulu (rəhdari) və qapan pulu (mizan) vergilərinin verilməsinə nəzarət də komendantın səlahiyyətinə daxil idi.

Komendantlar yerli feodalların siyasi etibarlılığını, onların çarizmə necə xidmət etdiklərini diqqətlə izləyirdilər. Onlardan özlərini mütləqiyyətin sadiq xidmətçiləri kimi göstərənlər komendant tərəfindən tiyul hüququ ilə torpaqlarla, rəncbərlərlə bolluca təmin edilirdilər. Komendant polisin və məhkəmənin də fəaliyyətinə rəhbərlik edirdi.Onların yalnız ölüm hökmü çıxartmaq hüququ yox idi.

Komendant mülki və əhəmiyyətli cinayət işlərinə baxan şəhər və yaxud əyalət məhkəmələrinə sədrlik edirdi. Məhkəmə kollegial orqan olsa da (belə ki, onun tərkibinə yerli əyanların nümayəndələrindən seçilən daha 4 üzv daxil olurdu), əslində iş komendant tərəfindən təkbaşına həll edilirdi.

Ağır cinayətlərə hərbi məhkəmə,yaxud hərbi məhkəmə komissiyası baxırdı. Hərbi məhkəmə proseslərin qısa müddətli olması ilə fərqlənirdi. Məhkəmə üç gün ərzində qərar çıxarır, baxılmaq və təsdiq edilmək üçün Qafqazdakı Baş komandana göndərilirdi. Hərbi məhkəmə çar müstəmləkəçilərinin əlində əhalini itaətdə saxlamaq üçşün cəza orqanı idi.

Komendant həmçinin hərbi qarnizonun rəisi idi. Beləliklə, onun əlində çox böyük hakimiyyət – icraedici, məhkəmə və hərbi hakimiyyət toplanmışdı. "Yüz minlərlə əhalinin hüququ, namusu və əmlakı... komendantın özbaşınalığından asılıdır", - Cənubi Qafqaz diyarını təftiş edən senatorlar Meçnikov və Kutaysev belə nəticəyə gəlmişdilər.

Xanlıqlar dövründə olduğu kimi, əyalətlər naiblər tərəfindən idarə olunan mahallara bölünürdü. Onlar komendant tərəfindən çarizmə sədaqətli bəylərdən təyin edilir və Qafqazdakı Baş komandan tərəfindən təsdiq edilirdi.

Naiblərin hüquq və vəzifələri hər hansı bir rəsmi sənədlə təsdiq olunmamışdı, onlar bütöv əyalət üçün müəyyən edilmiş ölçüyə əsaslanaraq vergi və mükəlləfiyyətləri kəndlər arasında bölüşdürür, kəndliləri mükəlləfiyyətləri yerinə yetirməyə məcbur edir, məhkəmə və polis hakimiyyətini yerinə yetirirdilər.

Naiblərin əksəriyyəti məvacib almırdı. Məsələn, Qarabağ əyalətində 11 naibdən yalnız ikisi məvacib alırdı. Naiblər öz vəzifələrinə görə toplanan verginin bir hissəsi hesabına mükafatlandırılırdılar.

Komendant idarəçəliyinin ən aşağı pilləsində kəndxudalar və yüzbaşılar dururdular. Bu vəzifə "seçkili" idi, lakin çox vaxt kənd icması cəza olaraq bu hüquqdan məhrum edilir və kəndə hökümət kəndxudası təyin edilirdi. Hökumət kəndxudasından fərqli olaraq seçkili kəndxudalar məvacib almırdılar.Lakin kəndlilərdən toplanılan vergilərin bir hissəsi onlara çatırdı. Bəzən belə kəndxudaların sərəncamına məskunlaşmamış torpaqlar və rəncbərlər də verilirdi.

Kəndxuda icma hüdudlarında qayda-qanunun gözlənilməsinə, kəndlilərin mükəlləfiyyətləri müntəzəm yerinə yetirməsinə, pul vergilərinin toplanmasına, yolların, körpülərin və suvarma şəbəkələrinin saxlanmasına cavabdeh idi.

Cənubi Qafqaz diyarını təftiş etmiş senatorlar Kutaysev və Meçnikov çara göndərdikləri 1831-ci il tarixli məlumatda göstərirdilər ki,erməni mənşəli "knyaz Mədətov müsəlman dairəsinin hərbi-dairə rəisi olarkən özgələrin mülklərini özbaşına ələ keçirmiş, əhalini pulsuz özü üçün işlətmiş, başqalarının adına sənəd düzəltmişdi".

Talış əyalətinin komendantı polkovnik Korniyenkonun və Quba əyalətinin komendantı Gimbutun özbaşınalığı, zülmü və azğınlığı 1831-ci ildə Talış üsyanının və 1837-ci ildə Quba kəndlilərinin silahlı çıxışlarının əsas səbəblərindən biri idi. Əhalini soyub talamaqda komendanta öz qənimətlərini onunla bölüşdürən naiblər kömək edirdilər.

Müstəmləkə əleyhinə üsyanlar. Amansız istismar və müstəmləkə zülmü kəndliləri mütləqiyyətə və feodallara qarşı mübarizəyə qaldırırdı.

Çar hakimiyyət orqanları Car Balakəndəki camaat torpaqlarından Dağıstan dağlılarının milli-azadlıq hərəkatını yatırtmaq üçün istifadə etməyə cəhd edirdi. 1830-cu ilin əvvəlində Cənubi Qafqazın Baş hakimi Paskeviçin imzaladığı Bəyannamədə deyilirdi ki, camaatlar

Rusiyanın vilayətlərindən birinə çevrilməli və çar məmurları tərəfindən idarə olunmalıdır. Carlıların rus hakimiyyət orqanlarına göstərdikləri müqavimət müvəffəqiyyətsizliyə uğradı: onlar məğlub olaraq təslim oldular. Camaat torpaqlarında 1830-cu il 24 iyun tarixli xüsusi "Qaydalar" əsasında idarə olunan Car vilayəti təşkil edildi. Vilayətin idarə olunması tərkibi rəisdən, Qafqazdakı Baş komandan tərəfindən təyin edilən iki müşavirdən – rus məmurlarından və camaatlar tərəfindən seçilən 6 kəndxudadan ibarət olan Müvəqqəti vilayət idarəsinə həvalə edilirdi.Lakin sonuncular ancaq məşvərətçi səsə malik idilər və bütün işləri rəis və 2 məmur idarə edirdi. Camaatlara gəldikdə isə onlar idarə hüququndan məhrum edilir və tamamilə çar hərbi dairələrindən asılı olan adi kənd icmalarının səviyyəsinə endirilirdi.

Vilayətin əhalisi belə vəziyyətlə barışmaq istəmirdi. Keçmişdən qalan vergi qalıqlarının toplanması da narazılıq doğururdu. Dağıstan dağlılarının nümunəsi carlıları da mübarizəyə ruhlandırırdı.

1830-cu ilin iyununda dağlıların dəstələri Car vilayətlərinin ərazisinə daxil olarkən bir çox sakinlər onlara qoşuldu. Üsyançılar nizami çar ordusunun qarşısında dura bilməyib, Yeni Zaqatala qalası yaxınlığında məğlub oldular, lakin carlılar və digər əhali silahı yerə qoymadı. Onlar Qafqaz dağlılarının rəhbərlərindən biri olan Həmzət bəylə əlaqəyə girdilər.

1830-cu il sentyabrın əvvəlində Həmzət bəyin 2 min nəfərlik dəstəsi Car vilayətinə daxil oldu. Carlılar üsyan qaldırdılar və dağıstanlılara qoşuldular. Yeni Zaqatala qalasında yerləşən çar qoşunu demək olar ki, hər yerdən təcrid olundu. Oktyabrın 15-də baş verən döyüşdə üsyançılar çar qoşununu məğlubiyyətə uğratdılar. Lakin kömək alan çar qoşunu tezliklə hücuma keçdi. 1830-cu ilin dekabrında üsyançılar məğlub oldular. Üsyan başçıları Şeyx Şaban və Həmzət bəy bölgəni tərk etdi.

Bir neçə aydan sonra Azərbaycanın başqa bir yerində - Lənkəran əyalətində mütləqiyyətin sosial və müstəmləkə zülmünə qarşı yönəlmiş yeni üsyan baş verdi. Azərbaycanın digər əyalətlərində olduğu kimi, bu əyalətdə də kəndlilərin əksəriyyətini (kənd əhalisinin ümumi sayının 72,6%-ni) dövlət kəndliləri təşkil edirdi. Dağ mahallarında torpaqların çatışmazlığı, vergi yığanların zülmü və özbaşınalığı ilə daha da dərinləşən vergi və mükəlləfiyyətlərin ağırlığı kəndliləri əzab və ehtiyaclara məhkum edirdi.

1824-cü ildən xanlığı idarə edən mayor İlyinski ona verilmiş hakimiyyətdən kobud şəkildə istifadə edərək, rüşvət toplamaqla məşğul olurdu. Onun əmrinə əsasən xanlığın 14 sakini istintaqsız və məhkəməsiz Xəzər dənizində batırılmışdı. Çar hakimiyyət orqanları onları Qacarların ordusuna yardım göstərməkdə günahlandırırdı.

Rusiya-Qacar müharibəsi qurtardıqdan sonra komendant Lənkərana öz mülkü kimi baxmağa başladı. Onun sərəncamına əsasən vergilər ikiqat həcmdə toplanırdı. Kəndlilər deyirdilər ki, vergiləri verməyənləri, təkcə kişiləri deyil, qadınları da ölümcül olana qədər döyürdülər.

Çar müstəmləkəçilərinin siyasətindən, artıq onların əlində oyuncağa çevrilmiş Lənkəran xanlığının keçmiş hakimi Mir Həsən xan və onun ətrafında birləşən feodallar da narazı idilər.

1826-1828-ci illər Rusiya-Qacar müharibəsi dövründə xan bir çox bəylərlə birlikdə İran şahının tərəfinə keçərək Qacarlar dövlətinə qaçdı və hakimiyyəti bərpa etmək üçün əlverişli şərait gözləməyə başladı. 1831-ci ilin martında Astara çayını keçərək Lənkəran tərəfə hərəkət etdi. Xanın gəlməsi xəbəri üsyanın başlanması üçün siqnal oldu. Hərəkatda rəhbər rol oynayan bəylərlə yanaşı, dövlət və sahibkar rəiyyətləri, əkərlər, nökərlər də iştirak edirdilər.

Lənkəran üsyanı hərbi müstəmləkə idarə sisteminə qarşı çevrilmişdi.Hökumətin üsyançılara ciddi müqavimət göstərə

bilmədiyi bir şəraitdə yerli əhali tərəfindən göstərilən kömək ilk dövrlərdə Mir Həsən xanın müvəffəqiyyət qazanmasını təmin etdi.

Lənkəranda üsyan başlanması xəbərini alan Paskeviç əks zərbə vurmağa hazırlaşmağa başladı. Martın 30-da hökumət dəstələri Lənkərandakı rus hərbi hissələrinə köməyə çatdılar və üsyançılar yaxınlıqdakı meşəyə çəkildilər.

Üsyançıların böyük hissəsi, xan başda olmaqla, şəhərdən 15 verst aralıqda yerləşən Sələş kəndində, digər hissəsi Bədalan kəndində yerləşmişdi. Aprelin 6-da çar qoşunu üsyançılara hücum edərək, onları Sələşdən çıxartdı. Bu məğlubiyyət Lənkəran üsyanında dönüş nöqtəsi oldu. Məğlubiyyət kəndliləri ruhdan saldı və onlar kütləvi şəkildə üsyandan aralanmağa başladılar.

Aprelin 20-dən sonra Mir Həsən xanın dəstəsində cəmi 300 adam qalmışdı. Toplarla silahlanmış hökumət qoşunlarının sayca çox olması üsyançıları ciddi müqavimət göstərmək imkanından məhrum edirdi.Mir Həsən xan mayın əvvəlində Lənkəran, oradan isə Astara mahalına qaçdı. Mayın 7-də xanın cəmisi 20 nəfərdən ibarət olan dəstəsi Astaradan Qacarların ərazisinə keçdi.

Bir neçə il sonra, 1837-ci ildə Azərbaycanın şimalında, Quba əyalətində Azərbaycan kəndlilərinin ən böyük silahlı üsyanı – kəndli çıxışları alovlandı. Əyalət kəndlilərinin narazılığının əsas səbəbi iltizam sistemi idi.Komendant vergi toplanmasını çox vaxt erməni tacirlərinə iltizama verirdi. Onlar da əhalidən bir neçə qat artıq vergi toplayırdılar.

Polkovnik Gimbut komendant olduqdan sonra vilayətdə özbaşınalıq daha da güclənirdi. Vergilər kəndlilərdən qanunla müəyyənləşdirildiyindən bir neçə dəfə artıq toplanır, fərq isə komendant tərəfindən mənimsənilirdi. Gimbut kəndlilər üzərinə qanunla nəzərdə tutulmamış vergilər qoyurdu. 1837-ci ilin yazında Müşkür mahalının kəndliləri öz şikayətlərində bildirirdilər ki, Gimbut

onların üzərinə xüsusi vergi qoymuş, pulları isə özü mənimsəmişdir. Mahal naiblərinin özbaşınalıqlarının hüdudu yox idi.Quba əyaləti kəndlilərinə amansız müstəmləkə zülmü, Azərbaycanda vəzifəli şəxslərin əhalini açıq şəkildə soyması, komendant üsul-idarəsinin bərqərar olması Quba üsyanının əsas səbəbləri idi.

Hökumət dairələrinin Yuxarıbaş mahalı kəndlilərinə Varşavada yerləşən süvari müsəlman alayında xidmət üçün könüllülər vermək təklifi kəndlilərin səbir kasasını dolduran sonuncu damla oldu. Könüllülər tamamilə yerli əhali hesabına təchiz edilməli (silah, at, paltar və s.) olduğundan, əslində çarizm bu aktla yeni mükəlləfiyyət tətbiq edirdi.

Bu tələb kəndlilər tərəfindən əsgəri mükəlləfiyyətin başlanması kimi qəbul edildi və 1837-ci ilin aprelində əyalətdə kütləvi kəndli hərəkatının başlanmasına təkan verdi. Hərəkat Yuxarıbaş mahalında başlandı, sonra iki qonşu mahala yayılaraq tezliklə bütün əyaləti bürüdü.

Kəndxudalar hərbi dairə rəisi Reutdan əyalətin əhalisini süvarilər verməkdən azad etməyi tələb etdilər. Tezliklə kəndxudalar əlavə tələblər irəli sürdülər: dövlət mükəlləfiyyətlərinin azaldılması, komendant Gimbutun vəzifəsindən kənar edilməsi, əhalinin nifrət etdiyi iki mahal naibinin vəzifəsindən kənar edilməklə əyalətdən çıxarılması. Hərəkat çox sürətlə inkişaf edərək müstəmləkə və feodal əsarəti əleyhinə çevrilmiş hərəkat xarakteri aldı.

Yaranmış vəziyyətin ciddiliyi hökuməti güzəştə getməyə məcbur etdi. Reutun adından elan olundu ki, "Quba əyalətindən süvarilər tələb olunmayacaqlar". Kəndlilərin Gimbutun və haqqında danışılan naiblərin vəzifələrindən götürülməsi tələbləri də yerinə yetirildi. Hökumət bu yolla kəndliləri sakitləşdirməyə, vaxt qazanmağa ümid bəsləyirdi. Reutun taktikası müvəffəqiyyət qazandı. Kəndlilər evlərinə dağılışdılar və bununla hərəkatın birinci mərhələsi başa çatdı.

Lakin Quba əyalətində kəndli hərəkatını doğuran sosial ziddiyyətlər həll edilməmiş qalırdı.

1837-ci ilin avqustunda Quba əyalətində silahlı üsyan başlandı. Ona Xuluq kəndinin kəndxudası – aprel həyəcanlarının fəal iştirakçısı kəndxuda Hacı Məhəmməd rəhbərlik edirdi. Dağıstan dağlılarının Şeyx Şamil tərəfindən rəhbərlik edilən mübarizəsi (müridizm hərəkatı) də buradakı hadisələrin inkişafına təsir göstərirdi.

Şamil onları çar hakimiyyət orqanlarının yalançı vədlərinə inanmamağa, əldə silah öz hüquqlarını müdafiə etməyə çağırırdı. Avqustun 20-dən sonra Hacı Məhəmməd üsyan bayrağını qaldırdı. Silahlı üsyana başlamaq çağırışını o, oğlunun toyunda irəli sürdü. Kəndxudalar Hacı Məhəmmədə tərəfdar çıxdılar və kəndlərə çaparlar göndərərək, kəndliləri silahlı mübarizəyə çağırdılar.Quba üsyanına rəhbərlik üçün Hərbi Şura təşkil edilmişdir.

Hadisələr çox sürətlə inkişaf edirdi. Artıq bir neçə gündən sonra bütün əyalət kəndli üsyanı alovlarına bürünmüşdü.Avqustun 30-da Qubanın mühasirəsi başlandı.

Sentyabrın 4-dən 5-nə keçən gecə üsyançıların hər biri 4 min nəfərdən ibarət olan iki dəstəsi qərbdən və şərqdən qala divarlarına həmlə etdilər.Hacı Məhəmmədin ən yaxın silahdaşlarından olan kəndli Yarəlinin başçılığı ilə sayı yenə də 4 min nəfər olan üçüncü dəstə gizlicə şəhərə daxil olmağa cəhd göstərdi. Əvvəlcədən əldə edilmiş razılığa əsasən şəhərlilər üsyançılarla birgə çıxış etməli idilər.

Qoşun dəstəsi sürətlə üsyançılara hücum etdi. Top atəşi onları meydanı tərk etməyə məcbur etdi. Şiddətli döyüşdə üsyançılarla birlikdə çoxlu şəhərli də vuruşurdu. Üsyançılar böyük igidlik və mərdliklə vuruşurdular. Lakin onların ayrı-ayrı evlərdə gizlənmiş pərakəndə qrupları təlim görmüş çar ordusuna qarşı dura bilmədi.

Çar zabitləri sentyabrın 10-da şəhərdən üsyançılar üzərinə basqın etdilər. Çar qoşunu şəhərin yaxınlığındakı yəhudi qəsəbəsində

yerləşən üsyançı dəstəsinə hücum edərək, onu məhv etdi. Bu müvəffəqqiyətsizlik onları ruhdan saldı. Kəndlilər Hacı Məhəmmədi tərk edərək, evlərinə dağılışmağa başladılar.

Hacı Məhəmməd doğma kəndi Xuluqa gələrək, ailəsini götürüb Kürə xanlığına yola düşdü. O burada Mirzə Məhəmməd xan tərəfindən ələ keçirilib hökumətə təslim edildi. Hacı Məhəmməd edam edildi. Yarəli isə dağlarda gizlənə bildi.

1837-ci il Quba üsyanının hərəkətverici qüvvəsi kəndlilər idi. Şəhərin üsyançılar tərəfindən ələ keçirilmiş ərazisində yaşayan şəhərlilərin də bir hissəsi üsyanda iştirak edirdi. Üsyanda Quba bəyləri də iştirak edirdilər. Bununla birlikdə Quba feodalları arasında çar hökuməti tərəfindən əllərində silah üsyançılara qarşı çıxış edənlər də az deyildi.1838-ci ildə üsyançılar sonuncu döyüşdə Acıaxurda məğlub oldular.Qafqazın Baş Komandanı A.Bakıxanovu üsyançılarla əlaqə saxlamaması üçün onu Tiflisə dəvət etmişdi. O, 1837-ci ildə yazdığı izahatında üsyanın əsas səbəbkarı kimi çar məmurlarının zülmünü göstərmişdi.

Çarizmin müstəmləkə zülmünün xüsusilə ağır olduğu Şəki əyalətində də çıxışlar baş verdi. Maliyyə Nazirliyinin məmurlarından birinin məlumatına görə, əyalət əhalisindən 12 müxtəlif vergi toplanırdı. Əyalətlərin heç birində Şəkidə olduğu qədər çoxlu vergi saxlanılmamışdı.

1835-ci ildə Cənubi Qafqaz diyarının Baş rəisi baron Rozen əyalətdə yaşayan maaflar üzərinə vergi qoymaq haqqında sərəncam verdi. Bu vaxta qədər vergi boyunduruğundan azad olan maaflar arasında həyəcanlar başlandı və Rozen öz sərəncamını ləğv etməyə tələsdi. Lakin özlərinin vergi verməmək hüquqlarını itirməkdən ehtiyat edən maafların arasında həyəcanlar sakitləşmədi.

1837-ci ildə Şəki xanlığının İranda yaşayan sonuncu hakimlərindən birinin - Səlim xanın oğlu Hacı xan öz nümayəndəsi

Məşədi Məhəmmədi əyalətə göndərdi. Özünü Şəki xanının varisi elan edən Məşədi Məhəmməd kiçik dəstə topladı, lakin tezliklə hökumət tərəfindən ələ keçirildi. 1838-ci ilin iyulunda o, Nuxa həbsxanasından Dağıstana qaçdı, burada rutullu Ağa bəylə əlaqə yaratdı. Həmin ilin avqustunda Ağa bəyin 5 minlik dəstəsi Şəki əyalətinin ərazisinə daxil oldu və üsyan alovlandı.

Əhalinin köməyi rutullu Ağa bəyə sürətlə Nuxaya yaxınlaşmağa imkan verdi. Çar ordusu geri çəkilməyə və qala divarları arxasında gizlənməyə məcbur oldu.

Bir neçə gün ərzində Nuxa yaxınlığmda üsyançılarla ordu arasında toqquşmalar baş verdi, lakin tərəflərdən heç biri həlledici qələbə qazana bilmədi.

Sentyabrın əvvəllərində Nuxa qarnizonu kömək almağa başladı. Sentyabrın 3-də üsyançılar şəhəri tərk etməyə məcbur oldular. Qoşun üsyançıları təqib edərək, onları bir neçə dəfə məğlubiyyətə uğratdı. Məşədi Məhəmməd İranda gizləndi. Şəki əyalətindəki həyəcanlar başa çatdı.

Feodalizm dövrünün bütün kəndli hərəkatları kimi, bu çıxışlar da pərakəndə və qeyri-mütəşəkkil idi. Üsyançıların üsyana rəhbərlik edə biləcək vahid mərkəzi yox idi. Ən mühüm məsələlər kəndxudaların, bəylərin, üsyanda iştirak edən kəndlilərin və şəhərlilərin iştirak etdiyi ümumi hərbi şurada həll edilirdi. Şuranın tərkibi müəyyən edilməmişdi və yalnız bir neçə dəfə təsadüfdən-təsadüfə toplanırdı. Hətta odlu silahı olmayan kəndlilərin əksəriyyəti toplarla silahlanmış nizami ordu ilə döyüşməli olurdu.

Komendant idarə üsulunun ləğvi. Komendant idarəçilik üsulu hətta ali çar məmurlarının etirafına görə, "dövlət gəlirləri üçün soyğunçu, diyarın rifahı, onun sakinlərinin səadəti və mənəviyyatı üçün məhvedici" oldu.

Komendant üsuli-idarəsi dövlət xəzinəsinə xeyli ziyan vururdu. Məmurlar yığılan vergilərin xeyli hissəsini mənimsəyir, xəzinənin torpağını və vəsaitini dağıdırdılar.Çarizmin Cənubi Qafqazda öz hökmranlığını möhkəmləndirməsinə nail olmaq cəhdi komendant üsuli-idarəsinin ləğvini və onun yeni sistemlə əvəz olunmasını tələb edirdi.İslahatın layihəsi o zaman Qafqazın Baş komandanı M.Paskeviç tərəfindən tərtib olunmuş və 1830-cu ilin aprelində I Nikolaya göndərilmişdi. Bütün inzibati və məhkəmə idarələri tamamilə "irsi rus zadəganları" içərisindən çıxmış məmurlardan təşkil edilməli və hər işdə Rusiya qanunları rəhbər tutulmalı idi. Paskeviçin layihəsi o zaman Cənubi Qafqaz diyarını yoxlamış senatorlar P.Kutaysev və Y.Meçnikov tərəfindən müdafiə olundu.

1837-ci ildə Cənubi Qafqaza senator Qanın sədrliyi altında komissiya göndərildi. Ona yerlərdə müvafiq məlumatlar toplamaq və "Cənubi Qafqazın idarə olunması üçün müəssisələr" (idarələr) lahiyəsini tərtib etmək göstərişi verilmişdi. Lakin komissiya diyarın xüsusiyyətlərini öyrənmədi və Paskeviç Kutaysov və Meçnikovun təklifləri əsasında islahat layihəsini tərtib edərək,onu komitənin təsdiqinə verdi.

Layihə 1840-cı il aprelin 10-da l Nikolay tərəfindən "Cənubi Qafqaz diyarının idarə olunması üçün müəssisə" adı altında təsdiq olundu.

1841-ci il yanvarın 1-dən islahat hər yerdə tətbiq olundu. Yeni inzibati və məhkəmə idarələrinin açılışı yerli əyanların iştirakı ilə təntənəli şəraitdə keçirdi. Bunların hamısı zahiri təsir göstərmək, xalqı aldadaraq onlarda xoşbəxt həyatın başlandığı haqqında xülya yaratmaq məqsədi güdürdü.

İslahat Cənubi Qafqazın inzibati quruluşunu dəyişərək, onu Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırdı. Cənubi Qafqaz diyarı mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və

mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölünürdü. Quberniya və vilayət qəzalara (dairələrə), onlar isə öz növbəsində nahiyyələrə (sahələrə) bölünürdü.

Azərbaycan torpaqlarının əksəriyyəti 7 qəzanı - Şamaxı (keçmiş Şirvan əyaləti), Şuşa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Bakı (Bakı əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba (Samur dairəsi ilə birlikdə Quba əyaləti) qəzalarını özündə birləşdirən Xəzər vilayətinin tərkibinə daxil oldu.

Çar hökuməti "parçala və hökm sür" prinsipini rəhbər tutaraq Azərbaycan torpaqlarının bəzi hissələrini - Qazax və Şəmşəddil distansiyaları ilə birlikdə Yelizavetpol qəzasını, Balakən qəzasını, İrəvan qəzasını və Naxçıvan qəzasını Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil etdi.

Qəzaların tərkibində nahiyyələr yaradıldı, onlardan çoxu keçmiş mahalların ərazilərinə müvafiq gəlirdi. Azərbaycan ərazisində cəmisi 32 nahiyyə yaradılmışdı.

Cənubi Qafqazın ali idarəsi buradakı qoşunların Baş rəisinin əlində saxlanılırdı. O bilavasitə imperator tərəfindən təyin edilir və vəzifəsindən çıxarılırdı. Baş rəisin sədrliyi altında Baş İdarə Şurası fəaliyyət göstərirdi. Onun tərkibi imperatorun təyinatı üzrə Qafqaz hakimiyyət idarələrinin ali məmurlarından təşkil olunurdu.

Quberniya idarələrinə "ali hakimiyyət"in nümayəndəsi olan qubenator, Xəzər vilayəti idarələrinə isə vilayət rəisi başçılıq edirdi. Həm qubernator, həm də vilayət rəisi çarın fərmanı ilə təyin edilir və bilavasitə Qafqazın Baş rəisinə tabe olurdular.

Qəza idarəsinə qəza rəisi başçılıq edirdi. O, qəzada qayda-qanuna riayət olunmasına, şəhər və zemstvo polisinin vəzifələrinə daxil olan hər işə cavabdeh idi.

"Qayda-qanun"un bilavasitə keşikçisi, hakimiyyət orqanları və məhkəmənin bütün sərəncamlarının icraçısı nahiyyə iclasçısı idi. O, vergilərin əhali tərəfindən vaxtında ödənilməsini və bütün digər mükəlləfiyyətlərin yerinə yetirilməsini təmin etməli idi.

1840-cı il 10 aprel qanunu Cənubi Qafqazın məhkəmə sistemində mühüm dəyişikliklər etdi. Qəza məhkəməsi hakimlərdən, çar hakimiyyət orqanları və vergi verən təbəqələrdən olan iclasçılardan ibarət idi.

Artıq cinayət işlərinə hərbi məhkəmələrdə yox, ümummülki məhkəmələrdə baxılırdı. Lakin bu islahatın əsas ideyalarından biri - məhkəmənin idarəçilik işindən ayrılması həyata keçmədi və məhkəmə səlahiyyətlərinin bir hissəsi nahiyyədən tutmuş diyaradək Qafqaz hakimiyyət orqanlarının əlində qalmaqda idi.

Məhkəmə işləri mərhələlərin çoxluğu ilə səciyyələnirdi. Nahiyyə iclasçısı formal istintaq aparır və materialları qəza rəisinə, sonuncu isə qəza məhkəməsinə təqdim edirdi. Qəza məhkəməsinin hökmü qəza prokurorluğuna təqdim olunurdu. İş qəza prokurorunun qərarı ilə birlikdə cinayət və mülki məhkəmə palatasına daxil olurdu. Bundan sonra bütün iş qubernatora (və ya vilayət rəisinə) göndərilirdi. O, altı həftə ərzində ya hökmü təsdiq edir, ya da onu öz qeydləri ilə birlikdə geriyə - palataya qaytarırdı.

1840-cı il qanunu ruhanilərin əlində ancaq nigah və vərəsəlik işlərini həll etmək hüququnu saxlasa da, Azərbaycanın yerli sakinləri bütün mülki-hüquqi mübahisələrə görə şəriət məhkəmələrinə üz tutmaqda davam edirdilər. Çar hökuməti şəriət məhkəmələrinin saxlanılıb onlara nisbətən geniş hüquqlar verilməsindən, mütləqiyyətin sosial dayağı kimi, müsəlman ruhaniləri ilə ittifaqı möhkəmləndirmək üçün istifadə etməyə can atırdı.

İslahat vahid pul, ölçü və çəki sistemlərinin tətbiq olunmasını, rəhdar vergisinin ləğvini sürətləndirirdi. İnzibati məhkəmə islahatının

obyektiv olaraq bəzi müsbət cəhətləri var idi. Bütün bunlar sənaye və ticarətin inkişafına şərait yaradırdı.

Lakin 1840-cı ilin inzibati məhkəmə islahatı eyni zamanda çarizmin milli-müstəmləkə zülmünün daha da güclənməsinə səbəb oldu. Azərbaycanlı məmurlar inzibati idarələr və məhkəmələrdən çıxarılır, hər yerdə onların vəzifələrinə rus məmurları təyin olunurdu.

İnzibati-məhkəmə islahatı çarizmin sosial dayağı məsələsini xeyli kəskinləşdirdi. Rus zadəganlarının burada bəy və ağaların, tiyul torpaq sahibliyini ləğv etmək hesabına malikanələrdə yerləşdirmək fikirləri mövcud idi.

Cənubi Qafqaz diyarı Baş İdarə Şurasının Gürcüstan-İmeretiya quberniyası Qazax, Şəmşəddil və Borçalı nahiyyələrinin ağalarının və bəylərinin kəndlərin idarə olunmasından kənar edilməsi barəsində 1841-ci il 13 fevral tarixli və Xəzər vilayəti bəylərinin kəndlərin idarəsindən kənar edilməsi barəsində 1841-ci il 24 mart tarixli bəylər və ağalar özlərinin tiyul torpaqlarından məhrum edildilər. Əslində bu qərarlardan ancaq birincisi həyata keçirilsə də, yerli feodallar çar hökumətinin niyyətini başa düşərək, kəndlilərin müstəmləkə üsuli-idarəsi əleyhinə çıxışlarına qoşulmaqla, bu hərəkatdan öz məqsədləri üçün istifadə etməyə, imtiyazlarını geri almağa çalışırdılar.

İnzibati-məhkəmə islahatı və onun ardınca yuxarıda adları çəkilən qərarlar bütün əhalinin, o cümlədən bəy və ağaların narazılığına səbəb oldu.

XIX yüzilliyin 40-cı illərinin əvvəllərində çarizm tərəfindən yerli feodallarla münasibətlərin kəsilməsinə yönəldilmiş siyasət tam müvəffəqiyyətsizliyə uğradı.

Çar hökuməti dağlılarla müharibəni tezliklə başa çatdırmaq və Qafqazda öz mövqelərini möhkəmləndirmək üçün Cənubi Qafqaz diyarının Baş İdarəsi əvəzinə 1844-cü ildə Qafqaz canişinliyini təsis etdi. Canişin mütləqiyyətin "ali hüquqlarının" başlıca keşikçisi idi və

ona müstəsna dərəcədə geniş səlahiyyətlər verilmişdi. I Nikolayın həddən artıq etibar etdiyi və mütləqiyyətin müstəmləkə siyasətini can-başla həyata keçirən qraf M.Vorontsov Qafqaz canişini(1844-1854) təyin olundu. O, tam mülki və hərbi hakimiyyətə malik idi və bütün hallarda bilavasitə imperatora müraciət edə bilərdi.

Çar məhz canişin vasitəsi ilə Qafqaz kimi mürəkkəb, müxtəlif xalqların yaşadığı diyarda öz siyasətini daha kəsərli surətdə həyata keçirməyə ümid bəsləyirdi.

Diyarın inzibati-ərazi qurumunda aparılan dəyişikliklər də Cənubi Qafqazda çar hakimiyyətinin güclənməsinə xidmət edirdi. 1846-cı il 14 dekabr tarixli fərmanla Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayətinin yerində 4 quberniya - Tiflis, Kutaisi, Şamaxı, Dərbənd quberniyaları, sonralar - 1849-cu ilin iyununda isə İrəvan quberniyası yaradıldı. Çar hökuməti eyni zamanda yerli feodallar və ruhanilərlə ittifaqı möhkəmləndirmək yolu ilə Şimali Azərbaycanda özünə sosial dayaq yaratmağa can ataraq, şəriət məhkəmələrinin səlahiyyətlərini genişləndirdi, bəy və ağaların torpaq sahibkarlığı hüquqlarını qanunvericilik yolu ilə təsdiq etdi.

40-cı illərin islahatları. Çarizmin sosial dayağı ancaq yerli feodallar ola bilərdi.Dağlıların xalq-azadlıq mübarizəsini boğmaq siyasəti də, Türkiyə ilə hərbi toqquşmada öz arxasını möhkəmləndirmək istəyi də çar hökumətini yerli feodallarla ittifaq bağlamağa sövq edirdi. Yaranmış şərait çarizmi yerli feodallara qarşı siyasətini dəyişməyə vadar edirdi. Ağaların şəxsi hüquqları barədə məsələlərin işlənib hazırlanması ilə məşğul olan komitə işə başladı. Komitənin qarşısında ağaların şəxsində elə bir "ali müsəlman silki" yaratmaq vəzifəsi qoyulurdu ki, "hökumət bu silkin vasitəsilə xalqa təsir göstərə bilsin".

1843-cü ildə bu komitəni iki yeni komitə əvəz etdi: bunlardan biri "ali müsəlman silki" rəsmi sənədlərdə Azərbaycan bəyləri belə

adlandırılırdı - müəyyənləşdirməklə; digəri isə 1841-ci il reskripti ilə ağaların torpaqları müsadirə edildiyi üçün ayrıca olaraq ağalar məsələsi ilə məşğul olurdu. Bəylərin torpaq hüquqlarını və onların kəndlilərlə qarşılıqlı münasibətlərini müəyyənləşdirməli olan başlıca əsaslar aşağıdakılardan ibarət idi:

1.Torpaqlar nəsli mülkiyyət hüququnda bəylərin və ağaların ixtiyarına verilməli idi.

2.Kəndlilər bəy və ağaların xeyrinə vergi verməli, mükəlləfiyyətlər icra etməli idilər.

3.Feodallara kəndlilər üzərində polis və məhdud məhkəmə hüquqları verilməli idi.

Azərbaycan bəylərinin torpaq hüquqları və onların kəndlilərlə qarşılıqlı münasibəti məsələsi M.Vorontsovun canişinliyi dövründə həll edildi. I Nikolay 1846-cı il dekabrın 6-da canişin adına reskripti imzaladı. Reskript feodalların həm irsi mülk torpaqları, həm də "müsəlman əyalətlərinin nəsillərinin malik olduqları və indi mübahisəsiz şəkildə onların ixtiyarında olan" pay torpaqları - tiyullar üzərində tam nəsli mülkiyyət hüququnu təsdiq edirdi. 1841-ci ildə müzakirə edilmiş, çarın "xüsusi" mərhəməti şəklində geri qaytarılan torpaqlar üzərində ağaların və 1840-cı ildən sonra onlardan alınmış mülklər üzərində bəylərin hüququ təsdiq olunurdu. Reskript torpaq sahibkarlarına öz torpaqlarından sərbəst surətdə istifadə etmək hüququ verərək torpağın əmtəəyə çevrilməsi üçün müəyyən şərait yaratsa da, feodal torpaq mülkiyyəti hələlik kapitalist torpaq mülkiyyətinə çevrilmədi. Çünki torpağın özəlləşdirilməsi hüququ onunla məhdudlaşırdı ki, torpaq ancaq hakim feodal sinfin əlinə keçə bilsin. Reskript torpaq üzərində feodalların xüsusi mülkiyyət hüququnu möhkəmləndirərək, tiyuldar bəylərin öz mülkiyyətçilik hüquqlarının tanınması uğrunda apardıqları uzun müddətli mübarizəsinə bir növ yekun vururdu. Kəndlilərin istifadə etdiyi

torpaqlar tamamilə feodalların sərəncamına keçdi. Xan, bəy, ağaların və erməni məliklərinin torpaq üzərində mülkiyyət hüququ rus zadəganları ilə bərabərləşdirildi.

Xüsusi sahibkar kəndliləri formal olaraq dövlət kəndliləri dərəcəsinə aid edildilər və müxtəlif adların (rəiyyət, rəncbər, nökər və s.) yerinə ümumi ad - "mülkədar tabelisi" adını aldılar. Kəndlilər "torpaqdan... istifadə müqabilində haqq" kimi mülkədarların xeyrinə müxtəlif mükəlləfiyyətləri yerinə yetirməli idilər.Bəy və ağalara kəndlilər üzərində polis hüququ verilirdi.Onlar kəndlilər arasında qayda-qanuna və sakitliyə nəzarət etməli idilər.

Bununla bərabər, feodalların kəndlilərə sahib olmaq hüququ təsdiq olunmurdu.Reskriptdə "sahibkar kəndliləri" ifadəsi işlədilmirdi, feodalın xeyrinə mükəlləfiyyətlər isə torpaqdan istifadənin müqabilindəki haqq kimi təqdim edilirdi.

Torpaq sahibkarları ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən prinsiplər 1847-ci il 20 aprel və 28 dekabr tarixli "Kəndli Əsasnamələri"ndə konkretləşdirildi. Bu "Əsasnamə"lərdən birincisi Şamaxı və Dərbənd quberniyalarının bəy kəndlilərinə, yəni Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Quba və Dərbənd qəzalarının xüsusi sahibkar kəndlilərinə, ikincisi isə Tiflis quberniyasının Yelizavetpol qəzasındakı Qazax və Şəmşəddil nahiyyələri ağalarının torpaqlarında yaşayan kəndlilərə aid idi. 1847-ci il 20 aprel "Əsasnamə"sində torpaq mülkiyyətçiləri ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən müxtəlif məsələlərə toxunulurdu. "Əsasnamə" torpaq mülkiyyətçilərinin üzərinə 15 yaşından yuxarı kişi cinsindən olan hər bir kəndlini taxılçılıq, maldarlıq və bostançılıq üçün yararlı olan 5 desyatinlik pay torpağı ilə təmin etmək vəzifəsi qoyurdu. Sahibkar kəndliləri isə islahata qədərki dövrdə olduğu kimi 5 desyatindən az torpaq sahələrindən istifadə edirdilər.

Mükəlləfiyyətlərin həcmi pay torpağının sahəsindən asılı olaraq müəyyənləşdirilmədiyindən, kəndlinin pay torpağının artırılmasına və "Əsasnamə"də nəzərdə tutulmuş ölçülərə çatdırmağa sahibkarın heç bir marağı yox idi, belə ki, torpağı icarəyə vermək sahibkar üçün daha əlverişli idi. Bütün bunlar "Əsasnamə"nin bu maddəsini qabaqcadan uğursuzluğa məhkum edirdi. "Əsasnamə"nin əsas maddələrindən biri kəndlilərin mükəlləfiyyətləri məsələsi idi.

Malcəhət - torpaq sahəsinin kəndlinin vəsaiti (iş heyvanı, kənd təsərrüfatı alətləri, toxum) hesabına becərilməsi şərti ilə məhsulun sahibkarın xeyrinə ayrılan $^{1}/_{10}$ hissəsi idi. "Əsasnamə" rəiyyətləri bir sıra digər məhsulla toplanan mükəlləfiyyətlərdən azad edərək və ya onları malcəhətin ümumi miqyasına daxil edərək, bu sahəyə nizamlayıcı əsas tətbiq edir və kəndlilərdən alınan natural məhsulla toplanan vergiləri müəyyən dərəcədə azaldırdı. Kəndlilər öz pay torpaqlarını sahibkarların iş heyvanı, alətləri və toxumundan istifadə edərək becərdikləri təqdirdə, onlar məhsulun $^{1}/_{5}$-dən çox olmayan hissəsini sahibkara verməli idilər. Bu maddə rəncbərlər (əkərlər) və nökərlər, habelə var-yoxdan çıxmış rəiyyətlər ücün nəzərdə tutulmuşdur. "Əsasnamə" kəndlilər üzərinə məhsul yığımından sonra üç gün ərzində sahibkarın payını ayırmaq, feodal malikanənin hüdudlarında yaşayırsa, bu payı növbəti üç gün, məhsul yığılan yerdən 50 verstdən uzaqda yaşadığı təqdirdə 15 gün ərzində ona çatdırmaq vəzifəsini qoyurdu. Bundan başqa "Əsasnamə" kəndlilərin bəyin xeyrinə işləyib-ödəmə rentasını yerinə yetirmələrini də nəzərdə tuturdu. "Əsasnamə" hər kəndli ailəsi üzərinə sahibkarın tələbi ilə öz iş heyvanı və alətlərilə ildə 18 gün ərzində onun təsərrüfatında işləmək üçün bir işçi vermək təhəddüdü qoyurdu. Mükəlləfiyyətin bu növü, yəni biyar Azərbaycanda çoxdan bəri mövcud idi. Hər ailədən işçi verməklə yanaşı, kəndlilər ildə bir-iki gün bütün kənd cəmiyyəti ilə, elliklə sahibkar üçün işləyərək (əvrəz), kənd təsərrüfatı və ya suvarma

işlərini yerinə yetirməyə borclu idilər. Əvrəz nəticəsində yığılmış məhsul büsbütün feodalın xeyrinə gedirdi.

"Əsasnamə"yə görə kəndlilər elliklə sahibkar malikanələrində arxlar və yollar çəkməli, köhnə tikililəri təmir etməli idilər. Bununla da "Əsasnamə" feodallara, lazım gəldikdə, müftə işçi qüvvəsindən istifadə etmək imkanı verirdi. Kəndlilər mal-qaranın sahibkar torpağında otarılması müqabilində məbləği müəyyənləşdirilməmiş xüsusi pul vergisi - çöpbaşı ödəməli idilər. "Əsasnamə"sahibkarlara onların torpaqlarında yaşayan kəndlilər üzərində polis və məhdud məhkəmə hakimiyyəti verirdi. "Əsasnamə"yə görə, torpaq mülkiyyətçiləri onların torpaqlarında yaşayan kəndlilərin "farağatlığına, ədəb-ərkanına və əxlaqına" nəzarət etməli idi. "Əsasnamə" kəndlilərin "şəxsən azad və digər sahibkarın yanına keçmək hüququna malik olmalarını" etiraf edirdi. Lakin bu hüquq birincisi, kəndlilər tərəfindən adambaşına ən azı 5 desyatin torpaq satın alınmasından, ikincisi, kəndlinin həm tərk etdiyi, həm də onu qəbul edən kənd cəmiyyətlərinin, habelə torpağında bu keçmənin baş verdiyi feodalın razılığından asılı vəziyyətdə qoyulurdu.

"Əsasnamə" yerli hakimiyyət orqanları qarşısında kəndlilərin feodalların xeyrinə mükəlləfiyyətləri müntəzəm yerinə yetirmələri və onlara tabe olmalarına nəzarət etmək vəzifəsini qoyurdu. Ağalar və kəndlilər arasındakı münasibətləri müəyyənləşdirən 1847-ci il 28 dekabr "Əsasnamə"si də eynilə bu prinsiplərə əsaslanırdı. 1841-ci il qanununa görə, Gürcüstan-İmeretiya quberniyası və Xəzər vilayətində iki Dövlət Əmlakı Palatası yaradıldı. Dövlət kəndinə aid olan mühüm məsələlərin həlli palataların əlindən alındı və diyarın Baş rəisinin ixtiyarına verildi.40-cı illərin islahatları bəy və ağaların imtiyazlarını təsqiq etdi.Bəy və ağalar bunun qarşılığında Krım müharibəsində (1853-1856) cəbhəyə könüllü təşkil edilmiş süvari dəstələri, ərzaq və s. göndərdilər.

X FƏSİL
XIX YÜZİLLİYİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Maarif. Elm. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra çar hökuməti ölkədə öz mövqelərinin möhkəmlənməsinə xidmət edən məmurlar ordusu hazırlamaq üçün yeni xalq təhsili sisteminin tətbiq edilməsi zərurəti ilə qarşılaşdı.

Şimali Azərbaycanın işğalından sonra da ibtidai təhsil məktəblərdə - mollaxanalarda cəmləşmişdi. Bir çox məktəblər çoxillik tarixə malik idi. Məsələn, Şuşadakı İbrahim xan məscidi nəzdində əsası 1801-ci ildə qoyulmuş məktəb XIX yüzilliyin ikinci yarısında da fəaliyyət göstərmişdi. Əldə olan məlumatlara görə, 1842-ci ildə Bakı, Quba, Qarabağ, Şəki, Şirvan və Talış qəzalarında məscidlərin nəzdində 502 məktəb, onların isə 534 müəllimi və 5242 şagirdi var idi. Məscidlərin nəzdində olmayan məktəblərin sayı xüsusilə çox idi, onlar demək olar ki, hər bir kənddə var idi. Məktəblərdə zümrə mənsubiyyətindən asılı olmayan müxtəlif yaşda olan oğlanlar oxuyurdu. Qızlar üçün məktəblər də mövcud idi. Bu məktəblər əhalinin öz vəsaiti hesabına fəaliyyət göstərirdi.

Məktəblər heç bir sanitar-gigiyenik tələblərə cavab vermirdi, müəyyən olunmuş proqram və təhsil müddəti yox idi, tədris ərəb əlifbasının mənimsənilməsindən və duaların əzbərlənməsindən başlanır, bundan sonra isə təhsilin başlıca obyekti olan "Quran" tədris edilirdi. Bunun ardınca savadlı olmağın əsas əlamətlərindən hesab edilən ərəb və fars dillərində mətnlərin oxunmasına başlanırdı. Fars dili ədəbi dil hesab edilir, ondan şəxsi və işgüzar yazışmalarda da istifadə olunurdu.

Məktəblərdə ən geniş yayılmış tədris vəsaiti Sədi Şirazinin "Gülüstan" və "Bustan", Nizami Gəncəvinin "Leyli və Məcnun"u,

Hafizin “Divan”ı və “Tarixi-Nadir” (Nadir şahın döyüş qəhrəmanlıqlarını tərənnüm edən əsər), dini məzmunda müxtəlif kitablar idi. Bu əsərlərin dili çox qəliz olduğu üçün uşaqların onları qavramasında çətinlik yaranırdı. Kitabların oxunmasına müəllim tərəfindən tərtib edilən fars - Azərbaycan dili lüğətinin köməyilə başlayırdılar.

Məktəblərdə ruhani şəxslərlə yanaşı dünyəvi fənləri tədris edən müəllimlər də çalışırdılar. Onlar şagirdlərə şərq dillərindən və ədəbiyyatından yüksək biliklər verirdilər. Bir çox mədəniyyət xadimləri, o cümlədən şair Mirzə Şəfi Vazehdən dərs alan M.F.Axundov ilk təhsilini belə məktəblərdə almışdı. Onlardan yalnız bəzilərində valideynlərin təkidilə hesabın əsasları, işgüzar kağız və məktubların tərtib edilməsi öyrədilirdi.

Ərəb əlifbasını öyrənməyin çətinliyi, xüsusilə heca metodu, təcrübi bilik verməyən proqram, əzbərçilik, şagirdlərə qarşı tətbiq edilən cismani cəza və s. dərsləri cansıxıcı edirdi. Ona görə də Qafqazdakı məktəblər məktəb yaşlı uşaqların 1/10-ni əhatə edirdi.

Çar hökuməti ənənəvi məktəblərin (mollaxanaların) açılmasına şifahi razılıq verirdi. Ölkəmizdə bu zaman böyük məscidlərin nəzdində açılan və onların hesabına saxlanılan orta ruhani məktəbləri - mədrəsələr də fəaliyyət göstərirdi. Mədrəsələrdə təhsil və yaşamaq pulsuz idi. Mədrəsələrin dəqiq müəyyənləşdirilmiş proqramı, təhsil müddəti yox idi. Burada mollaxananı bitirən gənclər və 30 yaşına qədər şəxslər təhsil ala bilirdi. Onlar mədrəsəni bitirən zaman dini rütbə alırdılar.Quranı, ilahiyyatı dərindən öyrənməklə yanaşı, fəlsəfə, tarix, coğrafiya, astronomiya, təbabət, müsəlman hüququ da tədris olunurdu. Mədrəsələrə İranda, Tükiyədə, Misirdə ali dini təhsil almış müdərrislər başçılıq edirdi. Mədrəsələrdə yalnız rühanilər deyil, mədəniyyətimizin parlaq simaları olan görkəmli pedaqoqlar və şairlər də yetişmişdir.

Ölkəmizdə yaşayan digər xalqların (erməni, rus, alman və digər) təhsili kilsə və xüsusi məktəblərdə cəmləşmişdi. Şamaxı və Şuşada erməni məktəbləri daha çox idi. Erməni uşaqları erməni dili ilə yanaşı, Azərbaycan dilini də öyrənirdilər. 1827-ci ildə Yelenendorf və Annenfelddə alman məskunları, Zaqatalada ingiloylar, Qubada isə tatlar üçün məktəblər var idi.Çar hökuməti bu cür xüsusi məktəblərin açılmasına razılıq verirdi ki, bu məktəblər yerli əhalinin təhsilə tələbatını ödəməklə dövlət xəzinəsini maarif ocaqlarına əlavə vəsait xərcləməkdən xilas edirdi.

Ölkəmizdə milli məktəblərin fəaliyyəti ilə razılaşan çar hökuməti rus tədris sistemini də qururdu.Çarizmin maarif siyasətinin əsasında mürtəce "pravoslavlıq, mütləqiyyət və xalqçılıq" prinsipi dayanırdı. Bu prinsiplərin gözlənilməsi imperiya maarif nazirliyinin sərəncamları ilə tədris müəssisələrindən tələb olunurdu.

Müsəlman dini məktəbləri çar hökümətinin tələbatına cavab vermirdi. Ona görə də çar Rusiyasının rus olmayan xalqları itaət altına almaq, ruslaşdırma siyasəti yeritmək, xalq çıxışlarının qarşısını almaq, onları Rusiyaya yaxınlaşdırmaq məqsədi güdməsi də Azərbaycanda yeni məktəblər açmaq meylini gücləndirirdi.

Admiral Mordvinov yazırdı ki, belə xalqları silah gücü ilə həmişəlik istila etmək mümkün deyil. Onun fikrincə, təhsilli xalqa nisbətən, vəhşilərə yaxın bir xalqı istila etmək üçün onlara məhsul istehsalı prosesində iştirakı öyrətmək lazımdır. Onlarda yeni arzular, ehtiyaclar, yeni adətlər yaratmaq gərək, onları bizim qaydalarla, bizim şəraitlə, vərdişlərlə, bizim əyləncələrlə tanış etmək gərək və beləliklə də, onların sərt əxlaqını yumşaltmaq, onları bizim təsəvvürümüzə, zövqümüzə, bizdəki ev avadanlığı, paltar, başqa sözlə maddi məişətə yaxınlaşdırmaq lazımdır.

O yazırdı ki, yerli əhalinin adətlərinə müvəffəqiyyətlə təsir etmək və bizim adət və qaydaları onların arasında yaymaq üçün gənc

knyazların və xalq starşinalarının (ağsaqqalların) uşaqlarını tərbiyə etmək məqsədi ilə bizim məktəbləri şəhərlərə aparıb çıxarmaq faydalı olardı. Həm də bu məktəbləri elə təşkil etmək lazımdır ki, orada yerli əhali özünün adətini, qayda-qanunlarını görsün. Bu yerlərin maarifinə 100 min manat pul xərcləməklə, sərhədləri qorumaq üçün lazım olan böyük ordunu saxlamağa xərclənən milyonlarla manata qənaət edirlər.

Bir sözlə, rus imperiyası istəyirdi ki, maarifin gücü ilə Azərbaycanda özünün standartlarına cavab verən müti cəmiyyət formalaşdırsın. Bu dövrdə yerli əhali içərisində təhsilə meyl və həvəs oyanırdı. Generl Sipyakin yazırdı ki, yerli əhali özləri də oxumağa böyük həvəs göstərir. O yazır ki, mən Şuşada olarkən Məhəmməd təriqətinə mənsub olan çoxlu uşaqların hökümətin icazəsi ilə orada açılmış məktəbdə Bazel missionerlərinin rəhbərliyi altında məşğul olmalarına valeh oldum. Müəllimlərdəki tək bir qüsur uşaqları rus dili vasitəsilə Avropa adətləri və təsəvvürləri ilə tanış olmağa qoymamaqdır. Missionerlərin bu hərəkəti çar hökümətini qane etmədi. Ona görə də məktəb bir qədər sonra fəaliyyətini dayandırdı. Çarizm ölkəmizdə onun ideya siyasi mənafeyinə xidmət edəcək maarif sistemi yaratmağa başladı ki, onun da ilk qaranquşu qəza məktəbləri oldu.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra Zaqafqaziya məktəbləri haqqında general Paskeviçin təşəbbüsü əsasında 1829-cu il "Əsasnamə"si ilə ilk məktəblərin nizamnaməsi təsdiq edildi. Həmin Nizamnaməyə görə Cənubi Qafqazda 20 qəza rus məktəbi açılmalı idi ki, bunun da 9-u Azərbaycanda (Gəncə, Qazax, Şuşa, Nuxa, Şamaxı, Quba, Bakı, Naxçıvan, Ordubad) olmalı idi.

İlk qəza məktəbi Şuşada (1830), sonra Bakıda (1832), Gəncədə (1837), Naxçıvanda (1838) və Şamaxıda (1838) açıldı. XIX yüzilliyin 50-ci illərinin sonunda ölkəmizdəki 9 rus məktəbinin 5-i qəza (üçsinifli), 3-ü birsinifli ibtidai (Quba, Lənkəran və Ordubadda) və

biri ali dördsinifli (Şamaxıda) məktəb var idi. Əvvəllər ümumi rəhbərliyi olmayan bu məktəblər Tiflis gimnaziyasının direktoru vasitəsilə imperiya Xalq maarif nazirliyi ilə ünsiyyətdə olan Gürcüstan Baş hakiminə tabe idi. Dövlət tərəfindən açılan bu ilk məktəblərdə şəriət, qiraət, hüsnxət, hesabdan ilk dörd əməliyyat, rus dili və yerli dil tədris edilirdi. İlk dövrlərdə qəza məktəblərində başlıca olaraq rus məmurlarının uşaqları təhsil alırdılar. Sonralar övladlarını dövlət idarələrində qulluğa qoymaq istəyi yerli müsəlman hakim təbəqənin də bu məktəblərə marağını artırdı.

Məktəbin müəllim kadrları əsasən Rusiyadan göndərilirdi. Şagirdlər yuxarı silklərə mənsub olanların uşaqları idi. Hökümət bu məktəblərə çoxmillətli Cənubi Qafqaz ölkəsində xidmət etmək üçün bacarıqlı məmurlar, ilk növbədə tərcüməçilər hazırlamaq nöqteyi-nəzərindən yanaşırdı. Azərbaycanın qabaqcıl adamları hər vasitə ilə yeni məktəblərdən cəhalətə qarşı mübarizə üçün istifadə etməyə, orada oxuyan azərbaycanlıların sayını artırmağa çalışırdılar.

Qəza məktəbinin təşkilindəki çətinliklərdən biri və başlıcası müəllim kadrlarının olmaması idi. Rusiyadan çağırılmış müəllimlərin heç də hamısı bu məktəblər üçün yararlı deyildi. Zaqafqaziya məktəblər direktoru bu məsələyə fikir verməyi, onları müsəlman əyalətlərinə göndərərkən daha ehtiyatlı olmağı lazım bilirdi. Çünki XIX yüzilliyin 30-cu illərində islam dininin dərin təsiri altında olan əhali yeni yaranan rus məktəblərinə xor baxır, mənəvi cəhətdən qüsurlu müəllimlərin işlədiyi məktəblərə biganə qalırdı.Yerli əhalidən müəllim kadrları hazırlayan məktəb isə hələlik yox idi. Yeganə ümid Tiflis gimnaziyasını bitirənlər idi ki, burada da cəmi 40 nəfər təhsil alırdı. İlk qəza məktəblərinin təşkili işindəki çatışmazlıqlardan biri də dərsliklərin, tədirs vəsaitinin yoxluğu idi. Zaqafqaziya məktəblər direktoru Qruber dərsliklərin miqdarına, nəşrinə sərf ediləcək məbləği

müəyyənləşdirərək maarif departamentinə göndərsə də, onun işdən götürülməsi ilə yeni direktorun mülahizəsinə verildi.

Məktəb üçün müvafiq binanın olmaması da ilk qəza məktəblərinin təsis edilməsində qarşıya çıxan çətinliklərdən biri idi. Məktəb binaları əsasən dövlət xəzinəsinə toxunmadan şəhərlərin hesabına və ya ianələr hesabına əldə edilirdi. Məktəblər direktorluğu ilk illər məktəb binaları tikmək məsələsini təxirə salır və ölkədə təhsil işi gedişinin nə şəkil alacağını gözləyirdi.

Nəhayət, dekabrın 30-da Şuşa qəza məktəbi təntənəli şəkildə açıldı. Sankt-Peterburq Mərkəzi Dövlət arxivində saxlanılan sənəddə deyilir: "Dekabrın 30-da gündüz saat 11-də bir sıra rəsmi dövlət nümayəndələri, hərbi qulluqçular, Qarabağın hərbi bəyləri məktəb binasına toplandılar. N.Mixaylovski Əlahəzrət tərəfindən təsdiq olunmuş 1829-cu il "Nizamnamə"sindən qısa çıxarış oxudu və qəza məktəbinin açılışını elan etdi. Həmin gün 1-ci sinif açıldı və 19 şagirdlə təlimə başlanıldı.

Beləliklə, Şuşada təsis edilən ilk qəza məktəbi ilə Azərbaycanda ilk dünyəvi rus məktəbinin bünövrəsi qoyuldu. 1833-cü ildə Şuşa qəza məktəbində təhsil alan şagirdlərin sayı 27, 1834-cü ildə isə 44 nəfər olmuşdur.

Beləliklə, bir tərəfdən yerli əhalinin təhsilə olan marağı, digər tərəfdən kadrların hazırlanmasına olan ehtiyac müvafiq tədris binaları tikmək zərurətini irəli sürürdü. Odur ki, Zaqafqaziya məktəblər direktoru tədris müəssisələrinin yenidən qurulmasının layihəsini tərtib edərək 1834-cü il fevralın 8-də Rusiya Xalq Maarif naziri S.Uvarova təqdim etdi. Layihədə Azərbaycanda mövcud olan 4 qəza məktəbini yenidən qurmaqla Şamaxıda, Lənkəranda, Naxçıvan və Qubada 3 sinifli qəza məktəbi açmaq nəzərdə tutulurdu.

Zaqafqaziyanın Baş hakimi Baron Rozenin layihəsi əsasında 1835-ci ildə Zaqafqaziya məktəblərinin yeni Nizamnaməsi meydana

gəldi ki, bu da I Nizamnaməyə nisbətən irəliyə atılmış bir addım idi. Çar hökümətinin Qafqazda 1840-cı il 10 aprel tarixli inzibti islahatına əsasən Kaspi vilayətinin tərkibində yaradılmışdır. 1846-cı il 14 dekabr tarixli Əsasnaməyə görə Azərbaycan ərazisində olan bəzi qəzaların adları dəyişdirildi. Belə ki, Şirvan qəzasının adı dəyişdirilərək Şamaxı qəzası, Şəki qəzası - Nuxa qəzası, Qarabağ qəzası - Şuşa qəzası, Talış qəzası - Lənkəran qəzası adlandırıldı. Şuşa qəzası 1868-ci ildən Yelizavetpol quberniyasına daxil edilmişdi. İlk dövrlərdə qəza məktəblərində başlıca olaraq rus məmurlarının uşaqları təhsil alırdılar. İllər ötdükcə bütün üstünlükləri ilə birlikdə rus təhsilinin vacibliyi, ən başlıcası isə iqtisadi tələbat yerli əhalidən olan uşaqların rus məktəblərinə daxil olmasına maraq yaratdı.

Getdikcə rus məktəblərində təhsil alan azərbaycanlıların sayı artırdı. Onların ən yüksək faizi 1852-ci ildə Nuxada (37%- 24 nəfər) və Şamaxıda (36%-80 nəfər) müşahidə olunurdu. Azərbaycanın bütün qəza məktəblərində 1857-ci ildə cəmi 148 azərbaycanlı şagird vardı.

Adları çəkilən məktəblər ancaq oğlanlar üçün nəzərdə tutulmuşdu. Azərbaycanda rus qadın təhsili xeyli sonralar meydana gəlmiş və başlıca olaraq diyarda xidmət edən rus məmurlarının uşaqları üçün nəzərdə tutulmuşdu. İbtidai məktəb sinfi olan ilk belə məktəb 1848-ci ilin aprelin 30-da Şamaxıda eyni adlı xeyriyyə cəmiyyəti tərəfindən açılmış Müdəqqəs Nina məktəbi idi

Təhsil dili olan rus dili proqramda əsas fənn idi. Təhsilin müvəffəqiyyəti rus dilini mənimsəməkdən asılı idi. İki və dördsinifli məktəblərdə tədris edilən tarix və coğrafiya fənləri şagirdləri monarxiya ruhunda tərbiyə etməli, onlara Rusiya imperiyasının böyüklüyünü aşılamalı, onun təbii ehtiyatlarının zənginliyi barədə təsəvvür yaratmalı, onlara xidmət edəcəkləri diyarla tanış etməli idi.Məktəblər rus dili dərslikləri ilə kifayət qədər təmin edilirdilər.

Bu dövrdə Azərbaycan mədəniyyətinin qabaqcıl nümayəndələri

maarifin yayılmasının vacibliyini bütün kəskinliyi ilə başa düşür, onu xalqın əsrlər boyu davam edən geriliyini aradan qaldırmağın başlıca vasitəsi hesab edirdilər. 1832-ci ildə A.Bakıxanov Bakıda pansionlu (yataqxanalı) dünyəvi müsəlman məktəbinin layihəsini işləyib hazırladı. Layihədə ana dili və fars dili ilə yanaşı, rus dili, tarix, coğrafiya, hesab fənlərinin tədrisi nəzərdə tutulurdu. Lakin layihə həyata keçmədi.

Tədris müddətinin 3 il müəyyən edilməsi və təhsilin məzmununa bir sıra həyati fənlərin daxil olunması ideyası ilk dəfə 1832-ci ildə A.Bakıxanov tərəfindən irəli sürülmüşdür. A.Bakıxanov Bakıda azərbaycanlı uşaqlar üçün dünyəvi təhsil məktəbi açmağın müfəssəl bir layihəsini tərtib edərək Baron Rozenə təqdim etmişdi. Lakin Rozen bu sənədi öz şəxsi arxivinə atmaqla kifayətlənmişdi. Bir müddətdən sonra A.Bakıxanovun layihəsi üzrə müsəlman məktəbi 1847-ci ildə Tiflisdə açıldı.

Azərbaycanda ilk müsəlman məktəbləri 1849-cu ildə Gəncədə, Şuşada, Şamaxıda və Bakıda meydana çıxmışdı. Bu məktəblərdə azərbaycanlı şagirdlərin sayı qəza məktəblərindəkindən xeyli çox idi. Müsəlman məktəbləri əhalinin vəsaiti hesabına saxlanılırdı. Proqramların həddən artıq məhdud olmasına, ixtisaslı pedaqoqların çatışmazlığına, təhsilin keyfiyyətinin aşağı olmasına baxmayaraq, rus dövlət məktəbləri Azərbaycanın qəza mərkəzlərində yaşayan azərbaycanlıların, ləzgilərin və digər xalqların uşaqlarına ümumi ibtidai təhsil verə bilən yeganə pulsuz təhsil müəssisələri idi. Təhsil sistemində aparici yer məhz bu məktəblərə məxsus idi.

Yerli əhalidən rus dilini bilən ruhani şəxslər hazırlamaq və şərq dillərini bilən mütləqiyyətə sadiq qulluqçular hazırlamaq zərurəti çar hökümətini müsəlman məktəbləri açmağa icazə verməyə məcbur etdi.

1850-ci ildə Nuxada Lənkəranda və Salyanda belə müsəlman məktəbləri meydana gədi. Yerli əhalinin qabaqcıl dəstəsi bu

məktəblərin təşkilini rəğbətlə qarşılayır, məktəbin nəfinə ianə toplamaqla, bina kirayə etməklə fəallıq göstərirdi. Şamaxı şəhərində məktəbin təşkilində yazıçı general İsmayıl bəy Qutqaşınlı, kapitan Şirəli bəy, Lənkəranda və Salyanda Mirəlibəy Talışxanovla Mirzə Məmmədəli Şəfiyevin xüsusi xidməti olmuşdur. Azərbaycan, fars və ərəb dillərini yerli ziyalılar, rus dilini isə Lənkəranda Məmmədəli Şəfiyev pulsuz tədris edirdi.Rus dilinin tədrisindəki fəaliyyətinə görə M.Şəfiyevə və M.Ə.Talışxanova canişinliyin təşəkkürü elan edilmişdi.

Çar Rusiyasının ölkəmizdə maarif, umumən mədəniyyət sahəsindəki siyasəti də sosial-siyasi və iqtisadi sahədə olduğu kimi müstəmləkə xarakteri daşıyırdı. Çar Rusiyasının maarif sahəsindəki müstəmləkəçilik siyasətinə toxunan İsmayılxan xan Ziyadxan I Dövlət Dumasında (1906) çıxışında demişdi:"Xalq təhsilindən, ümumiyyətlə maarif sahəsindən danışmağa dəyməz. Çünki bizim kəndlərin heç birində məktəb yoxdur. Yüz kilometrlərlə gedilsə belə, hər hansı bir yaşayış məntəqəsində məktəbə (dünyəvi) rast gəlməzsiniz, halbuki bizdən maarif işləri üçün vergi toplanılır". Bu, çarizmin Azərbaycandakı bütün əsarəti dövrü üçün səciyyəvi idi. Mütərəqqi müəllimlərin çalışdıqları məktəblərdə kitabxanaların təşkilinin tədris və mədəni cəhətdən mühüm əhəmiyyəti var idi. Azərbaycandakı rus məktəblərinin kitabxanalarına demokratik nəşrlər, o cümlədən "Sovremennik", "Oteçestvennıye zapiski" jurnalları daxil olurdu. Bu kitabxanalar xalqlar arasında mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edən qabaqcıl ideyaların mənbəyinə çevrilirdi. "Zərərli" sayılan nəşrlər məktəb kitabxanalarından çıxarılırıdı. Qiraətə olan mənəvi ehtiyac 1859-cu ildə Şamaxıda və Şuşada ilk kütləvi kitabxanaların təşkilinə səbəb oldu.

A.Bakıxanov Qubada zəngin şəxsi kitabxana təşkil etmişdi. Kitabxanadakı qiymətli kitablardan istifadə edərək o, öz əsərlərini yazmışdır. Onun vəfatından bir neçə gün sonra Qafqaz canişini M.Vorontsov (1844-1854) gənc şərqşünas N.Xanıkovu həmin kitabların siyahısını tutmaq və satın alınmasını təmin etmək üçün Qubaya göndərmişdi. Lakin A.Bakıxanovun həyat yoldaşı Səkinə xanım yaş mərasiminə başı qarışdığı üçün bu məsələ həllini tapmamışdır.Sonralar o, kitabxananın mühüm bir hissəsini Peterburq universitetinə bağışlamışdı.

Mirzə Fətəli Məmmədtağı oğlu Axundov (1812-1878) dramaturq, maarifçi, şair, matertialist filosof və ictimai xadim, Azərbaycan dramaturgiyası və ədəbiyyatında ədəbi tənqidin banisi hesab olunur. "Müsəlman Molyeri" kimi tanınan Axundov həm də romantik və müasir İran millətçiliyinin sələflərindən biri idi. Azərbaycan, fars və rus dilini bilirdi. Gəncədə Məhəmməd Hüseyn Pişnamazzadə və Mirzə Şəfi Vazeh ona dərs demişdi. A.Bakıxanovun köməkliyi ilə Qafqazın Baş hakimi Baron Rozenin Tiflisdəki dəftərxanasında Şərq dilləri üzrə tərcüməçi vəzifəsində çalışmışdır. O, sosial, ədəbi mühitlə sıx əlaqədə olmuşdur. Bədii yaradıcılığa şerlə "Səbuhi" təxəllüsü ilə başlamışdır. O, böyük rus şairi A.S.Puşkinin ölümünə "Şərq poemasını "(1837) yazmışdır.

M.F.Axundov ədəbiyyatda azad düşüncə tərzinin ən böyük nümayəndəsidir. İslam dünyasının sosial-siyasi sahələrində radikal islahatların aparılması zəruriliyini müdafiə edirdi."Hekayəti Molla İbrahim Xəlil kimyagər" (1850), "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Cangükuni məşhur "(1850), "Sərgüzəşti-vəziri-xani-Lənkəran"(1850), "Hekayəti Xırsı-quldurbasan" (1851), "Sərgüzəşti mərdi-xəsis (Hacı Qara)" (1852), "Mürafiə vəkillənin hekayəti"(1855) yazmışdır. Komediyalarda feodalizmə məxsus cəhətləri tənqid etmişdir.

M.F.Axundov nəinki Azərbaycanda, bütün türk-müsəlman dünyasında dramaturgiyanın əsasını qoymuşdur. Azərbaycan qadınlarının timsalında ilk dəfə Şərq qadınlarının obrazını yaratmışdır. O, komediyalarını Azərbaycan (türk) dilində yazmışdır. Komediyaların mövzuları da əsasən ölkəmizin həyatından götürülmüşdür.Maraqlıdır ki, elmi əsərlərini fars dilində yazmış, İran (fars) mədəniyyətinə böyük rəğbət göstərmiş, İran (Sasani) dövlətinin təəssübkeşi kimi çıxış etmişdir. M.F.Axundovun xarakterini humanist cəhətlər səciyyələndirir. O, Qarabağın sonuncu xanı Mehdiqulu xanın və qızı Natəvanın irsi ilə bağlı hüquqlarını müdafiə etmişdir.O, Şəkidə (Nuxada) dünyaya gəlmiş, bir müddət Xamnədə (Cənubi Azərbaycan) yaşamış, Tiflisdə vəfat etmiş, burada dəfn olunmuşdur.

Mətbuat. Ədəbiyyat.1828-1832-ci illərdə Tiflisdə çap olunan "Tiflis əxbarı" (bəzən də Tiflis xəbərləri"adlanır) Azərbaycan mətbuatının ilk nümunəsi kimi göstərilir. Bu qəzetin əlavə vərəqəsi 1832-ci ildə həftədə bir dəfə farsca çap olunurdu. Həmin qəzet vərəqəsində rus dövlətinin rəsmi sənədləri, fərmanları idi. Qəzetin senzoru ehtimal ki, redaktoru Abbasqulu Ağa Bakıxanov idi.

1841-1846-cı illərdə Tiflisdə rus dövlətinə məxsus "Zakafkazskiy vestnik" qəzetinin əlavəsi kimi Azərbaycan türkcəsində ayrıca bir vərəqə buraxılırdı. Burada rəsmi hökümət xəbərləri ilə bir sırada bəzi ictimai xarakterli yazılar və ticarətə dair məlumatlar da çap olunurdu.

Görkəmli alim, professor Mirzə Kazım bəy də 1834-cü ildə Kazanda tatar dilində "Bəhrül-əsrar"(Sirlər dənizi) Rusiya türkləri üçün qəzet nəşr etmək istədi. Hökümət buna icazə vermədi. XIX yüzilliyin 50-ci illərindən rus dilində çıxan "Kafkaz"qəzetində bəzən də ara-sıra Azərbaycan dilində yazılara təsadüf olunurdu.

XIX yüzilliyin birinci yarısında Azərbaycan ədəbiyyatının mühüm bir qolunu klassik romantik poeziya təşkil edirdi. A.Bakıxanov, M.Ş.Vazeh, Q.Zakir, M.B.Nədim, Ə.Nəbati, Kazım ağa Salik kimi istedadlı şairlər dahi Azərbaycan şairi Füzulinin ənənələrini davam etdirir, klassik romantik şeirin müxtəlif janrlarında əsərlər yaradırdılar.

Bu dövrdə Azərbaycan ədəbiyyatında böyük əhəmiyyətə malik olan satirik şeir cərəyanının əsası qoyulmuşdur. Satirik şeirin görkəmli nümayəndələri Baba bəy Şakir, Qasım bəy Zakir və Mirzə Baxış Nadimdir. Bu şairlərin satirik şeirlərində Azərbaycan ictimai-siyasi həyatının bir sıra səciyyəvi cəhətləri əks olunmuşdur.

XIX yüzilliyin birinci yarısında aşıq şeiri geniş inkişaf edir.Aşıq şeirinin görkəmli nümayəndələri –Aşıq Musa, Məhəmməd Hüseyn, Aşıq Rəcəb, Aşıq Camal və digər aşıqlar idilər.

A.Bakıxanov "Qüdsi" təxəllüsü ilə həm Azərbaycan, həm də fars dilində klassik romantik şeir üslubunda çoxlu əsərlər yazmışdır. A.Bakıxanovun poetik irsində "Gürcülər arasında mənzum məktub"u, "Təbriz əhlinə xitab" satirası və digər əsərləri diqqəti cəlb edir. O, məhşur rus təmsilçisi İ.A.Krılovun "Eşşək və bülbül" təmsilini Azərbaycan dilinə tərcümə etmişdir.

Azərbaycan ədəbiyyatının bu dövrdəki görkəmli nümayəndələrindən biri də M.Ş.Vazehdir (1792-1852). Mirzə Şəfi bir müddət Cavad xanın qızı Püstə xanımın yanında mirzəlik (katiblik) etmişdir. O, klassik romantik şeir üslubunda Azərbaycan və fars dillərində çoxlu əsər yaratmışdır. Lakin onun zəngin ədəbi irsindən orijinalda az bir qismi bizə gəlib çatmışdır. Şairin əsərlərinin əsas hissəsi Fridrix Bodenştedt tərəfindən alman dilinə edilmiş tərcümələrindən ibarətdir. F.Bodenştedt Mirzə Şəfinin əsərlərini alman dilinə tərcümə edərək bir hissəsini 1850-ci ildə Ştutqardda

“Min bir gecə” kitabında, tam şəkildə isə 1851-ci ildə Berlində “Mirzə Şəfinin şərqiləri” adı altında nəşr etdirir.

Mirzə Şəfi 1840-cı ildə Tiflisə gəlir və bilavasitə M.F.Axundovun köməkliyi ilə Tifli qəza məktəbində Azərbaycan və fars dili müəllimi təyin edilir.Tiflisdə “Divani-hikmət” adlı ədəbi məclis təşkil edir.A.Bakıxanov, M.F.Axundov və Fridrix Bodenştedt bu dərnəyin fəal üzvləri olmuşlar.

Məhşur rus şairi A.S.Puşkin (1799-1837) iki dəfə Qafqazda olmuşdur. Birinci dəfə sürgündə (1820), ikinci dəfə isə rus-türk müharibəsinin iştirakçısı kimi. İkinci səfərdə o,Dərələyəzdə, Ərzurumda hərbi yürüşlərdə iştirak etmişdir. O,Azərbaycanda olan bəzi şəxslərlə dostluq əlaqələri saxlayırdı. Qafqazla bağlı bir sıra əsərlər yazmışdır. Xüsusən “Qafqaz” (1829) şeirində bu diyarın gözəlliyini vəsf etmişdir. O, başa çatdırmadığı “Tazit” poemasında yazdığı “sən qorxaqsan, sən köləsən, sən ermənisən” ifadəsinə görə ermənilər şairə nifrət edirlər. Əslində poemada çərkəz ağsaqqalı öz oğlu Taziti danlayarkən bu ifadəni işlətmişdir.

Böyük rus şairi M.Y.Lermontov (1814-1844) cənuba ilk sürgünü zamanı Azərbaycana səfər edib, Şuşa, Quba, Şamaxı, Qusarda olmuşdur. Dostu S.Rayevskiyə yazırdı ki, Avropada fransız dili qədər Qafqazda əhəmiyyətli hesab etdiyi Azərbaycan dilini Mirzə Fətəli Axundzadədən (Axundovdan) öyrənir.

O, əsərinin birində Qarabağ atlarından bəhs etmiş, bu diyarı bəyəndiyini söyləmişdir. M.Y.Lermontov Azərbaycan dastanı “Aşıq Qərib ” əsasında eyni adlı hekayə yazmışdır.

Qeyd etmək lazımdır ki, Bestujev-Marlinski və A.S.Puşkindən sonra Qafqaz reallıqlarını inandırıcı şəkildə işıqlandıran, sələflərinə münasibətdə mövzuya daha dərindən bələdçilik nümayiş etdirən M.Y.Lermontov olmuşdur.

Elm. Yeni maddi və mənəvi tələbat Azərbaycanın savadlı adamlarının elmi, ədəbi, fəlsəfi dünyagörüşünü genişləndirirdi. Mütərəqqi baxışlı zadəgan ziyalıları Avropa maarifi ilə tanış olurdular. Bunun nəticəsində ölkəmizdə elmi təfəkkürün fəlsəfə, filologiya, cografiya, tarix, astronomiya kimi ənənəvi sahələri inkişaf edirdi.

Vətən tarixini yaratmağın mənəvi-siyasi və elmi dəyərini ilk dəfə anlayanlardan biri Abbasqulu Ağa Bakıxanov (1794-1846) olmuşdur. O, Bakı xanı II Mirzə Məhəmməd xanın oğludur. Anası Sofiya xanım isə müsəlmanlığı qəbul etmiş gürcü qızı idi. A.Bakıxanov 1819-cu ildə o zamankı Qafqazın Baş hakimi general A.Yermolovun dəvəti ilə Tiflisə gələrək Qafqazın Baş hərbi idarəsində Şərq dilləri üzrə tərcüməçi vəzifəsinə qəbul olunmuş və 26 il bu vəzifədə çalışmışdır. Tiflis mühiti, Avropa və rus şairləri və ziyalıları ilə tanışlıq onun dünyagörüşündə dərin iz buraxmışdır. A.Bakıxanov Gülüstan müqaviləsində (1813) nəzərdə tutulmuş Qacarlar dövləti ilə sərhədləri müəyyənləşdirən komissiyanın işində və Türkmənçay sülhünün (1828) bağlanması zamanı aparılan danışıqlarda tərcüməçi kimi iştirak etmişdir.Tərcüməçilik fəaliyyəti, ərəb və fars filologiyasını dərindən öyrənmək, təhsil görmüş zabitlərlə təmasda olmaq A.Bakıxanovda elmi-tədqiqat işlərinə həvəs oyatdı. Çarizmin müstəmləkə sistemindən narazı qalan A.Bakıxanov hərbi xidmətdən gedərək, ömrünün qalan hissəsini elmi tədqiqat işinə həsr etmək qərarına gəlir.

A.Bakıxanov 1833-cü ildə uzunmüddətli səyahətə çıxır. Peterburq, Varşava və digər şəhərlərdə olur. Avropa mədəniyyəti ilə tanış olmaq imkanı verən səyahətini o, faydalı səfər hesab edirdi. İstefaya çıxan A.Bakıxanov 1835-ci ilin əvvəlində Quba əyalətinin Əmsar kəndinə köçür. A.Bakıxanov 1845-ci ildə Məkkəyə ziyarətə gedir. O, bu səfərdən həm də elmi məqsədlər üçün istifadə edir.

Tehranda qaldığı iki ay ərzində həm alimliyi, həm də davranışı ilə böyük hörmət qazanır. O, İstanbulda olarkən burada türk dilində çap edilmiş, "Əsrar-Əl Məlaküt" ("Səma şahlığının sirləri") adlı astronomiya mahiyyətli əsərini türk sultanı Əbdülməcidə (1839-1861) hədiyyə etmişdir.

A.Bakıxanov 1846-cı il dekabrın ortalarında ziyarətdən qayıdarkən vəba xəstəliyinə tutulur. Ərəbistanda Məkkə ilə Mədinə arasında "Vadiyi-Fatimədə" vəfat edir, burada dəfn olunur. Görkəmli alim və şair kimi A.Bakıxanovun Rusiyanın hərbi-siyasi və mədəniyyət xadimləri A.S.Qriboyedov, A.A.Bestujev-Marlinski, A.S.Puşkin, sürgündə olan polyak şairi Faddey (Tadueş-Lada) Zablotski ilə sıx əlaqələri olmuşdur. Qazan və Peterburq şərqşünasları M.C.Topçubaşov, M.Kazımbəy, X.Fren, P.İ.Brosse, İ.Berezin, B.Dorn onunla əlaqə saxlayırdılar. Fransız və alman səyyahları qraf Süzanne, K.Kox, F.Bodenştedt Qubada və Tiflisdə A.Bakıxanovla görüşmüş, bu görüş haqqında öz xatirələrində qeyd etmişlər. A.Bakıxanovu Azərbaycanın, İranın və Cənubi Qafqazın mədəniyyət xadimləri İ.H.Qutqaşınlı, M.Ş.Vazeh, M.F. Axundov, F.Şeyda, A.Çavçavadze, Q.Qrebliani ilə bir çox başqaları ilə sıx tellər biləşdirirdi.

A.Bakıxanov Vətən tarixinin öyrənilməsinin xalqların şüurunun və vətənpərvərlik hisslərinin inkişafına kömək etdiyini vurğulayırdı. O, yazırdı: "Tarixin öyrənilməsinin, tarixin onun keçmiş həyatını təsvir etdiyi xalq üçün xüsusilə vacibdir. Tarix onu doğma torpağın keyfiyyətləri ilə, onun üzərində məskunlaşmış tayfaların xarakteri ilə tanış edir və xalqların bütün qarşılıqlı əlaqələrindən nəticə çıxararaq, onun zərərini və faydasını göstərir".

A.Bakıxanov Azərbaycanın elm və mədəniyyət tarixinə hər şeydən əvvəl görkəmli maarifçi-tarixşünas kimi daxil olmuşdur. Vətən tarixi sahəsindəki çoxillik axtarışlarının nəticəsi onun 1841-ci

ildə fars dilində yazıb tamamladığı və 1843-cü ildə "Qafqazın şərq hissəsinin tarixi" adı ilə rus dilinə tərcümə edilən "Gülüstani-İrəm" əsəri oldu. Əsər Cənub-Şərqi Qafqazın (Şirvan və Dağıstanın) qədim zamanlardan Gülüstan sülh müqaviləsinə qədər olan dövrünün tarixi xülasəsindən ibarətdir.Rus dilini bilmək ona Cənub-Şərqi Qafqazın qədim və orta əsrlər tarixini tərtib etmək üçün ərəb və fars mənbələri ilə yanaşı, yunan və digər tarixçilərin əsərlərindən faktiki material əldə etməyə imkan vermişdi. Əsər yalnız bizim dövrümüzdə Bakıda 1926-cı ildə rus dilində, 1951-ci il və 1991-ci illərdə Azərbaycan dilində 1970-ci ildə fars dilində nəşr olunmuşdur.

A.Bakıxanov "Gülüstani-İrəm" əsəri ilə ilk dəfə Azərbaycan tarixşünaslığının əsasını qoymuşdur. Özündən əvvəlki və müasiri olduğu tarixçilərdən fərqli olaraq əsərdə istifadə etdiyi mənbələri və əsərləri göstərmiş və onlara tənqidi yanaşmışdır. Yəni Vətən tarixşünaslığına elmi-tədqiqat metodunu gətirmişdir. O,ilk dəfə tarixşünaslıqda dövrləşdirmə aparmış və dil materiallarından mənbə kimi istifadə etmişdir, numizmatik, toponomik materiallardan bəhrələnmişdir. Müasiri olduğu digər tarixçilərdən fərqli olaraq ayrı-ayrı bölgələrin tarixini deyil, Azərbaycanı coğrafi-iqtisadi və siyasi vahid kimi öyrənmişdir. 5 fəsildən ibarət olan əsərin beşinci fəslinin materialları orijinaldır və müəllifin özü tərəfindən toplanmışdır. Vətən tarixşünaslığının rəvayət və əfsanələrdən azad olunması və onun həqiqi bir elm şəklinə düşməsində A.Bakıxanovun böyük xidməti olmuşdur.

XIX yüzilliyin I yarısında fəlsəfi fikir inkişaf edirdi. Bu dövrdə Azərbaycan fəlsəfəsinin başlıca mövzusu orta əsr ərəb-müsəlman fəlsəfi konsepsiyaları idi. Lakin ölkənin sosial-iqtisadi tələbatı yeni təhsil və tərbiyə sisteminin, cəmiyyətin yenidən qurulmasını, problemlərin araşdırılmasını zəruri edirdi.

Ensiklopedik zəka sahibi olan A.Bakıxanovun fars dilində yazdığı "Əsrar əl-Məlaküt" (Səma şahlığının sirləri), "Kəşfül-Qəraib"(Qəribə kəşflər), "Ümumi coğrafiya" əsərləri XIX yüzilliyin I yarısında Azərbaycanın kosmoqrafik elminə hədiyyə oldu. Birinci əsər astronomiya mahiyyətlidir. Yerin və digər planetlərin Günəş ətarfında fırlanmasını sübut edən A.Bakıxanov islamın müddəalarını təkzib edirdi. O, kainatın quruluşunun izahında Kopernik, Qaliley, Nyuton və başqalarının kəşflərinə istinad edirdi.

Kolumbun Amerikanın kəşfinə həsr olunmuş"Kəşfül-Qəraib" (Qəribə kəşflər) əsərini şair Mirzə Məhərrəm ilə birlikdə fars dilində yazmışdır. Onun fars dilində yazdığı "Ümumi coğrafiya" adlı qiymətli əsəri əlimizdə yoxdur. Yanlız "Gülüstani-İrəm " yüzilliyindən məlum olur ki, alim bu əsərində dünyanın təbii və siyasi vəziyyətindən, cəmiyyətin quruluşundan, qitə və sərhədlərdən və s. bəhs etmişdir.

Rus Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin üzvləri olan M.F.Axundov "Yeni dünyanı kəşf edən Xristofor Kolumbun tarixi" və İ.Qutqaşınlı Məkkə ziyarətindən sonra ərəb şərqi ölkələrinin və xalqlarının coğrafiyası və etnoqrafiyasına dair "Yol qeydləri"ni yazmışdır.XIX yüzilliyin 30-cu illərinin əvvəllərində görkəmli coğrafiyaşünas Zeynalabdin Şirvani özünün Yaxın və Orta Şərqə, Hindistan, Ərəbistan, Şimali Afrikaya səyahətlərinin təsvirini başa çatdırmışdır.

A.Bakıxanovun ərəb dilində yazdığı "Təhzibül-əxlaq" (Əxlaqın tərbiyəsi) əsəri əxlaqi, fəlsəfi mahiyyət daşıyır. Bu əsərdə o, cəmiyyət haqqındakı fikirlərini bir sistem şəklində şərh edərək, gənclər arasında nəcib əxlaq normalarını, onun gözəl cəhətlərini təbliğ edir. Əsər müqəddimə və xülasədən başqa 12 fəsildən ibarətdir. Müəllif əsərdə bir əxlaq müəllimi kimi faydalı məsləhət və nəsihətləri ilə oxucunu düz yola dəvət edir, onları əməyə rəğbət, dostluğa sədaqət, böyüklərə

hörmət, təvazökarlığa və ədalətə çağırır. İnsan qəlbini ləkələyən, onu cəmiyyət içərisində xar edən tənbəllik, riya, paxıllıq, nankorluq, yalançılıq kimi alçaq sifətlərdən çəkindirməyə çalışır və öz fikirlərini dərin fəlsəfi izah və sübutlarla möhkəmləndirir.A.Bakıxanovun "Nəsayeh" (Nəsihətlər) əsəri "Təhzibi-əxlaqi" əsərindən çıxarışdır. Müəllifin yeniyetmələrə tərbiyə vermək məqsədilə asan dildə yazdığı əsəri 103 nəsihətdən ibarətdir. Onların əksəriyyəti bu gün də öz əhəmiyyətini itirməmişdir.

A.Bakıxanovun ərəbcə yazdığı "Eynəl-mizan" (Tərəzinin gözü) əsəri məntiqə həsr olunmuşdur. A.Bakıxanovun ana dilində yazdığı. "Kitabi Əsgəriyə"(1837) əsəri Azərbaycan ədəbiyyatı tarixində ilk povest adlandırıla bilər. Burada iki gəncin pak və səmimi eşqi tərənnüm edilir, bu məhəbbətə maneçilik törədən feodal mühiti, dini ehkamlar qamçılanır.

A.Bakıxanov bu əsərlərində əxlaqi təfəkkürə və məntiqi mühakimə qabiliyyətinə tərbiyə və təhsilin məhsulu kimi baxır, insanın şəxsi həyatında və elmi yaradıcılığında ləyaqət və düşüncənin əhəmiyyətini qeyd edir. Onun etikası və məntiqi rasional, maarifçi ideyalar və amallarla zəngindir, köhnə müsəlman əxlaq nəzəriyyəsindən fərqlənir.

XIX yüzilliyin birinci yarısında rus alimləri Şimali Azərbaycanda kəşfiyyat-axtarışlarına başladılar. E.İ.Eyxvald, N.İ.Voskoboynikov filiz-mədən yataqlarının vəziyyətini tədqiq etmiş, Abşeronda neftli torpqaların quruluşunun təsvirini vermişdir. 1848-ci ildə F.N.Semyonovun layihəsi əsasında Bibiheybətdə dünyada buruq üsulu ilə ilk neft quyusu qazılmışdı. Həmin quyunun qazılmasında istifadə olunan qurğu hal-hazırda Bakıda Bibiheybət məscidi yaxınlığında neft tarixinin mühüm simvolu kimi nümayiş etdirilir. Çar hökümətinin müstəmləkə maraqları nöqteyi-nəzərindən ölkənin təbii

sərvətləri öyrənilirdi. Geoloq alim Q.Abix ölkəmizin geoloji cəhətdən tədqiqinin əsasını qoymuşdur.

XIX yüzilliyin 30-40-cı illərində təbiətşünas-səyyah K.Kox, botanik Aleksis Jordan, ölkəşünaslardan İ.Berezin, Süzanne, Avqustfon Haksthauzen Azərbaycanda olmuş, öz tədqiqatları üçün zəngin materiallar əldə etmişlər. Təəssüf ki, riyaziyyat, kimya, fizika, biologiya sahəsində elə bir elmi nailiyyət qazanılmamışdır.

Azərbaycanın ayrı-ayrı xanlıqlarının tarixinə dair salnamələr meydana gəlir. Qarabağ xanlığının zəngin tarixi hər şeydən əvvəl rus ordusunun kapitanı Mirzə Adıgözəl bəyin əsərində başlıca yer tutur.

Mirzə Adıgözəl bəy "Qarabağnamə"nin əlyazısının son səhifələrində öz tərcümeyi-halından bəhs edərkən, Qarabağda anadan olduğunu yazır. M.Adıgözəlbəy "Qarabağnamə"ni Azərbaycan dilində 1845-ci ildə podpolkovnik M.Kolyubakinin sifarişi ilə yazmışdır.1736-cı ildən 1828-ci ilə qədər Qarabağın siyasi tarixini şərh edən Adıgözəl bəyin görmə qabiliyyəti zəiflədiyindən, salnaməsini diktə edərək yazdırmışdır. Əsər 1950-ci ildə nəşr olunmuşdur.

Qarabağ xanlığının tarixi onun xanlarının keçmiş vəziri Mirzə Camalı da (1773-1853) maraqlandırırdı. Mirzə Camal Cavanşir İbrahim xanın vəziri olmuş, xanlığın daxili və xarici siyasətində mühüm rol oynamışdır. O, İbrahim xanın Rusiya ilə bağladığı Kürəkçay müqaviləsində iştirak etmişdir. Qarabağ xanlığı ləğv edildikdən sonra A.Yermolovun təsis etdiyi dəftərxanada mirzə işləmiş, 1840-cı ildən istefaya çıxmışdır. M.Camal "Qarabağ tarixi"ni 1847-ci ildə fars dilində yazmışdır. Onun bir hissəsi rus dilinə tərcümə edilərək 1855-ci ildə "Qafqaz" qəzetində çap edilmiş, rus və Azərbaycan dillərində tam mətni isə 1959-cu ildə Bakıda nəşr olunmuşdur.

M.Camalın əsəri 7 iri, 13 kiçik fəsil olmaqla, cəmi 20 fəsildən ibarətdir.O, bu əsəri Qafqaz canişini M.Vorontsovun xahişi ilə yazmışdır ki, bu cəhət əsərin məzmununa da öz təsirini göstərmişdir. Belə ki, XIX yüzilliyin 40-cı illərinin ikinci yarısından mütləqiyyətlə sıx ittifaqa girən Azərbaycan feodallarının nümayəndəsi olmaq etibarilə M.Camal çarizmin Azərbaycanda qoyduğu qaydaların tərəfdarı kimi çıxış edir. M.Camal Rusiyanın Azərbaycanı işğal etməsinə haqq qazandırır.

M.Camalın əsərinin I və II fəsilləri Qarabağ xanlığının inzibati quruluşuna həsr edilmişdir.Burada şəhər, kənd və yaşayış məntəqələri haqqında məlumat verilir. O, Qarabağ xanının vəziri olduğundan onun bu məlumatları digər mənbələrdə yoxdur. Əsərin III və IV fəsilləri Pənahəli xanın fəaliyyətinə həsr edilmiş, M.Adıgözəlbəyin verdiyi materiallarla yaxınlıq təşkil edir. VI və VII fəsillər İbrahimxəlil xanın fəaliyyətini əks etdirir. Müəllif İbrahimxəlil xanın əmrlərinin Şirvan, Gəncə, İrəvan, Xoy, Təbriz, Ərdəbil, hətta Marağada da qəbul edildiyini bildirir və burada bir qədər mübaliğəyə yol verir. İbrahimxəlil xanın çoxlu cins atlarının olmasından, xanlığın hərbi qüvvələrindən bəhs edir.

M.Camal M.Adıgözəlbəydən fərqli olaraq sosial-iqtisadi məsələlərə diqqət yetirir. Lakin Gülüstan və Türkmənçay müqavilələri haqqında əsərdə məlumat yoxdur. Müəllif Sisianovun öldürülməsini pisləsə də, eyni münasibəti Cavad xana və İbrahim xana qarşı sərgiləmir. M.Adıgözəlbəy Qarabağın siyasi tarixinə, M.Camal isə siyasi məsələlərlə yanaşı sosial-iqtisadi məsələlərə də geniş yer vermişdir.M.Camal Qarabağın tarixini 1813-cü il Gülüstan sülh müqaviləsinə qədər təsvir edir. M.Adıgözəlbəy isə hadisələri Türkmənçay sülhü bağlanana kimi təsvir edir.

Şəki xanlığının tarixini Fətəli xanın oğlu Kərim ağa(Fateh təxəllüsü ilə şeirlər yazırdı) tərtib etmişdir. 1829-cu ildə o,

Azərbaycan dilində Şəki xanlığının yaranmasından onun Rusiya tərəfindən işğalına qədərki dövrdə siyasi tarixini əhatə edən salnaməsini yazdı.

Quba xanlığının tarixini İsgəndər bəy Hacınski qələmə almışdır. Gəncə şəhərinin tarixini ruhani zümrəsindən çıxmış Şeyx İbrahim (1816-1865)tərtib etmişdir. Orta əsrlər müsəlman tarixi ədəbiyyatının ənənələrini davam etdirən Mirzə Məhərrəm və Mirzə Heydər Vəzirov da tarixi mövzularda əsərlər yazmışlar.

Qarabağ bəylərbəyindən olan rus ordusunun mayoru Mirzə Məhərrəm Nadir şah imperiyasının yüksəlişi və süqutu barədə "Tarix" əsərini tərtib etmişdir, lakin əsər tapılmamışdır. Dərbəndli Mirzə Heydər isə xanların yanında və rus dəftərxanasında işləmiş, 1837-ci ildə Dağıstan və Şirvanın siyasi tarixi barədə farsca "Zübdət ət-Təvarix" (Tarixlərin ən yaxşısı) əsərini yazmışdır.

Dərbəndin görkəmli din xadimi Məhəmmədtağı (1843-cü ildə vəfat etmişdir) bu şəhərin baş axundu vəzifəsində çalışmış, əsasən dini-siyasi mövzularda yazmışdır. Onun 1841-ci ildə ərəb dilində yazdığı əsər Rusiya Elmlər Akademiyasında müzakirə olunmuşdu. M.Kazımbəy və X.Fren kimi şərqşünaslar əsəri müsbət qiymətləndirmişlər.

Tiflis məktəblərində Şərq dillərinin tədris edən Mirzə Şəfi Vazeh və Fazil xan Şeyda da ədəbi tədqiqatla məşğul olurdular.

Gəncədə doğulmuş Mirzə Cəfər Topçubaşov (1790-1869) Peterburqun şərqşünas dairələrində böyük alim kimi şöhrət qazanmışdı. O,50 ildən çox ali məktəblərdə türk və fars dillərində dərs demiş, bunun 20 ilini ancaq Peterburq universitetində çalışmışdır. Dünya şöhrətli şərqşünas alim Kazımbəy Məhəmməd şərqşünaslıq elminin inkişafına böyük töhfə vermişdir. M.Kazımbəyin bütün yaradıcılıq fəaliyyəti Kazan və Peterburq universitetlərinin divarları

arasında keçmişdir. Onun“Türk-tatar dilinin qrammatikası” əsəri Demidov mükafatına layiq görülmüşdü.

Cənubi Qafqazın Rusiya tərəfindən istilası və istismarı, imperiyanın İran və Türkiyə ilə qonşu olması bu ölkədə Şərq dillərinə və ədəbiyyatına maraq oyatdı. Bunun nəticəsində fars, türk və Azərbaycan ədəbiyyatına dair bir sıra tədqiqat əsərləri yazıldı.

Rus şərqşünaslığının təşəkkülü və inkişafında azərbaycanlı alimlərin mühüm xidməti olmuşdur. A.Bakıxanov fars dilinin ilk elmi qrammatikasını tərtib etdi. Onun “Fars dilinin qrammatikası” adlı kitabı hökümət mükafatına layiq görüldü, Tiflisdə dövlətin xərci ilə nəşr olundu. Əsər Rusiyada fars dilinin tədrisi proqramına daxil edilmişdi.

Görkəmli coğrafiyaşünas-səyyah Zeynalabdin Şirvani 30-cu illərin əvvəllərində özünün Yaxın və Orta Şərqə, Hindistana, Ərəbistana, Şimali Afrikaya səyahətlərinin təsvirini başa çatdırmışdır.

Rus Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin üzvləri olan M.F.Axundov və İ.Qutqaşınlı 50-ci illərin əvvəllərində coğrafiya ilə məşğul olurdular.

İncəsənət. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda musiqi, rəssamlıq və memarlıqda inkişaf meyilləri nəzərə çarpırdı. Bu dövr Azərbaycan teatr sənəti üçün əhəmiyyətli oldu. Hələ 1852-ci ildə Tiflisdə rus teatrı “Hekayəti-xırsı quldurbasan” pyesini tamaşaya qoymuşdu.

Təsviri sənətdə realist meyillər inkişaf edirdi. Bu meyil o dövrdə Şimali Azərbaycanın böyük rəssamı Mirzə Qədim İrəvaninin yaradıcılığında əks olunurdu. O, Tiflisdə orta təhsil alaraq İrəvana qayıtmışdır. Dövrünün savadlı insanı olan bu şəxs rus, fransız dillərini bilirdi. Onun ilk rəssamlıq işi yeniyetmə vaxtı çəkdikləri güzgüdəki qızın portreti olmuşdur.

Rəssamın yaradıcılığının ilkin mərhələsi başlıca olaraq onun tətbiqi dekorativ sənət sahələrindəki işləri ilə səciyyələnir. O, ipək tikmələr və qızıl saplar (güləbətin), həmçinin divar rəsmləri çəkmiş və şəkillər üçün qəliblər hazırlamışdır. Mirzə Qədim İrəvani İrəvan şəhərindəki Sərdar sarayının rəsmlərinin bərpasında iştirak etmişdir. O, kətan üzərində rəngli boyalarla sərdarların bir neçə portretini çəkmişdir. Bunlar Azərbaycan rəssamlığında dəzgahla çəkilmiş ilk əsərlər idi. İrəvaninin yaradıcılığında miniatür və divar rəsmlərinin müsbət ənənələri təcəssüm etmişdir.

Miniatür rəssamlığın ən gözəl nümunəsi Məhəmməd Rza İrəvaninin çəkdiyi "Şikəstin sağalması" (Sankt-Peterburq Ermitaj muzeyində saxlanılır) əsəridir.

Hind təmsili "Kəlilə və Dimnə" əsəri orta əsrlərdə şərqdə şöhrət qazanmışdı.Bəzi mənbələrdə əsərin e.ə I əsrdə Hindistanda yazıldığı göstərilir. Tədqiqatçıların bir qismi isə əsərin əvvəlcə şifahi hekayələr şəklində meydana çıxdığını qeyd edirlər. Əsər tərcümə olunaraq dünya xalqları arasında yayılmışdır.

"Kəlilə və Dimnə" əsəri iki çaqqalın adıdır. Kitabdakı danışıqlar, söhbətlər heyvan və quşların dili ilə verilir. Kitab insanlara ibrət olmaq üçün tərtib edilmişdir**.** Bu kitab əlyazması şəklində 1809-cu ildə Azərbaycan dilinə tərcümə olunmuşdur. Əlyazmanın xəttatı və rəssamı Muğanlı Əvəz Səfiqulu oğlu (XVIII-XIX əsrlər) idi.Əlyazmada olan 115 şəkil folklor xarakteri daşıyırdı. 1848-1851-ci illərdə Şəki xan sarayının divar rəsmləri təmir və bərpa edilmişdir. Bu işlər usta Qarabağlı Qənbər və onun şagirdi tərəfindən görülmüşdür.

Tətbiqi sənətin daha inkişaf etmiş növü xalçaçılıq idi. Həmin dövrdə onun əsas mərkəzləri Quba, Şamaxı, Bakı, Gəncə, Qarabağ və Qazax idi. Şimali Azərbaycanın bədii sənətkarlığında basma üsulu ilə

hazırlanan güllü ipək qadın baş örtükləri – kəlağayı və pambıq parçalar mühüm yer tuturdu.

Metaldan olan bədii məhsullar-mis qablar, müxtəlif naxışlarla bəzədilmiş silahlar, dəmirçilik məmulatı geniş yayılmışdı. Boyunbağılar, kəmərlər, üzüklər, qolbağılar və kişi geyim əşyaları Avropa bazarlarında satılırdı. Ağac üzərində bədii oyma ustaları da gözəl əşyalar hazırlayırdı. Bu dövrdə monumental memarlıqda tənəzzül meyli özünü göstərirdi. Heykəltaraşlıq inkişaf etməmişdi. Xalq memarlığında kifayət qədər intensiv inkişaf nəzərə çarpırdı.

Şimali Azərbaycanda rus şəhərsalma mədəniyyətinin təcrübəsi yayılırdı. Ən iri şəhərlər olan Bakı, Şamaxı, Naxçıvan, Gəncənin rus hərbi mühəndisləri tərəfindən tərtib edilmiş planları bu şəhərlərin gələcəkdə hazırlanacaq Baş planlarının başlanğıcı oldu.

XIX yüzilliyin birinci yarısında Şəki və Şuşa şəhərlərində də xeyli şəhərsalma işləri görülmüşdü. Gəncə isə əsasən özünün keçmiş görkəmini saxlayırdı. İlkin Baş plana əsaslanaraq Xəzər vilayətinin mərkəzi, sonra isə quberniya mərkəzi kimi abadlaşdırılmağa başlayan Şamaxı şəhəri oldu. İlk Baş memarı olan şəhər Şamaxı idi. Şəhərdə feodalizm dövründən qalmış Şamaxı bürcü - Bala Qala, Cümə məscidi mühafizə olunmuşdu.

Şamaxının Baş memarı Ambrocionun müavini Qasım bəy köhnə anbar binasını teatr binasına çevrilməsinin layihəsini cızmışdı. Bu binada 1857-ci ildən tamaşalar göstərilirdi.

1810-cu ildə Bakının İçərişəhər hissəsində ilk dəfə davamlı tikinti işlərinə başlanıldı. İki və üç mərtəbəli evlər inşa olundu. Bu evlərin ölkəmizin digər şəhərlərindəki yaşayış evlərindən fərqi əsas fasadın pəncərələrlə birlikdə küçəyə baxması idi.

Şəki və Şuşa şəhərlərində xeyli şəhərsalma işləri görülsə də, Gəncə keçmiş görkəmini saxlayırdı.Bu dövrdə xalq memarlığı ənənələri əsasında yarımşəhər tipli yaşayış evləri meydana gəlirdi. Bu

evlərin xüsusiyyəti o idi ki, eyvanlar həyət tərəfdən şüşəli qalereyalara çevrilir, küçə tərəfdən isə küçə eyvanları meydana gəlirdi. Yaşayış evlərinin tikintisində ağır çəkili günbəz və qülləşəkilli konstruksiyalar yastı damlarla əvəz olunurdu. Bu da Rusiyadan ağac materiallarının gətirilməsi hesabına həyata keçrilirdi. Memarlığın inkişafında Rusiyadan gətirilən şüşədən də istifadə olunurdu.

Yaşayış evlərinin qızdırılmasında kürsü və buxarıdan istifadə olunurdu. Kürsü - otağın ortasında qazılmış çuxura içərisində közərdilmiş kömür doldurulan manqal qoyulur, üstünə masaya bənzər qurğu bərkidilir, masa yorğanla örtülürdü. Buxarı divarın içində olurdu, tüstü dövriyyəsi olmadığından lazımi səmərə vermirdi, istiliyin az hissəsi otağın qızdırılmasına sərf olunurdu.Tüstüçəkəni olan divar sobalarının meydana gəlməsi, həmin dövrdə yenilik və müsbət hal idi. Bu zaman Şimali Azərbaycanda çoxlu memar, həkkak, usta və başqaları yaşayıb yaradırdı. Ustalar tərəfindən Ağsu və Şamaxıda sərdabələr tikilmiş, Abşeronda daş üzərində yazılar həkk olunmuş, bir neçə məscid, ovdan (su anbarı) və s. tikilmişdir. Bakının qala divarlarının bərpası sahəsində bəzi işlər görülmüşdür.Lakin memarlığımızın bir çox qiymətli orta əsr abidələri uçub dağılır, anbar binaları kimi istifadə olunurdu. Yeni binalar sanitar-gigiyenik və mühəndis-texniki tələblər nəzərə alınmaqla tikilirdi. Bakının qala divarlarından kənarda aparılan tikinti işlərini nizama salmaq təşəbbüsü də bu dövrə aiddir.

Musiqidə aşıq sənəti əsas yer tuturdu. Aşıqdan və balabançıdan ibarət aşıq ansamblları xalq arasında şöhrət qazanmışdır. Aşıqlar şairliyi, müğənniliyi, musiqiçiliyi, rəqs etməyi bacarmalı idi.

Tarzəndən, kamançaçıdan, müğənni olan qavalçıdan ibarət (üçlük) xanəndə ansamblları meydana gəlirdi. Bu ansambllar aşıq ansambllarını sıxışdırıb çıxarırdı. Xanəndələr tərəfindən ifa edilən, geniş yayılmış musiqi forması muğamlar idi. Ayrı-ayrı muğamların

motivləri əsasında xanəndələr tərəfindən ifa edilən dəsgahlar təşkil edilirdi. Rus şairi Yakov Polonski dövrün məşhur müğənnisi, əslən Cənubi Azərbaycandan olan Səttarı (XIX əsr) tərənnüm etmişdir:

Səttar!! Səttar! Nə yaman qəhərlidir ah vayın
O boğuq fəryadına göy kişnər, bulud ağlar...
Gecədir.... Tiflis susur, mən səni dinləyirəm
Sanki şərqli qardaşım xəstə qəlbimi didir,
Sənin dilinlə məni danlayır, tənbeh edir...

Bu şeir 1850-ci ildə Tiflisdə çıxan "Qafqaz" qəzetində dərc olunmuşdur. Məhəmməd şah Qacar gəncliyində Səttarı öz sarayına dəvət etmişdir. O, burada bir neçə il qalır,Tiflisə gəlir, şənlik məclislərində iştirak edir. Görkəmli gürcü mədəniyyət xadimi Nikoloz Barataşvili onu tez-tez şənliklərə aparırdı. Səttar Tiflisdə nəinki müsəlmanların, o cümlədən gürcü əsilzadələrinin şənlik məclislərində fəal iştirak etmiş, çox şöhrət qazanmışdı. Onu Şamaxıda Mahmud Ağanın sarayında dinləyən şair Seyid Əzim Şirvani ifasına valeh olmuş, müxəmməslərindən birində onu tərif etmişdir. Səttardan başqa Şəkili Cəfər, İrəvanlı Əli Əsgər, Yevanqulu kimi xanəndələr də o zaman fəaliyyət göstərmişlər. Səttar Tiflisdə müsəlman qəbristanlığında dəfn olunmuşdur.

Musiqişünas Firudin Şuşinski yazır ki, Səttarın Qafqaz xalqlarının milli musiqisinin inkişafında böyük rolu vardır. Səttarın konsertlərində Tiflisdən yaşayan rus və italyan musiqi həvəskarları iştirak edir və onu öz konsertlərinə dəvət edirdilər. 1847-ci ildə italyan skripkaçısı Tiflis teatrı orkestrinin drijoru Malaqolli Səttarı Xeyriyyə Cəmiyyəti tərəfindən təşkil olunmuş konsertdə iştirak etməyə dəvət etmişdir. Səttar yoxsullara kömək məqsədi ilə keçrilən beynəlxalq konsertlərdə skripkaçı Miller ilə, müğənni Seymur Şiff ilə birgə iştirak etmişdir. İmperiyada ölkənin musiqi folklorlarına maraq göstərilirdi. 1818-1819-cu illərdə Həştərxanda nəşr edilən musiqi jurnalında

Qubalı Fətəlixana həsr olunmuş Azərbaycan mahnısının notla yazılmış mətni verilmişdir.

XIX yüzilliyin 30-cu illərində "Qalanın dibində" mahnısı və bir "Ləzgihəngi" İrəvan quberniyasında nota köçürülmüş və 1861-ci ildə "İllüstrasiya" jurnalında çap olunmuşdur.

Azərbaycan teatrının yaranması sahəsində ilk addımlar XIX yüzilliyin birinci yarısında atılmışdır. Şimali Azərbaycanın işğalınadək, həm də ondan sonra xalq yaradıcılığının bir çox janrlarında teatr elementləri özünü göstərirdi. Buraya "Maral oyunu", "Kilim-arası" kimi oyunlar da daxil idi. Bir və iki pərdəli pyeslərdə, tamaşalarda məişətdəki eybəcər hallar tənqid olunurdu. İlk teatr tamaşaları Şuşada (1848), Lənkəranda (1850), Şamaxıda (1857) təşkil olunmuşdur. Rus mədəniyyətinin nümayəndələri Azərbaycanda olarkən bu ölkənin həyatı ilə bağlı mövzulara müraciət edirdilər. Rus rəssamı Q.Q.Qaqarin Qafqazda hərbi xidmətdə olarkən (1840-1850) tablolar, portret, mənzərə rəsmləri və s. çəkmişdir. O, Bakıda, Gəncədə, Şamaxıda və digər şəhərlərdə olmuşdur, A.Bakıxanovun portretini yaratmışdır. Bakıda olarkən Atəşgahı da ziyarət etmiş və od məbədinin rəsmini çəkmişdir. Hal-hazırda Atəşgah Məbədinin (Suraxanıda) 21-ci hicrəsində nümayiş olunan maket-podium onun çəkdiyi rəsm əsasında 1970-ci illərdə hazırlanmışdır.

XI FƏSİL
SƏNAYE SAHƏSİNDƏ KAPİTALİST MÜNASİBƏTLƏRİNİN MEYDANA ÇIXMASI VƏ İNKİŞAFI

Cədvəl: 1.
Bakıda neft istehsalı:

İllər	**Çıxarılan neftin həcmi**
1860	247.814 pud
1862	334.926 pud
1870	1.482.100 pud

Cədvəl: 2
XIX yüzilliyin 60-cı illərində Bakı rayonunda neft verən quyular:

Rayon	**Quyuların sayı**
Balaxanı	125
Binəqədi	61
Bibiheybət	25
Suraxanı	21
CƏ M İ	**232**

CƏDVƏL : 3

İltizam sisteminin ləğvindən sonra Bakı rayonunda neft çıxarılması	
1872- ci il	**1,4 mln pud**
1873- cü il	**3,9 mln pud**
1876 cı il	**10,6 mln pud**
1882 ci il	**50 mln pud**

CƏDVƏL :4

1876-cı ildə Bakıda fontan vuran neft quyularının sayı :	
Sabunçu	**204**
Balaxanı	**47**
Suraxanı	**22**
Bibiheybət	**19**

Kapitalist münasibətlərinin yaranması. XIX yüzilliyin ikinci yarısında Rusiya getdikcə geniş şəkildə kapitalist inkişaf yoluna çıxırdı. Bu öz ifadəsini ölkə miqyasında ictimai əmək bölgüsünün tədricən genişlənməsi və dərinləşməsində, Ümumrusiya kapitalist bazarının yaranmasında tapırdı. Azərbaycan imperiyanın bir hissəsi olduğundan, o da həmçinin Ümumrusiya ictimai əmək bölgüsünə cəlb olunur və Ümumrusiya bazarına qoşulurdu. Mərkəzi Rusiya ilə onun ucqarları arasında yaranan iqtisadi birlik ikili xarakter daşıyırdı: bir tərəfdən, rus kapitalizmi öz fabrikləri üçün bazar yaradırdı, digər tərəfdən isə o elə həmin fabriklərin ölkə xammalına olan ehtiyaclarını ödəmək üçün ucqarlarda ticarət əkinçiliyinin, balıq, dağ-mədən, neft və digər sənaye sahələrinin meydana çıxması və inkişafını hər vasitə ilə stimullaşdırırdı.Artıq yüzilliyin 60-cı illərində Azərbaycanda kapitalist istehsal münasibətlərinin meydana çıxması prosesi dəqiq müəyyənləşdi.

XIX yüzilliyin 60-cı illərinin ortalarından Azərbaycanın neft təsərrüfatında dönüş baş verdi. Bu təsərrüfat əvvəlki illərə nisbətən sürətlə inkişaf etməyə başladı. Neft hasilatında artım xüsusən də 1862-ci ildən nəzərə çarpır. Əgər 1860-cı ildə Bakıda 247.814 pud

neft çıxarılmışdısa, 1862-ci ildə bu göstərici 334.926 puda çatmış, sonrakı illərdə fasiləsiz surətdə artmışdı. 1870-ci ildə burada artıq 1.482.100 pud neft çıxarılırdı.Neft hasilatı artımının səbəblərindən biri Balaxanı kəndlilərinin məcburi və bu səbəbdən də az məhsuldar əməyinin 1864-cü ildə ləğv edilməsi idi. Neft mədənlərində muzdlu fəhlələr işləməyə başladı. Bu, neft sənayesinin kapitalistcəsinə yeniləşməsinin daha da dərinləşməsi əlaməti idi.

Neft hasilatının artması neft quyuları sayının artması ilə müşayiət olunurdu. Belə ki, 60-cı illərdə Bakı rayonunun 232 neft quyusu var idi. Onlar neftverən rayonlar arasında aşağıdakı şəkildə bölünürdü: Balaxanıda 125, Suraxanıda 21, Binəqədidə 61, Bibiheybətdə isə 25 quyu var idi. Halbuki 40-cı illərdə cəmisi 133 neft quyusu mövcud idi.

Neft hasilatının belə artımının əsas səbəbi Rusiyanın daxili quberniyalarında ağ neftə tələbatın genişlənməsi idi. Ağ neftdən artıq təkcə çıraq yanacağı kimi deyil, əsasən Rusiyanın inkişaf etməkdə olan sənayesi üçün yanacaq kimi istifadə olunurdu. Lakin Rusiyanın daxili quberniyaları ilə geniş nəqliyyat yollarının olmaması Bakıda istehsal olunan neftin hamısını oraya aparmağa və Rusiya sənayesi tələbatının bir hissəsini ödəməyə imkan vermirdi. Ona görə də Rusiya sənayeçiləri özlərinin yanacağa olan ehtiyaclarını əsasən Amerikadan gətirilən neftin hesabına ödəməyə məcbur olurdular. Bu vəziyyət neft sənayesinin sürətlə inkişafına mane olurdu. Lakin başlıca səbəb neft sənayesində iltizam sisteminin mövcud olması idi. Bu sistem iltizamçılara yeni neft quyuları qazmaq, neft çıxarmaq və satmaq sahəsində inhisarçı hüququ verirdi. Müəyyən məbləğ müqabilində neft quyularını uzun müddətə iltizama götürənin iltizamçılarına növbəti müzayiqələrdə onları itirmək təhlükəsindən sığortalanmamış istehsala texniki yeniliklərin tətbiqi üçün zəruri olan iri kapital qoymaqda maraqlı

deyildilər və neft quyuları qazılmasında yeni texnika və təcrübəni tətbiq etmək üçün göstərilən bütün cəhdlərə mane olurdular.

Pirallahı adasında buruq qazmaq üçün ilk uğursuz cəhdi tiflisli əczaçı Vitte göstərirdi.1866-cı ildə Cənubi Qafqaz Ticarət Cəmiyyəti (sonralar bu cəmiyyət Bakı Neft Cəmiyyətinə çevrildi) qazma işlərinə başlamağa icazə verilməsi barədə hökumət qarşısında məsələ qaldırdı. Lakin iltizamçı özünün inhisar hüququndan istifadə edərək buna mane oldu və hökumət cəmiyyətə rədd cavabı verdi. Üç ildən sonra,1869-cu ildə iltizamçı Mirzəyev bu adada yeni buruğun əsasını qoydu. Lakin yoxlama qazıması zamanı qazma ustası yeraltı uğultudan qorxaraq quyunu daş və qumla doldurmağı əmr etmişdi. Bir ildən sonra Balaxanıda yeni buruq qazıldı və o, 20 sajen dərinlikdən gündə 700 pud neft verməyə başladı. Bu uğurlu təcrübədən sonra qazma işi sürətli inkişaf yoluna keçdi.

Əlbəttə ki, çıxarılan neft emal olunmuş halda ixrac olunurdu. Ona görə də neft hasilatının artımı neftayırma sənayesinin meydana çıxmasını şərtləndirirdi.1859-cu ildə rus kapitalistləri Kokorev və Quboninin "Zakaspi Ticarət Cəmiyyəti" Suraxanıda neftayırma zavodu tikdi. İltizamçı tərəfindən neftə qoyulmuş qiymətin bahalığı üzündən bağlanmaq həddində olan zavodun fəaliyyəti 1863-cü ildə Bakıya dəvət olunmuş böyük rus alimi D.İ.Mendeleyevin köməyi və bilavasitə iştirakı ilə qaydaya salındı.

1861-ci ildə tiflisli əczaçı Vitte Pirallahı adasında parafin zavodu, 1863-cü ildə Məlikov Bakının özündə ağ neft zavodu tikdirdilər. Onların ardınca iltizamçı Mirzəyev, Tarayev və digərləri zavodlar tikdirdilər.

1867-ci ildə Bakı rayonunda ancaq ikisi az-çox iri olan 15 neftayırma zavodu fəaliyyət göstərirdi. Onlarda cəmi 200-ə yaxın fəhlə işləyir və bu zavodların bütün məhsulu Rusiyaya daşınırdı. 1869-cu ildə zavodların sayı 24-ə, 1872-ci ildə isə 47-yə çatdı.

Neft hasilatı və neftayırmanın müəyyən artımına baxmayaraq, 60-cı illərdə aydın oldu ki, neft mənbələri istismarının iltizam sistemi keçmişin yararsız qalığıdır və bu sənaye sahəsinin inkişafı üçün neft işinin başqa cür qurulması lazımdır. "Neft istehsalı və fotogen istehsalından aksiz haqqında qaydalar" çar tərəfindən 1872-ci il fevralın1-də, "Qafqaz və Cənubi Qafqazın iltizamda olan xəzinə neft mənbələrinin müzayiqə yolu ilə xüsusi şəxslərə verilməsi haqqında qaydalar" isə 1872-ci il fevralın 17-də təsdiq olundu. Bu qaydalara görə, xəzinənin iltizamda olan neft mənbələri müzayiqələr (torq) yolu ilə xüsusi şəxslərə verilirdi. Bu neftli sahələr üzərində tikililər və daşınar əmlakla birlikdə hər biri 10 desyatindən böyük olmayan ayrı-ayrı qruplara bölündü. Ümumi sahəsi təxminən 460 desyatin olan neftverən sahələrə 522.221 manat qiymət qoyuldu. Deməli, hər desyatin torpağın qiyməti orta hesabla 1.200 manata bərabər idi. Lakin müzayiqələrin gedişində rəqabət aparan iddiaçılar tərəfindən qiymətlər xeyli qaldırıldı və xəzinə 2.980.307 man. əldə etdi; başqa sözlə deyilsə, o, torpağın hər desyatinindən 7.200 man. götürdü. Sonralar keçirilmiş müzayiqələrlə müqayisədə bu qiymət çox cüzi idi.

Neftli sahələr başlıca olaraq 1.323.578 manatlıq neftverən torpaqlar almış Qubonin və Kokorevin, habelə qiyməti 1.222 min manat olan neftverən torpaqlar keçmiş iltizamçı Mirzəyevin əlində cəmləndi. Bu torpaqlar bütün əsas neftverən sahələrin 86%-nə bərabər idi. Azərbaycan kapitalı nümayəndəsi H.Z.Tağıyevin (şərikləri ilə birlikdə) Bibiheybətdəki neftli sahəsinin qiyməti cəmi 9005 man. idi.

İltizam sisteminin ləğvi bütün neft hasilatında qəti dönüş yaratdı, neft sənayesi kapitalist istehsalı sahəsinə çevrildi.

Neft sənayesi, neft inhisarları.İltizam sistemi ləğv edildikdən sonra Bakı neft sənayesi sürətlə inkişaf etməyə başladı. Elə 1872-ci

ildə 1,4 mln pud çıxarılmışdısa, 1873-cü ildə artıq 3,9 mln pud neft çıxarıldı. İlk onillik ərzində neft hasilatı 35 dəfədən çox artdı. Belə ki, 1876-cı ildə Bakıda 10,6 mln pud, 1882-ci ildə isə 50 mln pud neft çıxarılmışdı. Bakı rayonunda neft çıxarılmasının artımı öz sürətinə görə o dövrdə ən güclü hüsab edilən Amerika neft sənayesini xeyli qabaqlayırdı. 70-ci illərin əvvəllərində Bakı neft sənayesində məhsuldarlıq Amerikadakından 20 dəfə az idi. Lakin artıq 1894-cü ildə Bakıda neft çıxarılması 340 mln. puda çataraq, Amerikadakı ilə bərabərləşdi, sonrakı illərdə isə onu ötüb keçdi.

Neft çıxarılmasının artması qazma işlərinə yeni texnikanın tətbiq edilməsi ilə müşayiət olunurdu. 1873-cü ildə qazılmış quyular içərisində "Xələfi" adı ilə məşhur olan sahədə qazılmış quyu diqqəti xüsusilə cəlb edirdi. Bu quyudan görünməmiş güclü vuran fontan, demək olar ki, bir ay davam etmiş və gündə ən azı 100 min pud neft alınmışdı. Bu fontan sahibkarlar arasında quyulara olan psixoloji inamsızlığı birdəfəlik dağıtdı və 1874-cü ildə buruqların sayı artıb 29-a çatdı.

Sabunçuda quyular bir-birinin ardınca fontan vururdu. 1876-cı ildə burada 204, Balaxanıda 47, Suraxanıda 22, Bibiheybətdə 19 quyu var idi. 1877-1878-ci illər ərzində Zabrat və Bibiheybətdə fontan vuran quyular istismara verildi.

Quyuların, xüsusilə fontanların sayının artması neftin qiymətinin kəskin şəkildə dəyişməsinə səbəb oldu. 1873-cü ildə neftin qiyməti hələ iltizam dövrü səviyyəsində (bir pudu 45qəpik) qalırdı. Lakin "Xələfi" sahəsindəki fontandan sonra qiymət 6 qəpiyə endi. Güclü fontanların meydana gəlməsindən asılı olaraq vaxtaşırı təkrar olunan belə hallar iri kapitalın xeyrinə olub xırda sahibkarları var-yoxdan çıxarırdı. Bütövlükdə isə neft sənayeçilərinin sayı daim artırdı. 1873-cü ildə Bakı mədənlərində 12, on ildən sonra 79 firma fəaliyyət göstərirdi. Hasilatın artmasına çalışan firmalar yeni texnika tətbiq

edirdilər. Neft sənayesi texniki çevriliş və istehsal proseslərinin yeniləşdirilməsi mərhələsinə daxil oldu. Əvvəllər neft köhnə qayda ilə əllə qazılmış quyulardan tuluqlarla, əksər hallarda jelonka ilə çıxarılırdı. Doğrudur, ilk vaxtlar o atların gücü ilə qaldırılırdı. 1873-cü ildə mədənlərdə ilk buxar mühərrikləri tətbiq edildi. Buxar maşınlarının tətbiqi qazma işlərində də yayılmağa başladı. 70-ci illərin sonuna yaxın ştanqları balta ilə birlikdə hərəkətə gətirən əl burulğanı əvəzinə buxar maşını tətbiq edildi. Buxar mühərriklərinin tətbiqi neft sənayesinin inkişafında mühüm əhəmiyyət kəsb etdi.

Texniki təkimilləşmənin biri də 1878-ci ildə neft mədənlərini neftayırma zavodları ilə birləşdirən ilk neft kəmərinin çəkilişi oldu. Əvvəllər neft zavodlara arabalarda daşınırdı.1879-cu ildə "Nobel qardaşları" firması tərəfindən mədənlər arasında neft və sərnişin daşımaq üçün ilk dar dəmir yolu çəkildi. Neft hasilatının artması onun saxlanılmasını təkmilləşdirməyi tələb edirdi. Adətən quyuların yanında 100-200 pudluq taxta çənlər tikilirdi. Bir qədər sonra isə 50-100 min pudluq torpaq anbarlar tikilməyə başlandı. Bu anbarlar içərisində heç nə döşənməyən və örtülü olmayan, əlüstü qazılan çalalardan ibarət idi. Belə anbarlarda neftin xeyli hissəsi torpağa hopur, Abşeron üçün adi olan günəşin və yüksək temperaturun təsiri altında buxarlanırdı. Primitiv çalaların əvəzində içəridən sementin köməyilə daş və kərpiclə döşənmiş, ağac örtüklü daha əlverişli anbarlar meydana çıxdı. Metal rezervuarlar nisbətən gec meydana gəldi. Neftayırma zavodlarının da sayı artırdı. 1872-ci ildə onların sayı 47, 1873-cü ildə 62 idi. Bakının ətrafında çoxlu neftayırma zavodlarının toplaşdığı Qaraşəhər adlı məskən yarandı; "belə ki, tüstüsündən və hisdən orada hər şey torpaq, binalar qaralmışdı". Bununla belə, iltizam sisteminin təsirindən və onunla bağlı olan neftin yüksək maya dəyərindən azad olan neftayırma sənayesi aksiz siyasətinin mənfi təsiri altına düşdü.

Aksizin tətbiq edilməsi neft məhsulları istehsalına pis təsir göstərdi. Aksizin hər neftayıran qazana görə toplanması ona gətirib çıxartdı ki, kiçik zavodlar gün ərzində hər qazandan bir dəfə deyil, 2-3 dəfə ağ neft almağa çalışırdılar. Bu yolla alınan neftin keyfiyyəti adətən aşağı olur və satılmırdı. Rusiya bazarlarında Amerika neftini almağa üstünlük verirdilər. Bakı neftinin qiyməti kəskin şəkildə aşağı düşmüşdü. Bu isə bir çox müəssisənin, xüsusilə kiçik müəssisələrin müflisləşməsinə səbəb oldu.

Bununla yanaşı, istehsalın iriləşməsi və təmərküzləşməsi də baş verirdi. Əgər 1874-cü ildə Bakıda 200-dən çox neftayırma zavodu var idisə, 2 ildən sonra onların sayı 123-ə, 1899-cu ildə isə 101-ə qədər azaldı.

1877-ci il sentyabrın 1-dən akisizin toplanması ləğv edildi ki, bu da müsbət əhəmiyyətə malik idi. 80-cı illər ərzində Bakı zavodlarının istehsal etdikləri ağ neftin, benzinin və yağın həcmi 8 mln. puddan 68 mln. puda çatdı. Ölkənin yanacaq balansı kəskin dəyişdi.

Bakı nefti və onun məhsulları əsasən Rusiyanın daxili quberniyalarına aparılırdı. Cənubi Qafqaz dəmiryolunun tikintisinə qədər neftin daşındığı yeganə yol Xəzər dənizi idi. Əvvəllər nefti yelkənli gəmilərə yüklənmiş çəlləklərdə Həştərxana qədər, sonra isə Volqa ilə yuxarılara aparırdılar. Neftdaşıma işi artdıqca, neftdaşıyan gəmilər meydana gəldi. 70-ci illərdə neft və onun məhsullarını daşımaqla məşğul olan ayrıca cəmiyyətlər yarandı. Bu cəmiyyətlər arasında "Qafqaz və Merkuri" cəmiyyəti mühüm yer tuturdu. "Lebed", "Drujina"cəmiyyətləri, Bakıneft cəmiyyəti, xüsusi şəxslər – Mirzoyevlər, Dadaşovlar, Artyomovlar və başqaları da neft daşınması ilə məşğul olurdular.

İltizam sistemi ləğv edildikdən sonra Amerikanın Rusiyanın yanacaq bazarındakı üstün mövqeyi sarsıldı. 1873-cü ildə Rusiya ABŞ-dan 2,705 mln. pud neft və neft məhsulları gətirmişdi. Bakıdan

isə cəmisi 400 min pud ağ neft aparılmışdı. Beş ildən sonra Amerikadan neft idxalı 2 mln pud olduğu halda, Bakıdan aparılan neftin miqdarı 4,6 mln pud təşkil etmişdi. Xarici ölkələrdən gətirilən neftin hər puduna 55 qəp gömrük qoyulması haqqında hökumət aktı verildi. 1883-cü ildə Bakıdan Rusiya bazarlarına artıq 12,5 mln. pud neft məhsulları daxil oldu. Amerikadan neft idxalı isə tamamilə kəsildi. Baş vermiş qıtlığın, dəmir yolu tikintisinin və həmçinin 1880-ci illərdə Qərbi Avropada baş vermiş böhranın təsiri altında 1881-1882-ci illərdə Rusiyada ağır böhran, onun ardınca isə uzun müddət davam edən depressiya başlandı.

Bu illərdə neft sənayesində vəziyyətin ağır olduğunu həm də o sübut edirdi ki, neft sənayeçiləri tez-tez neft və mazut ehtiyatlarını dənizə və Abşerondakı göllərə axıdır, yandıraraq məhv edirdilər. Ramana gölündə neft sənayeçilərinin axıtdığı külli miqdarda neft yandırılmışdı. 1886-cı ildə H.Z.Tağıyev özünün güclü fontan vurmuş Bibiheybət mədənində pulsuz neft təklif edirdi. Neft sənayesindəki böhran 80-cı illərin ikinci yarısında canlanma və yeni yüksəlişlə əvəz olundu, 1890-cı ilə yaxın neftin qiyməti xeyli artdı. Quyuların qazılması xeyli sürətləndi. 1891-ci ildə neft hasilatı 1883-cü illə müqayisədə 4,8 dəfə artdı.

Neft sənayesinin yüksək inkişaf sürəti Rusiya bazarının imkanlarını qabaqlayırdı. Texniki inqilabla müşayiət olunan neft təsərrüfatının inkişafı əsaslı vəsait tələb edirdi. Ancaq uzunmüddətli müvəffəqiyyətə o firmalar ümid bəsləyə bilərdilər ki, onların həm neftli torpaqlara, mədən və zavodlara, həm də xüsusilə neft məhsullarının saxlanılmasına və daşınmasına kapital qoymağa imkanları olsun. Adətən belə imkanlara ancaq ən böyük neft istehsalçıları malik idilər. 1883-cü ildə Bakıda ildə 20 mln. puddan çox neft istehsal edən ancaq bir firma müvcud idi. 1890-cı ildə belə firmaların sayı artıq 8 idi və bütünlüklə çıxarılan yanacağın 65,4 %-i

onların payına düşürdü. Neft emalı sənayesində də istehsalın belə yüksək təmərküzləşmə göstəriciləri özünü göstərirdi.

Neft sənayesi kapital qoyuluşunun iki əsas mənbəyinə - bir tərəfdən, Azərbaycan və Cənubi Qafqazın iqtisadiyyatının başqa sahələrinə, digər tərəfdən isə Mərkəzi Rusiyanın kapital axınına malik idi. Birinci mənbə H.Z.Tağıyevin, M.Nağıyevin, A.Mantaşovun, Q.Lianozovun və digərlərinin simasında Azərbaycan kapitalı tərəfindən yaradılmış, ikinci mənbə isə Peterburq metal zavodçuları L.Nobel və P.Bilderlinq, Moskva tikiş fabrikçisi S.M.Şibayev və başqaları ilə təmsil olunmuşdu.

Sahənin ən böyük müəssisəsi 1879-cu ildə əsas kapitalı 3 mln manat (1884-cü ildən 15 mln manat) olan, səhmdarlıq əsasında təşkil edilmiş "Nobel qardaşları" neft istehsalı şirkəti idi. Kompaniyanın təsisçiləri Lüdviq Nobel və peterburqlu baron P.Bilderlinq idilər.

Çar hökuməti xarici sahibkarlığa xeyirxah münasibət bəsləyirdi. 1886-cı il mayın 1-də "Xaricilərin və xarici cəmiyyətlərin hazırkı şəraitdə rus neft sənayesində iştirakının faydalı və məqsədəuyğunluğunu" elan edən qərar qəbul olundu.

80-cı illərin ortalarında Rotşildlərin Paris bankir evi daha bir iri kompaniyanın – Xəzər-Qara dəniz Cəmiyyətinin əsasını qoydu. İngilis kapitalının Bakının iqtisadiyyatına soxulması 90-cı illərin ikinci yarısına aiddir.

İngilis kapitalının güclü axını çarizmin maliyyə vəziyyəti və xarici siyasi niyyətləri ilə izah olunurdu. Çar hökuməti bu yolla İngiltərənin imperialist dairələrinin bir hissəsində Rusiya əleyhinə olan əhvali-ruhiyyəni neytrallaşdırmağa çalışırdı. Güclü hərbi dəniz donanmasına malik olan İngiltərə üçün Bakı rayonunun strateji əhəmiyyəti var idi. Bundan əlavə, İngiltərə ilə müqayisədə çar Rusiyasında "fəhlələrin həyat səviyyəsi, onların əmək haqqı xeyli

aşağı idi". Buna görə də buraya kapital qoyuluşu sahibkara külli miqdarda gəlir vəd edirdi.

Yerli müəssisələrin xarici kapitalın nəzarəti altına keçməsi onların səhmdar cəmiyyətinə cəlb edilməsi yolu ilə həyata keçirilirdi. 1897-ci ildə Bakının ən iri firmalarından biri "H.Z.Tağıyev"firması bir qrup ingilisə: Q.Qladstona, Ç.Mura və b. satıldı. Kombinatın bütün təsərrüfat kompleksi – neft mədənləri, kükürd turşusu zavodları, neft kəməri, neftdaşıyan gəmilər, dəmir yolu sisternləri ingilis işbazlarının əlinə keçdi. Bu müəssisələrin bazasında "Oleum" adı altında səhmdar cəmiyyəti təsis edildi. Səhmlərin nəzarət paketi və kompaniyanın fəaliyyətinin idarə mexanizmi ingilis kapitalistlərinin əlində cəmləşdi. Lakin əvvəlki sahibkar yeni təsis edilmiş kompaniyanın rəhbərliyi sistemində özünü yerlə təmin edə bildi. O, yeni kompaniyanın dəyəri 165 min funt sterlinq (1,6 mln manat) olan iri səhm paketini öz əlində saxladı. Bu paket "Oleum"un əsas kapitalının 13,7%-ə bərabər idi. Buna görə də H.Z.Tağıyev ingilis bankının direktoru E.Qubbardla birlikdə "Oleum"un idarə heyətinin direktorlarından biri seçildi. Beləliklə, yerli kapitalın neft işində iştirakı yeni forma yarandı.

Milli burjuaziya neft işində çoxmilyonlu yığımdan istehsalın yeni sahələrinə, xüsusilə yüngül və emal sənayesinə, nəqliyyat və digər sahələrə soxulmaq üçün istifadə etməyə cəhd göstərirdi. Tağıyevlərin 1898-ci ildə fəaliyyətə başlayan "Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyəti" adlandırılan səhmdar müəssisəsinin yaranması da bu məqsədə xidmət edirdi. Müəssisənin tikintisinə 6 mln. manat xərclənmişdi.

Xarici kapitalın neft istehsalında mövqeyinin genişlənməsi rus burjuaziyasının və bəzi çar məmurlarının müəyyən müqavimətinə rast gəldi. Çar hökuməti 80-cı illərin ortalarında neftli torpaqların xaricilərin mülkiyyətinə keçməsini məhdudlaşdırmaq haqqında

məsələ müzakirə etmək qərarına gəldi. Lakin bu məsələnin həlli "kapital cəhətdən Rusiya kimi çox yoxsul olan ölkəyə kapitalın buraxılışını tamamilə dayandırmağı çətin ki, faydalı hesab etmək olar", –fikrini söyləmiş maliyyə nazirinin müqavimətinə rast gəldi.

1fevral 1872-ci il "Neft mədənləri və ağ neft istehsalından aksizlər haqqında" Qaydalar "mədən azadlığı" prinsipini elan etdi. Bütün silklərdən olan şəxslərə - həm Rusiya vətəndaşlarına, həm də xaricilərə Abşeronda torpaq ayrılması, neft axtarışı və çıxarılması hüququ verilirdi. Lakin hökumət bu Qaydaların həyata keçirilməsini dərhal dayandırdı. Doğrudur, sonrakı 12 il ərzində neft sənayeçiləri tez-tez torpaq sahələri ələ keçirir və yaxud dövlət kəndlilərindən torpaq icarəyə götürürdülər. Digər aktla, 1872-ci il 17 fevral "Qaydaları" ilə "əvvəllər iltizamda olan dövlət neft mədənlərini müzaidə yolu ilə şəxsi adamlara vermək nəzərdə tutulurdu".

Lakin 80-cı illərin ortalarında çarizmin siyasətində yeni kurs müşahidə olunmağa başladı. Təkcə sərbəst xəzinə torpaqlarının şəxsi adamlara ayrılması deyil, həm də kəndlilərə xəzinə icma torpaqlarının təkini istismar etmək hüququ verən rəsmi qaydaların da fəaliyyəti dayandırıldı.

Digər tərəfdən, hökumət kəndlilərin istifadəsində olan məhz xəzinə icma torpaqlarının fondunu artırmaq qərarına gəldi. Neft mədənləri haqqında 1892-ci il 3 iyun "Qaydaları" ilə Abşeron yarımadasının bütün neftli torpaqları xüsusi şəxslərin istifadəsi üçün bağlı elan edildi. İndi torpaqlar hər sahədən mütləq minimum haqq müqabilində verilə bilərdi. Müzaidənin şərtlərini və vaxtını hökumət özü müəyyənləşdirirdi. Xəzinə neftli torpaqlarının icarə sistemi kəskin mürəkkəbləşdi.

Bütün bunlar sonrakı illərdə neft istehsalının inkişafına ciddi təsir göstərərək onun maya qəyərini qaldırdı.Neft sənayesində kapitalist

təsərrüfatının təşkilinin hakim forması olan istehsal vasitələri üzərində səhmdar kampaniyaları inkişaf edirdi.

80-cı illərin əvvəllərində "Nobel qardaşları" birliyinin daxili bazarda üstünlüyü özünü büruzə verdi. Şirkət Xəzər dənizində tanker donanmasının pioneri kimi çıxış etdi. 1878-ci ildən onların sifarişi ilə İsveçdə hazırlanmış dünyada birinci neft tankeri "Zoroastr" Bakı ilə Həştərxan arasında hərəkətə başladı. Bir ildən sonra yeni, daha böyük "Moisey" tankeri sifariş verildi. Beləliklə,"Nobel qardaşları" birliyi Rusiyanın daxilində quru və dəniz kommunikasiyalarında inhisarçıya çevrilmişdi.

Neft istehsalının inhisarlaşması uğrunda başlamış mübarizənin qızğın çağında sahə sahibkarlıq təşkilatı - Bakı Neft Sənayeçilərinin Qurultayı təşəkkül tapdı. Bakı neft sənayeçilərinə hər il qurultaylarını çağırmağa icazə vermək haqqında Nazirlər Komitəsinin Əsasnaməsi 1884-cü il yanvarında çar tərəfindən təsdiq edildi. Quraltaylar ilk vaxtlar iqtisadi vəziyyətindən asılı olmayaraq, bütün sənayeçilərin mənafelərini əks etdirən - ümumiyyətlə "neft sənayesinin ehtiyac və məsələlərini müzakirə etmək üçün" bir təşkilat kimi düşünülmüşdü. Firmalar üçün heç bir senz məhdudiyyəti mövcud deyildi. Lakin artıq V Qurultayda (1888-ci il) iri firmalar "qurultayda iştirak etməyin müəyyənləşdirilməsində kiçik firmalarla düz gəlməyərək" müxalifətə keçdilər, növbəti ildə keçirilən qurultayda isə Qurultaylar Şurasının işini tamamilə pozdular. Nəticədə V Qurultay tərəfindən qəbul edilmiş Əsasnamə ilə senz sistemi tətbiq edildi. Bundan sonra firmaların qurultay təşkilatında nümayəndəlikləri neft hasilatı, emalı və daşınmasının miqdarı ilə müəyyənləşdirilirdi. Bununla da Qurultaylar təxminən bir qrup iri firmanın orqanı və onların neft istehsalını inhisarlaşdırmaq cəhdlərinin ifadəçisi oldu. Qurultaylar neft-sənaye burjuaziyasının inhisarçı yuxarı təbəqəsinin təşkilati cəhətdən birləşməsi və onun dövlət aparatı ilə qovuşması üçün mühüm vasitə

oldu. 1890-cı ildən Bakı Neft Sənayeçilərinin Qurultayları Şurası Peterburqda özünün ştatlı nümayəndəsinə malik idi və bütün mühüm məsələlər üzrə çar hökuməti qarşısında məsələ qaldırırdı. Çar hökuməti isə öz növbəsində bildirirdi ki, "neft sənayesi ilə əlaqədar heç bir məsələ əvvəlcədən Bakı neft sənayeçiləri ilə müzakirə olunmadan hökumət tərəfindən həll edilməyəcək".

Qurultaylar Şurası işgüzar nümayəndəlik funksiyasını, fəhlələr əleyhinə siyasətlə burjuaziyanın qüvvə və vəsaitini, çarizmin hərbi-polis cəza aparatı ilə birləşdirirdi. 1897-ci ildə çarizm Balaxanı-Sabunçu polismeysterliyini təsis etdi. Onun saxlanılmasına sərf olunan xərclər ona görə bütünlüklə Qurultay Şurasının fondu hesabına ödənilirdi ki, Balaxanı-Sabunçu polis idarəsinin ştatlarının təsis edilməsi yalnız neft sənayeçilərinin özlərinin ehtiyacı və onların təşəbbüsü ilə bağlı idi. Qurultaylar Şurası özünün iki həftəlik mətbuat orqanına– "Neftyanoe delo" jurnalına malik idi. Qurultaylar Şurasının fəaliyyəti ilə bağlı bütün xərclər, firmaların "könüllü" üzvlük haqları, 1893-cü ildən isə məcburi yığımlar hesabına ödənilirdi.

1892-1893-cü illərdə neft sənayesi Rusiya sənayesinin qismən böhranı ilə əlaqədar yeni böhran keçirirdi. Neft sənayesinin yeni böhranı əsasında neft məhsullarının həddən artıq istehsalı dururdu ki, bu da onların qiymətlərinin kəskin aşağı düşməsinə səbəb olmuşdu.Yalnız 1894-cü ilin sonlarında neft məhsulları istehsalının artması ilə əlaqədar neft sənayesi böhran vəziyyətindən çıxdı. Sonrakı illərdə qazma və neft hasilatının inkişafı sürətlə getdi.

1898-ci ildə Bakı neft hasilatına görə Amerika Birləşmiş Ştatlarını ötdü. 1900-cü ildə illik məhsuldarlığı 10 milyon pud olan 13 firma neft hasilatının 67,1%-ni verirdi.

1900-cü ildə "Nobel qardaşları" şirkəti Xəzər-Qara dəniz Cəmiyyəti ilə birlikdə Bakıdakı 8 ən iri firma sırasında ("Mantaşov və

K°”, Bakı Neft Cəmiyyəti, Xəzər şirkəti, “Oleum”, Mirzoyev qardaşları, Rus neftinin Bakı cəmiyyəti firmaları) idi.

1891-ci ildə 4 yerli firmanın “Bakı standartı” adlandırılan birliyi meydana gəldi. Bu Mantaşevin, Tağıyevin, Lianozovun və Budaqovun firmaları idi. “Nobel qardaşları” şirkəti yaranmış vəziyyətdən istifadə etməyi qərara aldı. Növbəti ilin noyabr-dekabrında “Yeddi böyük firmanın ittifaqı” adlı yeni birlik yarandı. Birlik həm də ”Bakı standartı”nı, Rotşildlərin Xəzər - Qara dəniz Cəmiyyətini və “S.M.Şibayev və K°”-nı öz himayəsinə cəlb edə bildi.

Bakıda ağ neft istehsalının 25,5%-i “Nobel qardaşları”nın, 35,7%-i Xəzər-Qara dəniz Cəmiyyətinin və 13%-i “Bakı standartı” firmasının payına düşürdü. Bununla da Rusiyada əsas ağ neft istehsalçıları ilk dəfə olaraq kifayət qədər iri birliyə nail oldular ki, bu da onlara Amerikanın “Standart Oyl” firması ilə dünya ağ neft bazarını bölüşdürməyə və Bakı firmaları üçün “sahələr” müəyyənləşdirməyə imkan verdi.

Çar hökuməti tərəfindən yaradılmış geniş imkanlardan istifadə edən xarici firmaların Bakı neft sənayesinə soxulması 90-cı illərin ikinci yarısında sürətlə genişləndi. Təkcə 1895-1898-ci illərdə Bakı rayonunun neft sənayesində 6 ingilis və bir sıra digər xarici kompaniyalar kök saldı.

Xarici kapital axınının sənayenin inkişafı üçün müəyyən müsbət əhəmiyyəti olsa da, rus kapitalistləri kimi, Qərb kapitalistləri də çox vaxt istehsalı yenidən qurmaqdan imtina etməklə neft sənayesini texniki geriliyə məhkum edir, Bakı zəhmətkeşlərini amansız istismar etmək və neftin qiymətini qaldırmaqla külli gəlir əldə edirdilər. 1900-cü ildə Rusiyanın neft sənayesindəki səhmdar kapitalları arasında xarici kapitalın payı 35,7% təşkil edirdi.Xarici kapitalın mövqelərinin genişlənməsi neft hasilatında rus və yerli firmaların xüsusi çəkilərinin azalmasına gətirib çıxardı.

XIX yüzilliyin sonuna yaxın Şimali Azərbaycan neft istehsalı üzrə dünyada birinci yerə çıxdı. Bu dövrdə neft sənayesində inhisarların tam hökmranlığı bərqərar oldu, xarici kapitalın mövqeyi genişləndi, ilk ixracat sindikatı - iri inhisarçı birlik meydana gəldi. Bakıda neft sənayesi ilə yanaşı, digər sənaye sahələri də yaranmaqda və inkişafda idi.

Neft-kimya sənayesi neft emalı ilə bilavasitə bağlı idi. Bakıda ilk kimya zavodu 1879-cu ildə S.M.Şibayev tərəfindən təsis edildi. Az sonra, 1883-cü ildə "Nobel qardaşları" şirkətinin, 1885-ci ildə Skvortsovun, 1889-cu ildə isə Tumayev və Adamovun kimya zavodları tikildi. XIX yüzilliyin sonunda Bakıda başlıca olaraq kükürd turşusu istehsal edən kimya zavodları fəaliyyət göstərirdi.

Neft emalı üçün zəruri olan kükürd turşusu almaqdan ötrü xammal-kükürd kolçedanı əsasən xaricdən gətirilirdi. 90-cı illərdə neft sənayesi kapitalistləri vəziyyətdən çıxış yolu tapdılar. 1893-cü ildə "Nobel qardaşları" şirkəti Dağ-mədən departamentinin rəsmi icazəsi ilə "Simens qardaşları və kompaniyası" şirkəti ilə müqavilə bağladı. Müqavilənin şərtlərinə görə, "Simens qardaşları" şirkəti Gədəbəy filiz mədənlərində çıxarılan bütün filizi "Nobel qardaşları" şirkətinə satırdı. Artıq 1893-cü ilin son ayında mis kolçedanı "Nobel qardaşları"nın Qara şəhərdəki kimya zavoduna göndərilirdi. Kolçedanın emalı prosesində alınan mis yenidən Gədəbəy misəritmə zavoduna qaytarılırdı. "Nobel qardaşları" şirkəti sonralar Azərbaycanın qərb hissəsində mövcud olan kükürd kolçedanı mədənlərini öz inhisarına almışdı. Bağlanmış müqavilələrdə göstərilirdi ki, Simenslər mis və kükürd kolçedanını yalnız "Nobel qardaşları" şirkətinə satmalıdırlar. Beləliklə, bu müqavilə hələ XIX yüzilliyin son rübündə dağ-mədən sənayesinin mühüm bir sahəsinin neft sənayesinin inhisar birliklərinə tabeliyinin başlanğıcı oldu.

Neft sənayesinin inkişafı, mexaniki istehsala tələbat kəskin surətdə çuqun, buxar qazanları, dəmir boruları, neft saxlamaq üçün çənlər, qazma dəzgahları və s. istehsal etmək üçün neft sənayeçilərindən mexaniki emalatxanaların və ya zavodların tikilməsini tələb edirdi.

"Qafqaz və Merkuri" gəmiçilik səhmdar cəmiyyətinə məxsus təmir-mexaniki emalatxana əsasında 1866-cı ildə ayrıca zavod inşa edildi. İkinci belə bir emalatxana 1875-ci ildə işə salındı.

Sənayenin başqa sahələri. 60-70-ci illərdə misəritmə istehsalı mühüm sənaye sahəsnə çevrildi. Yelizavetpol qəzasının Gədəbəy kəndi yaxınlığında mis filizinin olması hələ yüzilliyin birinci yarısında məlum idi. Ancaq büsbütün əl əməyinə əsaslanan, ildə 1200 pud mis istehsal edən kiçik misəritmə zavodu isə yerli sahibkarlar tərəfindən burada ancaq 1855-ci ildə işə salındı. 1864-cü ildə bu zavod iri sənayeçilərin – Simens familiyalı iki qardaşın əlinə keçdi. Onlardan biri Rusiya, digəri isə Almaniya təbəəsi idi. Elə o dövrdə onlar Gədəbəydə yeni zavod tikmək barəsində xəzinə ilə müqavilə bağladılar. "Simens qardaşları və Kº" şirkəti Gədəbəy rayonunun mis sərvətlərinin onlara necə böyük qazanclar gətirəcəyini başa düşərək, 1865-ci il avqustunda iri misəritmə zavodunun tikintisini başa çatdırdılar.

Bunlardan başqa, zavodda əridilən filizlərdən mis kuporosunun təmizlənib ayrılması üçün hovuzlar sistemi qurulmuş və iki lokomotivi olan 6 verstlik dəmiryolu çəkilmişdi. Zavod həmçinin ventilyasiya sisteminə malik idi, burada dülgər və çilingər sexləri yaradılmışdı.

Gədəbəy zavodu onun üç verstliyində yerləşən mədəndə çıxarılan mis külçəsi ilə təchiz olunurdu. Bu iri kapitalist müəssisəsinin zəif yeri onun yanacaq bazası idi. Cənubi Qafqaz dəmiryolunun Bakı sahəsinin tikilməsinədək zavod müstəsna surətdə

ağac kömürü hesabına işləməli olmuşdu. Möhtəşəm meşə zolaqlarının sahibləri olan Simenslər onları amansızcasına qırıb məhv edirdilər.

Gədəbəy zavodu 1865-1866-cı illərdə müvafiq olaraq 4025 və 8416 pud mis vermişdi. Onun məhsuldarlığı ilbəil artaraq, 1871-ci ildə 24.059, 1877-ci ildə isə 53 min puda çatmışdı. Bu da bütün Rusiya imperiyası misəritmə sənayesi məhsulunun dörddə birini təşkil edirdi. Misin bir hissəsi Rusiya quberniyalarına göndərilir,bir hissəsi isə mis qab-qacaq istehsalı ilə məşğul olan Lahıcda istifadə edilirdi. Beləliklə, Gədəbəy misəritmə zavodu, o vaxt bütün Rusiya misəritmə müəssisələri içərisində ən iri zavod idi.

60-cı illərdə Zəylikdə kiçik, kustar zəy müəssisələri fəaliyyət göstərirdi. 1878-ci ildən yeni zəy zavodu fəaliyyətə başladı. 1879-cu ilədək zavodda 5 mindən 8 min pudadək zəy istehsal olunurdu. Lakin sonrakı illərdə zavodun məhsuldarlığı azaldı və 1883-cü ildə o, fəaliyyətini dayandırdı.

Hələ 50-60-cı illərdə kapitalist istehsalı orbitinə cəlb olunmuş sənaye sahələrindən biri ipəksarıma istehsalı idi. 50-ci illərdə Xanabad ipəksarıma fabrikinin texniki təminatında tərəqqinin davam etdirilməsi müşahidə olunur. 1854-cü ildə fabrikdə dəzgahların sayı 42-yə çatdı, buxar mühərriki tətbiq olundu və dəzgahlar qismən mexaniki avadanlığı işləməyə keçirildi. 1860-cı illərdə isə bu fabrikin avadanlığı daha da təkmilləşdirilmişdi.

İpəksarıma istehsalının verə biləcəyi gəlir Moskva sənayeçiləri Alekseyev və Voronin qardaşlarının diqqətini cəlb etdi. Onlar şirkət təşkil etdilər və 1860-cı ildə iri fabrikin tikintisinə başladılar. Bu fabrikdə bir çox kapitalist müəssisələri üçün çox səciyyəvi olan, aşağı haqq verilən, kapitalistlər üçün xeyirli olan qadın və uşaq əməyi tətbiq edilirdi. Fabrikdə ildə 100-1200 pud ipək istehsal edilməsi nəzərdə tutulurdu.

Lakin elə bu dövrdə, ipəkçiliyin çiçəklənməsinin ən yüksək mərhələsində, yəni 60-cı illərin birinci yarısında iqtisadiyyatın bu sahəsinə bəla üz verdi. Bir tərəfdə, xarici şirkətlərin ipəkqurdu toxumu ilə alver edən agentləri Nuxada çox böyük miqdarda ipəkqurdu toxumu alır və onu xaricə aparmaqda davam edirdilər, digər tərəfdən isə onlar 1864-cü ildə Azərbaycana ipəkqurdu xəstəliyini gətirdilər. Bütün bunlar ipəkçiliyin tənəzzül etməsinə gətirib çıxardı. Buna görə də xammalın çatışmazlığı ilə əlaqədar Alekseyev və Voronin qardaşlarının müəssisəsi 1866-cı ildə öz istehsal gücünü yarıbayarı azaltmış, 1867-1870-ci illərdə isə fəaliyyətini tamamilə dayandırmışdı. Nuxanın digər ipəksarıma müəssisələri də bağlanmışdı.

İpəkqurdu xəstəliyi Ordubad və Naxçıvan şəhərləri rayonunu əhatə etməmişdi. Bu vəziyyət həmin rayonda ipəksarıma istehsalının təşəkkülünə və inkişafına müsbət təsir göstərirdi. Ordubadda ilk ipəksarıma fabrikləri meydana çıxmağa başlamışdı. 60-cı illərin əvvəllərində fabriklərdən biri Aşağı Əylisli kəndində, ikincisi isə Ordubadda yaradılmışdı.

1875-ci ildə Ordubadın özündə iki ipəksarıma fabriki meydana çıxdı. Bu fabriklərdə də buxar mühərrikləri tətbiq olunurdu. Bunlardan başqa Naxçıvan qəzası və Ordubadda xırda əmtəə istehsalı tipli onlarla ipəksarıma müəssisəsi fəaliyyət göstərirdi.

Balıq vətəgələri Azərbaycanın iqtisadi həyatında əsas yer tuturdu. 1881-ci ildən Azərbaycanın balıq sənayesində növbə ilə balıq vətəgələrini 7-8 illiyə iltizama götürən 6 nəfər yerli sahibkar ağalıq edirdi. Göstərilən müddət ərzində onların hər il xəzinəyə ödədikləri məbləğ 170 min manatdan 405 min manatadək tərəddüd edirdi. Bu, zəngin balıq vətəgələrinin vəhşicəsinə istismarından onların götürdükləri xalis gəlirdən çox-çox az idi.

Balıq vətəgələrində minlərlə həm yerli, həm də gəlmə muzdlu fəhlənin əməyi tətbiq olunurdu. Deməli, iltizam sisteminin mövcudluğuna baxmayaraq balıq sənayesi kapitalist xarakteri daşıyırdı.

Şərab istehsalında Yelenendorf (indiki Xanlar) kəndinin alman kolonistləri mühüm yer tuturdular. Onlardan biri – Xristofer Forrer 1870-ci ildə şərab ticarəti ilə məşğul olan "Xristofer Forer oğulları ilə birlikdə" adlı firmanın əsasını qoydu. Müxtəlif vaxtlarda Gəncə, Bakı, Tiflis və Batumda firmanın filialları açıldı.

Azərbaycanda göl duzu və daş duz çıxarılırdı. Göl duzu, əsasən, 27 gölün yerləşdiyi Abşeron yarımadasında əldə olunurdu. Bu göllərdən Masazır, Balaxanı, Zığ, Kürdəxanı gölləri xüsusilə fərqlənirdi. Uzun müddət Abşeronun duz mədənləri neft mədənləri ilə birlikdə iltizama verilirdi.

İltizam sisteminin ləğvindən sonra, 70-ci illərdə duz gölləri ayrı-ayrı sahələrə bölünür və icarəyə verilirdi. Göl duzu Abşeron göllərindən başqa Cavad qəzasında yerləşən göllərdə də var idi. Lakin həmin göllərin məhsuldarlığı aşağı idi.

Naxçıvan duz mədənləri iltizama verilirdi və bu mədənlərdə Şıxmahmud kəndinin feodal-asılı kəndlilərinin məcburi əməyi tətbiq olunurdu.

1868-ci ildə kəndlilərin məcburi əməyinin ləğv edilməsindən sonra isə duz mədənlərində muzdlu əmək tətbiq olunurdu. Bundan sonra duz mədənlərinin açıq müzaidə vasitəsilə satışının tətbiq edilməsi mühüm əhəmiyyət kəsb etdi. 60-cı illərin ikinci yarısında Naxçıvan duz mədənlərində hər il 250 min puddan 300 min pudadək duz çıxarılırdı. Ancaq sonrakı illərdə duz çıxarılması azaldı. Bunun səbəbi aksiz sisteminin tətbiq edilməsi idi.

Bundan əlavə, Azərbaycanda tütün məmulatları, tikinti materialları və s. istehsal edən müəssisələr fəaliyyət göstərirdi. Lakin

30-60-cı illərdə bütün bu istehsal sahələri hələ kustar, xırda əmtəə xarakteri daşıyırdı.

Beləliklə, XIX yüzilliyin 50-60-cı illərində Azərbaycanda sənətkarlıq və xırda əmtəə istehsalı xarakterli müəssisələrlə yanaşı, neftçıxarma və neftayırma, misəritmə kimi sənaye sahələri əsas etibarilə artıq inkişafının fabrik-zavod (maşın) mərhələsində idi. Şərabçılıq, araqçəkmə, ipəkçilik və balıqçılıq kimi istehsal sahələri isə qarışıq xarakter daşıyırdı.

XIX yüzilliyin 80-ci illərindən başlayaraq Bakıda metal emalı sənayesi geniş vüsət aldı. 1887-ci ildə "Bakı doku" şirkətinin gəmi təmiri zavodu təsis olundu. 1899-cu ildə isə Ə.Dadaşovun gəmi təmiri zavodu tikildi. Gəmilərin təmiri ilə "Kaspi" neft sənayesi və ticarəti, "Əmtəə anbarlarının şərq cəmiyyəti", "Nadejda" və digər səhmdar cəmiyyətlərinin mexaniki müəssisələri də məşğul olurdular. 90-cı illərin sonunda metal emalı sənayesində 50-dən cox mexaniki zavod və emalatxana işləyirdi.

Neft sənayesi və onunla bağlı olan bir sıra sənaye sahələrinin inkişafı daha güclü enerji mənbəyinin olmasını tələb edirdi. Təbiidir ki, kapitalizm Bakıda da özünə enerji mənbəyi yaratmışdı. Artıq 90-cı illərdə neft mədənlərində, zavodlarda, limanda və bəzi yaşayış binalarında elektrik işığı yanırdı. "Nobel qardaşları" şirkətinin 1897-ci ildə tikdirdiyi elektrik stansiyasının gücündən müəssisələr də istifadə edirdi. "Simens-Qalske" səhmdar cəmiyyəti və neft sənayeçiləri birlikdə 1899-cu ildə "Elektriçeskaya sila" səhmdar cəmiyyətini təsis etdilər. Qeyd etmək lazımdır ki, Bakıda olan elektrik stansiyalarının gücündən başlıca olaraq iri neft sənayesi kompaniyaları istifadə edirdilər.

Dağ-mədən sənaye sahələri təkcə Bakıda deyil, Azərbaycanın qəzalarında da yaranıb inkişaf etməkdə idi. Bunların içərisində misəritmə sahəsi xüsusi yer tuturdu. Azərbaycanın qərb hissəsində

yerləşən dağ-mədən sənayesi, təkcə Qafqazda yox, Rusiyada da mühüm mövqeyə malik idi. "Simens qardaşları" pay şirkətinin zavodu dövrün texniki tələbinə cavab verən mükəmməl avadanlıqla təchiz edilmişdi. Zavodun ətrafında çilingər, xarrat və s. emalatxanalar fəaliyyət göstərirdi. Bundan əlavə, zavodda odadavamlı kərpic istehsalı üçün xüsusi sex vardı. Bu sexdə Cənubi Qafqazda ilk dəfə bu növ kərpicin istehsalına başlanıldı.

Zavodda yanacaq kimi ağac kömüründən istifadə edilirdi. Zavodda mis istehsalı ildən-ilə artırdı. 1877-ci ildə Rusiyada istehsal edilmiş 213.931 pud misin 25%-dən çoxunu Gədəbəy zavodu verirdi.

"Simens qardaşları" şirkəti 1883-cü ildə Gədəbəy zavodundan 12 km. aralı Qalakənd çayı üzərində ikinci bir zavodun inşasını başa çatdırdı. Zavodda filiz yandırmaq və mis əritmək üçün müxtəlif sobalar qoyulmuşdu. Yanacaq kimi neft tullantılarından istifadə olunurdu. 1884-cü ildə hər iki zavodu birləşdirən darxətli dəmiryol çəkilişi başa çatdı. Bu dəmiryolu tək zavodları, filiz mədənlərini deyil, həm də ağac gətirilməsini asanlaşdırmaq məqsədilə zavoda aid əsas meşə sahələrini birləşdirdi.

Qalakənd zavodunda istehsalı artırmaq və elektroliz yolu ilə mis almaq üçün çayın üzərində ümumi gücü 100 at gücündən çox olan 2 turbin düzəldildi. Bununla bağlı olaraq elektroliz vannalarının sayı da artırıldı.

"Simens qardaşları" şirkəti elektroliz yolu ilə təmiz mis almaqdan başqa, həm də tərkibində qızıl və gümüş olan mis çöküntüsü də alırdılar. Həmin çöküntü xüsusi icazə ilə təkrar emal üçün Almaniyaya göndərilirdi. Qalakənd misəritmə zavodu Rusiya üzrə təmiz mis alan ilk zavod idi. Belə zavodlar Rusiyanın özündə yalnız XX yüzilliyin əvvəllərində meydana gəlmişdi.

Zavodların yanacaqla təchizatı vəziyyəti sahibkarları təmin etmirdi. Bakıdan gündə alınan 5 sistern yanacaq dəmir yolu xəttindən

zavoda kimi xüsusi dəmir çəlləklərdə daşınırdı. Ona görə də darxətli dəmir yolunu Qalakənd çayının Şamxorçaya töküldüyü yerədək uzatmaq fikri ortaya çıxdı. Nəhayət, 1889-cu ildə Dəllər stansiyasından Çardaxlı kəndinə qədər 21 verst uzunluğunda neft kəməri çəkildi, 1894-cü ildə kəmər Gədəbəyədək uzadıldı. Beləliklə, kəmərin uzunluğu 42 verstə çatdırıldı. Həmin ildən mazutla bərabər daş kömürdən də istifadəyə başlanıldı.

Təxminən 18 il ərzində şirkət 7 milyon manata qədər xalis gəlir götürmüşdü. 1900-cü ildə Rusiyada istehsal edilən bütün misin 34,6 %-ni və Cənubi Qafqazda alınan misin isə 68,5%-ni Azərbaycan verirdi.

Azərbaycanda mədən sənayesi sahələrindən biri - zəy istehsalı 70-ci illərdə çox cüzi miqdarda artmışdı. 80-ci illərin əvvəllərindən başlayaraq Azərbaycanda zəy istehsalı daha da tənəzzül etdi.

Azərbaycanda kobalt istehsalı 1870-ci ilədək zəif inkişaf etmişdi. 80-90-cı illərdə isə kobalt filizi hasilatında xeyli canlanma əmələ gəldi. Azərbaycanda ilkin saflaşdırmadan sonra filiz xarici ölkələrə göndərilirdi.

Ölkənin ümumi iqtisadi inkişafı ilə əlaqədar tikinti materialları sənayesi sahələri də yaranırdı. Onların içərisində iri daş karxanaları və kərpic istehsalı xüsusi yer tuturdu. 80-90-cı illərdə Bakı və Yelizavetpol quberniyalarında 200-dən çox kərpic istehsal edən müəssisə vardı. Əlbəttə, bunların çoxu xırda müəssisələrdən ibarət idi. İstehsalat əməliyyatlarında buxar gücündən istifadə edilən "Atlas" şirkətinin müəssisələrində ildə 2 milyondan çox, Keşlədə "O.K.Levin L.F.Kiander i K°" şirkətinə məxsus zavodda isə orta hesabla 2 milyon ədədə qədər kərpic istehsal edilirdi.

Buxar mühərrikləri tətbiq olunan kərpic zavodları Yelizavetpol quberniyasında da vardı. Quberniyadakı 100-dən çox kərpic istehsal edən müəssisənin böyük əksəriyyəti xırda idi.

Abşeron ərazisində onlarla karxanada tikinti üçün daş kəsilirdi. Azərbaycanda əhəng istehsalı geniş yayılmışdı. Yelizavetpol quberniyasında zəngin mədənlərdən hərtərəfli istifadə məqsədilə 1899-cu ildə "Tovuz" tikinti materialları və sement istehsalı səhmdar cəmiyyəti təsis olundu.

1890-cı ildə dağ mühəndisi Y.İ.Yeger Naftalanda hasil edilən neftin emalı üçün dəyəri 200 min manata qədər olan bir zavod tikdirdi. Zavodda neft emalı ilə yanaşı, xüsusi sexdə dərmanlar da hazırlanırdı. "Kojelan" adlı sürtkü dərmanı Avropa ölkələrində pudu 20-25 manata satılırdı. 1894-cü ildə Y.İ.Yeger öz şəriki ilə "Naftalan" neft sənayesi və ticarəti şirkətini təsis etdi.

Yüngül sənaye başlıca olaraq, ölkənin şimal-qərb, qərb, cənub-qərb, eləcə də Kürboyu rayonlarında daha çox yayılmışdı. Bu sahədə ipək emalı sənayesi mühüm yer tuturdu. İpək emalı Nuxa-Zaqatala, Qarabağ-Naxçıvan zonalarının ictimai-iqtisadi həyatında mühüm rol oynayırdı. Kapitalist istehsalı ipək sənayesində daha erkən inkişafa başlamışdı.

Əvvəllərdə olduğu kimi, ipək sənayesinin mərkəzi olan Nuxa şəhəri yenə də istehsalda həlledici rol oynayırdı. 80-ci illərdə Nuxa qəzasında müəssisələrin sayı sürətlə artırdı. Xam ipəyə olan böyük tələbat istehsalın miqyasını genişləndirmişdi. Qəzada 500-dən çox iri və kiçik müəssisə işləyirdi. 80-ci illərdə fabrik tipli müəssisələrin sayı xeyli artdı. Nuxa qəzasında fərdi müəssisələrlə yanaşı,kapitalist mülkiyyətinin nisbətən inkişaf etmiş forması, xüsusilə ticarət evləri meydana gəldi. Ticarət evləri və iri fabriklər əsasən azərbaycanlı sahibkarlara məxsus idi.

80-90-cı illərdən Şuşa və Qaryagin qəzalarının ipək emalı müəssisələrində 2.164 sapsarıyan dəzgah və başqa texniki avadanlıq vardı. Bəhs edilən illərdə Naxçıvan və Ordubaddakı müəssisələrdəki dəzgahların sayı təxminən 600, məhsulun ümumi dəyəri isə 0,5 mln.

manata qədər idi. Naxçıvan qəzasında istehsalda maşın tətbiq edən müəssisələr də azərbaycanlı sahibkarların əlində cəmləşmişdi.

XIX yüzilliyin son rübündən başlayaraq Azərbaycanın ipək sənayesində maşın tətbiqi xırda müəssisələrin ixtisarına səbəb olmuşdu. 1873-cü ildə Azərbaycanda ipək istehsal edən müəssisələrin sayı 800-dən çox idisə, 1900-cü ildə onlar 463-ə enmiş, yəni 2 dəfə azalmışdı. Həmin müəssisələrin 60-da buxar mühərrikləri tətbiq edilirdi. Ümumi məhsulun üçdə iki hissəsindən çoxunu verən həmin fabriklərdə bütün fəhlələrin 59,5 %-ni özlərində cəmləşdirmişdi.

İpək emalı Quba, Şəki, Göyçay və digər qəzalarda da mövcud idi. Lakin buradakı ipək istehsalı müəssisələri demək olar ki, xırda əmtəə istehsalı mərhələsindən yuxarı qalxa bilməmişdi.

Azərbaycanda pambıq becərilməsinin sənaye əhəmiyyəti alması 80-90-cı illərə təsadüf edir. Pambıqçılığın inkişafı mahlıc istehsalı müəssisələrinin meydana gəlməsinə səbəb oldu. 1891-ci ildə Yelizavetpol quberniyasında mahlıc istehsal edən kotton-cinlər 17 idisə, 1900-cü ildə onların sayı 35-ə catmışdı.

Azərbaycanda bir dənə də olsun pambıq-parça fabrikinin olmaması və idxal edilən məmulatın cüziliyi əhalinin toxuculuq mallarına olan tələbatını daha da artırmışdı.1897-ci ildə ipək toxuculuğu müəssisəsi tikmək üçün H.Z.Tağıyevin təsis etdiyi səhmdar cəmiyyətinin nizamnaməsi təsdiq edildi. Fabrik yalnız 1900-cü ildə işə salındı. "Lifli maddələrin emalı üzrə Qafqaz səhmdar cəmiyyətinə" məxsus bu fabrik Cənubi Qafqazda ən böyük toxuculuq müəssisəsi idi.

Azərbaycanın yeyinti sənayesində balıq ovu və balıq məhsulları hazırlanması xüsusi yer tuturdu. Azərbaycanda balıq ovu bir qayda olaraq, iltizama verilirdi. Buna baxmayaraq, 70-ci illərdən başlayaraq balıq sənayesinə kapital qoyuluşu xeyli artdı.

1880-ci ildə balıq sənayesində iltizam ləğv edildi. Balıq vətəgələri açıq müzaidə yolu ilə icarəyə verilirdi. Bu tədbir balıq ovunun artmasına səbəb oldu. Bankə, Bojepromısel və başqa yaşayış məntəqələri balıq sənayesi mərkəzlərinə çevrilməkdə idi. Bunlardan əlavə Züdostov Kultuq və s. fəhlə qəsəbələri salınmışdı.

90-cı illərin əvvəllərində Samurdan cənuba sənaye əhəmiyyətli ilk siyənək balığı vətəgəsi meydana gəldi. Yüzilliyin sonunda bu kimi vətəgələrin sayı 7-8-ə çatmışdı. 1900-cü ildə Bakı-Port-Petrovski dəmir yolunun çəkilməsi Xəzərin Azərbaycan sahillərində dəniz balıq vətəgələrinin sayının artmasına səbəb oldu.

Cənubi Qafqazın şərab istehsalında Azərbaycan böyük rol oynayırdı.70-ci illərdən həm Bakı, həm də Yelizavetpol quberniyasında artıq bir sıra qəzaların iqtisadi həyatında şərab, araq, konyak və s. istehsalı mühüm rola malik idi.Şərab istehsalının çoxu məhz Şamaxı, Göyçay qəzalarının payına düşürdü. Yelizavetpol quberniyasında Yelizavetpol, Şuşa, qismən Qazax qəzaları şərab istehsalında birinci yerdə gedirdi.

1870-ci ildə Yelizavetpol qəzasında şərab istehsalı ilə məşğul olan nisbətən iri kapitalist müəssisələri meydana gəlir. Bunlardan "X.Forer və oğulları", 80-ci illərdə birinci firma – "Hummel qardaşları" firmaları təşkil edildi. 1892-ci ildə birinci firma "Forer qardaşları" adlandırıldı. Firmaların istehsal etdikləri əla keyfiyyətli şərab Rusiyanın bir sıra şəhərlərinə və xarici ölkələrə ixrac edilirdi. Şərab istehsalının mənfəətini görən neft sənayesi sahibkarlarının bir hissəsi Bakı quberniyasında özlərinə iri təsərrüfatlar yaratmışdılar.

1873-cü ildə şəraba aksiz vergisi qoyulması istehsalın həcminə təsir göstərməyə bilməzdi. Buna baxmayaraq, 1879-cu ildə Bakı quberniyasında 107-yə qədər şərab istehsalı müəssisəsi vardı. Yelizavetpol quberniyasında onların sayı daha çox idi. Şərab istehsalı Naxçıvan qəzasında getdikcə artırdı.

Yeyinti sənayesində dəyirmanlar öz əhəmiyyətinə görə birinci yerdə gedirdi. Əhalinin una olan tələbini ibtidai su dəyirmanları ödəyə bilmirdi. Unüyütmə istehsalında fabrik-zavod tipli müəssisələrin sayı artmışdı. Buxarla işləyən dəyirmanların böyük əksəriyyəti Bakıda yerləşirdi. Əhalisi sürətlə artan Bakı şəhəri böyük istehsal gücünə malik olan belə müəssisələrin olmasını tələb edirdi. 80-90-cı illərdə iri dəyirmanlar xeyli çoxalmışdı.

Azərbaycanda tütün fabrikləri əsasən 80-ci illərdən yaranmağa başlanmışdı. Ən iri tütün fabrikləri Bakıda idi. 1876-cı ildə Nuxada təsis edilmiş ilk tütün fabriki Məşədi Həsən Dadaşova məxsus olmuşdur.

Azərbaycanda geniş yayılmış yeyinti sənayesi sahələrindən biri olan daş və şor duz istehsalı hələ qədimdən mövcud idi. Bakı quberniyasında əvvəldə olduğu kimi, şor duz alınan ən böyük göllər Masazır, Zığ, Qala, Kürdəxanı gölləri idi. Cavad qəzasında da belə göllər vardı. Şuşa qəzasının Ağcabədi kəndi yaxınlığında yalnız bir göl yerləşirdi. Duz gölləri gah xəzinənin, gah da ayrı-ayrı şəxslərin - icarədarların ixtiyarında olurdu. Belə bir vəziyyət 1875-ci ilədək davam etdi. 1875-ci ildə hazırlanan və 1876-cı ildən tətbiq edilməyə başlanan "Əsasnamə"yə görə, iri duz gölləri iltizam yolu ilə icarəyə verildi. İcarə duz istehsalının artmasına nisbətən müsbət təsir göstərdi.

Yeyinti sənayesi sahələrindən biri də biyan kökü emalı idi. 70-ci illərdə Yelizavetpolda ilk biyan kökü emalı zavodu təsis edildi. 1886-cı ildə Ləkidə Qizi qardaşları və Xrussakinin iri bir zavodu inşa edildi.

Beləliklə, çarizmin müstəmləkəçi iqtisadi siyasətindən doğan maneələrə baxmayaraq, ölkənin sənaye həyatında kapitalist münasibətlərinin inkişafı bir sıra sahələrdə artıq özünün yeni mərhələsinə qədəm qoymuşdu.

Nəqliyyat və rabitə. 1872-ci ilin sonlarına yaxın Cənubi Qafqazda Tiflis və Potini birləşdirən dəmir yolu çəkildi. 1880-ci ilin

yanvarında 25 verst uzunluğunda olan Bakı və Balaxanı-Sabunçu neft mədənlərini birləşdirən dəmir yolunda (Bakı sərnişin və neft limanları, Sabunçu, Balaxanı, Suraxanı) qatarlar hərəkətə başladı.

1880-ci ildə Tiflis və Bakı arasında dəmir yolu çəkilməsinə başlanıldı. 1883-cü ilin mayında isə dəmir yolu artıq fəaliyyət göstərirdi. Tiflis-Bakı dəmir yolu Cənubi Qafqaz iqtisadiyyatının Rusiya və dünya ticarət dövriyyəsinə cəlb edilməsində çox mühüm əhəmiyyət kəsb edirdi. Bu dəmir yolunun yük dövriyyəsində neft yükləri əsas yer tuturdu. Neft yükləri daşınan bütün yüklərin $^{2}/_{3}$-ni təşkil edirdi. Ağ neft və digər neft məhsulları Batuma aparılır, buradan isə Avropa və digər xarici bazarlara ixrac olunurdu. Batuma aparılan neft burada onun üçün tikilmiş müəssisələrdə emal olunurdu. 80-ci illərin sonlarında və 90-cı illərdə Bakıdan Batuma neft aparılmasının xeyli artmasına baxmayaraq, dəmir yolunun daşıma qabiliyyətinin məhdud olması nəticəsində daşınan neftin yalnız 20%-i onun payına düşürdü.

Yüklərin daşınmasında Gəncə, Ağstafa, Dəllər, Yevlax, Ucar, Ləki, Kürdəmir, Hacıqabul stansiyaları da mühüm rol oynayırdılar.

Dəmir yolu ilə həm də xeyli sərnişin daşınırdı ki, bu da əhalinin, xüsusilə fəhlələrin və onların ailə üzvlərinin miqrasiyasına şərait yaradır, Şimali Azərbaycanın proletar kadrlarının formalaşmasına yardım göstərirdi.

Bakı (Biləcəri) və Port-Petrovski arasında xəttin çəkilməsindən sonra dəmir yolunun Şimali Azərbaycanın iqtisadiyyatındakı rolu daha da artdı. 1900-cü ildə Bakı ilə Port-Petrovsk arasında hərəkət başlandı. Biləcəridə stansiya və Vladiqafqaz dəmir yolunun deposu tikildi. Beləliklə, Cənubi Qafqaz dəmir yolunun çəkilməsi və Cənubi Qafqaz dəmir yollarının Bakı (Biləcəri) vasitəsi ilə Rusiyanın dəmir yolu ilə birləşdirilməsi Şimali Azərbaycanın və bütün Cənubi Qafqazın ölkənin digər hissələri ilə iqtisadi əlaqələrinin

genişlənməsinə yardım etdi. Qafqazın ən böyük dəmir yolu qovşağı kimi Bakının rolunu artırdı.

Bu dövrdə Xəzər dənizində gəmiçilik xeyli genişləndi. Bakı Xəzər dənizində ən böyük liman idi. Şimali Azərbaycanın digər sahil məntəqələrinin - Lənkəran və Astaranın da əhəmiyyəti artdı.

70-ci illərin sonlarına qədər neft və neft məhsulları ağac çəlləklərdə daşınırdı ki, bu da böyük xərc tələb edirdi. 1873-cü ildə gəmi sahibləri neft məhsullarını çənlərə doldurmaq qaydası ilə daşımağa başladılar. Bu yenilik Nobel qardaşları tərəfindən istifadə edildi. 1878-ci ildə də Xəzərdə onun ilk neftdaşıyan "Zoroastr" gəmisi, onun ardınca isə bir neçə digər neftdaşıyan gəmi peyda oldu. Neft yüklərinin daşınmasında maye daşımaq üçün çənləri olan gəmilərdən "Qafqaz və Merkuri", "Drujina" və digər gəmi kompaniyaları da istifadə etməyə başladılar.

Xəzər dənizində buxarla işləyən neftdaşıyan gəmilərin sayı və tonnajı sürətlə artırdı. Xəzər dənizi və Volqa çayı ilə olan su yolu Azərbaycanı ölkənin digər hissələri ilə iqtisadi cəhətdən birləşdirən mühüm nəqliyyat yolu idi.

Xəzər dəniz donanmasında hakim mövqe iri gəmi kompaniyalarına məxsus idi. Xəzər və Volqada öz əməliyyatlarını xeyli genişləndirən "Qafqaz və Merkuri" cəmiyyəti ilə yanaşı, bir çox neftdaşıyan və quru yük-sərnişin gəmiləri "Nobel qardaşları" və "Kaspi birliyinə", "Mal anbarlarının Şərq birliyi" və "Nadejda" kompaniyalarına məxsus idi.

70-80-ci illərdə Xəzər gəmiçiliyində "Qafqaz və Merkuri" və "Nobel qardaşları" inhisarçı mövqe tuturdularsa, yüzilliyin sonuna yaxın Şimali Azərbaycan kapitalının mövqeləri xeyli genişləndi.

Xəzər ticarət donanması gəmilərinin ümumi sayında, neftdaşıyan, quru yük-sərnişin və yelkənli gəmilərin sırasında Azərbaycan kapitalı aparıcı yer tuturdu.

Buxar donanması gəmilərinin sayına, ümumi tutumuna görə rus kapitalı birinci yeri tuturdu.

Kür çayının aşağı axarlarında da gəmiçilik inkişaf edirdi. Lakin çaydan dənizə gəmi keçməsi üçün zəruri yerlərin təmizlənməməsi bu çaydan mühüm nəqliyyat vasitəsi kimi istifadə etməyi ləngidirdi.

Bu dövrdə rabitə də xeyli inkişaf etdi. Poçt rabitəsi əsasən çay, dəniz və quru yollarla həyata keçirilirdi. Bu rabitə Rusiya və onun vasitəsi ilə xarici ölkələrlə sıx ticarət-iqtisadi əlaqələr yaratmaq üçün mühüm rol oynayırdı.

Şimali Azərbaycanın başlıca rabitə yollarından biri, ümumi uzunluğu 509 verst olan Bakı-Tiflis poçt yolu idi. Baş poçt yollarından Şimali Azərbaycanın bütün qəza mərkəzlərinə poçt yolları gedirdi.

Poçt Bakıda daha çox inkişaf edirdi. Buradan mallar həm Rusiyanın daxilinə, həm də xaricə Fransaya, İngiltərəyə, Hollandiyaya, İrana və başqa yerlərə göndərilirdi.

XIX yüzilliyin ikinci yarısında baş verən iqtisadi inkişaf teleqrafın da meydana gəlməsinə və yayılmasına ytəkan verdi. 1864-cü ilin yanvarında Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xəttinin bir hissəsi olan ilk teleqraf xətti istifadəyə verildi. 1868-ci ilin yanvarında Tiflis-Bakı teleqraf xəttinin istifadəyə verilməsi ilə Qafqazın iki ən mühüm məntəqəsinin - Tiflislə Bakının birləşdirilməsi başa çatdı.

1868-ci ildə Şimali Azərbaycanın ticarət və ipəkçilik mərkəzi Şəkidə teleqraf stansiyası açıldı, xüsusi teleqraf xətti Gəncəni Gədəbəy misəritmə zavodları ilə birləşdirdi, ticarətlə məşğul olanların ehtiyacını ödəmək üçün Şuşada teleqraf stansiyası işə salındı. Şimali Azərbaycanın iri balıq sənayesi mərkəzləri olan Salyanda, Pirallahı vətəgəsində (1883-cü il), Yevlaxda, Lənkəranda, Ağdaşda teleqraf stansiyaları açıldı ki, bu da böyük ticarətlə məşğul olan tacirlərin tələbatı ilə bağlı idi.

1879-cu ildə Xəzər dənizinin dibi ilə teleqraf xəttinin çəkilişi Bakı və Krasnovodsk arasında birbaşa əlaqə yaratmağa imkan verdi. Bakı-Tiflis dəmir yolu sahəsinin tikintisindən sonra bütün yol boyunca teleqraf xətti çəkildi və 36 teleqraf stansiyası istifadəyə verildi. 1886-cı ilin sentyabrında Qara şəhərdə teleqraf stansiyası, Yelenendorfda poçt-teleqraf şöbəsi istifadəyə verildi.

Şimali Azərbaycanda rabitənin üçüncü növünün - telefonun inkişafi daha sürətlə gedirdi. Belə ki, yeni rabitə növü 1876-cı ildə Vaşinqtonda rəsmi şəkildə təsdiq edildi, 1880-ci ilin sonunda isə artıq "Qafqaz və Merkuri" gəmiçilik cəmiyyəti Bakıda ilk telefon xətti çəkdi.

Telefon rabitəsinin əsas inkişafi Bakı və onun ətrafında baş versə də, o, Şimali Azərbaycanın qəzalarında da, əsasən dəmiryolu xətti boyunca da müəyyən qədər inkişaf edirdi. Belə ki, 1887-ci ildə Gəncədə vağzalla şəhər arasında telefon rabitəsi yaradıldı. 1890-cı ildə Qarasu suvarma stansiyasından dəmir yolu stansiyasına qədər telefon xətti quraşdırıldı. 1891-ci ildə Hacıqabulda da eynilə belə telefon xətti çəkildi.

Ticarət. Şəhərlər. XIX yüzilliyin 60-cı illərində ticarət sürətlə genişlənməyə başladı. Bakı, Nuxa, Şamaxı, Şuşa, Yelizavetpol, Naxçıvan, Zaqatala və b. şəhərdə tacirlərin, ticarət müəssisələrinin miqdarı və illik dövriyyəsi ilbəil çoxalır, ticarət kapitalının həcmi artırdı. 60-cı illərin ortalarında Bakı quberniyasında 3.879 ticarət müəssisəsinin olması bunu açıq göstərirdi.

XIX yüzilliyin 50-60-cı illərində Azərbaycanın Mərkəzi Rusiya, İran və digər ölkələrlə ticarəti daha da genişləndi.Azərbaycandan Mərkəzi Rusiyaya aparılan malların içərisində ipək və ipək məmulatı, qızılboya, balıq və balıq məmulatı, neft və neft məhsulları mühüm yer tururdu.

Mərkəzi Rusiyadan Azərbaycana başlıca olaraq pambıq-parça, dəmir və dəmir məmulatı, qab-qacaq, xırdavat və digər sənaye malları gətirilirdi. 1857-ci ildə dəmir və dəmir məmulatı Mərkəzi Rusiyadan Şimali Azərbaycana gətirilən bütün malın 33%-ni təşkil edirdi.

Azərbaycanın İranla ticarət əlaqələri də genişlənirdi ki, burada da Bakı və Naxçıvan xüsusilə böyük rol oynayırdı. Gildiya ticarət qaydasının tətbiqi, ticarətin təşkili sisteminin təkmilləşdirilməsi, Azərbaycan rayonları arasında ticarət dövriyyəsinin artması və bir sıra yeni ticarət mərkəzlərinin meydana gəlməsi, ticarətdə təmərküzləşmə və mərkəzləşmə prosesinin baş verməsi 70-ci illərin ortalarından etibarən ticarəti səciyyələndirən cəhətlər idi.

1876-cı ilin martından gildiya ticarət qaydası Azərbaycanda da tətbiq edilməyə başladı. Bundan sonra tacirlərin hər biri malik olduğu kapitalın həcmindən və fəaliyyət dairəsindən asılı olaraq gildiyanın hər hansı bir dərəcəsinə yazılmalı və öz müəssisələri üçün müəyyən bilet götürməli idi.

Birinci gildiya tacirinə çox böyük hüquqlar verilirdi. O, Rusiya və başqa dövlətlərin mallarını "Rusiyanın hər yerində yük ilə, tay ya top ilə" satmaq üçün lazım olan qədər kontor və anbar açmaq hüququna malik idi.

İkinci gildiya şəhadətnaməsini götürənlər şəhadətnamə aldıqları qəza və kəndlərdə istənilən qədər dükan açıb Rusiya və başqa dövlətin gömrüklənmiş mallarını sata bilərdilər. Xırda alış-veriş şəhadətnaməsi olan tacirin şəhadətnamə aldığı qəzada dükan açmağa ixtiyarı var idi. Lakin o, bu dükanlarda Qafqaz canişinliyi tərəfindən tərtib olunmuş siyahıda göstərilən malları satmalı idi.Gildiya ticarət müəssisələri əsasən Bakıda, qismən də Yelizavetpol, Nuxa, Şamaxı və Şuşada açılmışdı.

XIX yüzilliyin 70-ci illərindən etibarən Azərbaycanda gildiya ticarət müəssisələri ilə bərabər, xırda şəhadətnamə ilə idarə olunan

ticarət müəssisələrinin də sayı artırdı. Bakı şəhəri ticarət-sənaye dövriyyəsinin həcminə görə nəinki Azərbaycan və Cənubi Qafqazda, habelə Ümumrusiya miqyasında əhəmiyyətli yer tuturdu.

XIX yüzilliyin sonlarında Azərbaycanda daxili ticarətin yeni formalarının yaranmasına baxmayaraq, burada ənənəvi forma olan bazar ticarətinin əhəmiyyəti azalmırdı. 1895-ci ildə yalnız Yelizavetpol quberniyasında 27 bazar var idi. Burada özünün ticarət əhəmiyyətinə görə Azərbaycan hüdudlarından çox-çox kənara çıxan Ağdam və Ağdaş bazarları kimi bazarlar fəaliyyət göstərirdi.

Azərbaycanda iri kapitala malik olan tacirlərin sayı çoxalırdı. Bakıda illik dövriyyəsi 1 mln manatdan çox olan ticarət müəssisələri də var idi.

1897-ci ildə Bakıda yerli tacirlərin illik dövriyyəsi 21,5 mln manat olub, bütün ticarət dövriyyəsinin 20%-ni təşkil edirdi. Şəhərlərdə və qəzalarda üstünlük azərbaycanlı tacirlərə məxsus idi. Bakıda ticarət evləri və səhmdar cəmiyyətlərinin sayı artır və fəaliyyət dairəsi genişlənirdi.

Bakıda ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesinin sürətlənməsi burada inhisar ticarətin yaranıb inkişaf etməsinə səbəb oldu. Neft sənayesinin ilk inkişafı dövründə yaranan "Bakı neft cəmiyyəti", "Nobel qardaşları" və daha sonra "Xəzər-Qara dəniz" kimi iri səhmdar cəmiyyətləri neft icarətində mühüm inhisar təşkilatlarına çevrildilər. 1894-cü ildə Rusiyada ilk neft ixracedici sindikat – "Bakı ağ neft zavod sahibləri ittifaqı" yaradıldı. Sindikat Rusiyadan ixrac edilən ağ neftin 98%-ni öz əlində mərkəzləşdirmişdi.

1897-ci ildə "Bakı ağ neft zavod sahibləri ittifaqı" dağıldı. Rotşild tərəfindən 1898-ci ildə "Mazut" cəmiyyəti təsis edildikdən sonra Nobel onunla saziş bağladı. Nəticədə 1900-cü illərin başlanğıcında bu iki neft maqnatı arasında kartel müqaviləsi bağlandı.

Ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynayan Bakı limanının mal dövriyyəsi artırdı.1881-1900-cü illərdə Bakıdan bütün istiqamətlərdə aparılan neft məhsullarının miqdarı 194,4 milyon puddan artaraq 443,1 mln puda çatmışdı.

XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanda 12 şəhər var idi. Şəhərlərin inkişafı və ölkənin sosial-iqtisadi və siyasi həyatında rolunun yüksəlməsi burada əhalinin sayının artmasına təsir göstərirdi. 50-60-cı illərdə yenə əvvəlki kimi əhalisi daha çox olan ən iri mərkəzlər 25,6 min əhalisi olan Şamaxı, sonra Nuxa (23,3 min), Şuşa (19,3 min), Gəncə (14,9 min), Bakı (12,3 min), Quba (11,2 min) və s. şəhərlər idi. Bu illərdə şəhər əhalisinin sayı 143,5 min nəfərə çatırdı ki, bu da Azərbaycanın bütün əhalisinin 12,4%-ni təşkil edirdi. 1897-ci ildə şəhər əhalisinin sayı 270 minə çatmışdı ki, bu da artıq Azərbaycanın bütün əhalisinin 14,5%-ni təşkil edirdi.

Şamaxı şəhərinin əhalisi 6 min nəfər azalmışdı. Bu da şəhərin Cənubi Qafqaz dəmir yol xəttindən kənarda qalması və 1859-cu il zəlzələsi, quberniya inzibati idarələrinin buradan Bakıya köçürülməsi ilə əlaqədar idi.

Fəhlə kadrlarının artım mənbəyi olan kəsbkarlıq xarakterik hal idi. Əsas hissəsini Dağıstan, Orta və Aşağı Volqaboyunun və Rusiyanın mərkəzi quberniyalarının müflisləşmiş kəndliləri, həmçinin Cənubi Azərbaycanın şimal-qərb vilayətlərindən çıxmış kəsbkarlar təşkil edən gəlmə əhalinin xüsusi çəkisi böyük şəhərlərdə xüsusilə yüksək idi.

Müxtəlif qəzalardan olan mövsümi fəhlələrin xüsusi çəkisi yüksək idi. Onları sənayeyə ilk növbədə daimi iş və əmək haqqı cəlb edirdi. Şəhər əhalisinin milli tərkibində azərbaycanlılar üstün mövqe tuturdular. Onlar əhalinin 53%-ni təşkil edirdi. Digər millətlərin xüsusi çəkisi yüksək deyildi, bununla belə, artıq XIX yüzilliyin ikinci yarısında çoxmillətliliyin özəyi yaranmağa başlayırdı.

Kapitalist münasibətləri inkişaf edib dərinləşdikcə, şəhər əhalisinin sosial tərkibində ciddi dəyişikliklər baş verdi. Hakim təbəqələrin xüsusi çəkisi o qədər də yüksək deyildi. 1870-ci ildə onların sayı 6600 nəfəri təşkil edirdi ki, bu da şəhər əhalisindən 4,6%-i və Azərbaycanın bütün əhalisinin 0,6%-i qədər idi. Bakı və Şamaxı şəhərləri müstəsnalıq təşkil edirdilər. Bu şəhərlərdə əhalinin göstərilən qrupunun sayı qəzadakılara nisbətən çox idi.

Yuxarı təbəqə mədənlərə, fabrik və zavodlara, gəmilərə, ticarət müəssisələrinə malik idi. Onlar Nuxa, Lənkəran, Naxçıvan, Ordubad kimi ticarət şəhərlərində xüsusilə çox idilər. Həm daxili, həm də xarici topdan-satış ticarətilə məşğul olan birinci gildiya tacirlərinin əsas hissəsi Bakıda cəmləşmişdi. Yerdə qalan bütün digər şəhərlərdə II gildiya tacirləri üstünlük təşkil edirdilər. Şəhərlərin ticarət əhalisinin əsas hissəsini isə xırda ticarətlə məşğul olan şəxslər təşkil edirdilər. Şəhərlərin xırda burjuaziyası - sənətkar emalatxanalarının, kiçik ticarət müəssisələrinin, nəqliyyat (at-araba) vasitələri sahiblərindən və s. ibarət idi. Kənd təsərrüfatı ilə əlaqəni kəsmiş şəhərlilərin xeyli hissəsi də burjuaziyaya aid idilər. Şəhərlər getdikcə daha çox özlərinin aqrar xarakterini itirir, yeni sənaye görünüşü alırdılar. Kənd təsərrüfatı ilə məşğuliyyət artıq şəhər əhalisinin əsas məşğulliyət sahəsi olmayıb, köməkçi xarakter daşıyırdı. Şəhərlilərin təsərrüfat fəaliyyətinin əsas növləri isə sənətkarlıq, ticarət və sənaye istehsalı idi.

XIX yüzilliyin ikinci yarısında başlayan sənaye-texniki tərəqqi ziyalıların sayının artmasına kömək etdi. Ziyalılar aşağıdakı əsas sosial qruplardan ibarət idi: zadəgan-mülkədar, burjua, xırda burjua ziyalıları. Ziyalıların xeyli hissəsi iri şəhərlərdə, başlıca olaraq Bakı və Gəncədə toplanmışdı. Onlar öz tərkibinə görə yekcins deyildi.

İş qabiliyyətli şəhər əhalisinin bir hissəsini fəhlələr təşkil edirdilər. Şəhər əhalisi arasında fəhlələr böyük yer tuturdu. XIX

yüzilliyin sonlarında Şimali Azərbaycanın çoxmillətli fəhlə sinfi təşəkkül tapmışdı. Kapitalist münasibətlərinin inkişafı ilə şəhərlərin ixtisaslaşması da baş verirdi. Bakı dünya neft sənayesinin mərkəzinə, Rusiyanın dəniz və dəmir yolu daşımalarının ən mühüm məntəqələrindən birinə, böyük tranzit və ticarət, maliyyə və kredit müəssisələrinin inkişaf etdiyi mərkəzə çevrilirdi. Gəncə ticarət mərkəzi olmaqla yanaşı, həm də mühüm dəmiryol daşımaları, şərab, konyak və spirt istehsalı məntəqəsi idi. Nuxada ipək sənayesi və ticarət daha yüksək sürətlə inkişaf edirdi. Şuşada ipək, yun istehsalı və xalçaçılıq, Qubada xalçaçılıq, Lənkəranda balıq sənayesi yayılmış, Şamaxıda ipəktoxuma istehsalı və şərabçılıq cəmləşmişdi. Yerdə qalan şəhərlər, o cümlədən Naxçıvan, Ordubad əsasən ticarət əhəmiyyətini qoruyub saxlayırdı.

Şimali Azərbaycan şəhərlərində sənaye və ticarət müəssisələrinin sayı xeyli artmışdı.Şəhər nəqliyyatı geridə qalırdı. Yalnız 1889-cu ildə Bakıda konka (at dəmiryolu) fəaliyyətə başladı. Su ilə təchizat yarıtmaz halda idi.

Kredit-bank sistemi.Şimali Azərbaycanın kredit-bank sistemi Ümumrusiya kredit-bank sisteminin bir hissəsi kimi formalaşır və inkişaf edirdi.Bütövlükdə Şimali Azərbaycanın kredit-bank şəbəkəsi Rusiya banklarının (həm dövlət, həm də səhmdar), bankir evləri, qarşılıqlı kredit cəmiyyətləri, şəhər kredit cəmiyyətləri, xəzinə, əmanət kassaları, xırda kredit birlikləri, borc-əmanət birliklərinin, şöbələrinin açılması nəticəsində meydana gəldi. Bankların, bankir evlərinin, xəzinələrin, qarşılıqlı kredit cəmiyyətlərinin, şəhər kredit cəmiyyətlərinin cəmləşdikləri əsas yerlər Bakı, Gəncə, Nuxa, Şuşa, Culfa idi. Xırda kredit birliklərinin və borc-əmanət cəmiyyətlərinin cəmləşdikləri yerlər isə kənd inzibati və ticarət mərkəzləri idi.

Azərbaycan kredit-bank sisteminin yaranması 1874-cü ildən Bakıda başladı. Bu dövrdə kapitalist inkişaf yoluna qədəm qoymuş

Bakıda ucuz kreditə tələbat xüsusilə kəskin hiss edilməyə başladı. Bakıda, hətta girov qoymaqla belə, ildə 20-25 %-lik borcu çətinliklə əldə etmək olurdu. 1874-cü il fevralından Bakıda fəaliyyətə başlayan Bakı kredit cəmiyyəti ilk bank müəssisəsi olmaqla Şimali Azərbaycanda kapitalist kredit sisteminin yaranmasının əsasını qoydu. 1874-cü il iyunundan Bakıda ikinci bank müəssisəsi - Dövlət bankının şöbəsi fəaliyyətə başladı. Bundan sonra bir-birinin ardınca müxtəlif səhmdar kommersiya banklarının şöbələri açılmağa başladı. Belə ki, Bakıda Bakı ictimai şəhər bankı, Tiflis kommersiya bankının şöbəsi, Volqa-Kama kommersiya bankının şöbəsi, Kiyev və yaxud cənubi Rus sənaye bankının şöbəsi,Sankt-Peterburq-Azov kommersiya bankının şöbəsi, Rus ticarət-sənaye bankının şöbəsi, Don torpaq bankı, Bakı şəhər kredit cəmiyyəti, İranın Uçot-borc bankının şöbəsi təsis edildi. Kredit-bank müəssisələrinin əməliyyatları Gəncə şəhərinə də yayılırdı. 1897-ci il iyulundan Rusiyanın bütün xəzinələrinin üzərinə ən sadə bank əməliyyatlarını yerinə yetirmək vəzifəsi qoyulduqdan sonra Şimali Azərbaycanın bank müəssisələri şəbəkəsi daha da inkişaf etdi. Bıı xəzinələrdən bəziləri Şimali Azərbaycanda da fəaliyyət göstərirdi. Xəzinələr dövlət palatasına tabe idi. 1872-ci il iyulun 1-dək Cənubi Qafqazda Baş palata – Cənubi Qafqaz Dövlət Palatası vardı ki, onun da nəzdində 24 xəzinə və məxaric şöbəsi fəaliyyət göstərirdi. 1872-ci ildə bu palatanın əvəzində iki palata – Tiflis və Bakı Dövlət palataları təşkil olundu.

1898-ci il mayın 1-dən üçüncü – İrəvan Dövlət palatası açıldıqdan sonra bəzi xəzinələr onun sərəncamına keçdi. İnqilaba qədərki Şimali Azərbaycanda 14 xəzinə fəaliyyət göstərirdi.

Azərbaycanda dövlət və səhmdar kommersiya bankları qısa müddətli kreditlər verirdi. Banklar borcları bir qayda olaraq iri kapitalistlərə verirdilər. Banklar neftə, onun məhsullarına, düyüyə, pambığa, meyvə qurusuna və s. görə borc verirdilər. Kreditin bu

forması getdikcə daha çox inkişaf edir və neft sənayesi ilə az bağlı olan bankların fəaliyyətinin əsas formasına çevrilirdi. Dövlət və səhmdar torpaq bankları şəhər və kənd mülklərinin girov qoyulması müqabilində uzunmüddətli borc verirdi. Girov müqabilində verilən borclardan ancaq imtiyazlı silklər – xan nəslindən olanlar, bəylər, ağalar, kənd və şəhər burjuaziyasının nümayəndələri istifadə edə bilərdilər. Şimali Azərbaycanın zəhmətkeş kəndliləri torpaq banklarından borc almaq hüququndan məhrum edilmişdilər.

Mülkləri girov qoyaraq borc almaq XIX yüzilliyin 90-cı illərinin başlanğıcından xeyli genişləndi. Azərbaycan torpaq sahiblərinə borc ən çox Tiflis zadəgan bankı tərəfindən verilirdi. Kredit müəssisələri şəbəkəsi genişləndikcə, bank kapitalı təmərküzləşdikcə onun sənayenin müxtəlif sahələrinə, nəqliyyata, ticarətə, əkinçiliyə və torpaq sahibliyinə müdaxiləsi də güclənirdi.

XII FƏSİL
KƏND TƏSƏRRÜFATINDA KAPİTALİST MÜNASİBƏTLƏRİNİN YARANMASI VƏ İNKİŞAFI.

Kənd təsərrüfatında kapitalist münasibətlərinin təşəkkülü. XIX yüzilliyin 50-60-cı illərində Azərbaycanda kənd təsərrüfatının başlıca sahəsi olaraq dənli bitkilərin yetişdirilməsi idi. Yetişdirilən taxıl bitkiləri içərisində aparıcı yeri buğda tuturdu. Sonrakı yerləri arpa və çəltik, sonuncu yeri isə çox yayılmamış darı tuturdu.

Taxılçılıq təsərrüfatında əmtəə istehsalı geniş inkişaf etmişdi. Azərbaycan nəinki özü-özünü taxılla təmin edir, hətta onu Gürcüstana və İrana, Lənkəran qəzasından isə düyünü Rusiyaya göndərirdi. Azərbaycanın özündə qalan taxıla gəldikdə isə o əsasən, əmtəə xarakteri daşıyırdı. Taxılçılar öz artıq məhsullarını maldarlara, yüksək dağlıq rayonların sakinlərinə, şəhər əhalisinə, sənaye sahələrinin fəhlələrinə, habelə hərbi hissələrə satırdılar.

Əkinçilikdən sonra Azərbaycan kənd təsərrüfatının ikinci mühüm sahəsi maldarlıq idi. Maldarlıq təsərrüfatında aparıcı yeri qoyunçuluq tuturdu. Lakin Azərbaycanda böyük miqdarda mal-qaranın, xüsusən də qoyunun olmasına baxmayaraq, maldarlığın əmtəəliyi az inkişaf etmişdi. Azərbaycandan Rusiyanın daxili quberniyalarına, İrana, Türkiyəyə başlıca olaraq aşılanmış dəri, yun ixrac olunurdu. Bu ixracın həcmi cüzi idi. Mal-qaranın və maldarlıq məhsulunun ixracına gəldikdə isə bu, müstəsna surətdə həmsərhəd ölkələrə, yəni İrana, Türkiyəyə yönəlmişdi, onun həcmi isə kiçik idi. 1865-1870-ci illərdə adı çəkilən ölkələrə mal-qara və maldarlıq məhsulları ixracının ümumi həcmi 600-800 min manat arasında tərəddüd edirdi. Yun isə Qərbi Avropa ölkələrinə, qismən Marsel şəhərinə də ixrac olunurdu. Yelizavetpol quberniyası Qərbi Avropaya yun ixracında müstəsna yer tuturdu, çünki burada yunu

daha qiymətli ixrac materialı olan merinos qoyunları da bəsləyirdilər.

50-60-cı illərdə Azərbaycanda yetişdirilən texniki bitkilərin içərisində aparıcı yeri qızılboya (marena) tuturdu. Onun becərildiyi əsas rayon Quba qəzası idi. 60-cı illərdə qızılboya istehsalının sürətli inkişafı müşahidə olunurdu. Qızılboya cüzi miqdarda Lənkəran və Göyçay qəzalarında da becərilirdi.

1869-cu ildə süni boya-alizarin ixtira olundu. Cəmi 4-5 il ərzində alizarin qızılboyanı tamamilə sıxışdırıb aradan çıxardı. 1873-cü ildən etibarən qızılboyaya tələbat tamamilə aradan qalxdı.Azərbaycanda becərilən digər texniki bitki pambıq idi. Lakin bu illərdə pambıqçılıq öz miqyasına görə çox cüzi idi.

Azərbaycanda cüzi miqdarda tütün də becərilirdi. Əsas tütün istehsalı rayonları Quba qəzası və Zaqatala dairəsi idi. Azərbaycanda olan tütün əkinləri sahəsinin 60%-dən çoxu bu rayonlarda yerləşirdi. Tütün istehsalı üzrə üçüncü yeri Nuxa qəzası tuturdu. Tütün ibtidai üsullarla becərilir, gün altında qurudulurdu.

Meyvə və üzüm yetişdirilməsi kənd təsərrüfatında mühüm yer tuturdu. Azərbaycanda ən yaxşı üzüm, alma, armud, qoz, heyva, əncir və digər meyvə növləri yetişdirilirdi. Bağçılığın əsas mərkəzlərindən biri Yelizavetpol qəzası idi. Ordubad bağları da xeyli miqdarda müxtəlif meyvə verirdi. Burada və Gəncədə bağçılıq və üzümçülük əmtəə xarakteri almışdı. Zaqatala dairəsi də bağçılıqda görkəmli yer tuturdu. Bura çox gözəl şabalıd və qoz bağları ilə zəngin idi.

60-cı illərin əvvəli ipəkçiliyin inkişafı ilə əlamətdar idi. Lakin barama qurdları üçün məhvedici olan xəstəliyin (qattinanın) yayılması ilə Azərbaycan ipəkçiliyinin uğurlarına bir müddət son qoyuldu. Yalnız 70-ci illərin əvvəllərinə yaxın ipəkçilik təsərrüfatı tədricən bərpa olunmağa başladı.

Beləliklə, 50-60-cı illərdə Azərbaycan kənd təsərrüfatında əmtəə istehsalının inkişaf etməsi göz qabağında idi. Kənd təsərrüfatında əkinçilik kapitalizminin başlıca əlaməti olan muzdlu əmək tətbiq edilirdi. 60-cı illərdə muzdlu əmək Quba qəzasının qızılboya tarlalarında geniş tətbiq olunurdu. Muzdlu fəhlələr, başlıca olaraq qızılboya tarlalarına qəzanın dağlıq kəndlərindən axışıb gəlirdilər. Taxılçılıqda muzdlu əmək, az da olsa, tətbiq edilirdi. Muzdlu əməyin tətbiqi işləyib ödəmə rentası ilə çulğalaşırdı. Taxılçılıqda qadın muzdlu əməyindən də istifadə olunurdu. Muzdlu əmək çəltikçilikdə nisbətən daha çox tətbiq olunurdu.

Muzdlu əmək üzümçülük və bağçılıqda da tətbiq olunurdu. 70-ci illərin sonlarından etibarən tütünçülük təsərrüfatında kapitalist münasibətləri özünü göstərirdi.

Deməli, XIX yüzilliyin 50-60-cı illərində Azərbaycan kəndinə, zəif də olsa, başlıca olaraq ticarət və sələm kapitalının əsarəti şəklində, yeni kapitalist istehsal münasibətləri özünə yol tapırdı. 70-80-ci illərin əvvəllərində Şimali Azərbaycanda taxılçılıq daha da inkişaf etdi. 1896-cı il Şimali Azərbaycanda dənli bitkilər məhsulu üzrə rekord ili idi. Həmin ildə 71.543.784 pud taxıl yığılmışdı. 1900-cü ildə isə bu göstərici, demək olar ki, iki dəfə azalmış və 35.732.688 puda bərabər olmuşdur. Bu, başqa səbəblərlə yanaşı, həm də dənli bitkiləri sıxışdıran pambıqçılığın inkişafı ilə bağlı idi.

Nəqliyyatın, o cümlədən də dəmiryolu və dəniz nəqliyyatının inkişafi taxılçılıqda əmtəəlik məhsul istehsalının artımına güclü təkan verdi.Azərbaycan nəinki özünü öz taxılı ilə təmin edir, həm də ölkədən kənara göndərmək üçün artıq taxıla malik olurdu. Kənara göndərilən taxılın miqdarı məhsuldan asılı olaraq tərəddüd edirdi.

Taxılın artığı Şimali Azərbaycanın şəhərlərində, hətta kənd yerlərində satılmaqla yanaşı, bir hissəsi xüsusən də düyü Batum və Poti vasitəsilə xarici bazarlara, o cümlədən İtaliya, Yunanıstan,

Fransa, Türkiyə, Belçika, Hollandiya, Almaniya və Avstraliyaya da aparılırdı.Batum və Poti vasitəsilə Cənubi Qafqazdan taxıl ixracında birinci yeri Şimali Azərbaycan tuturdu.

Düyü də xeyli miqdarda ixrac olunurdu. 1888-ci ildə Yevlax və Ləki dəmir yolu stansiyalarından 194 min pud düyü göndərilmişdi. Bundan başqa düyü Lənkəran qəzasından Rusiyaya əvvəlki kimi dənizlə daşınırdı.

Yüzilliyin sonuncu on illiyində şəhərlərin inkişafı, şəhər əhalisinin artması ilə əlaqədar taxıl ölkənin özündə satılır və ixrac zərurəti aradan qalxırdı. Bu baxımdan Rusiyaya aparılması ilbəil artan düyü istisnalıq təşkil edirdi.

Əkinçiliklə yanaşı, maldarlıq da öz inkişafını davam etdirirdi. Maldarlıqda aparıcı yeri Yelizavetpol quberniyası tuturdu. Şimali Azərbaycanda mal-qaranın əksəriyyətini qoyunlar təşkil edirdi.

Heyvandarlar köçmə maldarlığı ilə məşğul olurdular. Çünki Şimali Azərbaycanın iqlim və coğrafi şəraiti maldarları mal-qaranı, başlıcası isə qoyunları yayda yaylaqda, qışda isə qışlaqda saxlamağa məcbur edirdi. Maldarlığın əmtəəliyi ləng artırdı. Bu baxımdan yunun emalı istisna təşkil edirdi. Bununla yanaşı, aşılanmamış dəri, yun, habelə diri heyvan və digər maldarlıq məhsulları da yerlərdə, yerli bazarlarda geniş surətdə alınıb-satılır və Bakı şəhərinə daşınırdı.

Maldarlıq məhsulları, xüsusən də yun Rusiyaya və qismən də xaricə aparılırdı. Şimali Azərbaycandan yun aparılması 90-cı illərdə xüsusən artmışdı. Yun Bakıdan Rusiyaya, Batum vasitəsilə isə xaricə göndərilirdi. Azərbaycan yunu Batumdan İngiltərəyə, Fransa və Amerikaya ixrac edilirdi. Baha xalça istehsalı ilə məşğul olan Amerika sahibkarları xalça toxumaq üçün müstəsna olaraq, İran və Cənubi Qafqaz, o cümlədən Azərbaycan yunundan istifadə edirdilər.

80-ci illərin ikinci yarısında Şimali Azərbaycanda pambıqçılığın yüksəlişi dövrü başlayır. Pambıqçılığın inkişafı, şübhəsiz ki, rus

pambıq-parça sənayesinin yerli xammala olan ehtiyacından irəli gəlmişdi. 1888-ci ildə çar hökuməti xaricdən Rusiyaya idxal olunan pambığın üzərinə gömrük vergisi qoydu. Bununla əlaqədar olaraq xaricdən gətirilən pambıq get-gedə bahalaşırdı. Bu vəziyyət rus sənayeçilərini ölkə daxilində xammal axtarmağa məcbur etdi. Bu da imperiyanın pambıqçılığın inkişafı mümkün olan rayonlarının iqtisadiyyatına təsir etməyə bilməzdi.

1887-ci ildə Lodzdakı Poznanski firmasının müdiri Ramendik Tiflis karvansaralarının birində Ərəş və Göyçay qəzalarından gətirilmiş pambıq taylarını görür. Qiymətli xammalla maraqlanan Ramendik torpaq sahibkarı Hacıyevlə birlikdə Ağdaşa getmiş, Ərəş və Göyçay qəzalarını gəzmiş və belə nəticəyə gəlmişdi ki, bu qiymətli bitkinin burada yetişdirilməsi tamamilə mümkündür. O, kəndlilərlə sazişə girir, onlara təmənnasız çiyid paylayır və hətta onların bu işlə məşğul olmağa başlaması üçün beh də verirdi. Artıq 1888-ci ildə qeyd edilən iki qəzanın kəndliləri geniş surətdə pambıqçılıqla məşğul olmağa başlamış və yaxşı məhsul da yetişdirmişdilər.

Poznanski firmasının ardınca 1889-cu ildə Ağdaşa digər iri firmanın"A.Korzinkin və K°nın Böyük Yaroslavl" manufakturasının nümayəndələri gəldilər. Sonuncular da öz növbələrində çiyid paylamağa və pambıq satın almağa başladılar.

Bakı quberniyasında isə pambıq ancaq Göyçay və qismən də Cavad qəzalarında yetişdirilirdi, onun məhsulu isə çox deyildi. 1897-ci ildə Naxçıvan qəzasında 50 min pud pambıq yığılmışdı. Şimali Azərbaycanda pambığın Amerika, Daşkənd və Qaraqoza kimi növləri əkilirdi. Pambıqçılıqla məşğul olmaq iqtisadi cəhətdən əlverişli idi. Pambığın 1 desyatini dənli bitkilər üçün istifadə edilən 1 desyatin torpağa nisbətən təxminən 3 dəfə çox gəlir gətirirdi.

Pambıqçılığın tərəqqisində marağı olan çar hakimiyyəti orqanları bu sahənin inkişafına kömək göstərirdilər. Əkinçilik Nazirliyi

nümunəvi tarlalar salır, bu tarlalarda pambığın əkilməsi və becərilməsinin, onun yığımı və təmizlənməsinin, habelə pambıq və çiyidin növlərə ayrılmasının təkmilləşmiş üsullarını tətbiq edirdi. İlk nümunəvi tarla 1895-ci ildə Ərəş qəzasında salınmışdı. 1896-cı ildə belə tarlalar Ağdaşda və Cavanşir qəzasında da təşəkkül tapdı.

Kür üzərində su nasoslarının qurulması da pambıqçılığın inkişafında müsbət əhəmiyyətə malik idi. Bütün pambıq məhsulu Rusiya quberniyalarına göndərilir, onun ancaq cüzi hissəsi yerlərdə emal olunurdu.

Bu illərdə tütünçülükdə də yüksəliş baş verdi. 1877-ci ildə xaricdən idxal olunan tütünün hər puduna gömrük rüsumunun qızıl pulla 14 manatadək artırılması tütünçülüyün inkişafına əsaslı təsir göstərirdi. Tütünçülükdə aparıcı yeri Quba və Nuxa qəzaları, habelə Zaqatala dairəsi tuturdu. Tütünün az bir hissəsi ölkənin hüdudlarından kənara -Gürcüstana, Rusiyaya, hətta xaricə (başlıca olaraq Zaqatala tütünü) aparılırdı.

Keçmişdə olduğu kimi, Abşeronda yenə də zəfəran yetişdirilirdi. Zəfərançılığın əsas rayonları - Maştağa və Bilgəh kəndlərində bu məhsulun topdan və pərakəndə satışı ilə məşğul olan tacirlər fəaliyyət göstərirdilər. Onlar zəfəranı İrana və Türkiyəyə aparırdılar.

Quba, Nuxa, Ərəş, Şamaxı, Bakı, Naxçıvan və Göyçay qəzaları, habelə Zaqatala dairəsi ən mühüm bağçılıq rayonları idi. Bağçılıq məhsulları təkcə Şimali Azərbaycanın özündə satılmır, həm də getdikcə daha çox miqdarda Cənubi Qafqazın digər rayonlarına və Rusiyaya aparılırdı. Bağçılığın inkişafına və mütəxəssis bağbanların hazırlığına kömək məqsədilə 1896-cı ildə Mərdəkanda ilk xüsusi bağçılıq məktəbi açıldı. Bu məktəb H.Z.Tağıyev tərəfindən təşkil olunmuşdu. Elə həmin ildə Qubada xəzinənin vəsaiti hesabına ikinci bağçılıq məktəbi açıldı.

Üzümçülük də xeyli inkişaf etmişdi. Şamaxı, Göyçay, Bakı, Yelizavetpol və Şuşa qəzaları ölkənin əsas üzümçülük rayonları idi. Üzümçülüyün inkişafı sahəsində Yelenendorf koloniyası fərqlənirdi. Üzüm məhsulunun çox hissəsi şərab istehsalına sərf olunurdu. Üzüm məhsulu həmçinin yerli bazarlarda satılır, Cənubi Qafqazın iri şəhərlərinə və Rusiyanın daxili quberniyalarına aparılırdı.

60-cı illərin sonu - 70-ci illərin əvvəllərində ipəkqurdu xəstəliyinin aradan qaldırılmasından sonra Şimali Azərbaycanda ipəkçiliyin inkişafı davam etməyə başladı. 1880-ci illərdə isə bu inkişaf xeyli sürətləndi. Barama başlıca olaraq Yelizavetpol quberniyasında bəslənilirdi.

70-90-cı illərdə kənd təsərrüfatında geridə qalmış texnika tətbiq edilirdi. Xış ən başlıca əkin aləti idi. Bundan başqa, yerlərdə istehsal olunmuş kotanlar da vardı. Kotanlar öz konstruksiyasına görə çox ağır idi və xüsusən də bərk torpaqlarda 6-9 cüt öküz və camış qoşulmasını tələb edirdi.

Kənd təsərrüfatı maşınları və alətlərinin yayılmasında Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti də müəyyən rol oynayırdı. 70-90-cı illərdə kənd təsərrüfatı istehsalı sahələrində kapitalist münasibətləri formalaşırdı. Məlum olduğu kimi, kapitalizmin inkişafı məsələsində muzdlu əməyin yayılma dərəcəsi daha böyük əhəmiyyətə malikdir. Muzdlu əmək kənd təsərrüfatının bütün sahələrində, bəzi sahələrdə çox, bəzilərində isə az dərəcədə tətbiq edilirdi. Taxılçılıqda işləyib ödəmə sistemi ilə qovuşan muzdlu əməyin tətbiqi ilbəil genişlənirdi. Kənd təsərrüfatı üçün muzdlu fəhlə qüvvəsinin əsas mənbəyi çox kasıb, habelə cüzi pay torpağı olan kəndlilər idi. Digər mənbə Cənubi Azərbaycandan, qismən də Dağıstandan gəlmiş kəsbkarlardan ibarət idi.

Bu illərdə Azərbaycan kəndində sinfi təbəqələşmə prosesi xüsusən güclənir, bu da icma torpaq mülkiyyətinin kəndin varlı

təbəqələrinin əlində cəmləşməsinə zəmin yaradırdı. Torpağın kəndin varlı yüksək təbəqələrinin əlində cəmlənməsi muzdlu əməyin tətbiqinə gətirib çıxarırdı. Taxılçılıqda muzdlu əməyin tətbiqi ümumi xarakter alsa da, Lənkəran qəzası bu cəhətdən xüsusilə fərqlənirdi. Belə ki, çəltikçilikdə muzdlu əməyin tətbiqi daha geniş miqyas almışdı. Burada əkində də, biçində də, döyümdə də muzdlu əməkdən, o cümlədən muzdlu qadın əməyindən də istifadə olunurdu.

Pambıqçılıqda da muzdlu əmək geniş tətbiq olunurdu. Burada xalis kapitalist tipli təsərrüfatlar var idi. Muzdlu əməkdən kənd təsərrüfatının digər sahələrində də istifadə olunurdu. Hətta zəfərançılıqda plantasiyaların əkini zamanı muzdlu əmək tətbiq edilirdi. Burada, başlıca olaraq, Cənubi Azərbaycandan olan kəsbkarlar işləyirdilər. Bütövlükdə götürdükdə isə kənd təsərrüfatı üçün daimi deyil, mövsümi, müvəqqəti fəhlə qüvvəsi səciyyəvi idi, onların sayı ildə 100 min nəfərə çatırdı.

XIX yüzilliyin son onilliklərində kənd təsərrüfatının demək olar ki, bütün sahələrində – bəzilərində çox, bəzilərində isə az dərəcədə, muzdlu əmək tətbiq olunurdu. Bundan əlavə, kənd təsərrüfatı istehsalının bütün sahələri ticarət və sələm kapitalı ilə bağlı idi.

Torpaq sahibliyi və torpaqdan istifadə. Şimali Azərbaycanın torpaq fondu yenə də dövlətin mülkiyyəti olan xəzinə torpaqlarından və xüsusi mülkiyyət kimi yerli bəylərin - mülkədarların ixtiyarlarında olan xüsusi sahibkar torpaqlarından ibarət idi. Az da olsa ayrı-ayrı kəndlilər tərəfindən xüsusi mülkiyyət kimi satın alınmış torpaqlar və dini idarələrə məxsus olan vəqf torpaqları da var idi.

Xəzinə torpaqları 6,7 mln desyatinə bərabər olub, Şimali Azərbaycanın bütün torpaq fondunun 83%-ni təşkil edir, xəzinə isə ən iri torpaq sahibi kimi çıxış edirdi.

Xəzinə torpaqlarının təxminən 4,5 mln desyatini bilavasitə xəzinənin ixtiyarında olub otlaqlardan, örüşlərdən, cüzi əkin

sahələrindən, neft verən torpaqlardan, müxtəlif faydalı qazıntı mədənlərindən və nəhayət yararsız torpaqlardan ibarət idi. Bütün xəzinə torpaqlarının 2,2 mln desyatini isə pay torpaqları kimi dövlət-xəzinə kəndlilərinin istifadəsində idi.

Dövlət kəndliləri meşə torpaqlarını sərbəst surətdə əkin sahələrinə çevirir, təsərrüfat ehtiyacları üçün meşələrdən ağac qırırdılar. XIX yüzilliyin 60-cı illərinin əvvəllərində xəzinə meşələrinin mühafizəsi haqqında qaydaların tətbiq edilməsindən və meşəbəyiliklərin yaradılmasından sonra meşə sahələrinin əkin üçün təmizlənməsi və xəzinə meşələrinin qırılması qadağan olundu.

Xəzinə torpaqlarının təxminən 2 mln desyatinini otlaqlar və örüşlər tuturdu. Otlaq və örüş sahələri xəzinə tərəfindən hər desyatinə görə müəyyən haqq müqabilində kəndlilərə icarəyə verilirdi. Xəzinə kəndliləri pay torpağı kimi yox, bilavasitə öz ixtiyarlarında olan, sahəsi cəmisi 71 min desyatinə çatan əkin, bostan və bağ torpaqlarına malik idilər. Otlaqlar kimi onlar da xəzinə tərəfindən kəndlilərə icarəyə verilirdi. Sahəsi 5 min desyatindən çox olan müzayiqə yolu ilə neft sənayeçilərinə icarəyə verilmiş neftli torpaqlar xəzinə üçün xüsusən qiymətli idi.

Xüsusi **sahibkar torpaqlarının** sahəsi 1,3 mln desyatin olub Şimali Azərbaycanın bütün torpaq fondunun təxminən 16%-ni əhatə edirdi. Xüsusi torpaq sahibliyi 1846-cı il reskriptinə görə bəylərin, ağaların və məliklərin xüsusi mülkiyyəti kimi tanınmış şəxsi torpaqları əhatə edirdi. İri torpaq sahibləri içərisində 100 nəfərdən artıq adamın hər biri 1000 desyatindən çox torpağa malik idi.

İri torpaq sahiblərinin bir hissəsi özlərinin şəxsi təsərrüfatına malik deyildilər və onların əksəriyyəti ata-baba malikanələrini tərk edib şəhərlərə köçürdü. Burada onlar pay torpaqlarına görə xüsusi sahibkar kəndlilərindən malcəhət şəklində alınan vəsait və malikanələrini girov qoymaq hesabına yaşayırdılar. Azərbaycan

bəylərinin digər hissəsi əmtəə istehsalının geniş inkişafı ilə əlaqədar olaraq öz təsərrüfatını yaratdı və kənd kapitalistlərinə çevrildi.

Bəylərlə yanaşı, xüsusi torpaq mülkiyyətçiləri içərisində kəndlilər də var idi. 1886-cı il ərəfəsində kəndlilərin mülkiyyətində həyətyanı bağ, bostan, əkin və örüş sahələrindən ibarət təxminən cəmisi 16-18 min desyatin torpaq var idi.

Şimali Azərbaycanın **vəqf torpaqları** kiçik torpaq mülkiyyətinə malik olub, burada torpaq sahibkarları üç dini müəssisəyə nıəxsus idi: erməni-qriqorian kilsəsi, müsəlman məscidi və pravoslav kilsəsi.

Dövlət kəndliləri bütün maddi nemətlər istehsalçılarının böyük əksəriyyətini təşkil etsələr də, bütün xəzinə torpaqlarının cəmisi 39% pay torpağı kimi onların istifadəsində idi. Torpaq kəndli həyətləri arasında qeyri-bərabər bölüşdürülmüşdü. XIX yüzilliyin 80-ci illərin ortalarında hər birinə cəmisi 2 desyatinədək pay torpağı düşən kəndlilərin sayı 394 min nəfərdən çox olub, bütün dövlət kəndlilərinin 50%-ni təşkil edirdi.

Kəndlilərin istifadəsindəki əkin torpaqlarının sahəsi daha az idi. Hər birinə 2 desyatindən 5 desyatinədək pay torpağı düşənlər kəndlilərin orta qrupunu təşkil edirdilər. Onların sayı 325 min nəfərə çatırdı.

Bütün pay əkin torpaqlarının yarısından çoxu (474 min desyatin) və ya 53%-i bütün orta qrup kəndlilərin 41%-nin əlində cəmlənmişdi. Burada adambaşına düşən pay əkin torpaqlarının sahəsi 1 - 22 desyatin arasında tərəddüd edirdi.

Əkin torpaqlarından başqa, ortababların istifadəsində bağ və örüş-otlaq sahəsi də vardı.

Kəndlilərin adambaşına 5 desyatindən çox pay torpağı düşən varlı yuxarı təbəqəsi sayca kiçik bir qrupu təşkil edirdi. Sayı təxminən 67,5 min nəfərə çatan bu təbəqə bütün dövlət kəndlilərinin 9%-nə bərabər idi.

Şimali Azərbaycanda sahibkar kəndlilərinin sayı 425 min nəfərdən çox idi. Onların əsas hissəsi Yelizavetpol quberniyasında yaşayırdı. Bu kəndlilərin pay torpaqlarının sahəsi 489.267 desyatinə bərabər idi.

Bütün sahibkar kəndliləri 91,5% və yaxud 389.711 nəfərinin hər birinə 2 desyatindən az pay torpağı düşürdü. Adambaşına düşən pay torpağının sahəsi 0,69 desyatindən 0,8 desyatinədək dəyişirdi.

Adambaşına 2 desyatindən 5 desyatinədək pay torpağı düşən orta qrupun sayı 30 min nəfərə (bütün sahibkar kəndlilərin 7%) bərabər idi.

Sahibkar kəndliləri içərisində varlı kəndlilərin xüsusi çəkisi çox az idi: onlar bütün sahibkar kəndlilərin 5%-ni təşkil edirdilər. Say azlığına baxmayaraq, onlar bütün əkin sahələrinin 5 və ümumpay torpaqlarının 11%-ni öz əllərində cəmləşdirmişdilər. Varlı kəndlilər içərisində adambaşına düşən pay torpağının sahəsi 5,6-10 desyatin arasında tərəddüd edirdi. Burada isə əkin sahəsinin xüsusi çəkisi böyük idi.

Ümumiyyətlə, islahatdan sonrakı dövrdə Şimali Azərbaycan kəndliləri üçün aztorpaqlılıq səciyyəvi hal idi. Kəndlilərin demək olar ki, 65%-nin hər bir nəfərinə orta hesabla 0,63 desyatin əkin torpağı düşürdü. Bu qrup öz təsərrüfatını atan, pay torpağını icarəyə verən, əmək alətlərindən məhrum olub kəsbkarlığa gedən kəndlilərin ən böyük hissəsini təşkil edirdi.

Kəndlilərin bir hissəsi torpağa kəskin ehtiyac hiss edərək, onu ağır şərtlərlə xəzinədən və bəylərdən icarəyə götürməyə məcbur idi.Şimali Azərbaycanda kəndlilərin torpaqla təmin olunması və onların pay torpaqlarının normallaşdırılması üzrə heç bir addım atılmamışdı.

Pay torpağı sahələrinin ölçüləri və sərhədləri barəsində heç bir məlumatın olmaması, başlıcası isə təkcə ayrı-ayrı mülklər deyil, həm

də ayrı-ayrı kəndlər arasında dəqiq sərhədlərin yoxluğu ən böyük bəla idi. Dəqiq sərhədlərin-mərzləmənin yoxluğu qonşu kəndlər arasında və onların içərisində ziddiyyətlər yaradırdı. Bir tərəfdən, öz pay torpaqlarının dəqiq sərhədlərini bilməmək, digər tərəfdən isə bu torpaqları genişləndirmək və yeni torpaq sahəsi ələ keçirmək cəhdləri qanlı toqquşmalara gətirib çıxarırdı.

Dövlət kəndlilərinin istifadəsində olan xəzinə torpaqları kənd cəmiyyətləri adlanan kəndlərin ümumi istifadəsində idi. Təsadüfi deyildir ki, bölgü zamanı dövlət vergiləri ayrı-ayrı kəndli həyətləri arasında deyil, kənd cəmiyyətləri arasında bölünürdü. Digər tərəfdən, vergiləri kənd cəmiyyətləri arasında bölüşdürmək üçün onların istifadəsində olan torpaqların sahəsini müəyyənləşdirmək, yəni mərzləmə aparmaq lazım idi.

"Cənubi Qafqaz diyarının mərzlənməsi haqqında Əsasnamə" 1861-ci il iyunun 29-da təsdiq olundu. Bu Əsasnaməyə görə, "həm kənd cəmiyyətlərinin ixtiyarında olan, həm də onların bilavasitə ixtiyarında olan dövlət torpaqlarının sərhədlərinin ayrılması qaydaları müəyyənləşdirilmişdi".

Daha sonra bu Əsasnamədə hər bir kənd cəmiyyətinin həqiqi istifadəsində olan torpaqların mərzlənməsi qaydası göstərilir, habelə mübahisələrin həlli qaydası müəyyənləşdirilirdi. Lakin bu Əsasnamənin dərc olunmasına baxmayaraq torpaqların mərzlənməsi, hər bir kənd cəmiyyətinin sərhədlərinin müəyyənləşdirilməsi üzrə demək olar ki, heç bir iş aparılmırdı.

1887-ci il iyununda Cənubi Qafqazın mərzlənməsi haqqında yeni qanun verilsə də, qanun mərzləmənin gedişini sürətləndirmədi, əksinə onu ləngitdi. Mövcud ənənələrə görə, dövlət kəndliləri torpaqdan icmalıqla istifadə edirdilər və hər dörd ildən bir vaxtaşırı torpaqların bölgüsü həyata keçirilməli idi. Lakin vaxtaşırı bölgülər, demək olar ki, aparılmır, aparıldıqda isə bu bölgünün zəif cəhəti də aşkara çıxırdı.

İş burasında idi ki, torpaqların yeni bölgüsü zamanı hər bir kəs əvvəlcə istifadə etdiyi əkinlərin sahibi olaraq qalırdı. Çoxtorpaqlı həyətdən torpağın bir hissəsi aztorpaqlı həyətə verilmək üçün kəsib götürülürdü. Əlavə torpaq alan kəndli bu torpaqları kiçik-kiçik sahələr halında, bir-birindən və əsas pay torpağından xeyli aralı şəkildə alırdı. Bu cür səpələnmiş torpaqlardan istifadə çox əlverişsiz idi və elə olurdu ki, istifadə etməyin qeyri-mümkünlüyü üzündən yeni torpaq alanlar onlardan imtina edirdilər.

Yeni torpaq bölgülərinin keçirilməməsi üzündən pay torpaqları icma torpaqlarından həyət-malikanə torpaqlarına çevrilir, dövlət kəndliləri yuxarı təbəqələrinin ictimai torpaqlarını qəti surətdə bölüşdürmək cəhdi güclənirdi.

Qeyd etmək lazımdır ki, qəti bölgüdən sonra birdəfəlik olaraq bu və ya digər kəndlinin daimi istifadəsindəki keçmiş torpaqlar bəzi rəsmi sənədlərdə sahə-həyətyanı torpaqlar sayılmır və icma mülkü adlandırılırdı. Lakin bu da torpaq sahələrini ələ keçirmiş adamlara özlərini bu torpaqların tamhüquqlu sahibi saymağa mane olmurdu.

Qəti bölgülərdən sonra yaranan həyət-malikanə torpaqlarından başqa sahə-həyətyanı torpaqlar da var idi. Kəndlilərin xeyli maddi və pul vəsaiti sərf etdikləri torpaq sahələri sahə-həyətyanı torpaqlar sayılırdı. Bu torpaqlar dövlət kəndlilərinin nəsli istifadəsində qalırdı. Müəyyən bir torpaq sahəsinin onu birinci olaraq əkinə yararlı hala salmış adamın nəsli istifadəsinə verilməsi kimi cəmiyyətdə mövcud olan qayda Şimali Azərbaycanın dövlət kəndində sahə-həyətyanı torpaqlarının meydana çıxmasının digər səbəbi idi. Dövlət torpaqlarının sadəcə çəpərlənməsi və onların intensiv surətdə becərilməsi yolu ilə sahə-həyətyanı torpaqlarının yaranması kifayət qədər geniş yayılmışdı. Həyətyanı torpaq sahibliyi də bu yolla yaranırdı: kəndlilər meşələri təmizləyir, onu əkinlərə və bağlara çevirirdilər. Onlar hesab edirdilər ki, torpağı meşədən təmizləmək

üçün sərf etdikləri zəhmət onlara bu torpaq sahəsindən təkbaşına istifadə etmək hüququ verir.

Dövlət kəndliləri həyətyanı, biçin və bağ torpaqlarından istifadə hüququnu öz xüsusi mülkiyyətləri kimi satırdılar. Lakin əkin torpaqlarından istifadə hüququnun da satılması halları baş verirdi. Belə torpaqların alqı-satqısı əsasən eyni bir icmanın üzvləri arasında baş verir və buna görə də satılan torpaqlar bu icmanın tərkibindən kənara çıxmırdı. Torpaqların satışı, yazılı müqavilələrsiz, torpağın faktiki olaraq başqasına verilməsi yolu ilə həyata keçirilirdi. Lakin bəzən alıcıda qəbalə şəklində adicə imzalanmış kağız qalırdı ki, burada da hansısa kəndlinin hansısa kəndliyə nə qədər torpağı hansı qiymətə satdığı qeyd olunurdu. Adətən torpaqdan istifadə və torpaq sahibliyi hüququ bir parça kağızdakı bu cür qəbzlərlə satılırdı.

XIX yüzilliyin sonunda Bakı qəzasında daha çox torpaq satılmışdı. Dövlət kəndliləri təkcə öz həyətyanı torpaqlarını deyil, hətta əkin torpaqlarını da satır və girov qoyurdular. Kəndlilər öz torpaqlarını satmaqdan başqa, onu müəyyən haqq müqabilində icarəyə də verirdilər.

XIX yüzilliyin 40-cı illərindən dövlət torpağından istifadə müqabilində kəndlilərdən pulla haqq alınırdı ki, bu haqq tədricən dövlət vergisi formasını aldı. Kəndlilər torpaqlardan istifadəyə görə icarədarlar kimi icarə haqqı ödəyirdilər. Rəsmi çar sənədlərində dövlət torpaqlarından istifadə edən kəndlilərin təsərrüfatları xüsusi təsərrüfatlar sırasına şamil edilirdi.

Xüsusi sahibkar kəndinə gəldikdə isə pay torpaqları kəndlilərin ixtiyarına verilmişdi. Hərçənd ki, onlar əvvəlki kimi torpaq sahibkarı olan bəydən iqtisadi asılılıqda qalaraq, onların xeyrinə mükəlləfiyyətlər yerinə yetirməli idilər.

Həm dövlət, həm də sahibkar kəndində icarə geniş yayılmışdı. Torpağı bəylər, varlı kəndlilər və öz pay torpaqlarını becərmək imkanı olmayan kəndlilər icarəyə verirdilər.

İcarə adətən qısamüddətli olurdu, lakin uzunmüddətli icarə də mövcud idi. Qısamüddətli icarə müqaviləsi 1-3, uzunmüddətli isə 2-3 ilə və daha uzun müddətə bağlanılırdı. Şimali Azərbaycan rayonlarında ən çox yayılmış uzunmüddətli icarə müqavilələri təxminən 7-12 illə məhdudlaşırdı. İcarənin ən geniş yayılmış forması bir neçə növdə təmsil olunmuş natural (məhsul) icarə idi. Bu növlərdən birincisi və ən geniş yayılanı pay icarəsi, paydarlıq idi. Bu icarə zamanı kəndli mülkədardan icarə olunmuş torpağı öz alət və iş heyvanları ilə becərir və məhsulun bir hissəsini mülkədara verirdi. İcarənin digər forması pul icarəsi idi. Məhsulun bölünmədiyi torpaq sahibinin əvvəlcədən müəyyən edilmiş məlum haqqı pulla aldığı torpaq icarəsi halları pulla torpaq icarəsinə keçid idi. Kəndlilərin əksər kütləsi ona görə pulla icarəyə can atmırdı ki, nəğd pul tapmaq onlar üçün çətin idi, özü də icarədar kəndli bu pulu əksər hallarda əvvəlcədən - məhsul yığımınadək ödəməli idi.

Pulla icarə başlıca olaraq varlı təbəqələr içərisində yayılmışdı. Pulla icarə şəraitində natural münasibətlər tədricən pul münasibətləri formasını alırdı. Belə şəraitdə icarədarların varlı hissəsi aztorpaqlı kəndlilərin hesabına öz icarə sahələrini genişləndirir və beləliklə də, kapitalist icarədarlar meydana çıxırdılar.

Su sahibliyi və sudan istifadə. Tarixən Şimali Azərbaycan suvarma üçün zəngin su ehtiyatına malikdi. Su ehtiyatının çox hissəsini çaylar, bulaqlar, qara su, təbii nohur və s. təşkil edir. Başlıca suvarma mənbəyi çaylardan ibarət idi. Kür və Araz su ehtiyatına görə Şimali Azərbaycanın ən iri çayları idi.

Suvarma əsas etibarilə arxlar vasitəsilə təşkil edilirdi. 1880-1890-cı illərdə Şimali Azərbaycanda arxların sayı 1000-ə çatırdı. Bu

arxların böyük əksəriyyəti Yelizavetpol quberniyasında idi. Kəndlilər suvarma vasitəsi kimi kəhriz və su anbarlarından da islifadə edirdilər.

Şimali Azərbaycanda bütün suvarılan əkinlərin sahəsi 582,856 desyatinə çatırdı. Bu, suvarma vasitəsilə əkilməyə yararlı olan bütün torpaqların cəmi dörddə birindən bir qədər çoxunu təşkil edirdi.

Suvarma vasitələrinin çox hissəsi xüsusi sahibkarların əlində cəmlənmişdi. Muğanda Şirvan xanlarına mənsub olan, Araz çayından başlanğıc götürən Qızılarx və Xakiarx kimi iri suvarma sistemləri ilə 100 min desyatindən çox torpaq suvarılırdı. Sudan istifadə xalq adəti ilə nizama salınırdı. Xalq adəti təbii axar suları əhalinin ümumi əmlakı hesab edirdi.

Təbii sulardan bərabər istifadə hüququ bütün Şərqdə olduğu kimi, Şimali Azərbaycanda da sahil hüququnun olmaması ilə əlaqədar idi. Yəni çayın sahilinə yaxın olan kənd cəmiyyətləri və xüsusi sahibkarlar torpaqlarını suvarmaq üçün çayın sahilindən xeyli uzaq olanlarla eyni dərəcədə sudan istifadə etmək hüququna malik idilər.

Təbii suların əksinə olaraq arx, kəhriz, su anbarı, su quyusu və s. ilə yer üzərinə çıxarılan sular həmin suvarma vasitəsinin inşasında iştirak edən torpaq sahiblərinin və kənd cəmiyyətlərinin xüsusi mülkiyyəti hesab olunurdu. Adətə görə, ayrı-ayrı şəxslər və kənd cəmiyyətləri tərəfindən çəkilən arxın suyundan heç bir yad şəxsin və kənd cəmiyyətinin istifadə etməyə ixtiyarı yox idi. Arxın çəkilməsində iştirak edən kənd cəmiyyətinin üzvləri sərf olunan əməyə və vəsaitin qədərinə görə sudan istifadə etmək hüququ alırdılar.

Şimali Azərbaycan kəndində suvarma suyunun növbə ilə bölüşdürülməsi bir neçə mərhələdən ibarət idi. İlk mərhələdə suvarma suyu kənd cəmiyyətləri arasında, sonra hər cəmiyyətə daxil olan kəndlər arasında, nəhayət son mərhələdə isə hər kəndin payına düşən suvarma suyu əvvəlcə həyət qrupları, sonra isə hər qrupun daxilində

olan həyətlər arasında bölüşdürülürdü. Həyətlər suvarma suyunu bölüşdürmək üçün öz aralarında qruplar təşkil edirdilər. Şimali Azərbaycan kəndində bu qrupların dağ, təsnək, kəşkəl, göz, dəngə və s. növü məlum idi.”Dəngə” suvarma qrupu Bakı, “göz” qrupu Yelizavetpol, “dağ” qrupu isə Naxçıvan qəzasında yayılmışdı. Suvarma suyu çox yerdə həyətlərin sayına görə bölünürdü. Lakin təbəqələşmənin qüvvətlənməsi ilə əlaqədar hər həyətin əkin sahəsinin bərabər olmaması, suvarma suyuna tələbatın artması və s. suvarma suyunun həyətlərin sayına görə bölüşdürülməsində böyük çətinlik törədirdi. Buna görə də təbəqələşmə nəticəsində qüvvətli, torpağı nisbətən çox olan kəndlərin əhalisi suyun həyətlərin sayına görə deyil, torpağın sahəsinə görə bölüşdürülməsini tələb edirdi.

Qəzaların çoxunda suvarma suyu qeyri-bərabər bölüşdürülürdü. Lənkəran qəzasında çəltik təsərrüfatının geniş yayılması sudan istifadə qaydasını başqa qəzalara nisbətən daha da mürəkkəbləşdirmişdi; çəltik plantasiyalarının genişlənməsi ilə suya tələbatın artması nəticəsində burada həmçinin başqa qəzalarda suvarma suyu nəinki qeyri-bərabər bölüşdürülürdü, su payının oğurlanması, zəbt edilməsi, su üstündə dava-dalaş düşməsi və s. adi hal olmuşdu.

Suvarma suyunun bölüşdürülməsini təşkil edən inzibati şəxslər - mirab və cuvarlar da varlı kəndlilərin mənafeyini müdafiə edirdilər. Mahallarda bütün bu işlər suvarma təsərrüfatına rəhbərlik mirabların əllərində mərkəzləşmişdi. Onun başlıca vəzifəsi baş arxlar vasitəsilə suyun kənd cəmiyyətləri, onların tərkibinə daxil olan kəndlər arasında bölüşdürülməsinə nəzarət etməkdən, sudan istifadə növbəsini nizama salmaqdan və cuvarların işinə nəzarətdən və s. ibarət idi. Cuvarlar isə arxların texniki vəziyyətinə, bir arxdan istifadə edən bir və ya bir neçə kəndin sudan istifadə qaydasına, həmin kənddə həyətlərin arasında suyun bölüşdürülməsinə nəzarət edirdilər.

1890-cı il dekabrın 3-də Cənubi Qafqazda torpaqların suvarılması işində hüquqi əsaslar və qayda-qanun yaratmaq məqsədilə "Sudan istifadə haqqında Əsasnamə" qəbul edildi. "Əsasnamə" su üzərində xüsusi mülkiyyətin ləğv olunmasını elan etdisə də, o, əslində iri mülk sahiblərinin mənafeyinə toxunmadan sudan istifadədə mövcud olan əvvəlki qaydanı saxladı. Suvarma üzrə yeni inzibati bölgü yaratdı, bütün suvarma təsərrüfatına rəhbərlik edən Qafqaz su müfəttişi və hər su sahəsinin idarəçisi sayılan su mühəndisi vəzifələrini təsis etdi. Yenə də hər üç ildən bir seçilən mirab sudan istifadə işində həlledici rola malik idi. Hər il seçilən cuvarlar yenə də mirablara tabe edilirdilər.

"Əsasnamə" sudan istifadə qaydalarında dəyişiklik yaratmasa da, onları rəsmiləşdirməkdə mühüm iş gördü. Ayrı-ayrı yerlərdə mövcud olan müxtəlif sudan istifadə qaydalarını eyniləşdirdi və rəsmiləşdirdi, bütün Şimali Azərbaycan kəndi üçün eyni sudan istifadə qaydaları müəyyən etdi. Lakin "Əsasnamə"də irəli sürülən müddəalar əsasən kağız üzərində qaldı, yenə də suvarma suyunun bölüşdürülməsində növbə qaydasının pozulması, hərc-mərclik, özbaşınalıq halları hələ də qalmaqda idi.

Köçürmə siyasəti.Kənddə təbəqələşmə. Çarizmin köçürmə siyasəti onun aqrar siyasətinin həlqələrindən biri idi. Çar Rusiyası Azərbaycandakı ağalığının ilk günlərindən burada özünə xristian dayağı yaratmağa, müxtəlif xristian kütlələrini Azərbaycan torpaqlarında yerləşdirməyə can atırdı.

XIX yüzillikdə Şimali Azərbaycan ərazisinə ilk xristian köçkün almanlar olmuşlar. Onlar 1818-ci ildə Qafqaz Baş Komandanlığının təhriki və köməyi ilə Yelenendorf və Annenfeld koloniyalarının əsasını qoymuş və tezliklə rus təbəəliyini qəbul etmişlər. Çar hökuməti alman kolonistlərinə ən yaxşı yerlərdə 13 min desyatin pay torpaqları ayırdı və yeni yerdə təsərrüfat yaratmaq üçün maddi yardım

göstərdi. Köçkünlərin iqtisadi vəziyyətlərinin yaxşılaşması Azərbaycan kəndlilərinin öz torpaqlarından sıxışdırılması hesabına baş verirdi.

Şimali Azərbaycan ərazisində rusların məskunlaşmasının əsası 1830-cu illərdə, xidmət müddətləri başa çatdıqdan sonra əvvəlki yaşayış yerlərinə qayıtmaq istəməyən, tərxis olunan əsgərlərin ailələrindən ibarət ilk rus yaşayış məntəqələrinin yarandığı dövrdə qoyulmuşdur. İlk belə yaşayış məntəqəsi Bakı quberniyasının Quba qəzasındakı Qusar kəndi olmuşdu. Şirvan alayının tərxis olunmus əsgərləri və onların ailələri onun ilk sakinləri oldular. Sonralar tərxis olunmuş əsgərlərin digər yaşayış məntəqələri də Şamaxı qəzasında Dmitrovka və Altıağac, Şuşa qəzasında Xankəndi və Lənkəran qəzasında Pravoslavnoye meydana çıxdı.

Şimali Azərbaycan ərazisində rus yaşayış məskənlərinin əsas hissəsini 1830-cu illərin əvvəllərində verilmiş xüsusi sərəncama əsasən Rusiyanın daxili quberniyalarından köçürülmə siyasətinə məruz qalanlar təşkil edirdi.

30-40-cı illər ərzində rus təriqətçilərinin güclü köçürülməsi həyata keçirildi. Rusların məskunlaşdığı əsas rayonlar Şamaxı, Lənkəran, Yelizavetpol və Qazax qəzaları idi. Köçkünlər əsasən Tavriya, Stavropol, Tambov, Voronej, Saratov, Orenburq, Bessarabiya və hətta Yenisey quberniyalarından idilər.

50-70-ci illərdə Rusiyanın bilavasitə daxili quberniyalarından Şimali Azərbaycana köçürmə dayandırıldı. Bu otuz il ərzində yeni rus məskənləri yalnız Şuşa qəzasında (Ballıqaya kəndi), Yelizavetpol qəzasında (Mixaylovka kəndləri) və Quba qəzasında (həmçinin Mixaylovka kəndi) meydana gəldi.

XIX yüzilliyin son 20 ilində Muğanda rus köçkünlərinin daha üç yaşayış məntəqəsi yarandı. 1887-ci ildə gələcəkdə Cavad şəhəri yaratmaq üçün nəzərdə tutulan yerdə Petropavlovskoye, 1898-ci ildə

isə Yeni Araz rayonunda Novo-Nikolayevka (Para-Nuru), Novo-Aleksandrovka (Bayramqulu) və Kaqerman kəndlərinin əsası qoyuldu.

1900-cü ilə yaxın Şimali Azərbaycan ərazisində 41 rus kəndi yaranmışdı. Onlardan 25-i Bakı quberniyasında, 15-i Yelizavetpol quberniyasında, 1-i isə Naxçıvan qəzasında idi. Rus kəndlilərinin sayı Şamaxı, Lənkəran və Yelizavetpol qəzalarında daha çox idi.

1885-ci ildə Şimali Azərbaycanın rus əhalisinin ümumi sayı 26.285 nəfərə çatırdı.Şimali Azərbaycanda rus köçkünlərinin torpaqla təminatı lap əvvəldən qeyri-bərabər idi. Rus köçkünlərinin torpaqla ən yaxşı təmin edilmiş kənd icmalarında hər ailəyə orta hesabla 52 desyatin düşürdü, bu isə torpaqla ən yaxşı təmin olunmuş yerli varlı kəndlinin torpaq payından xeyli çox idi.

Rus köçkünlərinin Şimali Azərbaycanda torpaqla belə təminatı çarizmin müstəmləkəçilik siyasətini əyani şəkildə ifadə edirdi.Rus köçkünləri yerli əhaliyə nisbətən daha təkmil alətlərdən istifadə edirdilər. Onlar torpağı Rusiyadan gətirilmiş və yaxud özlərinin hazırladıqları kotanlarla şumlayırdılar. Cənubi Qafqaz dəmiryolu xəttinin istifadəyə verilməsi ilə rus kəndliləri Şimali Azərbaycanda birincilər sırasında təkmil kənd təsərrüfatı alətləri əldə etməyə və onlardan öz təsərrüfatlarında müvəffəqiyyətlə istifadə etməyə başladılar.

Əmtəə istehsalının inkişafı Azərbaycan kəndində sosial təbəqələşmənin güclənməsinə zəmin yaradırdı. 1870-ci il 14 may aqrar islahatı Azərbaycan kəndində sosial təbəqələşmə prosesini bir qədər sürətləndirdi.

Kəndli "Əsasnamə"si pay torpaqlarını icmalıqla istifadə üçün kənd cəmiyyətlərinin və ayrı-ayrı kəndli həyətlərinin ixtiyarına verirdi. Nizamnamələrin (ustavnıye qramotı) tərtibi zamanı kəndlilərin mütləq çoxluğu pay torpağının həyətlər - sahələr üzrə

bölünməsini tələb etdi. Bu, kənd icmasının dağılmasına gətirib çıxardı, əmlak bərabərsizliyini gücləndirdi. Sonuncu isə sosial təbəqələşmənin göstəricilərindən biridir.

Sosial təbəqələşmə prosesi torpaqdan icmalıqla istifadə edən dövlət kəndliləri içərisində də baş verirdi. Dövlət kəndliləri içərisində sürətlənməkdə olan təbəqələşmə prosesi nəticəsində yoxsullaşmış kəndlilərin torpaqları tədricən varlı kəndlilərin əlində cəmləşirdi.

XIX yüzilliyin sonuna yaxın pay torpaqlarının vaxtaşırı bölgüsünə əsaslanan icma tam dağılma mərhələsində idi. Torpağın vaxtaşırı bölünməsinin aradan qalxması və onun ayrı-ayrı kəndli həyətlərinin ixtiyarına keçməsi kəndlilər arasında sürətlənmiş sosial təbəqələşmənin ən başlıca göstəricilərindən biri idi.

Kapitalizm inkişaf etdikcə aztorpaqlı və ortabab kəndlilərin bir hissəsi öz təsərrüfat müstəqilliyini itirir, əsarətə düşür və nəhayət, var-yoxdan çıxırdı. Əgər 1884-cü ildə Şimali Azərbaycanda 18.831 torpaqsız kəndli vardısa, 10 il sonra, 1895-ci ildə, onların sayı 36.709 çatırdı.

Şimali Azərbaycan kəndlilərinin təbəqələşməsi onların büdcələrindən də aydın müşahidə edilir. Bu, yoxsulları, ortababları və qolçomaqları bir-birindən aydın surətdə fərqləndirməyə imkan verir. 9 kənddən olan 9 ailə üzrə məlumatlara görə, bu ailələrdən ancaq birinin büdcəsində gəlir xərclərdən xeyli çox idi. Bu, qolçomaq ailəsi idi. Dörd ailənin büdcəsi kəsirli idi, yəni bu ailələr yoxsul ailələr idi. 4 ailənin isə gəliri xərclərini bir qədər üstələyirdi. Bu ailələr ortabablara aid edilirdi.

Azərbaycan kəndliləri içərisində sosial təbəqələşmə prosesi məhsulsuzluq illərində xüsusilə geniş miqyas alır və xeyli güclənirdi. İslahatdan sonrakı dövrdə Şimali Azərbaycanda qıtlıq illəri getdikcə daha tez-tez təkrar olunurdu. Qıtlıq, aclıq və təbii fəlakət illərində yüz minlərlə yoxsul və ortababın bir hissəsinin əkinləri, mal-qarası və iş

heyvanları azalır, bəyə, sələmçi qolçomağa, tacirə, kənd kapitalistlərinə borcları artır, xəzinə kəsirləri çoxalırdı. Kəndlilərin ağır vəziyyəti onları doğma yerlərini tərk etməyə, qazanc dalınca şəhərlərə və ya başqa kəndlərə köçməyə məcbur edirdi. Kəndlilərin qazanc dalınca getməsi – kəsbkarlıq kəndlilərinin təbəqələşməsi prosesinin ən parlaq əlamətlərindən biri idi.

Hər il kəndlilərin bir hissəsi, xüsusən də dağlıq və dağətəyi rayonlarda, öz kiçik torpaq parçasında səpin işlərini başa çatdırdıqdan sonra işləmək üçün şəhərlərə, zavodlara, fabriklərə, mədənlərə və başqa sənaye müəssisələrinə gedirdi. Kəndlilərin ən yoxsul, çox vaxt borc içində itib-batmış hissəsi pay torpağını birdəfəlik atır, torpaqla əlaqəni tamamilə üzür və doğma kəndlərini həmişəlik tərk edərək, öz iş qüvvəsini satmaq hesabına yaşamağa başlayırdı.

Əkinçi kəsbkarların əsas kütləsi mövsümi və günəmuzd fəhlələr idi. Belə kəsbkarlar əkinçi, biçinçi, dəryazçı kimi işləyir, çəltik, tütün, üzüm və pambıq plantasiyalarında məhsul yığır, barama qurdlarının bəslənilməsi, ipək sarınması və biyan kökü çıxarılması ilə məşğul olur, çobanlığa gedirdilər və s.

Kənd təsərrüfatında və xüsusən də onun texniki bitkilər becərilməsi sahələrində muzdlu əməyin tətbiqinin artması kəndlilərin təbəqələşməsinin mühüm əlaməti idi.

Qeyri-əkinçi kəsbkarların sayı əkinçi kəsbkarların sayından çox idi.Onların ən çox hissəsi Bakıya yola düşürdü. Burada neft sənayesinin və onunla bağlı olan istehsal sahələrinin, dəniz nəqliyyatının, digər kapitalist müəssisələrinin inkişafı ilə əlaqədar olaraq ucuz işçi qüvvəsinə daimi tələbat hiss olunurdu.

Kəndlilərin bir hissəsi Şimali Azərbaycanın dağ-mədən və ipək sənayesi müəssisələrinə kəsbkarlığa gedirdi. Yüzilliyin sonunda Gədəbəy və Qalakənd misəritmə zavodlarında, Nuxa, Qarabağ,

Ordubad və digər yerlərin ipəksarıma müəssisələrində 4 mindən çox fəhlə işləyirdi. Bunların mühüm hissəsi kəsbkarlardan ibarət idi.

1897-ci il sayımı zamanı fəhlə və qulluqçuların sayı üzrə hesablanmış məlumatlar kəsbkarlıq barəsində daha dolğun təsəvvür yaradır. Məsələn, Bakı quberniyası üzrə qeydə alınmış 62 min nəfər fəhlədən 27,7 min nəfəri elə bu quberniyadan, 5,4 min nəfəri isə Yelizavetpol quberniyasından çıxmış adamlardan ibarət idi.

Sinfi mübarizə. 1870-ci il "Əsasnamə"sinin tətbiq edildiyi vaxtdan Azərbaycan kəndlilərinin mübarizəsi getdikcə kəskinləşdi. Kəndlilər islahatın "eybəcər bürokratik" xarakterinə qarşı mübarizə aparırdılar.

70-90-cı illərdə Azərbaycan kəndlilərinin mülkədar, bəylər və mütləqiyyət əsarətinə qarşı mübarizəsi qüvvətləndi. Vergilərin ödənilməsi və mükəlləfiyyətlərin yerinə yetirilməsindən boyun qaçırılması, mülkədar torpaqlarının tutulması, onların malikanələrinin darmadağın edilməsi, bəy və qolçomaqların öldürülməsi o dövrdə kəndlilərin sinfi mübarizəsinin əsas formaları idi. Bu mübarizənin əsasını torpaq məsələsi təşkil edirdi.

Kəndlilərin narazılığı bəzi yerlərdə bəylər və yerli hakimiyyət orqanlarının nümayəndələri ilə silahlı toqquşmalara keçən açıq çıxışlar formasını aldı.Yelizavetpol, Qazax, Naxçıvan və başqa qəzaların bir çox kəndlərində bu cür çıxışlar baş vermişdi.

Kəndli mübarizəsinin ən kəskin forması qaçaq hərəkatı idi. Hakimiyyət orqanlarının təqibindən gizlənən adamları xalq arasında qaçaq adlandırırdılar. Əksər hallarda onlar torpaq sahibləri olan bəylərə, kənd varlılarına və yerli hakimiyyət orqanlarına qarşı çıxış edirdilər.

Ağır ehtiyac, kəskin torpaq və su çatışmazlığı, kənd varlıları və kəndin vəzifəli şəxslərinin özbaşınalığı Azərbaycan kəndində qaçaq hərəkatını doğuran əsas səbəblər idi.

Qaçaqlar Şimali Azərbaycanın ən müxtəlif rayonlarında əməliyyatlar aparırdılar. 80-ci illərdə Qaçaqlardan Tanrıverdi Allahqulu oğlu və Əli Xıdır oğlu çox məşhur idi. Onların dəstələri Qazax, Yelizavetpol, Şuşa, Cavad, Şamaxı və Zəngəzur qəzalarında fəaliyyət göstərirdi.

Qaçaq hərəkatının ən geniş yayıldığı rayon Quba qəzası idi. 80-ci illərdə qəzada 17-dək qaçaq dəstəsi fəaliyyət göstərirdi. O zamankı məşhur Quba qaçaqlarından Məşədi Məcidin, Şeyxzadə Bədəlin adlarını çəkmək olar.

XIX yüzilliyin son rübündə qaçaqlardan Gəncə rayonunda Qənbər, Qarabağda Süleyman və Murtuza, Zaqatala dairəsində Yusif, Şimali Azərbaycanın qərb rayonlarında Qaçaq Kərəm və b. məşhur idilər.

"Qaçaq dəstələri bəylərin malikanələrinə hücumlar edir, onların əmlakını, mal-qarasını və pullarını əllərindən alırdılar. Qaçaqlar ələ keçirdiklərinin xeyli hissəsini yoxsul kəndlilərə paylayırdılar.

Şimali Azərbaycanın bütün quberniyalarında qaçaqların gizlədilməsi geniş yayılmışdı.Qeyd etmək lazımdır ki, çox vaxt qaçaq dəstələrində zülmkarlara qarşı təkcə azərbaycanlılar deyil, başqa millətdən olanlar da çıxış edirdilər.

XIX yüzillikdə qaçaq hərəkatı tarixinin ən şanlı səhifələri Azərbaycan xalqının əfsanəvi qəhrəmanı Qaçaq Nəbi tərəfindən yazılmışdır. O, 1854-cü ildə Zəngəzur qəzasının Mollu kəndində anadan olmuşdur. Onun atası yoxsul kəndli olan Əli özünün böyük ailəsini çətinliklə dolandırırdı. Nəbi hələ uşaq ikən həmkəndlisinə - qolçomaq Kərbəlayı Cəfərə çobanlığa verilmiş, ağır istismar və hədsiz özbaşınalığın bütün dəhşətlərini öz üzərində hiss etmişdi. O, artıq gənc yaşlarından kəndin yoxsul adamlarının qanını zəli kimi soranların hamısına nifrət edirdi. 1875-ci ildə o, Aşağı Molluların torpaqlarını ələ keçirmiş yerli torpaq sahibkarı Məmməd bəyi ağır

yaralamışdı, həmin vaxtdan Nəbi hökumətdən gizlənməli olmuş və qaçağa çevrilmişdi. Nəbi 20 il ərzində əldə silah kəndlilərin mənafeyini qoruyaraq, yerli istismarçıları və çar müstəmləkəçilərini dəhşətə salmışdı.

Naxçıvan qəzasının Zeyvə kəndində ən məhsuldar torpaqlardan kənd varlıları və torpaq sahibkarlarının özləri istifadə edirdilər. Bu, kəndlilərin vəziyyətinə ağır təsir göstərir, onları ağır ehtiyaca möhtac edirdi. Kəskin aztorpaqlılıq üstündə varlı və yoxsul kənd sakinləri arasında hər il toqquşmalar baş verirdi. Kəndlilər çarın özünədək bütün idarələrə şikayətlə müraciət edirdilər. Kəndlilərin inadlı mübarizəsi hakimiyyət orqanlarını Tiflisdən bu kəndə məmurlar göndərməyə məcbur etdi. Kəndlilər bunu Nəbiyə çatdırdılar. Nəbi yolda məmurların qabağını kəsərək, onlara divan tutacağı ilə hədələdi. Bu, məsələnin taleyini həll etdi. Bərk qorxuya düşmüş məmurlar mübahisəni şikayətçilərin xeyrinə həll etdilər.

Nəbinin dəstəsi harada olursa olsun, kəndlilər nəinki at, ərzaq verir, həm də qaçaqların mübarizəsində bilavasitə iştirak etməklə düşməni əzməkdə onlara kömək edirdilər.

Qaçaq Nəbinin arvadı, xalq arasında igidlikdə ad qazanan Həcər onun sadiq silahdaşı idi.

İran və yerli feodallara qarşı mübarizədə Cənubi Azərbaycan kəndlilərinə kömək üçün Nəbinin dəstəsi tez-tez Arazın o tayına keçirdi. Nəbi öz qəhrəman mübarizəsi ilə xalq qəhrəmanı və zəhmətkeşlərin müdafiəçisi şöhrətini qazandı.

1894-cü il iyunun 20-də Gürcüvan kəndində Nəbinin qardaşı Mehdi hökumət casuslarının qurbanı oldu. Bundan üç gün sonra Nəbi həmin kəndin mülkədarı və tacirlərinə divan tutdu. Sonra o, Həcəri Çiçəkli kəndində qoyaraq, Arazın o tayına keçdi. Hökumət casusları dərhal bunu Zəngəzur və Naxçıvan qəza rəislərinə çatdırdılar. Onlar Çiçəkliyə hücum təşkil edib Həcəri tutdular və Gorus qalasına

saldılar. 1895-ci ilin oktyabrında Nəbi öz dəstəsi ilə Gorusu mühasirəyə aldı və qala rəisi Səlim bəydən Həcərin buraxılmasını tələb etdi. Tələb yerinə yetirildi.

1895-ci ilin sentyabrında Naxçıvan qəza rəisi Urmiya şəhərində yaşayan, orada ticarətlə məşğul olan Ordubad taciri Hacı Fərəc oğluna Nəbinin İranda öldürülməsini təşkil etməyi tapşırdı. Nəbinin qətli üçün tacirə qızıl medal və 1000 man. xərclik vəd edildi, o qaçaqlardan Şahhüseyn və Kərbəlayı İmamı satın almağa nail oldu. Onlar bir həftə ərzində Nəbini öldürməyə boyun oldular. 1896-cı ilin martında onlar İranın Larni kəndində Nəbiyə hücum edərək onu öldürdülər.

Çar hökuməti qacaqlara yardım göstərmiş kəndlərin bütünlüklə sürgün edilməsi kimi amansız cəza tədbirlərini tətbiq etməkdən çəkinmirdi. Hökumət orqanları sürgün edilmiş kəndlilərin yerində rus köçkünlərini yerləşdirir, onlardan özünün müstəmləkə siyasətini həyata keçirmək aləti kimi, qismən də qaçaqlara qarşı mübarizədə istifadə etməyə can atırdı. Yalnız altı il (1889-1894) ərzində Quba qəzasında beş kəndin sakinləri bütünlüklə sürgün edilmiş, onların yerində köçkün rus kəndləri yaradılmışdı.

Kəndlilərin sosial və müstəmləkə zülmünə qarşı etirazının digər ən geniş yayılmış forması kəndli şikayətləri idi. Kəndlilər müxtəlif hakimiyyət orqanlarına, vəzifəli şəxslərə sözün əsl mənasında ərizə yağışı yağdırırdılar.

Kəndli şikayətlərinin ən çox hissəsi kəndlilərin torpaq sahibliyi və torpaqdan istifadə məsələləri ilə əlaqədar idi. Kəndlilər torpaq təminatlarının yaxşılaşdırılması tələbi ilə müxtəlif idarə və vəzifəli şəxsləri sanki aramsız "atəşə" tuturdular. Lakin kiçik istisnalar edilməklə, aztorpaqlılıq barəsindəki kəndli şikayətləri nəticəsiz qalırdı.

Xəzinə torpaqlarının kütləvi şəkildə bəylər tərəfindən tutulması ilə əlaqədar olaraq dövlət kəndlilərindən çoxlu şikayətlər gəlirdi.

Kəndli şikayətlərinin ancaq kiçik bir hissəsi onların xeyrinə həll edilirdi.

Kənddə kapitalist münasibətlərinin inkişafı və kəndlilərin təbəqələşməsi ilə əlaqədar zəhmətkeş kəndlilərin istismarçı qolçomaqlara qarşı mübarizəsi meydana çıxdı və genişlənməyə başladı. Kəndlilər öz pay torpaqlarının qolçomaqlar tərəfindən tutulması cəhdlərinə qarşı fəal mübarizə aparırdılar. Onlar varlıların vaxtaşırı torpaq bölgülərini ləğv etmək yolu ilə əvvəllər ələ keçirilmiş pay torpaqlarını əldə saxlamaq cəhdlərinə inadlı müqavimət göstərirdilər. Kəndlilər kəndin varlı təbəqəsinin zorakılığına qarşı mübarizə apararaq, pay torpaqlarının vaxtaşırı olaraq yenidən bölüşdürülməsini tələb edirdilər.

Kəndlilər öz şikayətlərində ağır vergi və mükəlləfiyyətləri azaltmağı, onları özlərinin iqtisadi imkanları ilə uyğunlaşdırmağı, ödənilməmiş vergiləri bağışlamağı tələb edirdilər. Kəndli şikayətlərinin əksəriyyətinin taleyi göstərdi ki, ancaq çox nadir hallarda çar hakimiyyət orqanları vergi yükünü azaltmağa, ödənilməmiş vergiləri ləğv etməyə razılıq verirdilər.Buna görə də bəzi kəndlilər bütöv kənd cəmiyyətləri halında vergiləri ödəməkdən boyun qaçırırdılar.

Kəndli hərəkatı formalarından biri meşələrin qırılması idi. Meşələrin qırılması üstündə 1899-cu ildə Nuxa qəzasının Sabatlı kəndində ciddi həyəcanlar baş verdi. Qətiyyən meşələri olmayan sabatlılar ağac materiallarını ya satın alır, ya da onu gizlicə Zaqatala dairəsinin qonşuluğunda yerləşən xəzinə meşələrindən qırırdılar. 1899-cu ilin mayında berdankalarla (tüfəng) silahlanmış bir qrup Sabatlı arabalarda meşəyə gəlib ağac kəsməyə başladı. Gecə qəza rəisi başda olmaqla 500 nəfərə qədər silahlı kazak və zemstvo mühafizəçisi Sabatlıya gəldi. Kəndlilərə divan tutulması başladı. 18 nəfər həbs edildi və Zaqatala həbsxanasına atıldı.

Kənddə zülmə qarşı mübarizə formalarından biri mülkədar və qolçomaq evlərinin və mülklərinin yandırılması idi. Bu yanğınlar qolçomaq istismarı, zorakılığı və özbaşınalığı müqabilində kəndli intiqamının bir növ ifadəsi idi.Vəzifəli şəxslərin, xüsusən də kəndxudaların mülklərinin dövlət və xüsusən də sahibkar kəndliləri tərəfindən yandırılması hallarına da təsadüf olunurdu. O dövr Azərbaycan kəndində bəy torpaqlarının kəndlilər tərəfindən tutulması hallarına rast gəlinirdi. Kəndlilərin göstərdikləri cəsarət və igidliyə baxmayaraq, onların kortəbii, qeyri-mütəşəkkil xarakter daşıyan çıxışları məğlubiyyətə uğrayırdı.

XIII FƏSİL
XIX YÜZİLLİYİN 60-70-Cİ İLLƏRİNDƏ BURJUA İSLAHATLARI.

Cədvəl : 1

1859-cu il 1 yanvar qanununa əsasən Cənubi Qafqazın idarəçiliyində baş verən dəyişikliklər :

Canişin

Canişin şurası

Departamentlər və xüsusi idarələrin yaranması

Cədvəl: 2

1868-ci il islahatına görə Cənubi Qafqazın məhkəmə sistemi.

Tiflis məhkəmə palatası

Quberniya dairə məhkəmələri

Qəza,dairə,vilayət və quberniya şöbələrində barışıq məhkəmələri

İslahat ərəfəsində ictimai-siyasi vəziyyət. XIX yüzilliyin ikinci yarısında Rusiyada iri maşın sənayesinin inkişafı bütün ölkənin kapitalist inkişaf yoluna keçməsinə, feodal-təhkimçilik böhranının güclənməsinə təsir göstərdi. Bu sistem şəraitində icbari əmək az məhsuldar idi və sərfəli deyildi. İnkişaf etməkdə olan sənaye azad işçi qüvvəsinə kəskin ehtiyac hiss edirdi, belə qüvvə isə yox idi. Belə ki, kəndlilər təhkimçilik asılılığında olub, feodal-mülkədarların torpaqlarına təhkim edilmişdilər.Bu isə vaxtı keçmiş köhnə istehsal münasibətləri ilə yeni məhsuldar qüvvələr arasında ziddiyyətə gətirib çıxarırdı. Eyni zamanda ticarət əkinçiliyinin inkişafı ilə əlaqədar kəndlilərin təhkimçilik istismarı Rusiya kəndində sinfi mübarizəni

xeyli kəskinləşdirdi. Bütün bunlar 50-ci illərin sonunda ölkədə inqilabi şəraitin yaranmasına gətirib çıxardı. Çarizmin Krım müharibəsindəki məğlubiyyəti isə təhkimçilik rejiminin çürüklüyünü göstərdi. Bütün bunlar "...II Aleksandrı etiraf etməyə məcbur etdi ki, aşağıdan devrilməyi gözləməkdənsə, yuxarıdan azad etmək yaxşıdır".

1861-ci il fevralın 19-da çar II Aleksandr "Təhkimçilik asılılığından çıxmış kəndlilər haqqında Əsasnamə"ni təsdiq etdi. "Əsasnamə"də kəndlilər şəxsi azadlıq və öz əmlaklarından sərbəst istifadə etmək hüququ aldılar, torpağın mülkiyyətçisi isə yenə əvvəlki kimi mülkədarlar qalırdı. Lakin onlar kəndlilərə daimi istifadə üçün pay torpağı verməliydilər. Bunun müqabilində kəndlilər biyar işləməli, pay torpaqlarını satın alana qədər töycü ödəməli idilər. Mülkədarlar müəyyən şərtlərlə pay torpaqlarının bir hissəsini özlərinə götürmək hüququ alırdılar. Bu hüquqdan istifadə edən mülkədar kəndlilərin əvvəllər istifadə etdiyi ən yaxşı torpaqları kəsib özünə götürdü. Bütün otlaqlar, meşələr, suvatlar mülkədarların sərəncamına keçirildi.

Kəndli islahatı kapitalizmin daha da inkişafı üçün şərait yaratdı, daha doğrusu islahat köhnə feodallarla yeni kapitalist sosial-iqtisadi istehsal münasibətləri arasında sərhədə çevrildi.

Rusiyada kapitalizmin sürətli inkişafı Azərbaycanda kapitalizmin inkişafına təsir göstərməyə bilməzdi. 60-cı illərin sonlarında Şimali Azərbaycanın sosial-iqtisadi inkişafı feodal münasibətlərinin ləğv edilməsini tələb edirdi. Yerli feodallarla ittifaqda olan çar hökuməti onların mənafeyinə uyğun olaraq Cənubi Qafqazda, o cümlədən Azərbaycanda islahat keçirilməsini bir neçə il ləngitdi. Çarizm bunu onunla əsaslandırırdı ki, guya Şimali Azərbaycanda islahat keçirmək üçün iqtisadi şərait kifayət qədər yetişməmişdir və bütün Azərbaycan kəndliləri hüququ cəhətdən dövlət kəndliləri hesab olunurlar, daha doğrusu, onlar təhkimli

deyillər, şəxsi azadlıq statusundan istifadə edirlər. Əslində isə sahibkar kəndliləri feodal-asılı vəziyyətində idilər.

Lakin feodal münasibətləri ölkənin iqtisadi inkişafına mane olur, bazar əkinçiliyinin inkişafını, əmtəə-pul dövriyyəsinin tətbiqini, sənayedə və kənd təsərrüfatında kapitalist sahibkarlığının yaranmasını ləngidirdi.

Bu dövrdə Azərbaycan xalqının maarifçilik ideyaları inkişaf etməyə başlayırdı. Feodal qaydalarını pisləyən səslər getdikcə daha ucadan eşidilirdi. Kəndli çıxışlarının perspektivləri də çar hökumətini narahat edirdi. Əvvəllər bilavasitə təsərrüfatla məşğul olmayan bəylərin bir hissəsi şəxsi əkinin xeyrini görərək, kəndli torpaqlarını ələ keçirməyə, vergi və mükəlləfiyyətləri artırmağa başladılar ki, bu da kəndlilər arasında narazılığın artmasına səbəb oldu.

Gürcüstanda təhkimçilik islahatı keçirmək haqqında 1863-cü ildə Gürcüstanla həmsərhəd olan Zaqatala dairəsinə çatan şayiələr burada böyük üsyanın başlanmasına səbəb oldu. Aqrar islahatın həyata keçiriləcəyi təqdirdə özlərinin keşkəllərindən, daha doğrusu, muğalları və yengiloyları istismar etmək hüququndan məhrum olacaqlarından ehtiyat edən feodal əyanları, keşkəl sahibləri üsyan qaldırdılar. Mürəkkəb sosial münasibətlər, çar hakimiyyət orqanlarının, o cümlədən Zaqatala dairə rəisinin özbaşınalığı, qanunsuzluq keşkəl sahiblərinin camaatın aşağı hissəsini öz tərəflərinə çəkmək üçün şərait yaradırdı.

Üsyanın digər səbəbi hakimiyyət orqanları tərəfindən həyata keçirilən zorla xristianlaşdırma oldu. Çarizm bu siyasəti həyata keçirmək üçün müxtəlif metodlardan istifadə edirdi; hökumət dairələri xristianlığı qəbul edən kəndlilərə torpaq asılılığından azad edilməsi vədini verirdi.

Üsyan 1863-cü il iyunun əvvəllərində başlandı. Ona böyük

nüfuz sahibi olan və Balakən camaatının başında duran Hacı Murtuz rəhbərlik edirdi. Üsyançı balakənlilər və qavaxçöllülər Zaqatala şəhərini ələ keçirdilər. Lakin onlar Zaqatala qalasını tuta bilmədilər. Hacı Murtuzun bütün Zaqatala əhalisini dini şüarlarla üsyana qaldırmaq ümidi özünü doğrultmadı. Üsyançılar qala divarlarına çatsalar da və onlardan bəzilərinə nərdivanlar söykəsələr də, artilleriya və tüfənglərdən açılan şiddətli atəşlə pərən-pərən salındılar. Üsyançıların qalanı ələ keçirmək üçün sonrakı cəhdləri də müvəffəqiyyət qazanmadı. Tezliklə İlisu sahə rəisinin əsasən yengiloylardan ibarət olan süvari dəstəsi mühasirəyə alınmış qalanın müdafiəçilərinin köməyinə gəldilər və üsyan yatırıldı. Hacı Murtuz gizlənsə də, 1864-cü ilin fevralında təslim oldu, tezliklə Yenisey quberniyasına sürgün edildi və burada da öldü. Üsyan yatırıldıqdan sonra çarizm dairədə polis nəzarətini gücləndirdi.Mülki idarəçilik ləğv olundu və hərbi-inzibati sistem tətbiq edildi. Bununla belə, çarizm Cənubi Qafqazın digər hissələri üçün kəndli islahatı keçirməyə məcbur oldu.

1861-ci il iyunun 29-da çar hökuməti "Cənubi Qafqaz diyarının mərzləşdirilməsi haqqında Əsasnamə"ni təsdiq etdi və buna əsasən də 1862-ci ildə xüsusi Cənubi Qafqaz Mərz Palatası yaradıldı. Palata hər bir kənd icmasının sərhədlərini müəyyənləşdirməklə yanaşı, həm də bütün mülk və malikanələrin də sərhədlərini dəqiqləşdirməli idi. Lakin uzun müddət mərzləşdirmə üzrə heç bir iş aparılmadı.

1861-ci ildə çar hökuməti ağaları kəndlilər üzərində polis nəzarəti və məhkəmə hakimiyyəti hüququndan məhrum etdi. Tezliklə Şimali Azərbaycanın bütün feodallarına qarşı da belə tədbiri həyata keçirmək lazım gəldi.

1865-ci il yanvarın 28-də bəyləri məhkəmə və polis hakimiyyəti hüququndan məhrum edən və "seçkili" əsaslar üzərində qurulan "Kənd cəmiyyətlərinin ictimai idarəsi haqqında" Əsasnamə nəşr

edildi. Bu "Əsasnamə"nin nəşrindən sonra da bəylər kənd hakimiyyəti orqanlarına müəyyən təsir göstərsələr də, onların kəndlilər üzərindəki əvvəlki hakimiyyəti artıq yox idi.

1864-cü ildə Şərqi Gürcüstanda kəndli islahatı haqqında "Əsasnamə" təsdiq edildi. Elə həmin il zəylik zəy zavoduna təhkim edilmiş Zəylik kənd sakinlərinin, həmçinin Bakı quberniyasındakı neft quyularına təhkim edilmiş Balaxanı kənd sakinlərinin, 1868-ci ildə Naxçıvan duz mədənlərində işləyən Şıxmahmud kənd sakinlərinin məcburi əməyi ləğv edildi. Bütün bunlar Azərbaycanda kəndli islahatı keçirilməsinin başlanğıcı idi. Tiflisdə Cənubi Qafqaz İslahat Komitəsi yaradıldı. Komitə Cənubi Qafqazda islahatı iki mərhələdə keçirməyi qərara aldı. O, əvvəlcə Qərbi Gürcüstanda, sonra isə Cənubi Qafqazın yerdə qalan hissələrində islahat keçirməklə məşğul oldu. Səciyyəvi haldır ki, Komitənin tərkibinə Azərbaycan bəylərinin bir nəfər də nümayəndəsi daxil edilməmişdi. Bu onunla izah olunur ki, bəylər ali silk hesab olunsalar da, hüquqi cəhətdən rus və gürcü zadəganlarına və mülkədarlarına bərabərləşdirilməmişdilər.

Burjua islahatları. İslahatı keçirməyə hazırlıq üçün 1866-cı il mayın 29-da Tiflis, Bakı, İrəvan və Şuşa şəhərində "bəy komissiyaları" adı altında müvəqqəti komissiyalar təsis edildi."Ali müsəlman silkinin şəxsi heyətini müəyyənləşdirmək" bu komissiyalara tapşırıldı. Komissiyalar hökumət məmurlarının sədrliyi altında bəylərdən təşkil olunurdu.

Mərkəzi Cənubi Qafqaz Komitəsi bu komissiyaların işini öyrəndikdən sonra 1870-ci il mayın 14-də "Cənubi Qafqaz quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları ali müsəlman silkindən olan şəxslərin torpaqlarında sakin olan dövlət kəndlilərinin torpaq quruluşu haqqında "Əsasnamə"nin layihəsi təsdiq edildi. Bu dövrün xarakterik

cəhətlərindən biri yalançı bəylərin sayının artması idi. Bəy nəslindən olmayan bir çox torpaq sahibləri bəy silkinə daxil olmağa çalışırdı ki, bunun da nəticəsində bəy komissiyalarında rüşvətxorluq və tanışlıq münasibətləri geniş yayıldı.

Qafqaz canişininin qərarına əsasən, "Əsasnamə" 1870-ci il noyabrın 8-də qüvvəyə mindi və iki bölmədən ibarət idi: 1.Kəndlilərin torpaq məsələlərinin tənzim olunması haqqında ümumi əsasnamə; 2. Kəndli işləri üzrə təsis olunmuş idarələr haqqında qaydalar.

"Əsasnamə" kəndli islahatının aşağıdakı əsas məsələlərini müəyyən etdi:1)kəndlilərin torpaq sahələrindən hər cür şəxsi asılılıq münasibətləri dayandırılır; 2)kəndlilərin istifadəsində olan torpaqlar bəylərin, ağaların və məliklərin mülkiyyəti olaraq qalır və kəndlilərin daimi istifadəsinə verilir.

"Əsasnamə" kəndlilərə torpaqlarını maneəsiz tərk etmək, öz kənd icmasında qalmaq və yaxud başqasına keçmək hüququ verirdi. Faktiki olaraq isə onlar həmin torpaqlarda qalmağa məcbur idilər və torpaq sahibindən iqtisadi cəhətdən asılı idilər.

Beləliklə, islahata görə kəndlinin torpağa təhkim edilməsi ləğv edildi. Həm Rusiyada, həm də Gürcüstanda təhkimçilik hüququ ləğv edildikdən sonra kəndlilər öz pay torpaqlarının pulunu ödəyənə qədər təhkimli deyil, feodaldan asılı hesab olunan Azərbaycan sahibkar kəndliləri kimi müvəqqəti asılı kəndlilər kateqoriyasına salınmışlar.Əslində isə onlar yenə də əvvəlki vəziyyətlərində qalırdılar.

Kəndli islahatının başlıca məsələsi torpaq məsələsi idi. 1870-ci il Əsasnaməsinə görə bəylərə, ağalara və məliklərə və həmçinin çoxdan "dövlət kəndliləri" adı almış kəndlilərə məxsus olan torpaqlar üzərində irsi xüsusi mülkiyyət hüququ qalmışdı.

Kəndlilər daimi istifadə üçün onlara verilmiş pay torpaqlarının

müqabilində torpaq sahiblərinin xeyrinə müəyyən mükəlləffiyyətlər daşımalı idilər.

Çar hökuməti çalışırdı ki, kəndli islahatı Azərbaycanda torpaq sahiblərinin təsərrüfatlarına mümkün qədər az zərər vursun və onların öz mülklərinə olan torpaqlardan əldə etdikləri ümumi gəlirin miqdarını azaltmasın.

Beləliklə,Əsasnamə pay torpaqlarını satınalana qədər daimi istifadə üçün kəndlilərin ixtiyarına verirdi. Bu torpaqlar mülkədar bəylərin mülkiyyətində qalırdı. Kəndlilər yalnız pulunu ödədikdən sonra torpağın mülkiyyətçisinə çevrilə bilərdilər. Kəndlilərin öz pay torpaqlarını satın alması məcburi deyildi. Buna baxmayaraq, kəndlilərə torpaq əldə etmək hüququ verilməsi burjua xarakteri daşıyırdı.Çünki feodalizm şəraitində mülkədar-bəylər öz torpaqlarını ancaq öz silklərindən olan adamlara satmaq hüququna malik idilər.

Kəndlilərin faktiki olaraq maddi cəhətdən öz pay torpaqlarını almaq imkanları olmasa da, torpaq əmtəəyə çevrilirdi. Yaşı 15-dən yuxarı olan hər kişi ailə üzvü üçün 5 desyatin pay torpağı verilməsi haqqında 1847-ci il "Əsasnamə"sinin müəyyənləşdirdiyi norma son həddi kimi qəbul edilirdi. Əksər hallarda isə kəndlilərin pay torpaqları, o cümlədən malikanələr, meyvə, üzüm və tut bağları, əkin sahələri və biçənəklər kəndilərin daimi istifadəsində saxlanırdı. Kəndlilər mövcud ödəmələrə əsasən suvatlardan, otlaqlardan və suvarma arxlarından istifadə etməyə davam edirdilər. Bunula belə, torpaq sahiblərinə kəndli torpaqları da daxil olmaqla bütün yararlı torpaqları bilavasitə öz sərəncamında saxlamaq hüququ verilirdi. Onlar öz sərəncamlarında bütün yararlı torpaqların 1/3-dən azı qaldığı təqdirdə kəndli torpaqlarının 5 desyatindən çox olan artıqlarını kəsib götürə bilərdilər və onlarda bütün yararlı torpaqların 1/3-dən azı qaldığı tədqirdə kəndli pay torpaqlarını 5 desyatin

normaya qaldırmağı öhdələrinə götürmürdülər.

Faktiki olaraq kəndlilərin pay torpaqları müəyyənləşdirilmiş 5 desyatindən xeyli az olurdu. Sonralar isə əhalinin artması ilə əlaqədar hər nəfərə düşən pay torpağı getdikcə daha çox azalır, kəndlilərin əksəriyyəti aztorpaqlı olurdu.

Kəndlilər pay torpaqlarından istifadə etdiklərinə görə 1870-ci il Əsasnaməsi ilə bəylər qarşısında yerinə yetirdikləri mükəlləfiyyətlər öz xarakterinə və yerinə yetirilmə qaydasına görə,1847-ci il Əsasnaməsinin müəyyənləşdirdiyi kimi qalırdı. Məhsul rentası–malcəhət yaxud bəhrə yenə də əvvəlki kimi əsas yer tuturdu.

Satınalma sazişi bağlandıqdan sonra kəndlilər formal olaraq mülkiyyətçi kəndlilər kateqoriyasına keçirdilər. Lakin dövlət Rusiya quberniyalarından fərqli olaraq, Azərbaycana münasibətdə kəndlilərin öz torpaqlarının satın almasına hər hansı bir yardım göstərməkdən imtina etdi, həm də torpaqların satın alınması burada məcburi deyildi.Kəndlilər öz pay torpaqlarını ancaq öz şəxsi pul vəsaiti hesabına ala bilərdilər.Azərbaycanda satınalma məbləği Rusiyanın mərkəzi quberniyalarındakı məbləğdən bir neçə dəfə yüksək idi. Yalnız torpağın haqqını tam ödədikdən sonra kəndlilər mükəlləfiyyətçi kəndlilər kateqoriyasına keçə bilərdilər. Bu şərtlərin kəndlilər üçün necə ağır olduğunu aydın görmək olar ki, kəndli həyətlərinin əksəriyyəti öz pay torpaqlarını satın alıb mülkiyyətlərinə keçirə bilməmişdilər. Əsasnamə 1873-cü ildə kəndlilərlə torpaq sahiblərinin münasibətlərində yerli xüsusiyyətlər nəzərə alınaraq cüzi dəyişikliklərlə Quba qəzasında tətbiq edildi.

Əsasnamə 1877-ci il sentyabrın 3-də onun nəşrinə qədər ali silkə mənsub olmayan və bu kateqoriyaya sonralar aid edilən bəylərin torpaqlarında yaşayan kəndlilərə də şamil edildi.

Kəndli islahatı Azərbaycanın şimal-qərb hissəsinə - Zaqatala

dairəsinə toxunmadı. Burada kəndlilərin asılı münasibətləri 1913-cü ilə qədər davam etdi.

Çar məmurlarının özləri dəfələrlə etiraf etmişdilər ki, kəndli islahatı imperiyanın heç yerində Cənubi Qafqazda olduğu kimi ağır və əzablı olmamışdı. Çar hökumətinin bütün qanunu və tədbirləri əsasən "ali silkə"əmlak və silki hüquqlar yaratmağa yönəldilmişdi. Kəndlilərin rifahının təmin edilməsi məsələsi isə ikinci dərəcəli əhəmiyyətə malik idi.

İslahat Azərbaycanın kənd istehsalçılarının çox saylı hissəsini təşkil edən, xəzinə kəndlilərinə aid edilmədi. 1870-ci il 14 may islahatı Azərbaycanın mülkədar kəndində asılı münasibətləri məhv etmədi və kəndlilərin gələcəkdə də bəylər tərəfindən istismar olunmasını təmin etdi. Bununla belə o, məzmununa görə burjua xarakteri daşıyırdı; kənddə mövcud olan obyektiv şəraitin tədricən kapitalist inkişafının tələbatına uyğunlaşmasına yardım etdi, ona təkan verdi.

1870-ci il 14 may kəndli islahatının xüsusiyyətləri bunlar idi:

1.Xəzinə kəndlilərinə,Quba qəzası və Zaqatala dairəsinin sahibkar kəndlilərinə aid edilmədi.

2.Kəndlilərin mülkədardan asılılığını tam məhv etmədi.

3.Kəndlilərin gələcəkdə də bəylər tərəfindən istismarını təmin etdi.

4.İslahat burjua xarakteri daşıyır, kənddə kapitalist münasibətlərinin inkişafına şərait yaradırdı.

Məhkəmə, şəhər, inzibati islahatlar. Çar hökuməti burjua xarakterli məhkəmə islahatına başlamağa məcbur oldu. II Aleksandr "1864-cü il 20 noyabr məhkəmə nizamnamələri" adı altında nizamnamə imzaladı. Məhkəmə islahatı silki məhkəmələri bütün silklər üçün ümumi olan məhkəmələrlə əvəz etdi, andlılar məhkəməsi, vəkillər korpusu yaratdı, məhkəmə instansiyalarının

sayını azaltdı.

1864-cü il məhkəmə islahatı müsbət əhəmiyyətə malik idi. Bununla bərabər, hakim təbəqə tərəfindən mütləqiyyət quruluşu şəraitində keçirilmiş bu islahat da yarımçıq idi. Onun qeyri-ardıcıllığı, ilk növbədə dövlət cinayətlərinin andlılar məhkəməsinin ixtiyarından alınmasında təzahür etdi. Bu cinayətlərə baxılması silki nümayəndələrin iştirakı ilə ancaq məhkəmə palatalarına etibar edilirdi. Belə ki, mürtəce zadəganların fikrincə, andlılar məhkəməsi çar hökumətini arzuolunmaz hökmlərdən hifz edə bilməzdi. İmtiyazlı silk nümayəndələrinin iştirak etdikləri məhkəmə, hakim təbəqənin mənafeyini müdafiə edən etibarlı silah olmalı idi. 1864-cü il məhkəmə islahatı təhkimçilik münasibətlərinin kəndliləri üçün volost məhkəməsi, ruhanilər üçün xüsusi məhkəmə, çar məmurlarının vəzifə cinayətlərinə baxmağın xüsusi qaydası, vəzifəli şəxslərin məhkəməyə verilməsini güzəştli qaydaları və s. qalıqlarını qoruyub saxladı.

Məhkəmə islahatı 1864-cü il 20 noyabr məhkəmə nizamnamələrinin əsasında çar tərəfindən 1866-cı il noyabrın 22-də təsdiq olundu.Çarizm öz müstəmləkəlik xəttinə sadiq qalaraq, Cənubi Qafqazın xüsusiyyətlərini, yəni yerli əhalinin geridə qalması haqqında yalanı birinci yerə çəkərək, məhkəmə nizamnamələrinin tətbiqində bir sıra mühüm məhdudiyyətlər nəzərdə tutmuşdu.

Andlılar məhkəməsi tətbiq edilmədi, çünki hakim dairələr bu məhkəmənin işlərində yerli əhalinin iştirakı üçün yaratdığı cüzi imkana belə yol vermək istəmirdi.

Azərbaycan ərazisində yeni məhkəmə idarələri 1868-1869-cu illərdən fəaliyyət göstərməyə başladı. Bütün işlər barışıq hakimi tərəfindən təkbaşına həll edilirdi.

Cənubi Qafqaz məhkəmə idarələri üzərində ümumi nəzarəti canişin həyata keçirirdi. Bu halda o, Ədliyyə naziri rolunda çıxış

edirdi. Çar hökuməti sinfi mübarizənin kəskinləşdiyi şəraitdə məhkəmə təqib işlərini gücləndirmək məqsədilə dəfələrlə barışıq şöbələrinin səlahiyyətini xeyli məhdudlaşdırmış, müvafiq olaraq dairə məhkəmələrinin səlahiyyətlərini genişləndirmişdi.

Məhkəmə icrası ciddi nöqsanlara malik idi. Hakimlərin tərkibində yerli əhalinin nümayəndələri yox idi, məhkəmə əhalinin dili, adət və ənənələrini bilməyən adamlar tərəfindən aparılırdı. İşlərə müstəsna olaraq, rus dilində baxılırdı. Bu da ona gətirib çıxarırdı ki, proses iştirakçıları bir qayda olaraq bir-birini başa düşmür və tərcüməçilər vəsitəsilə danışmağa məcbur olurdular. Mülki işlərin baxılmasında yerli adətlər qətiyyən nəzərə alınmır, iddialar üzrə şahid ifadələri büsbütün rədd edilir və ancaq yazılı, sənədli sübutlar qəbul olunurdu. Əhalinin kütləvi savadsızlığı şəraitində isə belə sənədlər adətən olmurdu.

Çar hökuməti kəndlilərin çıxışlarına cavab olaraq, məhkəmə və inzibati polis zülmünü gücləndirirdi. Fəhlə tətili barəsində ilk xəbər alınan kimi, məhkəmə tədqiqatını gözləmədən tətilin fəal iştirakçılarını sürgünə göndərmək vəzifəsi qubernatorların üzərinə qoyulmuşdu.

1870-ci il şəhər islahatı kapitalist münasibətlərinin inkişafı, şəhərlərin sürətli artımı, xüsusən də şəhər həyatının mürəkkəbləşməsi ilə bağlı idi. Şəhər islahatının hazırlanması 8 ildən çox çəkdi. Azərbaycanda bir çox şəhərlər xeyli böyüməsinə, əhalinin sayının artmasına baxmayaraq, polis idarələrinin ixtiyarında qalmaqda davam edirdi.

Bakı qubernatoru V.Kolyubyakin "yerli əhalinin kifayət qədər inkişaf etmədiyini" bəhanə gətirərək, şəhərlərin idarəsini polisin əlində saxlamağı, şəhər dumalarını isə polisin yanında məşvərətçi orqan kimi yaratmağı təklif edirdi.

1870-ci il Şəhər Əsasnaməsi ancaq 1878-ci ildə, yəni təsdiq

edildikdən 8 il sonra Azərbaycan şəhərlərinin təkcə birində - Bakıda tətbiq olundu. Şəhər "özünüidarə" orqanları həddən artıq məhdud səlahiyyətə malik idi. Bu səlahiyyət şəhər vergi və rüsumlarını qoymaq, bazarları açmaq, şəhərin sanitariya vəziyyətini təmin etmək, yanğınlarla mübarizə və s. hüquqlardan kənara çıxmırdı. Şəhər islahatını keçirmək zərurəti qarşısında qalan çar hökuməti şəhər "özünüidarə" orqanlarını real hakimiyyətdən məhrum etmək üçün əlindən gələn hər şeyi etdi. Bu məqsəd təkcə şəhər "özünüidarə"orqanlarının səlahiyyətlərini məhdudlaşdırmaq deyil, həm də elə seçkilər sistemi tətbiq etməklə əldə olunurdu ki, həmin sistem fəhlələri seçki hüququndan məhrum edirdi.

Seçkilərdə iştirak etmək hüququ ancaq müəyyən əmlak senzinə malik olanlara və şəhər vergilərini ödəyənlərə, yəni ev sahiblərinə, tacirlərə, fabrik və zavod sahiblərinə verilirdi. Xüsusi şəxslərdən başqa vergiləri ödəyən idarələr, müəssisələr, cəmiyyətlər, şirkətlər də seçki hüququndan istifadə edirdilər. Şəhər "özünüidarəsi"ndə iştirak etmək səviyyəsi ödənilən şəhər vergilərinin məbləğinə müvafiq idi. Bütün seçicilər üç dərəcəyə (kateqoriyaya) bölünürdü. Bu dərəcədən hər birinin payına şəhər vergilərinin 1/3 hissəsi düşürdü. Birinci dərəcəyə adətən bir neçə iri, ikinci dərəcəyə yüzlərlə orta, üçüncü dərəcəyə isə minlərlə xırda vergi verənlər daxil edilirdi. Hər bir dərəcə xüsusi seçki məclisi təşkil edir və bu məclis qlasnıların (şəhər duması üzvlərinin) 1/3 hissəsini seçirdi. Beləliklə, seçicilərin dərəcələrə bölünməsi seçkilərdə iri ev sahibləri, sənayeçilər və tacirlərə üstünlüyü təmin etmək məqsədini güdürdü.

Qadınlar və 25 yaşına çatmamış cavanlar seçici korpusundan tamamilə kənar edilmişdilər. Bütün bu məhdudiyyətlər ona gətirib çıxarırdı ki, qlasnıların seçilməsinə şəhər əhalisinin cəmi 2-3 %-i buraxılırdı.

Şəhər dumasının icraedici orqanları: şəhər qlavası (bələdiyyə

idarəsinin başçısı) və onun başçılıq etdiyi bələdiyyə idarəsi idi. Onların seçkisi ikiqat səsvermə yolu ilə keçirilirdi. Birinci səsvermə zamanı namizədlərin irəli sürülməsi, ikinci səsvermə isə konkret şəxslərin seçilməsi məqsədini güdürdü. Bələdiyyə idarəsinin tərkibi qubernator tərəfindən təsdiq olunmalı idi. İlk dəfə və təkrarən seçilmiş şəxslər təsdiq edilmədiyi təqdirdə boş vəzifələri qubernator və ya daxili işlər nazirinin təyin etdiyi adamlar tuturdular. Şəhər bələdiyyə idarəsinin başçısı yerli burjuaziyanın nüfuzlu qrupları və hökumət orqanlarının gizli razılaşmasına əsasən seçilirdi.

Bütün nöqsanlarına baxmayaraq, 1870-ci il Şəhər Əsasnaməsi hər halda mütərəqqi addım idi, çünki Rusiyanın kapitalist inkişafının tələbatına cavab verirdi. Bu Əsasnamə Bakı kimi iri şəhərlər üçün daha mühüm əhəmiyyətə malik olan xüsusi şəhər idarə orqanlarının təşkil edilməsini nəzərdə tuturdu. Bakı şəhər təsərrüfatı, abadlıq və başqa işlərlə Şəhər Əsasnaməsini tətbiq edənlərdən heç kim məşğul olmurdu.

1892-ci ildə III Aleksandr şəhər "özünüidarə" orqanlarının hüquqlarını daha da məhdudlaşdıran və şəhərlərin bu idarədə iştirakını xeyli ixtisara salan yeni Şəhər Əsasnaməsini təsdiq etdi. Buna görə də yeni Əsasnamə əslində "şəhər əks islahatı" idi.

1892-ci il Şəhər Əsasnaməsinə görə qubernatorun şəhərin vəzifəli şəxslərini işdən azad etmək də daxil olmaqla, inzibati məsuliyyətə cəlb etməyə qədər bütün şəhər "özünüidarə"işlərinə qarışmaq hüququ genişləndirilirdi.

Bütün çatışmazlıqlarına baxmayaraq şəhər özünüidarə orqanları abadlaşdırılma, təhsil, səhiyyə və s. mədəniyyət sahələrinin inkişafında müəyyən qədər də olsa müsbət rol oynamışdır.

1881-ci ildə II Aleksandrın öldürülməsindən sonra Rusiyada irtica qüvvətləndi. Qafqazın idarəsinin daha da mərkəzləşdirilməsi onun təzahürlərindən biri oldu. Çar hökuməti 1883-cü ildə

canişinliyi ləğv edərək, Qafqaz diyarının idarəsini Qafqazdakı Baş rəisə tapşırdı. Bu dövrdə Azərbaycanın inzibati-ərazi quruluşunda edilən dəyişikliklər polis nəzarətini gücləndirmək tələblərinə uyğunlaşdırıldı. 1859-cu ildə Şamaxıda baş verən güclü zəlzələ ilə əlaqədar quberniya mərkəzi Bakıya köçürüldü. Şamaxı quberniyası Bakı quberniyası adlandırıldı.

Dağıstan və Şimali Qafqaz xalqlarının milli-azadlıq hərəkatı yatırıldıqdan sonra çar hökuməti 1860-cı ilin martında "Dağıstan vilayətinin idarə olunması haqqında "Əsasnamə'' imzaladı. Bu "Əsasnamə''yə görə, Dərbənd quberniyası ləğv edildi, Quba qəzası Bakı quberniyasının tərkibinə verildi. Car-Balakən hərbi dairəsi isə Zaqatala hərbi dairəsinə çevrildi.

İnzibati-ərazi bölgüsündə ən ciddi dəyişiklik 1868-ci ildə mərkəzi Gəncə (Yelizavetpol) olmaqla Yelizavetpol quberniyasının yaranması oldu. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Qazaxla birlikdə Yelizavetpol qəzası, Ordubad qəzasının bir hissəsi ona verildi. Ordubad qəzası ərazisinin digər hissəsi Naxçıvan qəzasının tərkibində İrəvan quberniyası tərkibinə verildi.

Qeyd etmək lazımdır ki, bu bölgədə aparılmış inzibati ərazi dəyişiklikləri əzəli Azərbaycan torpaqlarının gələcəkdə ermənilər tərəfindən zəbt olunmasında müəyyən rol oynadı.

1874-cü ildə Nuxa qəzasının cənub hissəsi hesabına Ərəş qəzası yaradıldı. Sonralar Bakı quberniyasının tərkibində iki yeni qəza – Cavad və Göyçay qəzaları, Yelizavetpol quberniyasının tərkibində isə Qazax və Zəngəzur qəzaları yaradıldı. 1883-cü ilin iyulunda Şimali Azərbaycanda yeni daha iki qəza – Cəbrayıl və Cavanşir qəzaları təşkil edildi.

Şimali Azərbaycanda Bakı və Yelizavetpol quberniyalarının, eləcə də digər yeni inzibati-ərazi vahidlərinin yaradılması irəliyə

doğru addım olsa da, onlar Azərbaycan torpaqlarının siyasi-inzibati baxımdan bütövlüyünə gətirib çıxarmadı.

Bu dövrdə qəza inzibati idarəçiliyinin tərkibi və vəzifələrində ciddi dəyişiklik baş vermədi. Hətta sahələr bərpa edildikdən sonra da, qəza rəisi fəal inzibati-polis idarəsi orqanı kimi qalmaqda davam edirdi.

Azərbaycanda inzibati polis aparatının ən aşağı həlqəsi sahə pristavı idi. O, sahənin bütün sakinlərini tanımalı, onların siyasi sədaqətinə əmin olmalı idi.

Beləliklə, çarizm digər ucqarlar kimi, Cənubi Qafqazın əhalisini idarə edərkən diyarın milli tərkibini, iqtisadi həyatının və məişətinin xüsusiyyətlərini nəzərə almırdı. Milli ucqarların əhalisi idarə işlərində iştirak etmək hüququndan məhrum edilmişdi. Azərbaycanlıların çox az bir qismi quberniya və qəza mərkəzlərindəki çar idarələrinə və polisə daxil ola bilmişdi.

Həm rəsmi hökumət idarəsi, həm də imperiyanın razılığı ilə yaradılmış yerli, özünüidarə, bələdiyyə və s. orqanlar ilk növbədə çarizmin mənafeyinə xidmət edib müstəmləkəçi siyasətin icraçıları rolunu yerinə yetirməli idi.

XIV FƏSİL
AZƏRBAYCAN MİLLƏTİNİN TƏŞƏKKÜLÜ. MAARİFÇİLİK HƏRƏKATI. MİLLİ OYANIŞ.

Millətin təşəkkülünü şərtləndirən amillər. Burjuaziyanın təşəkkülü. XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanın ictimai-iqtisadi həyatında baş verən dəyişikliklər burada burjua cəmiyyəti təbəqələrinin formalaşmasına zəmin yaratdı.

Şimali Azərbaycanda çarizmin müstəmləkə siyasəti, ilkin kapital yığımı mənbələrinin məhdudluğu, Azərbaycan kəndində feodal qalıqlarının qalmasına baxmayaraq, diyarda burjuaziyanın təşəkkülü prosesi gedirdi. Özlərinin bütün məhdudluğuna baxmayaraq, 70-ci illərdə keçirilmiş burjua islahatları bu prosesə müsbət təsir göstərdi. Sənaye və ticarət burjuaziyasının formalaşması prosesi, həmçinin yüzilliyin sonunda kredit bank sisteminin meydana çıxması və inkişaf edərək iqtisadi həyatda birinci dərəcəli əhəmiyyət kəsb etməsi ilə daha da sürətləndi.

Şimali Azərbaycan sənayesinə əvvəlcə rus, 80-ci illərdən isə xarici kapital axınının güclənməsi müəyyən dərəcədə Azərbaycan burjuaziyasının çoxmillətliliyini şərtləndirdi. Onun tərkibinə milli burjuaziya ilə yanaşı, erməni və rus burjuaziyasının nümayəndələri, digər millətlərdən olan kapitalistlər daxil idilər.Şimali Azərbaycanda neft sənayeçilərindən, fabrik sahibləri və zavodçulardan, gəmi sahibləri və gəlirli ev sahiblərindən, habelə varlı tacirlərdən ibarət olan iri burjuaziyanın tərkibi ilbəil genişləndi. Orta burjuaziya - orta həcmli sənaye, ticarət, nəqliyyat və s. müəssisələrin sahibkarları iqtisadi və siyasi baxımdan iri burjuaziyaya qoşulurdular.

Rusiyanın digər bölgələrinin burjuaziyası kimi, Şimali Azərbaycan burjuaziyası da siyasi mənafelərin ümumiliyi baxımından vahidlik təşkil edirdi. Bu məsələdə də o, Bakı, Gədəbəy və başqa

yerlərdə kapitalist müəssisələrinə sahib olan rus və xarici sənayeçilər və bankirlərlə qovuşurdu.

Şimali Azərbaycanın xırda burjuaziyası çoxsaylı idi. Onun tərkibində - kustar müəssisələrin sahibləri, kiçik tacirlər və binəkdarlar, xidmət sahəsindəki xırda müəssisələrin sahibkarları və başqaları daxil idi. Öz sosial təbiətinə görə, xırda burjua olan kəndlilərə gəldikdə isə, burada da onlar parçalanır. Bir qütbə varlı kəndlilər - qolçomaqlar, digərinə isə muzdla işləyən kəndlilər - yoxsullar cəmləşirdi.Sənaye istehsalının müxtəlif sahələri və müxtəlif inkişaf mərhələlərində burjuaziyanın milli qruplarının nisbəti eyni deyildi. Bu da burjuaziyanın əsas formalaşma mərkəzinə çevrilmiş neft Bakısında daha açıq şəkildə özünü göstərirdi. Bütövlükdə isə neft sənayesində Azərbaycan milli burjuaziyasının iqtisadi mövqeyi güclü deyildi. Hələ 1872-ci ildə iltizam sisteminin ləğv edildiyi ilk vaxtlarda, neftli sahələrin 13 sahibkarı içərisində Azərbaycan kapitalı ancaq 2 kapitalistlə təmsil olunmuşdu.

XIX yüzilliyin 70-ci illərinin sonu - 80-ci illərinin əvvəllərində Azərbaycan kapitalı neftayırma sahəsində geniş şəkildə təmsil olunmuşdu. 1883-cü ildə Bakının 100 ağ neft zavodçusundan 40 nəfərdən çoxu azərbaycanlılar (H.Z.Tağıyev, N.Mehdiyev, A. Nuriyev, Q.Sadıqov, M. Səlimxanov və b.) idi.

90-cı illərin əvvəllərinə yaxın neft sənayesindəki milli kapital qruplarının nisbətində mühüm dəyişikliklər baş verdi. Beynəlmiləlləşmə meyli digər aparıcı sənaye sahələrində olduğu kimi, neft sənayesində də müxtəlif milli kapital qruplarının qovuşmasına gətirib çıxardı.

Neft hasilatı və emalının, neft məhsulları daşınması və ticarətinin xeyli hissəsini əsası 1879-cu ildə qoyulmuş,Rusiyada külli miqdarda kapital qazanmış İsveç mənşəli kapitalistlər tərəfindən ölkədə ilk inhisara çevrilmiş "Nobel qardaşları" şirkəti öz əlində

cəmləşdirmişdi. 1891-ci ildə Bakıda çıxarılan bütün neftin 13,2 %-i "Nobel qardaşları" şirkətinə məxsus olan mədənlərdə hasil edilirdi.

Neftayırma sənayesində o zamankı əsas məhsulun - ağ neftin istehsalındakı xüsusi çəki baxımından 22,8%-i Azərbaycan kapitalının payına düşürdü. "Nobel qardaşları" şirkəti də daxil olmaqla ağ neftin 34,5%-i rus kapitalistlərinin müəssisələri tərəfindən istehsal olunmuşdu.

Azərbaycan kapitalı başlıca orta və xırda müəssisələrlə təmsil olunmuşdu. Neft sənayeçiləri M.Nağıyev və Ş.Əsədullayevə mənsub olan neftçıxarma firmalarının müəssisələrində 1 mln-dan 10 mln pudadək neft hasil olunurdu. 10 mln puddan çox neft çıxaran müəssisələr qrupunda isə Azərbaycan kapitalı, ümumiyyətlə təmsil olunmamışdı. M.Muxtarov podrat qazması üzrə iri firmanın sahibi idi.

Neft sənayesində rus kapitalını V.Kokorev, S.Şibayev, P.Qubonin,A.M.Benkendorf və başqaları, erməni kapitalını isə A.Mantaşev və Mirzəyev qardaşları təmsil edirdilər.

XX yüzilliyin əvvəlinə yaxın neftayırma sənayesində də burjuaziyanın milli qruplarının mövqeləri dəyişikliklərə uğradı. Bu, hər şeydən əvvəl 1901-1903-cü illər iqtisadi böhranının, yerli müəssisələrin rəqabətə dözümsüzlüyünün, onların kiçikliyinin və kifayət qədər mütəşəkkil olmamasının nəticəsi idi.

Neftayırma və onunla əlaqədar olan kimya istehsalı sahəsində Azərbaycan kapitalı Ş.Əsədullayev, M.Nağıyev, İ.Hacınski, M.Ə. Səlimxanov və başqalarının müəssisələri ilə təmsil olunmuşdu.

Neft hasilatı və emalı sahələrində gedən təmərküzləşmə prosesi, neft inhisarlarının meydana çıxması, yüzilliyin sonuna yaxın neft maqnatlarının iqtisadi və siyasi mövqelərinin güclənməsinə gətirib çıxardı. Onlar iri sənaye kapitalının digər nümayəndələri ilə birlikdə burjuaziyanın yuxarı təbəqəsinə çevrildilər.

Bakı rayonunda cəmlənmiş metal emalı müəssisələri sahiblərinin də tərkibi çoxmillətli idi. Azərbaycan kapitalı sənaye istehsalının bu mühüm sahəsində kifayət qədər geniş təmsil olunmuşdu. XIX yüzilliyin sonunda M.Muxtarovun, Cavanşirov qardaşlarının, A.A.Dadaşovun tərsanə emalatxanaları iri metal emalı müəssisələri sırasında idi.

Metal emalında rus kapitalı S.M.Şibayev, S.M.Rısev və F.A. Lyapinin müəssisələri, "Qafqaz və Merkuri" gəmiçilik cəmiyyətinin emalatxanaları, xarici kapital isə Levenson, A.F.Berinq, K.F. Eyzenşmidt və digər müəssisələrlə təmsil olunmuşdu.

"Nobel qardaşları" şirkətinə iri mexaniki emalatxanalar məxsus idi. Alman kapitalına məxsus olan və elektrik enerjisi sahəsində aparıcı mövqe tutan "Elektriçeskaya sila" cəmiyyətinin səhmlərinin xeyli hissəsi H.Z.Tağıyevin əlində idi.

Azərbaycan kapitalı yüngül, yeyinti və bəzi digər sənaye sahələrində geniş təmsil olunmuşdu. Məsələn, ipək sənayesinin inkişafı, başlıca olaraq Azərbaycan milli kapitalı ilə bağlı idi. XX yüzilliyin əvvəllərində ipəkçilik sənayesinin ən mühüm rayonunda - Nuxada müəssisələrin $^{2}/_{3}$ hissəsi azərbaycanlı kapitalistlərə məxsus idi.

XIX yüzilliyin sonunda Şimali Azərbaycanda inkişaf edən pambıqçılığın əsasında yeni sənaye sahəsi - pambıqtəmizləmə müəssisələri meydana çıxdı. Bu kapitalist müəssisələrinin xeyli hissəsi Azərbaycan kapitalistlərinə məxsus idi. 1900-cü ildə tikilən və H.Z.Tağıyevə məxsus olan Bakı pambıq emalı fabriki Azərbaycanda ilk pambıqtəmizləmə müəssisəsi idi.Tənbəki fabrikləri də yerli kapitalın nümayəndələrinə məxsus idi.

1847-ci ildən 1881-ci ilədək olan dövrdə böyük qazanc götürmüş 6 nəfər yerli sahibkar növbə ilə balıq sənayesində ağalıq etmişdi.Bunların içərisində sonralar Bakı rayonunda iri neft

sənayeçilərinə çevrilmiş Mirzəyev və Mantaşev seçilirdi. XIX yüzilliyin sonuna yaxın bu sahəni idarə edən 10-12 ən iri sahibkarın içərisində azərbaycanlılar cəmisi 4 nəfər (H.Z.Tağıyev, Sultanov, Əhməd Mustafa oğlu, Ağa Mustafa oğlu) idi.

Azərbaycan kapitalı şərabçılıq və araqçəkmə sənayesində təmsil olunmamışdı.Burada yerli alman kolonistləri (Forer qardaşları, Hummel) və erməni kapitalistlərinin nümayəndələri ağalıq edirdilər.

Azərbaycan burjuaziyası Xəzər gəmi sahibləri içərisində mühüm yer tuturdu. XIX yüzilliyin sonunda bütün Xəzər ticarət donanmasındakı gəmilərin 44,4%-i və bütün donanmanın yük götürmə imkanlarının 42,1%-i onlara məxsus idi.

Milli kapital Bakı, Şamaxı, Gəncə, Nuxa, Şuşa, Naxçıvan və digər şəhərlərdə ticarət burjuaziyasının əllərində cəmləşmişdi.Ticarət burjuaziyasının əsas kütləsi isə daha çox Bakıda cəmləşmişdir.

Azərbaycan kapitalının nümayəndələri, demək olar ki, bütün taxıl, baqqaliyyə malları, yun, dəri məmulatları, meyvə və topdansatış ticarətini öz əllərində cəmləşdirmişdilər. Neft və neft məhsulları, metal və metal məmulatları, meşə materialları ticarətində xarici və rus ticarət kapitallarının mövqeləri daha geniş idi.

1874-cü ildə açılmış ilk kredit müəssisəsinin - Bakı Qarşılıqlı Kredit Cəmiyyətinin təsisçiləri Azərbaycan burjuaziyasının orta kapitalist təbəqələri idi.

XIX yüzilliyin sonuna yaxın Bakıda artıq Rusiyanın Səhmdar Kommersiya Banklarının şöbələrindən ibarət olan 15 bank müəssisəsi və 5 bank kontoru vardı. Gəncə, Şuşa, Nuxa, Gədəbəy və digər yerlərin sənayeçiləri, tacirləri və kənd burjuaziyası dövlət bankının Tiflis şöbəsindən və Tiflis şəhərinin digər kredit müəssisələrindən kredit götürürdülər.

Kredit bank müəssisələrinin mövcudluğu burjuaziyanın təbəqələşməsinə, onun yuxarı təbəqəsinin zənginləşməsinə və

qüvvətlənməsinə şərait yaradırdı. Kapitalist münasibətlərinin kənddə inkişafı ilə əlaqədar kənd burjuaziyası da formalaşırdı. Kənddə təbəqələşmə prosesi kənd varlılarının və qolçomaqların ayrılmasına gətirib çıxardı.

Ən yaxşı kəndli pay torpaqları, ictimai sudan istifadə hüququ, böyük miqdarda iş heyvanı və məhsuldar mal-qara, təkmilləşdirilmiş kənd təsərrüfatı alətləri kənd varlılarının və qolçomaqların əllərində cəmləşmişdi.Müxtəlif istehsal proseslərində qolçomaq təsərrüfatları muzdlu əməkdən getdikcə daha geniş istifadə edirdi.

Beləliklə, XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanda çoxmillətli burjuaziya formalaşırdı.

Fəhlə sinfinin yaranması. XIX yüzilliyin ikinci yarısında sənaye kapitalizminin inkişafı burjuaziyanın yaranması ilə eyni zamanda fəhlə sinfinin formalaşması prosesi gedirdi. Fəhlə sinfinin formalaşması prosesinə bu diyardakı sosial-iqtisadi münasibətlər, əhalinin sosial və milli tərkibinin özünəməxsus xüsusiyyəti, çarizmin müstəmləkə siyasəti ilə bağlı olan yerli cəhətlər də öz təsirini göstərmişdir.

Yüzilliyin ortalarında fəhlə kadrlarının əmələ gəlməsi prosesi hələ çox ləng gedirdi. Bu proses kapitalist xarakterli sadə kooperasiya müəssisələrində, manufakturalarda, ilk fabrik və zavodlarda başlanmışdı. Lakin fəhlələrin sayı çox az idi. Neft və duz mədənlərində, balıq vətəgələrində mövcud olan iltizam sistemi, bir sıra kəndlərin sakinlərinin məcburi əməyindən istifadə edilməsi fəhlələrin artımını ləngidirdi.

1864-cü ildə neft çıxarılmasında kəndlilərin məcburi əməyinin ləğvindən sonra fəhlələrin muzdla tutulması sisteminə keçid fəhlələrin sayının artmasına təkan verdi. Lakin 70-ci illərin başlanğıcınadək fəhlələrin sayı çox ləng artırdı. 1873-cü ildə, yəni artıq iltizam sisteminin ləğvindən sonra fəhlələrin sayı 700 nəfərdən

çox idi. Beləliklə, fəhlələrin sayının artmasının sürətlənməsi özünü göstərməyə başlayırdı.

Bakının neftayırma zavodlarında 70-ci illərin əvvəllərinə yaxın 328 daimi və onlarla müvəqqəti fəhlə, 1883-cü ildə isə 607 fəhlə çalışırdı. 70-ci illərin əvvəllərində Bakının digər müəssisələrində 1000 nəfərdən bir qədər çox və donanmada isə 2000 nəfərədək fəhlə işləyirdi.

Fəhlə kadrları Bakı və Yelizavetpol quberniyalarının qəzalarında da formalaşırdı. 70-ci illərin əvvəllərində Gədəbəy mis mədəni və misəritmə zavodunda təxminən 1,8 min nəfərdən çox, Nuxa, Şuşa və bəzi digər qəzaların ipəksarıma müəssisələrində təxminən 2 min nəfər, balıq vətəgələrində 1,5 min nəfərədək, kənd təsərrüfatı xammalı emal edən müəssisələrdə isə bir neçə min nəfər fəhlə çalışırdı.

Şimali Azərbaycanın sənaye və nəqliyyat sahəsində kapitalist müəssisələrində çalışan fəhlələrin ümumi sayı o dövrdə 10-11 min nəfərə çatırdı. Lakin onların yarısından çoxu sənayedəki mövsümi işi kənd təsərrüfatı əməyi ilə əlaqələndirirdi. Buna görə də daimi fəhlələrin, yəni başlıca məşğuliyyəti sənaye və nəqliyyatdakı iş olan fəhlələrin sayı təxminən 4-5 min nəfər idi.

70-ci illərdən etibarən Şimali Azərbaycanda fəhlələrin sürətlə təşəkkül tapması dövrü başladı. Bu, sənaye kapitalizminin sürətli inkişafı ilə bağlı idi. Belə inkişafın ardınca labüd olaraq, o dövrün ictimai istehsal münasibətlərinin ən kəskin surətdə dağılması prosesi başlayırdı. Neftçi fəhlələrin artım sürəti yüksəlirdi. İnkişaf edən sənaye və nəqliyyatın fəhlə qüvvəsinə böyük ehtiyacı vardı.Bu tələbat kəsbkar kəndlilərin, var-yoxdan çıxmış sənətkarların, habelə fəhlələrin ailə üzvlərinin sənaye və nəqliyyata cəlb olunması hesabına ödənilirdi.

Fəhlə kadrlarının formalaşmasının ən mühüm sosial mənbəyi kəndlilər idi. İslahatdan sonrakı dövrdə kəsbkarların kənddən sənaye müəssisələrinə və nəqliyyata axını qüvvətləndi.

Azərbaycan kəndindən sakinlərin kəsbkarlığa getməsi həm kəndlilərin kapitalistcəsinə təbəqələşməsinin, həm də onların kütləvi surətdə müflisləşməsi və var-yoxdan çıxmasının nəticələrindən törəyirdi.

Pauperləşmiş kəndli axınının mühüm hissəsi şəhərlərə yönələrək fəhlələrin sıralarını doldururdu. Azərbaycan kəndindən olan kəsbkarların əksəriyyəti uzun müddət ərzində öz pay torpaqlarını qoruyub saxlayırdı. Pay torpaqlı muzdlu fəhlələr sayca sənaye fəhlələri sıralarının dolmasının başlıca mənbəyini təşkil edirdi.

Rusiya quberniyalarından və digər rayonlardan Şimali Azərbaycanın sənayesinə gələn kəsbkarların da əksəriyyəti kəndlilərdən ibarət idi. Kəsbkarların çoxu sənaye müəssisələrində bir müddət işlədikdən sonra vətənə qayıdır, digər hissəsi isə burada qalaraq mədən və zavodlarda kök salırdı.

Fəhlə kadrlarının digər formalaşma mənbəyini sənətkarlar və kustarlar təşkil edirdi. Onların çoxu yerli kustar sənətlərin sənaye tərəfindən sıxışdırılıb aradan çıxarılması ilə əlaqədar olaraq müflisləşir və sənaye istehsalına cəlb olunurdular. Lakin bunların sayı o qədər də çox deyildi.

Şimali Azərbaycan fəhlə kadrlarının formalaşmasının ən mühüm xüsusiyyətlərindən biri onun sıralarına fəhlələrin və yarımproletar ünsürlərin axını idi. Sonunculara, hələ islahata qədərki dövrdə sənaye istehsalına cəlb olunmuş kəndlərin bir çox sakinləri və qismən də Abşeron kəndlərinin nəsilbənəsil neft mədənləri ilə bağlı olan əhalisi aid idi.

Şimali Azərbaycanda fəhlə sinfinin sıralarının genişlənməsi fəhlələrin öz sosial mühitlərində baş verən artımın hesabına da

gedirdi, yəni fəhlə ailələrində fəhləliklə məşğul olan ailə üzvlərinin sayı get-gedə artır, qadınlar və uşaqlar da istehsala cəlb olunurdular.

Sənayeni, nəqliyyatı və xidmət sahələrini fəhlə qüvvəsi ilə təmin edən rayonlardan fəhlələrin sayına görə Cənubi Qafqaz mühüm yer tuturdu. 1897-ci il əhali sayımının məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyalarındakı fəhlələrin 66,1%-ni Cənubi Qafqazdan gələnlər təşkil edirdilər.

Dağıstandan da minlərlə kəsbkar qazanc dalınca Şimali Azərbaycanın sənaye müəssisələrinə axışırdı. 1897-ci ildə onlar Bakı və Yelizavetpol quberniyalarındakı fəhlələrin 5%-ni təşkil edirdilər.

Bir tərəfdən, sənaye və nəqliyyatın işçi qüvvəsinə kəskin ehtiyacı, digər tərəfdən isə kəndlilərin kütləvi surətdə müflisləşməsi və Rusiyanın bir sıra quberniyalarında böyük əmək ordusu ehtiyatı mövcud olduğu şəraitdə, on minlərlə kəndli oradan qazanc dalınca Şimali Azərbaycana, xüsusən də Bakı sənaye rayonuna yola düşürdülər.

Fəhlə kadrların formalaşmasının xüsusiyyətlərindən biri onun sıralarının Cənubi Azərbaycan kəndlilərinin nümayəndələri hesabına artması idi. Hakim təbəqə tərəfindən zəhmətkeşlərin istismarı, sənayesi yenicə formalaşmağa başlayan İranın şəhərlərində iş tapmaq imkanının olmaması onları kütləvi şəkildə Cənubi Qafqaza, xüsusən də Şimali Azərbaycana kəsbkarlığa getməyə məcbur edirdi.

Şimali Azərbaycan, Rusiya, Gürcüstan, Ermənistan, Dağıstan və xüsusən də Cənubi Azərbaycandan olan minlərlə kəsbkar bir neçə il Bakı və Yelizavetpol quberniyalarının fabrik və zavodlarında, nəqliyyatında və digər sənaye sahələrində işlədikdən sonra burada məskən salır, fəhlə kadrlarına çevrilirdilər. Bu da Şimali Azərbaycan fəhlələrinin formalaşması prosesinə çoxmillətlilik xarakteri verirdi. Neft və digər sənaye sahələrinin, nəqliyyatın sürətli inkişafı, fəhlələrin sayının surətli artımına şərait yaradırdı.

1897-ci il əhali sayımının məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyalarında fəhlələrin sayı (kənd təsərrüfatı fəhlələri istisna edilməklə) 78 min nəfərə bərabər idi. Bakı quberniyasında 55 minə yaxın, Yelizavetpol quberniyasında isə 23 min fəhlə çalışırdı. Lakin bu məlumatlar natamam olub, müvəqqəti fəhlələrin çoxunu, dənizçi fəhlələri və digərlərini əhatə etmirdi.

Bakı fəhlələrinin sayı xüsusən sürətlə artırdı. 1887-1897-ci illərdə fəhlə kadrları sayının artım sürətinə görə neft sənayesi Rusiyanın dağ-mədən sənayesi sahələri içərisində birinci yeri tuturdu.

1900-cü ildə Şimali Azərbaycan fəhlələrinin sayı 100-110 min nəfərə bərabər idi.

Şimali Azərbaycanda fəhlə kadrları qeyri-bərabər şəkildə yerləşirdi. Yüzilliyin sonuna yaxın Bakı sənaye rayonu ən iri sənaye və fəhlə mərkəzi idi. Bakı fəhlələri Şimali Azərbaycan fəhlələrinin əsas qüvvəsini və aparıcı dəstəsini təşkil edirdi. Həmçinin 2 min nəfər fəhlənin çalışdığı Gədəbəy mis filizi və misəritmə sənayesi rayonu, müvafiq surətdə 3 minə qədər və min nəfərədək fəhləni cəmləşdirən Nuxa və Şuşa ipək emalı sənayesi rayonları, 11,5 min nəfərdən çox fəhlənin çalışdığı balıq vətəgələri də seçilirdilər. Fəhlə kadrları dəmir yolunda, bir sıra qəzaların kənd təsərrüfatı xammalının emalı müəssisələrində də formalaşırdı.

Fəhlə kadrlarının xüsusiyyətlərindən biri sənaye, nəqliyyat və tikinti fəhlələri içərisində qadınların xüsusi çəkisinin aşağı olması idi. Qadın əməyindən ipək emalı sənayesində və xüsusən də xidmət sahəsində nisbətən daha geniş istifadə olunurdu.1897-ci il sayımının məlumatlarına görə, Bakı və Yelizavetpol quberniyaları fəhlələri içərisində qadınlar cəmisi 8,7% təşkil edirdilər, halbuki Rusiya imperiyası üzrə bu göstərici orta hesabla 32%-ə bərabər idi.

Şimali Azərbaycan fəhlə sinfinin ən mühüm xüsusiyyətlərindən biri də onun çoxmillətli tərkibi idi. Sənaye istehsalının müxtəlif

sahələrində azərbaycanlılar, ruslar, ermənilər, gürcülər, dağıstanlılar, ukraynalılar,Rusiyada yaşayan digər millət və xalqların nümayəndələri çalışırdılar. 1900-cü ildə sənayenin aparıcı sahəsində - neft sənayesində azərbaycanlı fəhlələrin xüsusi çəkisi 33,8%, rus fəhlələrinki 19,5%, erməni fəhlələri 25,3%, dağıstanlı fəhlələr 13,5% və qeyri fəhlələr 7,9% təşkil edirdi.

Azərbaycanlı fəhlələr Şimali Azərbaycanın digər istehsalat sahələrindən mis istehsalında, ipək sənayesində, bitki və heyvan məhsulları emalında qara və günəmuzd fəhlələr içərisində sayca üstünlük təşkil edirdilər. Nəqliyyat və yükdaşıma sahəsində, habelə balıq vətəgələrində fəhlələrin çox hissəsi azərbaycanlıların payına düşürdü.

Şimali Azərbaycanda fəhlələrin xeyli hissəsini rus fəhlələri təşkil edirdi. 1900-cü ildə neft emalı və mexaniki emalatxanalarda onların xüsusi çəkisi böyük idi. Kükürd turşusu və soda zavodlarında da fəhlələrin əksəriyyəti ruslar idi.

Sənaye kapitalının təmərküzləşməsinin güclənməsi XIX yüzilliyin sonuncu onilliyində iri kapitalist müəssisələrində fəhlələrin də təmərküzləşməsi prosesini sürətləndirdi. Bakı quberniyasında fəhlələrin təmərküzləşmə göstəriciləri nisbətən daha yüksək idi. Burada qeydə alınmış fəhlələrin 48,6%-i 100 nəfərdən artıq olan müəssisələrdə çalışırdı.Təmərküzləşmə səviyyəsinə görə, Bakı neftçıxarma sənayesi Rusiyada ilk yerlərdən birini tuturdu.

Yelizavetpol quberniyasında mis-filiz və misəritmə, habelə ipək sənayesi fəhlələrin yüksək təmərküzləşmə səviyyəsi ilə fərqlənirdi.

Beləliklə, XIX yüzilliyin 70-90-cı illərində Şimali Azərbaycanda intensiv surətdə fəhlə sinfinin formalaşması prosesi gedir, əksər hissəsi kənd təsərrüfatı ilə əlaqələrini kəsmiş, iri müəssisələrdə cəmlənən, illər boyu sənaye və nəqliyyatda çalışan sənaye fəhlə kadrları yaranırdı.

Azərbaycan millətinin təşəkkülü. XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanda kapitalizmin inkişafı, iqtisadi və mədəni mərkəzlərin yüksəlişi, ümumi bazarın yaranması, cəmiyyətin strukturunun dəyişməsi, milli burjuaziyasının və fəhlə sinfinin formalaşması - bütün bu proseslər Azərbaycan millətinin təşəkkülünün obyektiv şərtləri oldu.

Azərbaycan milləti feodal pərakəndəliyinin ləğv edilməsi prosesində, iqtisadi birliklə dil, ərazi, mədəniyyət, şüur və psixoloji birliyin qovuşması əsasında meydana gəlir və inkişaf edirdi.

İqtisadi əlaqələrin möhkəmlənməsinin vacib şərti Azərbaycan millətinin ərazi birliyi idi. Əsrlər boyu Azərbaycan xalqı şimalda Böyük Qafqaz dağlarından, cənubda Qızıl Üzən çayına qədər, şərqdə Xəzər dənizindən, qərbdə Ermənistan və Gürcüstana qədər olan ərazidə məskunlaşmışdır. Yadelli işğalçılara qarşı uzunmüddətli mübarizənin gedişində Azərbaycan xalqı öz dövlətçiliyini, öz ərazi birliyini yaratmışdı. Bununla belə Azərbaycan ərazisi iki dövlət - Rusiya və Qacarlar arasında bölüşdürüldüyündən, Azərbaycan millətinin təşəkkülü prosesi özünəməxsus şəraitdə getmişdi.

XIX yüzilliyin ikinci yarısı sənətkarlıq, sənaye, kənd təsərrüfatı sahələrində natural istehsalın ictimai istehsala çevrildiyi bir dövr idi. Kapitalizmin inkişafı nəticəsində Azərbaycan iqtisadiyyatının dünya bazarına cəlb edilməsi onun iqtisadi birliyinin təşəkkülünü şərtləndirirdi.

Bu cəhətdən Bakı şəhəri mühüm əhəmiyyət kəsb edirdi. Neft və onunla bağlı digər sənaye və ticarət sahələrinin yüksəlişi, mədəniyyətin inkişafı şəhərin görkəmini və orada yaşayan əhalinin tərkibini dəyişdirdi. Bakı çox böyük kapitalist şəhəri, Azərbaycan millətinin təşəkkülünün başlıca mərkəzi oldu.

Dəmir yollarının çəkilişi, dəniz nəqliyyatının inkişafı, rabitə yollarının yaxşılaşdırılması və digər amillər feodal münasibətlərinin

dağılmasına, kənd təsərrüfatı sahələrinin ixtisaslaşmasına, bazar üçün istehsalın genişlənməsinə yardım göstərdi ki, bu da əmtəə istehsalının və kapitalist münasibətlərinin inkişafını sürətləndirdi.

Bu dövrdə iri kapital sahibləri olan azərbaycanlılar bir sıra mühüm təsərrüfat sahələrinin inkişafında müəyyənedici rol oynayırdılar. Xəzər dənizi nəqliyyatında, ipək və tütün sənayesində, müxtəlif liflərin emalında, çəltiktəmizləmə, kərpic, mexaniki istehsal sahələrində milli kapitalın xüsusi çəkisi yüksək idi.

Formalaşmaqda olan Azərbaycan millətinin aparıcı qüvvəsinin əsasını Bakıda və digər şəhərlərdə olan iri sənaye, sənətkar müəssisələrinin, gəmilərin sahibləri, iri ev sahibləri, tacirlər, ziyalılar təşkil edirdi.

Şimali Azərbaycan aqrar ölkə idi və onun əhalisinin böyük hissəsi kənd təsərrüfatı ilə məşğul olurdu. Buna görə də azərbaycanlıların burjua milləti kimi təşəkkülü heç də yalnız yeni sənaye mərkəzləri ilə deyil, həm də yeni, intişar edən kənd təsərrüfatı istehsalı ilə də bağlı idi.

Kənd təsərrüfatı istehsalının özündə burjua cəmiyyətlərinə xas olan meyillər üzə çıxır, təsərrüfatın kapitalist formasına keçməsi baş verir, kənd burjuaziyası nümayəndələrinin fəaliyyəti genişlənirdi. Bu dövrdə kənd təsərrüfatının əsas sahələri - pambıqçılıq, ipəkçilik, tütünçülük - bütövlükdə, taxılçılıq, bağçılıq, heyvandarlıq --nisbətən kapitalist istehsalı dövriyyəsinə cəlb olunmuşdu.

Əmtəə-kapitalist istehsalının, ticarət əkinçiliyinin inkişafı qəzalar arasında sıx iqtisadi əlaqələrin yaranmasına, kənd təsərrüfatında kapitalizmin inkişafına şərait yaradırdı. Bu inkişaf kəndlilərin təbəqələşməsi ilə müşayiət olunur, qolçomaqlar, xırda burjua, sələmçi-möhtəkirlər, kənd dükançıları, öz təsərrüfatlarını kapitalist qaydaları əsasında quran bəylər təşkil edən kənd burjuaziyası formalaşırdı. İstehsal vasitələrindən məhrum olmuş,

bununla əlaqədar qazanc dalınca getməyə və yaxud muzdla varlılara işləməyə məcbur olan muzdurlar, kənd fəhlələrinin yaranması baş verirdi ki, bu da əkinçilik kapitalizminin göstəricisi idi. Azlıq təşkil edən varlıların təsərrüfatının inkişafı, minlərlə kəndlinin müflisləşməsi və muzdurların sırasına keçməsi - Azərbaycan kəndinin kapitalist təkamülünün mahiyyəti məhz belə idi.

Beləliklə, XIX yüzilliyin sonunda əmtəə-pul münasibətlərinin intensiv inkişafı nəticəsində Azərbaycan kəndində qapalılığın köhnə dayaqları dağılır, daxili əlaqələr yaranır və möhkəmlənir, kənddə keyfiyyətcə yeni təbəqələr - kənd burjuaziyası və fəhlələri meydana gəlirdi. Kəndin bütün ölkə ilə daimi iqtisadi əlaqələrə cəlb edilməsi Azərbaycan millətinin təşəkkülü prosesinin ümumi xarakter kəsb etməsini göstərirdi.

Millətin əsas səciyyəvi cəhətlərindən biri dil məsələsi idi.Bu zaman Azərbaycan dili insanların ünsiyyət vasitəsi kimi onların ümummilli dili idi. İqtisadi və mədəni mərkəzlərin yaranması, əhalinin sosial-iqtisadi fəallığının artması, ölkənin ayrı-ayrı rayonları arasında iqtisadi və mədəni əlaqələrin güclənməsi Azərbaycan milli dilinin inkişafı üçün şərait yaradırdı. Azərbaycan dilində ilk qəzet olan "Əkinçi"nin nəşri, mətbuatın inkişafı, Azərbaycan ədəbiyyatında M.F.Axundov kimi nəhənglərin əsərlərində əks olunan demokratik cərəyanın formalaşması milli dilin inkişafına təkan vermişdir.

Bütün islam dünyasına, o cümlədən Azərbaycan ictimai mühitinə təsiri olan görkəmli mütəfəkkir Şeyx Cəmaləddin Əfqaninin (1836-1897) fikrincə, bütün islam aləminin yaşaya bilməsi üçün müsəlman millətlərinin milli şüura sahib olması vacibdir.Əfqani islam aləminə öz düşüncələri ilə səmərəli toxumlar səpmiş, türklərdə milli fikrin inkişafına xidmət etmişdir. O, islam aləminin yaşaya bilməsini, inkişaf etməsini müsəlman xalqlarının şüurlu olmaları, tərəqqi və inkişaf etmələri ilə bağlayırdı. Onun gəldiyi nəticə bu idi ki, milliyyət

xaricində səadət yoxdur.Əfqaninin düşüncəsinə görə, fərdləri bir-biri ilə bağlayan iki bağ vardır: dil və din birliyi. Dil birliyi daha sabitdir, davamlıdır, qısa müddətdə dəyişmir. Lakin elə irqə rast gəlirik ki, dil birliyini saxlamaqla iki-üç din dəyişir.

Beləliklə,Cəmaləddin Əfqani din birliyinə dayanan "ittihad-islam"dan fərqli olaraq dil birliyi əsasında qurulan milliyyətə əhəmiyyət vermişdir. Dil faktoru dinə nisbətən insanların birliyini daha davamlı və uzunömürlü edir.Əfqaninin bu tezisi İ.Qaspiralı tərəfindən "Rusiya müsəlmanları ittifaqı" qurultayına təklif edilən və "Tərcüman "(1883-1918) qəzetində təbliğ edilən "dildə birlik" tezisinin əsasları ilə uyğun gəldiyini görürük. Hər ikisinə görə, dil milli birliyin əsasını təşkil edir. Yanlız bir fərqlə ki, Əfqanidə milli birlik dini birliyə qarşı bir antitezis kimi dilə gətirilmiş, ümmətin (dini inanc əsasında birləşən insan toplusu) millətdən ayrı sosial məsələ olduğu irəli sürülmüşdür. "Müsavat" partiyasının I Qurultayında (1917-ci il) qəbul edilən proqramda bu cəhət belə formulə edilmişdir: "Yanlız din birliyi müasir məna ilə bir millət təşkil edə bilməz. Milliyyəti təşxis edən (tanıdan) müştərək əlamətlərin başlıcası dil, adətlər və ədəbiyyatdır. Bu nöqteyi-nəzərdən bütün türklər bir millətdir.

Milli mədəniyyətin özünəməxsusluğu Azərbaycan xalqının vərdişlərində, ənənələrində, məişətində əks olunurdu. Azərbaycan ədəbiyyatının M.F.Axundov, C.Məmmədquluzadə, Ə.Haqverdiyev. N.Vəzirov, H.Zərdabi, N.Nərimanov kimi bir çox görkəmli nümayəndəsi mədəniyyəti yeni ideya məzmunu ilə zənginləşdirir, demokratik istiqaməti inkişaf etdirirdilər.

Məlumdur ki, Rusiyada çar hökuməti tərəfindən "Azərbaycan" və "azərbaycanlı" terminlərinin işlədilməsi vətəndaşlıq hüququ qazanmamışdır. Azərbaycanlıları müsəlman, türk, tatar

adlandırırdılar. Lakin Azərbaycan ideyası Azərbaycan ziyalıları tərəfindən yaşadılırdı.

İlk dəfə M.F.Axundovun işlətdiyi "millət" anlayışının ədəbiyyatda və mətbuatda meydana çıxması XIX yüzilliyin ikinci yarısına aiddir. 80-cı illərdə nəşr olunan və öz səhifələrində Azərbaycan milliyyəti ideyasını geniş təbliğ edən "Kəşkül" qəzeti isə ilk dəfə "Azərbaycan milləti" anlayışını işlətdi.

1891-ci ildə "Kaspi" qəzetində Məhəmməd ağa Şaxtaxtlı "Cənubi Qafqaz müsəlmanlarını necə adlandırmalı" məqaləsində bu türkdilli millətin azərbaycanlı olduğunu bildirmişdir.1892-ci ildə Kamal Ünsizadə xalqımızda milli şüuru oyatmaq məqsədi ilə "Azərbaycan" adlı qəzet çıxarmağa təşəbbüs göstərmiş, ancaq çar hökuməti buna icazə verməmişdi.

Beləliklə, XIX yüzilliyin ikinci yarısında intensiv olaraq azərbaycanlıların millət kimi formalaşması prosesi gedirdi.

XV FƏSİL
CƏNUBİ AZƏRBAYCAN XIX YÜZİLLİYİN BİRİNCİ YARISI - XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ

Siyasi, sosial-iqtisadi vəziyyət. XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycan Rusiya tərəfindən zəbt edildikdən sonra Azərbaycanın cənub torpaqları İranın hakimiyyəti altına düşdü. Bu gün Cənubi Azərbaycan adlandırdığımız ərazi istər əhali, istərsə də rəsmi dairələr tərəfindən sadəcə olaraq Azərbaycan və ya İran Azərbaycanı, orada və ölkənin bütün başqa rayonlarında yaşayan, etnik mənşəyi, dili, dini və adət-ənənələrinə görə Şimali Azərbaycanda yaşayan azərbaycanlılarla eyniyyət təşkil edən əhali isə türklər və ya İran türkləri adlandırılır.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündən onun dövlət parlamenti özünün ilk rəsmi bəyannaməsində Azərbaycan adını işlətmişdir. Bu isə İran tərəfinin eirazına səbəb oldu. Tehran rəsmi dairələri belə hesab edirdilər ki, yeni respublika rəhbərləri başda Təbriz olmaqla, İran Azərbaycanını Türkiyəyə vermək məqsədi güdürlər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İranın bu qorxusunu aradan qaldırmaq üçün rəsmi dövlət sənədlərində «Qafqaz Azərbaycanı» adını işlətməli oldu. 1920-ci il aprelin 28-dən sonra bu ad «Sovet Azərbaycanı» ilə əvəz edildi və beləliklə də «Sovet və ya Şimali Azərbaycan», «İran və ya Cənubi Azərbaycan» terminləri siyasi məna kəsb etməyə başladı.

Siyasi status qazanmış «Cənubi Azərbaycan» məfhumunun sovet rəsmi dairələrində, elmi ədəbiyyatlarda işlədilməsinə Tehran rəsmi dairələri müsbət yanaşmır, bunu «sosialist inqilabının ixracı və yaxud da «İranın daxili işlərinə qarışmaq» kimi qiymətləndirirdilər.

Həqiqətdə isə «Cənubi Azərbaycan» və «Şimali Azərbaycan» termini eyni etnik mənşə, dil, din və adət-ənənəyə malik xalqın məskunlaşdığı ərazinin ikiyə bölündüyü gündən (10 fevral 1828-ci il) meydana gəlmiş, ilk öncə coğrafi məna kəsb etsə də, yenə də siyasi xarakter daşımışdır.

İrana qatıldıqdan sonra ölkənin dörd əyalətindən birini təşkil edən Azərbaycan əyaləti ərazisinə ilk dövrlərdə cənubda Həmədan, cənub-şərqdə Zəncan və Qəzvin mahalları da daxil idi. Sonralar Azərbaycan əyalətinin inzibati sərhədləri daraldılmış və 1906-cı ildə qəbul olunmuş seçki nizamnaməsində bu əyalətə Təbriz, Urmiya, Xoy, Deyləmqan, Maku, Marağa, Binab, Miyandoab, Sovucbulaq, Dehxarqan, Mərənd, Əhər, Ərdəbil, Meşkin, Astara, Xalxal, Sərab, Miyanə və Sainqala mahalları daxil edilmişdir.

Say etibarilə həmişə farslardan sonra ikinci yerdə dayanan azərbaycanlılar əsasən Cənubi Azərbaycan ərazisində yaşayırdılar.

Gülüstan müqaviləsindən sonra İran hökuməti Cənubi Azərbaycan əyalətində bir sıra nüfuzlu və qüvvətli xanların hakimiyyətini tanımaqla, onları ayrı-ayrı xanlıqların hakimi təyin etdi və daxili müstəqilliklərini saxlamalı oldu. Dövlət bu xanlıqların daxili işlərinə qarışmır, onlardan vergi və əsasən silahlı qüvvə tələb edirdi. Qacarların hakimiyyəti dövründə (1736-1925) İran ordusunun əsas piyada və atlı hissələri məhz Cənubi Azərbaycanın müxtəlif təbəqələrindən toplanan qüvvələr idi.

Cənubi Azərbaycanda Maku, Urmiya, Nəmin və Gərgər kimi güclü xanlıqları istisna etməklə, qalanları tamamilə ləğv olundu. Dövlət keçmiş xanlıqların yerinə ayrı-ayrı vilayətlərə lazım bildiyi adamları hakim təyin edirdi. Əyalətdə vali vəzifəsindən tutmuş vilayət hakimlərinədək şəxslər əsasən mərkəzdən göndərildiyinə

görə, yerli xanların Qacarların narazılığına səbəb olurdu.

Fətəli şahdan başlayaraq Qacar şahlarının daxili siyasətində Cənubi Azərbaycan xüsusi yer tuturdu. Fətəli şah zamanında Cənubi Azərbaycan «vəliəhdneşin» (vəliəhd əyləşən yer) hesab edilmiş, «darüssəltənə» (səltənət evi) adlandırılan Təbrizdə isə bundan sonra həmişə Qacarların rəsmi vəliəhdləri oturmuşdular. Bu isə, şübhəsiz Azərbaycanın İran üçün iqtisadi, xüsusilə də siyasi əhəmiyyətindən doğurdu. Cənubi Azərbaycan, xüsusilə Təbriz dövlətin xarici siyasətində mühüm rol oynayırdı. Belə ki, vəliəhd burada oturduğu və Təbriz bir növ ikinci paytaxt olduğu üçün xarici diplomatik nümayəndələrin də iqamətgahı ilk dövrdə Təbriz hesab edilirdi.

1828-ci ilin fevralında Türkmənçay müqaviləsi bağlandıqdan və İranla Rusiya arasında diplomatik münasibətlər bərpa edildikdən sonra İrana göndərilən Rusiyanın səlahiyyətli səfirinin iqamətgahı ilk dövrdə Təbriz şəhərində idi. Bundan əlavə Rusiya və Türkiyənin Baş konsulluqları da Təbrizdə yerləşirdi.

Əyalətin idarə olunmasına rəhbərlik rəsmən vəliəhdin ixtiyarında idi, əslində isə bu işi adətən şahzadələr içərisindən təyin olunan vali (qaimməqam) aparırdı. Valinin sərəncamında olan böyük idarə aparatında Təbriz şəhərinin bəylərbəyi, əyalətdə yerləşən bütün nizami qoşun hissələrinin başçısı - əmir nizam, vergilərin toplanması və ümumiyyətlə əyalətin maliyyə işlərinə başçılıq edən mustofi və s. daxil idi. Yerlərdə, yəni ayrı-ayrı vilayətlərdə isə bu göstərilən idarə aparatı nisbətən kiçik miqyasda təkrar edilirdi.

Əyalətin mərkəzi Təbrizə, vilayət və mahallara tə'yin olunan şahzadələr, onların ətrafındakı vəzir, mustofi, məmurlar öz vəzifələrinə gəlir mənbəyi kimi baxır və xalqı soyurdular. Ucqar dağlıq rayonda yerləşən, yaylaq və yarımköçəri təsərrüfatına

malik olan Maku kimi yarımmüstəqil xanlıqda qəbilə birliyinin başında duran tayfa başçıları bütün inzibati-maliyyə işlərini, hərbi-siyasi hakimiyyəti öz əllərində cəmləşdirmişdilər. Onlar təsərrüfat işlərinə rəhbərlik edir, vergi toplayır, lazım gəldikdə isə öz silahlı dəstələri ilə dövlətin xidmətində olurdular.

XIX yüzilliyin birinci yarısında Cənubi Azərbaycanda əhalinin əsas məşğuliyyəti kənd təsərrüfatı - əkinçilik və maldarlıq idi. Təkcə kənd əhalisi deyil, şəhər əhalisinin də bir hissəsi əkinçilik, bağçılıq, bostançılıq və digər kənd təsərrüfatı sahələri ilə məşğul olurdu. Cənubi Azərbaycanda təbii və qismən də süni suvarma əsasında buğda, arpa, çəltik və başqa dənli bitkilərlə yanaşı, texniki bitkilər, o cümlədən pambıq, tütün, gənəgərçək əkilir, barama yetişdirilir, müxtəlif meyvələr becərilirdi. Cənubi Azərbaycan İranda ən məhsuldar taxılçılıq və meyvəçilik rayonlarından biri idi və əyalətdən taxılla yanaşı, quru meyvələr də ixrac edilirdi.

Əhalinin bir hissəsinin əsas məşğuliyyəti maldarlıq idi. Vilayətin iqtisadi həyatında belə bir mövqeyə malik olması burada müxtəlif sənətkarlıq sahələrinin formalaşması və inkişafı üçün geniş imkanlar açırdı.

Rusiya-Qacar müharibələrindən sonrakı dövrlərdə Cənubi Azərbaycanda sənətkarlığın bir çox sahələrinə böyük ziyan dəydi. Belə ki, xarici malların ölkəyə geniş və maneəsiz axını ilə bağlı Azərbaycandakı bir sıra emalatxana və sexlər rəqabətə davam gətirməyərək öz fəaliyyətlərini dayandırmalı oldular.

XX yüzilliyin 20-ci illərinin əvvəllərinə qədər də şəhərlərdə hələ də orta əsrlərə xas olan sex quruluşu qalmaqda davam edirdi. Bütün İranda olduğu kimi, Azərbaycanda da emalatxanalarda adətən 2-3 sənətkar işləyirdi. Muzdlu əməkdən istifadə sənətkarlıq üçün səciyyəvi deyildi. Bununla yanaşı, daxili və xarici bazarda

muzdlu əməkdən istifadə edən manufakturaların yaranması prosesi inkişaf edirdi.

İqtisadi həyatındakı tənəzzülə baxmayaraq Cənubi Azərbaycan İran üçün böyük əhəmiyyət kəsb edirdi, İranın ictimai-siyasi, mənəvi inkişafında mühüm mövqe tuturdu.

XIX yüzillikdə bütün İranda olduğu kimi, Cənubi Azərbaycan iqtisadiyyatında da durğunluq meyli davam edirdi. Bunun da əsas səbəbi bu dövrdə İranın Avropa dövlətləri ilə bağladığı aldadıcı müqavilələr, o cümlədən ticarət müqavilələri və onlardan aldıqları yüksək faizli borclar idi. Ölkə və onun böyük əyalətlərindən olan Azərbaycan İngiltərə və Rusiyanın sənaye mallarının satış bazarına, eyni zamanda bu ölkələrin, başlıca olaraq çar Rusiyasının sənayesini xammalla təchiz edən mənbəyə çevrildi. Beləliklə, İran getdikcə daha yaxından dünya mal mübadiləsinə qoşuldu. Ölkənin ümumdünya bazarına cəlb olunması bəzi sənaye sahələrinin - dağ-mədən sənayesi, kənd təsərrüfatı mallarının ilk emalı ilə məşğul olan sahələrin yaranmasına və inkişafına müsbət təsir göstərdi. Lakin bu asılı ölkələrə xas olan birtərəfli inkişaf idi.

Coğrafi mövqeyinə görə Cənubi Azərbaycanda təbii olaraq çar Rusiyasının nüfuzu daha güclü idi. Rusiya bazarında pambıq, xammal, boyaq maddələri, yun, gön-dəri, həmçinin bəzi sənətkarlıq mallarına olan tələbatın artması həmin sahələrin qismən Azərbaycanda da inkişafına təkan verirdi.

Cənubi Azərbaycanın ticarət əlaqələrinin şimala yönəlməsinə şərait yaradan daha mühüm bir amil də çar Rusiyasının Avropa mallarının Qafqaza daxil olmasını məhdudlaşdırması idi.

Cənubi Azərbaycanda öz varlığını davam etdirən əsas sənətkarlıq sahələrindən biri xalçaçılıq idi. Xalça (xalı) istehsalı sənayenin kapitalist münasibətləri inkişaf etmiş ən başlıca sahəsi

idi.

Təbrizdə, Xalxalda və başqa şəhərlərdə istehsal edilən yun və ipək yaylıqlar, ipək, pambıq parçalar və digər toxuculuq məhsulları həm yerli əhalinin tələbatını ödəyir, həm də digər ölkələrə ixrac olunurdu.

İranda xarici kapitalın və feodal üsuli-idarəsinin hökmranlığı Cənubi Azərbaycanda da milli sənayenin inkişafı üçün çox böyük maneələr yaradırdı. Kənd təsərrüfatının xarici ticarətlə əlaqəsi ona gətirib çıxarmışdı ki, bir çox tacir, sələmçi və varlı məmurlar öz kapitallarını sənaye müəssisələrinin yaradılmasına deyil, torpaq almağa sərf edir, nəticədə isə iri və orta ticarət burjuaziyası ilə feodal torpaq sahibliyi arasında güclü əlaqə yarandı. Bəhs edilən dövrdə Azərbaycanda torpaq sahibləri, xüsusilə iri feodallar Tehran, Təbriz və s. şəhərlərdə yaşamaqla kəndlərini yerlərdə olan nümayəndələri - mübaşir, kəndxuda, başqa vasitələrlə idarə edirdilər.

Əksər torpaqsız olan və başqa istehsal vasitələrinə qismən malik kəndli əkin üçün sahəni feodaldan paydarlıq icarəsi əsasında icarəyə götürürdü. Kəndli çatışmayan digər istehsal vasitələrini (su, iş heyvanı və aləti, dənlik toxum) da feodaldan almalı olurdu. Beləliklə, məhsul bölgüsü aparılırdı. Bundan əlavə, mülkədarlar kəndlinin malik olduğu bütün gəlir mənbələrindən müəyyən hissə alırdılar. Kəndli öz əməyindən başqa heç bir şeyə sahib olmadıqda isə, torpaq sahibi məhsulun 70-85%-ni götürürdü.

Kəndli icarə haqqından başqa mülkədara əlavə vergilər verir, onun üçün müxtəlif feodal mükəlləfiyyətləri də daşıyırdı. Kəndli istifadə etdiyi ev üçün müəyyən məbləğ, təsərrüfatının müxtəlif sahələrindən məhsulla pay (toyuq, yumurta, yağ və s.) verir, biyara işləyir və başqa mükəlləfiyyətlər də daşıyırdı.

Xalq çıxışları. Vəliəhdin iqamətgahının Cənubi Azərbaycanda yerləşməsi bir tərəfdən bu vilayətin ölkə miqyasında xüsusi mövqeyə malik olmasını şərtləndirirsə də, digər tərəfdən yerli əhalinin yaşayış tərzinin ağırlaşmasına səbəb olurdu. Belə ki, başda vəliəhd olmaqla əyalətin müxtəlif inzibati-idarə orqanlarına təyin olunmuş şahzadələrin hər biri öz ətrafında böyük bir müftəxorlar dəstəsi toplamışdı. Azərbaycan valisi və onun ətrafına toplaşan məmurları dövlət və idarə işləri deyil, vergilərin artıqlaması ilə yığılması və daha çox varlanmaq maraqlandırırdı. Nəticədə onlar Azərbaycanı fəlakətli bir vəziyyətə gətirib çıxarmışdılar.

Azərbaycan əhalisinin, xüsusilə geniş kəndli kütlələrinin qarşı-qarşıya durduğu əsas istismarçılar yerli feodallar idi. Bir çox xanlar Türkmənçay müqaviləsindən sonra siyasi hakimiyyətdən kənar edilsələr də, onların kütlələr üzərində ağalığı toxunulmaz qalırdı. Beləliklə, əhali həm yerli xanların, həm də hakim sülalənin zülmünə məruz qalırdı. Azərbaycanda hakim dairələrin zülm siyasəti yerli əhalinin müxtəlif təbəqələri içərisində narazılığın artmasına, kütləvi həyəcan və çıxışların baş verməsinə səbəb olurdu.

30-cu illərin sonu - 40-ci illərin əvvəllərində Təbrizdə tez yatırılsa da, bir neçə dəfə həyəcan və çıxışlar baş verdi. 1847-ci ildə Zəncanda sənətkarlar, xırda tacir və şəhər yoxsulları hakimə qarşı çıxmış və onu şəhərdən qovmuşdular. 1848-ci ildə yenə də Təbrizdə şəhər yoxsulları və sənətkarların çıxışları baş verdi.

1850-ci ildə Zəncanda Babilər üsyana qalxdılar. Babizmin banisi Seyid Əli Məhəmməd olmuş, Şeyxi təriqətinə başçılıq etmiş, xalqa həqiqətlərin çatdırılmasında özünü sonuncu imam Mehdi ilə xalq arasında vasitəçi elan etmiş və buna görə də Bab (ərəbcə qapı) ləqəbini götürmüşdür. Babın əsas ideyaları onun

«Bəyan» kitabında öz əksini tapmışdı. Bab yeni yaradılacaq cəmiyyətdə, o cümlədən qadına münasibətdə bərabərlik, ədalət, şəxsiyyətin toxunulmazlığını elan edir, tacir, sənətkar və kəndlilərin arzularını əks etdirirdi.

Şəhərdə babilərin sayı 15 min nəfərə çatırdı. Bundan əlavə, yaxınlıqdakı kəndlərin əhalisi də onlara qoşulmuşdu. Babilər şəhər qalasını tutdular. Şəhər iki hissəyə bölündü və babilər onun yarıdan çox hissəsini ələ keçirdilər. Vuruşlarda babilərin ailə üzvləri də iştirak edirdilər. Əsasən kəndli və sənətkarlardan ibarət olan babilərin içərisində çoxlu tacir və xırda ruhanilər də var idi.Ətraf kəndlərdən olan əhali üsyançıları gizli şəkildə ərzaqla təmin edirdilər.

Şah hökuməti tərəfindən üsyanı yatırmaq üçün göndərilən qoşun dəstələri iyunun əvvəlində Zəncanı mühasirəyə aldılar, lakin üsyançılar tərəfindən ciddi müqavimətə rast gələrək geri çəkilməli oldular. Dekabrda 30 minlik şah qoşunu və feodal dəstələri Zəncanı yenidən mühasirəyə alaraq hər tərəfdən hücuma keçdilər. Üsyançıların çoxu həlak oldu, onun başçısı Məhəmmədəli isə ağır yaralandı və üç gündən sonra vəfat etdi. Beləliklə, 1850-ci il dekabrın sonunda Zəncan üsyanı yatırıldı.

1848-1852-ci illərdə bütün İranda Babilər hərəkatı məğlub edilsə də, ölkədə o cümlədən Cənubi Azərbaycanda Babi tərəfdarlarının sayı daha da artdı. Əhalinin bütün narazı hissələrində babiliyə rəğbət çox güclü idi və şah hökuməti bunun qarşısını ala bilmirdi.

Təsadüfi deyil ki, Babilər hərəkatı zamanı gələcəyin bir çox inqilabçıları yetişmiş və onlar 1905-1911-ci illər İran inqilabında fəal iştirak etmişlər.

XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəllərində Cənubi Azərbaycanda xarici imperialistlərə və onlarla əlaqədə olan yerli irtica

qüvvələrinə, onların ölkədəki özbaşınalığına qarşı xalqın narazılığı artmağa başlayır, bəzi yerlərdə kütləvi çıxışlar və tətillər baş verirdi. 8 mart l890-cı ildə Nəsrəddin şah bütün İranda tütün almaq, satmaq və emal etmək üçün ingilislərə konsessiya verilməsi barədə müqavilə imzalayır və bu isə xalqın böyük narazılığına səbəb olurdu. Etiraz əlaməti olaraq 19 avqust 1891-ci ildə Təbriz bazarı bağlanır, 20 min nəfərə yaxın adam silahlanır və şaha teleqram vururlar ki, heç bir halda bu müqaviləni qəbul etməyəcəklər. Onlar teleqramda bildirirdilər ki, əks təqdirdə Təbrizdəki ingilis konsulluğunu məhv edəcəklər. Şah verilmiş imtiyazları tezliklə ləğv etməyə məcbur oldu və avqustun 30-da bu haqda Təbrizə rəsmi teleqram göndərildi.

İran xalqlarının, o cümlədən azərbaycanlıların mübarizə tarixində «Tənbəki üsyanı» kimi məşhur olan bu hərəkatda Azərbaycanın ticarət burjuaziyası, sənətkarları, onlara qoşulmuş ruhanilər, digər təbəqələrin nümayəndələri iştirak edirdilər. Bu hərəkat İranda, o cümlədən Cənubi Azərbaycanda xarici kapitala, yerli irtica qüvvələrinə və onların hökmranlığına qarşı yönəldilmiş milli-azadlıq mübarizəsinin ilkin mərhələsini təşkil etmiş və xalq arasında milli şüurun oyanmasına güclü təkan vermişdi.

1901-ci ildə Tehranda təşkil edilmiş gizli cəmiyyət, 1905-ci ildə isə Tehranda yaranan «Əncümən-e məxfi» (Gizli əncümən) iranlıları, o cümlədən azərbaycanlıları, xaricilərin zorakılığı və yerli hakim dairələrin özbaşınalığı əleyhinə mübarizə aparmağa çağırır, həmçinin burjua ruhunda islahatlar keçirmək tələbini irəli sürürdülər.

XX yüzilliyin əvvəllərində bir neçə il qıtlıq olması və bundan istifadə edən mülkədar və alverçilərin taxıl möhtəkirliyinə başlaması nəticəsində İranın, o cümlədən Azərbaycanın bir sıra şəhərlərində aclıq və bahalığa qarşı həyəcanlar baş verdi.

1903-cü ildə belçikalılarla bağlanmış yeni gömrük sazişinə qarşı çıxışlar başlandı.

Bu dövrdə Cənubi Azərbaycanda demokratik fikrin yayılması, milli və siyasi şüurun oyanması, xarici imperializmə və yerli feodal zülmünə qarşı xalq mübarizəsinin güclənməsində bir sıra başqa amillər də böyük rol oynamışdır. Belə ki, 1904-cü il dekabrın 13-də Bakı və onun Balaxanı, Sabunçu, Bibiheybət kimi ətraf rayonlarında başlanan və 3l-də qələbə ilə nəticələnən fəhlə tətilləri nəinki bütün Bakı proletariatını siyasi mübarizəyə çağırdı və Rusiyanın fəhlə hərəkatı tarixində ilk fəhlə-sahibkar müqaviləsinin bağlanmasına gətirib çıxardı, onlar həm də Cənubi Azərbaycanda həyəcan və çıxışların güclənməsinə, inqilabi hərəkatın başlanmasına təkan verdi. Bununla Şimali və Cənubi Azərbaycanda inqilabi hərəkatın və siyasi mübarizənin sonrakı inkişafında Rusiyada baş verən 1905-ci il 9 yanvar hadisələri (Qanlı bazar) və ümumiyyətlə l905-1907-ci illər inqilabının da əhəmiyyətli təsiri olmuşdur. Xalqın təzyiqi altında Rusiya hökumətinin 1905-ci ilin 17 Oktyabrında demokratik azadlıqlar verilməsi haqqında dərc etdiyi «Manifest» Şimali Azərbaycanda (xüsusən Bakıda) «Müsəlman konstitusiya (Məşrutə) partiyası»nın yaranmasına, demokratik azadlıq və hüquqlar uğrunda mübarizənin genişlənməsinə gətirib çıxardı və bu hərəkat öz davamını həmin ilin dekabrında İranda başlayan «Məşrutə inqilabında» tapdı.

1905-1911-ci illər Məşrutə inqilabı və Cənubi Azərbaycan. 1905-1911-ci illər Məşrutə inqilabı gedişində Cənubi Azərbaycanda İranın başqa rayonlarına nisbətən sosial ziddiyyətlər, siyasi vəziyyət daha gərgin olmuşdu. Xalq ədalətli quruluş yaradılmasını tələb edirdi.Hərəkatın hərəkətverici qüvvələri sənətkarlar, yenicə meydana gələn fəhlələr, xırda alverçi təbəqələr, kəndlilərin qabaqcıl dəstələri və xırda ruhanilər idi.

Artmaqda olan hərəkatın təzyiqi altında İran şahı xalqın tələblərini yerinə yetirməyə söz verdi. 1906-cı il avqustun 5-də Konstitusiya verilməsi haqqında şah fərmanı elan olundu.

1906-cı ilin sonunda Təbrizin gizli siyasi qrup və cəmiyyətləri tərəfindən «İctimaiyyune-amiyyun», yəni Sosial-demokrat partiyası yarandı. Partiyanın proqramı kimi RSDFP-nin proqramı əsas götürüldü və o yerli siyasi, sosial-iqtisadi şəraitə uyğun şəkildə işlənib hazırlandı. Öz mərkəzini «Mərkəz-e qeybi» (Gizli mərkəz) adlandıran Təbriz sosial-demokrat təşkilatının başında Əli Müsyö dururdu.

1906-cı il sentyabrın 9-da Məclisə seçkilər keçirilməsi haqqında Əsasnamə imzalandı. Sentyabnn 20-də Təbriz üsyançıları öz tələblərinə saraydan müsbət cavab aldılar. Bu uğurlar xalqı daha da ruhlandırdı, onlar mübarizənin davamı üçün zəruri olan siyasi bir mərkəzin yaradılmasını, kütlələri bu mərkəz ətrafında birləşdirməyi ən vacib məsələ kimi qoydular. Hərəkat başçıları içərisindən 20 nəfər ilk rəsmi siyasi Əncümənin əsasını qoydu və həmin Əncümən rəsmən «Azərbaycan əyalət əncüməni» adlandırıldı. 1906-cı ilin noyabr-dekabr aylarında əyalət əncümənin rəhbərliyi ilə Azərbaycanın başqa şəhərlərində (Urmiya, Salmas, Marağa, Ərdəbil, Zəncan, Xalxal, Xoy, Maku və b.) vilayət əncümənləri yaradılmağa başladı və beləliklə əncümənin nüfuzu əyalətin bütün rayon və şəhərlərində yayıldı.

1906-cı il oktyabrın 20-dən noyabrın 5-nə kimi Azərbaycan seçkilərində qələbə qazanmış nümayəndələr 1907-ci ilin fevralın 8-də Azərbaycan elçiləri adı ilə Tehrana gəldilər və əyalət əncüməninin saraya verdiyi tələblərin həyata keçirilməsi haqqında razılıq əldə etməyə nail oldular. Bu qələbə demokratik qüvvələri ruhlandırmaqla yanaşı, şahı qorxudaraq mütləq monarxiyanı bərpa etmək fikrinə saldı. Ölkənin hər tərəfində feodalların silahlı dəstələri tərəfindən əhaliyə, demokratik qüvvələrə qarşı basqınlar təşkil edilməyə başlandı. Demokratik qüvvələr məclis tərəfindən xalq üçün əhəmiyyətli maddələrin olduğu Konstitusiyaya "Əlavələr"in qəbul edilməsini ciddi tələb etdilər.

Artıq 1907-ci ilin iyun ayında Urmiya şəhərində yüzlərlə silahlı mücahid əncüməninin göstərişlərini həyata keçirməyə hazır idi. Azərbaycandakı bu təcrübə İranın başqa şəhərlərində, o cümlədən Tehranda da tətbiq olunmağa başladı.

1907-ci ilin oktyabrında şah tərəfindən məhdud burjua azadlıqlarını nəzərdə tutan Konstitusiyaya «Əlavələr» qəbul edildi və sənədin təsdiqi sinfi qüvvələrin təbəqələşməsini sürətləndirdi. İrtica qüvvələri xalq və inqilab cəbhəsinə qarşı hücuma hazırlaşmağa başladı və bu yolda bütün vasitələrdən - Türkiyə, İngiltərə və çar Rusiyasının hakim dairələrinin köməyindən istifadə etməkdən də çəkinmədi.

1907-ci ilin noyabrında şah başda olmaqla, əksinqilabi irtica qüvvələri tədbirlər görməyə başladılar. Demokratik hərəkata qarşı hücum hazırlamaq məqsədilə Tehranda «Fetovvat» və «Səadət», eyni zamanda Təbrizdə «İslamiyyə» adlı irticaçı əncümənlər təşkil edildi. İrticaçılar 1908-ci ilin əvvəllərindən Azərbaycanda və İranın başqa yerlərində öz fitnəkarlıqlarını qüvvətləndirdilər. Şah və onun ətrafında toplanmış mürtəce qüvvələr tərəfindən hələ 1908-ci ilin aprel-may aylarından hazırlanmaqda olan hökumət çevrilişi həmin ilin iyununda həyata keçirildi. Əksinqilab bütün İranda hücuma keçdi. Lakin Təbrizdə inqilabi hərəkat daha ciddi şəkil aldı, burada Azərbaycan əyalət əncüməni, Təbriz sosial-demokrat təşkilatı və məhəlli əncümənlər yeni inqilabi mübarizəyə, qəti döyüşlərə hazırlaşmağa başladılar. İnqilabi mübarizənin mərkəzi Tehrandan Təbrizə keçdi.

İrticaçılar Əmirxiz məhəlləsi istisna olmaqla Təbrizin şimal-şərq hissəsini tutdular. Əmirxiz məhəlləsini Təbriz üsyanının görkəmli rəhbəri Səttar xanın dəstəsi, şəhərin cənub-şərqində yerləşən Xiyaban məhəlləsini isə Bağır xanın başçılıq etdiyi hissələr müdafiə edirdilər.

Təbrizin müqaviməti irtica qüvvələrini və şahı çox narahat edirdi. Buna görə də 1908-ci ilin avqustunda buraya 40 min nəfərdən artıq silahlı qüvvə göndərildi. Sentyabnn 25-dən Təbriz üzərinə iki günə qədər davam edən hücum başlandı, lakin irtica qüvvələri heç bir uğur qazana bilməyərək, oktyabrın 12-də şəhəri tərk edib qaçmağa məcbur oldular.

Təbriz üsyançılarının qələbə xəbəri tezliklə İrana, Qafqaza və Avropanın bir çox ölkələrinə yayıldı. Paris, İstanbul, Nəcəf, Tiflis, Bakı və digər mühüm şəhərlərdən Azərbaycan əyalət əncüməninə, Səttarxanın ünvanına təbrik teleqramları göndərildi. Xalq Səttarxanı "Sərdar-e milli", Bağırxanı "Salar-e milli" adlandırdı, sonra isə Azərbaycan əyalət əncüməni bu adları rəsmiləşdirmək üçün qərar qəbul etdi.

1909-cu ilin fevralına qədər Cənubi Azərbaycanın bütün qərb vilayətləri (Maku istisna olmaqla) inqilabçıların əlinə keçdi. Azərbaycanın şərq vilayətlərində də əksinqilaba qarşı etiraz güclənirdi. Lakin bütün bunlara baxmayaraq Məhəmmədəli şah İranın bütün əyalət və vilayətlərindən silahlı qüvvələr toplayır, Təbriz üzərinə göndərməkdə davam edirdi. 1909-cu ilin yanvarında Təbriz şəhəri yenidən mühasirəyə alındı. Fevral-mart aylarında Təbriz üzərinə əksinqilabın hücumu başladı, lakin bu hücumlar da inqilabçıların qələbəsilə nəticələndi. Bununla belə, mühasirədə olanlar aclıq və qıtlıqdan çox əziyyət çəkirdilər. Aprelin 14-də uzun müddət Marağa şəhərinin qubernatoru olmuş Səməd xanın qoşunları Təbrizə hücum etdilər. Yenə də müvəffəqiyyət əldə edilmədi. Belə bir şəraitdə ingilislər və çar Rusiyası açıq müdaxiləyə əl atdılar. Çar Rusiyası xarici konsulluqları və təbəələri müdafiə etmək və guya Təbrizə ərzaq daşınmasını təmin etmək bəhanəsilə 1909-cu il aprelin 29-da öz qoşunlarını Təbrizə yeritdi. Bununla da Təbriz üsyanı yatırıldı.

Təbriz üsyanı bütün İranda inqilabi hərəkatın yenidən yüksəlişinə təkan verdi. Təbriz üsyanı eyni zamanda Məhəmmədəli şahın hakimiyyətdən devrilməsinə (16 iyul 1909-cu il) və Konstitusiyanın bərpa olunmasına səbəb oldu.

Fədailəri tərk-silah etmək məqsədilə Tehranın rəsmi dairələri tərəfindən Səttarxan və Bağırxan I910-cu il martın 11-də paytaxta dəvət olundular. Tərksilah haqqında əldə edilmiş razılığa baxmayaraq, Səttarxan və onun ətrafındakılara Tehranda xaincəsinə basqın edildi. Vuruşma nəticəsində 18 nəfər həlak oldu, 40 nəfər, o cümlədən Səttarxan yaralandı. Bununla da inqilabın son səngəri dağıdıldı. Səttarxan və Bağırxana Təbrizə qayıtmağa icazə verilmədi. Bu xəyanət Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu, lakin Cənubi Azərbaycanda yerləşən çar Rusiyasının qoşunları əhalinin fəal çıxışına imkan vermədilər. Çar hökuməti Təbrizə yeni hərbi qüvvələr göndərməklə, dekabrın 28-dən Təbriz fədailərinin müqavimətini qırdılar. Ələ keçən fədailər və Təbriz əncüməni rəhbərlərinə divan tutuldu. İrticaçılar Təbrizə qayıtdılar. Bütün Azərbaycanda terror və irtica hökm sürməyə başladı.

1905-1911-ci illər inqilabının yatırılması nəticəsində çar Rusiyası və İngiltərə tərəfindən İranın, o cümlədən Cənubi Azərbaycanın əsarət altına alınması və istismarı qüvvətləndi.

İran Məşrutə inqilabı məğlub edildikdən sonra, 1912-ci ilin əvvəllərində imperialistlər 1907-ci il ingilis-rus sazişinin İran hökuməti tərəfindən rəsmən qəbul edilməsinə nail oldular. Sazişə əsasən İranın Qəsri-Şirin-İsfahan-Yəzd-Zülfüqar xəttindən şimaldakı 790 min kv.km sahəsi Rusiyanın nüfuz dairəsi, İranın Bəndər Abbas-Kirman-Bircənd-Qazik xəttindən cənub-şərqdəki 355 min kv.km hissəsi İngiltərənin, İranın bu xətlər arasındakı ərazisi isə "bitərəf" zona elan edildi. Bundan sonra İran Birinci Dünya müharibəsini doğuran imperialist ziddiyyətlərin düyün nöqtələrindən birinə

çevrildi. Müharibə başlayanda İranın rəsmi surətdə öz bitərəfliyini elan etməsinə baxmayaraq, xarici dövlətlər onun bitərəfliyini kobudcasına pozaraq ərazisində hərbi əməliyyatlara başladılar. Bu əməliyyatlar nəticəsində dəfələrlə işğala məruz qalmış və ən çox zərər çəkmiş əyalətlərdən biri də Azərbaycan idi.

Cənubi Azərbaycan 1914-cü il dekabrın axırlarında türk ordusu, 1915-ci il yanvarın 15-də Rusiya qoşunları tərəfindən işğal edilərək hərb və zorakılıq meydanına çevrildi. Bu vəziyyət xalq kütlələrinin böyük narazılığına və tez-tez baş verən həyəcanlarına səbəb olmuşdu. Bu zaman İran Demokrat Partiyasının Təbriz təşkilatı xalq kütlələrinin mübarizəsinə başçılıq edirdi. Beləliklə,Cənubi Azərbaycan İranı müharibə meydanına çevirən xarici dövlətlərə və mürtəce şah hökumətinə qarşı mübarizənin ən güclü mərkəzinə çevrildi.

XVI FƏSİL
XIX YÜZİLLİYİN İKİNCİ YARISINDA AZƏRBAYCAN MƏDƏNİYYƏTİ.

CƏDVƏL: 1

XIX yüzilliyin sonunda ixtisaslı fəhlə hazırlamaq üçün açılan məktəblər:		
İllər	**Rayonlar**	**Cəmiyyət**
1881	**Suraxanı**	**Bakı neft cəmiyyəti**
1884	**Qaraşəhər**	**Nobel şirkəti**
1886	**Balaxanı**	**Nobel şirkəti**
1891	**Ağ şəhər**	**Şibayevin firması**
1893	**Ağ şəhər**	**Xəzər-Qara dəniz cəmiyyəti**
1896	**Balaxanı**	**Xəzər-Qara dəniz cəmiyyəti**
1896	**Suraxanı**	**Benkendorf və Ko ticarət evi**

CƏDVƏL : 2

XIX yüzilliyin sonunda rus ibtidai məktəblərində azərbaycanlı şagirdlərin faiz nisbəti:

Bakı quberniyası:	**24,3 %(1095 şagird)**
Yelizavetpol quberniyası:	**23,8 % (1343 şagird)**

Maarif.İnkişaf etməkdə olan kapitalist iqtisadiyyatının ixtisaslı fəhlələrə, təhsilli mütəxəssislərə tələbatı Azərbaycanda ümumtəhsil və peşə məktəblərinin sayının artmasına, onların təhsil səviyyəsinin yüksəlməsinə səbəb oldu.

XIX yüzilliyin 60-70-ci illərindən etibarən ümumtəhsil sistemində aparıcı rolu böyük əksəriyyəti ibtidai məktəblərdən ibarət olan rus təhsil müəssisələri oynamağa başladı.

1872-ci il 13 may Əsasnaməsi ilə Şimali Azərbaycanın bütün qəza məktəbləri altı illik təhsil müddəti olan pullu şəhər məktəblərinə çevrildi.

İbtidai məktəblər haqqında 1874-cü il 24 may Əsasnaməsi təhsilin aşağı həlqəsi üzrə iki məktəb tipini təsdiq etdi: üç illik təhsil kurslu birsinifli və beş illik təhsil kurslu ikisinifli məktəblər - Şimali Azərbaycanda ilk dəfə olaraq kənd əhalisi üçün məktəblər meydana çıxdı. Kənd cəmiyyətinin vəsaiti hesabına fəaliyyət göstərən Salahlı və xəzinə hesabına saxlanılan Dağkəsəmən. Cəbrayıl və Göyçay məktəbləri birinci və nisbətən yaxşı təmin olunmuş kənd məktəbləri sırasında idi.

80-ci illərdən Azərbaycanın neft-mədən rayonlarında və sənaye müəssisələri yanında ibtidai məktəblər təşəkkül etməyə başladı. İri sahibkarlar öz təsərrüfatlarında əmək məhsuldarlığını, həm də öz maraqlarını yüksəldə biləcək savadlı fəhlələr hazırlamaq üçün məktəblər açırdılar. 1881-ci ildə Suraxanıda "Bakı Neft Cəmiyyəti"nin təşkil etdiyi məktəb Bakı neft sənaye rayonunda ilk məktəb idi. "Nobel qardaşları" şirkəti 1884-cü ildə Qara şəhərdə, 1886-cı ildə isə Balaxanıda məktəblər açdı. Belə məktəblər Ağşəhərdə 1891-ci ildə S.Şibayevin firması və 1893-cü ildə "Xəzər-Qara dəniz Neft və Ticarət Cəmiyyəti" tərəfindən təşkil edildi. Sonuncu cəmiyyət 1896-cı ildə"Benkendorf və K°"-nın ticarət evinin Suraxanıdakı məktəbi ilə eyni zamanda Balaxanıda daha bir məktəb açdı.

1897-ci ildən Bibiheybətdə, Qaraşəhər və Ramanada Bakı Neft Sənayeçiləri Qurultayının məktəbləri fəaliyyət göstərməyə başladı. 1892-ci ildən etibarən Gədəbəydə "Simens qardaşları"nın misəritmə zavodu yanında kiçik məktəb fəaliyyətdə idi.

İbtidai məktəblərin təşkilində çar hökumətinin zəhmətkeşlərin təhsil xərclərini yerli şəhər idarələri və kənd cəmiyyətlərin üzərinə,

deməli nəticə etibarilə xalqın çiyninə qoyması meyli açıq-aşkar müşahidə olunurdu.

Təhsil müəssisələrinin sayı artdıqca onların ixtisaslı müəllimlərlə təmin olunması məsələsi aktuallıq kəsb edirdi. Əgər orta məktəblər üçün universitet qurtarmış və xüsusi təhsilli pedaqoqlar seçilirdilərsə,ibtidai məktəblər üçün müəllim seminariyaların, orta təhsil müəssisələrinin, o cümlədən qadın gimnaziyalarının pedaqoji siniflərinin məzunları, habelə müəyyən edilmiş xüsusi imtahanları verdikdən sonra ibtidai məktəb müəllimi rütbəsi almış şəxslər işə götürülürdülər.Yerli dilləri bilən müəllimlərin yoxluğu azərbaycanlı uşaqların rus məktəblərinə cəlb olunmasını ləngidirdi. Məktəblərin saxlanılması xərclərinə əhalinin ağır mükəlləfiyyət kimi baxması da buradan irəli gəlirdi. Ancaq 1876-cı ildə Qori şəhərində açılmış Cənubi Qafqaz Müəllimlər Seminariyası, xüsusən də onun Azərbaycan şöbəsinin məzunları (Fərhad Ağazadə, Üzeyir Hacıbəyov, Cəlil Məmmədquluzadə və b.) kənd məktəblərinə gəldikdən sonra yerli uşaqların bu məktəblərdə oxuması mümkün olmuşdu.

Xalq Maarif Nazirliyinə tabe olan bütün məktəblərdə təlim ancaq rus dilində aparılırdı. Azərbaycan və digər yerli dillərdə ümumtəhsil məktəbləri açmağa icazə verilmirdi.

"Rusiyada məskun olan yadellilərin təhsilinə dair tədbirlər haqqında" 1870-ci il 26 mart tarixli qaydaların mahiyyəti ruslaşdırmaya tabe edilmişdi.

Ana dilində savada yiyələnmək cəhdi minlərlə uşağı mollaxana məktəblərinə cəlb edirdi. Əvvəlki dövrdə olduğu kimi, yenə də say üstünlüyü bu məktəblərin tərəfində idi. Ölkənin sosial-iqtisadi inkişafı şəraitində bu məktəblərin yararsızlığı aydın olurdu. Azərbaycanın qabaqcıl mədəniyyət xadimləri bu məktəblərdə təhsilin məzmununa və tədris üsullarına qarşı kəskin şəkildə çıxış edirdilər.M.F.Axundov

uşaqlarda “anadangəlmə xeyirxah keyfiyyətləri boğmağa və onlarda qorxaqlıq və yalançılıq” doğurmağa qadir olan bədən cəzası sistemini amansız tənqid edir, yeniyetmələrin yalnız dini təbliğ edən kitablarla maariflənməyini yolverilməz hesab edirdi.

Demokratik cərəyanın nümayəndələri milli mədəniyyətin ən yaxşı ənənələri ilə yanaşı, ərəb qrafikası əsasında Azərbaycan əlifbasının dəyişdirilməsinin yeni dünyəvi məktəb yaradılması yolunda mühüm amil hesab edirdilər.

M.F.Axundov əlifbanın sadələşdirilməsi, sonralar isə latın qrafikası əsasında onun yeni əlifba ilə əvəz edilməsi uğrunda inadlı mübarizə aparırdı.

Rus və Azərbaycan mətbuatında ərəb əlifbası xalq kütlələri içərisində savad və mədəniyyətin yayılmasını ləngidən amil kimi işıqlandırılırdı.F.Köçərli, M.Sidqi, N.Nərimanov, M.Mahmudbəyov, M.A.Şahtaxtinski, C.Məmmədquluzadə yeni əlifbaya keçmək tərəfdarı idilər.

Dünyəvi Azərbaycan məktəbinin proqramı, maddi bazanın yaradılması, müəllim kadrlarının hazırlanması, ana dilində təhsil, qadın təhsilinin təşkili və s. məsələlər ətrafındakı mübahisə kəskin xarakter alırdı. Bütün bu məsələlər Həsən bəy Məlikov (Zərdabi) tərəfindən Bakıda nəşr edilmiş ilk milli mətbuat orqanı “Əkinçi” (1875-1877) qəzetinin səhifələrində öz əksini tapmışdır.

Bu aktual məsələlərin müzakirəsində M.F.Axundov və H.Zərdabi ilə yanaşı, Azərbaycanın mütərəqqi gəncləri - sonradan Azərbaycan mədəniyyətinin görkəmli xadimləri olmuş ali məktəb tələbələri yaxından iştirak edirdilər.

70-ci illərdə ayrı-ayrı məktəblər “Üsuli-cədidə” (yeni üsul) keçməyə başladı. Bu yeni tədris üsulunun ən əsas prinsiplərindən biri hərf-heca üsulundan daha səmərəli səs üsuluna keçiddən ibarət idi. Üsuli-cədid məktəblərin ən mühüm əhəmiyyəti ondan ibarət idi ki,

burada ilk dəfə olaraq elmi biliklərin əsasları ana dilində öyrədilməyə başlandı. Bir sıra məktəblərdə ana dili ilə yanaşı rus dili də tədris edilirdi.

Yeni üsul şüurlu təlimə yiyələnməyə yönəldilmişdi və əzbərləmə sisteminin zəifləməsinə, şagirdlərlə insani rəftara doğru aparırdı. Məktəb binaları müasir tədris avadanlıqları ilə təchiz edilməyə başladı. Yeni tipli ilk məktəblərdən biri görkəmli Azərbaycan şairi S.Ə.Şirvaninin 1869-cu ildə Şamaxıda açdığı məktəb idi.

Naxçıvanda ilk dünyəvi qadın məktəbi Məmmədtağı Sidqi tərəfindən 1896-cı ildə təsis olunmuşdu.Yeni məktəblərin ən qabaqcıl müəllimlərinin ətrafında ədəbi məclislər fəaliyyətə başlayırdı.

Azərbaycan əhalisinin maariflənməsi tarixində rus-tatar məktəbləri (çar Rusiyasında azərbaycanlılar bəzən tatar da adlandırılırdı*)* deyilən məktəblər nəzərə çarpacaq dərəcədə rol oynamışdır. Bu məktəblər mütərəqqi Azərbaycan ziyalılarının təşəbbüsü hesabına meydana çıxmışdı. İlk belə bir məktəb Bakıda 1887-ci ildə təşkil edilmişdir.

Digər rus məktəblərindən fərqli olaraq, burada birinci tədris ilində Azərbaycan dilinin keçilməsinə yol verilir və bu dərs məcburi fənn sayılırdı. Bakının ardınca Naxçıvanda, Nuxada, Şuşada, Salyanda, Gəncədə yeni məktəblər açıldı.

1899-cu ilin sonunda Azərbaycanın bütün rus-tatar məktəblərində 837 şagird təhsil alırdı. Fənn müəllimləri və şagirdlərin demək olar ki, hamısı azərbaycanlılardan ibarət idi.

XX yüzilliyin əvvəllərində qadın rus-tatar məktəbləri də meydana çıxmağa başladı. Rus-tatar məktəblərinin ən hazırlıqlı məzunları real məktəblərə, gimnaziyaya, habelə Cənubi Qafqaz Müəllimlər Seminariyasına (Ü.Hacıbəyov) daxil olmuşdular.

Azərbaycanın ibtidai məktəbləri, o cümlədən rus-tatar məktəbləri üçün müəllimlər hazırlanmasında Qoridəki Cənubi Qafqaz Müəllimlər Seminariyası, xüsusən də onun M.F.Axundov və A.O.Çernyayevskinin səyləri nəticəsində 1879-cu ildə açılmış Azərbaycan şöbəsi böyük rol oynadı. Gələcək müəllimlərin hazırlanmasında Azərbaycan şöbəsinin müfəttişi A.Çernyayevskinin xidməti təqdirəlayiqdir.

1899-cu ilədək Qori seminariyası 89 nəfər azərbaycanlı müəllim hazırlamışdı. Peşəkar pedaqoji kadrlar arasında Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Firidun bəy Köçərli, Mustafa Mahmudov, Mehdi bəy Hacıbabəyov, Səfərəli bəy Vəlibəyov, Əli Cabbar Orucəliyev və başqalarının maarifçilik sahəsindəki xidməti əvəz olunmazdır.

Yeni məktəb xadimlərinin ən mühüm vəzifəsi ana dili dərsliyinin yaradılması idi. Rus-tatar məktəblərində A.Çernyayevskinin 1882-ci ildə tərtib etdiyi "Vətən dili" dərsliyi böyük müvəffəqiyyətlə tətbiq edilirdi. 1881-ci ildə təhsilini başa vurduqdan sonra Qori seminariyasında saxlanılmış S.F.Vəlibəyov və Q.A.Qaradağı də kitabın ikinci hissəsinin tərtibində fəal iştirak etmişdilər.

1896-cı ildə S.M.Qənizadə və 1899-cu ildə N.Nərimanov tərəfindən rus dilini müstəqil öyrənmək üçün vəsaitlər nəşr olundu.

Beləliklə, Qori seminariyasının yaradılması, ictimai idarələrin köməyi, tədris vəsaitlərinin hazırlanması nəticəsində rus-tatar məktəbləri fəaliyyət göstərmək imkanı qazandı. Onlar azərbaycanlı uşaqlarının dünyəvi məktəb təhsilinə cəlb olunmasında, Azərbaycan dilinin elmi tədrisinin formalaşmasında və gələcək milli məktəb üçün kadrların hazırlanmasında müsbət rol oynadılar. Bu seminariyanı bitirmiş müəllimlər təkcə Azərbaycan məktəblərinin baniləri deyil, həmçinin milli mədəniyyətimizin görkəmli nümayəndələri sayıla bilərlər.

XIX yüzilliyin ikinci yarısında Azərbaycanda ilk orta təhsil müəssisələri meydana gəldi. Bakı dörd sinifli ali məktəbi 1865-ci ildə Azərbaycanda ilk gimnaziyanın təşkil edilməsi üçün əsas oldu.

1881-ci ildə mövcud şəhər məktəblərinin əsasında Yelizavetpol gimnaziyası və Şuşa realnı məktəbi təşkil edildi. Demokratik qüvvələrin gərgin mübarizəsindən sonra 1896-cı ildə Bakıda birinci kişi gimnaziyası açıldı.

Kişi orta təhsili ilə bərabər, qadın orta təhsili də inkişaf etməyə başladı. 1874-cü ildə Bakıda ilk qadın gimnaziyası açıldı. 1883-cü ildən bu məktəb Mariya adını aldı. Bu vaxtadək Bakıda mövcud olan, Müqəddəs Nina qadın təhsil müəssisəsi də 1897-ci ildə orta məktəbə çevrildi.

1896-cı ildə Bakının Mərdəkan kəndində H.Z.Tağıyev tərəfindən Azərbaycanda bağbanlar hazırlayan birinci xüsusi məktəb açıldı. İkinci bağçılıq məktəbi xəzinənin xərci hesabına 1899-cu ildə Qubada açıldı.Əhalinin imkanlı hissəsinin estetik tələbatını ödəmək üçün 1896-cı ildə A.Yermolayeva tərəfindən Bakıda ilk musiqi məktəbi açıldı.

XIX yüzilliyin 80-ci illərindən etibarən Azərbaycanda, başlıca olaraq Bakıda, yaşlılar üçün ilk məktəb və kurslar meydana çıxmağa başladı. Bakı bazargünü məktəbi fəhlələrin maariflənməsi işində xüsusən böyük əhəmiyyətə malik idi. Bu məktəbdə təlim pulsuz idi və müəllimlər əməkhaqqı almırdılar.

1897-ci ildə Bakıda qadınlar üçün bazargünü məktəbi də açıldı. Azərbaycanlı zəhmətkeşlərin təhsil almasında, onlara rus dilinin öyrədilməsində Bakı texniki məktəbinin nəzdində təşkil edilmiş axşam kurslarının da rolu az olmamışdı.

Azərbaycanda savadın yayılması ilə kitabxana və qiraətxanalara ehtiyac hiss edilməyə başladı. Mövcud dövlət təhsil müəssisələrinin

nəzdindəki kitabxanalarla yanaşı, ictimai və xüsusi kitabxanalar da açılırdı.

1894-cü ildə Bakıda N.Nərimanov tərəfindən təşkil edilmiş ilk Azərbaycan qiraətxanası ölkənin mədəni həyatında mühüm rol oynadı. Bu vaxtadək kitabxanalar şəbəkəsi demək olar ki, ancaq rus dilini bilən oxuculara xidmət göstərirdi.

Xalq arasında "Nərimanovun qiraətxanası" adını almış bu kitabxananın kitab fondu müxtəlif dillərdə olan ədəbiyyatlardan ibarət idi. Müvafiq olaraq onun oxucularının tərkibi də beynəlmiləl idi.

Elm. Rusiyanın kapitalist yolu ilə inkişafının tələbatı ilə əlaqədar Azərbaycan elminin inkişafında böyük irəliləyişlər baş verdi. Qafqaz dağ-mədən idarəsinin geoloqları və mühəndisləri Gədəbəy, Daşkəsən. Zəngəzur və Naxçıvanın filiz yataqlarında çöküntülərin tərkibini, əmələgəlmə səbəbini öyrənir, bu rayonların geoloji xəritələrini tərtib edirdilər.

Abşeronda öz tədqiqatlarını davam etdirən Qafqaz geologiyasının atası Q.V.Abix yarımadadakı çöküntülərin stratiqrafik sxemini tərtib edərək, onun təsvirini verdi və palçıq vulkanları ilə neftlilik arasınıda geoəlaqə olduğunu göstərdi. Q.V.Abixin ardınca rus və Avropa geoloqları Abşeron yarımadasında vulkanik hadisələri öyrənir, yarımadanın geoloji xəritəsini tərtib edirdilər.

Neft geologiyası ilə əlaqədə neft kimyası da inkişaf edirdi. Bakı neftinin kimyəvi cəhətdən tədqiqinin əsası neft işinin vəziyyətini öyrənmək məqsədilə üç dəfə (1876, 1880, 1886) buraya gəlmiş D.İ.Mendeleyev tərəfindən qoyulmuşdur. O,sürtgü yağlarının istehsal texnologiyasını işləyib hazırlamış, neft məhsullarının xüsusi cəki cədvəlini tərtib etmişdi.

Rus Texniki Cəmiyyətinin 1879-cu ildə açılmış Bakı şöbəsi neft quyularının qazılması texnikası və metodlarının, neft məhsullarının analizi və təmizlənməsi üsullarının təkmilləşdirilməsinə böyük

kömək göstərdi. Azərbaycanlı mütəxəssislər M.Hacınski, İ.Rzayev, F.Rüstəmbəyov, A.Mirzəyev bu cəmiyyətin üzvləri idilər.

80-90-cı illərdə Bakının neftayırma zavodlarında neftin kimyəvi emalı üzrə laboratoriyalar fəaliyyətə başladı. Kimya sahəsində ilk azərbaycanlı kimyaçı alim Mövsüm bəy Xanlarov bu laboratoriyaların birində tədqiqat işinə başladı. Bu dövrdə Bakının neftayırma zavodlarında Xanlarovdan başqa, Rusiya və Avropada ali təhsil almış bir sıra digər azərbaycanlı kimyaçılar S.P.Qəmbərov, İ.T.Əmirov, A.İ.Babayev və digərləri də işləyirdi.

XIX yüzilliyin son qərinəsində Azərbaycanda biologiya, kənd təsərrüfatı və təbabət üzrə biliklərin yayılması və inkişafı daha çox Həsən bəy Zərdabinin (1842-1907) adı ilə bağlıdır. O, ilk milli qəzeti - "Əkinçi"ni nəşr etdirir (1875-1877-ci illər), "Kaspi" qəzetində işləyir (1896-1907-ci illər), kəndlilərin mənafeyinin mülkədar-bəylər və çar məmurları tərəfindən tapdanılmasına qarşı açıq çıxışlar edirdi.

H.Zərdabinin ardınca Rusiya kənd təsərrüfatı elminin və təcrübəsinin nailiyyətlərini Moskva Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasının məzunu Nəcəf bəy Vəzirov da təbliğ edirdi.

Bu dövrdə Azərbaycanda tarixi biliklər inkişaf etməkdə davam edirdi. Azərbaycan tarixçiləri orta əsrlərin tarixi ənənələrini inkişaf etdirərək öz əsərlərini əsasən Qarabağın, Lənkəranın və Şəkinin xanlıqlar dövrü tarixinə, onların Rusiya tərəfindən işğalından əvvəl baş vermiş hadisələrə həsr edirdilər. Belə əsərlərdən birinin müəllifi Mirzə Yusif Qarabağı idi. Şərh etdiyi hadisələrin çoxunun şahidi olan Mirzə Yusif 1855-ci ildə fars dilində "Tarixi-safi"ni yazmışdır. Burada Qarabağ xanlığının tarixi, Rusiya-İran müharibələrinin gedişi, Cənubi Qafqazın Rusiya tərəfindən işğalı təsvir edilmişdir.

Rzaqulu bəy Cavanşir 70-ci illərdə öz atası Mirzə Camalın "Qarabağnamə"sinə bəzi əlavələr etmişdi. "Xəzani" təxəllüsü ilə

şeirlər yazan Mir Mehdi Haşımzadə 80-ci illərdə Qarabağın müfəssəl tarixini tərtib etmişdi. Onun "Kitabi-tarixi-Qarabağ" adlı əsərində xanlığın 1747-ci ildən 1828-ci ilə qədərki tarixi təsvir olunur .

Peterburq kadet korpusunun məzunu Əhməd bəy Cavanşirin "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığının siyasi tarixinə dair" əsərində ilk mənbələr əsasında Qarabağ xanlığının siyasi tarixi qısa, xronoloji ardıcıllıqla şərh edilir, Ağa Məhəmməd şah Qacarın Qarabağa hücumu və Şuşanın mühasirəsi zamanı yerli əhalinin onun ordusuna neçə böyük müqavimət göstərdiyindən danışılır.

Seyid Əli Kazım bəy oğlunun "Cavahirnameyi-Lənkəran" adlı əlyazması Lənkəran, Talış haqqında çoxlu coğrafi, iqtisadi, arxeoqrafik məlumatlarla zəngindir.

Şəkidə və Gəncədə şəriət və bəy məhkəmələrində işləmiş Hacı Seyid Əbdülrəhim"Şəki xanlığının və xanların nəsillərinin şəcərəsi" adlı salnaməsində Şəki və onun hakimləri haqqında bəzi əlavə məlumatlar verir.

Çingiz xan imperiyası dövründən Rusiya işğalına qədər İran şahlarının Şimali Azərbaycana müdaxilələri İran şahzadəsi Abbas Mirzənin oğlu Bəhmən Mirzə tərəfindən işıqlandırılmışdır. Onun fars dilində yazılmış "Şükürnameyi-şahənşahi" adlı əlyazması başdan-başa rus çarının ünvanına təriflərdən ibarətdir.

Azərbaycanın və bütün Yaxın Şərqin tarixinin ayrı-ayrı məsələləri XIX yüzillikdə Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri M.F.Axundovun, Ə.Ağayevin, N.Nərimanovun, S.M.Qənizadənin, H.Mahmudbəyovun, F.Köçərlinin, F.Sultanovun, Ə.Hüseynzadənin, C.Hacıbəyovun, M.T.Sidqinin və başqalarının əsərlərində əks olunmuşdu. Peşəkar tarixçi olmasalar da, onlar o dövrdəki dövrü mətbuatda - "Qafqazın vilayət və tayfalarının təsviri üçün materiallar məcmuəsi"ndə, "Qafqaz", "Novoye obozreniye", "Kaspi" və s. orqanlarda elmi məqalə və məlumatlarla çıxış edirdilər.

İran mədhiyyə tarixşünaslığına qarşı tənqidi iradlar M.F.Axundovun fəlsəfi traktatı "Kəmalüddövlə məktubları"nda da öz inikasını tapır. Qafqaz arxeologiyasının üzvü olan M.F.Axundov bir çox rus şərqşünasları ilə yazışır və şəxsi dostluq münasibətləri saxlayırdı.Tarixi biliklərin inkişafında H.Zərdabi yaradıcılığının böyük əhəmiyyəti var idi.

Şamaxı realnı məktəbin müəllimi S.Ə.Şirvani Azərbaycan tarixinə dair iki əsər yazmışdır: "Şirvan xanlığının tarixi" və "Şirvanın keçmişi və görkəmli yerləri haqqında məlumatlar". Onlardan birincisi bizə qədər gəlib çatmamışdır və güman ki, Şirvanın hərbi-siyasi tarixindən, Şirvanşahların şəcərəsindən bəhs edirdi. İkincisi isə şairin doğma diyarının arxeologiyasına, etnoqrafiyasına, maddi mədəniyyət abidələrinə həsr olunmuşdur.

B.A.Dorn, M.İ.Brosse, N.V.Xanıkov, A.P.Berje kimi bir çox şərqşünaslar, V.Q.Belinski, V.A.Drujinin, N.Q.Çernışevski kimi ədəbi tənqidçilər Azərbaycanın ayrı-ayrı yazıçı və alimlərinin həyat və yaradıcılığı haqqında xeyli tərifli fikir və rəylər söyləmişlər.

Mətbuat. XIX yüzilliyin ikinci yarısında Şimali Azərbaycanın mədəni həyatının ən mühüm hadisəsi Azərbaycandilli mətbuatın meydana gəlməsi idi.

H.Zərdabi bu yolda böyük zəhmət sərf etmişdi. Qəzetin nəşrinin təşkilində H.Zərdabiyə o zamankı Bakı qubernatoru D.S.Staroselski yardım göstərmişdi. Onun cəhdləri ilə Bakı səhnəsində M.F.Axundovun bir sıra pyeslərinin ilk tamaşası təşkil edilmiş, Şamaxıda üçsinifli məktəb açılmışdı. Məhz D.S.Staroselskinin vəsatəti ilə ilk Azərbaycan qəzetinin mətbəəsi üçün İstanbuldan şrift alınmış, qəzet çap olunmağa başlamışdı.

“Əkinçi” qəzetinin ilk nömrəsi 1875-ci il iyulun 22-də işıq üzü gördü. Bu xəbər bütün Qafqazda geniş əks-səda doğurdu. H.Zərdabi

qəzetin təkcə naşiri və redaktoru deyil, həm də onun korrektoru, bəzən isə hətta mürəttibi idi.

1875-1877-ci illərdə "Əkinçi"nin 56 nömrəsi çıxmışdı. Geniş kütlələrin "Əkinçi"yə marağını oyatmaq üçün H.Zərdabi qəzetin pulsuz yayılması vasitəsinə də əl atdı.

H.Zərdabi tədricən "Əkinçi"nin ətrafında ziyalılar və təhsil alan gənclərdən ibarət kifayət qədər böyük bir fəallar qrupunu birləşdirdi. Bu qəzet bütün Şərq dünyasının Avropa üsulunda nəşr olunmuş birinci mətbu orqanı idi. Onu həm də Qərb ölkələrində tanıyırdılar.

"Əkinçi" mütərəqqi maarifçı, demokratik ideyaları təbliğ edir, mövhumata, cəhalətə və avamlığa qarşı çıxır, Azərbaycan gerçəkliyinin bir çox zəruri problemlərini qaldırırdı. Qəzet təhsil və tərbiyə məsələlərinə xüsusi əhəmiyyət verir, məktəblərdə yeni təlim və tərbiyə üsullarının tətbiq edilməsinə tərəfdar çıxırdı: "Əkinçi" Azərbaycanda qadın təhsilinin, qadınların ictimai həyata cəlb olunmasının zəruriliyini müdafiə edən ilk Azərbaycan qəzeti idi.

"Əkinçi"nin demokratik ideyaları bəzi mürtəce bəylər, ruhanilər və çar məmurları tərəfindən narahatlıqla qarşılanırdı. Qaragüruhçular ona qarşı çıxırdılar. 1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin başlanması ilə çar senzurası qəzetdə siyasi xarakterli məsələlərə toxunmağı qadağan etdikdən sonra "Əkinçi" üçün ağır şərait yarandı. Belə şəraitdə hökumət 1877-ci ilin sentyabrında qəzetin nəşrinin dayandırılması barəsində fərman verdi.

"Əkinçi"nin nəşri dayandıqdan iki il sonra Tiflisdə Azərbaycan dilində başqa bir qəzet –"Ziya" çıxmağa başladı. Onun birinci nömrəsi 1879-cu il yanvarın 16-da çıxdı. Sonra "Ziya" qəzeti "Ziyayi-Qafqaziyyə" adı altında çıxmağa başladı. Özü də bu qəzet mətbəə üsulu ilə çap olunurdu. Onun nəşri 1884-cü ilədək davam etdi. Bu müddət ərzində qəzetin 104 nömrəsi çıxdı. "Ziyayi-Qafqaziyyə" qəzeti daha geniş proqram üzrə nəşr olunurdu. 1880-ci ildə Tiflisdə

Seyid Ünsizadənin qardaşı Cəlal Ünsizadə tərəfindən "Kəşkül" adlı yeni qəzet nəşr olunmağa başladı. "Kəşkül" qəzetdən çox jurnala oxşayırdı. "Kəşkül" öz ideya istiqamətinə görə "Əkinçi"yə yaxın idi. 1884-cü ildən "Kəşkül" həftəlik qəzetə çevrildi və 1891-ci ilədək nəşr edildi. Qəzetin səhifələrində A.A.Bakıxanov, M.F.Axundov, S.Ə.Şirvani və başqalarının yaradıcılığına geniş yer verilirdi.

Çar hökuməti Azərbaycan dilində mətbuat orqanlarının nəşrinə hər vasitə ilə mane olurdu. Ana dilində qəzet və jurnalların çox məhdud miqyasda çap olunduğu bir şəraitdə Azərbaycan mədəniyyət xadimlərindən çoxu öz publisistik fəaliyyətlərini Qafqazın rusdilli mətbuatı vasitəsilə davam etdirir, İran, Türkiyə, Misir və Hindistanda çıxan qəzetlərin səhifələrində məqalələrlə çıxış edirdilər.

Tiflisdə çıxan "Vozrojdeniye", "Zakafqazye" jurnallarında, "Zakavqazskaya reç. Yejenedelnoye obozreniye" qəzetində C.Məmmədquluzadə, Ə.Sultanov, N.Nərimanov, H.Minasazov "Müsəlman şöbələri" adı ilə xüsusi rubrika açaraq, orada öz məqalələrini dərc etdirirdilər.

80-90-cı illərdə Bakıda rus mətbuat orqanları - əvvəlcə "Kaspi" qəzeti (1881-ci ildən), sonra isə "Birjevıye vedomosti" və başqa qəzetlər çıxmağa başladı. Azərbaycan və rus mətbuat orqanlarının sayının artması ilə əlaqədar olaraq Bakı, Şamaxı, Gəncə və başqa şəhərlərdə ilk mətbəələr, litoqrafiyalar və digər poliqrafiya müəssisələri yaradıldı. 1900-cü ildə Bakıda artıq 16 mətbəə işləyirdi.

Ədəbiyyat.XIX yüzilliyin ikinci yarısında Azərbaycan ədəbiyyatını şərtləndirən başlıca amil maarifçilik olmuşdu. Bu prinsiplər ilk növbədə komediya janrında öz həllini tapmışdır. Azərbaycan ədəbiyyatında dramaturgiyanın banisi M.F.Axundovdur.O,50-ci illərdə bir-birinin ardınca yazdığı komediyaları ilə Azərbaycan ədəbiyyatında dramaturgiyanın bünövrəsini qoymuş və yalnız Azərbaycanda deyil, ümumən Yaxın

Şərq ölkələrində ilk dramaturq kimi böyük şöhrət qazanmışdır. M.F.Axundov komediyaların mövzusunu real həyatdan almışdı, öz dövrünün aktual məsələlərinə toxunmuşdu.

Böyük yazıçının yaratdığı surətlər aləmində mənfi "qəhrəman"ları xüsusi əhəmiyyət kəsb edir. Məsələn, "Hekayəti-Molla İbrahimxəlil kimyagər" komediyasında, Molla İbrahimxəlil, "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyasında Məstəli şah surətində o, tüfeyli həyat surən, xalqın şüurunun oyanmasına, mədəni inkişafına ciddi əngəl törədən ictimai zümrələri kəskin tənqid atəşinə tutmuşdur. Komediyaların ardınca M.F.Axundov "Aldanmış kəvakib" povestini yazmış, ədəbiyyatımızda bədii nəsrə tam hüquq qazandırmışdır.

80-90-cı illərdə yazılmış dram əsərlərinin bir hissəsi N.Vəzirovun "Ev tərbiyəsinin bir şəkli", "Daldan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", Ə.Goraninin "Qocalıqda yorğalıq", Ə.Haqverdiyevin "Yeyərsən qaz ətini, görərsən ləzzətini" komediyalarında ailə-məişət həyatının bir sıra səciyyəvi cəhətləri təsvir edilmişdir. Bu illərdə yazılmış dram əsərlərinin ikinci qismi -N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", "Pəhləvani-zəmanə" komediyaları və "Müsibəti-Fəxrəddin" faciəsi, N.Nərimanovun "Nadanlıq", "Dilin bəlası" komediyaları və "Nadir şah" faciəsi, Ə.Haqverdiyevin "Dağılan tifaq" və "Bəxtsiz cavan" faciələri isə Azərbaycan realist ədəbiyyatını və maarifçi-demokratik fikrini yeni bir mərhələyə qaldıran pyeslərdən olmuşdur.

70-ci illərdə Cənubi Azərbaycandan olan Mirzə Ağa tərəfindən dörd komediya yazılmış və bununla Cənubi Azərbaycanda, eləcə də İran ədəbiyyatında dram janrı öz təşəkkülünü tapmışdır. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi C.Məmmədquluzadə 1894-cü ildə yazdığı "Danabaş kəndinin əhvalatları" povestində Azərbaycanın kənd həyatına mənsub olan xüsusiyyətlərini açıb göstərir.

Azərbaycan ədəbiyyatında satirik şeir cərəyanının inkişafında görkəmli şair S.Ə.Şirvani böyük xidmət göstərmişdir. O, Şamaxıda yeni üsullu məktəb açaraq müəllimlik etmiş, dövrünün bir sıra qabaqcıl ziyalıları, xüsusən H.Zərdabi, görkəmli rus pedaqoqu A.O.Çernyayevski ilə yaxından dostluq əlaqəsi yaratmış, yeni tipli dərslik hazırlamış, "Əkinçi", "Ziya" və "Kəşkül" qəzetlərində silsilə şeirlər dərc etdirərək, böyük hörmət qazanmışdır.

Aşıq şeiri də mühüm bir inkişaf yolu keçmişdir. Azərbaycanda Aşıq Mahmud, Aşıq Məhəmməd, Çoban Əfqan, Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər, Aşıq Alı, Molla Cuma kimi aşıqlar məhəbbət mövzusunda, lirik şeirlər - qoşmalar yazmaqla aşıq poeziyasında məhəbbət lirikasının inkişafı sahəsində mühüm rol oynamışlar.

Bu dövr aşıq şeirinin ən görkəmli nümayəndəsi Aşıq Ələsgər olmuşdur. O, 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində yoxsul bir kəndli ailəsində doğulmuş, uşaq yaşlarından hakim dairələrin zülm və özbaşınalığını, xalq kütlələrinin məşəqqətli həyat tərzini bilavasitə müşahidə etmişdi.

Ələsgər dövrünün görkəmli aşığı Aşıq Alının şagirdi olmuş, ondan aşıq sənətinin sirlərini dərindən öyrənmişdi.

XIX yüzilliyin əvvəllərindən başlayaraq, Azərbaycanda yeni tarixi şəraitin yaranması ədəbi dilimizin inkişafına da təsir göstərmişdi. Mirzə Kazım bəy hələ XIX yüzilliyin ortalarında göstərmişdi ki, türk-tatar xalqları arasında maarifin yayılması və məktəb şəbəkəsinin genişlənməsi ədəbi dilin inkişafı üçün ən vacib şərtdir.

İncəsənət. Kapitalist istehsal üsulunun təşəkkülü şəraitində təsviri sənət yeni formalarda inkişaf edirdi.Yeni realist meyillər portret janrında aydın müşahidə edilirdi. Bu sahənin aparıcı sənətkarı Mirzə Qədim İrəvanı idi. İrəvani 1850-ci illərdə İrəvan xan sarayındakı güzgülü salonun divar naxışlarının vurulmasında iştirak

edərək, dörd iri portret çəkir. Bu dövrdə digər rəssamın - Mir Mövsüm Nəvvabın əsərləri sadəliyi, lakin gerçəkliyin realist dərkinin nisbətən zərif cizgilərlə ifadəsi ilə fərqlənir. Portret janrı Nəvvabı az maraqlandırırdı. Nəvvabın daha uğurlu işləri rəssamın müşahidə qabiliyyətinə və peşə ustalığına dəlalət edir. Onun "Quş", "Güllər" və s. əsərləri dolğunluğu ilə fərqlənir.

Məşhur Azərbaycan şairəsi Xurşud-banu Natəvanın rəsmlərində də realizm əlamətləri müşahidə olunur. O, əla bədii tikmə ustası, xəttat və rəssam idi. Onun şeirlərinin əlyazmalarından ibarət albomunda 80-ə yaxın rəsm saxlanılmışdır. Onlardan bəziləri ("Bülbül və qızıl gül", "Şam və pərvanə") şairənin lirik şeirlərinə çəkilmiş illüstrasiyalardır. Onun "Şəhərin görünüşü", "Dəniz peyzajı" kimi kiçik rəsmləri öz üslubuna görə qeyri-adi və orijinaldır. Natəvanın əri Xasay Usmiyev şairənin hazırladığı bədii tikməli tütün kisəsini 1858-ci ildə Bakıda olarkən məşhur fransız yazıçısı Aleksandr Dümaya bağışlamışdı. A.Düma şairənin əl işindən vəcdə gələrək demişdi ki, bu onun üçün ən gözəl hədiyyədir.

Milli teatrın əsasının qoyulması bu dövrdə mühüm hadisə oldu. 1873-cü il martın 10-da Bakıda M.F.Axundovun "Lənkəran xanının vəziri" pyesinin tamaşası göstərildi. Bunun təşəbbüskarları H.Zərdabi və onun şagirdi N.Vəzirov idi. Rolları həmin məktəbin şagirdləri ifa edirdilər.Həmin ilin aprelində isə ikinci tamaşa - M.F.Axundovun "Hacı Qara" komediyası oynanıldı. Bunlar müsəlman şərqində ilk teatr tamaşaları idi. Ətrafında yeni-yeni qüvvələrin cəmləşdiyi Bakı teatr həvəskarları qrupu 1883-cü ildə peşəkar qrupa çevrildi, həmin ildə görkəmli mesenat H.Z.Tağıyev teatr binası tikdirdi. Qısa müddət ərzində Bakıda bir sıra istedadlı teatr xadimləri yetişdi. Onlarm arasında Cahangir Zeynalov, Həbib bəy Mahmudov, Nəcəfqulu Vəliyev və b. seçilirdi. 90-cı illərdə teatrın repertuarı əsasən N.Vəzirov, N.Nərimanov, Ə. Haqverdiyevin əsərlərindən ibarət idi.

Musiqi sənətinin inkişafı iki istiqamətdə gedirdi. Bir tərəfdən aşıq, xanəndə və sazəndə ansambllarının yaradıcılığı inkişaf edir, digər tərəfdən isə Avropa və rus mədəniyyətinin təsiri altında yeni forma Azərbaycan musiqi sənətinə daxil olur və tədricən möhkəmlənirdi. Azərbaycanın xalq məişətində geniş yayılmış rəqs sənəti də milli özünəməxsusluğu ilə fərqlənirdi. Bu sənət "Turacı", “Uzundərə", "Tərəkəmə", "Mirzəyi", ”Qaytağı" rəqsləri ilə təmsil olunmuşdu, "Yallı", "Cəngi" kimi kollektiv rəqslər xalq arasında çox məşhur idi.

Sadıq (Sadıqcan), Xarrat Qulu, Hacı Hüsü, Məşədi İsi, Keçəçi Məhəmməd, Ələsgər Abdullayev, Cabbar Qaryağdıoğlu, Məcid Behbudov və s. təkcə Qafqazda deyil, həm də onun hüdudlarından kənarda mahir çalğıçılar, yüksək istedadlı xanəndələr kimi məşhur olmuşlar. Bu dövrdə Bakıda şəhərsalma özünəməxsusluğu ilə səciyyələnirdi.Neft sənayeçisi Muxtarovun villası (indi Azərbaycan MEA Dendroloji parkı), 90-cı illərin əvvəllərində Mərdəkanda tikilmiş ilk villalardan biri kimi səciyyəvidir.Muxtarovun villası Bakı varlılarının şəhərkənarı villalarının tikintisinin başlanğıcını qoydu. 1897-1901-ci illərdə Muxtarovun villası ilə yanaşı, Əsədullayevin villası tikildi. Bakı şəhərtikmə tarixində görkəmli Azərbaycan memarı Qasım bəy Hacıbababəyovun yaradıcılıq fəalliyyəti xüsusilə seçilir.Q.Hacıbababəyov İçərişəhərdən kənardakı tikintinin əsas həlqələrindən birini təşkil edən Parapet adlı mərkəzi meydanın tikintisini həyata keçirdi. Memarın iri tikintilərindən biri də böyük karvansara (Araz kinoteatrı) idi. Bu binanı o özü 1863-cü ildə layihələndirmiş, qrafika işlərini isə onun köməkçisi, sonradan Bakının ən görkəmli memarlarından biri olmuş Məşədi Mirzə Qafar İsmayılov görmüşdü.

XVII FƏSİL
ŞİMALİ AZƏRBAYCANDA MAARİFÇİLİK VƏ MİLLİ OYANIŞ.

Maarifçilik və milli oyanış sosial-iqtisadi yüksəlişin qanunauyğun nəticəsi kimi.

Xalqımız tarix səhnəsinə çıxandan daima yadelli işğalçıların hücumlarına məruz qalaraq azadlıq mübarizəsi aparmışdır. Azərbaycan millətinin təşəkkülü ilə bağlı olaraq bu mübarizə XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində Rus imperiyasına qarşı milli-azadlıq xarakteri almışdır. Əslində Qacarlar dövləti və Rusiya imperiyası arasında iki yerə parçalanmış (1813-cü il Gülüstan, 1828-ci il Türkmənçay müqavilələri) Azərbaycanın şimal və cənubunda müstəmləkə zülmünə qarşı mübarizə hələ XIX yüzilliyin əvvəllərində başlamışdır. Şəki (1806-1838),Gəncə, İrəvan (1826), Car-Balakən (1830), Lənkəran (1831), Quba(1837) üsyanları bunun əyani ifadəsi idi.

Mirzə Bala Məmməzadə "Milli Azərbaycan hərəkatı"adlı kitabında bununla əlaqədar yazırdı ki, Qafqaz millətləri hürriyyyətlərini (azadlıqlarını) ruslara çox baha satdılar. Burada yarım əsr qan töküldü. Lakin Qafqaz millətindən rus istilasına qarşı vuruşan yalnız Şimali qafqazlılarla azərilər,yəni müsəlmanlar (Azərbaycan əhalisi) olmuşdur. Rusların Qafqazda arxalana biləcəkləri bir qüvvə vardısa,o da ermənilər idi.

Gürcüstan əvvəlcə Qacarların himayəsində bir dövlət idisə, bağladığı müqavilə ilə Rusiya himayəsinə keçdi.Rus çarı I Aleksandr bu müqaviləni pozdu, Gürcüstan dövlətini məhv etdi, onu öz torpaqlarına qatdı. Gürcülər həmin andan etibarən Rusiya əleyhinə mübarizəyə girişdilər.

Çarizm ermənіləri tarixi Azərbaycan torpaqlarında yerləşdirməklə geniş məqsədə, o cümlədən xalqımızı əsarətdə

saxlamaq məqsədini güdürdü. Tarixin sonrakı gedişində isə məhz onların əli ilə azərbaycanlılar arasında oyanmaqda olan milli özünüdərk prosesini boğmağa çalışırdı.

Gülüstan və Türkmənçay sülh müqavilələri Şimali Azərbaycanı Rusiyanın müstəmləkəçilik pənçəsinin altına salsa da, özü də bilməyərəkdən xalqımızın gələcək istiqlal hərəkatı üçün sosial-iqtisadi və siyasi zəmin yaratmış oldu.

Azərbaycan milli hərəkatının öndərlərindən M.Ə.Rəsulzadə "Əsrimizin Siyavuşu" əsərində məsələ ilə bağlı bildirir ki, rus istilasının yaxşılığı bu oldu ki, azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəni qurumları olan bir cəmiyyət, yəni farslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar.

Millət ağır vəziyyətdən xilas olmaq üçün Azərbaycanda yeni bir ictimai zümrənin yetişməsini gözləməli idi.Bu da XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəllərində yaranan milli sənaye burjuaziyası və Avropa yönümlü ziyalı təbəqəsi oldu. M.F.Axundovla H.Zərdabinin açdıqları milli oyanış dövrü,mədəni millətçilik hərəkatı bu təbəqənin yetişib güclənməsinədək çox ağır bir yol keçmişdir. Halbuki yeni sərmayədar zümrənin - milli burjuaziyanın yaranması və bu zümrənin əcnəbi sərmayədarlarla rəqabəti yeni ziyalı zümrənin fəaliyyətinin genişlənməsinə və bu sahədə mədəni hərəkatın Avropa əsasları üzərində inkişafına imkan verirdi.

Bir sıra tədqiqatçılar tərəfindən milli azadlıq hərəkatının dövrləşdirilməsi aparılmışdır. Boran Əziz mənbələrin və müxtəlif tədqiqat əsərlərinin təhlili nəticəsində belə qənaətə gəlmişdir ki, 100 ildən artıq davam edən milli-azadlıq hərəkatı 4 mühüm dövrdən keçmişdir.

I dövr 1875-1904-cü illəri əhatə edir. Bu dövr H.Zərdabi tərəfindən "Əkinçi"nin nəşrə başlaması, milli hərəkatın ideya-siyasi,nəzəri əsaslarının, dil və din birliyinin ortaya atılması,

“Azərbaycan”, “azərbaycanlı”, “Azərbaycan türkü”, “Türk milləti” anlayışlarının gündəliyə çıxarılması və onun müzakirəsi, milli özünüdərkin baş verməsi ilə əlamətdardır.

II dövr 1905-ci il - fevral 1917-ci illəri əhatə edir. Bu dövr hərəkatın açıq siyasi meydana çıxması, milli maraqları əsas götürən “İttifaqı-Müslimin”, “Difai”, “Müsavat”, kimi milli partiyaların yaranması ilə əlamətdardır. Xalq içərisində böyük nüfuz qazanmış “Həyat”, “İrşad”, “Molla Nəsrəddin”, “Açıq söz” və digər mətbuat orqanlarının meydana gəlməsi, Cənubi Azərbaycanda Səttarxanın başçılığı altında baş verən milli-demokratik hərəkat və ölkəmizdəki erməni-müsəlman qırğınının bütün Azərbaycan türkləri içərisində azərbaycançılıq dünyagörüşünə təsiri, milli-azadlıq hərəkatında millətçi, liberal, inqilabçı millətçi, mürtəce yaxud dini mühafizəkar cərəyanların yaranması, M.Ə.Rəsulzadənin yaratdığı milli ideologiyanın ortaya çıxması, milli hərəkatda ümmətçilikdən türkçülüyə keçiddə Ə.Ağaoğlu,Ə.Hüseynzadə,Ə.Topçubaşovun rolu dövrün əsas süsusiyyətlərini təşkil edirdi.

III dövr 1917-ci il martından Azərbaycan Cümhuriyyətinin ytaranmasınadək olan dövrü əhatə edir..Bu dövrdə yeni ictimai-siyasi təşkilatlar yarandı. Qafqaz türklərinin Bakı, Rusiya türklərinin Moskva qurultaylıarının qərarları, ərazi muxtariyyəti prinsipinin irəli sürülməsi, hərəkatın türkçülükdən azərbaycançılığa keçməsi, “Müsavat”partiyasının milli azadlıq hərəkatının aparıcı qüvvəsinə çevrilməsi, Mart soyqırımı, hərəkatın ərazi muxtariyyəti ideyasından müstəqil dövlət ideyası müstəvisinə keçməsi,Cümhuriyyətin yaranması, Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı(1917-1920-ci illər) dövrü səciyyələndirir.

IV dövr 28 aprel 1920 - oktyabr 1991-ci illəri əhatə edir. Azərbaycan SSR-də sovet işğal rejiminə qarşı müqavimət hərəkatı, xaricdə gizli milli təşkilatların yaranması, 1941-1946-cı illərdə Cənubi

Azərbaycanda milli-azadlıq hərəkatı, 1950-ci illərin ikinci yarısı-60-cı illərdə sovet Azərbaycanında gizli milli təşkilatların yaranması, XX yüzilliyin sonundan başlayan milli-azadlıq mübarizəsinin Azərbaycanın Dövlət Müstəqilliyinin bərpası ilə başa çatması – bu dövrün əsas xüsusiyyətləridir.

Çar hökümətinin yeritdiyi müstəmləkəçilik siyasəti imperiyanın digər milli ucqarlarına nisbətən Azərbaycanda daha sərt olmuşdu. Çarizm köçürmə siyasəti ilə Azərbaycan kəndlilərinin torpaqlarını əllərindən zorla alaraq bura köçürülən almanlar, ermənilər, ruslara, bir sözlə xristianlara torpaq paylamaqla özünə xrsitian əksəriyyətindən ibarət sosial, dini, etnik dayaq yaratmaq məqsədini güdürdü. Həm də Azərbaycanla İran və Osmanlı arasında "xristian divarı"yaratmaqla Azərbaycandakı müsəlmanların həmin ölkələrdəki dindaşları ilə əlaqəsini qırmaq istəyirdi.Tarixçi Cahangir Zeynaloğlu "Müxtəsər Azərbaycan tarixi"əsərində yazır ki, çar hökümməti Azərbaycana mühacirəti asanlaşdırmaq üçün mühacirət (köçürmə) idarəsi yaratmışdır. Qacarlardan Şimali Azərbaycana köçürülən ermənilərin köçməsinə erməni mənşəli Lazarevin başçılığı ilə köçürmə komitəsi məşğul olurdu. Çarizmin köçürmə siyasətinin arxasında ölkəmizin iqtisadi sərvətlərinə sahib olmaq, mənimsəmək istəyi də dururdu. M.B.Məmmədzadəyə görə parçalanmış Azərbaycan, işğalçı Rusiyadan mədəni səviyyəyə görə çox yüksək səviyyədə idi. Xüsusilə sosial, iqtisadi və hüquqi vəziyyəti baxımından Azərbaycan Rusiyadan daha üstün idi. Rusiyada orta əsrlərdən başlayaraq 1861-ci ilədək bir köləlik rejimi mövcud idi, hər bir hüquqdan məhrum kəndli bazarda əşya kimi satılırdı. Bu həmin dövrdə Azərbaycanda ağıla belə gəlmirdi. Kəndlilərin müəyyən hüquqi statusu vardı. Rus tarixçisi İvanenko Azərbaycanda xanlıqlar dövründə mütərəqqi vergilərdən yazır, sonra isə kinayəli tərzdə komendantlarla xanlar arasındakı fərqi izah

edir.Xanlıqlar dövründə qadınlara bədən cəzası verilməzdi, rus komendantları isə kişilərlə bərab ər,qadınları da qırmancla döyürdülər.

Rus işğalınadək Azərbaycanda belə yazılmamış qanun var idi ki, torpaq tanrının olub hökmdarın şəxsində dövlətə məxsus idi.Kəndlilər torpağı becərir və əvəzində vergi verirdilər. Kəndli ilə xan arasında vasitəçi rolu oynayan bəy zümrəsi mülkiyyət hüququna sahib olmadığı kimi bu vasitəçilik vəzifəsini özbaşına, irsən olaraq övladına ötürmək hüququna malik deyildi.

Ruslar gəldikdən sonra vəziyyət tamamilə dəyişdi. Onlar müharibə zamanı öldürdükləri və yaxud sülh yolu ilə təslim olmuş xanları və onların övladlarını müxtəlif hiylələrlə Rusiyaya aparıb ortadan götürdülər. Bəy və ağa zümrələrini də idarəçilikdən məhrum etdilər. Torpağı kəndlinin mülkiyyəti və istifadəsinə vermədilər. Lakin çar hökümətinin Azərbaycanda arxalana biləcəyi bir sosial zümrəyə ehtiyacı var idi.Halbuki o bəy-ağa zümrəsinə etibar etmirdi. Ona görə burada almanlar, ermənilər, molokon, duxobor ruslarını yerləşdirsə də, bu kifayət etmədi. Rus mülkədar və təhkimli kəndlilərini də burada yerləşdirmək fikrinə düşdü.

Çar və bolşevik Rusiyası işğal dövründə ona maneə ola biləcək yeganə qüvvə olan ali zümrəni siyasi, fiziki və iqtisadi baxımdan sıradan çıxarmaq və zərərsizləşdirmək siyasəti yeritmişdir. Lakin qraf Paskeviç bu təklifi Rusiya üçün təhlükəli hesab etmişdi.Onun fikrincə hakim rus millətinə mənsub rus kəndlisinin əsir və kölə vəziyyəti sərbəst yaşayan Azərbaycan kəndlisinin yanında gülünc görünəcək və rus çarizminin dayağı olan rus mülkədarları üçün qorxulu vəziyyət yaradacaq. Buna görə də Azərbaycanda xanlıq sistemi müvəqqəti saxlanıldı, yalnız xanların yerində rus komandirləri otururdu.Onların zülmü, yalnız türk və müsəlman əhalisinin deyil, erməni camaatının da üsyanına səbəb olmuşdu. Əhali rus hakimiyyətinə qarşı üsyan etdi.

Rusiya Azərbaycanda yerlilərdən arxalandığı hakim zümrə tapmaq üçün tədbirlər gördü. Çar I Nikolay (1825-1855) 1846-ci il 6 dekabr Fərmanı ilə bəy və ağalardan ibarət mülkədar təbəqəsi (Ali müsəlman silki) yaratdı, torpağı onların mülkiyyətinə verdi, kəndliləri də onların təbəəsi elan etdi. Kəndlilər də bu mülkədarlara xidmət etməli idi. Siyasi cəhətdən hüquqsuzluq isə yenə də davam etdi. Rusiyada kapitalizmin yaranması və inkişafı milli ucqarlarda, o cümlədən ölkəmizdə də burjua islahatları keçirməyi zəruri edirdi. Buna görə də XIX yüzilliyin 60-70-ci illərində kəndli, məhkəmə, şəhər və inzibati idarə sahəsində islahatlar keçirildi. Müstəmləkəçilik və milli ayrı-seçkilik siyasəti bu islahatlarda özünü aydın büruzə verirdi. Məsələn, Rusiyadan fərqli olaraq Şimali Azərbaycanda dövlət sahibkar kəndlisinə pay torpağını satın alıb öz mülkiyyətinə keçirmək üçün borc pul vermirdi. Kəndlini bu pay torpağını satın almağa məcbur etmirdi.Torpağın satınalma qiyməti də Rusiya ilə müqayisədə yüksək idi.Ona görə kəndlilərin böyük hissəsi torpaq ala bilmədi. Göründüyü kimi torpaq sahəsində hüquqlar rus və gürcü kəndlilərinə aid edilmiş, Azərbaycan kəndlilərindən isə əsirgənmişdi. Çünki torpaq sahibi olan kəndli maddi və mənəvi cəhətdən inkişaf edə bilərdi, öz taleynin sahibi olardı. Mədəni-siyasi hüquqlar əldə etməyə çalışardı.

Siyasi bərabərsizlik özünü məhkəmə islahatında göstərirdi. Qafqazda “andlı iclasçıların”iştirakı nəzərdə tutulmurdu. Guya andlı iclasçılar cinayətkarları bağışlaya bilərdi. Məhkəmə işinə rusca baxılırdı.Yerli dillərdən istifadə qadağan idi, hakim ruslardan təyin olunurdu Şəhər özünüidarəsi bələdiyyə sahəsindəki islahat müstəmləkəçiliyin qabarıq təzahürü idi. 1870-ci il Şəhər Əsasnaməsinə görə xristian olmayan əhali, o cümlədən müsəlmanlar Qafqaz şəhər idarələrinə “qlasnıların”(deputatların) yarıya qədərini seçə bilərdi. Xristianlardan (rus, erməni, gürcü və s.) 4900 kişinin səsvermə hüququ 2900 xristian olmayan kişinin səsvermə hüququna bərabər idi. Bu,

Bakı, Yelizavetpol və digər şəhərlərdə azərbaycanlı (müsəlman) xan, bəy, tacir və ziyalıların milli hüququnun pozulmasına səbəb oldu. Müstəmləkə siyasəti hərbi xidmət sahəsində aparılırdı.Qonşu erməni və gürcülərdən fərqli olmaq azərbaycanlılar müsəlman olduğu üçün çarizmin nəzərində etibarsız sayılırdı, hərbi xidmətə aparılmırdı. İstisna hal kimi xan-bəy ailələrindən çıxan gənclər oxuduqdan sonra orduda zabit kimi xidmət edə bilərdilər. Onlar sayca çox az idilər. Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti qurulanda cəmi 50 azərbaycanlı zabit tapılmışdır.

Məhz buna görə 1917-ci ildə gürcü, erməni, hətta Volqaboyu tatarları asanlıqla ordu hissələri yarada bilsələr də, Qafqaz müsəlmanları bu məsələdə böyük çətinliklərlə üzləşmişdilər.

Çar Rusiyasının dövlət idarəçilik sistemi "zahirən parıltılı,daxilən çürük"idi.Yəni çar Rusiyası işğaldan sonra vətənimizdə qanunsuzluq, özbaşınalıq, soyğunçuluq, yerli camaatın şəxsiyyətini əzən idarə üsulu yaratmışdır.

Müstəmləkəçilik siyasəti mənəvi sahələri də əhatə edirdi. Hökümət ana dilli məktəblərin, qəzetlərin açılmasına icazə vermirdi. Bəzi hallarda açılanları da təqib edirdi.Yəni məktəblərdə ana dili məcburi fənn deyildi. Ona çox az saat ayrılırdı. Ana dili müəllimləri hüquqi baxımdan başqa fənn müəllimlərilə bərabər tutulmurdu.

Azərbaycanlı gənclərin ali təhsil almalarına məhdudiyyətlər qoyulmuşdu.Texniki ali məktəblərə daxil olmaq çətinləşdirilmişdir. Digər ixtisaslar üzrə ali məktəbləri bitirənlərin işlə təminatına maneələr yaradılırdı.Ruhanilər və ruhani idarələri polis nəzarəti altında idi. Ruhani olmaq üçün rus dilini bilmək tələb olunurdu. Məscidlərin tikilməsi də nəzarət altına alınmışdı. Bəzi tarixi memarlıq abidələri sökülmüş və ya hərbi təsərrüfat məqsədləri üçün istifadə olunurdu. Lakin bu yeni sinfi-milli burjuaziyanı meydana gətirən də Rusiya deyildi. Rusiya həyatın bütün sahələrində olduğu kimi iqtisadi sahədə

də Azərbaycana heç bir yenilik gətirməmişdir. Bakının işğalından sonra neft mədənlərini və istehsalı xanlıq dövrü üsulu ilə 1872-ci ilədək idarə edən rus hökuməti o vaxtadək mövcud olmuş yerli sənayeçiliyi ortadan qaldırmış, neft mədənlərini müsadirə etmişdi.

Deməli, rus istilası ölkəmizdə hər sahədə olduğu kimi, sənaye və ticarət sahələrində də bir durğunluq yaratmış, mövcud burjuaziyanı (sənayeçiləri) məhv etmişdi. Neft sənaysində müqatiə (iltizam) sisteminin ləğvi haqqında çar hökümətinin 1872-ci il 17 fevral qanunu nəinki Bakının, Azərbaycanın sosial-siyasi, iqtisadi həyatında ciddi dəyişikliklərə səbəb oldu.

Neft verən torpaqların hərrac (auksion) yolu ilə uzunmüddətli icarəyə verilməsi Bakıda yerli və Rusiya kapitalının neft sənayesinə axınına səbəb oldu. Bakıda neft sənayesi firmaları və şirkətlərinin sayı ilbəil artdıqca onların arasında rəqabət gücləndi.

Rusiyada təşəkkül tapan yeni sosial-siyasi şəraitin təsiri altında neft əraziləri xüsusi əllərə keçdikdən sonra, xüsusilə Avropa kapitalı Bakıya daxil olduqdan sonra neft sənayesi canlanmış və yeni sənaye burjuaziyası yaranmışdır. İqtisadi sahədə müstəmləkəçilik siyasəti dözülməz həddə çatmışdı.Azərbaycan sərvətləri əsasən yadellilərin əlində idi. Azərbaycanlı burjuaziyaya qarşı ayrı-seçkilik siyasəti tətbiq olunduğu üçün qeyri-bərabər vəziyyətə salınmışdı və o bundan ciddi narazı idi. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev kimi böyük sənayeçilərlə çar hökuməti milli mənsubiyyətə görə müqavilə bağlamırdı.Hətta onların nefti hökümətə daha ucuz satmaq istəməsinə baxmayaraq hökümət "Qafqaz və Merkuri","Nobel qardaşları"kimi şirkətlərlə işbirliyi yaratmağı üstün tuturdu.Belə siyasətin yeridilməsi nəticəsində H.Z.Tağıyev məcbur olub gəmiçilik şirkətini öz rəqiblərinə satmağa məcbur olmuşdu.

Beləliklə, ölkəmizdə milli azadlıq hərəkatı çar Rusiyasının burada uzun müddət siyasi, mənəvi, iqtisadi sahədə apardığı müstəmləkəçilik siyasətindən doğan obyektiv prosesin nəticəsi olaraq yaranmışdır.

Maarifçilik hərəkatı. Milli hərəkatın özünəməxsus xüsusiyyətlərilə yanaşı, ümumi xüsusiyyətləri də vardır. Bu ümumi xüsusiyyət isə maarifçilikdir.Milli hərəkat tarixinin tədqiqatçılarından fikrincə bütün dünyada, milli hərəkatın ilkin mərhələsini milli mədəniyyət, maarifçilik uğrunda mübarizə təşkil edir.

Uzun müddət Azərbaycan sovet tarix elmində belə bir ideya mövcud idi ki, guya sovet hakimiyyəti qurulanadək ölkənin əhalisi savadsız olmuşdur. Azərbaycan xalqı geridə qalmış bir toplum olmuşdur.Lakin faktlar tarixin bütün dövrlərində Azərbaycanda təhsil ocaqlarının mövcudluğunu sübut edir. Erkən orta əsrlərdə kilsələrdə və atəşpərəst məbədlərin nəzdində məktəblər fəaliyyət göstərirdi. Xilafət dövründə məktəb (mollaxana) və mədrəsələri birləşdirən müsəlman təhsil sistemi formalaşmağa başladı və zaman keçdikcə nəinki Azərbaycana, həmçinin dünyaya nəhəng elm, ədəbiyyat və incəsənət xadimləri bəxş etdi. XIX yüzilliyin əvvəllərində Şimali Azərbaycanın rus müstəmləkəsinə çevrilməsi ilə təhsil sisteminin inkişafında yeni mərhələ başlandı. Ənənəvi təhsil sistemi qalmaqla yanaşı, yüzilliyin 30-40-cı illərində dünyəvi təhsil verən bir sıra dövlət məktəbləri açıldı.O dövrün qabaqcıl maarifçi ziyalıları İsmayıl bəy Qutqaşanlı, Qasımbəy bəy Zakir, Hacı Zeynalabdin Şirvani, Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh ana dilində məktəblərin açılması uğrunda mübarizə aparırdılar. Milli ziyalıların özülünü əsasən ədəbi-bədii, publisist fəaliyyətlə məşğul olan müəllimlər təşkil edirdilər.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 16 may 2017-ci il tarixli Sərəncamında deyilir: "XIX yüzilliyin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü

ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə, milli özünüdərkin gərçəkləşməsi üçün zəmin hazırladı. A.A.Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli mafkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər.Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictmai-siyasi fikir mərkəzinə çevrilmişdir. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad demokratik dövlət sistemi yaratmağa hazır idilər".

Rusiya və Avropanın qabaqcıl ictimai-fəlsəfi fikrindən müəyyən dərəcədə təsirlənən Azərbaycan maarifçiliyi əsas etibarilə ölkənin tarixi inkişafı nəticəsində meydana gələn kapitalist münasibətlərindən doğan zəruri bir hadisə idi. Qərbi Avropa və Rusiyada olduğu kimi,Azərbaycanda da maarifçi demokratların ictimai-iqtisadi həyatında, məişətində, məfkurəsində hakim olan feodalizmə və onun təzahürlərinə qarşı mübarizə idi. Azərbaycan maarifçi-demokratları sinifli cəmiyyətlərdəki mənfi təzahürlərin əsl səbəblərini görə bilmədikləri üçün bu cəmiyyətlərə xas olan hüquqsuzluğun, istismarın və yoxsulluğun cəhalətdən doğduğuna inanırdılar. Belə vəziyyətdən xilas yolunu, xalqın səadətini, azadlığını maarifdə görür, qabaqcıl Avropa, həmçinin Rusiya həyat tərzini təbliğ edirdilər. Digər tərəfdən Azərbaycan maarifçi demokratları xalq kütlələrinin, başlıca olaraq kəndlilərin mənafeyini müdafiə edirdilər. Çünki maarifçilik dövründə kəndlilər feodal-mütləqiyyət əsarətindən hələ azad edilməmişdilər,ya da yenicə azad edilməkdə idilər.Onlar hələ cəmiyyətin əsas istehsalçı sinfi idilər.Burjua cəmiyyətinin sinifləri-kapitalist və fəhlələr yeni təşəkkül tapırdılar.

XIX yüzilliyin ortalarında Azərbaycanda qabaqcıl ictimai fikrin, maarifçiliyin ən görkəmli nümayəndəsi M.F.Axundov(1812-1878)idi. O, əhalinin hamılıqla savadlanması, milli mədəniyyətin irəliləməsi üçün köhnə ərəb əlifbasının latın əlifbasına dəyidirilməsini vacib sayırdı.Onun hazırladığı yeni əlifba "Əlifbeyicədid"mütərəqqi təhsil sisteminə keçirilməsində mühüm addım idi. O,bu əlifbanı qəbul etdirmək üçün İstanbul və Tehran şəhərlərində olmuşdu. Maarif sistemində əsas sima olan milli müəllim kadrlarının hazırlanmasına böyük önəm verən M.F.Axundov Qori müəllimlər seminariyasında Azərbaycan bölməsinin açılmasına çalışırdı. Bu bölmə onun ölümündən sonra,1879-cu ildə açıldı.Azərbaycan ziyalılarının böyük bir nəsli bu seminariyanın məzunu olmuşdur. Təkcə 1879-cu ildən 1898-ci ilədək seminariyanı 89 azərbaycanlı bitirmişdir.Yetişən bu nəsli çox zaman Azərbaycan ziyalılarının ikinci nəsli adlandırırlar.

M.F.Axundzadənin davamçısı olan Həsən bəy Zərdabi Moskva Universitetini bitirib Bakıya qayıdaraq "Əkinci"adlı ilk türkcə qəzet nəsr etdirdi. O, Avropa üslubunda ilk azərbaycanlı müəllim, ilk mühərrir, ilk maarif xeyriyyə cəmiyyətinin banisi, ictimai xadim idi.

Mirzə Bala Məmmədzadə göstərir ki, H.Zərdabi Avropa maarif sisteminin və tərbiyə üsulunun,mədəniyyətinin ana dilində mənimsənilməsini irəli sürən ilk mütəfəkkirimizdir. H.Zərdabi bir millətin yalnız ana dilində yazıb yaradacağı təqdirdə irəliləyə biləcəyinə inandırdı.Elmin məktəblərdə,gimnaziyalarda ana dilində tədris olunmasını istəyən H.Zərdabi millətə müasir məktəblər yaradılmasını,bu məktəblərə müasir metodlarla dünyəvi elmlər haqqında ana dilində kitabların və əsərlərin nəşr olunmasını təklif edirdi.H.Zərdabi hələ o dövrdə türk dillərinin birləşdirilməsi fikrini ortaya atmışdı. "Əkinçi"qəzeti millətin oyanışında məktəblərin rolunu yüksək qiymətləndirir, bu mövzu ilə bağlı silsilə məqalələr dərc edirdi. Məsələn, Nəcəf bəy Vəzirovun məqalələrinin birində köhnə və yeni

məktəblərin təlim, tərbiyə, tədris üsulları müqayisə olunur.Köhnə məktəbin yetişən nəsildə qorxaqlıq, mütilik aşıladığını tənqid edirdi.Belə məktəblərin millətin inkişafına töhfə verə bilmədiyini vurğulayırdı.H.Zərdabi yazarları xalqın həyatından yazmağa,onun dərdlərini, qayğılarını əks etdirməyə çağırırdı.

H.Zərdabi hürriyyət fikrini meydana ataraq yazırdı ki,Qərbdə hürriyyət mövcud olduğu üçün mədəniyyət inkişaf etmişdir.Şərqdə isə məhz hürriyyət yoxdur.O,ailədə,həyatda və siyasətdə qorxu və əsarət rejiminin mövcud olmasından şikayət edərək uşağı atasının,qadını ərinin,nökəri ağasının,rəiyyəti padşahın əsarətindən xilas etməyin tərəfdarı olduğunu göstərir və belə bir rejimə dözdüyümüzə heyrət edirdi.Onun elmə,təhsilə bu qədər əhəmiyyət verməsi millətin gələcək tərəqqisinin yalnız bu yolla mümkün olması qənaəti ilə bağlı idi.Həsən bəyin fikrincə diriliyin və dirçəlişin əsasında milli tərəqqi dayanırdı. H.Zərdabinin irəli sürdüyü məsələnin kökündə millətin millət olaraq varlığını,birliyini yaratmaq problemi dayanırdı.Onun fikrincə bunun iki başlıca şərti vardır:dil birliyi və din birliyi.Elə ki,bunlardan birisi əldən getdi,tayfanın,millətin beli sınan kimidir.İkisi də gedəndə, tayfa qeyri tayfalara qarışır,yox olur. H.Zərdabi dil və din birliyi yaradılamasında,elmin öyrənilməsində ana dilli demokratik mətbuatın,doğma dildə təhsil verən məktəblərin zəruriliyini qeyd edirdi.O,"Əkinçi"qəzetində fanatizm və mövhumat əleyhinə çıxır,maarifçi və demokratik ideyaları təbliğ edir, elm və təhsilə qarşı çıxan şəriət xadimlərini ifşa edirdi. Zərdabi qeyd edirdi ki,din hər bir tayfanın(millətin)minillik mənəviyyat dünyasının qaynağıdır, buna görə də millət ulu babalarının inanc və düşüncə varlığını, bu varlığın yazılı qaynağı olan müqqəddəs kitabı-Quranı göz bəbəyi kimi qoruyub saxlamalıdır ki, yabancı dünyaların mənəvi basqını qarşısında özgələşməsin,yox olmasın. Bu böyük insanın gərgin əməyi sayəsində "Əkinçi"qəzeti çar Rusiyasında (ictimai-siyasi fəaliyyətin qadağan

olunduğu dövrdə) xalqımızın ictimai-siyasi, ədəbi-bədii, fəlsəfi-estetik düşüncələrini milli hərəkatın daşıyıcısına çevirmişdir. O,tarixə müraciət edərək bildirirdi ki,nə zaman ki,xəlifələrin yerində sultanlar,hökmdarlar əyləşdi və xalqın ipi ruhanilərin əlinə düşdü,hökumət nümayəndələri öz faydalarından ötrü xalqı gözübağlı saxlamaq üçün məktəbxanalarda ancaq şəriət ədiblərinin boş ibarəli sözlərlə aldatmağın dalına düşüb,xalqı yoxsul və sərgərdan edib,özləri keyflə məşğul oldular.Məktəbxanalarda da mollalıq məsələsini araya salıb,xalqı elm yolundan uzağa saldılar.

H.B.Zərdabi ana dilli milli mətbuatın əhəmiyyəti haqqında yazırdı ki,qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir,öz dilini öyrədir.Buna görə də "Əkinçi"qəzetinin dilinin də sadə, aydın, anlaşıqlı olmasına çalışırdı. Azərbaycan ziyalıları ana dilli mətbuat uğrunda daim mübarizə aparmış və bu məqsədlə dönə-dönə hökümətə müraciət etmişlər.Məhəmmədtağı Əlizadə,Məhbus Dərbəndi və başqaları H.B.Zərdabinin yolunu davam etdirərək "ittifaqi millət"-milli birlik fikrini ortaya atmışdılar.Əslində "Əkinçi"nin də məramı bu idi. H.B.Zərdabinin məqsədini rus çarizmi və onun "buyruq qulu"olan ermənilər yaxşı başa düşdükləri üçün ona qarşı mübarizəyə başladılar.Bu mənada Tiflisdə Qriqor Arsurinin redaktorluğu ilə nəşr olunan "Mşak"qəzeti ("Əməkçi") daha çox Zərdabini tənqid edərək yazırdı ki, heç görünübdür ki, bizim zəmanədə elmli adam xalqı məhkəməyə getməyə çağıra və ittihadi-islam fikrinə düşə. Neçə əsrdir ki,erməni,gürcü və başqa tayfaları zorla müsəlman etmisiniz,indi də onları ittihadi-islam adı altında birləşdirmək istəyirsiniz. Biz elm sahibiyik,elm almağa qabiliyyətimiz var.Verin bizə bizim yerləri keçmişdə onları güc ilə zəbt etmisiniz...

Milli hərəkatımızın "Əkinçi"dövründə böyük iş görüldü. "Türk milləti"anlayışı dövriyyəyə gətirildi,bir millət kimi öz varlığını qoruyub inkişaf etdirmək üçün dilimizin və dinimizin qorunması,yeni

tipli məktəb və mətbuatın yaradılması zərurəti düşünülmüş bir siyasi proqram kimi irəli sürüldü. Başlıcası bu arzuların həyata keçirilməsi naminə "milli birlik"yaratmağın vacib olması aydınlaşdı.

"Əkinçi"bağlandıqdan sonra Azərbaycan ziyalıları ana dilində mətbuat yaradılması naminə inadla çalışdılar.C.Ünsizadənin Tiflisdə, ana dilimizdə nəşr etdirdiyi "Ziya"(1879-1880)adlı həftəlik qəzet"Əkinçi"ənənələrinə uyğun olaraq milli-mədəni məsələlərimizlə bağlı yazılar dərc etdirdi. Əvvəlcə Tiflisdə, sonra Şamaxıda nəşr olunan "Ziyayi-Qafqaziyyə" (1880-1884) qəzetində Nəcəf bəy Vəzirovun,Seyid Əzim Şirvaninin və başqalarının məqalələri işıq üzü gördü.1883-cü ildə Tiflisdə C.Ünsizadənin redaktorluğu ilə ana dilində "Kəşkül"adlı jurnalın nəşrinə başlandı. 1884-cü ilin martından qəzetə çevrilən "Kəşkül" fasilələrlə 1891-ci ilədək fəaliyyətini davam etdirən bu qəzetdə H.B.Zərdabi, S.Ə.Şirvani, F.Köçərli, M.Şahtaxtlı, S.M.Qənizadə kimi ziyalılar öz yazıları ilə fanatizmə, cəhalətə, geriliyə qarşı çıxır, maarifçilik, milli birlik ideyaları təbliğ olunurdu. Burada həmçinin əlifba, ana dili məsələlərinə diqqət yetirilirdi. 1891-ci ildə "Kəşkül"qəzetinin nəşrinin dayandırılması ilə Azərbaycan dilli mətbuat öz fəaliyyətinə son qoydu.1891-1903-cü illərdə Azərbaycanda ana dilli mətbuat olmamışdır.Azərbaycan ziyalıları Bakıda rusca nəşr olunan "Kaspi", "Бакy"qəzetlərində oxuculara öz düşüncələrini çatdırırdılar. Azərbaycan ziyalıları ana dilli mətbuat uğrunda mübarizədə geri çəkilməmiş və bu məqsədlə dəfələrlə hökümətə müraciət etmişlər. Lakin hökümət onlara rədd cavabı vermişdir.Buna baxmayaraq ziyalılarımız çarizmin müstəmləkəçilik siyasətinə qarşı mübarizə və milli mətbuat uğrunda fəaliyyətlərini davam etdirmişlər. Nəhayət,1903-cü ildə Məhəmmədağa Şahtaxtlı Tiflisdə Azərbaycan dilində "Şərqi-Rus"qəzetinin nəşrinə nail ola bildi. Bu qəzet "Kaspi"və Bağçasarayda çap olunan "Tərcüman(1883-1917)"ideyasını davam etdirir, milli və dini ideyaları təbliğ edirdi. İsmayıl bəy Qaspiralı

(1851-1914) “Tərcüman”qəzetində və əsərlərində bütün türkləri bir küll halında götürür.Onları ortaq və bir dil ətrafında birləşdirmək istəyirdi.Buna görə də o “Tərcüman”ı bütün türklərin anlayacağı ortaq və təmiz türkcə nəşr etdirdi.

Milli oyanışın bu dövründə Ə.Hüseynzadənin (1864-1940)fəaliyyəti xüsusilə əhəmiyyətli olmuşdur. Hələ 1904-cü ildə Misirdə çıxan “Türk”qəzetində türk-birliyi, hətta panturanizm ideyasını ortaya atan Ə.Hüseynzadə Bakıda, “Həyat”qəzetində çap etdirdiyi “Türklər kimdir və kimlərdən ibarətdir?”, “Bizə hansı elmlər lazımdır” və digər məqalələrində türk millətinin irq və dil etibarilə bit millət olduğunu, bir vəhdət təşkil etdiyini, bu millətin müasir elmləri alaraq müasirləşmək məcburiyyətində olduğunu isbat edərək “türkləşmək, islamlaşmaq və avropalaşmaq”kimi düstur irəli sürmüşdür. Böyük türk ideoloqu Ziya Göyalp (1876-1924) Ə.Hüseynzadənin düsturunu “türkləşmək, islamlaşmaq və müasirləşmək” formatına salmışdır. İ.Qaspiralı “Rusiya müsəlmanları”(1881)əsərində göstərir ki,Asiya və Avropanın bir hissəsində böyük bir millət türk-tatar milləti məskunlaşmışdır. Lakin bu millət dağınıq, zəif, başqa millətlərə nisbətən elm və mərifətcə, sərvət və mədəniyyətcə çox geridə qalmışdır. O,həyəcanla bildirirdi ki, belə davam edərsə,əbədi mübarizə qanununa uyğun olaraq məhv olacaq, başqa millətlər tərəfindən udulacaqdır. İ.Qaspiralının əsas şüarlarından biri də “işdə, əməldə və fikirdə birlik”idi. Onun bu şüarı Azərbaycan mütəfəkkiri Ə.Hüseynzadə tərəfindən “türkləşmək, islamlaşmaq və avropalaşmaq” şəklinə salınaraq bir prinsip halına gətirildi. XX yüzilliyin əvvəlləri türklüyün milliyyət dövründən millət dövrünə keçdiyi dövrdür. Bu mücadilənin nəticəsində milli azadlıq hərəkatının ideoloji prinsipləri və nəzəri əsasları-dil və din birliyi,buna nail olmaq üçün elmə sahib olmağın,elm öyrənmək üçün doğma dildə mətbuatın vacibliyi və onun əhəmiyyəti ortaya atılmış,ziyalılar bunu

reallaşdırmaq üçün fəaliyyətə başlamışdılar.Bunun nəticəsində vətənin adının Azərbaycan,özünün milli kimliyinin türk olması fikri formalaşmağa başlamış, milli oyanış baş vermişdir. 1902-ci ildə Bakı texniki məktəbinin 17 yaşlı şagirdi Məhəmməd Əmin Rəsulzadə Bakıda inqilabi "Müsəlman Gənclik Təşkilatı"nı yaradır.O, "Gənclik Təşkilatı"nı 1904-cü ildə "Müsəlman Demokratik Müsavat Cəmiyyəti"nə çevirmiş M.Ə.Rəsulzadə bu dövrdə son dərəcə populyar olan sosial-demokratiya ideyalarının təsiri altına düşür və onun rəhbərlik etdiyi cəmiyyətin əsasında RSDFP-nin Bakı Komitəsinin nəzdində "Hümmət" təşkilatı yaradılır. Təşkilatın "Hümmət"(1904-1905),"Təkamül" (1906-1907), "Yoldaş" (1907) qəzetləri çap olunmuşdur. M.Ə.Rəsulzadə bu qəzetlərin əsas rəhbərlərindən və redaktorlarından idi.Gizli fəaliyyət göstərən cəmiyyətin xeyli üzvü var idi. Beləliklə, Azərbaycan tarixində maarifçilik hərəkatı əvvəlcə ziyalıların fikir dünyasında doğmuş və bu fikirlər həqiqi xalq həyatına ötürülmüşdür. Millətlərin oyanış çağında o millətin içində yetişən ziyalı öncüllərə görə əvvəlcə mənsub olduğu millətin kimliyi və keçmiş zamanlardakı vəziyyəti araşdırılır, incələnir,sonra geri qalmış xalqa bu geriliyin səbəbləri izah olunur, əsarət altına düşmüş xalqa onun kimliyi tanıdılır Nəticədə, müstəmləkə əsarətində olan xalq öz mənliyini öyrənir, keçmiş zamanlarda atalarının əsarət altında yaşamadıqlarını və sözün əsil mənasında müstəqil, azad yaşadıqlarını, müstəqil dövlət qurduqlarını anlayır. Bununla da millətin şüuru oyanır və azadlıq mübarizəsinə başlayır.

XVIII FƏSİL
ŞİMALİ AZƏRBAYCAN İQTİSADİYYATI
(1900-1914-CÜ İLLƏR).

Cədvəl: 1.

XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəllərində Azərbaycanda əhalinin artım dinamikası:

1897-ci il	**1.876 min nəfər**
1910-cu il	**2,317 min nəfər**
1913-cü il	**1.139 min nəfər**

Cədvəl: 2

XX yüzilliyin əvvəlində Azərbaycanda ticarət müəssisələrinin dərəcələri:

I dərəcə	**topdan satış ticarət**
II dərəcə	**topdan və pərakəndə satış**
III dərəcə	**yalnız pərakəndə satış**
IV dərəcə	**xırda satış**
V dərəcə	**malı yükləyib və ya əllə gəzdirib satmaqla məşğul olanlar**

Cədvəl: 3

XXyüzilliyin əvvəlində Bakı şəhərində tacirlərin tərkibi:

il	**tacirlərin sayı**	**azərbaycanlı**	**erməni**	**rus**	**digərləri**
1903	**14.945**	**7.084**	**3.559**	**2.489**	**1.873**

Xalq təsərrüfatının strukturu. XX yüzilliyin əvvəllərində Azərbaycanda xalq təsərrüfatının, o cümlədən sənaye və kənd təsərrüfatının inkişafi ayrı-ayrı sahə və müxtəlif bölgələr üzrə qeyri-bərabər səviyyədə davam edirdi. Azərbaycan artıq Rusiya imperiyası sənayesi üçün ucuz xammal mənbəyinə və əlverişli satış bazarına çevrilmişdi. Yalnız Rusiya sənayesi üçün xammal və yanacaq istehsal edən sənaye sahələri inkişaf edə bilirdi. Kənd təsərrüfatında və sənayedə hakim olan qayda-qanunlar, imperiyanın ehtiyacını ödəməyə yönəldilmiş tələblər həlledici idi və onlar Azərbaycanın müxtəlif qəzalarında iqtisadiyyatın inkişaf meyillərini müəyyənləşdirirdi.

Sürətlə inkişaf edən Rusiya sənayesinin yanacağa böyük ehtiyacı var idi və Abşeron yarımadası neft yataqları ilə zəngin olduğundan Bakı nəhəng neft sənayesi mərkəzinə çevrilmişdi. Bununla əlaqədar olaraq, Bakıda həm neft sənayesinin, həm də durmadan artan şəhər əhalisinin ehtiyaclarını ödəyən digər istehsal sahələri də yeyinti, tikinti materialları, mədəni-məişət obyektləri də çoxalırdı.

Azərbaycan qəzalarında da bir sıra sənaye sahələri inkişaf etməkdə idi. Gədəbəydə dağ-mədən sənayesinin istehsal etdiyi məhsul metropoliya sənayesi üçün zəruri xammal idi. Eyni sözləri regionlar üzrə paylanan pambıqçılıq və ipək sənayesi barədə də demək olar. Tikinti materialları, yeyinti, yüngül və başqa sənaye sahələri isə Azərbaycan sənayesində o qədər də böyük mövqe tutmurdu.

Azərbaycan sənayesinin müxtəlif sahələrinin inkişafında hökm sürən qeyri-bərabərlik onun müxtəlif regionlardakı xammal zənginlikləri ilə bağlı idi. Məsələn, Bakıda neft, Gədəbəydə mis, Xəzər dənizi, Araz və Kür çayları boyu ərazilərdə balıq, Şəkidə və Ordubadda ipək, Kür-Araz ovalığı bölgələrində pambıq əldə edilirdi. Azərbaycanın digər hissəsi aqrar təsərrüfat sahəsi idi. Bu yerlərdə əmtəə xarakterli kənd təsərrüfatı məhsulları istehsal olunurdu.

Azərbaycanın sənaye istehsalı üç iri kapitalist müəssisəsi növü ilə təmsil olunmuşdu: 1) ayrı-ayrı şəxslərin mülkiyyətində olan müəssisələr; 2) ticarət evləri; 3) səhmdar kompaniyalar. Sonuncu növ iki formada - ya səhmdar cəmiyyətləri və ya pay şirkətləri kimi fəaliyyət göstərirdi. Qalan növlər isə kapitalistlərin dar və məhdud cəmiyyətləri idi. Kapitalist müəssisəsinin ən ali forması olan səhmdar kompaniyaları kapitalın geniş surətdə təmərküzləşməsini təmin edir, rəqabətə daha asanlıqla tab gətirir, geniş sayda səhm sahiblərini birləşdirirdi.

Səhmdar kompaniyaları müəssisələrin əsas təşkilat forması idi. Onlar ticarət evlərini, ticarət evləri isə təkbaşına çalışan xüsusi mülkiyyətçiləri sıxışdırırdı. Buna baxmayaraq, kapitalist müəssisələrinin hər üç növdən olan müxtəlif formaları yaşayır və sayca da artırdı.

İri kapitalist müəssisələri əsasən neft sənayesi və onunla bağlı sənaye sahələrində təmsil olunmuşdu. Bu sahələr neftçıxarma, neft emalı, buruqqazma, maşınqayırma, metaltökmə və qazan istehsalı, təmir zavodlarını birləşdirən mexaniki istehsal müəssisələrindən; həmçinin iri tütün fabrikləri, iri un və çəltik dəyirmanları, iri dəmiryol-nəqliyyat xidməti müəssisələrindən və "Elektrosila"dan ibarət idi. Bakıda H.Z.Tağıyevin iri toxuculuq fabriki, yüzlərlə gəmisi olan Bakı gəmiçiliyinə xidmət edən tərsanə fəaliyyət göstərirdi. Xəzər dənizində və Volqa çayında bakılı sahibkarların yüzlərlə neftdaşıyan gəmisi üzürdü.

Azərbaycanın digər qəzalarında da iri kapitalist müəssisələri var idi. Onlar Gədəbəy və Qalakənd mis yataqları və misəritmə zavodları, iri balıqçılıq vətəgələri, Şəkidə və Şuşada iri ipək sap fabrikləri və iri ticarət müəssisələrindən, bank və kredit idarələrindən ibarət idi.

İri kapitalist müəssisələrinin əsas göstəricisi kapitalın mərkəzləşməsi və təmərküzləşməsi idi. 1901-ci ildə Bakıda istehsal

olunmuş neftin 70,5%-i səhmdar cəmiyyətlərin payına düşürdü. Səhmdar cəmiyyətləri neft və onunla bağlı sənaye sahələri ilə yanaşı, digər təsərrüfat sahələrində, həmçinin yeyinti və yüngül sənaye sahələrində də fəaliyyət göstərirdi.

İnhisarçı kapital öz fəaliyyətini əsasən torpaq sahiblərinə borc verməyə yönəldərək, səhmdar torpaq bankları vasitəsilə kənd təsərrüfatı sahələrinə soxulurdu.Dəmir yol cəmiyyətləri dövlət-kapitalist müəssisələrinin xüsusi növü idi. Bakı-Batumi neft kəməri, həmçinin rabitə vasitələri inhisarçılarla bağlı olan dövlətə məxsus idi.

Azərbaycan qəzalarında da kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesi gedir, onlardakı ipək, dağ-mədən, balıq, pambıqtəmizləmə, sement istehsalı sənayelərində və digər sahələrdə onlarla səhmdar cəmiyyət fəaliyyət göstərirdi. Lakin qəzalarda, Bakıdan fərqli olaraq, səhmdar cəmiyyətləri yox, ticarət evləri üstün mövqe tuturdu.

Azərbaycanda, o cümlədən Bakıda inhisar kapitalından kənarda qalmış və ayrı-ayrı sahibkarların mülkiyyətində olan sənaye müəssisələri də var idi. Bu sənaye müəssisələri sırasına Nuxa və Şuşa qəzalarında, Ordubadda, həmçinin Zaqatala dairəsində olan xam ipək emalı fabriklərinin böyük hissəsi, Göyçay qəzası, Ağdaş, Kürdəmir və Hacıqabulda pambıqtəmizləmə zavodları, Şamaxı və Yelizavetpol qəzalarında bəzi çaxır zavodları, Nuxa qəzası və Zaqatala dairəsində tütün fabrikləri, Bakıda və qəzalarda kapitalist tipli yeyinti, yüngül sənaye sahələri, tikinti materialları istehsal edən müəssisələr, mətbəələr və s. daxil idi.

Azərbaycan şəhərləri - Bakı, Şuşa, Gəncə, Şəki və başqaları kapitalist şəhərləri idi. Həmin şəhərlərdə ticarət burjuaziyasını I və II dərəcə gildiya tacirlər, həmçinin gildiyası olmayan alverçilər təşkil edirdilər.

Azərbaycanda böyük əksəriyyəti əhatə edən dövlət kəndlərində torpaq sahibliyi dəyişikliklərə məruz qaldı. Dövlətlə onu becərən kəndlilər arasındakı münasibətlər 1900-cü ilin mayında verilmiş "Xəzinə torpaqlarında məskunlaşmış Cənubi Qafqaz dövlət kəndlilərinin torpaq quruluşu haqqında qanun"da öz əksini tapdı. Bu qanuna görə, dövlət kəndliləri şəxsən azad idilər. Lakin dövlət torpağın mülkiyyətçisi olaraq qalır və bu torpaqlardan istifadə edən kəndlilər dövlət xəzinəsinə torpaq vergisi ödəməli idilər.

Xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayan kəndlilər isə, bəy torpaqlarından istifadə etdiklərinə görə, məhsul və pulla vergi ödəməli idilər. Bu vəziyyət 1912-ci ilə qədər davam etdi. 1912-ci il qanunu ilə feodal torpaq mülkiyyəti ləğv edildi, kəndlilər öz pay torpaqlarının sahibkarlarına çevrildilər. Buna baxmayaraq, torpaq sahibliyinin yarımfeodal xarakteri var idi, belə ki, torpaq üzərində çarizmin sahibkarlıq hüququ və bəy-mülkədar torpaq sahibliyi qalırdı. Lakin bu dövrdə bəy torpaq sahibliyinin xarakteri müəyyən qədər dəyişdi. Birincisi, bəy torpaqları artıq bəy nəslindən olmayanlara da satıla bilərdi. İkincisi və ən başlıcası o idi ki, bəylərin bir qismi əmtəə-pul münasibətlərinin inkişafının təsiri altında, təsərrüfat yaratmağın torpağı icarəyə verməkdən daha əlverişli və gəlirli olduğunu görərək, muzdlu əməyə əsaslanan təsərrüfatlar yaratdılar. Az sonra onların bir qismi kapitalist təsərrüfatlarına çevrildi.

Azərbaycanda təbəqələşmə prosesinin sürətlənməsi nəticəsində qolçomaqlardan, sələmçilərdən, dükançılardan ibarət kənd kapitalistləri, muzdla işləyən torpaqsız və aztorpaqlı kəndli təbəqəsi formalaşdı. Lakin muzdlu əmək üzərində qurulmuş böyük təsərrüfatlar deyil, kəndlinin öz əməyi ilə becərdiyi kiçik təsərrüfatlar daha üstünlük təşkil edirdi. Kiçik kəndli təsərrüfatlarının bir qismi varlanaraq kənd burjuaziyasının sırasına daxil olur, torpaq sahəsini genişləndirir və muzdlu əməyə əsaslanan təsərrüfatlar yaradırdı.

Kənddə baş verən bu proseslər "qolçomaq", "muzdur", "muzdla işləyən kəndli" kimi yeni söz və ifadələr gətirirdi. Kənd təsərrüfatında sənaye və bank kapitalı ilə bağlı iri kapitalist mülkiyyətləri də yaranırdı. Sənaye kapitalı, demək olar ki, kənd təsərrüfatının bütün sahələrinə daxil olmuşdu. Z.Tağıyev, Qukasov qardaşları, A.M.Benkendorf və başqaları xüsusən üzümçülük və şərabçılığa xeyli kapital qoymuşdular.

Azərbaycanda ticarət və sələm kapitalı əsasən mübadilə dairəsində fəaliyyət göstərirdi. Adətən kənddə eyni bir adam həm möhtəkir və həm də sələmçi olurdu. Sələmçilər özlərinin kənd kapitalı ilə yanaşı, banklardan götürdükləri və kənd təsərrüfatı məhsulları satan firmalardan aldıqları məbləğ hesabına fəaliyyət göstərirdilər. Onlar kəndlilərin məhsullarını həmin firmalara sataraq, onların sahibi olan sənaye sahibkarlarını kənd təsərrüfatına cəlb edirdilər.

Kənd varlıları, zavod sahibləri, müxtəlif sənayeçilərin və ticarət firmalarının nümayəndələri olan alıcı-sələmçilər borc verməklə kəndliləri asılı vəziyyətə salırdılar.

Beləliklə, XX yüzilliyin əvvəllərində əmtəə istehsalının geniş inkişafı nəticəsində Azərbaycan kəndində istehsal üsulu artıq kapitalist istehsal üsulu idi. Alıcı-sələmçilər kapitalist istehsal üsulunun təşkilatçılarına çevrilirdi. Həm də bu, o deməkdir ki, Azərbaycan kəndində kəndlilərin istismarı mahiyyəti etibarilə kapitalist istismarı idi.

Bununla birlikdə Azərbaycanın sosial-iqtisadi strukturunda feodal münasibətlərinin bəziləri qalmaqda idi və aşağıdakı sosial-iqtisadi ukladlarla təmsil olunurdu:

l.Feodal asılı kəndlilərin bir qismi şəxsən azad olsalar da, bəy-mülkədarlardan, torpaq sahiblərindən bir növ asılı olub, istifadələrində olan pay torpaqlarına görə onlara vergi ödəyirdilər.

2. Yarımpatriarxal və yarımnatural. Kiçik torpaq payları, yaxud bir neçə baş qaramalı olan kəndlilər qapalı həyat sürürdülər. Onların təsərrüfatları yarımnatural xarakter daşıyırdı, bir qismi öz ailə ehtiyacları üçün xalçaçılıqla, yaxud digər ev əşyalarının istehsalı ilə məşğul olurdu.

Lakin kənd təsərrüfatında əmtəə istehsalı aparıcı rol oynadığı bir şəraitdə həmin təsərrüfatlar istər-istəməz dar çərçivədə qala bilməzdi. Bu dövrdə onların çoxu məhsulun bir hissəsini əmtəə qismində satmalı olurdu.

Beləliklə, XX yüzilliyin əvvəllərində Azərbaycanın sosial-iqtisadi strukturunda kapitalist istehsal üsulu hakim mövqe tuturdu.

Neft sənayesi və digər sənaye sahələri. İstehsalın təmərküzləşməsi. XX yüzilliyin başlanğıcında Azərbaycanın neft sənayesi inkişaf sürətinə və məhsul istehsalına görə, dünyada birinci yerə çıxdı. O, 1901 -ci ildə dünyada istehsal olunan neftin yarısından çoxunu (672 mln pud) və Rusiyada istehsal olunan neftin 95%-ni verdi. Lakin tezliklə sənaye 1900-1903-cü illər dünya iqtisadi böhranının zərbələrinə məruz qaldı.

1900-1903-cü illərdə dünyanın bazar iqtisadiyyatı ölkələrini bürümüş ifrat istehsal böhranı Rusiyada daha güclü idi. Çünki Rusiya iqtisadiyyatına təsir edən səbəblərdən biri kimi neft sənayesi təkcə xarici kapital axını ilə deyil, həm də Avropa və Şərq bazarlarına neft ixracı ilə dünya təsərrüfatına sıx bağlı idi. Ona görə də böhran öz məhsullarını daha çox dünya bazarlarına ixrac edən neft sənayesində ciddi və ağır nəticələr törətdi.

Azərbaycanda sənaye böhranının xüsusiyyəti ondan ibarət idi ki, o, neft sənayesinə başqa sənaye sahələrinə nisbətən gec, lakin çox güclü təsir etmişdi. Böhranın ilk nişanələri özünü 1901-ci ilin əvvəllərində büruzə verdi və aydın oldu ki, neft və neft məhsullarına tələb azalmışdır. Həmin ilin martında Bakıda 86 mln. pudu neft

qalıqları, 46 mln. pudu xam neft və 26 mln. pudu ağ neft olan duru yanacaq yığılıb qalmışdı. 160 mln. puda qədər neft ehtiyatının olması və satışın, demək olar ki, dayandırılması Bakı neft birjasında böyük təşvişə səbəb olmuşdu.

Daxili bazara tələbatdan xeyli artıq neft çıxarıldığı üçün 1901-ci ildə onun qiyməti əvvəlki illərə nisbətən 48,3% aşağı düşdü. Ağ neft isə o qədər ucuzlaşdıki, artıq 1902-ci ilin yazında xam neft qiymətinə satıldı. Ümumiyyətlə, böhran illərində Bakıda xam neftin qiyməti 2,3, ağ neftin qiyməti isə 3,4 dəfə azaldı. Bu, bir tərəfdən, böhranın dərinliyinə, digər tərəfdən isə qiymətlərin əvvəlki illərdə şişirdildiyinə dəlalət edirdi.

1902-ci ildə böhran özünü neft sənayesinin bütün sahələrində - qazma, hasilat və emalın xeyli azalmasında, kəşfiyyat işlərinin ixtisara düşməsində büruzə verdi.

Buruqların azalması neft hasilatına təsirsiz qalmadı. 1902-ci ildə 636,5 mln pud neft hasil edilmişdi ki, bu da 1901-ci ilə nisbətən 35,5 mln pud az idi. 1903-cü ildə isə daha az - 596,9 mln pud neft çıxarılmışdı.

Böhran neft hasilatı və emalı ilə məşğul olan firmaların vəziyyətinə də ciddi təsir göstərirdi. Böhranın xarici ölkə bazarlarından güclü surətdə asılı olan ağ neft istehsalına təsiri daha qüvvətli idi. 1903-cü ildə neft emalı zavodlarından 78-i işləyirdi. Onların istehsal etdiyi məhsullara gəldikdə isə böhranın təsiri yalnız sürtkü yağları istehsalından yan keçmişdi. Bazarda həmin məhsullara tələbatın sabit qalması ilə əlaqədar olaraq onların istehsalı hətta bir qədər də artmışdı. Ağ neft istehsalı isə azalmış və 1903-cü ildə 1901-ci ilə nisbətən daha az ağ neft istehsal edilmişdi.

Neft istehsalı səviyyəsinin daxili bazarın tələblərinə uyğun gəlməsinə baxmayaraq, neft məhsulları ixracı bir qədər artmışdı. Belə

ki, onların həcmi 1901-ci ildə 488,2 mln pud idisə, 1903-cü ildə 494 mln pud olmuşdu.

İri firmalar Rusiyada itirdiklərinin əvəzini xaricə ixracı artırmaqla çıxmağa çalışırdılar. Onlar 1900-cü ildə Avropaya 32 mln. pud, Şərqə isə 43 mln pud neft məhsulları ixrac etmişdilər. 1903-cü ildə bu ixrac Avropaya 52,5, Şərqə isə 58,7 mln. pud oldu.

1903-cü ildə ixracın artmasının başlıca səbəbi qiymətlərin artması idi. Lakin neft və neft məhsulları ixracından gələn gəlir Bakı istehsalçılarına çatmırdı, çünki kiçik və orta müəssisələr birləşib təşkilatlanmadıqlarına görə öz məhsullarını iri firmalara təhvil verməli olurdu. "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti", "Kaspi şirkəti" və s. kimi qüdrətli firmalar öz artıq məhsulunu saxlamağa imkanı olmayan sənayeçilərin neftini ucuz qiymətə alırdı.

Sənaye böhranından narahat olan çar hökuməti durğunluğu ləğv edə bilməsə də, onu zəiflətmək üçün özü vacib saydığı tədbirləri görürdü. Neftverən torpaqlardan alınan icarə haqqını 30% azaltdı, bəzi sahibkarlara borc pul verdi. Lakin hökumətin bu köməyi böhranın neft sənayesinin inkişafına göstərdiyi təzyiqi lazımi qədər azalda bilmədi.

Neftin qiymətinin qeyri-sabitliyi böhran dövrü çətinliklərindən mövqelərini möhkəmləndirmək üçün istifadə etməyə çalışan iri firmaların təqsiri üzündən baş verirdi.

Hələ 1900-cü ilin əvvəllərində "Nobel qardaşları" şirkəti və Rotşildin "Mazut" cəmiyyəti kartel müqaviləsi bağlamışdı (Nobmazut). Hər iki firma neft məhsulları satışını tam inhisara almaq və yüksək gəlir götürmək üçün daxili bazarlarda bir-biri ilə razılaşdırılmış ticarət siyasəti yürütməyi öz üzərlərinə götürürdülər. 1900-cü ildə neft istehsalının 21 və neft ixracının isə 40%-i onların payına düşürdü. 1901-ci ildə isə Xəzər dənizi vasitəsilə Rusiyanın daxili quberniyalarına ixrac olunan ağ neftin 57%, ağır neft

yanacağının 43%, və sürtkü yağlarının 67,5%-i də Nobel və Rotşild firmalarına məxsus idi.

Nobellə Rotşild rus ağ neftini xarici bazarlara ixrac etmək üçün də öz qüvvələrini birləşdirmişdilər. Onlar 1900-cü ildə ingilis dilində aparılacaq bütün işləri görəcək "Konsolireyted petrolium ənd K°" kompaniyasını yaratmaq barədə razılığa gəldilər. Tezliklə kompaniya Rokfellerlə ingilis bazarını bölmək barəsində müqavilə bağladı. Bu müqaviləyə görə, Rokfeller ingilis bazarına ağ neftin 60%, rus ixracçıları isə 40%-ni çıxarmalı idilər.

1901-ci ildə Nobel-Rotşild qrupuna qarşı "Ağ neft-yağ istehsalı şirkəti" (Tokamp) yaradıldı. Öz tərkibinə "A.İ.Mantaşov və K°" və "Kaspi şirkəti"ni daxil etmiş bu yeni birlik rus müəssisələri kimi yaransa da, əslində ingilis maliyyəsinin nəzarəti altında idi. Birlik öz qarşısına mühüm vəzifə olaraq, ağ neft ixracını ələ keçirməklə yanaşı, daxili ticarətdə iştirak etməyi və neft istehsalı üzərində nəzarəti ələ keçirməyi qoymuşdu. Odur ki, "Tokamp" "Nobmazut" karteli üçün ciddi rəqib idi. Lakin Nobel ingilis sahibkarları ilə Almaniyada ağ neftlə birgə ticarət etmək haqqında saziş bağlamaqla, "Tokamp"ı xeyli neytrallaşdırdı.

Böhran illərində ixrac məsələsi iri firmaların rəqabətinə davam gətirə bilməyən orta və kiçik firmalar üçün ölüm-dirim məsələsi idi. Onlar rəqabətə qarşı durmaq üçün ixrac sindikatı yaratmağın layihəsini hazırladılar.Lakin müzakirələr zamanı firmalar arasında üzə çıxan fikir ayrılığı və başqa səbəblər ümumi nəticəyə gəlməyə mane oldu.

XX yüzilliyin əvəllərində Azərbaycan neft sənayesi özünün təmərküzləşmə və kapitalın mərkəzləşmə səviyyəsinə görə dünyada qabaqcıl yerlərdən birini tuturdu. Böhran neft sənayesindəki təmərküzləşmə prosesini daha da gücləndirdi və dərinləşdirdi, eyni

zamanda maliyyə və texniki cəhətdən zəif olan müəssisələri iflasa uğratdı.

Təmərküzləşmə prosesinin xarakterik xüsusiyyətlərindən biri iri müəssisələrlə orta və kiçik müəssisələr arasındakı qeyri-bərabərlik idisə, digəri də iri müəssisələr içərisində əllərində neft məhsullarının istehsalı və satışını cəmləşdirmiş nəhənglərin ayrılması və seçilməsi idi. Onların sırasına daxil olan "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti" və "A.Mantaşov və K" firmalarının payına 1901-ci ildə Bakı rayonunda çıxarılmış neftin dörddə bir hissəsindən çoxu düşürdü.

Neft emalı sənayesi sahəsində də eyni mənzərə nəzərə çarpırdı. Kifayət qədər azad kapitalı, lazımi texniki təchizatı və neft anbarları olmayan bütün kiçik zavodlar iri sahibkarların mülkiyyətinə keçirdi. Təkcə "Tokamp" firması 1901-1902-ci illərdə "Qafqaz" cəmiyyətinin iki, "Bakı-Rus cəmiyyəti"nin bir, Rus neftini və maye yanacağı çıxaran cəmiyyətin iki zavodunu və bir stansiyasını ələ keçirmişdi. 1900-cü ildə fəaliyyət göstərən 53 zavoddan 6 ən irisi bütün istehsal olunmuş ağ neftin 44%-ni, təkcə "Nobel qardaşları" firması isə 22%-dən çoxunu vermişdi.

Böhran illərində neft məhsullarının ixracı üçün lazım olan nəqliyyat vasitələrinin sahibləri də birləşməyə çalışırdılar. Tağıyev, Bünyadov, Aşurov, Hüseynov və Tumayev qardaşları kimi iri gəmi sahibləri 1903-cü ildə sindikat müqaviləsi bağladılar və onların bu birliyi sonralar "Maye daşıyan gəmi-raketlərinin ittifaqı" adlandı.

İstehsalın təmərküzləşməsi və kapitalın mərkəzləşməsi neft sənayesində bank kapitalının fəaliyyəti ilə sıx bağlı idi. Bank kapitalı ilə neft sənaye kapitalının qovuşması neft sənayesində maliyyə kapitalının ağalığına gətirib çıxarırdı. Neft kompaniyalarının əlaqələri Peterburq beynəlxalq kommersiya bankı, Rus xarici ticarət bankı və Volqa-Kama kommersiya bankı ilə daha sıx idi. Neft sənaye

müəssisələri ilə əlaqələri genişləndirmiş banklar əslində onların bütün fəaliyyətinə nəzarət edirdi.

Bakı neft sənayesi firmalarının ölkənin iqtisadiyyatında əhəmiyyətli yer tutması maliyyə-sənaye maqnatlarının dövlət aparatı ilə ittifaqına gətirib çıxarır, çar mütləqiyyəti iri kapitalın qüdrətinin artması ilə hesablaşmalı olurdu. Bu isə çar Rusiyasının iqtisadi və siyasi dairələrini maliyyə oliqarxiyasından asılı vəziyyətə salırdı.

Bakıya xarici kapital axını böhran illərində xeyli ixtisara düşdü. Lakin onun mövqeyi hələ də çox güclü olaraq qalırdı. Belə ki, 1902-ci ildə Azərbaycan neft sənayesində xarici kapitalın payı ona qoyulmuş bütün kapitalın 30%-ə qədərini təşkil edirdi.

Azərbaycan neft sənayesinə qoyulmuş aksioner (səhm) kapitalın ümumi məbləğində ingilis kapitalı mühüm yer tuturdu. Bakı rayonunda 60 mln rubl kapitalı olan 12 ingilis cəmiyyəti fəaliyyət göstərirdi.

Beləliklə, Azərbaycan neft sənayesi dünya iqtisadi böhranının zərbələrinə məruz qaldı və nəticədə 1901-ci il səviyyəsinə çata bilmədi.

XX yüzilliyin əvvəllərində baş vermiş hadisələr Rusiya-Yaponiya müharibəsi və 1905-1907-ci illərdə xalq kütlələrinin çıxışları neft sənayesinin getdikcə artmaqda olan böhranını daha da dərinləşdirdi. Müharibə neft sənayesinin istehsal göstəricilərinin ixtisara düşməsinə səbəb oldu. Ağ neftin Sibir bazarına göndərilməsi dayandırıldı, bu isə bir sıra zavodun bağlanmasına gətirib çıxardı. Müharibə çarizmin siyasi gücsüzlüyünü də nümayiş etdirdi. Mütləqiyyətin maliyyəsi iflas dərəcəsinə çatdı. Xarici banklar hətta qısa müddətli borc verməkdən imtina etdilər.

Rusiyada güclənməkdə olan xalq azadlıq hərəkatı Qərb ölkələrini narahat etməyə başladı. Rusiya sənayesinə kapital qoyuluşu xeyli zəiflədi. 1905-ci ilin erməni-müsəlman qırğını da bu işdə

mühüm rol oynadı, neft mədənlərinin dağıdılması və yandırılmasına gətirib çıxardı. 1905-ci ildə nef tistehsalı 200 mln puda endi.

Nəticədə Azərbaycan neft sənayesi ağır və uzun müddətli iiqtisadi tənəzzülə məruz qaldı. 1900-1903-cü illər böhranından sonra neft sənayesində əsas inkişaf istiqaməti buruqların ixtisara düşməsi, neft istehsalı və ixracının getdikcə azalması ilə müəyyənləşdi. Qazma işləri daha çox gerilədi ki, bu da neft çıxarılmasına təsirsiz qalmadı.

1904-1909-cu illərdə daxili bazarda neftin qiyməti artdı. Bir çox istehlakçılar nisbətən ucuz yanacağa kömür və oduna keçməyə məcbur oldular.

Bu azalma dünya neft istehsalında Rusiyanın xüsusi çəkisinin aşağı düşməsinə səbəb oldu. Əgər 1901-ci ildə dünya neft istehsalında Rusiyanın payı 51%, ABŞ-ın payı 43% idisə, 1910-cu ildə Rusiyanın payı 22%-ə enmiş, ABŞ-ın payı isə 62%-ə qalxmışdı.

Müharibə ərəfəsində neft məhsullarının istehsalı da aşağı düşməkdə davam edərək, 1910-cu ildə 362 mln pud, 1913-cü ildə isə 326,4 mln pud olmuşdu.

Birinci Dünya müharibəsi ərəfəsindəki "yanacaq aclığı" həm kömür, həm də neft azlığı ilə bağlı idi və hər birinin özünəməxsus xüsusiyyətləri olan bu iki yanacaq sahəsindəki sənaye birləşmələrinin qüdrətini nümayiş etdirirdi. Ehtiyac və qiymətlərin artırılmasına baxmayaraq, kömür və neft hasilatının aşağı düşməsi o dövrdə iki səbəblə izah olunurdu: "Neft səhmləri ilə oyunbazlıq edənlərin birjada ağalığı və Rusiya neft işbazlarının qiymətləri şişirtmək siyasəti".

Beləliklə, böhran illərindən Birinci Dünya müharibəsinədək keçən 10 il müddətində Azərbaycan neft sənayesi onun iqtisadiyyatında həlledici rol oynamış, dövrün iqtisadi həyatında baş vermiş bütün çətinliklərlə üzləşsə də, dünyada ən mühüm sənaye sahəsi olaraq qalmış və inkişaf etmişdi.

1903-cü ilin ikinci yarısında, böhranın sona yetməsi ərəfəsində Azərbaycan sənayesində müəyyən canlanma başlandı. Bakının sənaye həyatında mühüm yer tutan mexaniki istehsalat sahələri arasında maşınqayırma sənayesi daha üstün rol oynayırdı. Şəhərin sənaye rayonunda fəaliyyət göstərən müəssisələrdən ən iriləri "Bakı maşın istehsalı, neft sənayesi və ticarət" cəmiyyətinə məxsus Kaspi maşınqayırma və qazma zavodları idi. Onlar ağ neft və sürtkü yağı zavodları üçün lazım olan materiallar, neft çənləri, buruq dəzgah və alətləri, buxar qazanları istehsal edir, çuqundan və misdən tökmə işlər görür, buruqla neft quyusu qazma ilə məşğul olurdular.

XX yüzilliyin əvvəllərində Bakıda 1400-1850 fəhləsi olan maşınqayırma zavodlarının sayı 13 idi. Bakıda podrat üsulu ilə buruq qazma neft sənayesinin ayrılmaz hissəsini təşkil edən ən iri sahələrdən biri idi. Muxtarovun sərəncamında bürünc işi ilə məşğul olan, əsası 1891-ci ildə qoyulmuş iki mexaniki zavod var idi. Biri Sabunçuda, digəri isə Bibiheybətdə yerləşən bu zavodlarda 1907-ci ildə 1950 nəfər fəhlə çalışırdı. 1913-cü ildə Muxtarovun üçüncü zavodu Suraxanıda fəaliyyətə başladı.

"Molot" şirkətinə məxsus digər iki zavoddan birinin əsası 1903-cü ildə qoyulmuşdu. Onlardan biri Balaxanıda, digəri isə Bibiheybətdə yerləşirdi. "Molot" şirkətinin üçüncü zavodu 1914-cü ildə Suraxanıda işə düşdü.

Bakı limanının Rusiyada ən iri gəmiçilik mərkəzinə çevrilməsi, burada gəmilərin və digər nəqliyyat vasitələrinin ildən-ilə artması gəmi təmiri istehsalının sənaye həyatında mühüm yer tutması ilə nəticələndi.

Bakıda gəmi təmiri ilə xüsusi tərsanələr və mexaniki emalatxanalar məşğul olurdu. XX yüzillikdə biri "Qafqaz və Merkuri" gəmiçilik cəmiyyətinə, o biri "Nobel qardaşları" şirkətinə məxsus iki ellinq fəaliyyət göstərirdi. Hər ikisi ən iri müəssisə idi .

Ellinqlərlə yanaşı, doklar da gəmi təmir edirdi. XX yüzilliyin əvvəllərində Bakıda "Bakinskiy dok" şirkətinə və A.Dadaşova məxsus olan iki tərsanə var idi. 1903-cü ildə onların sayı 3 oldu. Hər üç tərsanə iri kapitalist müəssisələri idi.

Ellinq və doklardan başqa, Bakıda gəmi təmiri ilə məşğul olan 10-a qədər iri və kiçik emalatxana var idi. Mexaniki müəssisələrdən başqa, Bakıda təkcə təmir işi görən onlarca iri və kiçik zavod, həmçinin emalatxana var idi.

Sürətlə böyüyən Bakının durmadan artan əhalisini lazımi ərzaqla təmin etmək üçün burada yeyinti sənayesi sahələri genişlənməyə başladı. Bu zaman birinci yeri unüyütmə və çəltiktəmizləmə sahələri tuturdu.

Bakının yeyinti sənayesində tütün məmulatı istehsalı da mühüm yer tuturdu.

Zığ, Masazır, Ceyranbatan və başqa şorsulu göllərdən hər il 400 min puda qədər duz yığılırdı, duz dəyirmanı 1909-cu ildə işə düşmüşdü.

Bakıda yüngül sənaye sahələrindən biri də sabunbişirmə sənayesi idi.1904-cü ildə Bakıda 4 sabunbişirmə zavodu fəaliyyət göstərirdi.

Gədəbəy mis zavodu çox böyük kapitalist müəssisəsi idi. Zavodu Qalakəndlə əlaqələndirən xüsusi dəmiryol xətti çəkilmişdi. 1911-ci ildə Gədəbəy mis zavodu 1,2 mln rubldan çox məhsul vermişdi. Zavodda 1300-1500 fəhlə çalışırdı. Daşkəsəndə isə dəmir və kobalt yataqları var idi. Lakin onların istismarı aşağı səviyyədə idi.

Azərbaycanda balıq sənayesi də inkişaf etmişdi. Azərbaycan balıq sənayesinin məhsulları Tiflis, Həştərxan və Rusiyanın daxili şəhərlərinə ixrac edilirdi. Azərbaycanda balıq sənayesinin on minlərlə işçisi var idi.

Pambıqçılığın inkişafı ilə əlaqədar yeni sənaye sahəsi - pambıqemalı sənayesi yaranmışdı. 1911-ci ildə Azərbaycanda artıq 40 pambıqemalı zavodu fəaliyyət göstərirdi. Təmizləndikdən sonra Rusiyanın toxuculuq fabriklərinə və xarici ölkələrə ixrac olunan pambıq məngənələrdə sıxılırdı. Ona görə də zavodların çoxunda əksəriyyəti vintli olan məngənələr var idi.

Bu dövrdə ipək emalı, tütün sənayesi də yeni inkişaf mərhələsinə daxil oldu.Göstərilən sənaye və kustar müəssisələrindən başqa, Azərbaycan qəzalarında yüzlərlə yüngül və yeyinti sənayesi məmulatları, tikinti materialları istehsal edən sənaye sahələri (Tovuzda sement zavodu, dəyirmanlar, kərpic, gön-dəri müəssisələri) fəaliyyət göstərirdi. Azərbaycan qəzalarında təsərrüfatın bütün sahələri üzrə fəaliyyət göstərən müəssisələr arasında həm fəhlələrin sayına, həm də istehsal həcminə görə birinci yeri yeyinti sənayesi tuturdu.

Yeyinti və yüngül sənaye müəssisələri fabrik inkişafı səviyyəsində olsalar da, böyük əksəriyyəti kiçik, bəzi hallarda isə orta kapitalist müəssisələri idi. İri kapitalist istehsalına Azərbaycan qəzalarında dağ-mədən sənayesini və qismən də ipəkemalı sənayesini aid etmək olar.

Kustar istehsal sahələri arasında xalça toxuculuğu daha geniş yayılıb inkişaf etmişdi. Quba qəzası xalçaçılıqda bütün Cənubi Qafqazda birinci yeri tuturdu. Burada toxunan xalçalar "Çiçi", yaxud "Quba" adlanırdı. Milli mis qablara tələbat böyük idi. Lahıcda istehsal olunan qablar təkcə Azərbaycanda deyil, Gürcüstanda, Dağıstanda, Şimali Qafqazda satılır, həmçinin İran və Kiçik Asiya ölkələrinə ixrac olunurdu.

Kənd təsərrüfatı.1912-1913-cü illərin aqrar qanunları. XX yüzilliyin əvvəllərində əkinçilik Azərbaycan əhalisinin başlıca məşğuliyyəti olub, kənd əhalisinin həyatında mühüm əhəmiyyətə

malik idi. Əkinçiliyin başlıca məhsulları olan buğda, arpa və düyü həm əhalinin öz istehlakı və həm də satış üçün becərilirdi.

Azərbaycanda ən iri taxılçılıq rayonları Bakı quberniyasının Lənkəran qəzası, Yelizavetpol quberniyasınm Yelizavetpol, Ərəş, Nuxa və Şuşa qəzaları idi. 1910-cu ildə Bakı quberniyasında 12,3 mln puda qədər taxıl istehsal edilmişdi ki, bunun da 2,2 mln puddan çoxu Lənkəran qəzasının, qalanı isə digər qəzaların payına düşürdü. Bütün Azərbaycan üzrə ildə 38 mln puddan 50-52 mln puda qədər taxıl məhsulu götürülürdü.

Toplanan taxıl məhsulunun bir hissəsi olan düyü əsasən Lənkəran qəzasında istehsal edilirdi. Quba, Göyçay, Nuxa və Cavad qəzalarında da çəltik əkini ilə məşğul olurdular. Cənubi Qafqazda istehsal olunan düyü məhsulunun 99%-i Azərbaycanın payına düşürdü.

Məhsuldarlıq o qədər də yüksək deyildi. Bu, quraqlıq, havaların qışda soyuq, yayda isti küləkli olması, aran yerlərdə qar yağmaması və digər təbii amillər üzündən törəyirdi.

Bununla belə elə təsərrüfatlar var idi ki, onlarda torpaq intensiv surətdə becərilir, yəni müasir texnika, dəmir kotan, taxıldöyən maşın tətbiq olunurdu. Belə təsərrüfatlar qolçomaqlara, varlı kəndlilərə və öz təsərrüfatı ilə məşğul olan mülkədarlara məxsus idi.Çünki təkmilləşdirilmiş alət və maşınlar baha idi və onları yalnız varlı adamlar satın ala bilirdi.

Azərbaycanda təkmilləşdirilmiş kənd təsərrüfatı maşınları və alətlərinin yayılmasında "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" müəyyən rol oynamışdı.

Azərbaycanın iqtisadi həyatında mühüm yerlərdən birini maldarlıq tuturdu. Kənd əhalisini maldarlıqla məşğulluq səviyyəsinə görə üç qrupa bölmək olardı: əkinçiliklə məşğul olub, mal-qaranı öz ailə və təsərrüfat ehtiyacını ödəmək üçün saxlayanları birinci qrupa,

qismən əkinçiliklə, əsasən maldarlıqla məşğul olan kəndliləri ikinci qrupa, əsasən məşğuliyyəti maldarlıq olanları - yarımköçəri həyat tərzi keçirənləri üçüncü qrupa aid etmək mümkündür. Mal-qaranın böyük əksəriyyəti ikinci və üçüncü qrupa aid edilən kəndlilərin əlində cəmləşmişdi. Elə mülkədarlar və varlı kəndlilər var idi ki, onların bir neçə min, bəzilərinin isə on minlərlə qoyunu və başqa mal-qarası var idi. Deməli, bu maldarlar əmtəə maldarlığı ilə məşğul olurdular.

Maldarlığın əsas sahələri qoyunçuluq, atçılıq və iribuynuzlu mal-qara saxlanılması idi. Qoyunlar qabayunlu idi.

Mal-qara və onun məhsulu geniş ticarətə malik idi - yerli bazarlarda satılır, Cənubi Qafqazın şəhərlərinə və Dağıstana aparılırdı. Azərbaycanın bir çox kənd yerlərində xüsusi mal-qara bazarı var idi. Onlara gətirilən mal-qara alınır, Bakı, Tiflis və başqa şəhərlərdə satışa çıxarılırdı.

Maldarlıq məhsullarının ən vacib əmtəə növü yun idi. Azərbaycan hər il yarım milyon puda qədər yun verirdi. Bunun xeyli hissəsi Rusiya şəhərlərinə, hətta xarici ölkələrə ixrac olunurdu. Amerika müəssisələrində qiymətli xalçalar toxumaq üçün yun əsasən Cənubi Qafqazdan və İrandan gətirilirdi. Qafqazın qoyunçuluqla məşğul olan iri maldarları, əcnəbi firmaları daha uğurlu ticarət etmək üçün xarici ölkələrdə ticarət kontorları da açırdılar.

Kənd təsərrüfatında bağçılıq və üzümçülük xüsusi əhəmiyyətə malik idi. Təsərrüfatın bu sahələrinin inkişafına səbəb bir tərəfdən, iqlim şəraiti, digər tərəfdən isə Azərbaycanla Rusiyanın daxili quberniyaları arasında dəniz və quru yolları vasitəsilə müntəzəm əlaqənin yaranması və o yerlərdə bağ məhsullarına tələbatın yüksək olması idi.

Kənd təsərrüfatı istehsalı sahəsində üzümçülüklə bilavasitə bağlı olan şərabçılığı da qeyd etmək lazımdır. Azərbaycanda şərab istehsalı iri sahibkarların (Forer qardaşları, Hummel qardaşları, Ağayev

qardaşları və b.) əllərində cəmlənmişdi. Çaxırın böyük hissəsi Rusiya quberniyalarına göndərilirdi.

Azərbaycanın əksər yerində baramaçılıqla da məşğul olurdular. Bu təsərrüfat sahəsinin inkişafı üçün əsas şərtlərdən biri tut ağacı plantasiyalarının genişlənməsi idi. Bu plantasiyalar Azərbaycanda əsas etibarilə Nuxa, Ərəş, Naxçıvan (Ordubad) qəzalarında və Zaqatala dairəsində geniş sahələri əhatə edirdi. İpəkqurdunun yemlənməsi və barama alınması üçün xüsusi məntəqələr var idi. Rusiya toxuculuq sənayesi üçün mühüm xammal olan baramaçılığı inkişaf etdirmək üçün Tiflisdə "Qafqaz ipəkçiliyi stansiyası" təşkil edilmiş, onun Şuşa və Şəki kimi şəhərlərdə filialları açılmışdı. Stansiya və onun filialları yerlərdə ipək qurdu bəslənməsi qaydalarını nümayiş etdirir, lazımi izahatlar verir və bəzi hallarda kümçülərin müşavirələrini keçirirdi.

Pambıqçılıq Rusiya toxuculuq sənayesinin xammala tələbatı ilə bilavasitə bağlı olduğu üçün Azərbaycan iqtisadiyyatında mühüm yer tuturdu.

Rusiyanın özündə olan pambıqçılıq təsərrüfatı sənayenin tələbatını ödəyə bilmədiyi üçün rus sahibkarları pambığın çox hissəsini xarici ölkələrdən gətirməyə məcbur olurdular. Ona görə də çarizm Orta Asiya və Azərbaycanda pambıqçılığın inkişafı üçün tədbirlər görməyə başladı. Bu tədbirlərdən ən vacibi Azərbaycan və Orta Asiya pambığına ucuz qiymətilə üstün rəqib olan xarici pambığın üzərinə gömrük vergisinin qoyulması oldu. Bu, yerli pambığın qiymətinin artmasına, pambıqçıların həvəslənməsinə səbəb oldu və Azərbaycanda da pambıqçılığın inkişafına təkan verdi.

Azərbaycanın ənənəvi pambıqçılıq bölgələri Göyçay, Ərəş, İrəvan, Cavanşir və Naxçıvan qəzaları idi. Sonralar təsərrüfatın bu sahəsinin əsas bazasına çevrilmiş Cavad qəzasında pambıqçılıq genişlənməyə başlamışdı.

Pambıq əkini ilə neft sənayeçiləri də məşğul olurdular. Bakı neft sənayeçisi Tağıyev 26 min desyatinlik "Yevlax mülkünü" satın almışdı. 1909-cu ilin əvvəllərində H.Z.Tağıyev "Qafqaz kənd təsərrüfatı cəmiyyəti"ndən pambıq əkini sahəsini genişləndirmək məqsədilə onun mülkünün təsərrüfat planını tərtib etməyi xahiş etmişdi. Cəmiyyətin gördüyü iş əsasında Tağıyevin mülkündə pambıq əkini sahəsi xeyli genişlənmişdi. Azərbaycanda pambıq əkini sahələrinin genişləndirilməsinə buraya köçürülmüş rus kəndliləri də maraq göstərirdilər.

Pambıqçılığın rastlaşdığı çətinliklərdən ən böyüyü hər il xeyli əkin sahəsini məhv edən çəyirtkə idi. Pambıqçılığa əngəl törədən amillərdən biri də Azərbaycanda geniş yayılmış möhtəkirlik idi. Pambıqçı kəndlilər hələ məhsul yığılmamışdan qabaq aldıqları behin müqabilində öz pambıqlarını möhtəkirlərə bazar qiymətindən xeyli ucuz satmalı olurdu, bu da onları iflasa gətirib çıxarırdı.

Çaylar quruyarkən yaranan su çatışmazlığı da pambıqçılığın inkişafına böyük əngəl törədirdi. Azərbaycanın ən iri pambıqçılıq zonalarında, xüsusən Mil və Muğan düzlərində ancaq geniş suvarma şəbəkəsi sayəsində lazımi qədər pambıq məhsulu əldə etmək mümkün idi.

Rusiyada kəndli islahatı keçirildikdən sonra, çar hökuməti nəhayət Cənubi Qafqaz dövlət kəndliləri barəsində islahat keçirmək hazırlığına başladı.Ölkədə sosial-iqtisadi inkişaf ilə əlaqədar təbəqələşmənin sürətlənməsi nəticəsində yoxsullaşmış kəndlilərin torpaqları varlı kəndlilərin əllərində cəmləşməyə başladı. Torpaqlar ya çox gec-gec bolüşdürülür, yaxud da heç bölüşdürülmürdü. Bu, onsuz da ağır vəziyyətdə olan kəndlilərin torpaqdan istifadəsi məsələsini daha da ağırlaşdırdı. Belə vəziyyətə dözməyən dövlət kəndliləri çar idarələrinə torpaq çatışmazlığı, torpağın qeyri-bərabər bölüşdürülməsi, yaxud da heç bölüşdürülməməsi barədə ərizələr

yağdırırdılar. Kənddə sosial münasibətlərin kəskinləşməsi çar hökumətini dövlət kəndlilərinin torpaqdan istifadəsi məsələsi ilə məşğul olmağa məcbur etdi.

1900-cü il mayın 1-də imperator II Nikolay "Tiflis, Yelizavetpol, Bakı və İrəvan quberniyaları dövlət kəndlilərinin torpaq təminatının mühüm əsasları"nı təsdiq etdi. Bu qanuna görə, torpaq payları onlardan əvvəlki qaydada istifadə edilməklə kənd icmalarına, kəndlərə və yaşayış məntəqələrinə ayrılırdı.

Beləliklə, dövlət torpaq mülkiyyətçisi kimi qalırdı, dövlət kəndliləri bu torpaqlardan icmalıqla istifadə etməli, bunun müqabilində dövlətə töycü ödəməli, mükəlləfiyyət daşımali idilər. Bu qanun 1901-ci il yanvarın 1-dən qüvvəyə mindi.

Bu qanuna əsasən aşağıdakılar müəyyən edildi: 1)dövlət kəndlilərinin daimi istifadəsində olan xəzinə torpaqları üçün töycü mükəlləfiyyəti; 2)bütün başqa torpaqlar üçün torpaq vergisi; 3) həmişəlik zemski vergisi.

Bu qanun verildikdən sonra dövlət kəndlilərinin daşıdıqları mükəlləfiyyətlər daha da ağırlaşdı, dövlətlə onun torpaqlarını becərən dövlət kəndliləri arasındakı münasibət feodal asılılığı olaraq qalırdı.

Kəndlilərin torpağa olan münasibəti qanunun maddələrindən birində öz əksini tapmışdı. Bu maddəyə görə, dövlət kəndlilərinin yalnız pay torpaqlarının istifadəçisi olması nəzərdə tutulurdu, deməli feodal-asılı münasibətlər qalırdı.

1900-cü il qanununun qarşıya qoyduğu vəzifələri həyata keçirmək üçün, Cənubi Qafqazın beş quberniyasında dövlət torpaqlarında məskunlaşmış köçkünlərin torpaq məsələsini qaydaya salmaq barədə Əsasnamə verildi. Bu Əsasnamə qanunun mahiyyətinə heç cür uyğun gəlmirdi. Çünki qanun kənd icmalarının faktiki istifadəsində olan torpaqları icmaların istifadəsində saxlamağı tələb edirdi, Əsasnamədə isə torpaq paylarının verilməsi məsələsi

mürəkkəbləşdirilmişdi. Belə ki, Əsasnaməyə görə, pay torpaqlarının planları tərtib edilməli, bu planlar torpaq məsələsini qaydaya salan komissiyalarda təsdiq edilməli, bundan sonra kənd icmalarının pay torpaqlarının sərhədləri dəqiq müəyyənləşdirilməli, torpaq ayrılması barəsində mətn hazırlanıb kəndlərə təqdim edilməli idi.

Belə mürəkkəb üsul kənd icmalarına torpaq ayırmaq işini xeyli ləngidirdi.

Dövlət kəndinə aid edilmiş 1900-cü ilin 1 may və 1903-cü ilin 21 aprel Əsasnamələrindən sonra heç bir dəyişiklik və tədbir nəzərə çarpmır; verilən qanun və qaydalar isə vergi və mükəlləfiyyət sistemini mürəkkəbləşdirdi və əsarəti daha da qüvvətləndirdi. Bu dövrdə bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycanda da çarizmin aqrar siyasətinin əsas məqsədi kənddə icmaları dağıtmaq, kənd burjuaziyasının - qolçomaqların şəxsində özünə dayaq yaratmaq idi. Qafqaz Ali hakimiyyət orqanları və yerli burjuaziya torpaq məsələsində yeganə çıxış yolunu Stolıpin aqrar siyasətinin tətbiqində görürdülər. Qafqaz canişini İ.Vorontsov-Daşkov və digər çar məmurları hesab edirdilər ki, Stolıpinin aqrar siyasəti kəndlilərin xüsusi torpaq mülkiyyətçilərinə çevrilməsi üçün zəmin yaradır.

1907-ci il mayın 10-da Dövlət Dumasında Stolıpinin torpaq məsələsi haqqındakı bəyanatı Cənubi Qafqazda Stolıpin aqrar siyasətinin tərəfdarlarını bir daha ruhlandırdı, çünki bu bəyanat çar hökumətinin təkcə Rusiyanın daxili quberniyaları yox, milli ucqarları üçün də aqrar məsələ məramnaməsi idi.

Stolıpin aqrar siyasətinin tətbiq edilməsinin tərəfdarlarının səylərinə baxmayaraq, onların arzusu həyata keçmədi. Çünki çar hökuməti bu siyasətin ancaq bütün kəndlilərin 20%-ni təşkil edən sahibkar kəndinə tətbiq olunmasına razılıq vermişdi.

1909-cu ilin əvvəlində - Stolıpin aqrar siyasətinin həyata keçirildiyi dövrdə Qafqaz canişini İ.Vorontsov-Daşkov tərəfindən

Cənubi Qafqaz quberniyaları, o cümlədən Azərbaycan üçün tərtib edilmiş qanun layihəsi yalnız sahibkar torpaqlarda yaşayan kəndlilərə torpaqlarını ödənclə almaq və xüsusi mülkiyyətçilər qrupuna daxil olmaq hüququ verilməsini, kəndlilərin xüsusi mülkiyyətinə keçmiş pay torpağı üçün mülk sahiblərinə dövlət xəzinəsi tərəfindən ildə ümumi ödənc pulundan 5% ödənməsi nəzərdə tutulurdu. Rusiyada olduğu kimi, bu nəğd pulla deyil, 5 %-li pul təəhhüdü ilə verilməli idi. Kəndlilər isə dövlət tərəfindən torpaq sahiblərinə verilən pulu faizlə birlikdə 28, 41 və 56 il müddətində xəzinəyə qaytarmalı idilər.

Qanun layihəsinə görə, kəndlilər çəmən, otlaq, meşə yerlərindən və su arxlarından ancaq torpaq sahibinin razılığı ilə istifadə edə bilərdilər. Vorontsov-Daşkov tərəfindən tərtib olunan qanun layihəsi canişin şurasının müzakirəsinə verildi. Müzakirələr 1910-cu ilə qədər davam etdi. Qanun layihəsinin məzmunu ilə tanış olan Azərbaycan torpaq sahiblərinin nümayəndələri canişin idarəsinə öz tənqidi mülahizələrini bildirdilər. Onlar kəndlilər tərəfindən torpaqların ödənclə alınması ilə əlaqədar bir çox məsələlərə qarşı çıxırdılar.

Qanun layihəsi 1911-ci ilin martında III Dövlət Dumasına təqdim edildi. Dumada Bakı və Yelizavetpol quberniyaları torpaq sahiblərinin nümayəndəsi Xəlil bəy Xasməmmədov iştirak edirdi. Bütün torpaq sahiblərinin nümayəndələri və millətçi-burjua deputatlar ödəncin xüsusi sahibkarların xeyrinə aparılmasını tələb edir, hətta əkin üçün yararsız yerlərin kəndlilərə pulsuz verilməsinə qarşı çıxırdılar.

III Dövlət Dumasında qanun layihəsinə Stolıpin aqrar siyasətinin əsas müddəaları əlavə edilmişdi, bu dəyişiklik və tamamlamalar qanun layihəsinin mətnində deyil, onun əlavələrində öz əksini tapmışdı.

Stolıpin aqrar siyasətini müəyyən məhdudluqla özündə əks etdirən qanun layihəsi 1912-ci il dekabrın 20-də çar tərəfindən təsdiq edilib qüvvəyə mindi.

1912-ci il 20 dekabr qanunu Azərbaycan ərazisində Bakı və Yelizavetpol quberniyalarını, İrəvan quberniyasında isə Naxçıvan qəzasını əhatə edirdi. Qanun Zaqatala dairəsinə aid edilmədi. Müstəqil inzibati ərazi sayılan Zaqatala dairəsində asılılıq münasibətlərinin ləğvi haqqında qanun layihəsi 1913-cü il iyulun 7-də çarın sərəncamı ilə qüvvəyə mindi.1912-ci il 20 dekabr qanunu bütün Cənubi Qafqazda olduğu kimi, Azərbaycanda da 1913-cü il yanvarın 1-dən həyata keçirildi.

1913-cü ildə hər kənd üzrə ödəncin hesablanıb qurtarması ilə əlaqədar olaraq kəndlilərə çoxlu pul ödəmə vərəqəsi göndərildi. Bakı quberniyasının kəndliləri 1913-cü ildən başlayaraq hər il həmin vərəqələr üzrə xəzinə palatasına 131.678 rubl ödənc verməli idilər.

İlk hesablama siyahılarının tərtib edilməsilə əlaqədar 1913-cü il yanvarın 1-dən ləğv olunmuş mükəlləfiyyət əvəzində bəylər ödənc almağa başladılar.

Ödəncə aid edilmiş mülklərdə pay torpaqlarının ölçülməsi ödənc əməliyyatının başqa bir mərhələsi idi. Kəndlilər üçün pay torpağının mərzlənməsi və ödənc pulunun dəqiq hesablanmasının böyük əhəmiyyəti var idi, çünki münsiflər çox vaxt pay torpağının sahəsini əslində olduğundan artıq göstərir, yararsız torpaq üçün də kəndliləri ödənc pulu verməyə məcbur edirdilər. Buna görə də onlar ödənc pulunun dəqiq hesablanması üçün pay torpağının mərzlənməsini və ölçülməsini inadla tələb edirdilər. Lakin bu proses çox ləng gedirdi.

1912-ci il qanunu tətbiq edilən Bakı və Yelizavetpol quberniyalarından fərqli olaraq, Zaqatala dairəsində ödənc əməliyyatının özünəməxsus cəhətləri var idi. 1912-ci il qanunu üzrə, ödənc əməliyyatı bir neçə mərhələdən ibarət olduğu halda, Zaqatala

dairəsində bu mərhələlər yox idi, çünki ödənc əməliyyatının başlanmasına qədər, hələ 1908-ci ildə ödənc pulunun məbləği Zaqatala dairəsinə ezam edilmiş komissiya tərəfindən müəyyən olunmuşdu. Odur ki, ödənc əməliyyatı başlayan zaman münsifin vəzifəsi ödənc pulunu hesablamaq deyil, onu ancaq hər kənd üzrə həyətlər arasında bölmək idi. Buna görə də Zaqatala dairəsində ödənc əməliyyatının sonrakı mərhələlərini həyata keçirməyə ehtiyac qalmamışdı.

1912-1913-cü illər qanunları aqrar məsələni həll edə bilmədi. 1870-ci il islahatından 42 il keçdikdən sonra da mülkədarlar güclə, zorla öz torpaqlarını kəndlilərə satır, onları bu torpaq üçün külli miqdarda pul verməyə məcbur edirdilər. Həmin qanun aktları kəndliləri qarət edir, onları yenə də torpaq sahiblərinin əsarətində saxlayırdı.

1912-1913-cü illərin aqrar qanunları təhkimçilər tərəfindən həyata keçirilməsinə və təhkimçilik aktı olmasına baxmayaraq, öz məzmununa görə burjua xarakteri daşıyırdı. Kəndlilər tərəfindən pay torpaqlarının ödənclə alınması özü də xalis burjua xarakterli hadisə idi. Məhsul mülkiyyətinin ləğv edilməsi, kəndlinin ödənc ödəməyə başlaması sahibkar kəndində kapitalist münasibətlərinin inkişafını, təbəqələşməni daha da sürətləndirirdi, yoxsullaşmış və əmlakdan məhrum olmuş kəndlilərin sayını artırırdı. Bu qanunlar sahibkar kəndinin iqtisadi həyatında kapitalist münasibətlərinin inkişafını daha da sürətləndirirdi.

Şəhərlər. Sənətkarlıq. Ticarət, nəqliyyat. XX yüzilliyin əvvəllərində daxili bazarın yarandığı və qəzalarda kapitalist istehsal münasibətləri üstün mövqe tutmağa başladığı şəraitdə Azərbaycan şəhərləri sürətlə böyüməyə başladı. Artıq Azərbaycanın ondan artıq şəhəri də dünyanın neft mərkəzi olan Bakı, Gəncə ilə yanaşı, ticarət - sənaye mərkəzinə çevrilmişdi.

Adamların iş üçün axışdığı bir şəraitdə şəhər əhalisi artırdı. İri şəhərlərdə əhali artımı əsasən gəlmələrin hesabına olurdu. Belə ki, 1913-cü ildə Bakı əhalisinin yalnız 32,7%-i Bakıda və mədən -zavod rayonlarında doğulmuşlar idi.

Azərbaycanda şəhər əhalisinin artımı çox sürətlə gedirdi. Bakının əhalisi, mədən-zavod rayonları nəzərə alınmadan, 1897-ci ildən 1915-ci ilədək 112,2 min nəfərdən 262,4 min nəfərə, Gəncə şəhərinin əhalisi isə 33,6 min nəfərdən 59,7 min nəfərə qədər artmışdı.

1900-1915-ci illər arasında əhalisi sürətlə çoxalan Nuxanın əhalisi 28,4 mindən 52,2 minə, Şuşanınkı 25,6 mindən 43,8 minə, Qubanınkı 17,4 mindən 26,9 minə, Şamaxınınkı 23 mindən 27,3 minə, Lənkəranınkı 10,6 mindən 17,8 minə çatmışdı. 1915-ci ildə Naxçıvanın əhalisi 9 min, Ordubadınkı isə 6,5 min nəfər idi.

Beləliklə, bu dövrdə Azərbaycanın şəhər əhalisi 2 dəfəyə qədər artmışdı.

Şəhər əhalisinin əsas kütləsini Azərbaycan türkləri təşkil edirdi. Şəhərlərin artımı mütərəqqi əhəmiyyətə malik idi. Azərbaycan şəhərlərinin xarici görünüşü isə öz milli koloriti ilə fərqlənirdi, bu şəhərlərin özünəməxsus xüsusiyyətləri də var idi: onlar ticarət-sənaye mərkəzlərinə çevrilməklə yanaşı, hələ də bəzi kənd təsərrüfatı sahələrini özlərində qoruyub saxlayırdı. Yalnız Bakı şəhəri bu nöqteyi-nəzərdən istisna idi. Bu dövrdə Azərbaycan şəhərləri ixtisaslaşırdı. Belə ki, Bakının inkişafı neft sənayesi və ona xidmət göstərən sənaye sahələri ilə bağlı idi. Nuxa və Ordubad ipəkçilik mərkəzləri, Gəncə pambıq emalı mərkəzi kimi məşhur idi.

Şəhərlərdə böyük əhəmiyyəti olan maliyyə-kredit və bank idarələrinin yaranması isə mal-pul münasibətlərinin inkişafı ilə bağlı idi.

Azərbaycanın ticarət əlaqələrində Bakı limanı mühüm rol oynayırdı. 1910-cu ildə onun mal dövriyyəsi 350 mln puda bərabər idi. Bakıdan göndərilən və buraya gətirilən mallar Rusiyanın daxili quberniyaları ilə bağlı idi. 1913-cü ildə Bakı limanının 342,4 mln rublluq mal dövriyyəsinin 300 mln pudunu neft məhsulları təşkil edirdi. Bakı limanı Həştərxan, Krasnovodsk və İran limanları ilə əlaqədə idi.

Bakıdan sonra ikinci ticarət-sənaye mərkəzi Gəncə idi. Gəncədə 1914-cü ildə 8 pambıq emalı zavodu, 3 spirt və konyak zavodu, biyan kökü emal edən 23 zavod, tütün fabriki, kərpic zavodu və s. müəssisələr var idi.

Gəncə həm də mühüm ticarət mərkəzi idi. Şəhərdə 2.129 ticarət-sənaye müəssisəsi fəaliyyət göstərirdi. Doğrudur, onların əksəriyyəti kiçik müəssisələr idi, lakin ticarət və sənaye kapitalının mərkəzləşməsi prosesi gedirdi. Sənətkarlıq Gəncə iqtisadiyyatının ayrılmaz hissəsi idi.

Gəncədən Moskva və Lodza pambıq emalı zavodlarının məhsulu, Rusiyanın mərkəzi şəhərləri və Sibirə təzə meyvə, çaxır ixrac olunurdu. Gəncənin xariclə ticarətində İran mühüm yer tuturdu. İrana əsasən taxıl və heyvandarlıq məhsulları ixrac olunur, oraya yerli məhsullarla yanaşı, Rusiyadan gətirilmiş mallar da yola salınırdı. Gəncə eyni zamanda böyük dəmir yol şəbəkəsi idi.

Şuşa Qafqazda ən böyük xalça istehsalı mərkəzi idi. Burada istehsal olunan xalçalar öz keyfiyyətinə görə ən yaxşı İran xalçalarından geri qalmır, Moskvaya, Peterburqa və xaricə ixrac olunurdu. Şəhərdə 22 ipək emalı və ipəksarıyan fabrik, 3 spirttəmizləyən və konyak zavodu var idi. Burada xeyli sənətkar fəaliyyət göstərirdi. Şəhərdə ticarət ildən-ilə genişlənirdi. Əsas ticarət malları barama, ipək, gön-dəri, yun, pambıq və çaxır idi.

Nuxa ipək istehsalı və emalına görə təkcə Azərbaycanda deyil, bütün Qafqazda əhəmiyyətli rol oynayırdı. İpək sənayesinin yüksək səviyyədə inkişafı, yararlı rabitə yollarının olması şəhərin barama və ipək ticarəti üzrə mühüm bazara çevrilməsinə səbəb olmuşdu. 1914-cü ildə burada 55 ipək emalı və ipəkəyirmə fabriki, ipək istehsalı qalıqları və barama ticarəti ilə məşğul olan 21müəssisə, 3 tütün fabriki, 24 gön-dəri emalatxanası, manufaktura malları ilə ticarət edən 63 müəssisə və s. var idi. 1910-cu ildə Nuxa kapitalisti Ə.Əhmədov şəhərdə elektrik stansiyası tikdirmişdi. 1913-cü ildə 962 ticarət-sənaye müəssisəsi var idi.

XX yüzilliyin əvvəllərində Şamaxı şəhəri kənd təsərrüfatı məhsullarının və kustar istehsalı mallarının mühüm mərkəzi idi. Satışa buğda, arpa, düyü, meyvə, gön-dəri, yun, ipək, xalça-palaz, mis əşyalar çıxarılırdı. 1912-ci ildə Şamaxıda illik dövriyyəsi 1,2 mln. rubla bərabər olan 227 ticarət və sənaye müəssisəsi var idi.

Lənkəran balıq, taxıl, meşə materialları satışı və ixracı üzrə mühüm ticarət mərkəzi idi. 1913-cü ildə burada 6 balıq sənaye kontoru, unla ticarət edən 3 müəssisə, meşə materialları ilə ticarət edən 3 müəssisə, 3 kənd təsərrüfatı alətləri mağazası, bir pivə zavodu fəaliyyət göstərirdi. Şəhərin ticarət-sənaye müəssisələri sürətlə artırdı.

Quba bağçılıq və xalçaçılıqla məşğul idi. Meyvə ticarətindən ildə 450-500 min rubl gəlir götürülürdü. 1910-cu ildə şəhərdəki 329 ticarət müəssisəsinin illik ticarət dövriyyəsi 1 mln rubla bərabər idi.

Naxçıvan, Ordubad və Zaqatala bağçılıq, üzümçülük, heyvandarlıq və taxılçılıq ilə məşğul olurdu. Bu təsərrüfat sahələri tam əmtəə xarakterli idi. Öz duzu ilə məşhur olan Naxçıvanda 1903-cü ildə 303,4 min pud duz istehsal edilmişdi. Ordubad Azərbaycanın ipək sənayesi mərkəzlərindən biri olaraq qalırdı.

Bu dövrün səciyyəvi xüsusiyyətlərindən biri ticarət evləri, firmaları,səhmdar cəmiyyətləri tərəfindən həyata keçirilən topdansatış ticarətinin mühüm yer tutması idi. Şəhərlərin hamısında xeyli xırda tacirlərin olması xırda ticarətin geniş yayıldığını göstərir.

XX yüzilliyin əvvəllərində şəhər idarə sistemində elə bir dəyişiklik olmamışdı. Hələ 1892-ci ildə tətbiq edilmiş "Şəhər "Əsasnaməsi" onun işlərində əhalisinin iştirakını ixtisara salmaqla özünüidarə hüquqlarını daha da məhdudlaşdırmışdı. "Əsasnamə" dumalara və şəhər idarə orqanlarına qubernator nəzarətini xeyli gücləndirmiş, yalnız sərbəst əmlaklarının qiyməti 300 rubldan 2 min rubla qədər olan şirkət və idarələrin, birinci və ikinci dərəcə ticarət-sənaye gildiya sahiblərinin seçki hüququnu saxlamışdı.

Bakı şəhər dumasında sənayeçilər, tacirlər, bina sahibləri üstün mövqe tuturdular. Onlar arasında H.Z.Tağıyev, Ş.Əsədullayev, Hacıbaba Aşurov, Əli Abbas Dadaşov və başqaları öz daşınmaz əmlaklarının çoxluğuna görə fərqlənirdilər.

"Şəhər Əsasnaməsi"nin 44-cü maddəsində müsəlmanların özünüidarə orqanlarında iştirakı məhdudlaşdırılırdı. İctimaiyyətin dəfələrlə vəsatət qaldırması nəticəsində çarın 14 dekabr 1900-cü il fərmanı ilə Dumada müsəlman deputatların sayı 50%-ə çatdırıldı.

XX yüzilliyin əvvəllərində Bakı şəhər Dumasının ən ilk deputatları H.Məlikov (Zərdabi), İsmayıl bəy və İbrahim bəy Səfərəliyevlər olmuş, Ə.Ağayev, Ə.Əmircanov, M.Əsədullayev, M.Hacınski, Ə.Topçubaşov və b. Bakı şəhər Dumasının üzvləri seçilmişlər.

H.Z.Tağıyev onun ən nüfuzlu nümayəndələrindən biri idi. Məşhur yazıçı N.Vəzirov 10 il müddətində (1903-1913-cü illər) Dumanın katibi olmuşdu. Lakin azərbaycanlılar şəhər rəisi vəzifəsinə buraxılmırdılar.Yalnız Kamil bəy Səfərəliyev qısa nıüddət (1905-1907-ci illər) Bakı şəhər başçısı vəzifəsini icra etmişdir.

Gəncə və Şuşa şəhərlərində də ictimai özünüidarə (Duma və idarə) mövcud idi. "Şəhər Əsasnaməsi" Gəncədə 1894-cü ildə tətbiq edilmişdi.1917-ci ilə qədər Gəncə Dumasında azərbaycanlı qlasnıların sayı üstünlük təşkil etmişdir. Azərbaycanlı deputatlar içərisində ziyalıların nümayəndələri 30% idi. Gəncənin görkəmli ictimai xadimləri Ə.Adıgözəlov (Gorani), H.Ağayev, A.Ziyadxanov, A.Səfikürdski, Usub bəy və Nəsib bəy Usubbəyovlar, Ələsgər bəy və Xəlil bəy Xasməmmədovlar, Hüseynqulu xan və Cavanşir xan Xoyskilər, Məmmədbağır Şıxzamanov və başqaları olmuşlar.

Bakıdan fərqli olaraq Gəncə şəhər ictimai özünüidarəsinə əsasən azərbaycanlı ziyalıların nümayəndələri Əsgər Ağa Adıgözəlov (Gorani), Adil xan Ziyadxanov və Xəlil bəy Xasməmmədov başçılıq etmişlər.

1898-ci ildə Şuşada özünüidarə yaradıldı."Şəhər Əsasnaməsi"nə əsasən quberniya mərkəzlərindəki idarədən fərqli olaraq, öz vəsaiti az olan, ticarəti zəif inkişaf edən şəhərlərdə daha sadə özünüidarə sistemi tətbiq edilirdi, yəni 12-15 nəfərdən ibarət şəhər müvəkkilləri yığıncağı yaradılır, şəhərləri isə ya bir və ya iki köməkçi ilə ağsaqqal idarə edirdi. Quba, Şamaxı, Nuxa, Lənkəran, Naxçıvan və Ordubadda da bu idarə sistemi tətbiq edilmişdi və müvəkkillərin əksəriyyəti azərbaycanlı idi. Şəhər büdcəsinin istifadəsində səriştəsizlik hökm sürürdü. Məbləğin əksəriyyəti polis və qoşun saxlamağa xərclənirdi.

XX yüzilliyin əvvəlləri Azərbaycan ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesinin sürətlənməsi, inhisar və kredit ticarətinin inkişafı, ticarət müəssisələrinin sayının çoxalması ilə xarakterizə olunurdu. Bu dövrdə daxili ticarətin formaları genişlənir və keyfiyyətcə yeni məzmun kəsb edirdi.

Azərbaycanda ticarət əlaqələri başlıca olaraq inhisarlar tərəfindən təşkil edilir, mal aparılıb-gətirilməsi işi əsasən ticarət evləri, səhmdar cəmiyyətləri və onların nümayəndələri vasitəsilə

görülürdü. Azərbaycanın ticarət əlaqələri coğrafiyası genişlənir, milyonlarla ticarət dövriyyəsi olan ticarət mərkəzləri yaranırdı.

Bu dövrdə Azərbaycanın mühüm şəhərlərində, birinci növbədə, Bakıda müasir avadanlıqla təchiz olunan iri ixtisaslaşmış mağazaların, passajların sayı çoxalır, qəzalarda da illik mal dövriyyəsi böyük məbləğə çatan yüzlərlə ticarət müəssisələri açılırdı. Bütün Rusiyada olduğu kimi, Azərbaycanda da ticarət müəssisələri 5 dərəcəyə bölünürdü. Ticarət müəssisələrinin I dərəcəlisində topdansatış, II dərəcəlisində topdan və pərakəndə satış, III dərəcəlisində yalnız pərakəndə satış, IV dərəcəlisində isə xırda satış təşkil edilirdi. V dərəcəyə malı yüklə və ya əllə gəzdirib satmaqla məşğul olanlar daxil idi. Bundan əlavə, Rusiya imperiyasının ərazisi ticarət və sənayenin inkişaf səviyyəsinə görə 5 sinfə bölünürdü ki, burada da birinci sinif istisna olmaqla qalanlarına qoyulan verginin məbləği müxtəlif idi. Azərbaycanda Bakı şəhəri ikinci, Bakı qəzası və Gəncə şəhəri üçüncü, qalan yerlər isə dördüncü sinfə aid edilmişdi.

Bakı quberniyasında 1900-cü ildə əlavə vergiyə cəlb edilən və mənfəətdən faiz verən, illik dövriyyəsi 155,8 mln. rubl illik mənfəəti 17,5 mln rubl olan 5.468 ticarət müəssisəsi, 1904-cü ildə isə illik dövriyyəsi 104 mln rubl, illik mənfəəti 11,4 mln rubl olan 5.154 ticarət müəssisəsi var idi. Bakı quberniyasında olan ticarət müəssisələrinin böyük əksəriyyəti Bakı şəhərində və Bakı qəzasında yerləşirdi. Beynəlxalq ticarətin mühüm mərkəzlərindən birinə çevrilən Bakı şəhəri Azərbaycan ticarətinin ümumi inkişaf meylini, xarakterini və istiqamətlərini müəyyən edirdi. Bakı quberniyasında 1900-cü ildə olan ticarət müəssisələrinin 63,7%-i, 1904-cü ildə isə 64,4 %-i Bakı şəhəri və Bakı qəzasında yerləşirdi. Ticarət müəssisələrinin illik dövriyyəsinin həcminə görə Bakının xüsusi çəkisi daha böyük idi. 1910-cu ildə Azərbaycanın hər iki quberniyasındakı 8.311 ticarət müəssisəsinin 36,6%-i Bakıda idi.

Topdansatış ticarət müəssisələrinin, demək olar ki, hamısı pərakəndə satış iri ticarət müəssisələrinin isə xeyli hissəsi Bakıda yerləşirdi.Yelizavetpol quberniyasında da ticarət müəssisələrinin sayı çoxalır, illik dövriyyənin həcmi artırdı. Ticarət müəssisələrinin illik dövriyyəsi 1909-cu ildə 17 mln, 1910-cü ildə isə 16,7 mln rubl idi. Yelizavetpol quberniyasında Gəncə, Nuxa və Şuşa şəhərləri öz qəzaları ilə birlikdə ticarətin inkişaf səviyyəsinə görə başqa qəzalardan fərqlənirdi.Azərbaycanda birja, yarmarka və bazar ticarəti də xeyli inkişaf etmiş və onların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdı.

Bakıda hər ilin baharında təşkil olunan Nikolay yarmarkasında keçirilən və ildən-ilə genişlənən ticarət əməliyyatı şəhərin ticarət dövriyyəsində əhəmiyyətli yer tuturdu. Bu yarmarkada yerli mallarla yanaşı, Saratov, Tiflis, Yaroslavl, Yekaterinburq, İrkutsk, Rostov, Dağıstan və başqa yerlərdən gətirilən mallar da satılırdı.

Azərbaycanın daxili ticarətinin yeni bir forması-istehlak kooperasiyası meydana gəlmiş və daxili ticarətin inkişafında onun əhəmiyyəti artmışdı. 1913-cü ildə Bakıda 12 istehlak kooperasiyasının illik dövriyyəsi 76 min rubl olmuşdu. 1913-cü ildə Azərbaycandakı 39 istehlak kooperasiyasından 28-i Bakı, 11-i isə Yelizavetpol quberniyalarında idi.

XX yüzilliyin əvvəllərində Azərbaycanda ticarət kapitalının təmərküzləşməsi və mərkəzləşməsi prosesi daha da sürətlənmişdi. Lakin əvvəllərdə olduğu kimi, yenə də inhisarçı ticarət əsasən Bakı şəhərində inkişaf edirdi. Bakının birja cəmiyyəti, bank-kredit müəssisələri burada ticarət kapitalının təmərküzləşməsi prosesinin sürətlənməsinə təsir göstərirdi. Bakı şəhərində 1913-cü ildə 200 ticarət evi var idi. Onlardan 30-u məhsulun istehsalı və tədavülü ilə məşğul olurdusa, 170-i bilavasitə tədavül dairəsində fəaliyyət göstərirdi.

Bakı şəhərindəki ticarət evləri bütün ticarət sahələrinə nüfuz edirdi. Bu dövrdə neft məhsulları və digər mallarla ticarət edən ticarət evlərinin sayı da sürətlə artırdı.

Azərbaycanın digər şəhərlərində də ticarət evləri açılırdı. 1910-cu ildə Azərbaycanda olan 105 ticarət evinin 98-i Bakıda, 7-si isə Gəncədə, Nuxada, Şuşa və Naxçıvanda yerləşirdi.

Neft məhsulları ticarətində "Nobel qardaşları", "Mazut" və qismən "A.Mantaşov və K°" səhmdar cəmiyyətləri həlledici yer tuturdu.

Nobel və Rotşild nəinki Rusiyada inhisarçı mövqe tutmağa, habelə dünya neft bazarını Rokfellerin Amerika "Ağ neft tresti" ilə bölüşdürməyə müvəffəq olmuşdular.

Neft və neft məhsulları ilə bərabər, metal və metal məmulatı, pambıq-parça məmulatı, qənd və un, ət və ət məhsulların ticarətində də inhisarlar meydana gəlmişdi.

Bakı şəhərində tacirlərin sayı, ticarət əməliyyatları genişlənirdi. 1903-cü ildə Bakı şəhərində 14.945 nəfər tacir var idisə, 1913-cü ildə onların sayı 19.545 nəfərə çatmışdı.

Bakı tacirlərinin tərkibi çoxmillətli idi. 1903-cü ildə 14.945 tacirin 7.084 nəfəri azərbaycanlı, 3.559 nəfəri erməni, 2.489 nəfəri rus və 1.873 nəfəri digər millətlərin nümayəndəsi idi.Azərbaycanın şəhər və qəzaları arasında mal dövriyyəsinin həcmi xeyli genişlənmişdi. Azərbaycan kəndləri sürətlə artan ticarət-sənaye əhalisini ərzaqla təmin etməklə bərabər, şəhərlərdən də müxtəlif istehlak şeyləri və istehsal alətləri əldə edirdilər. Bakı ilə Azərbaycan qəzaları arasında nəqliyyat vasitələrinin ilbəil yaxşılaşması ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərdi. Məhsulun ticarətə daxil olan hissəsinin artım sürəti xeyli çoxaldı.

Bu dövrdə Azərbaycan dünya bazarına neft məhsulları, balıq məhsulları, ipək və s. ixrac etməklə bərabər, eyni zamanda xarici

ölkələrdə istehsal olunmuş malların da mühüm istehlakçısına çevrilmişdi.

Bakıda xarici şirkət və kompaniyaların kontorları, şöbələri və agentlikləri şəhər əhalisini və Azərbaycanın digər yerlərini lazımi mallarla təmin edirdi.

Azərbaycanın ticarət əlaqələri dəniz və dəmiryol nəqliyyatı vasitəsilə təşkil edilirdi. Hər iki halda Bakı şəhəri müstəsna əhəmiyyət kəsb edirdi. 1900-cü ildə Bakıdan dənizlə 353 milyon, dəmir yolla isə 84,8 milyon pud mal aparılmış, buraya dənizlə 30,6 milyon, dəmir yolla 16,7 milyon pud mal gətirilmişdi. 1913-cü ildə Bakıdan dənizlə 307,7 milyon, dəmir yolla isə 72,6 milyon pud mal aparılmış, buraya isə müvafiq surətdə 33 və 46,3 milyon pud mal gətirilmişdi.

Ticarət əlaqələrinin inkişafında Xəzər dənizi sahilində yerləşən limanlar - Lənkəran və Astara, habelə mühüm dəmir yol stansiyaları - Hacıqabul, Kürdəmir, Ucar, Yevlax, Gəncə, Ağstafa mühüm rol oynayırdı.

Azərbaycanın ticarət əlaqələrində İran yenə də mühüm yer tuturdu. Azərbaycandan İrana aparılan malların içərisində neft məhsulları, qənd, metal, pambıq-parça məmulatı, maşın və avadanlıq xüsusi yer tutur, oradan gətirilən mallardan isə düyü, meyvə, pambıq, balıq məhsulları və s. həlledici əhəmiyyət kəsb edirdi.

XX yüzilliyin əvvəllərində ticarət gəmilərinin kiçikləri ixtisar edilib, irilərilə əvəz olunurdu. Donanmada 1908-ci ildən başlayaraq daxili yanacaqla hərəkətə gətirilən gəmilər (teploxodlar) meydana çıxdı. Xəzər ticarət donanmasında 1914-cü ildə 17 teploxod var idi ki, onlar da Rusiyadakı bütün gəmilərin 28,8 və bütün teploxodların 84,8%-ni təşkil edirdi.

Rusiya gəmiqayırma zavodları gəmiyə olan tələbatı vaxtında yerinə yetirirdi. 1914-cü ilə qədərki dövrdə Xəzər donanmasında

fəaliyyət göstərən buxarla işləyən gəmi və teploxodların 47% Rusiyada istehsal edilmişdi.

Çay nəqliyyatı da xeyli inkişaf etdi. 1907-ci ildə Kür çayında 10 gəmi üzürdü. Onlar Bakı limanlarına da gəlir, əsasən isə Bakı-Salyan arasında işləyirdi. Digər buxarla işləyən və yelkənli gəmilər daxili yükdaşıma ilə məşğul olur, əsasən neft və taxıl daşıyırdılar.

Azərbaycanın Rusiya bazarları, həmçinin İranla iqtisadi əlaqələrində ən mühüm rolu Xəzər dənizində ən iri liman olan Bakı limanı oynayırdı. Böhran və uzun çəkmiş durğunluq illərində Bakı limanının yük dövriyyəsinin xeyli azalmasına baxmayaraq onun ümumi yük dövriyyəsi Rusiyanın Peterburq və Odessa kimi iri limanlarınkından çox idi. Ancaq Bakıda liman təsərrüfatında əhəmiyyətli irəliləyiş olmamış və o, birinci dərəcəli limanlar sırasına daxil edilməmişdi.

Xəzər gəmiçiliyində azərbaycanlı sahibkarların rolu yüksək idi. 1906-cı ildə Xəzər gəmiçiliyində gəmilərin 41%-i onlara məxsus idi. Ən çox gəmisi olan sahibkarlar Useynovlar, Dadaşovlar və Rəsulovlar idi.

H.Z.Tağıyev də Xəzər dənizində ən çox gəmisi olan sahibkarlardan biri sayılırdı. O, 1905-ci ildə özünün "Kaspi" gəmiçilik şirkətini "Kür-Kaspi səhmdar gəmiçilik cəmiyyətinə" çevirmişdi. Bu dövrdə Xəzər ticarət gəmiçiliyində inhisarlaşma prosesi daha da dərinləşdi. Bu prosesə başlıca səbəb bir tərəfdən təmərküzləşmə, digər tərəfdən isə onun ən çox inhisarlaşma prosesinə məruz qalmış neft sənayesi ilə bağlı olması idi.

Xəzər buxar gəmiçiliyində səhmdar kompaniyaların mövqeyi daha güclü idi. Xəzər buxar gəmiçiliyində gücü az olanlar müflisləşir, onların mülkləri qüdrətlilərin əllərində cəmlənirdi. 1909-cu ildə "Nadejda" şirkəti öz fəaliyyətini dayandırmalı oldu və onun bütün əmlakı "Qafqaz və Merkuri" və "Şərq" kompaniyalarının ixtiyarına

keçdi. 1911-ci ildə həmin kompaniyalar H.Z.Tağıyevin "Kür-Kaspi gəmiçiliyi"ni satın aldılar.

1914-cü il ərəfəsində ən iri gəmiçilik müəssisələri "Qafqaz və Merkuri" və "Şərq" cəmiyyəti idi. Xəzər dənizi ilə sərnişinlərin və quru yüklərin daşınması iki iri Rusiya cəmiyyəti - "Qafqaz və Merkuri" və "Şərq" cəmiyyətinin inhisarında idi. 1913-cü ildə Xəzər dənizi ilə daşınmış bütün quru yüklərin 60%-i bu cəmiyyətlərin payına düşürdü.

Azərbaycanın Mərkəzi Rusiya ilə əlaqələrində 1900-cü ildə istismara verilən və Şimali Qafqazdan keçən dəmir yolunun böyük əhəmiyyəti oldu. Onun Dərbənd-Biləcəri xəttinin işə düşməsi ilə Azərbaycan dəmir yolunun uzunluğu 746 km-ə çatdı.

XX yüzilliyin əvvəllərində Azərbaycanda yeni dəmir yol xəttinin çəkilməsi sahəsində elə bir əhəmiyyətli iş görülməmişdi. Yalnız 1908-ci ildə Uluxanlı və Culfa stansiyalarını birləşdirən dəmir yolun çəkilişi sona yetdi.

Ticarətin inkişafı ilə əlaqədar Azərbaycan dəmir yolunun yükdaşıma dövriyyəsi artırdı. Bakı-Tiflis və Bakı-Dərbənd yolu ilə yük daşınması 1906-1913-cü illər arasında 584.300 puddan 72 mln puda qədər artmışdı.

Bakıdan daşınan yüklər içərisində neft məhsulları mühüm yer tuturdu. 1901-ci ildə Bakı-Dərbənd yolu ilə Rusiyaya 51,7 mln pud ağ neft daşınmışdı.

Ən əsas ağ neft ixracçıları "Nobel qardaşları", "Kaspi-Qara dəniz cəmiyyəti", "A.Mantaşov və K°" şirkətləri idi. Hər il "Nobel qardaşları" şirkəti 6 mln pud, "Kaspi-Qara dəniz cəmiyyəti" isə 4 mln pud ağ nefti Batum vasitəsilə ixrac edirdi.

Azərbaycanda quru yolların vəziyyəti o qədər də yaxşı deyildi. Yüzilliyin əvvəllərində Bakı quberniyasında Quba ilə Xaçmaz stansiyası arasında poçt yolu işə salındı. 1901-ci ildə uzunluğu 32

verst olan Kürdəmir-Ağsu yolunda hərəkət başlandı.1901-ci ildə Şuşa-Gorus yolu təmir olundu.

İqtisadi cəhətdən ən əsas yollar aşağıdakılar idi: Quba-Dəvəçi-Qızılburun, Lənkəran-Prişib, Lənkəran-Lerik, Bakı-Şamaxı-Kürdəmir, Nuxa-Zaqatala-Laqodexi, Yevlax-Şuşa, Ağdam-Cəbrayıl, Şuşa-Gorus və Qaramarlı-Ordubad-Culfa.

Rabitə. Bank idarələri. Kapitalizmin inkişafı poçt-teleqraf xidmətinin genişləndirilməsini tələb edirdi. Bakıda cəmisi bir poçt-teleqraf kontoru fəaliyyət göstərirdi. O mərkəzi hissədən çox kənarda idi və şəhərin tələbatını ödəyə bilmirdi.

Azərbaycanın Rusiya ilə teleqraf rabitəsi də zəif idi. Azərbaycanı Rusiya ilə birləşdirən Bakı-Tiflis teleqraf xətti yeganə idi və gündə 1000-1500 teleqram göndərə bilirdi. Bakıdan Xəzər dənizi boyu Həştərxana gedən teleqraf xətti ilə ayda 7600-dan çox teleqram göndərmək mümkün olmurdu.

1902-ci ilin yayında Minvod-Petrovsk-Dərbənd xətti Bakı və Tiflis dəmir yol stansiyaları arasındakı teleqraf xətti ilə birləşdirildi. 1903-cü ildə Bakı ilə Salyan arasında teleqraf xətti işə düşdü, Prişib-Salyan teleqraf xətti yenidən quruldu. Təzəkənd - Biləsuvar arasında yeni teleqraf xətti çəkildi. 1910-cu ildə Nuxada, 1913-cü ildə isə Bakı ilə Tiflis arasında birbaşa teleqraf əlaqəsi yaradıldı.

1913-cü ildə bütün Rusiya imperiyasında 7.618 dövlət poçt və teleqraf kontoru var idi ki, onlardan cəmi 65-i (1%-dən az) Azərbaycanda idi. Çox ləng olsa da, telefon rabitəsi də inkişaf edirdi.

Azərbaycanda telefon rabitəsi əsasən Bakıda və onun ətraflarında genişlənərək, neft sənayesinə və ticarət-sənaye nümayəndələrinə xidmət edirdi. Şəhərin iş adamları telefon rabitəsinin çoxalmasına çalışırdılar. 1910-cu ildə sənayeçilərin vəsaiti hesabına Quba ilə Xaçmaz arasında teleqraf, digərlərinə 50 verstlik telefon xətləri çəkildi. 1910-cu ildə Gəncədə də telefon xətti çəkilmiş, 1911-ci ildə

buradakı dəmir yol stansiyasında avtomat telefon aparatı qoyulmuşdu. 1911-ci ildə Bakı-Tiflis telefon xətti dövlət hesabına çəkilib başa çatdırılmışdı.

XX yüzilliyin əvvəllərində Azərbaycanda borc-bank sisteminin inkişafı sənaye kapitalı ilə bank kapitalının çulğaşması ilə xarakterizə olunurdu.

1909-cu ildə uzun müddətli durğunluqdan sonra Bakıda kredit – bank sisteminin yeni inkişaf mərhələsi başladı. 1909-cu ildə Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankı Balaxanı kəndində özünün ikinci şöbəsini açdı. 1914-cü il aprelin 15-də ilk yerli səhmdar Kommersiya Bankı - Bakı Tacir Bankı açıldı. Onun idarə heyətinin sədri Musa Nağıyev, bank şurasının sədri isə H.Z.Tağıyev idi.

Bakıda borc (kredit) verən Qarşılıqlı Borcvermə Cəmiyyəti, Şəhər Borcvermə Cəmiyyəti, xəzinəyə və xüsusi şəxsə məxsus olan şəhər lombardı kimi idarələr də fəaliyyət göstərirdi.

Gəncə, Şuşa, Şəki, Lənkəran və Naxçıvan kimi ticarət sənaye mərkəzlərində də kredit-bank sistemi inkişaf edirdi. Bu şəhərlərdəki kredit-bank sisteminin xüsusiyyəti böhrandan sonrakı durğunluq dövründə də inkişaf etməsi idi. Bunun başlıca səbəbi böhranın, neft sənayesindən fərqli olaraq, yerli sənaye sahələrinə və sənətkarlığa göstərdiyi təsirin zəif olmasında idi. Şuşada yerli tacirlərin və sənaye sahiblərinin təşəbbüsü ilə 1904-cü ildə ilk kredit idarəsi - Qarşılıqlı Kredit Cəmiyyəti, 1910-cu ildə Volqa-Kama Kommersiya Bankı Tiflis şöbəsinin komisyonerliyi, 1914-cü ildə isə Qarşılıqlı Kənd Təsərrüfatı Kredit Cəmiyyəti açıldı.

Şəkidə ilk bank idarəsi - Qarşılıqlı Kredit Cəmiyyəti 1908-ci ildə, bir ildən sonra Əhmədov qardaşlarının Banklar Evi və 1910-cu ildə isə Tiflis Kommersiya Bankının şöbəsi açıldı.

Uluxanlıdan İran sərhədinə qədər dəmir yol xətti çəkildikdən sonra mühüm ticarət mərkəzinə çevrilmiş Culfada 1910-cu ildə Azov-

Don Kommersiya Bankının şöbəsi, 1911-ci ildə İran Hesab-Borc Bankının şöbəsi və 1912-ci ildə isə Tiflis Kommersiya bankının şöbəsi yaradıldı.

Azərbaycanın kredit-bank sisteminin digər bir həlqəsi kiçik kredit (borcvermə) idarələri idi. Azərbaycanın kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı ölkədə kiçik kreditin vəziyyətini əsaslı surətdə dəyişməyi tələb edirdi. Azərbaycanda bu istiqamətdə ilk addımlar 1906-1907-ci illərdə atıldı. Dövlət bankının Tiflis və Bakı şöbələrinin nəzdində kiçik kredit üzrə Bakı və Yelizavetpol quberniya komitələri yaradıldı. Bank şöbələrində çalışan müfəttişlər kəndli təsərrüfatlarının xahişlərini nəzərdən keçirməli, imkan olduqda kiçik kredit müəssisələri açmalı idilər.

Kiçik kredit müəssisələri açılması Maliyyə Nazirliyinin 1905-ci ilin noyabrında təsdiq etdiyi Nizamnamə əsasında tənzimlənməli idi. Bu sənəd Azərbaycanda kiçik kredit müəssisələrinin iki növünün - kredit və borc-kredit şirkəti açılmasına yol verirdi.

Lakin kiçik müfəttişlərin sayca məhdudluğu, haqq-hesabın yerli dildə aparılmaması, qolçomaq-sələmçilərin müqaviməti və s. gətirib ona çıxartdı ki, Azərbaycanda ilk kiçik kredit müəssisəsi yalnız 1908-ci ildə açıldı.

Kiçik kredit müəssisələrin çoxu Bakı quberniyasında idi. Kredit şirkətləri çoxluq, borc-əmanət şirkətləri isə azlıq təşkil edirdi. Kredit-bank müəssisələrinin sürətli artımı Azərbaycan iqtisadiyyatında kapitalist inkişafının tələbi ilə şərtlənirdi. Bank kapitalı kredit müəssisələri çoxaldıqca və fəaliyyətlərini genişləndirdikcə yerli sənayenin, ticarət və kənd təsərrüfatının, əhalinin təsərrüfat həyatının bütün sahələrini əhatə edirdi.

Bakı banklarının demək olar ki, hamısı əsasən neft sənayesi, ona xidmət edən sənaye sahələri və neft məhsulları ticarəti ilə bağlı idi və onlara xidmət edirdi. Veksel və əmtəə kreditlərinin əsas hissəsi neft

sənayesi sahəsinə düşürdü. Çəltik və buğda dəyirmanları, tütün fabrikləri, balıq sənayeçiləri, manufaktura tacirləri, qənd, meyvə, pambıq və s. ilə ticarət edənlər də bank kreditindən geniş istifadə edirdilər.

Rusiya Kommersiya Banklarının Bakı şöbələri neft sənayesi ilə, yerli sənayenin başqa sahələri və ticarətlə qovuşdu, bank kapitalı sənaye kapitalı ilə qaynayıb qarışdı. Bu isə maliyyə oliqarxiyasının hakimiyyətinə gətirib çıxardı. Bankların şöbələri kapitalın və inhisarların təmərküzləşməsi prosesini sürətləndirib gücləndirdi, iqtisadiyyatın müxtəlif sahələrindəki qarşılıqlı əlaqələri yüksək dərəcədə qüvvətləndirdi. Bankların şöbələri təsərrüfat həyatının mərkəzinə çevrildi.

Nuxa və Şuşa bankları baramaçılığa və ipək sənayesinə, həmçinin başqa istehsal sahələrinə kredit verirdi. Torpaq banklarının bir qrupu kənd malikanələrini girov götürməklə, Azərbaycanın torpaq sahiblərinə uzunmüddətli borc vermişdi. Mülkədarlar bu kapitalın müəyyən hissəsini öz təsərrüfatlarını genişləndirməyə, onları kapitalist yolu ilə inkişaf etdirməyə yönəltmişdilər. Bank kapitalı Azərbaycan iqtisadiyyatının bütün sahələrinə daxil olmuş, təsərrüfatı aparmaq üsullarını, onun strukturunu, bütün pul münasibətlərinin mahiyyətini dəyişmiş, sənayedə, kənd təsərrüfatında və ticarətdə əmtəə təsərrüfatı və kapitalizmin inkişafını sürətləndirmişdi.

XIX FƏSİL
XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA ÇAR RUSİYASININ SOSİAL – SİYASİ ƏSARƏTİNƏ QARŞI MÜBARİZƏ

İnzibati idarədə dəyişikliklər. XX yüzilliyin əvvəlləri inzibati-polis aparatının yenidən qurulması və onun funksiyalarının genişləndirilməsi çarizmin Rusiyada, o cümlədən də Azərbaycanda gündən-günə artan azadlıq hərəkatını boğmağa yönəltməsi ilə səciyyələnirdi. Hələ 1881-ci ildə qəbul olunmuş və "Müvəqqəti Əsasnamə" adlanan, əslində isə Rusiya imperiyasının ən sabit, əsas qanunlarından biri sayılan gücləndirilmiş mühafizə haqqında Əsasnamə 1902-1903-cü illərdə Azərbaycanın bir çox şəhər və qəzalarına şamil edildi. Bu da o demək idi ki, "ictimai qaydalara və asayişə zidd olan yığıncaq və toplantıların iştirakçılarını, Əsasnaməni "pozan digər şəxsləri 500 rubladək cərimələyə və ya 3 aylıq müddətədək həbs etdirə bilərdilər".

1905-ci il fevralın 26-da Qafqazda canişinlik bərpa olundu. Canişin təyin edilmiş qraf Vorontsov-Daşkovun adına verilmiş çar reskriptində qeyd olunduğu kimi, onun ən birinci vəzifəsi "Qafqazda təxirə salınmadan dinclik yaratmaq" idi. Canişin bu məqsədin həyata keçirilməsinə təkcə repressiyalar yolu ilə deyil, həm də müxtəlif qüvvələri parçalayan manevrlər yolu ilə can atırdı. Vorontsov-Daşkov ikiüzlü vədlər siyasəti yürüdür, məhkəmə və zemstvo islahatları keçirəcəyinə, torpaq, silki məsələləri həll edəcəyinə və s. söz verirdi. Liberal burjuaziya canişinə inanaraq, onu tərifləyir, "bütün Qafqazı xoşbəxt edəcək böyük islahatçı" adlandırırdı. Lakin vəd olunmuş islahatlardan heç biri həyata keçirilmədi.

Zadəganlar təbəqəsi canişinliyə müvəqqəti bir təsisat kimi baxır, mərkəzi hərbi-bürokratik aparatın Qafqaz işlərinə bilavasitə

qarışmasını canişinliyin hər hansı şəkildə məhdudlaşdırılmasını istəmirdi. Ona görə də mütləqiyyət Rusiyadakı dekabr silahlı üsyanını məğlubiyyətə uğradan kimi canişinliyin ləğv edilməsi məsələsi qaldırıldı. Lakin Nazirlər Şurası bu orqanı saxlamaq qərarına gələrək göstərdi ki, onun fəaliyyəti "ümumdövlət siyasəti" ilə ən sıx şəkildə əlaqədar olmalı və mərkəzi hökumət tərəfindən istiqamətləndirilməlidir.

Çar hökuməti inqilabi çıxışlara və milli-azadlıq hərəkatına qarşı repressiyaları kifayət hesab etməyərək, fövqəladə səlahiyyət verilmiş müvəqqəti general-qubernator təsisatı yaratdı və bir çox quberniyalarda hərbi vəziyyət elan etməyə başladı. Artıq 1905-ci ilin fevralında Bakı şəhəri və quberniyasında, 1905-ci ilin sentyabrında isə Yelizavetpol quberniyasında hərbi vəziyyət rejimi tətbiq edildi. Yelizavetpol quberniyası ərazisində iki müvəqqəti general-qubernatorluq yaradıldı. Bunlardan biri Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarını, o biri isə digər qəzaları əhatə edirdi.

Hərbi vəziyyət mütləqiyyətə fövqəladə orqanlar yaratmaq, inqilabi hadisələrin iştirakçılarına divan tutmaq üçün istifadə etmək imkanı verirdi. Hərbi vəziyyət rejimindən irəli gələn tədbirləri həyata keçirməli olan müvəqqəti general-qubernatorluq isə çox geniş səlahiyyətə malik idi. O, yığıncaqları qadağan edə, sənaye və ticarət müəssisələrini bağlaya, "etibarsız" şəxsləri quberniya hüdudlarından kənara sürgün edə bilərdi.

Müvəqqəti general-qubernatorluq institutunun tətbiqi ilə yanaşı, qubernator başda olmaqla, əvvəlki quberniya aparatı da fəaliyyət göstərirdi. O, "qayda-qanun və dinclik yaratmaq" işində müvəqqəti general-qubernatorluğa tabe idi. Qalan hər şeydə isə quberniya və qəza idarələri ancaq qubernatora tabe idi.

Bakı general-qubernatoru, öz amansızlığı ilə məşhur olan knyaz Amilaxvarinin ilk addımlarından biri repressiyaların gücləndirilməsi

və mütləqiyyətə qarşı silahlı çıxışlarla bağlı baxılan işlərin hərbi məhkəmələrə verilməsi haqqında 1905-ci il 25 fevral tarixli əmri oldu.

Cəmiyyətlər və ittifaqlar haqqında müvəqqəti qaydalar adlandırılan sənəd müvəqqəti general-qubernatorluğun inzibati özbaşınalığı üçün geniş meydan açırdı. Bu qaydalar hakimiyyət orqanlarına "ictimai təhlükəsizliyə və ya asayişə" təhlükə yaratması bəhanəsi ilə cəmiyyət və ittifaqları bağlamaq hüququ verirdi.

1905-ci il sentyabrın 22-də Peterburqda keçirilən müşavirədə Bakı polisinin gücləndirilməsi məsələsini qaldıran neft sənayeçiləri qradonaçalnikliyin yaradılması tələbini irəli sürərək, onun saxlanması xərclərinin xeyli hissəsini öz üzərlərinə götürməyə hazır olduqlarını nümayiş etdirirdilər. İnqilabi hərəkatla mübarizəni gücləndirmək üçün canişinin 1905-ci il 2 dekabr tarixli sərəncamı ilə bu bölgələr "ictimai asayiş və təhlükəsizliyin mühafizəsi" baxımından Bakı quberniya idarəsinin ixtiyarından alındı və müvəqqəti general-qubernatorluğun birbaşa idarəsinə verildi.

1906-cı il 28 oktyabr tarixli fərmanla Bakı şəhəri, ona bitişik neft-mədən və fabrik-zavod rayonlarının idarəsi üçün Bakı qradonaçalnikliyi yaradıldı. Bu addım şübhəsiz ki, həmin ilin yayında Bakıda qalxan fəhlə tətil və nümayişlərinin yeni dalğası, fəhlələrin ictimai fəallığının yeni yüksəlişi ilə əlaqədar idi.

Bakı qradonaçalnikliyinə imperator tərəfindən təyin edilən və qubernator səlahiyyətləri olan qradonaçalnik başçılıq edirdi. Qradonaçalniklik, qradonaçalnikliyin idarəsi Bakı və Balaxanı-Sabunçu polismeysterliklərindən ibarət idi. Qradonaçalnikin yanında inzibati və neft işləri üzrə idarələr fəaliyyət göstərirdi. Bu idarələrdən birincisi qradonaçalnikin sədrliyi altında onun köməkçisindən, Bakı və Balaxanı-Sabunçu polismeysterlərindən və qradonaçalnikliyin dəftərxana müdirindən ibarət idi. O, kəndlər və kənd cəmiyyətlərinin idarəsi, polisin fəaliyyəti və s. ilə bağlı məsələlərə baxırdı.

Neft işləri üzrə idarəetmənin tərkibinə yuxarıda sadalanan şəxslərlə yanaşı, bir sıra hökumət məmurları, şəhər duması və neft sənayeçiləri qurultayı şurasının nümayəndələri daxil idilər.

Neft işləri üzrə idarə ildə 600 min rubl ayırmaqla bu orqanın saxlanılmasında iştirak edən neft sənaye burjuaziyasının təkidi ilə yaradılmışdı. Bu idarə Bakı neft sənayeçilərinin mənafeyini ifadə edərək tətillərin dağıdılması, şəhərin, mədən və zavodların mühafizəsi və buralarda "asayişin qorunub saxlanması"na aid tədbirlər işləyib hazırlayır, qradonaçalniklik idarəsinin və polismeysterlərin ştatlarını nəzərdən keçirirdi.

Qradonaçalniklik çoxsaylı məmur aparatı idi. Burada vəzifələrin əksəriyyətini tutmaq üçün Tiflisdəki hökumət idarələrindən qulluqçular göndərilmiş, bəzi rəhbər vəzifələrə isə Peterburqdan məmurlar təyin edilmişdi. Canişinin xüsusi sərəncamına müvafiq olaraq, azərbaycanlılar qradonaçalnikliyin aparatına buraxılmırdı.

1906-cı ilin dekabrında Bakı şəhəri quberniyasında hərbi vəziyyət fövqəladə mühafizə vəziyyəti ilə əvəz olundu, müvəqqəti general-qubernatorluq isə ləğv edildi.

Mütləqiyyət azadlıq hərəkatı ilə mübarizədə jandarma xüsusi yer verirdi. O, milli və inqilabi təşkilatlar, tətil komitələrinin üzvləri haqqında məlumat toplayır, tətilçi fəhlələri həbs və sürgün edirdi.

Cənubi Qafqazda axtarış müəssisələri adlanan orqanlar da yaradılmış, onların ştatları 1905-1907-ci illərin inqilabi hadisələri dövründə xeyli genişləndirilmişdi.

Qubernatorlara torpaq sahiblərinin vəsatətləri üzrə və onların hesabına kənd yerlərində polis vəzifələri təsis etmək və keşikçi komandaları yaratmaq hüququ verilməsi barədə 1905-ci il 8 dekabr tarixli əmr Cənubi Qafqaz ərazisinə də şamil edilmişdi.

Çar hökuməti milli-azadlıq və inqilabi hərəkatla mübarizədə məhkəmə orqanlarına, xüsusən də hərbi ədliyyəyə mühüm yer verirdi.

1905-ci ilin martında Bakıda müvəqqəti hərbi məhkəmə yaradılması barəsində sərəncam verildi, bu, Cənubi Qafqazda ilk hərbi məhkəmələrdən biri oldu.

Hərbi məhkəmələrin hökmləri hərbi qubernator tərəfindən, ona tabe olmayan yerlərdə isə qoşun komandanı tərəfindən təsdiq olunmalı idi. General-qubernatorlar və ya qoşun komandanları edam cəzaları haqqında hökmləri təsdiq etmək hüququna malik olsalar da, onları digər cəza ilə müstəqil olaraq əvəz edə bilməzdilər. Bunun üçün imperatorun xüsusi əmri tələb olunurdu.

Çar hökuməti 1906-cı ilin yaz və yayında kəndli, əsgər və matrosların siyasi tətil və inqilabi çıxışlarının yeni yüksəlişi ilə əlaqədar olaraq, məhkəmənin daha sərt cəza tədbirlərini həyata keçirməsinə qərar verdi. Bu məhkəmələr hökumətin mütləqiyyət hakimiyyətini qoruyub saxlamaq uğrunda apardığı vəhşi mübarizəsinin ən qatı təzahürü kimi iz qoydu.

Hərbi-səhra məhkəməsi müstəsna surətdə ancaq nizami ordu zabitlərindən, yəni hüquqi bilikləri və mühakimə etmək səriştələri olmayan şəxslərdən təşkil edilirdi.Burada işlərə prokuror və müdafiəçinin iştirakı olmadan baxılır, çıxarılan yeganə qərar, demək olar ki, ölüm hökmü olur, onun icrası təsdiqi tələb edilmədən ən geci 24 saat müddətində həyata keçirilirdi. Bu isə əfv olmanı qeyri-mümkün edirdi.

İnqilabi və milli-azadlıq hərəkatının yüksəlişi dövründə Azərbaycan cəmiyyətənin yüksək dairələrinin nümayəndələri çar hökumətindən bəzi siyasi güzəştlər almağa səy göstərdi. Məsələn, azərbaycanlı qlasnıların təkidi ilə 1906-cı ilin yanvarında Bakı Şəhər Duması Cənubi Qafqaz şəhər özünüidarə orqanlarında müsəlmanların hüquqlarını xristianların hüquqları ilə bərabərləşdirmək barəsində vəsatət qaldırdı. 1907-ci ilin martında Bakı Duması təkrarən belə bir addım atdı. Lakin Dumanın bu vəsatətləri çar hökumət orqanları

tərəfindən rədd edildi. Azərbaycanlı qlasnıların seçilməsi üzrə məhdudiyyətlər ancaq sadələşdirilmiş ictimai idarələrin bəzi orqanlarında ləğv edildi.

Siyasi təşkilatlar və partiyaların yaranması. XX yüzilliyin əvvəlində baş verən iqtisadi böhran həm Rusiyanı, həm də onun müstəmləkələrini əhatə etdi. Bütün imperiyanı sarsıdan tətillər dalğası sənaye potensialı gündən-günə artan Azərbaycanı da bürüdü. Bütün bunlar cəmiyyətin bütün təbəqələrində narazılığın artmasına və onun siyasiləşməsinə səbəb olmaya bilməzdi.

XX yüzilliyin əvvəllərində Azərbaycanda formalaşmağa başlayan ilk siyasi təşkilatlar, bütün Rusiyada olduğu kimi, əsasən sosialist yönlü idi.

Rusiyadan gəlmiş bir neçə nəfər inqilabçı 1900-cü ildə Bakıda sosial-demokrat təşkilatının əsasına çevriləcək rəhbər mərkəz yaratmağa nail oldular. Rəhbər qrupa A.Yenukidze, V.Ketsxoveli və A.Eyzenbet daxil idilər.

1901-ci ildə RSDFP Bakı Komitəsi yaradıldı və RSDFP Bakı təşkilatının formalaşması başlandı.1902-ci il sentyabrın sonlarında RSDFP Bakı təşkilatı 5 rayona (Balaxanı, Bibiheybət, Qara şəhər, Ağ şəhər və Şəhər rayonlarına) bölündü. Fəhlə kütlələri ilə daha sıx təmasda olmaq və onlara təsir göstərmək üçün rayon komitələri yaradıldı.

1901-ci ildə Bakıda iskraçı qrup da təşəkkül tapdı. Buraya "İskra" qəzetinin agentləri L.Y.Qalperin, A.S.Yenukidze, V.Z.Ketsxoveli, L.Y.Krasin və başqaları daxil idilər. Bunlardan bəziləri eyni zamanda RSDFP BK-nın da üzvləri idi. Qrup müntəzəm olaraq "İskra"nın redaksiyası ilə yazışır, onun üçün pul vəsaiti toplayır, qəzetin yayılmasına kömək göstərirdi. 1901-ci ilin yazında qrup xaricdən (İrana keçməklə) "İskra"nın gətirilməsini qaydaya saldı. "İskra" və digər qeyri-leqal ədəbiyyat Berlindən Vyana vasitəsilə Təbrizə

gətirilir, oradan da atlarla Bakıya daşınırdı. Görünür ki, buna görə Bakı qrupu o zaman gizli "Loşad" (at) adını daşıyırdı.

1901-ci ilin yayında RSDFP-nin Bakıdakı qrupunun üzvləri gizli adı "Nina" olan qeyri-leqal mətbəə təşkil etdikdən sonra (əvvəlcə indiki Əzizbəyov və Füzuli küçələrinin tinində, sonra isə "İskra" küçəsində 102 saylı evdə yerləşirdi) "İskra"nın nəşri və yayılma miqyası daha da genişləndi. Lakin gizli işin dəqiq təşkilinə baxmayaraq, RSDFP Bakı təşkilatı kütləvi fəhlə təşkilatına çevrilmədi.

RSDFP-nin II qurultayından sonra 1903-cü ildə Bakı təşkilatı da bolşeviklərə və menşeviklərə parçalandı. Bakı Komitəsinin rəhbərliyində əvvəlcə bolşeviklər çoxluq təşkil edirdi. 1904-cü ilin yanvarında isə BK-nın rəhbərliyi menşeviklərin əlinə keçdi. Onlar o zaman gedən rus-yapon müharibəsinə qarşı çıxır, bolşeviklərdən fərqli olaraq, onun başa çatdırılmasını mövcud quruluşa qarşı inqilabi mübarizə ilə bağlamırdılar. Buna görə də menşevikçi Bakı Komitəsi Qafqaz İttifaq Komitəsinin müşavirəsinə öz nümayəndələrini göndərməkdən imtina etdi.

RSDFP-nin bolşevikçi Qafqaz İttifaq Komitəsi belə vəziyyətlə barışa bilməyərək, iyunun 4-də Bakı Komitəsinin buraxılması haqqında qərar qəbul etdi. Qafqaz İttifaq Komitəsinin göndərdiyi böyük bolşevik qrupu BK-nın yeni tərkibini təşkil etdi. A.M.Stopami BK-nın katibi oldu. Bolşeviklər I906-cı ilədək Bakı Komitəsinə rəhbərlik etdilər.

Bakı bolşevikləri öz fəaliyyətlərinin ilkin dövründə yerli millətdən olan fəhlələr arasında siyasi işə xüsusi əhəmiyyət vermir, RSDFP-nin müstəqil milli təşkilatının yaradılması barəsində düşünmürdülər. Lakin digər millətlərdən olan fəhlələrlə müqayisədə azərbaycanlı fəhlələrin həddən çox alçaldıcı vəziyyəti onları gündən-günə artan etiraz çıxışlarına şövq edirdi. Bu da özünü 1903 və 1904-

cü illərin, müvafiq olaraq, iyul və dekabr tətillərində azərbaycanlı fəhlələrin fəal iştirakında göstərdi. Neft hasilatı sənayesində xüsusən geniş təmsil olunmuş azərbaycanlı fəhlələr real qüvvəyə çevrildilər.

XX yüzilliyin əvvəllərindən etibarən azərbaycanlı ziyalılar içərisində yerli fəhlələrin acınacaqlı vəziyyətinə dərindən acıyan və özlərini büsbütün zəhmətkeşlər içərisində inqilabi iş aparmağa həsr edən adamlar meydana çıxmağa başlamışdı. Onlardan bəziləri S.M.Əfəndiyev, A.Axundov, M.Q.Mövsümov, M.Ə.Əzizbəyov RSDFP-nin üzvü idilər. Lakin çoxları marksizmin bəzi müddəalarına rəğbət bəsləsələr də, bu partiyanın sıralarına keçmirdilər.Onlardan M.Ə.Rəsulzadə, M.A.Mirqasımov, M.Hacıyev, A.Kazımzadə, M. Hacınski və başqalarının birgə səyi nəticəsində 1904-cü ilin oktyabrından Bakıda müsəlman aləmində ilk sosial-demokrat "Hümmət" təşkilatı fəaliyyətə başladı. 1905-ci ilin fevralına kimi Azərbaycan dilində "Hümmət"qəzeti nəşr edilmişdir. Həmin ildən N.Nərimanov "Hümmət"ə daxil olmuşdur.

Mütləqiyyətin yeritdiyi böyük dövlətçilik siyasəti, zorla ruslaşdırma və azlıqda qalmış millətlərin hüquqlarının hər cür pozulması milli məsələni cəmiyyətin siyasi həyatının ən başlıca məsələlərindən birinə çevirmişdi.

"Hümmət"in 1917-ci ilə qədərki fəaliyyətini iki aspektdə: bir tərəfdən, bir çox siyasi məsələlərdə (tətil və nümayişlərdə iştirak etmək, beynəlmiləlçiliyin təbliği, Dövlət Dumasına seçkilər və s.) RSDFP BK ilə birgə fəaliyyətə, digər tərəfdən isə "Hümmət”in görkəmli xadimlərinin yerli mətbuat səhifələrində müsəlmanların milli ləyaqət və hüquqlarının tapdalanması barədə məqalə və çıxışlara görə nəzərdən keçirmək olar.

"Hümmət”in RSDFP BK ilə birlikdə keçirdiyi ilk siyasi tədbirlərindən biri Rıısiyada fəhlələr və sahibkarlar arasında ilk kollektiv (müştərək) müqavilənin bağlanması ilə başa çatmış dekabr

(1904-cü il) ümumi tətili idi. Tətilin elə ilk günündə - dekabrın 13-də "Hümmət"in buraxdığı vərəqədə asan anlaşılan şəkildə sosialistlərin kim olduqları və nə uğrunda mübarizə apardıqları azərbaycanlı fəhlələrə belə izah olunurdu: "... Xalq işi üçün özünü qurban verənlər sosialist adlanırlar".

1905-ci il fevralın ortalarında "Hümmət" qəzeti "zərərli istiqamətinə görə" bəhanəsi ilə polis tərəfindən bağlandı. 1906-cı ilin mayından avqustadək Azərbaycan və erməni dillərində çıxan "Dəvət-Qoç" qəzetinin nəşri təşkil olundu. 1906-cı ilin dekabrında hümmətçilər "İrşad" mətbəəsində M.Hacınskinin adına "Təkamül" qəzetinin buraxılmasına icazə ala bildilər. Elə həmin il avqustdan sentyabradək "Hümmət" əslində "Təkamül"ün davamı olan "Yoldaş" qəzetini nəşr etdirmişdi. Qəzet və intibahnamələrin rayonlara göndərilməsinə M.Ə.Rəsulzadə, Ə.A.Axundov rəhbərlik edirdilər. Bu qəzetin səhifələrində müntəzəm çıxış edən əsas publisistlər S.M.Əfəndiyev, M.Ə.Rəsulzadə, M.Q.Mövsümov, M.A.Mirbağırov, M.Hacınski, M.Ə.Əzizbəyov cəmiyyətdə gedən proseslərə heç də eyni gözlə baxmırdılar. Əgər S.M.Əfəndiyev bütün millətlərin zəhmətkeşlərini mütləqiyyət və kapitalistlərlə mübarizədə birləşməyə çağırırdısa, M.Ə.Rəsulzadə və M.Hacınskinin məqalələrində milli vəhdət, öz milli müqəddəratını təyin etmək hüququ uğrunda mübarizədə müsəlman xalqlarının birliyi ideyaları üstünlük təşkil edirdi.

"Hümmət" təşkilatının Gəncə, Şuşa, Naxçıvan və Culfada şöbələri var idi, lakin Tiflis şöbəsi həm üzvlərin sayı, həm də siyasi fəallığına görə onlardan seçilirdi. Tiflis "Hümmət"i Gürcüstan sosial-demokratiyası üçün səciyyəvi olan menşevik istiqamətini rəhbər tuturdu.

Tiflis hümmətçiləri mitinqlərdə "sosializm ideyalarını müsəlmanlara izah edir", millətlərarası toqquşmalara qarşı çıxışlar

təşkil edir, Azərbaycan dilində kitabça və vərəqələr buraxırdılar. Kitabça və vərəqələr çap edərkən C.Məmmədquluzadə başda olmaqla, ziyalılar dərnəyinə məxsus "Qeyrət" mətbəəsindən istifadə olunurdu.

Azərbaycan sosial-demokratları, hümmətçilər ilə İran milli-azadlıq hərəkatı mücahidləri arasında sıx əlaqələr var idi. Onların çoxu dəfələrlə İranda olmuş və 1906-1911-ci illərin inqilabi hadisələrində iştirak etmişdi.

"Hümmət"in fəaliyyət prinsipləri sosial-demokratiyanın sərt kanonları ilə ziddiyyət təşkil edirdi. İnkişaf etməkdə olan Azərbaycan burjuaziyası və ziyalıları yerli özünüidarə orqanlarının fəaliyyətində, çar hökumət orqanlarının çağırdıqları qurultay və müşavirələrdə, Rusiyanın Dövlət Dumasında fəallıq göstərir, eyni zamanda zəhmətkeş təbəqələrə üz tutaraq, bütün millətin adından çıxış edirdilər. Ən mütərəqqi siyasi xadimlər çarizmin müstəmləkəçi siyasətinə qarşı qətiyyətlə çıxırdılar. Birinci rus inqilabınadək Azərbaycanın yuxarı sosial təbəqələri nə siyasi partiyalar yaratmış, nə də siyasi proqram tərtib etmişdi. Onların öz nümayəndələri ilə mövqelərini möhkəmləndirdikləri yeganə sahə şəhər özünüidarə orqanları idi.

Azərbaycanda milli ideologiyanın əsaslarını proqram və tələblər şəklində işləyib hazırlamaqda görkəmli ictimai xadimlər Ə.Topçubaşov, Ə.Ağayev, Ə.Hüseynzadə və b. bilavasitə iştirak edirdilər. Onlar "Kaspi" və "Şərqi-rus" qəzetlərində müsəlmanların siyasi hüquqsuzluğundan, ictimai-siyasi və mədəni-maarifçilik fəaliyyətlərinin məhdudlaşdırılmasından söz açır, millətin oyanmasına, maarifin yayılmasına, xeyriyyəçilik cəmiyyətlərinin yaradılmasına çalışırdılar. Onların fikrincə, müsəlmanlar ya məhv olub yer üzündən silinməli, ya da din vastəsilə sağlamlaşmalıdırlar".

Bu dövrdə Azərbaycanda müxtəlif istiqamətli erməni partiyaları geniş fəaliyyət göstərirdi. Onlardan ən böyüyü və qatı burjua-millətçi "Daşnaksutyun" partiyası idi. 1890-cı ildə yaradılan və Türkiyə ərazisində Ermənistanın müstəqilliyi uğrunda mübarizəni özünün əsas vəzifəsi elan edən Daşnaksutyun tədricən bu mübarizənin meydanını Türkiyənin hüdudlarından kənara keçirərək genişləndirir və kütlələrin beyninə dənizdən-dənizə uzanan "Böyük Ermənistan" yaratmaq ideyasını yeridirdi. Millətçi erməni xırda burjua partiyası olan "Qnçak" da erməni fəhlələr içərisində müəyyən nüfuza malik idi. Daşnaklar kimi qnçakçılar da erməni fəhlələrin başqa fəhlələrlə birlikdə tətil və siyasi nümayişlərdə iştirak etməsinə qarşı çıxırdılarsa da, 1904-cü il dekabr tətili zamanı sol bloka girdilər. Onlar da daşnaklar kimi, "Qərbi Ermənistan" problemlərinin həlli uğrunda mübarizəyə çağırışla çıxış edirdilər.

1903-cü ilin payızında Bakıda "Erməni sosial-demokrat fəhlə təşkilatı" meydana çıxdı. "Spesifiklər" adlandırılan bu təşkilat 1903-cü ilin dekabrında "Manifest" dərc etdi. Spesifiklər"in erməni fəhlələri içərisində elə bir xüsusi nüfuzu yox idi.

Sosialist inqilabçıları (eserlər) partiyası Bakıda 1903-cü ilin yayında meydana çıxdı. Bunun üçün Azərbaycanda torpaq və kənd təsərrüfatı sahələri ilə sıx bağlı olan müəyyən fəhlə təbəqələrinin mövcudluğu obyektiv zəmin idi.

Bakıda fəaliyyətinə 1903-cü ilin iyulunda hektoqrafik vərəqə buraxmaqla başlayan eser dərnəyi elə həmin ilin sonunda çap maşını olan gizli mətbəə təşkil etdi. Burada onların öz nəşrləri ilə yanaşı, mərkəzi eser qəzetlərindən materiallar və digər şəhər komitələrinin nəşrləri çap olunurdu. Eserlər partiyasının xaricdəki Mərkəzi Komitəsi eser təşkilatlarının Cənubi Qafqazdakı işinə böyük əhəmiyyət verirdi. Buna görə 1904-cü ildə Sosial-İnqilabçılar Partiyası (SİP) MK öz nümayəndəsi V.Volskini Bakıya göndərmişdi.

O, burada eser təbliğatını canlandırmalı və birgə terror əməliyyatları keçirmək üçün Daşnaksutyun partiyası ilə əlaqə yaratmağa çalışmalı idi.

Eserlər Azərbaycanın digər şəhərlərində də fəhlə və təhsil alan gənclər içərisində öz təsirlərini yaymağa can atırdılar. 1904-cü ilin fevralında Şuşa real təhsil məktəbində eser dərnəyi yaradılmışdı.O zaman Gəncədə də eser təşkilatı yaradılmasına cəhdlər göstərilmişdi.

Bakı eser təşkilatının nümayəndələri və SİP MK eser partiyasının Azərbaycan filiallarını da yaratmağa cəhd göstərdilər. Lakin 1906-cı il ərəfəsində SİP MK-nın göndərdiyi nümayəndələr Azərbaycanda "İttifaq" adlı eser təşkilatını, sonra Əş-Şəms" ("Günəş") şagird təşkilatını yaratmağa nail oldular.

"İttifaq" və "Əş-Şəms" uzun müddət yaşamadı, kütlələr içərisində əhəmiyyətli sosial bazası və müdafiəsi olmadığı üçün 1907-ci ildə dağıldı və ancaq Fevral inqilabından sonra yenidən dirçəlib siyasi meydana qədəm qoydu.

Şimali Azərbaycan Birinci rus inqilabı dövründə. .Ölkədə baş verən ümumi böhranla əlaqədar meydana çıxan ağır iqtisadi vəziyyət, digər tərəfdən isə 1901-ci ildə yaradılmış Bakı sosial-demokrat təşkilatı tərəfindən siyasi təbliğatın gücləndirilməsi həmin ildə bir sıra fəhlə çıxışlarına gətirib çıxardı. Əmək haqqı gecikdirildiyinə görə, 1901-ci ilin martında Sabunçudakı "Təmir" emalatxanasının fəhlələri tətilə başladılar. Ancaq polis işə qarışdıqdan sonra tətil dayandırıldı.

1901-ci ilin ən böyük tətilləri Xatisovun zavodunda 200 nəfərdən artıq fəhlənin iştirakı ilə baş verdi. Zavodun müdiriyyəti tətilçilərə güzəştə getməyə məcbur olub, işdən qovulmuş fəhlələri geri qaytarmağı öhdəsinə götürdü.

1901-ci ilin avqustunda Gəncədə dəmir yol deposunun, elə həmin ilin dekabrında isə Tovuzda dəmir yol stansiyasının fəhlələri tətil etmişdilər.

Bu çıxışlar hökumət idarələri tərəfindən fəhlələrə qarşı görülən bir sıra cəza tədbirləri ilə nəticələndi.

1902-ci ilin 1 May nümayişinə (nümayişin təşkilində RSDFP Bakı Komitəsi də iştirak etmişdi) müxtəlif millətlərdən olan 5 mindən artıq adam çıxmışdı.Nümayişçilər "Rədd olsun mütləqiyyət!, "Yaşasın sosializm!" şüarları ilə şəhərin küçələri ilə addımlayırdılar. Bu, Azərbaycan fəhlə hərəkatı tarixində ilk açıq nümayiş oldu. 1902-ci ilin iyunundan oktyabrınadək "Nobel qardaşları" mədənlərində emalatxanaların azərbaycanlı fəhlələri bir sıra tətil çıxışları etdilər.

1903-cü ildə inqilabi çıxışlar geniş miqyas aldı. Martın 2-də Bakıda iri siyasi nümayiş keçirildi. Elə həmin gün Balaxanıda, müxtəlif millətlərdən olan 2 min nəfərədək fəhlə etiraz nümayişinə çıxdı. Hökumət orqanları nümayişi dağıtmaq üçün kütləvi həbslərə əl atdı, iştirakçıların 60 nəfərdən çoxunu həbs etdi.

1903-cü ildə ən iri tətil Bakıda iyulun 1-də Xatisovun zavodunda başladı, iyulun 4-də Qara və Ağ şəhərləri, habelə Bibiheybəti, növbəti gün isə Balaxanı-Sabunçu neft sənayesi rayonunu əhatə edərək ümumi xarakter aldı. Tətillərdə iri sənaye müəssisələri fəhlələri ilə birlikdə, kiçik sənaye müəssisələri, mətbəə, şəhər konkası işçiləri, sənətkarlıq emalatxanaları, dülgərlər, çəlləkçilər, çörəkçilər və b. iştirak edirdilər. Elektrik stansiyaları, dəmir yol nəqliyyatı dayandı. Tətil iştirakçılarının ümumi sayı ən azı 40 min nəfər olmuşdu.

Bakıda 1903-cü ilin iyul tətili inqilabi çıxışlara mühüm təsir göstərdi. Bakının ardınca Tiflis, Batum, Odessa, Kiyev, Yekaterinoslav, Novorossiysk və b. şəhərlərdə tətillər baş verdi.

Azərbaycan kəndində də sosial ziddiyyətlər kəskinləşirdi. Kəndlilərin vergi verməkdən imtina etməsi, mülkədar və xəzinə

torpaqlarının tutulması, bəy malikanələrinə hücum halları artmağa başlamışdı. Vergilərin ödənilməsi barədə çoxsaylı şikayətlər də təkcə mülkədarlara qarşı deyil, həm də doğulmaqda olan kənd burjuaziyasına-varlı qolçomaq kəndlilərə, binəkdarlara, sələmçilərə qarşı çevrilmişdi.

Kəndli çıxışları tez-tez polislə silahlı toqquşmalara çevrilirdi. 1900-1903cü illərdə Şamaxı qəzasının Navahi kəndində, Bakı qəzasının kəndlərində, Naxçıvan və Yelizavetpol qəzalarında belə çıxışlar baş vermişdi. O dövrdə Azərbaycanda kəndli etirazı və mübarizəsi əsaslı formada qaçaqçılıq hərəkatı idi. Qaçaqlar mülkədar və varlı kəndlilərin malikanələrinə hücum edirdilər. Qaçaq hərəkatı Yelizavetpol qəzasında geniş miqyas almışdı.

Kəndli çıxışları Azərbaycanın digər qəzalarında da baş verirdi, lakin onların hamısı pərakəndə və qeyri-mütəşəkkil xarakter daşıyırdı.

Azərbaycanda milli-azadlıq hərəkatı və inqilabi mübarizənin yüksəlişi orta şəhər təbəqələri və milli ziyalılara da təsir göstərirdi. 1902-ci ildə Bakı şagird komitəsi təşkil olundu. Tezliklə şagird komitəsi siyasi işə cəlb olunaraq, siyasi hadisələri də əks etdirən vərəqələr dərc edirdi.

1903-cü ilin ikinci yarısında Bakı və Gəncənin mexaniki zavodları və mədənlərində baş verən tətillər Rusiya-Yaponiya müharibəsinin başlanması ilə əlaqədar tezliklə dayandırıldı.

Müharibə başlanandan zəhmətkeş kütlələrin həyat səviyyəsi bir xeyli aşağı düşmüş, ərzaq məhsullarının qiymətləri qalxmışdı. Sahibkarlar əmək haqqını vaxtaşırı azaldır, onun ödənilməsini ləngidir və cərimələr qoyurdular.

Fəhlə həyəcanlarının qarşısını almaq üçün Bakıda mühafizə tədbirləri gücləndirildi Yeni polis sahələri yaradıldı. Bunlara baxmayaraq, ayrı-ayrı məhdud çərçivəli tətillər baş verirdi.

Müharibəyə qarşı ən kəskin təbliğat aparan bolşeviklər fəhlə kütləsini müharibəni mütləqiyyətə və kapitalistlərə qarşı çevirməyə çağırırdılar və "Rədd olsun müharibə" adlı vərəqə buraxıb onu Tiflis, Bakı, Kutaisi və b. şəhərlərdə yaydılar.

1904-cü ilin əvvəllərində RSDFP Bakı Komitəsi bolşeviklərin əlindən çıxdı və ona rəhbərlik menşeviklərin əlinə keçdi. Menşeviklərin Bakı Komitəsinə rəhbərliyi 1904-cü ilin iyununadək çəkdi. Onlar müharibənin əleyhinə çıxış etsələr də, bolşeviklərdən fərqli olaraq, müharibədəki məğlubiyyəti mövcud rejimə qarşı yönəltmək fikrindən uzaq idilər.

Azərbaycan qəzalarında da tətillər başlandı. Gəncə ipəkçiləri, dəmiryolçular və mətbəə işçiləri ciddi siyasi və iqtisadi tələblər irəli sürdülər, tələblərin xeyli hissəsi yerinə yetirildi. Gədəbəy filiz mədəni və misəritmə zavodunda baş verən tətil 15 gün çəkdi. Şamkir və Zəyəm stansiyalarının dəmiryolçuları, Tovuz sement zavodunun tikintisində çalışan fəhlələr və Şəkidə ipəksarıyıcılar içərisində də həyəcanlar baş verirdi.

Hərbi əməliyyatların Rusiyanın xeyrinə olmayan istiqamətdə gedişi, güclənən iqtisadi və siyasi böhran da Azərbaycandakı siyasi vəziyyətə müəyyən təsir göstərirdi. Rusiya müharibəni uduzdu.

Port-Artur müdafiəçiləri sırasında sonradan Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə milli orduda xidmət edəcək igid azərbaycanlı zabitlər də vuruşurdular. Səməd ağa Mehmandarov onlardan biri idi. O, Port-Arturun müdafiəsində hərbi xidmətlərinə görə döyüş ordenləri ilə təltif olunmuş, general-mayor rütbəsi almışdı.

Port-Arturun müdafiəçiləri sırasında topçu zabit, kapitan Əlağa Şıxlinski də var idi. Hərbi məharəti ona "artilleriyanın allahı" şöhrətini qazandırmışdı. Rusiya-Yaponiya müharibəsinin iştirakçıları içərisində həmçinin 2-ci Dağıstan süvari alayının komandiri

polkovnik Hüseyn xan Naxçıvanski, polkovnik İlyas bəy Ağalarov və b. məşhur idilər.

Müharibədəki məğlubiyyət Rusiyada ümumi siyasi böhranın kəskinləşməsinə səbəb oldu. Sənaye şəhərlərində siyasi tətil və həyəcanlar başlayırdı. 1904-cü ilin avqust ayında Bakıda Şendrikov qardaşları tərəfindən "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" adında menşevik mövqeli təşkilat yaradıldı. Fəhlələrlə sıx ünsiyyətə girən Şendrikovlar onları əsasən iqtisadi mübarizəyə çağırır, bolşeviklərə qarşı çıxış edirdilər.

1904-cü ilin noyabr ayından Şendrikovçular ümumi tətilə hazırlıq görməyə başladılar.

Dekabrın 12-də "Balaxanı və Bibiheybət fəhlələrinin təşkilatı" sənaye fəhlələrini ümumi tətilə çağırdılar.“Xəzər-Qara dəniz cəmiyyəti”nin fəhlələri tətilə birinci başladılar. Onların ardınca Nobel, Rotşild, Mantaşev və Mirzoyevin mədənlərinin fəhlələri işi dayandırdılar.

Axşama yaxın "Kaspi", "Baku", "Bakinskiye izvestiya" qəzetləri mətbəələrinin fəhlələri işi dayandırdılar. Beləliklə, tətil ümumi xarakter alaraq 50 minədək adamı əhatə etdi.

Tətilin rəhbəri Şendrikovçular fəhlələri açıqdan-açığa işə çıxmamağa çağırırdılar. Müxtəlif fəhlə qrupları arasındakı toqquşmalar və jandarmların işə müdaxiləsi qan tökülməsinə gətirib çıxardı. Sahibkarlar dekabrın 27-ni işə qayıdış günü elan etdilər. Lakin bolşeviklər vəziyyətdən istifadə edərək, 25 yeni tələb hazırladılar və onları sahibkarlara təqdim etdilər. Bu tələblərin əsasında dekabrın 27-də yeni saziş əldə olundu. Bu saziş 9 saatlıq iş gününə əməl olunması, xəstəliyə görə 2 aylıq məzuniyyət verilməsini, digər millətlərdən olan fəhlələr arasında qeyri-bərabərliyin aradan qaldırılmasını və s. nəzərdə tuturdu.

Tətilin başa çatdırılmasında bolşeviklərin qələbəsinə yol verməkistəməyən Şendrikovçular "iqtisadi terrora", yəni neft buruqlarının yandırılmasına əl atdılar. İ.Şendrikov mədənlərdə çıxış edərək, fəhlələri tətili davam etdirməyə çağırır, yeni tələblər hazırladığını bildirirdi. Bu tələblər hazırlandı və dekabrın 30-da "Elektriçeskaya sila" zavodunda, böyük fəhlə kütləsinin əhatəsində Rusiya fəhlə hərəkatı tarixində ilk kollektiv müqavilə imzalandı. "Mazut konstitusiya"sı adı ilə məşhur olan bu müqavilə bolşeviklərin dekabrın 27-də imzaladıqları sazişin şərtlərinə əlavə olan aşağıdakı maddələri nəzərdə tuturdu: tətil günləri üçün fəhlələrə əmək haqqı ödənilməsi; fəhlələrə mənzil, kerosin, neft və su verilməsi; əmək qabiliyyətini itirənlər üçün 3 ay müddətində əmək haqqının yarısının saxlanması; tətilçilərin cəzalandırılmayacağına təminat verilməsi.

1904-cü ilin kollektiv müqaviləsi Bakı fəhlələrinin çox böyük nailiyyəti olub, onun maddi vəziyyətini xeyli yaxşılaşdırdı. Şendrikovçular qalib gəldilər. Lakin onların uğuru da çox çəkmədi. 1905-ci ilin yanvarında onlar tərəfindən yaradılmış "Bakı fəhlələr ittifaqı" (Bakı Sovetində çoxluq toplayaraq) təxribatçılıqla məşğul olmağa başladı.

1906-cı ildə isə Şendrikovçuların neft sənayeçiləri və polislə ünsiyyətdə olması və bir sıra korrupsiya faktları aşkar edildi. Həmin ilin iyun ayında onlar RSDFP birləşmiş təşkilatının iclasında partiyadan kənar edildilər.

Beləliklə, XX yüzilliyin əvvəlindən bəri Azərbaycanda yetişən inqilabi böhran 1904-cü ilin dekabrında güclü ümumi tətillə başa çatdı.

1905-ci il Rusiyada ictimai-siyasi hərəkatlar tarixində zirvə mərhələsi oldu. Bütün ölkəni lərzəyə salmış 9 Yanvar hadisələri ümumi partlayışa səbəb oldu. Eyni zamanda yanvar çıxışları Bakıdakı ümumi dekabr tətilinin davamı idi. 1905-ci il fevralın 15-də

Müvəqqəti Bakı general-qubernatoru vəzifəsi təsis edildi, fevralın 18-dən isə II Nikolayın fərmanı ilə Bakı şəhəri və quberniyasında hərbi vəziyyət tətbiq olundu.

1905-ci ilin yaz və yayında ölkədə fəhlə və kəndli hərəkatı daha geniş vüsət aldı.Bir may tətilləri mayın 10-da ümumi tətilə çevrildi. Kəndlərdə qaçaqçılıq geniş yayılmışdı. Yelizavetpol quberniyasındakı qaçaqlardan Qandal Nağı, Əli Məhərrəm oğlu, Kərbəlayı Əsgər və b. xüsusən çox şöhrətlənmişdilər.

1905-ci ilin payızında azadlıq hərəkatının yüksəlişi, ümumi oktyabr tətili ölkədə inqilabi şəraitin kəskinləşməsinə dəlalət edirdi. Oktyabrın 17-də II Nikolay rejimi iflasdan xilas etmək məqsədilə Dövlət Dumasının çağırılması haqqında manifest verdi.

Mütləqiyyətin Azərbaycanda müstəmləkəçilik siyasəti və xalq hərəkatı ilə mübarizə formalarından biri milli nifaq salmaq, millətlərarası toqquşmalar təşkil etmək idi. Həmin toqquşmalardan ilk ən böyüyü 1905-ci il fevralın 6-9-da Bakıda təşkil olundu. Çar hökumət orqanları milli ehtirasları qızışdırmaq üçün Azərbaycan və erməni burjuaziyası arasındakı müəyyən ziddiyyətlərdən bacarıqla istifadə etdi. Polis və qoşunlar yüzlərlə adamın qurban getdikləri qanlı toqquşmalara qarışmırdı. Bu amansız təxribat cəmiyyətin mütərəqqi qüvvələrinin dərin hiddətinə səbəb oldu.

Erməni-azərbaycanlı toqquşmaları yenidən 1906-cı ildə (Bakı, Yelizavetpol və İrəvan quberniyalarında) təşkil olundu. Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələri H.Zərdabi, F.Köçərli, N.Vəzirov, Ə.Ağayev, Ü.Hacıbəyov, H.Minasazov, Ə.Topçubaşov, M.Şahtaxtinski, Z.Sultanov və b. bu hadisələri mətbuatdakı çıxışları ilə onların təxribatçı xarakterini açıqlayır, hər vasitə ilə bu amansız və mənasız ədavətə son qoymağa çalışırdılar. Millətçi təbliğatın ifşası "Molla Nəsrəddin" jurnalı və onun redaktoru C. Məmmədquluzadənin fəaliyyətində aparıcı istiqamətlərdən biri idi. Fevral hadisələrindən

dərhal sonra Ə.Ağayev Bakı şəhər qlavası (meri) K.İretskiyə müraciət edərək, baş verən faciəni dayandırmaq üçün təcili tədbirlər görülməsinin vacibliyi barədə tələb irəli sürmüş, şəhər administrasiyasını biganəlik və fəaliyyətsizlikdə günahlandırmışdı.Millətlərarası münasibətlərin tənzimlənməsi məqsədilə ictimai təşkilatların yaradılmasında da Ə.Ağayevin rolu böyük idi.

Birinci Rusiya inqilabından sonrakı dövrdə sinfi mübarizə (1907-1914). 1905-1907-ci illərin güclü xalq hərəkatı bir sıra səbəblər üzündən mövcud quruluşun dəyişdirilməsinə gətirib çıxarmadı.Lakin bunlara baxmayaraq, bu hadisələr ölkənin tarixində möhtəşəm rol oynadı, bütün dünyada inqilabi mübarizə və milli-azadlıq hərəkatının yüksəlişinə böyük təsir göstərdi.

Rusiya ilə həmsərhəd Şərq ölkələrində - İran, Türkiyə və Çində burjua inqilabları baş verdi. Azərbaycan ziyalıları M.Ə.Sabir, N.Nərimanov, Ü.Hacıbəyov, H.Minasazov, M.Rəsulzadə və b. Cənubi Azərbaycanda Səttarxanın başçılığı altında gedən xalq hərəkatına rəğbət bəsləyir, onu müdafiə edirdilər.

İrtica Azərbaycanda bütün ölkədə olduğundan bir qədər gec hücuma keçə bildi. Bakıda tətil hərəkatı yüksək səviyyədə qalmaqda davam edirdi.

1912-ci il aprelin 4-də Sibirdəki Lena qızıl mədənləri fəhlələrinin 3 minlik nümayişinin gülləbaran edilməsi Rusiyada fəhlə hərəkatının yüksəlişinə güclü təkan verdi. Bütün ölkədən Bakı fəhlələrinin də iştirak etdikləri etiraz nümayiş və tətilləri dalğası keçdi. Azərbaycan qəzalarında da fəhlələr hərəkətə gəlirdi. Mayın 7-də Nuxanın ipək emalı müəssisələri fəhlələrinin elan etdiyi, mayın 15-dək davam edən və fəhlələrlə sahibkarlar arasında saziş imzalanması ilə başa çatan bu çıxış o dövrdə Rusiya ipəkçilik sənayesində ən iri tətil idi.

1912-ci ilin yayı və qışında Bakının ayrı-ayrı müəssisələrində yeni etirazlar baş qaldırdı. Dekabrda mətbəə fəhlələrinin ümumi tətili keçirildi.Sentyabrda Nuxa ipəksarıyıcıları yenidən işi dayandırdılar. Gədəbəy mis mədəni və misəritmə zavodunda fəhlə tətilləri baş verdi.

Azərbaycan fəhlə hərəkatında yeni mərhələ olan, 1913-cü ilin yazından etibarən Bakıda artmaqda olan etiraz hərəkatı, yayda, "Xəzər-Qara dəniz cəmiyyəti" fəhlələrinin tətili ilə ümumi xarakter almağa başladı.

Ağır maddi məhrumiyyətlər və Birinci Dünya müharibəsinin başlanması ilə dərinləşən amansız repressiyalar şəraitində Bakı fəhlələri ümumi tətili dayandırmalı oldular. 1914-cü ildə önündə Peterburq və Bakı fəhlələri gedən tətil hərəkatı, baş verən digər ictimai-siyasi hadisələr inqilabın yaxınlaşdığını xəbər verirdi.

XX FƏSİL
ŞİMALİ AZƏRBAYCANDA MİLLİ İSTİQLAL HƏRƏKATI (1905-1917-Cİ İLLƏR).

Milli istiqlal hərəkatını doğuran amillər. Azərbaycan millətinin təşəkkülü milli istiqlal hərəkatına təkan verdi. Milli-azadlıq hərəkatını şərtləndirən amillər I Dövlət Dumasında (1906-cı il) Gəncədən millət vəkili İsmayılxan Ziyadxanlının nitqində öz ifadəsini tapmışdır.O,bildirir ki,Peterburqa gələndə "Novoye vremya" qəzetinin səhifələrində gəncəli tatar(türk)Qaçaq Alını görür.Qəzetdəki yazı Dəli Alını quldur kimi təqdim edir.Yazının müəllifi təşvişlə qeyd edir ki, Zaqafqaziyada böyük həyəcanlar başlamıdır.Asiyalılar üsyan edirlər, bu hərəkatın qarşısı alınmalıdır.Çünki, Zaqafqaziya təkcə Dumanı deyil,bütün Rusiyanı öz təsiri altında qoya biləcək sayda millət vəkili ilə təmsil olunmuşdu.

Bu yerdə mürtəce, monarxist məqalə müəllifinin müstəmləkəci ruhlu çıxışına cavab olaraq İ.Ziyadxanlı Dumada cəsarətlə, qorxmadan çarizmin Qafqazda müstəmləkəçi siyasətinə qarşı çıxış edir.O,bu çıxışında Azərbaycanda başlanan milli-azadlıq hərəkatının səbəblərini açır və bunu qəzetdəki yazı ilə əlaqələndirir.İ. Ziyadxanlı bildirir:"bu yazıdakı böhtanlar bu qədər yüksək dərəcəyə çatmasaydı, mən sizin qarşınızda çıxış etməzdim.Artıq bizim üçün də hərəkət etmək vaxtı çatmış və bundan sonra susmamağı qərara almışıq". Bu cümlə ilə o, sanki rus deputatlarına milli-azadlıq mübarizəsinə başladıqlarının anonsunu verirdi. Onları milli-azadlıq mücadiləsinə sövq edən səbəbləri açıqlayır və bildirir ki, Zaqafqaziya (Cənubi Qafqaz) bir əsr bundan əvvəl ruslar tərəfindən işğal edilmişdir.Bu dövr ərzində biz müsəlmanlar əsir kimi həyat sürmüşük,təqiblərə məruz qalmışıq,bizə heç bir haqq və hüquq verilməmiş, kölə halına salınmışıq. Siyasi, sosial və iqtisadi sahənin hansına nəzər salsanız, hamısında bizim haqqımızda haqsızlığın hökm sürdüyünün şahidi

olacaqsınız.Ölkəmiz istila edilən kimi milli varlığımıza təcavüz edildi.Dinimizə,müqəddəs yerlərimizə müdaxilə edildi,şəriət müəllimlərimizin seçilməsinə mane olundu,bizə hökümət tərəfindən 20 manat maaş alan müsəlman məmurlar göndərildi. Lakin bu maaşlı din məmurlarının millət və xalqın nəzərində heç bir qədir-qiyməti yoxdur.Vəqfə aid olan əmlak da hökümət tərəfindən zəbt edilmişdr.Bu səbəbdən müxtəlif yerlərdə xarabalığa çevrilən məscidlərin təmiri üçün illər boyu camaatdan pul toplanmışdır.

İ.Ziyadxanlı çarizmin idarəçilik sahəsində müstəmləkəçilik siyasətini ifşa etmişdir.Çıxışında göstərmişdir ki,bizdə məhəlli idarələr mövcud deyildir.Bələdiyyələrə gəlincə,müsəlmanlara mövcud nümayəndə(deputat) miqdarının ancaq beşdə birini seçmək hüququ verilmişdir.Son zamanlarda isə şəhər əhalisinin çoxu müsəlmanlar olduğu halda, mövcud bələdiyyə nümayəndə (deputat) siyahısının yarısına qədər bir nümayəndə seçmək hüququ verilmişdir.Xalq maarifi sahəsində vəziyyət daha acınacaqlıdır. Bizim kəndlərin heç birində məktəb yoxdur.Yüz kilometrlə gedilsə belə,hər hansı bir yaşayış məntəqəsində məktəbə rast gəlməzsiniz,halbuki müsəlmanlardan maarif sahəsi üçün vergi toplanılır.İ.Ziyadxanlı sual edir ki,görəsən bu pullar hara sərf edilir? Yəqin ki,heç bir işə yaramayan böyük zirehli hərbi gəmilərin inşasına, yaxud da rus millətinin bu gün, bizim isə yüz ildən bəri inandığımız nazirlərinə.

İ.Ziyadxanlı çarizmin maarif sahəsində Azərbaycan türklərininin inkişafına necə maneə yaratmasına belə bir fakt gətirir: "Gəncə mədrəsəsinin yanındakı məktəbdə təhsil köhnə qayda ilə aparılırdı.Şagirdlərin yerdə bardaş qurub oturmamaları üçün bir neçə şəxs məktəbə skamya,stul və qara lövhə hədiyyə etdi.Bu xeyirxah əməl sahiblərini çar hökümməti mükafatlandırmaq əvəzinə cəzalandırdı.Bir çox ziyalılarımız iki ilə yaxın həbsxanaya salındılar.Guya onlar mövcud quruluşu yıxmağa cəhd edirmişlər.

Lakin bu sübut olunmadı, ona görə də həbsdən buraxıldılar. Onlara:“kiçik bir yanlışıq olmuşdur”,-deməklə kifayətləndilər.

Müsəlmanlara bəzi ali məktəblərə xüsusən texniki yönümlü ali məktəblərə qəbul olunmaq hüququ verilməmişdir.Başqa məktəblərə isə yalnız diplom əldə etmək xatirinə icazə verilmişdir.Yəni ali məktəblərdən birini,məsələn,filologiya fakültəsini bitirən türk gənci diplomunu alıb vətəninə qayıtdığı zaman, bu ali təhsilli gənc müsəlman olduğu üçün yalnız nəinki Qafqazda,Rusiyanın bütün ərazisində orta dərəcəli məktəblərdə müəllim kimi çalışmaq hüququndan belə məhrumdur. İ.Ziyadxanlı müsəlmanların dövlət qulluğunda məmur kimi çalışmasına qoyulan məhdudiyyətlərin olduğunu qeyd edir.Bu gün Qafqazda,ali təhsilli mülki işlər hakimindən başqa öz vətəninə xidmət edən heç bir müsəlman məmuruna rast gəlmək mümkün deyildir.Əgər müsəlmanlar məmurluğa qəbul edilirlərsə,onlar ya şimal, ya da Rusiyanın mərkəzi vilayətlərinə göndərilirlər.

İ.Ziyadxanlı çarizmin Qafqaza imperiyanın ucqarı kimi baxmasına diqqəti cəlb edir.Əgər bütün Rusiyaya bir dəniz, Qafqaza isə onun sahili kimi baxsaq,bu dəniz sizə lazım olmayan nə qədər boş və səfil adam varsa hamısını bizim Qafqaz sahilinə atır,onlar da həqiqətdə əxlaqsız olan bir idarənin məmur kadrlarını təşkil edirlər. O,əhalinin torpaqla təminatı sahəsində çarizmin siyasətinin doğurduğu narazılığa diqqət yetirir.Göstərir ki,ruslarda olduğu kimi, bizim də torpağa ehtiyacımız vardır. Torpaq azlığı və çatışmazlığından əziyyət çəkirik.Çar hökümətinin düşüncəsinə görə, guya bu məsələ kökündən həll edilmişdir.Əslində isə bu məsələ həllini tapmamışdır.

Çarizmin Qafqazdakı torpaq siyasətinin mahiyyəti belədir!Gürcüstan tamamilə rus ordusunu ərzaqla təmin etməklə məşğuldur.Müsəlmanlarla ermənilər bir-birinə qarşı hökümət

tərəfindən mahiranə şəkildə savaşa təhrik edilirlər ki,yaxın vaxtda bu iki xalq yer üzündən asanlıqla silinəcəklər.O zaman siz Qafqaz övladlarının qanına boyanmış bu torpaqlarda rus kəndliləri üçün yaşayış məntəqələri quracaqsınız.

İ.Ziyadxanlı çıxışında bildirir ki,çarizmə qarşı azadlıq hərəkatına birinci olaraq gürcülər başladı.Lakin burada həm də kəndlilər torpaq üçün mülkədarlara hücum etdilər.Hökümət bu zaman ordunu işə saldı.Azərbaycan və Ermənistanda (əslində Qərbi Azərbaycanda) belə hadisələrin baş verməsindən qorxan hökümət onun qarşısını almaq üçün gizlincə "parçala və hökm sür"siyasəti tərzində tədbirlər hazırladı və onun icrası sərişləli polislərə həvalə olundu. Bir tərəfdən müsəlmanlara, "görürsünüz, sizi iqtisadi cəhətdən istismar edən ermənilər silahlanırlar,bir gün gələcək müstəqil dövlət quracaq hər şeyinizi əlinizdən alıb sizi məhv edəcəklər", digər tərəfdən ermənilərə "ehtiyatlı olun panislamizm hər tərəfi bürümüşdür,islam camaatı arasında elə bir güclü birlik yaradılmışdır ki, günlərin birində siz ermənilərin kökünü kəsəcəklər", - deyərək bu iki xalqı bir-birilərinə qarşı təhrik etməyə başladılar. Beləliklə,bu iki millət arasında Bakıda ilk qanlı çarpışma oldu.Cəmiyyət qırğınları dayandırmaq üçün hökümətdən kömək istədi.Hökümət isə bu işi gözləmədiyimiz üçün qüvvəmiz yoxdur,- deyir. Hökümət əlavə edir ki, bu qırğına görə iki millət özü cavabdehdir.

İ.Ziyadxanlı Rusiya imperiyasının idarə sisteminin nə qədər çürük və keyfiyyətsiz olduğuna diqqəti cəlb edər. O,rus generallarının istər hərbi, istərsə də idarəedici kimi bacarıqsız olduğunu Duma deputatlarının diqqətinə çatdırır.Buna fakt kimi rus-yapon müharibəsində (1904-1905) Rusiyanın məğlub olmasını göstərir. Deməli, rus imperiyasının idarə sistemi əsarətdəki xalqları əzən,itaətdə saxlayan qaba bir idarə sistemidir. Onun bu sözləri çar

hakimiyyətinə qarşı Azərbaycan xalqının ittihamı idi:"Cənablar, iki ildən bəri qan içində üzən ölkəmizdə cəsədlərin üstündən keçirik. Artıq səbrimiz tükənib..."

M.B.Məmmədzadə göstərir ki, XX yüzilliyin əvvəllərində Azərbaycanda üç ictimai-siyasi cərəyan mövcud olmuşdur:mürtəce mühafizəkarlar, millətçi liberallar və inqilabçı millətçilər. Bu cərəyanlar ümumi şəkildə Azərbaycan ictimai-siyasi hərəkatının xətlərini müəyyənləşdirir. Mühafizəkarlar əsasən din xadimlərindən ibarət idi. Çarizm onların əli ilə milli-demokratik hərəkatı boğmağa çalışır,müxtəlif vasitələrlə mühafizəkar ruhaniləri millətçilər üzərinə qaldırır,onların arasında nifaq salırdı.Milli hərəkata münasibətdə din xadimləri ilə çarizmin mövqeyi mahiyyət etibarı ilə bir-birindən fərqlənmirdi.Onlar ictimai-siyasi proseslərdə milli təmayülü islam dünyasının parçalanmasının əsas səbəblərindən biri kimi rədd edirdilər.Lakin etiraf etmək lazımdır ki,din xadimləri tərəfindən islam dininin hər hansı formada təbliği çarizmin yerlərdəki dayağını laxladırdı.

Azərbaycan liberalları ilk dövrlərdə rus liberalları ilə birlikdə fəaliyyət göstərir,bir çox vacib məsələlərdə eyni mövqedən çıxış edirdilər.Hadisələrin sonrakı gedişində rus liberallarının siyasi xəttində imperiya iddiaları üzə çıxdıqda onların yolları da ayrılmağa başladı.Bir müddət sonra rus liberalları Azərbaycanın muxtariyyətini tanımaq istəmədilər.Azərbaycan liberallarının mövcud quruluşa qarşı mövqeyi mötədilliyi (mülayimlik) ilə seçilirdi.Lakin ictimai-siyasi proseslərin sonrakı mərhələsi hadisələrə münasibətdə bəzi dəyişikliklərə səbəb olmuş, nəticədə liberallar musavatçılara qoşularaq,birgə fəaliyyət göstərmişlər.Azərbaycan liberallarının lideri Əlimərdan bəy Topçubaşov idi. İctiami-siyasi hərəkatın inqilabçı millətçilər qolu gənclərdən ibarət idi.Onlar rus inqilabçıları ilə (yəni

sosial-demokratlar) çarizmi devirmək uğrunda mübarizə yolunu tutmuşdular.

M.B.Məmmədzadəyə görə hadisələr inkişaf etdikcə başqa amillərin təsiri altında milli liberallar rus liberallarından ayrılacaq, milli inqilabçılar qəti və billurlaşmış siyasi bir millətçilik şəklini alacaqdır və bu iki zümrə (milli liberallar və millətçi inqilabçılar) birləşərək, "Müsavat" firqəsinin istinad etdiyi əsas qüvvələri təşkil etməyə başlayacaqdır.

Ümumiyyətlə, XX yüzilliyin əvvəllərində Azərbaycanda çarizmin müstəmləkəçilik siyasətinə qarşı milli azadlıq hərəkatında iki təmayülün: burjuaziya və inqilabi-demokratik cərəyan mövcud olmuşdur. Milli hərəkatın əsas qollarını təşkil edən hər iki təmayülün fəaliyyət istiqamətləri sovet tarixşünaslığında birtərəfli öyrənilmiş, sinfi baxımdan dəyərləndirilmişdir. İnqilabi demokratik hərəkat prinsip etibarı ilə bolşevizmin adı ilə bağlanmış,burjua təmayülçülüyü isə qeyd-şərtsiz inkar olunmuşdur.

İqtisadi potensiala malik olan Azərbaycan burjuaziyası milli hərəkatın inkişafında mühüm rol oynamışdır.1905-ci il aprelin 22-dən çapa başlayan "Həyat" qəzeti Ə.Topçubaşovun təşəbbüsü ilə işıq üzü görmüşdür. Qəzet H.Z.Tağıyev tərəfindən maliyyələşdirilmiş, Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadə tərəfindən redaktə olunurdu.Qəzet Azərbaycan burjuaziyasının sosial-iqtisadi və milli-mədəni istəklərini ifadə edən orqan idi.Bu tipli bir sıra mətbuat orqanları da çap olunurdu.

Azərbaycan burjuaziyası şəhər özünüidarəsində də fəal iştirak edirdi. Çar hökümətinin qeyri-xristianlara məhdudiyyət qoymasına baxmayaraq, Bakı şəhər Dumasında ümumi səslərin üçdə bir hissəsi, sonra isə yarısı Azərbaycan burjuaziyasına məxsus idi. Bu göstərir ki, Azərbaycan milli burjuaziyası öz iqtisadi istehsalat-ticarət

maraqlarını reallaşdırmaq üçün şəhər hakimiyyəti idarəçiliyində real qüvvəyə malik idi.

1905-1907-ci illər inqilabı Azərbaycanda sosial-demokratik ideyaların geniş yayılmasına təkan verdi.1904-cü ilin axırlarında "Müsəlman demokratik Müsavat cəmiyyətinin"əsasında RSDFP-nin Bakı komitəsinin nəzdində "Müsəlman sosial-demokratik Hümmət" təşkilatı yaradıldı.Bu təşkilat əsasən fəhlələr arasında təbliğat aparırdı.Hüseyn Baykara yazırdı ki, "Hümmət" Azərbaycanda yaranan ilk türk siyasi təşkilatı idi.Təşkilat Mir Həsən Mövsümov (1882-1907), Məmməd Həsən Hacınski (1875-1931) və Məhəmməd Əmin Rəsulzadə(1884-1955) tərəfindən yaradılmışdır. 1905-ci ildən həmin təşkilatın üzvü olan M.Əzizbəyov, N.Nərimanov, S.M.Əfəndiyev və başqa azərbaycanlı inqilabçılar bu təşkilatın fəaliyyətinin canlanmasında rol oynamışlar.

1905-ci ildən Birinci Dünya müharibəsinə qədərki dövrdə Azərbaycan milli hərəkatının keçdiyi yol mürəkkəbliyi ilə seçilir.Azərbaycan sovet tarixşünaslığı bu mərhələni birtərəfli şəkildə işıqlandırdığı,mövcud tarixi prosesləri adı ilə bağladığı üçün dövrün siyasi mənzərəsi təhrif olunmuşdur. Lakin aparılan tədqiqatlar göstərir ki, milli hərəkatın inkişafının yüksəliş mərhələsini təşkil edən bu dövrü yalnız hər hansı siyasi təşkilatın adı ilə bağlamaq mümkün deyil və problemin bu səpkidə araşdırılması həmin dövrün siyasi mənzərəsinə aydınlıq gətirə bilməz.

Hürriyyət ab-havası imperiyanın sərt diktatura rejimini yumşaltdı, ölkədə söz, mətbuat azadlığı üçün müəyyən zəmin yaranmış oldu.Azərbaycan yazıçıları, publisistləri, ana dilində qəzet və jurnallar açmaq imkanı qazandılar. "Füyuzat", "Tərəqqi", "Təkamül", "İrşad", "İqbal" və başqa mətbuat orqanları nəşrə başladı.

Birinci rus inqilabı milli-azadlıq hərəkatının tərkib hissəsi olan kəndli hərəkatına da güçlü təsir etdi. Bakı və Yelizavetpol

quberniyalarında yerli feodallarla yanaşı, çar sisteminə qarşı mübarizə hərəkatı gücləndi.İnqilab tezliklə Azərbaycanın ictimai-siyasi həyatını da silkələdi.Azərbaycanda çarizmə qarşı sinfi mübarizə ilə yanaşı milli azadlıq mübarizəsi özünün yeni mərhələsinə qədəm qoydu.

Birinci rus inqilabından sonra bütün Rusiyada başlanan inqilabi hərəkat azərbaycanlıların geniş dairələrinə sirayət etdi.Onlar hürriyyət və maarif yolunda ciddi sürətdə çalışmağa başladılar. Hər cür maneələrə baxmayaraq, az-çox ictimai məsələlərə dair ədəbiyyat, dövrü mətbuat, məcmuələr, tarixi, elmi və tədris kitabları nəşr olundu. Azərbaycan fəhlələri siyasi partiyalarda ciddi fəaliyyət göstərirdilər.

Müstəqilik tərəfdarlarının müqavimətinə baxmayaraq, Yusif Akçuraoğlunun başçılıq etdiyi mədəni muxtariyyət tərəfdarları olan Kazan türklərinin səyi ilə kadet (konstitusiyalı demokratlar) rus liberal partiyasına birləşmək haqqında qərar çıxarıldı. Y. Akçuroğlu da Rusiya müsəlmanları üçün kadet partiyasını ən yaxın müttəfiq kimi səciyyələndirir, onların digər partiyalardan fərqli olaraq müsəlmanların problemi yolunda daha inandırıcı şəkildə mübarizə aparacağını qeyd edirdi.

1905-ci ilin martında Rusiya müsəlmanlarının ümumi Konqresinin çağrılması üçün Baş nazir Vittedən icazə istənilsə də o, rədd cavabı verdi. Lakin Rusiya müsəlmanları təmsilçiləri öz məqsədlərindən dönmədilər.

Rusiya Müsəlmanlar İttifaqının ilk təsis qurultayı 1905-ci il avqustun 15-də Nijni Novqorod şəhərində yarımgizli şəraitdə Oka çayındakı "Qustav struve" gəmisində 150 nəfərə yaxın nümayəndənin iştirakı ilə keçirildi. İ.Qaspiralı, Y.Akçuraoğlu və Ə.M.Topçubaşovun sədrliyi ilə keçirilən qurultayda ölkəmizin milli burjuaziyasının nümayəndələri də iştirak edirdi.Qurultayda bütün Rusiya müsəlmanlarını birləşdirən "İttifaqül-Müslimin" yaranması qərara

alınmış və qəbul edilmiş qətnamədə ittifaqın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

Rusiya müsəlmanları hazırki vəziyyətdən asılı olaraq siyasi, mədəni məsələlərdə birgə olmalıdırlar.

Bütün müsəlman ziyalıları Rusiyanın mütərəqqi adamları ilə həmfikir olaraq, elə bir qanunun yaradılmasında iştirak edirlər ki, burada qanunlar xalqların seçdikləri nümayəndələrin iştirakı ilə yazılsın.

Müsəlmanlar qanuni yolla onlara edilən sıxışdırılma və haqsızlıq hallarını ləğv etməyə, siyasi, dini və mülki məsələlərdə ruslarla bərabər hüquqa nail olmalıdırlar.

Müsəlmanlar öz ehtiyaclarını ödəmək üçün Rusiyanın hazırki və gələcək vəziyyətindən çıxış edəcəklər. Bütün quberniyalarda müsəlmanların öz ehtiyaclarına uyğun olaraq kitab, qəzet, jurnal nəşr etməli,vəziyyət haqqında xalqa əsas məlumatları verməlidirlər.

Yuxarıdakı dörd bəndə qeyd olunan məsələlərin həllinə nail olmaq üçün yerlərdə vaxtaşırı yığıncaqlar təsis olunsun. Bu beş maddədə Rusiya müsəlmanlarının bir təşkilat halında birləşməsi məsələsi önə çəkilirdi. Qurultayda Rusiya müsəlmanlarının yaşadığı ərazilərdə 16 mərkəzin və bu mərkəzlərin hər birində məclislərin fəaliyyət göstərməsi də qərarlaşdırıldı.

Rusiya müsəlmanlarının II qurultayı 1906-cı il yanvarın 13-23-də Peterburq şəhərində gizli şəkildə keçrildi. I qurultayda irəli sürülən bir çox təklif və tövsiyələr II qurultayda rəsmiləşdirildi. Qurultayda Krım, Kazan, Türküstan və Qafqaz müsəlmanlarının 100 nəfər təmsilçisi iştirak edirdi.

Qurultay İ.Qaspiralının sədrliyi ilə keçirildi. Bu qurultayda Müsəlman İttifaqı rəsmi olaraq "Rusiya Müsəlmanları İttifaqı" adlandırılırdı. Qurultayda Rusiya müsəlmanlarının hansı siyasi yolu tutacağı müzakirə olundu.

Rusiya müsəlmanlarının III qurultayı 1906-cı ilin avqustun 10-20-dək olan müddətdə Nijni-Novqorodda keçrildi. Qurultayda 300 nəfər nümayəndə iştirak edirdi. Qurultayda sosial-demokratlardan başqa, Rusiya müsəlmanlarının siyasi hərəkatının bütün liderləri təmsil olunmuşdu.Qurultayın Ə.M. Topçubaşovun sədrlik etdiyi divanına Y.Akçuraoğlu, Ə.İbrahimov, Həlimcan Berudi, M.C.Bigiyev, İ.Qaspiralı və başqaları daxil idi.

Müsəlmanların əvvəlki iki qurultayına nisbətən III qurultay daha canlı keçmişdir.Qurltayda imperiyanın ayrı-ayrı regionlarında yaşayan müsəlman xalqların problemlərinin üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edən məruzələr dinlənilmişdi. İ.Qaspiralı və Ə.M.Topçubaşovun məruzələri böyük maraqla qarşılanmışdı.

Rusiya müsəlmanlarının III qurultayının mühüm xidməti İttifaqın siyasi partiya elan edilməsi oldu.Bu partiya bəzən "İttifaq", "İttifaqül-müslimin", "Rusiya Müsəlmanları İttifaqı" və s. kimi adlanır.Qurultayda partiyanın 10 bölmədən,72 maddədən ibarət proqramı qəbul edildi.İrəli sürülən məsələlər 6 maddədə ifadə olunmuşdur.

1. Siyasi,iqtisadi,sosial və dini islahatları həyata keçirmək üçün Rusiya müsəlmanlarının bir araya gəlmələri;
2. Ruslar və müsəlmanlar arasında hüquq bərabərliyi;
3. Müxtəlif millətlərin sosial üstünlüklərinə görə təmsil ediləcəkləri bir Konstitusiyalı monarxiya yaradılması;
4. Millətlərə mətbuat, din, cəmiyyət təsisetmə və başqa azadlıqların verilməsi;
5. İnsan hüquqlarının toxunulmazlığı.Torpaq islahatı;
6. Səkkiz saatlıq iş günü.

Partiyanın siyasi məqsədlərini əks etdirən ilk bölmədə göstərilirdi ki,onun əsas məqsədi bütün Rusiya müsəlmanlarının birliyinə nail olmaqdır.Bu partiya kadetlər partiyası kimi Rusiyanın

gələcək siyasi quruluşunu Konstitusiyalı monarxiya kimi arzulayırdı. Proqramda şəxsi mülkiyyətin toxunulmazlığı, kəndlilərin torpaqla təminatı və s. məsələlər əksini tapmışdı.Həmçinin milli-mədəni muxtariyyət tələbi irəli sürülürdü.

Qurultayda partiyanın 15 nəfərdən ibarət Mərkəzi Komitəsi seçilmişdi. Mərkəzi Komitənin nəzdində 3 nəfərdən ibarət Büro yaradıldı və Ə.M.Topçubaşov Büronun sədri seçildi.Mərkəzi Komitə Bakı şəhərində yerləşirdi.1907-ci ilin dekabrında imperiyanın senatı "İttifaq"ın açıq fəaliyyət göstərməsi barədə xahiş etdi. Ə.Topçubaşovun rəhbərliyi altında Moskvada keçirilən Rusiya müsəlmanlarının IV qurultayında (1917-ci il may) imperiyadakı müsəlmanların idarəetmə forması, qadın hüquqları, milli-mədəni muxtariyyət kimi məsələlər əsas müzakirə mövzusu olmuşdur. Türkçülük və federasiya prinsipi önə çıxarılmışdır.

1917-ci ilin iyulunda Kazanda Ümumrusiya müsəlmanlarının V qurultayında təhsil və din, müsəlmanların muxtariyyət məsələsi, qadın azadlığı və digər məsələlər müzakirə obyekti oldu. Ümumiyyərtlə, 1917-ci ildə Azərbaycanda milli-azadlıq mübarizəsi üç əsas istiqamətdə gedirdi: birincisi;Müvəqqəti hökumətin əsarətdə olan xalqlar barəsində müstəmləkəçilik siyasətinə qarşı, ikincisi;Bakı sovetinə rəhbərlik edən eser-menşevik və daşnakların(rus-erməni bloku) "vahid və bölünməz Rusiya" ideyasına qarşı, üçüncüsü; erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırım siyasətinə qarşı mübarizə.

XXI FƏSİL
AZƏRBAYCAN BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ.

Cədvəl:1.
1913-1917-ci illərdə neft hasilatında azalma.

1913-cü il	449 mln pud
1914-cü il	4 431 mln pud
1917-ci il	402 mln pud

Neft məhsullarının emalı:

1913-cü il	320 mln pud
1917-ci il	225,3 mln pud

Cədvəl:2.

Gədəbəydə mis filizinin çıxarılması:	
1913-cü il	1,8 mln pud
1914-cü il	892 min pud
1915-ci il	105 min pud

Gədəbəydə mis əridilməsi:	
1914-cü il	49,2 min pud
1915-ci il	2, 5 min pud
Barama istehsalı:	
1913-cü i l	250-260 min pud
1915-ci il	139 min pud

Birinci Dünya müharibəsi dövründə cəbhəyə kömək üçün yaradılmış təşkilatlar:

1915-ci ildə yaradılmaş Hərbi – Sənaye Komitəsi	**Cəbhəyə hərbi sursat və ləvazimat vermək**
Ümumrusiya Şəhərlər İttifaqı (birliyi)	**Yaralı döyüşçülərə yardım etmək, ordunu isti paltarla təmin etmək, şəhərlərdən keçən hərbi hissələrə qulluq göstərmək**
Bakı Birja Komitəsi	**İri sənaye, ticarət və maliyyə urjuaziyasını birləşdirir. Şəhərin sənaye və ticarət həyatını tənzimləyirdi**
Bakı neft sənayesi firmaları nümayəndələrinin Petroqrad müşavirəsi	**Neft sahibkarlarının mənafeyini müdafiə edir, hökuməti yanacaqla təchiz edirdi**

Azərbaycan imperialist dövlətlərin işğalçılıq planlarında. 1914-cü ilin iyulunda bəşəriyyət tarixində öz miqyası və qurbanlarına görə o vaxtadək misli görünməmiş müharibə - Birinci Dünya müharibəsi başlandı.

Müharibənin başlanmasının səbəbkarları onun iştirakçısı olan bütün aparıcı dövlətlər - Almaniya, İngiltərə, Fransa, Avstriya-Macarıstan və Rusiya idi. Lakin İngiltərə, Rusiya və digər dövlətləri sıxışdıraraq, silah gücünə dünyanı yenidən bölüşdürüb pay almağa can atan Almaniya müharibənin başlanmasında əsas rol oynadı.

Müharibə Avstriya-Macarıstan ordusunun Serbiyaya qarşı yürüşü ilə başladı. Serbiya ilə müqaviləsi olan Rusiya iyulun 19-da ümumi səfərbərlik keçirdi. Buna cavab olaraq Almaniya Rusiyaya müharibə elan etdi. Rusiyanın Antanta üzrə müttəfiqləri - Fransa və İngiltərə Almaniyaya qarşı çıxdı.

II Vilhelmin ordusu Belçika ərazisindən Fransaya soxuldu. Rusiya Şərqi Prussiyada hücuma başladı. Tezliklə Yaponiya Antanta, Türkiyə isə Almaniya-Avstriya bloku ilə birləşdi. Müharibənin gedişində İtaliya və Rumıniya Üçlər ittifaqı, ABŞ və digər dövlətlər isə Antanta tərəfindən əməliyyatlara qoşuldu.

Döyüşən bloklardan hər biri öz məqsədlərini güdürdü. Müharibənin başlanmasının həlledici amili müstəmləkələr və təsir dairələri üstündə Almaniya və İngiltərə arasındakı barışmazlıq olsa da, digər iştirakçı dövlətlər arasında da mühüm ziddiyyətlər var idi. Rusiya və Almaniya Konstantinopol və boğazlar üstündə, Türkiyə və Rusiya Qərbi Ermənistan və Konstantinopola görə, Rusiya və Avstriya Balkanlarda hökmranlıq uğrunda mübarizədə bir-biri ilə rəqabət aparırdı.

Müharibə 38 ölkənin iştirakı ilə dünya müharibəsinə çevrildi.Qafqaz, ilk növbədə isə Azərbaycan nefti də Almaniyanın müdaxilə planlarına daxil idi.

İngilis, fransız və alman kapitalları arasında Bakı neft sənayesində hökmranlıq uğrunda başlayan və ilk dövrlərdə Rusiya neft ticarətində almanların nüfuzunun güclənməsinə gətirib çıxaran rəqabət nəticə etibarilə alman kapitalının sıxışdırılması ilə başa çatdı.

Neft istehsalı uğrundakı mübarizədə itirilmiş mövqeləri geri qaytarmaq cəhdləri ilə yanaşı, inhisarçı alman burjuaziyasının ideoloqları Skandinaviyadan İran körfəzinədək çox böyük əraziləri əhatə etməli olan "ümumalman reyxi" yaradılması proqramını işləyib hazırlayırdılar. Müharibə ərəfəsində Almaniyadan Rusiyaya, o cümlədən də Cənubi Qafqaza çoxlu kəşfiyyatçılar qrupu göndərilmişdi. Onlar alman mədəni-maarif cəmiyyətlərində fəaliyyət göstərərək, əhali arasında təşviqedici ədəbiyyat yayır, müxtəlif təxribat işləri aparırdılar. Alim, səyyah və s. adlar altında Almaniyadan Rusiyaya gələn şəxslər də kəşfiyyatçılıq fəaliyyəti ilə məşğul olurdular.

Almaniya Cənubi Azərbaycanda da öz təsirini möhkəmləndirmək üçün, Rusiyanın buradakı mövqeyini zəiflətməyə çalışaraq, nüfuzlu yerli dairələrlə sıx əlaqələr qurmağa can atırdı. Alman kapitalı burada ticarət-sənaye kompaniyaları yaratmağa başladı. Bağdad dəmir yolunun bir qolu olacaq Bağdad-Həmədan-Tehran xəttinin alman sənayeçiləri tərəfindən hazırlanmış layihəsi onların planlarında az rol oynamırdı.

Bu planların həyata keçirilməsində Türkiyəyə mühüm yer verilirdi.

Müharibə ərəfəsində Almaniyanın Türkiyədəki nüfuzu gücləndi. Türkiyənin hərbi naziri Ənvər paşa bir neçə il Almaniyada yaşamış və II Vilhelmlə şəxsən dost idi. Daxili İşlər Naziri Tələt paşa və hakim

"İttihad və tərəqqi" partiyasının bir çox digər xadimləri də almanpərəst mövqe tuturdular.

Almaniya Yaxın və Orta Şərqdə öz qəsbkarlıq planlarını həyata keçirmək, bu bölgədə İngiltərənin mövqelərinə zərbə vurmaq, habelə Qafqazı tutmaq üçün Rusiyaya qarşı Türkiyədən istifadə etmək niyyətində idi.

Öz mənafeyi ilə bağlı planları olan Türkiyə müharibəyə qoşularaq onu cihad elan etdi və bütün dünya müsəlmanlarını köməyə çağırdı. Qafqaz, Orta Asiya, Krım və Volqaboyunun istilası Turan imperiyasının yaradılması işinin məhək daşı idi. Gənc Türklər Partiyasının məlumatlarına, görə, hərbi nazir Ənvər paşa gənc türklər liderlərinin müşavirəsində bildirmişdi ki, Almaniyanın köməyi ilə biz təkcə Makedoniyanı deyil, həm də Qafqaz və Misiri tutacaq və "İttihad və tərəqqi" partiyasının hakimiyyətini dünyada ən güclü imperiyaya çevirəcəyik.

Cənubi Qafqazın sonrakı statusuna gəldikdə isə, Türkiyə hökuməti gürcülərə özünün qalib gələcəyi təqdirdə müstəqil Gürcüstan dövlətinin yaradılacağını vəd etmişdi.

Türkiyə Rusiya ilə müharibədə Cənubi Qafqaz və Dağıstandakı müsəlman xalqlarının köməyinə ümid bəsləyirdi. Lakin müharibənin əvvəllərində Türkiyə hökuməti Azərbaycanın müstəqilliyinə dair heç bir vəd vermir, onun gələcək Turan imperiyasının tərkibinə qatılmasını planlaşdırırdı.

Türkiyənin müharibəyə girməsi Almaniyanın mənafeyinə cavab verirdi, çünki bu, rus ordusunun xeyli qüvvəsini Qafqaz cəbhəsinə cəlb etməklə almanların Avropa cəbhələrindəki hərəkətini asanlaşdırırdı. 1914-cü il oktyabrın 29-da türk və alman gəmiləri Sevostopol, Odessa, Novorossiysk və Feodosiyanı atəşə tutdu. Bu hərəkətlərə cavab olaraq, Rusiya oktyabrın 31-də rəsmi surətdə Türkiyəyə müharibə elan etdi.

Türkiyə öz hərbi qüvvələrini bir neçə cəbhədə - Qafqaz və Suriya-Fələstin cəbhələrində, Şərqi Frakiyada, İranla sərhəddə cəmləşdirmişdi. Lakin ən iri hərbi qüvvələr Qafqaz cəbhəsində yerləşdirilmişdi. Buradakı hərbi əməliyyatlarda ümumi sayı 190 min nəfər olan 3-cü ordu iştirak edirdi. Türkiyənin malik olduğu 40 piyada diviziyasından 11-i bu ordunun tərkibində idi.

3-cü türk ordusuna qarşı duran Qafqaz rus ordusunun qoşunları Batumdan Urmiyaya qədər 100 km-dən artıq cəbhə xətti boyunca səpələnmişdi.

Noyabrın əvvəllərində 3-cü ordu Ərzurum-Sarıqamış istiqamətlərindən hücuma keçdi. Batum vilayətinə girdi və Acarıstanadək irəliləməyə nail oldu. Burada ruslara qarşı qalxmış müsəlman acarlar onları sevinclə qarşıladılar.

İlk uğurlardan ruhlanan Ənvər paşa orduya komandanlığı şəxsən öz üzərinə götürdü və böyük hücuma başlamaq əmrini verdi. Türklərin bilavasitə vəzifəsi Qars və Sarıqamış arasında rus qoşunlarını məğlub etmək idi. Burada rusların da məntəqəsi yerləşirdi. Bu əməliyyatın uğurla qurtaracağı təqdirdə Cənubi Qafqazın istilası əslində həll edilmiş olardı.

1914-cü il dekabrın 9-dan 1915-ci il yanvarın 5-dək Sarıqamış istiqamətində çox ağır şəraitdə rus və türk qoşunları arasında döyüşlər gedirdi.

9-cu türk korpusu Sarıqamışda ruslara hücum etdi, eyni zamanda 10-cu korpus Sarıqamış və Qars arasında dəmir yol xəttini kəsdi. Tezliklə rus ordusunun qərargah rəisi general N.Yudeniçin başladığı əks hücum, habelə ağır hava şəraiti və türk qoşunlarının yorğunluğu nəticəsində 9-cu türk korpusu Sarıqamış yaxınlığında darmadağın edildi.

Türkiyə əsgərlərinin xeyli hissəsi soyuqdan və aclıqdan öldü, 3500 nəfəri isə əsir götürüldü. Sarıqamış əməliyyatında Türkiyə

döyüşlərdə iştirak etmiş qüvvələrinin 86%-dən çoxunu itirmişdi. Sarıqamışdan sonra Qafqaz cəbhəsindəki döyüşlərin gedişində həlledici dönüş başlandı. 1915-ci ilin yazında erməni silahlı dəstələrinin kömək göstərdiyi rus qoşunları Şərqi Türkiyənin ermənilər yaşadığı ərazisinə soxuldular.

Eyni zamanda daşnaklar yerli ermənilərin türklərə qarşı üsyan qaldırmalarına nail oldular. Buna cavab olaraq Türkiyə hökuməti ermənilərin kütləvi surətdə köçürülməsini əmr etdi. Bu deportasiyanın gedişində xeyli miqdarda dinc əhali zərər çəkdi. Eyni zamanda general Lyaxovun rus dəstələri Batuma girərək türklərə kömək göstərdiyinə görə acar əhalisinin 90%-ni qırdı.

Türkiyə qoşunları rusların diqqətini Qafqaz cəbhəsindən yayındırmaq ümidi ilə Cənubi Azərbaycan ərazisinə girdilər, bununla İranın bitərəfliyi pozuldu. Almaniya və Türkiyənin məqsədi İranda ingilis və rusların təsirini puça çıxarmaq, habelə onun ərazisindən Cənubi Qafqaza soxulub ilk növbədə Bakını tutmaq idi.

Türk ekspedisiya korpusu Ənvər paşanın dayısı Xəlil bəyin komandanlığı altında 1915-ci il yanvarın 1-də Təbrizi, apreldə isə Urmiyanı ələ keçirdi. Eyni zamanda İranın almanpərəst əhvali-ruhiyyəli hakim dairələri Cənubi Azərbaycandakı bəzi şahsevən tayfaları ilə əlaqə yaradaraq, onlardan rus qoşunlarına qarşı mübarizə üçün silahlı dəstələr formalaşdırdılar.

1915-ci il yanvarın sonunda rus qoşunları hücuma keçib Təbrizə girdilər. Dilman döyüşündə Xəlil bəyin korpusu əzildi və tezliklə Cənubi Azərbaycandan sıxışdırılıb çıxarıldı. Bunun ardınca rus ekspedisiya korpusu Həmədan və Rumu tutub İsfahana yaxınlaşdı. 1916-cı ilin yazında rus qoşunlarının Ərzurum və Trabzonun tutulması ilə başa çatan hücumu başlandı. Lakin rus qoşunlarının cəbhədəki sonrakı hücumu Rusiyanın bu bölgədə mövqelərinin gücləndirilməsindən çəkinən və Türkiyənin tamamilə darmadağın

edilməsinə yol verməməyə çalışan İngiltərə və Fransa hökumətlərinin təzyiqi altında dayandırıldı.

Cənubi Qafqazın əvvəlcə hərbi əməliyyatlar meydanına, sonra isə cəbhəyanı bölgəyə çevrilməsi diyarın siyasi vəziyyətinə və iqtisadi həyatına xeyli zərər vururdu. Mərkəzi Rusiya ilə əlaqələr pozulmuşdu, bu da diyarın zəruri ərzaqla təchizatını çətinləşdirirdi. Qara dəniz limanlarının bağlanması və neft məhsulları ixracının dayanması üzündən neftin qiyməti aşağı düşmüşdü.

Türkiyənin ermənilər yaşayan vilayətlərindəki hərbi əməliyyatlar nəticəsində 100 minlərlə erməni rusların himayəsi altında İrəvan, Yelizavetpol və Bakı quberniyaları ərazisinə axışdı.

Azərbaycan hərbçiləri müharibə cəbhələrində. Birinci Dünya müharibəsinin başlanması Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrində kifayət qədər ziddiyyətli əks-səsdaya səbəb oldu. Cəmiyyətin yuxarı sosial təbəqələri - burjuaziya, mülkədar və liberal ziyalılar müharibədə Rusiyanı müdafiə etdilər.

Müharibənin elə ilk günlərindən Dövlət Dumasının müsəlman fraksiyası açıqdan-açığa çar hökumətini müdafiə edirdi. M.Cəfərov müsəlman fraksiyasının üzvləri adından müharibəni "azadlıq müharibəsi" adlandırdı və eyni zamanda qeyd etdi ki, "bir şey ki, rus ordusu xaricdəki xalqlara azadlıq gətirir, onda elə bu azadlıq Rusiya imperiyasının tərkibinə daxil olan çoxsaylı xalqlara da mütləq bəyan edilməlidir".

Mütərəqqi Azərbaycan ziyalılarının nümayəndələri zahirən hökumətə loyallığını saxlayaraq, müharibə nəticəsində xalq üçün daha geniş azadlıqlar əldə ediləcəyinə ümid bəsləyirdilər. Müharibə nəticəsində müstəqillik əldə olunacağına bəslənən, sonradan tamamilə özünü doğrultmuş bu ümidi M.Ə.Rəsulzadə də özünün "Açıq söz" qəzetinin ilk sayında yazırdı ki, bu müharibə əzilən ölkələrin müstəqilliyini möhkəmləndirəcək sülhlə bitməlidir, əks

halda, bu sülh uzun çəkməyəcək. Dövlətçilik uğrunda öz mübarizəsində birləşmiş xalqlar istiqlaliyyət qazanacaqlar. Lakin bununla bərabər, "Müsavat'ın lideri Rusiya hökumətinin müharibədəki xəttini tamamilə müdafiə edirdi.

1914-1915-ci illərdə osmanlı emissarlar, habelə azərbaycanlı mühacir publisistlər antirus təbliğatını gücləndirsələr də bütünlükdə Azərbaycan cəmiyyətinin yuxarı təbəqələri sözdə də, işdə də Rusiyaya tam loyallıq göstərirdilər.Milyonçulardan H.Z.Tağıyev, M.Nağıyev, Ş.ƏsəduIlayev, N.Hacınski və b. müharibəyə külli məbləğdə ianələr verirdilər.

Çar hökuməti müsəlmanları orduya çağırmasa da, bir çox azərbaycanlılar, əsasən də yüksək təbəqədən çıxanlar, könüllü surətdə hərbi xidmətə gedirdilər. Göstərilən dövrdə cəbhələrdə 200 nəfərədək azərbaycanlı zabit vuruşurdu. Məşhur generallar Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Hüseyn xan Naxçıvanski də cəbhədə idilər. H.Naxçıvanskinin komandirlik etdiyi "Qafqaz yadelli süvari diviziyası" və ya "Vəhşi diviziya" ən iri müsəlman hərbi birləşməsi idi. Şuşada təşkil olunmuş "Tatar süvari alayı" bu diviziyanın tərkibinə daxil idi. Bu diviziyanın seçmə süvari alayları büsbütün azərbaycanlı və dağıstanlı könüllülərdən ibarət idi.

1914-cü il Lodz əməliyyatında diviziya komandiri, rus qüvvələrinin bir hissəsini mühasirəyə alıb məhv etməyə çalışan general Makezinin alman zərbə qrupunun planlarını pozmuş general S.Mehmandarov xüsusən fərqləndi. Sonralar Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri olmuş S.Mehmandarov müharibənin sonuna yaxın korpuslar qrupuna komandirlik edirdi ki, bu da bütöv orduya komandanlıq etməyə bərabər idi.

"Artilleriyanın allahı" adlandırılmış general-leytenant Ə. Şıxlinski rus ordusunda artilleriya işinin ən yaxşı bilicilərindən biri sayılırdı. Müharibənin ilk günlərindən Peterburqun artilleriya

müdafiəsi ona tapşırılmışdı. General Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar Şıxlinskaya (1878-1931) yaralılara tibbi yardım göstərən Qadın Komitəsinin sədri kimi çalışırdı. O, ilk azərbaycanlı şəfqət (tibb) bacısıdır ki, Tiflis Nücabə Qızlar İnstitutunu qızıl medalla bitirmişdir və bir neçə dildə sərbəst danışırdı.

Artilleriya generalı Əsəd bəy Talışxanov nümunəvi zabit kimi tanınmış və hökumət tərəfindən mükafatlandırılmışdı. Bir çox azərbaycanlı zabitlər (rotmistr Teymur Novruzov, kapitan Tərlan Əliyarbəyov və başqaları) döyüşlərdə göstərdikləri igidliyə görə "Georgi xaçı" ilə təltif edilmişdilər. İlk azərbaycanlı hərbi təyyarəçi poruçik Fərrux Qayıbovun təyyarəsi 1916-cı ildə rus aviasiya qrupunun Vilnodakı alman hərbi obyektlərinə hava hücumlarında iştirak edirdi. Bir saat ərzində o, düşmənin 4 təyyarəsi ilə çarpışmış, onlardan 3-nü vurub salmış, lakin özü də qəhrəmancasına həlak olmuşdu.

Hələ 1914-cü ilin mayında Bakıdan IV Dövlət Duması müsəlman fraksiyasının sədri G.B.Tevkelova "Qafqaz müsəlmanları" imzası ilə göndərilmiş məktubda xahiş olunurdu ki, müsəlmanların ehtiyacları Nazirlər Şurasının sədrinə çatdırılsın; ərizəçilərin məktubunda deyildiyinə görə, bu ehtiyaclardan biri rus ordusu sıralarında hərbi xidmət keçmək zərurəti idi. Hərbi mükəlləfiyyət" müsəlman xalqının mənəvi özünüdərkinin qaldırılması və onun mədəni səviyyəsinin yüksəldilməsi" kimi qiymətləndirilirdi.

Lakin çar hökuməti ancaq avqustda 3000 nəfər azərbaycanlının hərbi müdafiə işlərinə səfərbər edilməsi barəsində elan verməklə kifayətləndi. Bu da yerli əhalinin narazılığına səbəb oldu. Dumanın müsəlman fraksiyasının sədri G.B.Tekvelov və M.Cəfərov Nazirlər Şurasından tələb etdilər ki, səfərbərlik vaxtı elan edilərkən əhalinin tarla işləri ilə məşğul olması nəzərə alınsın, bu işlərə cəlb edilənlərin ailələrinə də, orduya çağırılanların ailələrinə olduğu kimi, dövlət

ərzaq payları ayrılsın və s. Fraksiyanın və onun bürosunun səyləri nəticəsində müsəlman əhalisinin səfərbərliyə alınması vaxtı sentyabrın 15-dək təxirə salındı.

Müharibə illərində erməni burjuaziyası və onun mənafelərini ifadə edən "Daşnaksutyun" partiyası hakim dairələr qarşısında xidmət göstərmək üçün xüsusi can-fəşanlıq edirdilər. Bu partiyanın nümayəndələri özlərinin çoxdankı arzularını ermənilərin də yaşadığı vilayətlərin Türkiyədən alınması və bu ərazilərdə Rusiyanın protektorluğu altında erməni dövlətinin yaradılmasından ibarət istəklərinin həyata keçirilməsini Rusiyanın hərbi qələbələri ilə bağlayırdılar.

Müharibənin elə ilk günlərində çara göndərdikləri sadiq təbəəlik müraciətində daşnaklar əmin edirdilər ki, onlar "Rusiyanın Şərqdəki tarixi vəzifələrinin" həyata keçməsində ürəkdən maraqlıdırlar.

Qafqaz canişininin icazəsi ilə onlar şəhər və kəndlərdən könüllü dəstələr yığır, bunlardan hərbi drujinalar yaradırdılar. Bu drujinalar Türkiyəyə qarşı döyüşən rus qoşunlarına qatılaraq dinc türk əhalisinin kütləvi qırğınlarında fəal iştirak edirdilər. Bu avantürist hərəkət Türkiyənin erməni əhalisi üçün kədərli nəticələrə gətirdi, onların kütləvi surətdə deportasiya olunmasına səbəb oldu. Qnçakçılar da guya ki, ermənilərin həyatında yeni səhifə açmalı olan bu müharibədə daşnaklarla eyni mövqedən çıxış etməyə başladılar.

Cənubi Qafqazda vətənpərvər menşeviklər qrupuna Noy Jordaniya başçılıq edirdi.Bakı menşeviklərinin mövqeyi xeyli ziddiyyətli idi. Müharibə elan ediləndən bir neçə gün sonra onlar "Müharibəyə, müharibəyə" adlı iki vərəqə nəşr edib yaydılar. Bu vərəqələrdə müharibə pislənir, onun günahkarları - imperialistlər ifşa olunur, müharibəyə və mütləqiyyətə qarşı mübarizəyə çağırış səslənirdi. Lakin menşeviklərin elə bu hissəsi də müharibəni,

imperializmi və şovinizmi, habelə Plexanov və Jordaniyanın mövqelərini ancaq sözdə pisləməklə kifayətlənirdi.

Eser təşkilatlarının da mövqeyi birmənalı deyildi. Eserlərin bir hissəsi, əsasən fəhlələr müharibə əleyhinə çıxış etməyə və hətta tətillərin hazırlanmasında bolşeviklərlə əməkdaşlıq etməyə başladı. Lakin Bakı eserlərinin digər hissəsi, əsasən, rəhbər orqanlar vətənpərvərlik mövqeyində duraraq müharibədə Rusiyanı müdafiə edirdi.

"İmperialist müharibəsi"ndə qeyd-şərtsiz olaraq öz hökumətinə qarşı çıxan yeganə partiya bolşeviklər partiyası idi. Artıq müharibənin ilk günlərində V.İ.Lenin tərəfindən "Müharibə haqqında tezislər" yazılmışdı. Sonralar bu tezislər yenidən işlənib bütün bolşevik təşkilatlarının fəaliyyət proqramı olmuşdu. Bıı sənəddə partiyanın əsas taktiki şüarları ifadə olunmuşdur: imperialist müharibəsinin vətəndaş müharibəsinə çevrilməsi; "öz" hökumətinin məğlubiyyətinə kömək göstərilməsi; sosial-şovinizmlə və onun bir növü olan mərkəzçiliklə (II Beynəlmiləlin bütün sosialist və sosial-demokrat partiyaları nəzərdə tutulurdu) əlaqələrin tamamilə kəsilməsi; III Beynəlmiləlin yaradılması.

Bolşeviklər fəhlələrin müharibə əleyhinə mitinq və nümayişlərinin keçirilməsində fəal iştirak edirdilər.

Fəhlə hərəkatı. Kəndli çıxışları.Müharibənin başlanması Bakı proletariatının bir ay yarımdan çox çəkən möhtəşəm yay tətilinin, amansız cəza tədbirləri və təzyiqlərin nəticəsində, zəifləməyə doğru getdiyi vaxta düşdü. Şəhərdə səfərbərlik iyulun 18-də başlandı, orduya çağırılan minlərlə fəhlə səfərbərlik məntəqələrinin qarşısına yığılırdı. Hakimiyyət orqanlarının tətili dərhal dayandırmaq üçün bütün tədbirləri görməsinə baxmayaraq, neft mədənlərinin ümumiyyətlə, bu günlərdə 40 firmanın 10 minə yaxın fəhləsi tətili dayandırmamışdı. Hakimiyyət orqanları Bakıdakı tətil hərəkatını

ancaq avqustun ortalarında yatırmağa nail oldu. Bakı fəhlələrinin I914-cü ilin avqustunadək çəkmiş tətil hərəkatı onların müharibə əleyhinə çevrilmiş əhvali-ruhiyyəsinin ifadəsi idi. Kütlələrin iqtisadi və siyasi vəziyyətinin kəskin surətdə pisləşməsi tətil mübarizəsinin yenidən yüksələcəyini labüd edirdi. Bu dövrdə Nuxa ipək sənayesi fəhlələri iri çıxışlar keçirirdi. Aprelin 9-dan 20-dək Nuxanın 16 fabrikinin 1270 fəhləsi tətil edirdi. Onların tələbi əmək haqqının artırılması, iş gününün qısaldılması idi. İki aydan sonra, iyunun 9-da Nuxada tətillər yenidən başladı. Şəhərin əksər ipəksarıma müəssisələri fəhlələrinin qatıldığı bu tətil dövrün ən iri aksiyası oldu.

1915-ci ilin yayından etibarən Bakı tətil hərəkatında dönüş başlandı və bu aksiyaya şəhərin digər müəssisələrinin də fəhlələri qoşuldular.

İqtisadi xarakterli tətillər Gədəbəy mis mədəni və misəritmə zavodunda, Tovuz sement zavodunda baş vermişdi.

Sentyabrın 17-19-da Bakı qradonaçalnikinin dəftərxanasında müşavirə çağırıldı. Müşavirədə qərara alındı ki, fəhlələrin əmək haqqı müəyyən qədər artırılsın və eyni zamanda bütün fəhlələrə tətillərin təkrar olunacağı halda hərbi mükəlləfiyyətlilərin cəbhəyə göndəriləcəyi, İran təbəələrinin isə Bakı qradonaçalnikliyinin hüdudlarından kənara çıxarılacağı elan olunsun.Bu hədələrə baxmayaraq, Bakıda tətil hərəkatı getdikcə güclənir, daha geniş əhali kütlələrini əhatə edirdi.

1916-cı ilin yanvarında mədən və zavodlarda keçirilən yığıncaqlarda Mərkəzi komissiya yaradıldı və o, ümumi tətili təşkil etmək işini öz əlində cəmləşdirdi.

1916-cı ildə Bakı tətillərində 13 min nəfərdən çox adam-Bakı proletariatının təxminən 1/4 hissəsi iştirak etmişdi. 1916-cı ilin əvvəllərində Nuxa fəhlələri yenə də tətilə çıxdılar.

Bütün müharibə dövrü ərzində Bakıda ən çox tətil 1916-cı ilin oktyabrında baş verdi. Nobel qardaşları, Qafqaz-Qara dəniz cəmiyyəti, Xəzər şirkəti kimi iri firmaların fəhlələri adından əmək haqqı və hərbi müavinət məbləğinin xeyli artırılması, əlilliyə görə tam əmək haqqı ödənilməsi və s.tələblər irəli sürüldü. Neftin müəyyənləşdirilmiş qiyməti 1917-ci il yanvarın 1-dən artırıldı. Bu neft sənayeçilərinin daha çox gəlir götürməsi demək idi və Bakı fəhlələrinin qəzəbini daha da artırdı."Nobel qardaşları" şirkətinin mexaniki emalatxanalarında 700 fəhlə tətilə başladı. Elə bu dövrdə də şirkətin digər fəhlələri, elektrik stansiyası şirkətinin işçiləri onlara qoşuldular. Yanvarın 18-də tətil Balaxanı-Sabunçu rayonunun mədən-zavodlarını da əhatə etdi.

Heç bir hədə, hətta hərbi mükəlləfiyyətlilərin cəbhəyə göndərilməsi fəhlələri qorxutmurdu. Bakı fəhlələrinin tətili 1917-ci il yanvarın 31-də başa çatdı. Həbs olunmuş fəhlələrin bir hissəsi azad edildi. 1917-ci ilin yanvarında Bakıda fəhlə hərəkatı bütün müharibə dövrü ərzində ən yüksək səviyyəyə çatmış, bütövlükdə 87 müəssisəni əhatə etmişdi. 1917-ci ilin yanvarında tətil hərəkatı bürümüş müəssisələrin sayına görə Bakı qradonaçalnikliyi Rusiyada birinci yeri tuturdu. 1917-ci il fevralında Gəncədə fəhlə həyəcanları başlandı. Mahlıc istehsalı ilə məşğul olan fəhlələrin, sonra isə dəmiryolçuların başladığı tətil fevralın sonunadək davam etdi. Müharibə illərində iqtisadi böhranın dərinləşməsi, zəhmətkeş kütlələrin vəziyyətinin kəskin surətdə ağırlaşması və Azərbaycan kəndində sosial ziddiyyətlərin kəskinləşməsi kəndli hərəkatının yüksəlişinə səbəb oldu. 1914-1917-ci illərdə qəzaların əksəriyyətini kəndli hərəkatı bürümüşdü.Kəndlilər ilk növbədə kəskin ehtiyac duyduqları torpaq uğrunda mübarizə aparırdılar. Dövlət və mülkədar torpaqlarının tutulması mübarizənin ən geniş yayılmış formalarından biri idi. Müharibə illərində ən iri kəndli həyəcanları Yelizavetpol

quberniyasında və Bakı quberniyasının Lənkəran və Quba qəzalarında baş verirdi. Müharibə illərində əkin sahələri xeyli ixtisar olunsa da, kəndlilərin suvarma suyu uğrunda mübarizəsi davam edirdi. Müharibə illərində kəndlilərdə narazılığı gücləndirən səbəblərdən biri də vergi və mükəlləfiyyətlərin həddən cox artırılması idi. Kəndlilər kütləvi surətdə vergiləri ödəməkdən və mükəlləviyyətləri yerinə yetirməkdən boyun qaçırır, çar məmurlarına və polisə silahlı müqavimət göstərirdilər.

Qaçaqların - silahlı kəndli dəstələrinin çıxışları xüsusilə kəskin xarakter alaraq, Azərbaycanın bütün qəzalarını əhatə etdi. Azərbaycanda xalq intiqamçılarının 40-dək dəstəsi fəaliyyət göstərirdi. Qaçaq hərəkatının ən görkəmli başçılarından biri Qaçaq Süleyman idi. O, öz dəstəsi ilə birlikdə Zəngəzur və Qarabağ bölgələrində çar müstəmləkəçiləri və yerli istismarçılara qarşı 15 ildən çox partizan müharibəsi aparmışdı. 1916-cı ildə onun dəstəsində 200 nəfərdən çox kəndli var idi. 1917-ci ilin fevralında hökumət orqanları Qaçaq Süleymanın dəstəsinə divan tutdular. Qaçaqlara rəğbət bəsləyən və kömək göstərən kəndlilər isə amansızlıqla cəzalandırıldılar. Əslində Qaçaq Süleyman (1861-1962) Şəmkir rayonunun Sarxan kəndində doğulmuş Gülsüm adlı bir xanım olmuşdur.O,gənc qız ikən vergini verə bilməyən atasının kürəyinə çar məmurlarının qaynar samovar bağlayaraq işgəncə vermələrinə dözməyərək evdəki tüfənglə pəncərədən atəş açaraq pristavı və kəndxudanı öldürür.Kişi paltarı geyərək meşələrə çəkilir,özünü kişi kimi təqdim edir.O, Qaçaq Kərəmlə birlikdə SSRİ-nin gələcəkdə başçısı olmuş İ.V.Stalinin (Soso) həbsdən qaçmasını təşkil edir. Stalin 7 ay Süleymanın dəstəsində fəaliyyət göstərmişdir. Sonra o, dəstəni tərk edərək gizli inqilabi fəaliyyətini davam etdirmişdir. Gülsüm xanım isə uzun zamandan sonra mübarizəni dayandıraraq dinc həyata qayitmışdır.Sovet hakimiyyəti dövründə bir neçə erməni onun gəlnini

incidərək zorla kolxoza cəlb etmək istəmiş,buna dözməyən bu qəhrəman qadın ermənilər tüfənglə öldürmüşdür.Bu əməlinə görə,o həbs olunmuşdur.Bu məsələdən xəbərdar olan İ.V.Stalin Azərbaycan KP MK-nın Birinci katibi M.C.Bağırova qadının həbcdən azad edilməsini, oğlunun isə kolxoz sədri təyin edilməsini tapşırmışdır. Cəbhədəki ağır vəziyyətə baxmayaraq, çar hökuməti kəndli hərəkatına qarşı bir sıra tədbirlər görmək məcburiyyətində qalıb, onun daha geniş yayıldığı Bakı, Yelizavetpol və Kutaisi quberniyalarında hərbi vəziyyət rejimi tətbiq etdi. Müharibənin doğurduğu iqtisadi və siyasi böhran, günü-gündən artan fəhlə və kəndli hərəkatı, Rusiyanın digər regionlarında olduğu kimi, Azərbaycanda da yeni inqilabi şəraitin yarandığını göstərirdi.

Birinci Dünya müharibəsi dövründə neft böhranının səbəbləri:

1.Metal azlığı və nəqliyyatın pozulması
2.Hökümətin istehsalı nizamlamağa və neft yanacağını istehsalçılar arasında planauyğun bölüşdürməyə qadir olmaması
3.İnhisarçıların istehsalı məhdudlaşdırması
4.Pul qıtlığı
5.Texniki vasitələrin çatışmaması
6.Xaricdən neft avadanlıqları alınmasındakı çətinliklər
7.Mədən-zavod təsərrüfatında əsaslı təmir işlərinin aparılmaması
8.Metal məmulatlarının bahalaşması və qazıma işlərinin azalması.

XXII FƏSİL
MÜSTƏQİLLİK ƏRƏFƏSİNDƏ SİYASİ VƏZİYYƏT (1917-Cİ İL FEVRAL-1918-Cİ İL MAY).

Cədvəl:1. 1917-ci il Fevral burjua-demokratik inqilabından sonra yaranmış ikihakimiyyətlilik. 1917-ci il 27 fevral – 5 iyul.

Petroqrad Fəhlə və Əsgər Deputatları Soveti – 1917-ci il fevralın 27-də yaranmış, tərkibinə seçilmişdir:	bolşevik, menşevik, eser partiyalarından olan deputatlar
Müvəqqəti Hökumət – 1917-ci il martın 2-də yaranmış – 1917-ci il oktyabrın 25-26-da tərkibinə daxildir:	IV Dövlət Dumasının burjua-mülkədar yönümlü deputatları.
1917-ci il martın 3-də Cənubi Qafqazı idarə etmək üçün IV DövlətDumasının deputatlarından ibarət Xüsusi Cənubi Qafqaz Komitəsi (OZAKOM).	Sədri: kadet V.A.Xarlamov idi. Azərbaycanı M.Y.Cəfərov (musavatçı) təmsil edirdi.
Ayrı – ayrı şəhərləri idarə edirdi:	Xüsusi Cənubi Qafqaz Komitəsinin (OZAKOM-un) təyin etdiyi İctimai Təşkilatların İcraiyyə Komitəsi.

Rusiyada 1917-ci il Fevral inqilabı və Azərbaycan. 1917-ci il fevralın 23-də Petroqradda fəhlələrin tətil və nümayişi ilə başlanan demokratik inqilab fevralın 27-də paytaxt qarnizonu əsgərlərinin nümayişi ilə özünün ən yüksək zirvəsinə çatdı. Fevralın 28-də inqilab

qələbə çaldı. Elə həmin gün IY Dövlət Dumasının Müvəqqəti Komitəsi "Petroqradda qayda-qanun yaratmaq, idarə və şəxslərlə əlaqəni təmin etmək" məqsədilə hökumətin funksiyalarını öz üzərinə götürdüyü barədə bəyanat verdi. Bir gün əvvəl isə ölkədə inqilab proseslərinin inkişafında başlıca rol oynamış Fəhlə Deputatları Sovetinin Müvəqqəti İcraiyyə Komitəsi öz işinə başladı.

1917-ci il martın 2-də II Nikolay Rusiya çar mütləqiyyəti tarixində son, lakin taxt-tacı tərk etmək haqqında ilk manifesti imzaladı.

Martın 2-də Müvəqqəti hökumət təşkil olundu. Hökumətin öz qarşısına qoyduğu əsas vəzifə ölkədə qayda-qanun yaratmaq və yeni Rusiyada konstitusiya quruluşunu qanuniləşdirəcək Müəssislər Məclisinə seçkilər keçirmək idi. Mərkəzdə baş verən hadisələrin mahiyyəti Bakıda dərhal qiymətləndirilməsə də, artıq martın 3-də Bakı fəhlələri Petroqrad inqilabçılarını birgünlük tətil keçirməklə salamladılar. Elə həmin gün Bakıda keçirilən yığıncaqlarda Müvəqqəti hökumətə sədaqət andları və əmin-amanlığın qorunmasını, ordunun və əhalinin bütün zəruri mallarla təchiz edilməsi öhdəliyi barədə bəyanatlar səsləndi. Martın 5-nə keçən gecə yeni hakimiyyət orqanı - Bakı İctimai Təşkilatları Şurası və onun Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi.

Martın 3-də Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Cənubi Qafqaz Komitəsinə - OZAKOM-a verildi. OZAKOM-un sədri rus kadeti V.A.Xarlamov, Azərbaycanı müsavatçı M.Y.Cəfərov təmsil edirdi. OZAKOM-da Cənubi Qafqaz millətləri bərabər təmsil olunmadığı və aqrar məsələdə müəyyən mövqe tutulmadığına görə o, lap əvvəldən tənqid hədəfinə çevrildi.

Martın 3-də Cənubi Qafqazda mülki hakimiyyət yeni yaradılmış Xüsusi Cənubi Qafqaz Komitəsinə - OZAKOM-a verildi. OZAKOM-un sədri rus kadeti V.A.Xarlamov, Azərbaycanı

müsavatçı M.Y.Cəfərov təmsil edirdi. OZAKOM-da Cənubi Qafqaz millətləri bərabər təmsil olunmadığı və aqrar məsələdə müəyyən mövqe tutulmadığına görə o, lap əvvəldən tənqid hədəfinə çevrildi. Qeyd etmək lazımdır ki,OZAKOM-un şəhərlərdəki yerli orqanı İctimai Təşkilatların İcraiyyə Komitəsi idi.

Yeni hakimiyyətin təşkili məsələsində siyasi partiyalar və onların liderləri müxtəlif mövqelərdə dayanırdılar. Menşeviklər belə hesab edirdilər ki, yeni hakimiyyət orqanları, mərkəzdə olduğu kimi, yeni inqilabi demokratiya orqanlarının (Fəhlə, Əsgər və Kəndli Sovetlərinin) burjuaziya nümayəndələri ilə əməkdaşlığı əsasında yaradılmalıdır. Eserlərin fikrincə, Müvəqqəti hökumətin yaranmaqda olan yerli orqanlarına Fəhlə və Əsgər Deputatları Sovetləri nəzarət etməli idi. Bolşeviklərə gəldikdə isə, onlar hələlik eserlərin tərəfində dursalar da, sonradan yalnız özlərinin hakimiyyətə gəlməsi uğrunda açıq mübarizə aparmaq mövqeyinə keçdilər.

Fəhlələrin bir qismi Müvəqqəti hökumətə və onun yerli orqanlarına etimad göstərirdi. Fəhlə Deputatları Sovetləri və İctimai Təşkilatların İcraiyyə Komitələrinin eyni vaxtda yaradılması Rusiyanın digər yerlərində olduğu kimi, Azərbaycanda da ikihakimiyyətlilik olduğunu göstərirdi.

Martın 7-nə keçən gecə 52 deputatdan ibarət (bunların 9 nəfəri bolşevik, qalanları isə menşevik və eser idi) Bakı rayonu Fəhlə Deputatları Soveti qəti şəkildə formalaşdı.

Sovetin birinci iclasında menşevik Q.Ayollo sədr idi. Yalnız martın 8-də Saratov sürgünündən qayıtmış S.Şaumyan qiyabi olaraq Sovetin sədri seçildi. Onun seçilməsi sosialist dairələrdəki şəxsi populyarlığı ilə bağlı idi.

Fevral inqilabından sonrakı ilk günlərdə Sovetlər əslində bütün siyasi təşkilatları əvəz edirdi və müəyyən dərəcədə onların funksiyasını öz üzərinə götürmüşdü. Sovet özünün fövqəladə

səlahiyyətləri haqqında bəyanat verdi və fəhlələri hər cür çıxışlardan çəkinməyə, öz işlərini davam etdirməyə çağırdı.

Burjua hakimiyyət orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsinə həm Fəhlə Deputatları Sovetlərinin, həm də şəhər Dumasının və ictimai təşkilatların nümayəndələri daxil oldu. Sağ menşevik L.Bıç sədr seçildi. Fəhlə Deputatları Sovetindən fərqli olaraq, İcraiyyə Komitəsinə azərbaycanlı əhalinin təmsilçiləri M.H.Hacınski və M.Ə.Rəsulzadə də daxil oldular. Komitəyə milli neft sənayeçiləri maddi yardım göstərirdilər.

Bütövlükdə inqilabın ilk ayları müxtəlif siyasi cərəyanların, partiyaların, sosial təbəqələrin Müvəqqəti hökumətə etimad göstərmələri və onu müdafiə etmələri ilə səciyyələnirdi. Bu dövrdə cəmiyyətdə nisbi birliyin saxlanılmasına kömək edən daha bir amil ondan ibarət idi ki, bolşeviklər Sovetlərin partiya tərkibini dəyişdirmək taktikasına hələ keçməmişdilər. İndiyə qədər yerli hakimiyyət orqanlarının hamısı "bütün demokratiyanın vəhdəti" şüarı altında formalaşırdı.

Partiyalararası münasibətlərin getdikcə kəskinləşməsi və qüvvələrin parçalanması hakimiyyət orqanlarının işini pozur, onun fəaliyyətinə qeyri-sabitlik gətirirdi. Sovetlərlə İcraiyyə Komitəsi arasındakı münasibətlərə təsir göstərən amillərdən biri də Sovetlərdə eser və menşeviklərin çoxluqda olmaları idi.

1917-ci il martın 10-da bolşevik və menşevik nümayəndələrinin Birləşmiş Müvəqqəti Komitəsi - "Ümumşəhər Mərkəzi" seçildi. Birləşmiş Komitədə menşeviklər üstünlük təşkil edirdilər.

Bolşeviklərin və menşeviklərin vahid sosial-demokrat təşkilatında birləşməsi onların eyni mövqedən çıxış etməsi demək deyildi. Təşkilatın mövcud olduğu 4 ay ərzində onların cari həyatın bütün məsələlərinə münasibəti bir-birindən fərqli idi. İki fraksiya arasındakı daimi mübarizə Müvəqqəti Komitənin orqanı olan

"Bakinskiy raboçiy" qəzetində əks olunurdu ki, bu qəzet artıq 5-ci sayından sırf bolşevik qəzeti kimi çıxmağa başladı. Menşeviklər isə öz mətbuat orqanlarını - "Sosial-demokrat" qəzetini buraxmağa başladılar.

Beləliklə, Bakıda menşeviklərin və bolşeviklərin bir-birindən təşkilati cəhətdən ayrılması prosesi başladı.

1917-ci il mayın 25-də bolşeviklər Balaxanıda özlərinin ayrıca konfransını keçirib xüsusi qətnamə qəbul edərək, menşevikləri Komitənin tərkibindən kənarlaşdırdılar.

1917-ci il iyulun 1-də isə menşeviklər 14 nəfərdən ibarət özlərinin müstəqil komitələrini yaratdılar və onun birləşmiş RSDFP-nin Bakı Komitəsi adlanması haqqında qərar qəbul etdilər.

Mütləqiyyətin devrilməsi ərəfəsində eserlər (sosial inqilabçılar) Azərbaycanda nə sanballı nüfuz sahibi, nə də kütləvi partiya idilər. 1917-ci ilin martında Bakıda eserlər partiyasının Müvəqqəti İcraiyyə Komitəsi təşkil edildi. Eserlər Almaniya ilə sülh bağlanana qədər müharibə aparmağa və Müvəqqəti hökumətə hərtərəfli kömək etməyə çağırırdılar. Onlar inqilabda kəndlilərin roluna xüsusi yer verirdilər. Sosial inqilabçılar Qafqazda kəndli ittifaqlarının təşkilində fəal iştirak etməyi zəruri sayırdılar.

1917-ci il oktyabrın 25-də Petroqradda bolşeviklərin silahlı üsyanı nəticəsində Müvəqqəti hökumət devrildi. Oktyabrın 25-26-da Smolnıda keçirilən II Sovetlər qurultayında Sülh və Torpaq haqqında dekretlər qəbul edildi və Leninin başçılığı ilə sovet hakimiyyətinin əsası qoyuldu.

1917-ci il Oktyabr çevrilişindən sonra Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət. Bolşeviklərin Petroqradda hakimiyyəti ələ keçirməsi xəbəri alındıqdan sonra 1917-ci il oktyabrın 27-də Bakı Fəhlə və Əsgər Deputatları Sovetinin fövqəladə yığıncağı keçirildi. İclasın gündəliyində duran əsas məsələ hakimiyyət məsələsi idi.

Bolşeviklərin kəskin etirazına baxmayaraq, menşevik-eser-daşnak bloku səsvermədə qalib cıxaraq Bakıda ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsinin (İTK) yaradılması haqqında qərarın qəbul olunmasına müvəffəq oldu. Sovet həmin üç siyasi partiya (eserlər, menşeviklər və daşnaklar) adından bəyan etdi ki, inqilabın müdafiəsi Petroqradda başlanmış üsyanın dinc yolla ləğv olunmasını tələb edir, ölkədə bütün hakimiyyət Müəssislər Məclisinə verilməli, o vaxta qədər mövcud hakimiyyət demokratiya daxilində koalisiyaya verilməlidir və qüvvələr bolşevik partiyasını sosialist partiyası kimi qəbul etdiklərindən onun nümayəndələrinin nəzərdə tutulan koalisiyada iştirakına etiraz etmir, "Müsavat" partiyasını isə millətçi partiya adlandıraraq onunla hər hansı bir bloka girməyi qəti rədd edirdilər. Eyni zamanda onlar millətçi "Daşnaksutyun" partiyasının Bakı təşkilatına çox loyal münasibət bəsləyirdilər.

Bolşeviklər hələlik "Bütün hakimiyyət Sovetlərə!" tələbini irəli sürməkdən çəkinərək, yalnız Sovetlərin səlahiyyətlərinin artırılmasına çalışırdılar. Onlar Bakıda hakimiyyəti ələ almaq üçün hələ özlərini kifayət qədər güclü hesab etmirdilər. Yalnız digər siyasi institutların ləğvi yolu ilə hakimiyyəti ələ keçirməyin mümkünlüyünü başa düşəndən sonra bolşeviklər qəti surətdə İctimai Təşkilatların İcraiyyə Komitəsinin buraxılması məsələsini qaldırdılar. Bolşeviklər Sovetlərin hakimiyyətini və sovetlərdə öz üstünlüyünü bərqərar etmək məqsədilə, Bakı Sovetinin yeni iclasının keçirilməsini tələb etdilər. Hakimiyyətin Sovetlərə keçməsi ilə razılaşmadıqlarını bildirən menşevik və eserlərin iclas zalından çıxıb getməsi bolşeviklərə olduqca sərfəli oldu. 1917-ci il noyabrın 2-də bolşeviklər öz mövqelərini daha da möhkəmləndirmək məqsədilə yenidən bütün hakimiyyətin sovetə verilməsi məsələsini qoydular.

Bu dövrdə müsavatçıların bolşeviklərə tərəfdar çıxması da mühüm əhəmiyyət kəsb edən amillərdən biri idi. Rusiyada baş vermiş

Oktyabr çevrilişinə loyal münasibət nümayiş etdirən "Müsavat" partiyası bundan sonra xalqların öz müqəddəratını təyin etmək hüququnun həyata keçiriləcəyinə ümid edirdi. Sovet hakimiyyətinin ilk sənədləri - "Rusiya xalqlarının hüquq bəyannaməsi" və "Rusiyanın və bütün Şərqin müsəlmanlarına müraciət" bu ümidi daha da nıöhkəmləndirmişdi. Buna görə də "Müsavat" Partiyası İctimai Təhlükəsizlik Komitəsinin hərəkətlərinin barışıq və saziş siyasəti üçün ziyanlı olduğunu və buna görə də özünün həmin qurumda iştirakını mümkün saymadığını bildirdi.

"Müsavat"ın dəstəyini alan bolşeviklər Xəzər ticarət donanması, bir sıra həmkarlar ittifaqı və şəhər qarnizonu nümayəndələrini öz tərəflərinə çəkə bildilər və sovetin 1917-ci il 2 noyabr tarixli iclasında onu Bakı şəhərinin ali hakimiyyət orqanı elan edən qərar qəbul edilməsinə nail oldular.

Bakı Soveti İcraiyyə Komitəsinin M.V.Basin, P.A.Caparidze, İ.T. Fioletov, S.G. Şaumyan və başqalarından ibarət yeni tərkibi seçildi. İcraiyyə Komitəsinin sədri S.Şaumyan oldu.

Beləliklə, bolşeviklər sovetdə iştirak edən digər partiyalar - eserlər və menşeviklərlə müsavatçılar arasındakı ziddiyyətlərdən istifadə edərək, Bakı Sovetində əsas vəzifələri asanlıqla ələ keçirə bildilər. 1917-ci il noyabrın 2-dən etibarən demokratik qüvvələr arasında açıq parçalanma prosesi başlandı.

Bakı və Yelizavetpol quberniyasında yerləşən qarnizonların əsgərləri Bakıda hakimiyyətin sovetlərin əlinə keçməsini razılıqla qarşıladılar. Bununla belə, bir çox müəssisə və təşkilatlarda keçirilən iclaslarda bolşeviklərin hakimiyyəti bu yolla ələ almaları pislənildi.

Eser-menşevik blokunun sovetdən çıxması mövcud vəziyyəti daha da gərginləşdirdi. Məlumdur ki, eserlər və menşeviklər bolşevikləri tam təcrid etmək məqsədilə birgə fəaliyyət göstərmək üçün "Müsavat" partiyasına müraciət etmişdilər. "Müsavat"

Partiyasının 1917-ci il noyabrın 7-də keçirilən konfransında bu təklif barədə qəbul edilən qətnamədə bildirilmişdi: "Yerli demokratiya daxilində yaranmış münaqişəni bolşevikləri inqilabi demokratiyanın digər hissəsindən təcrid etmək yolu ilə həll etmək bütün demokratiyanın ümumi məqsədləri üçün zərərlidir. Çünki inqilabın sol qanadının zəifləməsi, eyni zamanda əksinqilabi sağ qanadın güclənməsi deməkdir".

Lakin bu siyasi münaqişəni dinc yolla aradan qaldırmaq mümkün olmadı. Sovetin təkhakimiyyətliliyə nail olmasına Bakının digər siyasi hakimiyyət strukturları (İctimai Təşkilatların İcraiyyə Komitəsi, Şəhər Duması) da mane olurdu. Nəhayət, 1917-ci il noyabrın 22-də İctimai Təşkilatların İcraiyyə Komitəsi ləğv olundu və bolşeviklərin sovetdə öz hegemonluqlarını bərqərar etmək və diyarda təkpartiyalı sistem yaratmaq uğrunda mübarizəsi başlandı. Lakin F.X.Xoyskinin rəhbərliyi ilə fəaliyyət göstərən Şəhər Duması bolşevik sovetinin yeganə mümkün rəqibi kimi qaldı. Fevral inqilabından sonra Bakı Şəhər Dumasının statusunda dəyişiklik baş verdi. Onun tədricən siyasi mübarizə səhnəsinə cəlb olunaraq demokratikləşməsi müşahidə edilirdi.

Gürcüstan Sosial-Demokrat Partiyası (menşeviklər), "Müsavat", Daşnaksutyun və sağ eserlərin nümayəndələri noyabrın 11-də Tiflisdə keçirdikləri müşavirədə Rusiya bolşevik hökumətinin hakimiyyətini tanımaqdan imtina etdiklərini bildirib, "Müstəqil Cənubi Qafqaz hökuməti" yaratmaq haqqında qərar çıxartdılar. Noyabrın 15-də Tiflisdə Cənubi Qafqaz Komissarlığı yaradıldı. Bu hökumətin tərkibinə gürcülərdən Y.Gegeçkori (Sədr və Xarici işlər komissarı), A.Çxenkeli (Daxili işlər komissarı), ermənilərdən X.Q.Karçikyan (Maliyyə komissarı), azərbaycanlılardan F.X. Xoyski(Xalq maarif komssarı,Müsavat), M.Y.Cəfərov(Ticarət və Sənaye komissarı,Müsavat), X.Məlikaslanov (Kommunikasiya

komissarı,Müsavat),X.Xasməmmədov (Nəzarət komissarı, Müsavat) daxil oldular.

Milli Şuralar yerlərdə hakimiyyəti ələ alırdılar. Bu cəhətdən Bakı Müsəlman Şurasının vəziyyəti çətin idi, çünki onun qarşısını bolşeviklərin başçılıq etdiyi Bakı Soveti kimi güclü bir rəqib kəsmişdi.

Xarici siyasət sahəsində Cənubi Qafqaz Komissarlığının fəaliyyəti əslində diyarı bolşevik Rusiyasından ayırmaq məqsədi daşıyırdı.1917-ci il dekabrın 5-də Ərzincanda Cənubi Qafqaz Komissarlığı ilə Türkiyə hərbi komandanlığı arasında barışıq sazişi bağlandı. Sazişə görə Qafqaz cəbhəsindəki rus qoşunları buradan çıxarılıb Rusiyaya göndərilirdi.Onların bir çoxu Bakı Sovetinin xidmətində qaldılar.

Cəbhədən qayıdan rus ordusu öz silah və hərbi sursatını erməni və gürcülərə,Bakı bolşeviklərinə verdiyindən Azərbaycan əhalisi silahlı düşmən qarşısında əliyalın qalmışdı. Belə vəziyyətdə Cənubi Qafqaz komissarlığındakı Azərbaycan fraksiyası bərabər silahlanmaq tələbini irəli sürdükdə hökumət geri qayıdan rus polklarından birinin tərksilah edilib silahlarının azərbaycanlılara verilməsinə razılıq verdi. Buna müvafiq olaraq,1918-ci ilin yanvarında Şamxor (Şəmkir) stansiyasından keçən rus polku tərksilah edildi. Hər iki tərəfdən ölən və yaralanan oldu.

1917-ci ilin sonlarında Azərbaycanın və ümumiyyətlə, Cənubi Qafqazın siyasi həyatında baş vermiş ən əlamətdar hadisələrdən biri Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçirilməsi oldu. Azərbaycanda Müəssislər Məclisinə seçkilər üzrə komissiyaya F.X.Xoyski rəhbərlik edirdi.

Müəssislər Məclisinə seçkilərdə iştirak etmək hüququna malik seçicilərin 50%-dən çoxu savadsız idi ki, bu da seçkilərin mütəşəkkil keçirilməsini çətinləşdirən amillərdən idi.

"Müəssislər Məclisinə seçkilər haqqında ƏIsasnamə" öz dövrünün hüququ standartları baxımından demokratik sənəd idi. Qadınların, hərbi qulluqçuların səsverməyə buraxılması, dairələrin çoxunda proporsional seçki sisteminin tətbiqi və s. buna dəlalət edirdi. Azərbaycanda Müəssislər Məclisinə seçkilər 1917-ci il noyabrın 26-da keçirildi. Cənubi Qafqaz dairəsi üzrə seçkilərdə iştirak edən 15 partiya arasında menşeviklər, müsavatçılar və daşnaklar ümumilikdə səslərin 73%-ni qazandılar. Bolşeviklər bütün Cənubi Qafqaz dairəsində səslərin cəmi 4,4%-ni yığa bilmişdilər .

Seçkilərin nəticələri göstərdi ki, Cənubi Qafqazda bolşeviklərin hakimiyyətə gələ bildikləri Bakı şəhəri istisna olmaqla, "Müsavat" və "Daşnaksutyun" partiyaları daha güclü nüfüza malikdir.

Azərbaycanlıların 1918-ci il Mart soyqırımı.S.Şaumyanın başçılıq etdiyi bolşeviklər Şəmkir hadisəsindən Azərbaycan türklərinə qarşı milli qırğın törətmək üçün istifadəyə təşəbbüs etdilər.Ermənilər və bolşeviklər Bakıda hərbi cəhətdən möhkəmlənmək üçün bir sıra tədbirlər gördülər. 1917-ci ilin dekabrında erməni mənşəli Q.Korqanovun başçılığı ilə yaradılmış Qafqaz ordusunun bolşevik yönümlü Hərbi İnqilab Komitəsi Tiflisdən Bakıya köçrüldü.

Digər tərəfdən Rusiyanın Almaniya ilə Brest-Litovskda sülh danışıqları boşa çıxdıqdan sonra 1917-ci il dekabrın 6-da alman-türk qoşunları hücuma keçmişdilər.Cənubi Qafqazda türk qoşunlarının irəliləməkdə davam etdiyini görən Cənubi Qafqaz Komissarlığı 1918-ci il fevralın 6-da Qafqaz cəbhəsinin komandanı Vehib paşaya Türkiyə ilə sülh danışıqları aparmaq istədiyini bildirən teleqram göndərməyə məcbur oldu. Regionda heç bir nüfuzu və kifayət qədər güclü hakimiyyəti olmayan Cənubi Qafqaz Komissarlığı özünü buraxmaq məcburiyyətində qaldı. 1918-ci il fevralın 9-da Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların

yığıncağında Cənubi Qafqaz Seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi.

1918-ci il fevralın 10-da üç əsas partiya fraksiyalarının nümayəndələrindən ibarət olan Cənubi Qafqaz Seymi Tiflisdə gürcü menşeviki Nikolay Çxeidzenin sədrliyi ilə öz işinə başladı. Seymdə Gürcüstandan sosial-demokratlar (menşeviklər) 32 nəfər, Azərbaycandan müsavatçılar, onlara qoşulmuş bitərəf demokratlar - 30 nəfər, ermənilərdən Daşnaksütyun partiyasından olanlar 27 nəfər deputat iştirak edirdi. Bundan əlavə sosial-inqilabçılar (eserlər), milli demokratlar, Erməni Xalq Azadlıq Partiyası, Müsəlman Sosialist Bloku 7 nəfər, Rusiyada müsəlmanlar fraksiyası ("İttihad") 3 nəfər və menşevik-hümmətçilər partiyası 4 nəfər deputatla Seymdə təmsil olunmuşdular.

Ümumən,Cənubi Qafqaz Seymində Azərbaycan siyasi partiyalarının 44 nümayəndəsi var idi. Seym Y.H.Gegeçkori başda olmaqla Cənubi Qafqaz hökumətini təşkil etdi. Qafqaz cəbhəsində vəziyyət və Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi məsələləri istər Seymin, istərsə də hökumətin fəaliyyətində əsas yer tuturdu.

Seymin qarşısında duran əsas məsələlərdən biri yaxınlaşan sülh danışıqları üçün hüquqi baza yaratmaq idi. Cənubi Qafqazı müstəqil dövlət elan etməyən Seym özünün xarici dövlətlərlə sülh bağlamaq səlahiyyəti olduğunu bildirir, Türkiyə ilə danışıqlara dair proqramında göstərirdi ki, 1914-cü ildəki dövlətlərarası sərhəd bərpa olunmalıdır. Danışıqlar aparmaq üçün üç Cənubi Qafqaz millətinin parlament fraksiyalarını təmsil edən siyasətçilər qrupundan nümayəndə heyəti təşkil olunmuşdu. Martın 12-də bütün qrup üzvləri danışıqların başlanacağı Trabzona gəldilər.

Cənubi Qafqaz Seymi hələ Türkiyə ilə sülh danışıqlarına hazırlaşdığı vaxt Brestdə Rusiya ilə Almaniya arasında separat müqavilə imzalanmışdı və onun bir şərtinə görə Ərdəhan, Qars və

Batum Türkiyəyə verilməli idi. Cənubi Qafqaz Seymi Brest sülhünün bu şərtini qəbul etmədi və Petroqrada XKS adına teleqram göndərərək bildirdi ki, "Brest sülhünü tanımır, çünki Cənubi Qafqaz heç vaxt bolşeviklərin və Xalq Komissarları Sovetinin hakimiyyətini qəbul etməmişdir". Türkiyə isə Brest sülhünün qərarlarına əsaslanaraq, Cənubi Qafqaz Seyminə Qars, Batum və Ərdəhanı dərhal boşaltması haqqında ultimatum verdi. Belə bir şəraitdə 1918-ci il martın 14-də Trabzonda Türkiyə və Cənubi Qafqaz Seyminin nümayəndə heyətləri arasında sülh konfransı açıldı.

Konfransda Türkiyə nümayəndəliyi mövqeyini açıqlayaraq bildirdi ki, əgər Cənubi Qafqaz beynəlxalq hüququn subyekti olmaq istəyirsə, tezliklə Rusiyadan ayrılmalı və öz müstəqilliyini elan etməlidir.

Seymdə mübahisələr getdiyi bir vaxtda Türkiyə tərəfi bəyan etdi ki, Cənubi Qafqaz Seymi ilə sülh Brest-Litovsk müqaviləsinin məlum şərti əsasında bağlanacaq. Martın 25-də Seymin iclasında Azərbaycan deputatları Türkiyənin ultimatumunu qəbul etmək təklifi irəli sürdülər. Çıxış edən Azərbaycan nümayəndələri Türkiyə ilə müharibə aparılmasına razı olmadıqlarını bildirdilər. Bununla belə, X.Xasməmmədov Türkiyəyə güzəştə gedilən ərazilərin siyahısından Batumun çıxarılmasını təklif etdi. O, Bakı neft kəmərinin son məntəqəsi olan Batumun Cənubi Qafqazın tərkibində saxlanmasını Azərbaycan neft sənayesinin mənafeyinə uyğun hesab edirdi.

Trabzon danışıqlarında iştirak edən nümayəndəliyin daxilində Türkiyəyə güzəşt məsələsində yekdillik yox idi. Çünki ermənilər Qars vilayətinin böyük bir hissəsini, gürcü nümayəndələri Ərdəhan və Batumun Cənubi Qafqazın tərkibində qalmasını istəyirdilər. Türkiyə tərəfinin güzəştə getmək və Cənubi Qafqaz rəhbərlərinin reallıqla hesablaşmaq istəməmələri danışıqların pozulmasına gətirib çıxartdı.

Lakin Seym elə həmin iclasda Trabzon danışıqlarını dayandırmaq və Türkiyə ilə müharibəyə hazırlaşmaq haqqında qərar qəbul etdi. Ölkədə hərbi vəziyyət elan edildi. 1918-ci il aprelin 14-də Türkiyə qoşunları Batumu tutdular.

Bu dövrdə Cənubi Qafqazda erməni şovinist millətçi qüvvələr öz məkrli siyasətlərini davam etdirirdilər. 1918-ci ilin yanvarından onlar Bakıda və Cənubi Qafqazın digər bölgələrində müsəlman qırğını törətmək üçün müxtəlif fitnəkarlıqlara əl atırdılar.

Birinci Dünya müharibəsinin sonlarında Qafqazın xristian əhalisi məqsədyönlü şəkildə silahlandırılırdı. Mart qırğınları ərəfəsində Rus Milli Şurasının Cənubi Qafqazın xristian əhalisinə müraciəti elan edildi. Müraciətdə mart ayının 11-dən 18-nə qədər 19-25 yaşında olan bütün rus gənclərinin hərbi səfərbərliyə alındığı bildirilirdi. Qafqaz cəbhəsinin ləğv olunması nəticəsində vətənə qayıtmalı olan rus alaylarının əsgər və zabitləri silah və sursatları dəyər-dəyməzinə ruslara (malakanlara) və daha çox ermənilərə satırdılar. Müharibədən məğlub çıxan və Oktyabr çevrilişindən sonra xarabazara dönmüş Rusiyada onları heç bir yaxşı şey gözləmədiyini bilən hərbçilər çox vaxt bir qarın çörəyə görə Bakıda qalmağı üstün tuturdular. Sonralar S.Şaumyan və əlaltıları bu qüvvələrdən çox məharətlə müsəlman əhalisinə qarşı istifadə etdi. Bakıda erməni və rus şovinist siyasi qüvvələrinin silahlandığını görən yerli əhali 1918-ci ilin fevralında şəhəri tərk etməyə başladı. Mart qətllərindən hələ bir həftə əvvəl Daşnaksutyun partiyası, Bakıdakı vəziyyətdən guya "narahat" olaraq, hakimiyyəti ələ almağın zəruriliyini bildirmişdi. Müsəlman cəmiyyətləri bu təhlükəni qabaqcadan gördükləri üçün tezliklə özünümüdafiə qüvvələri yaradılmasını zəruri hesab edirdilər. Digər tərəfdən isə Qafqazda xristian əhalinin silahlanmasına Antanta ölkələri də maraq göstərirdilər. Çünki ingilislər burada Türkiyə ordusunun irəliləməsini dayandırmaq məqsədinə nail olmaq üçün

yerli xristianlara böyük ümid bəsləyirdilər. Rus imperiyası dağıldıqdan sonra erməni siyasətçiləri ingilispərəst təbliğat aparır və onlardan müəyyən dəstək alırdılar. Buna görə də müsəlman qəzaları fevral ayının axırlarında ingilislərlə aparılan danışıqların kəsilməsini tələb edirdilər. Lakin Antanta qüvvələri nə qədər ki uzaqda idi, ermənilər öz məqsədlərinə bolşeviklərin əli ilə nail olmaq istəyirdilər. N.Nərimanov yazırdı ki, "böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün daşnaklar hər cür maska geyməyə, hər sifətə girməyə hazırdılar. N.Qolitsın dövründə onlar özlərini inqilabi partiya hesab edirdilər, sonra V.Vorontsov-Daşkovun ayaqlarını öpüb qatı əksinqilab cəbhəsinə keçdilər, indi Qafqazda Sovet hakimiyyəti qurulsa, daşnaklar o dəqiqə maskalarını dəyişib, bu dəfə kommunist maskasını geyəcəklər".

Azərbaycanda milli hərəkatın genişlənməsi,"Müsavat"ın nüfuzunun artması "böyük Ermənistan" xülyası ilə yaşayan daşnakları ciddi narahat edirdi. Daşnaklar mart qırğınını törətməklə "Müsavat"ın sosial bazasını, şəhərin müsəlman əhalisini məhv etməyi planlaşdırmışdılar. Bu məqsədlə təxminən 5 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirilmişdi. Beləliklə, "Qırmızı qvardiya" adı ilə yaradılan 10-12 minlik ordunun da 70% erməni idi. Əsasən ruslardan ibarət olan Xəzər donanması içərisində xüsusi təbliğat işi aparılmışdı. Həmçinin, Şamaxı və Muğanda ehtiyat rus-malakan silahlı dəstələri də yaradılmışdı.

Bu cinayəti həyata keçirmək üçün bəhanə lazım idi. Bu məqsədlə "Evelina" münaqişəsi törədildi. Azərbaycan milyonçusu H.Z.Tağıyevin Lənkəranda xidmət edən oğlu Məhəmməd Tağıyev təsadüfən öz əlindəki silahdan açılan atəş nəticəsində həlak olmuşdu. Müsəlman alayının zabitləri onun dəfnində iştirak etmək üçün Bakıya gəlmişdilər. Dəfn mərasimindən sonra zabitlər "Evelina" gəmisi ilə Lənkərana qayıtmalı idilər. Əlverişli məqamın yetişdiyini görən

ermənilər gizli şəkildə Rus Milli Şurası, Xəzər matrosları, eser və menşevik partiyaları arasında belə bir şayiə yaydılar ki, guya "Evelina" ilə gedən zabitlər tapşırıq almışlar ki, Lənkəranda olan müsəlman hərbi dəstələri ilə birlikdə Muğandakı rus-malakan kəndlərini məhv etsinlər. Bu təxribat xarakterli şayiə öz nəticəsini verdi. Bakıda olan bütün qeyri-azərbaycanlı siyasi və hərbi qüvvələr "Evelina" gəmisinin tərk-silah edilməsinə tərəfdar oldu. Təcili martın 30-da Bakı şəhəri mədən-zavod rayonlarının İnqilabi Müdafiə Komitəsi yaradıldı. Komitəyə S.Şaumyan, A.Caparidze, Q. Korqanov, N.Nərimanov daxil edildi. İnqilabi Komitənin təşəbbüsü ilə "Evelina"nın Lənkərana yola düşməsi dayandırıldı və gəmidəki zabitlər tərksilah edildi. Müsəlman əhalisi məscidlərə toplanaraq silahların qaytarılmasını tələb etdi. Vəziyyətin çox ciddi xarakter aldığını görən Azərbaycanın milli təşkilatlarının nümayəndələri İnqilabi Komitəyə gəlib, alınmış silahları "Hümmət" müsəlman bolşevik komitəsi vasitəsilə qaytarmağa cəhd göstərdilər. Martın 30-da müəyyən razılıq əldə edilməsinə, silahların qaytarılması vədi verilməsinə baxmayaraq, bolşevik-daşnak koalisiyası sözünə əməl etmədi. Beləliklə, əvvəlcədən sövdələşmə əsasında bolşevik-erməni koalisiyası, S.Şaumyanın dediyi kimi, "həlledici döyüşlərə hər cür hazırlıq görmüşdü" və dərhal bütün cəbhə boyu hücuma başladı. Martın 30-da axşam saat 5-də Bakıda ilk atəşlər açıldı. Aldatma siyasəti yeridib özlərinin bitərəfliyini elan etmiş Daşnaksutyun və Erməni Milli Şurası bu ilk atəşlərdən sonra Bakı Sovetini müdafiə etdilər. İlk atəşlərdən sonra ermənilər cənub hissədə səngərlər qazıb, torpaq və daşlardan sədlər qurmağa başlamışdılar. Martın 30-da axşam Bakı Soveti hərbi dəstələri başçılarının təcili iclası keçirildi. Döyüşə başlamaq haqqında qərar çıxarıldı və Erməni Milli Şurasına, daşnak liderlərinə müraciət edildi ki, öz hərbi dəstələrini hərəkətə gətirsinlər. Onların müsəlman silahlı dəstələrinin toplandığı yerə qəfil

hücumu qələbə ilə başa çatdı. Xəzər donanması gəmilərindən müsəlman məhəllələrinin atəşə tutulması şəhərdə vahiməli vəziyyət yaratdı. Hərbi gəmilərə göndərilmiş xüsusi təbliğatçılar onları aldadıb inandırdılar ki, guya müsəlmanlar şəhərdə rus əhalisini qırır. Bir neçə saatlıq bombardmandan sonra ras matrosları bunun təxribat olduğunu, "Müsavat"a qarşı mübarizə bəhanəsi ilə müsəlman əhalisinin qırğına verildiyini bildikdə atəşi dayandırdılar. Xeyli malakan-rus hərbi dəstələri də eyni qaydada aldadılaraq, Muğandan Bakıya gətirilmişdi. Lakin onlar şəhərdə ayrı vəziyyət olduğunu görüb döyüşdən imtina etdilər və buna görə Bakı Soveti və erməni qoşunları tərəfindən tərksilah olundular.

Martın 31-də bütün erməni hərbi dəstələrinin başçıları İnqilabi Müdafiə Komitəsinin qərargahına gəldilər. Onlar qısa vaxtda təlimatlandırılaraq müsəlman məhəllələrinə göndərildilər. Yaxşı silahlanmış və hazırlanmış erməni əsgərləri müsəlmanların evlərinə soxulur, sakinləri öldürür, onları xəncər və süngü ilə doğrayır. Bir çox müsəlman məhəllələri məhv edildikdən sonra, axşamüstü İçərişəhərin alınması əməliyyatı başlandı. Nikolay (indiki İstiqlaliyyət) küçəsilə hücuma keçmiş erməni əsgərlərinə erməni ziyalılarının nümayəndələri rəhbərlik etmişdilər.

Beləliklə, 30 mart-1aprel qətl və qarətlərindən sonra, Fövqəladə İstintaq Komissiyasının hesabatına görə, Bakıda "əksinqilabçı" adı ilə 12 min nəfər azərbaycanlı qətlə yetirilmişdi. Təzə Pir məscidinin yanında ağır mənzərə vardı.Məscid atəşdən zərər çəkmişdir. Martın 31-i saat 4-də azərbaycanlı partiya və cəmiyyətlərin nümayəndələri danışıqlar aparmaq üçün "Astoriya" mehmanxanasına getdilər.

İclasda Caparidzenin elan etdiyi ultimatum bütövlükdə "Müsavat" partiyasına qarşı yönəlmişdi. Uzun mübahisələrdən sonra atəşkəs haqqında saziş bağlanır. Buna baxmayaraq, erməni və sovet hərbi dəstələri hücumları aprel ayının 2-si axşamına qədər davam

etdirdilər, hətta İsmailiyyədəki yanğını söndürməyə gələn müsəlman əhalisini yenidən atəşə tutdular. Şəhərin sağ qalan azərbaycanlı əhalisi kütləvi surətdə şəhəri tərk etməyə başladılar.

Mart qətliamından sonra 1918-ci ilin sentyabrına qədər müxtəlif koalisiyalarda olan ermənilər Bakıda tüğyan edirdilər, imkansızlıq ucbatından şəhəri tərk edə bilməyən və ətraf kəndlərdə yaşayan əhalini əzabla qırır, işgəncələr verirdilər. Bakıda törədilən türk-müsəlman soyqırımının saxtalaşdırılmasına, ona "vətəndaş müharibəsi" donu geydirilməsinə, qətl edilənlərin sayının azaldılmasına ilk cəhdi bu hadisələrin təşkilatçısı S.Şaumyan etmişdir. Mart qırğınından bir il sonra ermənilər bu hadisəni bolşeviklərlə müsəlmanlar arasında baş vermiş hakimiyyət mübarizəsi kimi təqdim etməyə başladılar. Azərbaycan-müsəlman soyqırımı təkcə Bakı ilə məhdudlaşmadı. Bakıda törədilmiş cinayətlər aprel ayının ilk günlərindən etibarən eynilə Şamaxı, Quba, Xaçmazda törədildi. Azərbaycanın qəzalarına "sovet qoşunları" adı altında göndərilən cinayətkar dəstələrə quldur erməni hərbçiləri T.Əmiryan, H.Amazasp rəhbərlik edirdilər. Daşnak cəlladlarından ən ağır ziyan çəkən Şamaxı qəzası oldu.

Şamaxı qəzasında baş verən hadisələr "Qanlı mart təqvimi"ndə xüsusi səhifə təşkil edir. Hələ martın əvvəllərində S.Lalayevin başçılığı ilə Şaumyandan bilavasitə təlimat almış dəstə Bakıdan Şamaxıya toplar, pulemyotlar və böyük miqdarda hərbi sursat gətirmişdi. Lakin həmin dəstə gətirdiyi sursatı və silahı Şamaxı qarnizonuna verməkdən imtina etmiş və bildirmişdi ki, "onların məqsədi Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyat bərpa etməkdir".

Martın 15-də S.Lalayevin dəstəsi Şamaxıya hücum edərək, şəhərin müsəlmanlar yaşayan hissəsini top atəşinə tutdu. Bu atışma

nəticəsində dinc əhali arasında çoxlu sayda tələfat oldu. Yalnız axşama yaxın şəhərdə bir qədər sakitlik yarandı.

Martın 18-də Şamaxı gecə ikən cənubdan ermənilər, şimal-şərqdən isə malakanlar tərəfindən mühasirəyə alındı. Onlar şəhərin müsəlman hissəsini bombalamağa başladılar. Müsəlmanlar topların qarşısında dayana biləcək vəziyyətdə olmadıqlarından geri çəkildilər. Ermənilər və malakanlar axşama yaxın şəhərin ən varlı hissəsi "Piran-Şirvan"a daxil oldular. Evlər yandırılır, yanan evlərdən qaçan hər kəs güllələnirdi. Dəstənin quldur üzvləri evlərə soxularaq, sakinləri öldürüb qarət edirdilər. Bu vəhşiliklər Gəncədən silahlı türk-müsəlman dəstəsi Şamaxı əhalisinin köməyinə gələnə qədər bir neçə gün davam etmişdi. Şamaxı qırğınlarında 8 min nəfərə qədər azərbaycanlı öldürüldü. 1918-ci ilin Mart qanlı hadisələrindən sonra Şamaxı şəhəri uzun müddət özünə gələ bilmədi. Quba qəzasında qırğın törədən quldur cəza dəstəsinə S.Şaumyanın xüsusi səlahiyyətlər verdiyi Hamazasp rəhbərlik edirdi. Aprel ayında qəzanın 122 müsəlman kəndi dağıdılmış, yüzlərlə azərbaycanlı məhv edilmişdi. Göyçay, Kürdəmir, Salyan və Lənkəran bölgələrinin əhalisi də erməni cəza dəstələrindən ciddi ziyan çəkmişdi. 1918-ci ilin mart-aprel aylarında kütləvi qanlı qırğınlar törətmək məqsədilə "sovet hakimiyyəti"nin daşnak-bolşevik dəstələri Bakı quberniyasından sonra Azərbaycanın digər ərazilərini işğal etmək fikrində idi. Bakı, Şamaxı, Kürdəmir, Salyan, Quba, Lənkəran şəhərlərini zəbt edib hədəf Yelizavetpolu (Gəncəni) ələ keçirmək idi. Bunu S.Şaumyan may ayında Xalq Komissarları Sovetinə məlumatında da etiraf etmişdi.

1918-ci il aprelin 22-də müsəlman fraksiyasının təzyiqi altında Cənubi Qafqaz Seyminin geniş iclası keçirildi və müstəqil, demokratik federativ Cənubi Qafqaz Respublikasının elan olunması haqqında qətnamə qəbul edildi. Aprelin 20-də Y.Gegeçkorinin

başçılıq etdiyi Cənubi Qafqaz hökuməti istefa verdi. Güc nazirlikləri və Xarici İşlər Nazirliyi gürcülərin əlində cəmləşdi. Bu isə onlara hökumətin siyasətinə ciddi təsir göstərmək imkanı verirdi.

Cənubi Qafqazda vəziyyət getdikcə pisləşirdi, çünki müstəqilliyini elan etməsindən sonra Cənubi Qafqaz Federativ Respublikasının nə daxili, nə də xarici siyasətində ciddi bir dəyişiklik baş verməmişdi. Siyasi partiyaların nümayəndələri Cənubi Qafqaz Seymində ümumi dil tapa bilmirdilər, onların ümumi fəaliyyət proqramı yox idi və fraksiyaların hər biri isə öz siyasi xəttini həyata keçirməyə çalışırdı. 1918-ci il mayın 11-də Batumda Cənubi Qafqaz və Türkiyə arasında nümayəndə heyətləri səviyyəsində danışıqlar davam etdirildi. Azərbaycanı M.Ə.Rəsulzadə və M.H.Hacınski təmsil edirdilər. Türkiyə tərəfinin təmsilçilərinə Xarici işlər naziri Xəlil paşa, Qafqaz cəbhəsi komandanı Vahib paşa və Hərbi nazir Ənvər paşa başçılıq edirdilər, Batum konfransında Cənubi Qafqaz Seyminin nümayəndə heyəti Türkiyənin Qars, Ərdəhan və Batum əyalətləri haqqında tələblərini tamamilə tanıdı və bununla da Brest-Litovsk müqaviləsinin müddəasını təsdiq etdi. Bundan əlavə, Türkiyə Axalsıx, Axalkələk, Aleksandropol (Gümrü), Sürməli və Naxçıvan qəzalarının daxil olduğu ərazini də tələb edirdi.

1918-ci il mayın 25-də Cənubi Qafqaz Seyminin müsəlman fraksiyasının iclası keçirildi. İclasda Cənubi Qafqazda siyasi vəziyyətin dəyişilməsi ilə əlaqədar bəyanatda deyilirdi ki, Cənubi Qafqaz Seyminin gürcü fraksiyası, gürcü sülh nümayəndə heyəti üzvləri Batumda gizli danışıqlar aparır, ayrılmağa və Gürcüstanın müstəqilliyini elan etməyə hazırlaşırlar. Cənubi Qafqaz Seyminin sədri və üzvləri - K.Çxeidze, A.Sereteli və Y.Gegeçkori gözlənilmədən 1918-ci il mayın 25-də F.Xoyskinin sədrliyi ilə keçirilən axşam iclasına gəldilər. A.Sereteli gürcü fraksiyası adından bəyanat verərək xüsusi qeyd etdi ki, "...Cənubi Qafqaz xalqlarını

müstəqillik şüarı ətrafında birləşdirmək mümkün olmadı və onun parçalanması faktı göz önündədir. Seymin sabahkı iclasında biz Cənubi Qafqaz Respublikasının ləğv olunması faktını təsdiq edəcəyik". Cavab nitqində F.Xoyski bildirdi ki, "bizim ona mane olmağa haqqımız yoxdur. Azərbaycan türklərinə isə yeni vəziyyətlə bağlı olaraq müvafiq qərarlar qəbul etməkdən başqa bir şey qalmır". Gürcüstan nümayəndə heyəti iclası tərk etdikdən sonra Cənubi Qafqaz Seyminin müsəlman fraksiyası qətnamə qəbul etdi və orada bildirdi ki, Gürcüstan öz müstəqilliyini elan etdiyi halda, biz də öz tərəfimizdən Azərbaycanın müstəqilliyini elan etməliyik. 1918-ci il mayın 26-da Cənubi Qafqaz Seyminin son iclası oldu. Gürcü fraksiyası Cənubi Qafqaz Respublikasının dağılmasının bütün günahını müsəlman fraksiyasının üstünə yıxdı. Onların fikrincə, müsəlman fraksiyası türkpərəst mövqe tutduğu üçün elə vəziyyət yaranmışdır ki, gürcülər onlarla artıq əməkdaşlıq edə bilməzdi.

Buna görə də müsəlman fraksiyası belə vəziyyətdə Seymin özünü buraxmasına etiraz etmədi. Beləliklə, hakim qüvvələrin təzyiqi altında yaradılmış Cənubi Qafqaz Respublikası daxili ziddiyyətlərin kəskinləşməsi nəticəsində dağıldı.

XXIII FƏSİL
XX YÜZİLLİYİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ (1901-1917-Cİ İLLƏR).

Cədvəl : 1.

1915-ci il yanvarın 1-də Bakı və Yelizavetpol quberniyaların Xalq Təhsili Nazirliyinin sərəncamında olan məktəblərin sayı:
Cəmi : 103 şəhər məktəbi, 609 kənd ibtidai məktəbi
Cəmi: 46.530 şagird: onlardan 15.776 nəfər azərbaycanlı (34%) idi.

Maarif. XX yüzilliyin əvvəllərində olan sosial-iqtisadi yüksəliş xalq təhsilinin inkişafına da təkan verdi. Təhsil sistemindəki ruslaşdırma siyasəti şagirdlərin dini-monarxist tərbiyə prinsiplərindən kənara çıxmasına yol vermirdi. Çünki çar Rusiyasının müstəmləkəçi mənafeyi təhsil-xalqın maariflənməsi kimi strateji bir sahəni özünə əlverişli bir istiqamətdə qurub dəyişdirməyi tələb edirdi.

Xalq maarifinin inkişafı çarizmin bilərəkdən yaratdığı bir sıra maneələrdən keçməli olurdu. Onlardan birincisi, hökumətin maarifə buraxdığı vəsaitin məhdudluğu idi. Cənubi Qafqazda polisi saxlamaq üçün ildə orta hesabla 4,4 milyon rubl xərcləyən hökumət xalq maarifinin ehtiyacları üçün ən çoxu 1,7 milyon rubl ayırırdı.

1903-cü il siyahıyaalmasının məlumatlarına görə, Azərbaycanın inkişaf etmiş sənaye mərkəzi Bakıda əhalinin 53,3%-i tamamilə savadsız idi, həm də bu siyahıda azərbaycanlılar sonuncu yeri tuturdular (19,3%).

Kəndlərdə yaşayanlar öz uşaqlarını ənənəyə uyğun olaraq mollaxanalara verir, onların doğma dildə savadlanmasına və dini tərbiyəsinə ümid bəsləyirdilər. Əvvəllər olduğu kimi, rus məktəblərinə daxil olana qədər mollaxanalara getmək təcrübəsindən istifadə olunurdu.

XX yüzilliyin əvvəlində məktəblər azərbaycanlı uşaqların xeyli hissəsini əhatə edirdi. Təkcə Yelizavetpol quberniyasında 1914-cü ilin sonunda 192 müəllimi və 5188 şagirdi olan 153 məktəb var idi.

Şuşada (1901-ci il), Gəncədə (1906-cı il), Bakıda (1907-ci il) yeni mədrəsələr açılmışdı.1914-cü ildə Gəncə mədrəsəsində beş müəllimin rəhbərliyi altında 110 şagird dini fəaliyyətə, habelə arzularından asılı olaraq, məktəblərdə dərs deməyə hazırlanırdılar.

Köhnə məktəblər öz mövqelərini itirir, yeni üsulla işləyən məktəblər tərəfindən sıxışdırılırd. Yeni üsullu məktəblər 1900-cü ildə Şamaxı qəzasının Mərəzə kəndində, 1905-ci ildə Salyanda, 1907-ci ildə Lənkəranda, 1908-ci ildə Şamaxı və Ağdaşda, 1909-cu ildə Şəki, Gəncə, Gədəbəy və Balakəndə, 1913-cü ildə Qax və Zaqatalada açıldı.

Bəzi hallarda məsələn, yerli əhalinin xahişi ilə, onlara rus dili müəllimləri də dəvət olunurdu.Uşaqları, xüsusən qızları ümumtəhsil ibtidai məktəblərinə cəlb edənlərə qarşı mübarizə aparan mövhumatçı müsəlman ruhaniləri yeni üsullu məktəblərə qarşı çıxır, onları "islam ruhuna zidd" hesab edir, müəllimləri ənənəvi təhsil üsulundan əl çəkmələrinə görə günahlandırıb lənətləyirdilər.

Hökumət ruhani məktəblərində tədris prosesinin gedişinə qarışmır, xalq arasında böyük təsiri olan müsəlman ruhanilərini narazı salmaqdan çəkinirdi.

Azərbaycanda məktəb şəbəkələrinin genişlənməsi ibtidai məktəblər hesabına baş verirdi. 1914-cü ildə Bakı quberniyasında 448 ibtidai məktəbdən yalnız 28-i ikisinifli, qalanları isə birsinifli idi. Şəhər məktəblərinin çoxu Bakı şəhərində idi və 1914-cü ildə onlarda 1942 şagird təhsil alırdı.

1915-ci il yanvarın 1-də Bakı və Yelizavetpol quberniyalarında Xalq Təhsili Nazirliyinin sərəncamında 103 şəhər və 609 kənd ibtidai məktəbi var idi. Bu məktəblərdə 46.530 şagird təhsil alırdı ki, onlardan 1.427 nəfəri qız (28,3%) və 15.776-sı (34%)azərbaycanlı idi.

Məktəbyaşlı uşaqların 9, %-i ibtidai məktəblərdə təhsil alırdı. Məktəb binalarının çatışmazlığı və bir çox yerlərdə ümumiyyətlə yoxluğu da xalq təhsilinin inkişafına mane olurdu. 1914-cü ildə Bakı quberniyasında 377 məktəbdən yalnız 137-nin (33,6%), Yelizavetpol quberniyasında isə 325 məktəbdən 68-nin (20,9%) öz binası var idi. Qalan məktəblər kirayəyə götürülmüş evlərdə yerləşirdi ki, onların da

çoxu məktəb üçün yararsız olub sanitariya-gigiyena tələblərinə cavab vermirdi.

XX yüzilliyin əvvəllərində Azərbaycanda həmçinin kilsə-məhəllə məktəbləri də fəaliyyət göstərirdi. Onlar əsasən xaçpərəst əhali üçün olan pravoslav və erməni (qriqoryan) məktəbləri idi.

Azərbaycanda 1912-ci il Əsasnaməsinin tətbiqi ilə əlaqədar olaraq, biliklərə artan tələbatı ödəmək iqtidarında olmayan şəhər məktəbləri əsasında ali ibtidai məktəblər adlanan təhsil ocaqları yaradıldı.

Yeni məktəblər dördillik idi və 3-4 sinifli ibtidai məktəblərin sonrakı pilləsini təşkil edirdi. Dərslər ayrı-ayrı mövzular üzrə keçirilirdi. 1915-ci ilin başlanğıcında 12 ali ibtidai məktəb fəaliyyət göstərirdi. Onlardan biri Bakıdakı qadın ali ibtidai, ikisi qarışıq, qalanları isə kişi məktəbi idi. Bütün bu məktəblərdəki 1669 şagirdin çoxu kəndli silkinə daxil idi və yalnız 39% azərbaycanlı idi.

Hökumətin xalq təhsilinə olan xərcləri yerli idarə orqanlarının, müxtəlif cəmiyyətlərin, xüsusi firmaların hesabına keçirmək ənənəsi xeyli gücləndi. Bu, məktəblərin inkişafına mənfi təsir göstərirdi. Çünki çox vaxt məktəb vergilərini ödəməyə imkanı olmayan kəndlilər sərəncamlarına verilmiş məktəblərin saxlanılmasından boyun qaçırmaq məcburiyyətində qalırdılar.

Bakının mədən-zavod rayonunda məktəb şəbəkəsi çox yavaş genişlənirdi. 1905-ci ildə burada 20 məktəb var idi və məktəbyaşlı uşaqların cəmi 36%-i məktəbə gedirdi.

Xalq Maarifi Nazirliyi sistemində rus-tatar (rus azərbaycanlı) məktəbləri də var idi və onlar Azərbaycanda milli-azadlıq hərəkatı prosesində meydana çıxmışdı. Rus dilini bilməyən azərbaycanlılara bu məktəblər daha əlverişli idi. Belə məktəblərdə Azərbaycan dilini bilənlər dərs deyirdilər. Burada ana dili nəinki icbari fənn idi, hətta qismən tədris dili kimi istifadə olunurdu.

Rus-tatar məktəbləri vaxt ötdükcə birsiniflidən ikisinifliyə çevrilirdi. 1914-cü ildə Bakıda 12 rus-tatar məktəbi var idi ki, onlardan 3-ü qızlara məxsus idi. Çox vaxt ayrı-ayrı adamların təsis etdiyi məktəbləri səhvən rus-tatar məktəbi adlandırırdılar. Halbuki

onlarda fars və ərəb dilləri tədris olunurdu ki, bu da nazirlik məktəblərində qadağan idi.

Azərbaycan məktəblərinin qabaqcıl xadimləri rus-tatar məktəblərinin geniş yayılmasına çalışır, bununla təhsilin səviyyəsini qaldırmaq, bu məktəbləri bitirənlərin orta, hətta ali təhsil almalarına şərait yaratmaq istəyirdilər.

XX yüzilliyin əvvəllərində qadınlar üçün dünyəvi təhsil ocaqları meydana çıxdı. 1901-ci ildə Bakıda ilk rus-müsəlman qadın məktəbinin təntənəli açılışı oldu. Bu,ölkənin xalq təhsili tarixində mühüm mərhələ idi. H.Z.Tağıyev Rusiya imperatorunun arvadı şərəfinə "Aleksandrinskaya" adlanan qız məktəbi açdı. H.Z.Tağıyev bu işi həyata keçirmək üçün 1896-cı ildən müxtəlif hakim dairələrə, hətta imperatora müraciət etmiş və nəhayət 5 ildən sonra onun açılmasına nail olmuşdu.

Bu məktəb H.Z.Tağıyevin banka qoyduğu 125.000 manatdan gələn faiz və məktəbə daxil olmuş qızların təhsil haqqı hesabına saxlanılırdı.

Məktəbin birinci ilində H.Z.Tağıyevin başçılığı altında ilk Qəyyum Şurası yaradıldı. Onun müavini Sona xanım Tağıyeva, üzvləri H.Zərdabi, Ə.M.Topçubaşov idilər. İlk müdir Hənifə xanım Məlikova oldu. Məktəbin ştatına müdirdən başqa 9 müəllim və şəriət müəllimi daxil idi. Dini tərbiyəyə çox fikir verilirdi. Məktəbin sinif otaqlarından biri ibadət üçün ayrılmışdı.

Tağıyevin birsinifli qız məktəbi 1913-cü ildə ikisinifli, 1916-cı ildə isə ali ibtidai məktəbə çevrildi. Bu məktəbi bitirənlərə öz təhsillərini gimnaziyada davam etdirmək imkanı verilirdi.

Rus-tatar məktəbləri sayca azlığına, tədris proqramının isə məhdud olmasına baxmayaraq, Azərbaycanda qadın təhsilinin əsasını qoymaqla yanaşı, milli məktəblər üçün yetkin müəllimlər hazırlanmasında əhəmiyyətli xidmət göstərmişdi. Anadilli milli məktəb uğrunda mübarizə aparan qabaqcıl Azərbaycan ziyalıları yeni üsullu məktəblərin və rus-tatar məktəblərinin təcrübəsinə istinad edirdilər.

1906-cı ildə keçirilmiş I müəllimlər qurultayının qərarlarında qadın təhsili məsələsinə xüsusi maddə ayrılmışdı. Qurultay xalq məktəbinin konkret inkişaf proqramını qəbul etdi: Azərbaycanda məktəb şəbəkəsinin genişləndirilməsi, milli dilin - Azərbaycan türkcəsini öyrənməyin icbariliyi və onun yeni tədris proqramı və vahid metodunun hazırlanması,qadın təhsilinin inkişafı, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması.

İbtidai məktəblər üçün azərbaycanlı müəllimlər əsasən Qori və İrəvan seminariyalarında hazırlanırdı. Azərbaycan əhalisi arasında məktəb müəllimləri hazırlanmasında Qori seminariyasının "Tatar" - türk-müsəlman şöbəsinin olduqca böyük rolu olmuşdu. Azərbaycan ictimaiyyəti uzun müddət Qori Müəllimlər Seminariyasının türk-müsəlman bölməsinin Azərbaycanın şəhərlərindən birinə köçürülməsi və ya başqa bir seminariyanın açılması uğrunda mübarizə aparırdı.

Nəhayət, 1914-cü ildə Gəncə şəhərində müəllimlər seminariyası açıldı. İki ildən sonra, yəni 1916-cı ildə belə bir seminariya Bakı şəhərində fəaliyyətə başladı. Yalnız 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu bölmənin əsasında Qazaxda müəllimlər seminariyası açdı. Bu seminariyada milli məktəblər üçün peşəkar müəllimlər hazırlanmalı idi.

Ərəb əlifbasının çətinliyi və onun islahatının zəruriliyi M.F. Axundovun ardınca M.D.Şahtaxtinski, F.Köçərli, Ə.M.Topçubaşov və başqaları tərəfindən irəli sürülürdü. Bu problem 1907-ci ilin avqustunda Bakıda keçirilmiş II Azərbaycan müəllimlər qurultayının da diqqət mərkəzində olmuşdu.

1906-cı ilin avqustunda H.Z.Tağıyevin başçılığı altında Bakı quberniyasının müsəlman əhalisi arasında təhsili yayan cəmiyyət - "Nəşri-maarif" fəaliyyətə başladı. Cəmiyyəti dəstəkləyən məşhur sahibkarlar Ş.Əsədullayev, M.Muxtarov, M.Nağıyev və H.Z.Tağıyev onun fəxri üzvləri seçildilər.

Azərbaycanda orta təhsil ciddi təşkilat və maliyyə çətinlikləri ilə rastlaşdığı üçün zəif inkişaf edirdi. 1910-cu ilə qədər Bakıda cəmisi iki orta təhsil müəssisəsi var idi: realnı məktəbi və gimnaziya. 1918-

ci ilə qədər Azərbaycanda heç bir orta məktəbdə tədris ana dilində aparılmırdı.

Bakı bazar günü məktəbləri mövcud idi ki, onların da əsas heyəti milliyyəti, yaşı, peşəkarlıq səviyyəsi müxtəlif olan şəxslərdən ibarət idi. Dinləyicilərin çoxu rus dilini öyrənmək, ümumi savad sahibi olmaq istəyirdilər.

1907-ci ildə rus-tatar məktəbi nəzdində cümə günü məktəbi açıldı. Onun 278 dinləyicisindən 245-i azərbaycanlı idi.

Beləliklə, XX yüzilliyin əvvəllərində Azərbaycanda müxtəlif növ məktəblərin, ilk növbədə, ibtidai təhsil şəbəkəsinin dairəsi genişlənmiş, təhsil alanlar içərisində azərbaycanlıların sayı xeyli artmışdı.

1915-ci ilin başlanğıcına qədər Bakı və Yelizavetpol quberniyalarında və Zaqatala dairəsində 15.262 müsəlman şagird var idi ki, onların çoxunu azərbaycanlılar (o cümlədən 1.495 qız) təşkil edirdi. Müsəlman şagirdlər məktəbyaşlı uşaqların 10%-ni, qızlar isə bu növ təhsil alanların ümumi sayının onda bir hissəsini əhatə edirdi.

Çar Rusiyasının Azərbaycandakı təhsil sistemi onun müstəmləkəçilik siyasətinin strateji mexanizmi olduğu üçün azərbaycanlıların ana dilində təhsil almalarına imkan verilmirdi. Buna görə də ümumtəhsil məsələsi ölkənin qabaqcıl ictimaiyyətinin təzyiqi ilə müzakirə edilsə də, onun həll edilməsi üçün hökumət tərəfindən heç bir ciddi iş görülmədi. Xalq təhsili sistemində şagirdlərin Azərbaycan dilində təhsil almasına imkan məhdud idi.

Elm. XX yüzilliyin əvvəllərində Azərbaycan elmi fikri də inkişaf edirdi. Görkəmli darvinşünas alim, Azərbaycanda müasir elmi biologiya, təbabətin və təbiətşünaslığın əsasını qoymuş H.Zərdabi təbiət elmləri sahəsində böyük iş görürdü.

1905-ci ildə Mustafa bəy Əlibəyovun Azərbaycan dilində Bakı neftinə həsr olunmuş ilk kitabı çıxdı.

1912-ci ildə Moskva Universitetinin məzunu M.Y.Cəfərov hüquq elmləri üzrə elmi dərəcə almışdı.

Paris Sorbonna Universitetinin məzunu olan Ə.Ağayevin tədqiqat dairəsi olduqca geniş idi: antik fəlsəfə və ədəbiyyat,

zərdüştilik və "Avesta", Rusiyada və Şərq ölkələrində ictimai-siyasi hərəkatlar və s.

Öz dövrünün çox tanınmış mütəfəkkirlərindən biri Əli bəy Hüseynzadə Peterburq Universitetinin fizika-təbiət fakültəsində oxumuş, Şərq fakültəsində mühazirələr dinləmişdi. Onun elmi yaradıcılığında sosiologiya və tarix, fizika və təbiətşünaslıq, ədəbiyyatşünaslıq və fəlsəfə, psixologiya və dilçilik məsələləri öz əksini tapmışdır.

C.Məmmədquluzadə hərtərəfli və dərin biliyə malik şəxsiyyət idi.

XX yüzilliyin əvvəlinin tarixşünaslığı Rəşid bəy İsmayılovun "Qafqazın qısa tarixi", Şeyx Həsən Mollazadə Gəncəvinin dördcildlik "Zübdət ül-təvarix" ("Tarixlərin qaymağı"), Mirzə Rəhim Fənanın "Qarabağın yeni tarixi" əsərlərilə zənginləşdi.

N.Nərimanovun da əsərlərində tarixi mövzulara müəyyən dərəcədə yer verilmişdir.

XIX yüzilliyin sonu - XX yüzilliyin əvvəllərində Azərbaycan elmi fikrinin görkəmli nümayəndələri sırasında M.Şahtaxtinski fərqlənirdi. Tarixçi, şərqşünas, etnoqraf M.Ə.Şahtaxtinski Sorbonna Universitetinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmiş, ərəb, fars, rus, fransız, alman dillərini kamil öyrənmişdi.

1910-cu ildə Qafur Rəşad Mirzəzadənin Qafqazın coğrafiyasına dair kitabı nəşr olunmuşdu. 1914-1915-ci illərdə Yusif Əliyevin və Fərhad Ağazadənin Avropa ölkələrinə həsr olunmuş coğrafiya əsərləri çap edilmişdi.

XX yüzilliyin əvvəlləri Azərbaycan ədəbiyyatı tarixi elminin təşəkkülü ilə əlamətdardır. Onun əsasını F.Köçərli qoymuşdu. O,"Azərbaycan türklərinin ədəbiyyatı" adlı üçcildlik əsərin müəllifidir.

Azərbaycan ədəbiyyatı tarixi ilə Abdulla Şaiq da məşğul olmuş, üçcildlik "Türk ədəbiyyatı tarixi" əsərini nəşr etdirmişdi. Bu istiqamətdə M.M.Nəvvab da xeyli iş görmüşdü. Onun XIX əsr Qarabağ şairlərinə həsr olunmuş təzkirəsi böyük maraq doğurur.

Ədəbiyyat tarixinin tədqiqi Ceyhun Hacıbəyovun yaradıcılığında əhəmiyyətli yer tuturdu. O, ilk dəfə Azərbaycanın qadın şairlərinin irsini toplayıb öyrənmiş, onları rus dilinə tərcümə etmiş və 1911-ci ildə "Kaspi" qəzetində dərc etdirmiş, sonralar isə fransız dilində Parisdə ayrıca kitab kimi buraxdırmışdı.

Bu dövrdə dilçilik elmi xeyli inkişaf etmişdi. Böyük dilçi alim S.M.Qənizadə Azərbaycan, rus, fars və ərəb dilləri üzrə bir çox vəsaitin müəllifidir. O, 1890-1904-cü illərdə Azərbaycan-rus dili lüğətləri tərtib etmiş, elmi-pedaqoji əsərlər yaratmışdır. Həmçinin A.Səhhət, S.S.Axundov, A.Şaiq, M.Mahmudbəyov ana dili və ədəbiyyatı dərslikləri hazırlamışdılar. Şair, maarif xadimi, Naxçıvanda yeni tipli məktəbin yaradıcısı olan M.Sidqi pedaqogika elminin nəzəriyyəçisi kimi də məşhur idi.

Neft haqqında elmin inkişafında qabaqcıl rus alimləri mühüm rol oynamışdılar. Görkəmli geoloq alimlərdən V.Qolubyatnikov və İ.M.Qubkinin Azərbaycanda neft yataqlarının geoloji cəhətdən öyrənilməsində böyük xidmətləri olmuşdur.

Mətbuat.XX yüzillik Azərbaycan mətbuatı tarixində mühüm mərhələni təşkil edir. 1898-ci ildə Qafqazda nəşr olunan 41 adda dövri nəşrdən 5-i (12%) Bakının payına düşürdü ki, bu da Cənubi Qafqazda rus dilində nəşr olunan qəzet və jurnalların 20%-ni təşkil edirdi.

Əgər gürcü və erməni dillərində 13 mətbuat orqanı çıxırdısa, Azərbaycan dilində, milli ziyalıların bu istiqamətdə çalışmalarına baxmayaraq, heç bir mətbuat orqanı yox idi. 1903-cü ildə Tiflisdə Qafqazda Azərbaycan dilində yeganə qəzet - "Şərqi-Rus" çıxmağa başladı.

1905-1907-ci illər inqilabı mətbuat sahəsində çarizmi müəyyən güzəştlərə getməyə məcbur etdi. Həmin illərdə Bakıda Azərbaycan dilində 11 yeni mətbuat orqanı meydana çıxdı. "Molla Nəsrəddin" dərgisi ilə birlikdə onların ümumi sayı 12-yə çatmışdı. Azərbaycan jurnalistikasının banisi H.Zərdabinin "Əkinçi" qəzeti ilə başladığı estafet sonralar uğurla davam etdirildi.

Vaxtilə "Əkinçi" və "Ziya" qəzetləri ilə əməkdaşlıq etmiş N.Vəzirov, A.Adıgözəlov (Gorani), Mir Möhsün Nəvvab, S.M. Qənizadənin ədəbi fəaliyyəti milli mətbuatla bağlı idi.

"Şərqi-Rus" qəzetilə jurnalistlərin, publisistlərin və ədəbiyyatşünasların yeni nəslinin formalaşması başlandı. M.A. Şahtaxtinski, C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Ağayev, F.Köçərli, A.Səhhət, Ə.Nəzmi (Məmmədzadə), M.S.Ordubadi, Ö.F. Nemanzadə, Ə.Q.Nəcəfov (Qəmküsar), M.Ə.Rəsulzadənin əsərləri ana dilində nəşr olunurdu.

Milli mətbuatın inkişafında 1905-ci il iyunun 7-dən 1906-cı il sentyabrın 3-nə kimi Bakı şəhərində nəşr edilən "Həyat" qəzeti mühüm rol oynamışdı. Bu qəzet nəşr olunduğu zaman Qafqazın müsəlman əhalisi içərisində birinci, Krımda çap olunan "Tərcüman"dan sonra ikinci mətbuat orqanı olmuşdu. 1905-1907-ci illərdə "Füyuzat" jurnalı və "İrşad" qəzetinin çapdan çıxması əhəmiyyətli hadisə oldu. Bu orqanlar Azərbaycan ədəbiyyatında romantizmi formalaşdırdı.

O dövrün ən mühüm hadisələrindən biri də Tiflisdə satirik "Molla Nəsrəddin" jurnalının 1906-cı il aprelin 1-dən nəşrə başlaması oldu. Jurnal satirik mətbuatın əsasını qoydu, həmçinin demokratik fikrin inkişafında mühüm rol oynadı.

1905-1907-ci illərdə nəşr olunmuş "Təkamül", "Dəvət-Qoç","Yoldaş" qəzetləri ilə M.Əzizbəyov, T.Şahbazi (Simurq), C.Məmmədzadə (Əl-Dağıstani), "Bakı həyatı" ilə (1912) D.Bünyadzadə, Ə.Q.Rəsulzadə, H.Sultanov əməkdaşlıq edirdilər.

1907-1918-ci illərdə nəşr olunan əsas və aparıcı mətbuat orqanları "Tazə həyat", "Tərəqqi", "İttifaq", "Həqiqət", "İqbal", "Yeni İqbal" və başqa qəzetlər idi. Müsavat partiyasının orqanı "Açıq söz" (1915-1918-ci illər) qəzetinin mətbuat tariximizdə xüsusi yeri var.

"Molla Nəsrəddin"in ardınca onun təsiri altında "Arı", "Bəhlul", "Tuti", "Zənbur", "Məzəli", "Babayi-Əmir" satirik jurnalları nəşrə başladı.

Bu dövrdə Azərbaycan qadınları da jurnalistika fəaliyyətinə başladılar. Mətbuatda çıxış edən ilk azərbaycanlı qız Nabat

Nərimanova olmuş, onun birinci məqaləsi 1906-cı ildə "Dəbistan" jurnalında çap edilmişdi. İlk Azərbaycan qadın jurnalisti Şəfiqə Əfəndizadə bu məcmuədə fəal iştirak etmişdi. Azərbaycan qadınının jurnalistika mühitinə cəlb edilməsində 1911-1912-ci illərdə ana dilində Bakıda nəşr olunan ilk qadın qəzeti "İşıq"ın mühüm rolu oldu. Azərbaycan yazıçı və publisistləri Cənubi Qafqaz və Mərkəzi Rusiya mətbuat orqanlarında rus dilində də çıxış edirdilər.

Bu istiqamətdə Qafqazda ən kütləvi mətbuat orqanı olan "Kaspi" qəzetinin böyük rolu var idi. O, Azərbaycanda ictimai fikrin inkişafına əhəmiyyətli təsir göstərir, onun formalaşması prosesində milli ziyalıların iştirakına şərait yaradırdı.

1898-1905-ci illərdə Ə.Ağayev onun daimi əməkdaşı idi. Azərbaycan maarifçiləri və mətbuat işçiləri Cənubi Qafqazın rusdilli mətbuatında - "Qafqaz", "Zakavkazye", "Novoye obozreniye" və başqa qəzetlərin işində iştirak etməyə böyük əhəmiyyət verirdilər. Azərbaycanlı ziyalıların təşəbbüsü ilə bəzi mətbuat orqanlarında müsəlman şöbələri yaradılmışdı.

Qafqazdakı rusdilli mətbuatda sosial-mədəni məsələlər qaldırılır, Azərbaycan xalqının zəngin mənəvi ənənələri təbliğ olunurdu.

Tələbəlik illərində Fransa mətbuat orqanlarında Ə.Ağayev çıxış etmişdi. Ə.Ağayev Tehran qəzeti "Xurşud"da çıxış etmişdi.

Bakıda milli mətbuatın inkişafı Cənubi Azərbaycanda mədəniyyətin inkişafına əhəmiyyətli təsir göstərdi. 1906-1907-ci illərdə Təbrizdə 23 adda qəzet və jurnal nəşr edilirdi. Onlardan 20-si Azərbaycan türkcəsində, 3-ü isə Azərbaycan, türk və fars dillərində çıxırdı. Mirzə Ələkbərxan, S.M.Şəbüstəri görkəmli azərbaycanlı redaktorlar idilər. 1910-cu ildə M.Ə.Rəsulzadə İran Sosial-Demokrat Partiyasının orqanı olan "İrane-nov" ("Yeni İran") qəzetinin redaktoru olmuş, bu qəzetdə publisist kimi də çıxış etmişdi.

İri mətbuat orqanlarını azərbaycanlı sahibkarlar maliyyələşdirirdilər. Bu istiqamətdə H.Z.Tağıyevin xidməti xüsusi qeyd edilməlidir. "Kaspi", "Həyat", "Açıq söz" qəzetləri və "Füyuzat" jurnalı onun verdiyi vəsait hesabına çıxırdı. M.Muxtarov "Tərəqqi" qəzetini maliyyələşdirirdi.

1907-ci ildə Bakıda 24 mətbəə və litoqrafiya var idi. 1914-cü ildə onların sayı 35-ə çatdı. O dövrdə buraxılan mətbuatın böyük hissəsi Orucov qardaşlarının mətbəəsində çap olunurdu.

Gəncə, Şuşa, Lənkəran və Naxçıvanda kiçik mətbəələr var idi. C.Məmmədquluzadə və Ö.F.Nemanzadə Tiflisdə "Qeyrət" mətbəəsini təsis etmişdilər. Bu mətbəədə 1906-cı ildən "Molla Nəsrəddin" jurnalı çap olunurdu. Bu mətbəəyə tacir M.Bağırzadə böyük maddi yardım göstərmişdi.

Ədəbiyyat. Azərbaycan ədəbiyyatı da çoxcəhətli idi. Ədəbiyyatda tənqidi realizm aparıcı istiqamətə çevrilmişdi. Bu istiqamətin əsas meyli mütləqiyyətin mövcud dövlət quruluşunu ifşa etməkdən, qabaqcıl ictimai ideyaları yaymaqdan ibarət idi.

Realist Azərbaycan ədəbiyyatında xalq mövzusu mərkəzi yer tuturdu.Realistlər zəhmətkeşlərin həyatını olduğu kimi işıqlandırmağa çalışır, xalqı azadlıq mübarizəsinə çağırırdılar.

Azərbaycan tənqidi realizminin korifeylərindən olan C.Məmmədquluzadə Azərbaycan ədəbiyyatında realist hekayəçiliyin əsasını qoyanlardan biridir. Onun "Usta Zeynal", "Poçt qutusu", "Qurbanəli bəy", "İranda hürriyyət" və başqa hekayə və novellaları ədəbiyyatımızın qızıl fonduna daxil olmuşdur. Müəllifin çar hakimiyyətinə, Qərb imperializminə və Şərq despotizminə qarşı ən kəskin silahı satira idi.

C.Məmmədquluzadə 1917-ci ildə yazdığı "Cümhuriyyət" əsərində xalq hakimiyyətinin - demokratik respublikanın tələblərini irəli sürmüş, "Anamın kitabı" pyesində isə öz həmvətənlərində milli qürur hissi tərbiyə etməyə çalışmışdı.

Realist istiqamətin inkişafında dahi şair M.Ə.Sabirin müstəsna rolu olmuşdur. Sabir "Molla Nəsrəddin" jurnalının ən fəal müəlliflərindən biri olmuşdu. Tədqiqatçılar Sabir satirasının Saltıkov-Şedrin, Nekrasov, Beranje, Heyne satirası ilə ideya birliyini qeyd edirdilər.

Mirzə Ələkbər Sabir Dövlət Dumasının fəaliyyətini satira atəşinə tutur, çar məmurlarının özbaşınalığını və rüşvətxorluğunu ifşa

edirdi.1911-ci ildə ağır xəstəlikdən Şamaxıda vəfat etmiş böyük şairin ilk kitabı 1912-ci ildə "Hophopnamə" adı ilə nəşr olunmuşdur.

Bu dövrdə N. Nərimamovun ədəbi yaradıcılığı əsasən publisist istiqamət almışdı. Onun bədii ədəbiyyatda özünəməxsus yer tutan əsərlərindən biri də "Pir" povesti idi. 1915-ci ildə isə o, adi insanların ağır həyatından bəhs edən "Bir kəndin sərgüzəşti" hekayəsini nəşr etdirmişdir.

Azərbaycan ədəbiyyatında realizmin inkişafında Ə.Haqverdiyevin əsərlərinin böyük rolu olmuşdur. O "Pəri cadu" pyesini yazmış,"Ağa Məhəmməd şah Qacar" faciəsində böyük ustalıqla İrandakı despotik quruluşu tənqid atəşinə tutmuşdur.

Ə.Haqverdiyevin digər pyesi - "Xəyalat" M.F.Axundovun həyat və yaradıcılığına həsr olunmuşdur. Ə.Haqverdiyevin nəsr əsərləri içərisində "Cəhənnəm məktubları", "Mozalan bəyin səyahətnaməsi", "Marallarım", "Bomba", "Şeyx Şaban" əsərləri öz dəyərləri ilə fərqlənir.

Realist yazıçılar sırasına M.S.Ordubadi də daxil idi. O,"Molla Nəsrəddin" jurnalında xüsusilə fəal iştirak edirdi. 1907-ci ildə Ordubadi "Bədbəxt milyonçu" əsərini çap etdirmişdi.

"Molla Nəsrəddin" jurnalı ilə realist yazıçılardan Əliqulu Nəcəfov Qəmküsar da fəal əməkdaşlıq edirdi. Şairin bir çox şerləri İran və Türkiyədə baş vermiş inqilabi hadisələrə həsr olunmuşdu.

Bu məktəbin nümayəndələrindən Ə.Nəzmi, S.S.Axundov da var idi. Görkəmli yazıçı-dramaturq N.Vəzirov əsərlərində ailə və mənəviyyat məsələlərinə toxunmuş, "Keçmişdə qaçaqlar" pyesində isə çar üsuli-idarəsinə, yerli əsarətçilərə öz nifrətini bildirmişdir.

Birinci Dünya müharibəsi illərində Sabirin təsiri altında satirik şeirlər yazan C.Cabbarlı bir neçə dram əsəri, o cümlədən "Solğun çiçəklər" pyesini yazmışdı.İlk pyeslərində dramaturq qadınların acı həyatını təsvir edirdi. Onun "Nəsrəddin şah" pyesi İrandakı qəddarlığa və zülmə qarşı etirazın bədii ifadəsi idi. Bu illərdə yazdığı hekayələr içərisində "Mənsur və Sitarə" xüsusilə qeyd edilməlidir.

Öz yaradıcılığının ilk illərində S.M.Qənizadə realist ədəbiyyat mövqeyində dayanmış, "Allah xofu", "Qurban bayramı" əsərlərində

fəhlələrin acı həyatını, xalqın azadlıq uğrunda mübarizəsini əks etdirmişdir.

Bu ədəbi cərəyanın görkəmli nümayəndələrindən biri də Y.V.Çəmənzəminli idi. Hekayələrində müəllif zəhmətkeşlərin ağır vəziyyətini, qadınların acı taleyini, tələbə həyatının mənzərəsini verir, çar məmurlarının rüşvətxorluğunu ifşa edirdi.

C.Hacıbəyovun ədəbi yaradıcılığında ədəbiyyatımızın realist ənənələri davam etdirilmişdir. Dahi bəstəkar Ü.Hacıbəyov "Məşədi İbad" librettosunu yazmaq üçün bu povestdən istifadə etmişdir.

Bu dövrün digər ədəbi cərəyanı romantizm və onun ən görkəmli nümayəndəsi Əli bəy Hüseynzadə idi. Romantiklərin ədəbi yaradıcılığında tarixi keçmiş, din, xalqın azadlıq və istiqlaliyyət uğrunda mübarizəsi mövzuları əsas yer tuturdu.

Ə.Hüseynzadə öz baxışları ilə Azərbaycan ədəbiyyatına yeniliklər gətirməyə çalışırdı. O, lirik şeriyyətin yeni formaları, dastan janrının dirçəlməsi məsələləri barəsində danışırdı. Ə.Hüseynzadə tənqiddə və satirik əsərlərdə subyektivizmə mənfi münasibət bəsləyirdi. Onun fikrincə, həqiqi satira ictimai ideya daşımalı, şəxsi münasibətlərdən doğan hisslərdən, düşmənçilikdən uzaq olmalıdır. Tənqid hədəfi ayrı-ayrı şəxslər deyil, xalqın və cəmiyyətin nöqsanları olmalıdır

Müəllif "Molla Nəsrəddin" gülüşünü Qoqolun, Sviftin, Dikkensin kəskin gülüşü ilə yanaşı qoyurdu.Bunlara bənzər notlar Ə.Hüseynzadənin "Əbdi-Qlaf" (A.P.Çexovun "Qılaflı adam" hekayəsinə həsr etdiyi) povestdə və "Siyasəti-fürusət" traktatında özünü göstərirdi.

Ə.Hüseynzadənin publisistikasına azadlıq, bərabərlik, sülh, qardaşlıq ideyaları hopmuşdur. O, çarizmi və Şərq despotizmini, feodal geriliyini, dini fanatizmi tənqid atəşinə tuturdu. Bununla yanaşı, onun dilçilik üzrə mövqeləri mübahisə və polemika səciyyəsi daşıyırdı.

Romantiklərin başqa bir qrupu M.Hadi, H.Cavid, A.Səhhət, A.Şaiq, A.Divanbəyoğlu və başqalarının şəxsində təmsil olunmuşdu. Mütəfəkkir şair Məhəmməd Hadinin bədii irsi orijinal yaradıcılıq

xüsusiyyətlərinə malik idi.O,əsarət altında olan xalqların ədalətsizlik əleyhinə apardığı mübarizəyə və milli-azadlıq hərəkatına hüsn-rəğbət bəsləyən xeyli əsər yazmışdı.

1908-ci ildə onun şeirlərinin ilk külliyyatı "Firdovsi-ilhamat" adı altında çapdan çıxdı. Sonrakı illərdə Hadi poeziyası özünün döyüşkənlik ruhunu itirdi, pessimizmə meyilləndi.

Bu dövrdə Cavidin yaradıcılığında dramaturgiya mühüm yer tuturdu. O, Azərbaycan ədəbiyyatında şeirlə yazılmış ilk dram əsərinin müəllifidir. Müəllif "Ana", "Maral" və "Şeyda" pyeslərində şəxsiyyətin azadlığı problemini qaldırmış, düzgünlük, alicənablıq, mərdlik kimi insani keyfiyyətləri tərənnüm etmişdir.

Müəllifin "Şeyx Sənan" əsəri dərin fəlsəfi məzmunlu sənət incisidir. Cavid yaradıcılığında "İblis" faciəsi mühüm yer tutur. Burada dramaturq hiyləgərliyə, zorakılığa, qəsbkar müharibələrə özünün nifrətini izhar etmişdir.

Abbas Səhhət "Əhmədin qeyrəti" poemasında Bakı fəhlələrinin ağır əmək və həyat şəraitini, Cənubi Azərbaycan əhalisinin İran despotizminə qarşı mübarizəsini əks etdirməyə çalışmışdı. A.Səhhət eyni zamanda uşaqlar üçün əsərlər yazmış görkəmli pedaqoq kimi də məşhur idi.

Realist və romantik meyillərin çulğalaşması Abdulla Şaiq yaradıcılığı üçün səciyyəvidir. Bunu "Məktub yetişmədi" hekayəsində daha parlaq şəkildə görürük.

Haşım bəy Vəzirov məişət mövzusunda bir neçə məzhəkə yazmış, müstəmləkə üsuli-idarəsinə qarşı tənqidi münasibət ifadə etmişdi.İstedadlı şair Əhməd Cavadın ilk kitabı 1916-cı ildə nəşr olundu. Onun yaradıcılığı üçün romantik lirika səciyyəvi idi.

İncəsənət. Azərbaycan memarlıq sənətinin inkişafında da müəyyən irəliləyişlər oldu.Istedadlı memarlar - ilk azərbaycanlı mühəndis-memar Zivər bəy Əhmədbəyov, İ.Hacınski, N.Babayev, İ.Qoslavski, İ.K.Ploşko xeyli iş görmüşdülər. Onların yaradıcılığındakı milli-romantik istiqamət Azərbaycan memarlığında yeni inkişaf mərhələsinə çevrildi.

XX yüzilliyin əvvəlində M.Nağıyevin "İsmailiyyə" binasının, H.Z.Tağıyev və M.Muxtarova məxsus sarayların - memarlıq incilərinin tikilməsi yeni mərhələni xarakterizə edirdi. "Təzə pir" məscidi, polyak kilsəsi və yəhudi sinaqoqu, Tağıyevin qız məktəbi, realnı məktəb, kişi gimnaziyası, Kommersiya məktəbi, "Səadət" məktəbinin binaları Bakının yaraşığı oldu. Bir sıra tibb müəssisələri, o cümlədən Musa Nağıyevin xəstəxanası tikildi.

1903-cü ildə şəhərin dənizkənarı hissəsinin (bulvar) abadlaşdırılmasına başlandı. H.Z.Tağıyevin sifarişi ilə onun sarayı, müsəlman qız məktəbi, teatr (yanğından sonra), texniki məktəb, həmçinin toxuculuq fabriki və onun ətrafındakı fəhlə yaşayış məntəqəsi İ.V.Qoslavskinin layihələri əsasında tikilmişdi. Bu memar Bakı Şəhər Duması binasının da müəllifi olmuşdur.

M.Nağıyev və M.Muxtarovun sarayları İ.K.Ploşko, "Təzə pir" və Əjdər bəy Aşurbəyovun məscidləri Zivər bəy Əhmədbəyov tərəfindən tikilmişdir.

Milli teatr sənəti özünün yüksək inkişaf mərhələsinə qədəm qoydu. Daimi teatr truppalarının yaradılması mühüm əhəmiyyət kəsb edirdi. Onlardan biri Müsəlman Dram Artistlərinin Cəmiyyəti adlanırdı. Ə.Haqverdiyev ona həm başçılıq, həm də rejissorluq edirdi. Bu truppaların fəaliyyətində N.Vəzirov və N.Nərimanov da iştirak edirdilər.

Milli teatr sənətinin inkişafında "Nicat" cəmiyyətının mühüm rolu olmuşdu. Onun nəzdində aktyor və jurnalist Mehdi bəy Hacınskinin başçılıq etdiyi teatr bölməsi var idi.

Maarif cəmiyyəti "Səfa"nın nəzdində teatr qrupu fəaliyyət göstərirdi ki, ona da C.Zeynalov rəhbərlik edirdi.

Teatr tariximizdə milli səhnənin ilk peşəkar aktyoru olan H.Ərəblinskinin xüsusi yeri var. O, 1916-cı ildə nümayiş etdirilmiş "Neft və milyonlar səltənətində" adlı ilk Azərbaycan filminin yaradılmasında fəal iştirak etmişdi.

Bakının mədəni həyatında V.Vasilyev-Vyatski və V.Nikulinin teatr qrupları görkəmli rol oynayırdı. Bu kollektivlərin səyi

nəticəsində Azərbaycan dramaturqlarının (N.Nərimanovun "Nadir şah" pyesi) əsərləri ilk dəfə rus dilində tamaşaya qoyuldu.

XIX yüzilliyin 90-cı illərinin sonunda azərbaycanlı qızlar səhnədə görünməyə başladı.

Azərbaycan musiqisi iki istiqamətdə inkişaf edirdi. Onlardan biri aşıq yaradıcılığı, digəri isə xanəndə və sazəndələrin yaradıcılığı idi. Aşıq sənəti Qazax, Gəncə, Tovuz, Şəmkir, Kəlbəcər və Borçalı bölgələrində geniş yayılmışdı. Xanəndələrin içərisində Cabbar Qaryağdı oğlu, Seyid Şuşinski, Xan Şuşinski, Ələsgər Abdullayev, və başqaları çox məşhur idilər.

Milli operanın meydana çıxması yalnız Azərbaycanda yox, bütün müsəlman Şərqində çox böyük mədəni hadisə oldu. Onun yaradıcısı dahi Ü.Hacıbəyov Füzulinin "Leyli və Məcnun" poeması mövzusunda muğam operası yaratmaq arzusunu həyata keçirdi."Leyli və Məcnun" operasının ilk tamaşası 1908-ci il yanvarında göstərildi. Orkestrə Ə.Haqverdiyev dirijorluq edirdi. Operanın ilk tamaşasının müvəffəqiyyət qazanması Məcnun rolunu böyük ustalıqla oynayan H.Sarabskinin adı ilə bağlı idi. "Leyli və Məcnun" operasının yaranmasında, onun ilk tamaşasında aparıcı rollardan birini ifa etmiş Ceyhun Hacıbəyovun da əməyi böyük idi.

"Leyli və Məcnun"dan sonra Ü.Hacıbəyov 5 opera və üç musiqili komediya yaratdı. Onun "Əsli və Kərəm" operası, "O olmasın, bu olsun" və "Arşın mal alan" operettalarının tamaşaları da məşhurlaşmışdı

Zülfüqar Hacıbəyov da bir neçə opera və musiqili komediya yaratmışdı. Azərbaycanın peşəkar rəssamı Bəhruz Kəngərli idi. Onun çoxsaylı əsərləri arasında aparıcı yeri mənzərələr tuturdu. Satira qrafikası kimi yeni janrın ən parlaq nümayəndəsi Əzim Əzimzadə idi. O, M.Ə.Sabirin "Hophopnamə"sinə və A.Divanbəyoğlunun "Can yanğısı" romanına illüstrasiyalar çəkmişdi. Təsviri sənət sahəsində azərbaycanlı qadınların fəaliyyətə başlaması diqqətəlayiq hadisə idi. Onlar arasında birinci olan Qeysər Kaşiyeva yaradıcılığının ilk illərində Tiflis qadın xeyriyyə cəmiyyətinin mədəni tədbirləri üçün

afişalar və elanlar hazırlamış, sonrakı illərdə isə rəsm əsərləri - portretlər, mənzərələr yaratmışdı.

1913-cü ilin aprelində Bakıda açılan rəsm əsərlərinin ilk sərgisi şəhərin mədəni həyatında böyük hadisə oldu. Bu sərgidə onlarla Qafqaz rəssamının əsərləri nümayiş etdirilirdi.

Mədəni əlaqələr. XX yüzilliyin başlanğıcında əsası hələ əvvəlki əsrlərdə qoyulmuş Azərbaycan mədəniyyətinin başqa xalqların mədəniyyəti ilə əlaqədə olması ənənəsi daha da inkişaf edərək yeni formalarını meydana çıxartdı.

1904-cü ildə şərqşünas Lüsyen Buva ilk dəfə M.F.Axundovun "Hacı Qara" komediyasını fransız dilinə tərcümə edərək, lüğətlə "Aziatik" jurnalında çap etdirdi.

M.F.Axundovun pərəstişkarı və onun irsinin təbliğatçısı L.Buva fransız dilində çıxan şərqşünaslıq jurnallarının səhifələrində Azərbaycan mədəniyyətinə dair çap olunan əksər məqalələrin müəllifidir.

L.Buva "Şərqi-Rus" qəzeti ilə sıx əlaqə saxlayır, onun işini "Aziatik" jurnalında işıqlandırırdı. Həmin jurnalla M.Şahtaxtinski də əməkdaşlıq edirdi. Paris mətbuatı səhifələrində C.Hacıbəyov da çıxış edirdi. 1903-cü ildə "Fərhad və Şirin" poeması, 1908-ci ildə isə şeir nümunələri məcmuəsi gürcü dilində nəşr olundu.

Şair D.Kioişvili Azərbaycan dastanı əsasında yazdığı "Koroğlu" poemasının nəşrini başa çatdırdı. A.Sereteli Azərbaycan xalqının mədəniyyətinə əvvəlki kimi yenə də böyük diqqət yetirirdi. 1908-ci ilin dekabrında A.Seretelinin ədəbi fəaliyyətinin Bakıda qeyd olunması iki Cənubi Qafqaz xalqının dostluğunun əsil nümayişinə çevrildi. Rus şərqşünaslığının görkəmli nümayəndələrindən biri A.Y. Krimski Nizami irsinin tədqiqinə həyatının uzun illərini həsr etmişdi.

Rusiyada, eləcə də İran, Türkiyə və başqa Şərq ölkələrində qabaqcıl ictimaiyyətin diqqətini M.Ə.Sabirin yaradıcılığı daha çox cəlb edirdi. Onun əsərləri tatar, fars və başqa dillərə tərcümə olunmuşdu.

"Həyat" qəzetində vaxtaşırı çıxış edən məşhur tatar şairi Q.Tukay "Molla Nəsrəddin" jurnalı ilə sıx əlaqədə idi. "Molla Nəsrəddin"

jurnalı qabaqcıl tatar ictimai-siyasi fikrinin formalaşması və inkişafında mühüm rol oynamışdı.

Qabaqcıl ziyalıların nümayəndələri Azərbaycan ədəbi mühitinə təkcə Şərqin klassik irsini deyil, həmçinin rus və Qərbi Avropa ədəbiyyatının mütərəqqi ənənələrini gətirir, milli fikrin canlanmasına kömək edirdilər. Zəngin ənənələrin bu istiqamətdə inkişafında Azərbaycan mətbuatı mühüm rol oynayırdı. Ümumbəşəri mədəni dəyərlərin Azərbaycanda təbliğində "Kaspi" qəzetinin, xüsusən onun redaktoru Ə.Topçubaşovun, qəzetin aparıcı əməkdaşı Ə.Ağayevin çox böyük rolu olmuşdu. Ə.Hüseynzadə Şərq və Qərb ədəbiyyatından nümunələri Azərbaycan dilinə tərcümə edən böyük tərcüməçi idi. O, Xəyyamı, Şekspiri, Höteni, Şilleri, Bayronu, Heyneni, Hüqonu Azərbaycan türkcəsinə tərcümə etmişdi. Onun əməyi sayəsində Azərbaycan oxucusu ilk dəfə öz ana dilində "Faust" və "Hamlet"lə, eləcə də .Bodenştedt və başqalarının əsərlərilə tanış ola bilmişdi,

1901-ci ildə Bakıda Şekspirin "Otello" faciəsi çap olundu. Qərb yazıçılarının əsərlərinin tərcüməsi ilə A.Səhhət və M.Şahtaxtinski də məşğul olurdular.

Azərbaycan-rus mədəni əlaqələrinin ən geniş yayılmış forması bədii tərcümə idi, xüsusilə 1905-ci ildən sonra güclü ədəbi axına çevrilmişdi. Rus ədəbiyyatının tərcüməsi və nəşri genişlənirdi. İ.V.Krılovun əsərlərindən tərcümələr dərsliklərə daxil edilir, "Molla Nəsrəddin" jurnalında geniş istifadə olunurdu. A.S.Puşkinin 20-dən çox əsəri Azərbaycan dilinə tərcümə edilib nəşr olunmuşdu. M.Y.Lermontov yenə də Azərbaycanda məşhur idi. N.V.Qoqol, N.A.Nekrasov, L.N.Tolstoy, A.M.Qorki və başqalarının əsərləri Azərbaycan (türk) dilinə tərcümə edilirdi. Poetik tərcümə sahəsində peşəkar tərcüməçi A.Səhhətin adı xüsusilə qeyd olunmalıdır. Puşkin, Lermontov, Krılov şeirlərindən doğma dilə tərcümələr onun xüsusi xidmətidir. XX yüzilliyin əvvəllərində incəsənət sahəsində qarşılıqlı əlaqələr daha da inkişaf etdi. Bu istiqamətdə teatr, onun truppalarının qastrol səfərləri mühüm əhəmiyyət kəsb edirdi. Bu qastrollar bütün Qafqazı, Volqaboyunu, Türküstanı, Krımı, İranı (o cümlədən Cənubi Azərbaycanı) əhatə edirdi.

Ü.Hacıbəyovun operalarından Moskvada, Peterburqda səhnələr göstərilirdi. Onun "O olmasın, bu olsun" musiqili komediyası Tiflis artistləri və yerli həvəskarların iştirakı ilə Təbriz səhnəsində göstərildi. 1920-ci ildə C.Hacıbəyov "Arşın mal alan"ı fransız dilinə tərcümə edərək Parisdə tamaşaya qoydu.

Əlaqələrin səmərəli nəticələri özünü başqa sahələrdə də göstərirdi. Azərbaycanın böyük realist rəssamı Ə.Əzimzadənin bir rəssam kimi formalaşmasında məşhur rus rəssamı Maslovun böyük rolu olmuşdu. Rus klassik təsviri sənəti Azərbaycanın ilk peşəkar rəssamı Bəhruz Kəngərliyə böyük təsir göstərmişdi.

Ədəbiyyat

1. Azərbaycan qəzeti: 1918-1920-ci illər/ADA Universiteti. Bakı: Prestiqe çap evi, 2021.
2. Abdullayaev A.M. və B.Zərdabi yurdunun övladları. Bakı. 2002
3. Adıgözəlov Ə. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən . Bakı: 2003
4. Ağaoğlu Ə. Seçilmiş əsərləri. Bakı: 2007
5. Ağasiyev İ. XVIII əsrin sonu-XX əsrin əvvəllərində almanların Qafqazda məskunlaşması. Bakı: 2009
6. Allahmanov M.Q. Aşıq yaradıcılığının inkişaf mərhələləri. /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2008
7. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIIIəsrlər). Bakı: Elm və təhsil, 2014
8. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası I cild. Bakı: 2004.
9. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası II cild. Bakı:2005
10. Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı. Sənədlər toplusu. Üç cilddə. I cild, "26 Bakı komissarları"nın əsl tarixi. Bakı: Çaşıoğlu, 2009, 776 s.; II cild 1-ci kitab. Gəncə quberniyasında soyqırımı.1918-1920-ci illər. Bakı, 2011, 460s.; II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı. 1918-1920-ci illər. Bakı: 2011, 456 s.; IIIcild, Xatirələr. Bakı: 2010, 448s.
11. Azərbaycan mətbuat tarixi. (A.Şahverdiyev, Ə.Vəliyev). Bakı: Nurlan, 2010
12. Azərbaycan Milli Ensiklopediyası Bakı: 2007
13. Azərbaycan tarixi arxiv sənədlərində 1917-1920-ci illər. Icild, Bakı: Çaşıoğlu, 2010.
14. Azərbaycan tarixi arxiv sənədlərində XYIII-XXəsrin əvvəlləri. Icild. Rusiya Dövlət Hərbi Tarix Arxivinin sənədləri. Çaşıoğlu. Bakı: 2010
15. Azərbaycan tarixi üzrə qaynaqlar (S.Əliyarlı). Bakı: Çıraq, 2007
16. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilədək. İkinci nəşri (S.Əliyarlının red.ilə). Bakı: Çıraq, 2009
17. Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. Bakı: MBM, 2007.
18. Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanı//Xalq qəzeti, 1998-ci il, 27 mart, № 98
19. Baxşəliyev S.Azərbaycanın tarixi coğrafiyası. Bakı: 2018
20. Balayev A.H. Azərbaycan Cümhuriyyətinin doğuşu: 1917-1918-ci illər. Bakı: JekoPrintçe, 2022.
21. Balayev A.Türkçülüyün patriarxı Əhməd bəy Ağaoğlu. TEAS-press evi. Bakı: 2018
22. Boran Əziz. Cümhuriyyətə gedən yol. Bakı: 2016
23. Cabbarov F.H.Z. Tağiyevin qız məktəbinin tarixindən. Bakı: 2001
24. Cəfərli C.Bakı şəhər Duması XIX əsrin sonu-XXəsrin əvvllərində.ADPU-nun nəşr. Bakı: 2024.
25. Cənubi Azərbaycan tarixinin oçerkləri(1828-1917). Bakı: 1985

26. Eminov Z.XIX-XXəsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi. Bakı: 2015.
27. Əbdülov Ə.Ə. XXəsrin əvvəllərində Azərbaycanda orta təhsilin inkişafı. Nami.diss. Bakı: 2007
28. Əhməd. M. Əxbarnamə 1855. Bakı: 2009
29. Əhmədov H. XIXəsr Azərbaycan məktəbi. Bakı: 2001.
30. Əhmədov H.Secilmiş pedaqoji əsərləri. Ic., Bakı: 2001
31. Əhmədova, N.Ə.Çarizmin Şimali Azərbaycanda vergi siyasəti (1801-1860):/ tarix üzrə fəlsəfə doktoru dis./ - Bakı: 2008.
32. Əkinçi 1875-1877(Tam mətni). Avrasiyapess, Bakı: 2005.
33. Əlibəy.S. Cavarhirnameyi-Lənkəran. Baki: Azərb.EA-nın nəşri: 2000
34. Əliyev Q. XIX-XXəsrin əvvəllərində Şimali Azərbaycanda nəqliyyatın inkişafı. Bakı: Elm, 2003
35. Əliyev M. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının tarixşünaslığı. Bakı: 2001
36. Əliyeva G.Ə. XIX-XXəsrin əvvəllərində Şimali Azərbaycanda rusdilli təhsil. /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2014
37. Əmrahov M. Çingizoğlu Ə. Həsənov H. Qarabağ xanlığı. Bakı: Mütərcim, 2008
38. Əmrahov M.XXəsrin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatı.Bakı: 2009
39. Əsədov F. Talış xanlığı. Bakı: Çənlibel, 1998
40. Fəna M.R.1905-ci il hadisəsi. Bakı: Nurlan, 2009
41. Fətullayev Ş. Bakıda şəhərsalma və memarlıq. Bakı: 2015
42. Göyüşov A. Monarxiya devrildikdən sonra türk xalqlarının milli-azadlıq uğrunda mübarizəsi. Bakı: 2002
43. Hacyev E.Ə. Azərbaycan tarixi (siyasi və milli mücadilə 1900-1918-ci illər). Bakı: ADPU,2010.
44. Hacyev E.Ə. Azərbaycan tarixi (siyasi və milli mücadilə 1900-1918-ci illər). Bakı: ADPU, 2024.
45. Həkimov. Aşıq sənətininin poetikası. Bakı: Səda, 2004
46. Həsənli C. Azərbaycan beynəlxalq münasibətlər sidtemində (1918-1920-ci illər). Bakı: 1993
47. Həsənli C. P. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı: ADA, 2013.
48. Həsənov H.İ. XVIIIəsrin son rübü-XIXəsrin əvvəllində Azərbaycan Rusiya-İran münasibətlərində. /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2016
49. Həsənov R. Cənubi Qafqaz dövlətçilik sistemində Azərbaycan siyasi xadimlərinin fəaliyyəti (1918-ci il aprel - may). Türkiyə:Akademik Tarih ve Düşünce Dergisi, 2020.
50. Həsənzadə T. Qacarlar dövrünün titulları. Bakı: Elm və təhsil. 2011.

51. Hüseyn B. Azərbaycan istiilal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992.
52. Hüseynov C. Çarizmin köçürmə siyasəti və Azərbaycan. Bakı: 2009.
53. Hüseynov Y.R. Qarabağnamələr Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Bakı: Elm, 2007.
54. Hüseynzadə.Ə. Seçilmiş əsərləri II cild. Bakı: Çaşıoğlu, 2008.
55. Hüseynzadə. Ə. Seçilmiş əsərləri Icild, Bakı: Şərq-Qərb,2008
56. Xəlilov S.S. Azərbaycanlıların sahibkarlıq fəaliyyəti. Bakı: 2025.
57. İbrahimov A. Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi (1917-1918-ci illər). Bakı: 2010
58. İlisu. Ensiklopedik məlumat kitabı (Tərtibçi S.N.Murtuzayev). İkinci nəşri. Bakı: Vətən, 2012.
59. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı: 2012
60. İsgəndərov A.C.Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920). Bakı: Adiloğlu, 2006.
61. İsmayılov X. Azərbaycanda məhkəmə və yerl özünüidarəetmə orqanları XIXəsr–XXəsin əvvəlləri. Bakı: 2020
62. İsmayılov X.XIX əsrin ikinci yarısı –XX əsrin əvvəllərində Azərbaycanda yerli özünüidarəetmə: təşkilati və hüquqi aspektləri. Bakı: 2009.
63. İsmayılov M. Bağırova M. Şəki xanlığı. Bakı: Azərnəşr, 1997
64. İsmayılov N. Aşıq sənətinin regional xüsusiuyyətləri Bakı: Səda, 2006
65. İsmayılov N. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı: Elm, 2002
66. Kərimov N.Ə. XIX-XXəsrin əvvəllərində Şimali Azərbaycanda çar Rusiyasının neft siyasəti /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2015
67. Kərimov Z.M. Şimali Azərbaycanda ictimai-siyasi hərəkat tarixində mətbuatın rolu (XXəsrin əvvəlləri) /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2014.
68. Kərimova C. Çarizmin Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. Bakı: 1995.
69. Qarabağnamələr. Ic. Bakı: Yazıçı, 1989
70. Qarabağnamələr. IIc. Bakı: Yazıçı, 1991
71. Qasımlı M. ”Erməni məsələsi”ndən “erməni soyqırımı”na:gerçək tarix axtarışında(1724-1920). Bakı: Mütərcim, 2014
72. Qasimov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-cii illər) Bakı: Adiloğlu, 2001
73. Quliyev S.Ş. Qafqaz Arxeoqrafiyasının sənədləri Şımali Azərbaycanın Rusiya tərərəfindən işğalını öyrəmək üçün mənbə kimi. /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2014.
74. Quliyev V.Tarixdə iz qoyan şəxsiyyətlər.Bakı: Ozan,2000.
75. Mehdiyev R.Ə.Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında. Bakı: 2019
76. Mədətli E.Y. İranda Azərbaycan tarixi məsələləri. Bakı: Turxan NPB, 2020.

77. Mədətli E.Y. Tarix və tarixşünaslıq məsələləri. Bakı: Turxan, 2022.
78. Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilk(1800-1920-ci illərdə ədəbi-mədəni mühit). Bakı: Nurlan, 2010
79. Məmmədli S.Borçalı. Bakı: 2004.
80. Məmmədov Ə. Azərbaycanda milli-azdlıq hərəkatı, Bakı: 2009.
81. Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər). Bakı:1996
82. Məmmədova A.Ə. Car-Balakən camaatlığı XVII əsrin sonu – XIX əsrin 30-cu illəri. Bakı: Uni Print, 2009.
83. Məmmədova İ.M Lənkəran xanlığının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri: /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2005.
84. Məmmədova İ.M. Lənkəran xanlığı Birinci Rusiya-İran müharibəsi dövründə Bakı: Elm,2007
85. Məmmədzadə M. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992
86. Molla Məhəmməd əl-Cari. XVIII əsr Car salnaməsi. Bakı:1997
87. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: 1998
88. Musayev İ. Şimali Azərbaycanda ictimai-siyasi vəziyyət (1907-1920-ci illər). Bakı:1992
89. Mustafa.N. Ermənilərin İrəvan quberniyasında və Zəngəzur qəzasında törətdikləri terror və qırğınlar (1905-1906). Elm və təhsil. Bakı: 2022.
90. Mustafayev V. Cənubi Azərbaycan, milli şüur (XX əsrin birinci yarısında). Bakı: 1998
91. Mustafazadə T.T. ”Erməni məsələsi”ndən erməni terrorizminə. Bakı: Turxan, 2016.
92. Mustafazadə T.T. Quba xanlığı. Bakı: Elm, 2005
93. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı: Nurlan, 2004.
94. Nəbiyev R. Birinci Dünya müharibəsi illərində Bakı şəhərinin un və çörək təchizatı. Bakı: ADPU Xəbərlər, 2006№1
95. Nəcəfov B. Düşmənin iç üzü. XIXəsrn sonu - XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. II hissə. Bakı: 2007
96. Nəsibli N. Azərbaycan tarixi: Millət-Dövlət-Siyasət. Bakı: Qanun, 2022
97. Nəsibli N. Güneyli-Quzeyli məsələlərimiz. Bakı:Aypara, 2013.
98. Nəvvab M.M. 1905-1906-cı ilərdə erməni-müsəlman davası. Bakı: Azərbaycan, 1993
99. Nəzirli Ş. .Arxivlərin sirri açılır. Bakı:1999
100. Niftaliyev R.Y. XIXəsrin II yarısında Azərbaycan kəndlilərinin azadlıq hərəkatı /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı:1999.
101. Nuriyeva Z.H. Azərbaycan sənayesində milli burjuaziya. Bakı: 1999
102. Ordubadi M.S.Qanli illər. Bakı:1991
103. Oruclu M. Azərbaycanda və mühacirətdə “Müsavat “partiyasının fəaliyyəti (1911-1992). Bakı: 2011

104. Paşayev A.Ə. XIX-XXəsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımlar və deportasiyalar:arxiv sənəd və materialları əsasında. Bakı: 2011
105. Paşayeva E . Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunmasının başa çatdırılması/tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı:1996
106. Paşayeva E.M. 1801-1830-cu illərdə Rusiya, Türkiyə və İran münasibətlərində Azərbaycan problemi. /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2005
107. Piriyev V. Azərbaycanın tarixi cöğrafiyası. Bakı: Araz, 2002
108. Rəsulzadə M.Ə.Əsərləri Ic.(1903-1909) Baki: 1992, IIc. (1909-1914) IIIc. (1915-1916), Bakı: 2012; Vc. (1917-1918). Bakı: 2013 (Toplayanı və tərtibçisi Ş.Hüseynov)
109. Sadıqova H. XIX-XX əsrin əvvəllərində Baki şəhər əhalisinin etnik və ictimai tərkibi /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2016
110. Seyidova S. XVIII yüzilliyin sonlarında Azərbaycan xanlıqlarının siyasi müstəqilliklərini qorumaq uğrunda mübarizəsi /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2008
111. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində müstəqilliyə gedən yollar. Bakı: 2004
112. Sərdarinya S. Arazın hər iki tayında müsəlmanların soyqırımı. Baki: Elm, 2006.
113. Süleymanov M.A. M.Ə.Rəsulzadə və Azərbaycan mədəniyyəti /tarix üzrə fəlsəfə doktoru dis. avtoreferat/. Bakı: 2020.
114. Süleymanov M.F. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı: Qanun, 2023.
115. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XİX əsrin sonu-XXəsrin əvvəli). Bakı: 2022
116. Şəki xanlığı tarixindən. Bakı: 1958.
117. Şıxİİnski. Ə. Xatirələrim, Baki: Azərnəşr, 1994
118. Şimal-Qərbi Azərbaycan tarixi. Bakı: 2011
119. Şükürov Ş .Gəncəli Cavad xanın hekayəti. Gəncə: 1992
120. Tahirzadə Ə. Ağa Məhəmməd şah Qacar. Bakı: 2002
121. Topçubaşov Ə.M. Seçilmiş əsərləri. Ic, Bakı: 2016
122. Topçubaşov Ə.M.Seçilmiş əsərləri. IIc, Bakı: 2016
123. Topçubaşov Ə.M.Seçilmiş əsərləri. IIIc, Bakı: 2016
124. Topçubaşov. Ə.Azərbaycanın yol göstərəni. Bakı: 2010
125. Umudov V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğal olunması və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı: 2004.
126. Valehoğlu F. (Hacıyev). Tiflis quberniyasında azərbaycanlılra qarşı 1905-ci il kütləvi qırğınları. Bakı: 2013.
127. Vəlidi Ə.Z. Azərbaycanın tarixi coğrafiyası. Bakı: Təhsil, 2009.
128. Vəliyev T.T. XX əsr Azərbaycan tarixi. Bakı: Təhsil, 2009.


129. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanda fəhlələrin vəziyyəti və tətil mübarizəsi. Bakı: 1998
130. Vəliyeva S. İşığa gedən yol. Bakı: 2016.
131. Vəliyeva Ş.Q. Füyuzat ədəbi məktəbi. Bakı: Elm, 1999.
132. Yaqublu N. "Müsavat partiyasının tarixi (PDF).Bakı: Adiloğlu, 2012
133. Yaqublu N. Azərbaycan milli istiqlal mücadiləsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı: 2003.
134. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları 1918-ci il. (Azərbaycan Respublikası Milli Arxiv İdarəsi məs.red.A.Ə.Paşayev). Bakı: Adiloğlu, 2006.
135. Zeynalzadə A.. Azərbaycan mətbuatı və çar senzurası (1850-1905.) Bakı: Elm, 2006
136. Zərdabi. H. Seçilmiş məqalə və məktubları. Bakı: 2016.

Rus dilində

137. Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы . Баку: Элм, 1990.
138. Гасанов Г.Н. Государственная деревня Азербайджана в конце XIX - начале XX вв. (по материалам Шемахинского и Геокчайского уездов):/диссертации на соискание ученой степени кандидата исторических наук /.Баку:1986.
139. Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. /Г.Н.Гасанов. Баку: Тахсил,2007.
140. Гасанов И.М. Частновладельческие крестьяне в Азербайджане в первой половине XIX века. Баку: АН Азерб. ССР, 1957.
141. Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX- начале XX в. Баку: АН Азерб. ССР, 1964.
142. Сумбатзаде А.С. Промышленнность Азербайджана в XIX в. Баку: АН Азерб. ССР, 1964.
143. Шавров Н.Н. Новая угроза Русскому Дълу въ Закавказьъ: Предстоящая Распродажа Мугани Инородцамъ. С.-Петербургъ. Типографія Редакціи періодическихъ изданій Министерства Финансовъ.1911.Баку: Элм, 1990.

ƏLAVƏLƏR


AZƏRBAYCAN XANLIQLARI (XVIII ƏSRİN İKİNCİ YARISI)
QARA DƏNİZ
OSMANLI İMPERİYASI
XƏZƏR DƏNİZİ
Qafqaz dağları
Quba
Şəki
Gəncə
Naxçıvan
Qarabağ
Şərab
Marağa
Ordubad
Urmiya gölü


Azərbaycan xanlıqları (XVIII əsrin II yarısı)
HAKİMLİKLƏRİ
QUBA
ŞƏKİ
GƏNCƏ
İRƏVAN
ŞAMAXI
BAKI
NAXÇIVAN
ŞUŞA
LƏNKƏRAN
ƏHƏR
TƏBRİZ
SƏRAB
ƏRDƏBİL
MARAĞA
URMİYA
XOY
SALYAN
RƏŞT
ZƏNCAN
Sultaniyya
Qazvin
Qarabağ bəyi
Süleymaniyə
Şamaxılı qız
1747-ci ildə Nadir şahın ölümündən sonra onun imperiyası dağılmış və Azərbaycanda 20-dək sıx irsi feodal monarxiyalar-xanlıqlar, həmçinin qonşu hakimlərdən asılı olan bir neçə sultanlıq meydana gəlmişdir.
XVIII əsrin 80-ci illərindən başlayaraq, ölkənin cənub hissəsində yerləşən xanlıqlar Azərbaycan sərkərdəsi Ağa Məhəmməd xan Qacarın yaratdığı yeni dövlətdən asılı hala salınmışdır.
1803-1828-ci illərdə isə Azərbaycanın şimal xanlıqları Rusiya tərəfindən zəbt edilmişdir.


КАРТА
ВОЕННЫХЪ ДѢЙСТВІЙ ВЪ ЗАКАВКАЗСКОМЪ КРАѢ СЪ 1809 ПО 1817 ГОДЪ.
СЪ ГРАНИЦАМИ ПО ГЮЛИСТАНСКОМУ ДОГОВОРУ И БУХАРЕСТСКОМУ МИРУ.
ЧЕРНОЕ МОРЕ
КАСПІЙСКОЕ МОРЕ
ЧЕЧНЯ
ГРУЗІЯ
ТУРЦІЯ
ПЕРСІЯ
ШИРВАНЪ
ХАНСТВО ШЕКИНСКОЕ
ХАНСТВО ШУШИНСКОЕ
ХАНСТВО КУБИНСКОЕ
ХАНСТВО БАКИНСКОЕ
ХАН. БАКИНСКОЕ
ХАНСТВО ТАЛЫШИНСКОЕ
ХАНСТВО ЭРИВАНСКОЕ
ХАНСТВО НАХИЧЕВАНСКОЕ
ХАНСТВО ТАВРИЗСКОЕ
ХАНСТВО ГАРАДАГСКОЕ
ХАНСТВО ГАРАБАГСКОЕ
ХАНСТВО ТАЛЫШИНСКОЕ
ТАВРИЗЪ
Масштабъ.